MÜNDƏRİCAT

İQTİSADİYYAT

DİLSUZ QASIMOV – *AQROBİZNES PROSESLƏRİNİN MAHİYYƏTİ VƏ SAHƏ XÜSUSİYYƏTLƏRİ*.....6
İRADƏ BAĞIROVA – *AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA NƏQLİYYAT SEKTORUNUN ROLU*.....12
CEYHUN MAHMUDOV – *AQRAR İSTEHSAL SUBYEKTLƏRİ MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ*.....20
ƏLİ CABBAROV – **"***NAXÇIVAN-NEHRƏM" TURİZM MARŞRUTU ÜZRƏ TEST TURUNUN SWOT TƏHLİLİ*.....32
SADIQ RƏHİMOV – "*REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI" ÖLKƏDƏ YENİ İQTİSADİ SİYASƏTİN BAŞLANĞICININ ƏSASI KİMİ (2004-2008-Cİ İLLƏR)*.....41
MƏDİNƏ ALLAHVERDİYEVA – *NAXÇIVAN MUXTAR RESPUBLİKASI REGİONLARININ İNKİŞAFINDA SƏNAYENİN ROLU*.....47
HÜSEYN BAĞIRSOYLU – *NAXÇIVAN MR-DƏ SƏRBƏST TİCARƏT ZONALARININ YARADILMASI SAHƏSİNDƏ QANUNVERİCİLİK BAZASININ HAZIRLANMASI*.....51
ELNURƏ XUDAVERDİYEVA – *KİÇİK VƏ ORTA SAHİBKARLIĞA DÖVLƏT DƏSTƏYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ*.....55

FİLOLOGİYA

AKİF İMANLI – "*ARPA" VƏ "ARPAÇAY" ADLARI HAQQINDA*.....64
SƏDAQƏT HƏSƏNOVA – *SƏMƏD VURĞUN VƏ ƏDƏBİ DİLİMİZ*.....70
QƏNİRƏ ƏSGƏROVA – *NAXÇIVANLI DİLÇİLƏRİN ONOMASTİKA SAHƏSİNDƏKİ FƏALİYYƏTLƏRİ*.....79
NURLANA ƏLİYEVA – *ABBAS ZAMANOV SABİR ƏDƏBİ İRSİNİN TƏDQİQATÇISI KİMİ*.....87
RAMİZ QASIMOV – *BÖYÜK DEMOKRAT CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA DİNƏ MÜNASİBƏT MƏSƏLƏSİ*.....91
ANAR ABUZƏRLİ – *1920-1940-CI İLLƏR NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ TƏNQİDİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ*.....99
ÇİNARƏ RZAYEVA – *NAXÇIVANDA TOPLANAN NAĞILLARDA ALINMA SÖZLƏR*.....109
AYTƏN ƏHMƏDOVA – *AZƏRBAYCAN DİLİNDƏ QRAMMATİK ŞƏKİLÇİLİ QOŞMALAR*.....117
SEVİNC BAYRAMOVA – *İBN HACİBİN ƏRƏB DİLÇİLİYİ SAHƏSİNDƏ YAZDIĞI ƏSƏRLƏRİ VƏ "ŞAFİYƏ" SİNİN SƏRF ELMİNDƏKİ YERİ*....125
ELMİRA HUSEYNOVA – *LİNQVO-FƏLSƏFİ PRAQMATİKA NƏDİR?*.132

ÜLKƏR ƏLİYEVA – *NOVRUZ BAYRAMININ QƏDİM MİDİYA VƏ ŞUMERƏ UZANAN KÖKLƏRİ*.....138
RUHƏNGİZ MƏMMƏD – *MƏMMƏD SƏİD ORDUBADİNİN MƏTBUAT HAQQINDA DÜŞÜNCƏLƏRİ*.....146
ZÖHRƏ QAFAROVA – *TƏSƏVVÜFÜN TARİXİ, BƏDİİ-ESTETİK KONSEPSİYA KİMİ FORMALAŞMASI*.....156

TARİX

İSMAYIL HACIYEV – *AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ NAXÇIVAN*.....163
VƏLİ BAXŞƏLİYEV – *NAXÇIVANIN QƏDİM KÖÇ YOLLARININ TƏDQİQİ*.....177
FƏXRƏDDİN SƏFƏRLİ – *NAXÇIVAN XANLIĞI DÖVRÜNƏ AİD EPİQRAFİK ABİDƏLƏR*.....185
İBRAHİM KAZIMBƏYLİ – *İRƏVAN BÖLGƏSİNDƏ ERMƏNİ-MÜSƏLMAN ZİDDİYYƏTLƏRİNİN İLKİN MƏRHƏLƏSİ (XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİ)*.....195
HACI QADİR QƏDİRZADƏ – *“KİTABİ DƏDƏ QORQUD”DA BAMSI BEYRƏKLƏ BAĞLI BOY: NAXÇIVAN PARALELLƏRİ VƏ ORTAQ CƏHƏTLƏR*.....204
FİZZƏ QULİYEVA – *NAXÇIVANIN QƏDİM SƏNƏT NÜMUNƏLƏRİNDƏ ASTRAL SİMVOLLAR*.....214

COĞRAFİYA

XASMƏMMƏD ƏSƏDOV, NAZİM BABƏYLİ, ƏNNAĞI ƏSGƏROV – *NAXÇIVAN MUXTAR RESPUBLİKASI ÇAYLARINDA SEL HADİSƏSİ*.....221
ŞƏFƏQ ƏLİYEVA – *XX YÜZİLLİKDƏ NAXÇIVANDA ƏHALİNİN MƏSKUNLAŞMASI MƏSƏLƏLƏRİ*.....232
GÜNEL ABDURAXMANOVA – *BÖYÜK QAFQAZIN ŞİMAL-ŞƏRQ YAMACI ÇAYLARININ ƏSAS XÜSUSİYYƏTLƏRİ*.....237

PEDAQOGİKA VƏ PSİXOLOGİYA

İSMAYIL ƏLİYEV – *ATALAR SÖZLƏRİNƏ PEDAQOQ BAXIŞI*.....247
VAHİD RZAYEV – *“MƏKTƏBİ TƏRBİYƏ” VƏ ONUN VARİSİ NAXÇIVAN RUS-AZƏRBAYCAN MƏKTƏBİ*.....261
SƏBUHİ İBRAHİMOV – *NAXÇIVANA DAİR ƏLYAZMA KİTABLARIN XÜSUSİYYƏTLƏRİ*.....247
KÖNÜL MOLLAYEVA – *AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRDƏ TƏDQIQATÇILIQ BACARIQLARININ FORMALAŞDIRILMASI*.....282
ELNUR NƏZƏRƏLİYEV – *QLOBALLAŞAN İNFORMASİYA MÜHİTİNDƏ DİSTANT TƏHSİL VƏ TƏDRİS PROSESİ*.....288

NÜBAR SƏFƏRLİ – *MÜXTƏLİF AİLƏ TİPLƏRİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ.....294*
AYGÜN RÜSTƏMOVA – *KİÇİK MƏKTƏBYAŞLI ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ ADAPTASİYASININ MAHİYYƏTİ.....302*

RİYAZİYYAT

ƏBÜLFƏZ MƏMMƏDOV – 4*n* *TƏRTİBLİ KƏSİLƏN ƏMSALLI BİR SADƏ OPERATOR-DİFERENSİAL TƏNLİYİN BÜTÜN OXDA REQULYAR HƏLL OLUNMASI HAQDA.....307*

YENİ NƏŞRLƏR

AKİF İMANLI, VAHİD RZAYEV – *YENİ PEDAQOGİKA DƏRSLİYİ....314*

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

İQTİSADİYYAT

DİLSUZ QASIMOV
“Naxçıvan” Universiteti
dilsuzqasimov@gmail.com

AQROBİZNES PROSESLƏRİNİN MAHİYYƏTİ VƏ SAHƏ XÜSUSİYYƏTLƏRİ

Aqrar sahənin rəqabətqabiliyyəti, həlledici dərəcədə aqrobiznesin inkişafı səviyyəsin-dən asılıdır. Təqdim olunan məqalədə biznesin təşəkkülü və inkişafının aktual nəzəripraktiki məsələləri, aqrar sahədə onun bəzi xüsusiyyətləri öz əksini tapmışdır.

Açar sözlər: biznes, mahiyyət, aqrar sahə, təşəkkül və inkişaf, xüsusiyyətlər

Aqrar sahədə biznesin özünəməxsusluğu onun islahatlara, inflyasiyaya və iqtisadi proseslərdəki müxtəlif xarakterli tərəddüdlərə yüksək həssaslığı, risklərin yüksəkliyidir. Aqrobiznes, aqrar-sənaye sistemi elementlərinin bazar özünütənzimləməsi prinsiplərinə yönəlik fəaliyyətinin koordinasiyasının özünəməxsus forması olub, kənd təsərrüfatı məhsulları istehsalı, saxlanması, emalı və reallaşdırılması prosesləri ilə əlaqədardır.

Aqrobiznesin nəzəri əsaslarının təşəkkülü prosesi üçün, xüsusilə postsovet məkanında ziddiyyətlilik və tədricilik xarakterikdir. Rusiya Kənd Təsərrüfatı Elmlər akademiyasının akademiki Y. S. Stroyevin fikrincə “aqrobiznes geniş və kompleks anlayış olub, təkcə əkmək, biçmək və hətta sərfəli şərtlərlə satmaq bacarığı deyil, eyni zamanda perspektivi görmək, bazarların vəziyyətini bilmək, onların tərəddüdlərinə operativ reaksiya vermək, qabaqcıl texnologiyalar əsasında və müasir texnikadan istifadə etməklə istehsalı təşkil etmək, emalçılarla və ticarətçilərlə əlverişli əlaqələr yaratmaq qabiliyyətidir” (1).

Aqrobiznes anlayışı ötən əsrin ortalarında elmi dövriyyəyə daxil olmuşdur. Həmin anlayışın ilk ciddi şərhinə C. Devis və R.Qoldberqin əsərlərində rast gəlinir. Klassik mənada kənd təsərrüfatından aqrobiznesə doğru dəyişmələrin müstəqil tədqiqat istiqamətinə çevrilməsində C.Devisin “Kənd təsərrüfatından aqrobiznesə doğru” məqaləsinin (2, s. 107-115) əhəmiyyəti xüsusi qeyd edilməlidir. C.Devisə görə aqrobiznes fermer təsərrüfatlarının təminatı üçün zəruri olan məhsulların istehsalı və bölgüsü əməliyyatlarının məcmusu, həmçinin kənd təsərrüfatı məhsullarının daşınması, saxlanması, emalı və bölgüsünü həyata keçirən sahələrin məcmusudur. “Aqrobiznesə iqtisadi və idarəetmə aspektlərində yanaşmalar mövcuddur və bunların hər biri məhsuldar hesab edilir. Aqrobiznes iqtisadiyyatı iştirakçılar arasında şaquli və

üfüqi əlaqələrin koordinasiyasını, aqrobiznes menecment isə aqrar sahənin alternativ strukturları çərçivəsində qərar qəbulu proseslərinin tədqiqi məsələlərini önə çəkir" (3, s. 3).

Aqrobiznesin sektorları və onların xarakteristikalarına dair fərqli mövqelər vardır. Aqrobiznesin aşağıdakı sektorları sistem əmələ gətirmə qabiliyyətinə malikdir: təklif və tələb, marketinq və xarici mühit sektorları. Müasir dövrdə şaquli inteqrasiyanın təcəssümü olan aqrobiznesin tələbatın formalaşdırılması və satışın həvəsləndirilməsində rolu artır. Odur ki, kənd təsərrüfatı istehsalı və emalı məhsullarına tələbatın formalaşdırılması və satışın həvəsləndirilməsi sektoru "müəssisənin (firmanın, şirkətin və s.) hansı növ məhsul (məmulat, xidmət) istehsal etməsindən və öz tərəfmüqabillərinə (alıcılara, müştərilərə, istehlakçılara) təklif etməsindən asılı olmayaraq, bütöv marketinqin təşkilati strukturunun mühüm və ayrılmaz tərkib elementidir" (4, s. 339).

Aqrobiznesin iqtisadi və idarəetmə aspeklərində təkmilləşdirilməsi tədbirlərinin əsaslandırılması, əsasən iki istiqamətdə aparılır: məhsul və xidmətlərin artırılması, onlara çəkilən məsrəflərin aşağı salınması. Əlbəttə, bu istiqamətləri yalnız şərti olaraq ayırmaq və hər hansı birinə tədqiqatın məqsədi baxımından üstünlük vermək olar. İqtisadi təhlilin mövcud sistemi, vasitə və alətləri məsrəflərin minimumlaşdırılması aspektlərində daha geniş tətbiq arealına malikdir.

Aqrobiznes koordinasiyanın müxtəlif formalarını reallaşdırmaqla sahələrarası əlaqələrdə məsrəflərin azaldılmasını təmin edir. İnstitusional iqtisadiyyatın əsaslarında göstərildiyi kimi, məhsulun mübadiləsi məsrəfsiz başa gəlmir. Başqa sözlə, inteqrasiya effekti, ilk növbədə institusional iqtisadiyyatda tranzaksiya məsrəfləri adlanan həmin məsrəflərin aşağı salınması ilə şərtlənir. Transaksiya xərcləri - mübadilə prosesində mülkiyyət hüququnun bir tərəfdən digərinə verilməsi ilə bağlı olan xərclərdir. Şaquli inteqrasiya tranzaksiyaların idarə edilməsi üçün əlverişli mühit formalaşdırmaqla, müqavilə münasibətlərinin təkmilləşdirilməsi məsələlərini gündəliyə çıxarır. Aqrobiznesin inkişafının tranzaksiya məsrəflərinin təhlilinə həsr olunmuş tədqiqatlarda (5,s.509-523) şaquli inteqrasiya əlaqələrinin kütləvi surətdə pozulmasının nəticələri xarakterizə edilmişdir. Odur ki, bir çox mənbələrdə haqlı olaraq aqrobiznesin inkişafının iqtisadi qloballaşma və postsənaye dövrü prosesləri ilə, yaşıl və informasiya iqtisadiyyatı ilə sıx əlaqədar olduğu göstərilir.

Qeyd olunan əlaqələr postsənaye dövrünün mühüm çağırışına dayanıqlı inkişaf tələblərinə adekvat olmalıdır. Ayrıca götürülmüş aqrobiznes subyektinin iqtisadi fəallığının ekoloji tələblərə məhdudlaşdırılması prosesi, gələcək nəsillərə zərər verməyən inkişafın obyektiv zərurət olduğunun hərtərəfli əsaslandırılması və iqtisadi-inzibati tənzimləmə sisteminin formalaşdırılması ilə müşayiət olunmalıdır. Artım iqtisadiyyatına alternativ kimi formalaşan yaşıl iqtisadiyyatın meyarları kreativ aqrobiznes proseslərini fəallaşdırılmalı, bu prosesdə informasiya cəmiyyətinin artan potensialı istifadə edilməlidir.

Struktur baxımından aqrobiznes aqrar-sənaye kompleksinə yaxın olsa da, təsərrüfatçılıq subyektlərinin sahibkarlıq fəaliyyətinə əsaslandığından fərqli meyarlar üzrə formalaşır. Cəmiyyətin simasında dövlət aqrobiznesin inkişafı

prioritetləri qismində, ilk növbədə iqtisadi artımın sürətləndirilməsi və sosial rifahın yüksəlməsini önə çəkir. Təbii ki, ölkənin iqtisadi təhlükəsizliyinin təminatı da həmin prioritetlər sırasında öncül yer tutur.

Postsovet məkanı ölkələrində aqrobiznesin iqtisadi münasibətlər sistemindəki mövqeyi ilkin təşəkkül mərhələsindədir. Bu və digər səbəblərdən postsovet məkanında hələ ki, aqrar sahədə biznes proseslərinin rolu lazımınca qiymətləndirilmir. Halbuki, qabaqcıl xarici təcrübədən göründüyü kimi nəinki, iqtisadi inkişafın və həyat səviyyəsinin yüksəlməsində aparıcı rola malik kiçik, orta və iri sahibkarlığın öz potensialını reallaşdırılmasında, həmçinin ərzaq təhlükəsizliyinin təminatında aqrobiznesin imkanları genişdir. Aparılmış tədqiqatlar aqrobiznesdə mülkiyyət formalarının müxtəlifliyinin bir sıra iqtisadi sosial və institusional xarakterli çətinliklərə baxmayaraq bazar iqtisadiyyatı tələblərinə uyğun fəaliyyətinin həmin imkanları reallaşdırmaq və rəqabət qabiliyyətli məhsul istehsal etmək iqtidarında olduğunu söyləməyə əsas verir. Azərbaycanda iqtisadi islahatlar kənd təsərrüfatında fəal bazar transfermasiyaları ilə müşayiət olunur. Kənd təsərrüfatı və onunla əlaqədar sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan bütün təsərrüfat subyektlərinin və aqrobiznesin inkişafının ön plana çəkilməsi sosial-iqtisadi münasibətlərin xarakterini dəyişir. Aqrobiznes, intensiv və innovasiyalı inkişaf şəraitində kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması, daşınması və son istehlakçıya qədər çatdırılması sisteminin inkişafını müəyyən edən mühüm amil rolunda çıxış edir.

Aqrobiznesin inkişafının tempi və miqyası ölkənin ərzaq təhlükəsizliyi və vətəndaşların sosial rifahının təmin olunmasına ciddi təsir göstərir. Bu inkişaf mühiti milli aqrar istehsalçıların dünya aqrar-ərzaq bazarında mövqeyinin gücləndirilməsi, ümumi iqtisadiyyatın və mülkiyyətin müxtəlif formalarının inkişafı, aqrar siyasətin təkmilləşdirilməsi kimi proseslər üçün poliqon rolunu oynayır. Açıq iqtisadiyyatın reallıqlarına və dövlətin fəal dəstəyinə əsaslanaraq aqrobiznes, kiçik, orta və iri müəssisələrin yüksək rentabelli məhsul istehsalında öz potensiallarını gerçəkləşdirməyə imkan verir.

Aqrar fəaliyyət növlərinin qarşılıqlı əlaqəli məcmusu kimi aqrobiznes özündə aqrar-sənaye kompleksinin komponentlərini, başqa sözlə, üç əsas sahəni birləşdirir. Birinci sahəyə istehsalı vəsaitlərlə təmin edən və eləcə də kənd təsərrüfatına istehsal-texniki xidmət göstərən sahələr aiddir. Son beş ilin məlumatlarına görə istehsal olunmuş məhsulun ümumi həcminin 14%-i, istehsal fondunun 13%-i və işçilərin 22%-i birinci sahənin payına düşür. İkinci sahəyə bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisə və təşkilatlar daxildir. İkinci sahə son məhsulun 48%-ni istehsal edir. Üçüncü sahəyə tədarüklə, kənd təsərrüfatı məhsulunun emalı ilə və istehsal olunan məhsulun istehlakçıya çatdırılması ilə məşğul olan müəssisələr qoşulur. Üçüncü sahə müəssisələrinin payına məhsul istehsalının ümumi həcminin 38%-i, bütün istehsal fondunun 19%-i və işçilərin isə 18%-i düşür.

Aqrobiznesin uğurlu inkişafını təmin etmək üçün son məhsulun alınmasında bütün tərəfdaşların maddi maraqlarını uzlaşdırmaq, onların üzvi vəhdətini əldə etmək başlıca şərtdir. Sənaye müəssisələri tərəfindən ikinci sahəyə yönəldilən material resursları, texnika, avadanlıq və başqa istehsal vasitələrinin

qiymətləri və kənd təsərrüfatı məhsulları arasında müşahidə olunan disparitetlik aqrar-sənaye münasibətlərinin tənzimlənməsi baxımından yüksək aktuallıq təşkil edir. Mübadilənin ekvivalentliyinə riayət olunması sahələrarası iqtisadi münasibətlərin dayanıqlığının təmin edilməsi baxımından əsas problem olaraq qalır. İstehsal və istehlak, tələb və təklif arasındakı əlaqə qiymət vasitəsilə həyata keçirilir ki, burada da tələb və təklifin balanslaşdırılması funksiyasının təzahürləri meydana çıxır. Bu prosesdə qiymət, istehsal və məhsulun istehlakçıya doğru hərəkətində disproporsiyaların əmələ gəlməsinin əsas indikatoru kimi çıxış edir. Həmin disproporsiyaların aradan qaldırılması üçün sistemli tədbirlər görülməlidir.

İstehsala yalnız səmərəlilik meyarları ilə yanaşsaq, istənilən istehsal səmərəli olmalıdır, əks halda belə müəssisənin fəaliyyəti iqtisadiyyat üçün əhəmiyyətsizdir..

Aqrobiznes subyektini investisiya qoyuluşu zamanı son nəticə olaraq hansı səmərənin alınacağı maraqlandırır. Məhz qoyulmuş kapitaldan alınan gəlir sahibkarı investisiya yatırmağa həvəsləndirir. Araşdırmalar göstərir ki, aqrar istehsal müəssisələri investisiya fəallığından irəli gələn müsbət dinamikalı fəaliyyət nümayiş etdirirlər. Belə ki, son illərdə Azərbaycanda bu sahədə əsas kapitala qoyulan investisiyaların yüksək artım tempi aqrobiznesin inkişafı üçün əhəmiyyətli imkanlar açır.

Kənd təsərrüfatı məhsulları istehsalı və satışının birgə təşkili bazar barədə informasiyanın natamamlığı problemi ilə qarşılaşır. Sahədə istehsal-kommersiya fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinin bir çox nəzəri və təcrübi məsələləri aktual olaraq qalır. O cümlədən, baş verən hadisələrin düzgün anlaşılması və kənd yerlərinin gələcək inkişafını təmin etmək məqsədi ilə bütün fəaliyyət növlərinin dəstəklənməsində, iqtisadi və sosial yardım strategiyalarının hazırlanmasında mükəmməl informasiya bazası artan rola malikdir.

Aqrobiznesin aktual problemləri sırasında hazırda maliyyələşmə, satış, vasitəçilik məsələləri xüsusi qeyd olunmalıdır. İstehsalçıların maliyyə durumu, onların etibarlı aqrobiznes tərafdaşı kimi çıxış etməsində maliyyə resursları ilə təminat məsələsi daim gündəlikdədir.Kənd təsərrüfatı məhsullarının istehsalçıdan son istehlakçıya çatdırılması prosesinin optimallaşdırılmasında istehsalçıların kredit resurslarına olan tələbatının ödənilməsinə kompleks yanaşma təcrübəsi özünü doğruldur. Bu halda aqrobiznesin canlanmasına xidmət edən aşağıdakı meyillər müşahidə olunur: məhsulun satışı müqavilələrinin həyata keçirilməsi prosesində maliyyə intizamı möhkəmlənir; kənd təsərrüfatı istehsalçılarının texniki və digər təyinatlı resurslarla təminatı yaxşılaşır; innovativ intensivləşmə imkanları genişlənir; daxili bazarda yerli istehsalçıların mövqeyi möhkəmlənir; ixracyönümlü fəaliyyətə maraq artır.

Ölkənin milli iqtisadi təhlükəsizliyinin ən mühüm tərkib hissəsini ərzaq təhlükəsizliyi təşkil edir. Ərzaq təhlükəsizliyi əhalinin ərzaq təminatının sosial-iqtisadi tərəflərini özündə əks etdirir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bütövlükdə bəşəriyyətin inkişafı üçün həlledici əhəmiyyət kəsb edən, enerji təminatı, ekoloji təhlükəsizlik, savadsızlığın və yoxsulluğun aradan qaldırıl-

ması kimi problemlərlə bir sırada dayanır. Milli ərzaq təhlükəsizliyi isə ölkədə bütün vətəndaşların fəal və sağlam yaşamasına imkan verə biləcək səviyyədə ərzaq təminatının mövcud olması ilə səciyyələnir. Məhsuldar qüvvələrin inkişafı, elmi-texniki nailiyyətlərin geniş tətbiqi XX əsrin ikinci yarısından başlayaraq dünyada ərzaq istehsalının həcminin sürətlə artırılmasına geniş imkanlar açmışdır. İnkişaf etmiş dövlətlər öz əhalisinin ərzaq məhsulları ilə təminatı problemini həll etmiş və eyni zamanda ərzaq ixracını artıra bilmişlər. Həmin nəticələrdə aqrobiznesin səmərəliliyinin yüksəldilməsi amili həlledici rol oynamışdır.

Dünya əhalisinin böyük bir qisminin tam qidalana bilməməsi, bu və ya digər dərəcədə aclıq çəkməsi, mühüm meqa və makro amillərin təsirinin, demoqrafik, iqtisadi, siyasi və ekoloji meyillərin əlverişsiz kombinasiyasının yekunudur. İnkişaf etmiş ölkələrdə sənaye əsaslı kənd təsərrüfatı aqrobiznesə transformasiya etmiş, üçüncü dünya ölkələrində isə ənənəvi təsərrüfatçılıq staqnasiya halında qalmışdır. .

Əhalinin ərzaq təminatı milli səviyyədə də daim prioritetliyə malik olan problemdir. Ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizlik sisteminin bir hissəsi kimi çıxış edir və cəmiyyətin sabit həyat fəaliyyəti üçün şərait yaradır. Odur ki, bu və ya digər ölkənin aqroiqlim və intellektual potensialının səfərbər edilməsi aqrobiznes üçün yaradılan fəallıq mühitinə yeni baxış tələb edir.

Ərzaq təhlükəsizliyinin strategiya və taktikasında aqrobiznesin yeri və roluna inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində və postsovet ölkələrində fərqli münasibət vardır. Məsələ ondadır ki, fəaliyyətin bazar prinsiplərinə uyğunlaşma məsələləri, məhz postsovet və qismən postsosialist ölkələri üçün daha aktualdır. ABŞ, Avropa İttifaqının üzvü olan ölkələr və Yaponiya müvafiq dövlət proqramları əsasında ölkənin özünün ərzaqla təmin etməsinin müəyyən səviyyəsini nəzərdə tutan milli ərzaq təhlükəsizliyi konsepsiyasını hazırlayarkən aqrobiznesin məqbul inkişaf imkanlarına əsaslamışlar .

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi aqrobiznes mühitinə yeni tələblər qoyur. Aqrar sahədə fəallığın mühüm vasitəsi kimi aqrobiznes ərzaq təhlükəsizliyini və ölkədə sosial sabitliyi qoruyub saxlamağın şərtlərindən biridir. Ərzaq təhlükəsizliyi strategiyanın hazırlanmasında aqrobiznesin koordinasiyaedici rolu, həmin strategiyanın əsaslandırılması baxımından o cümlədən ərzaq təhlükəsizliyinin meyarları və aqrar sahədə istehsal- kommersiya fəaliyyətinin göstəricilərinin təhlili sayəsində qiymətləndirilə bilər.

Ölkədə ərzaq təhlükəsizliyinin səviyyəsinin qiymətləndirilməsi bir sıra kəmiyyət və keyfiyyət göstəricilərindən (indikatorlardan) istifadə etməklə ərzaq təhlükəsizliyinin məqsəd, vəzifə, strategiya və taktikasını müəyyənləşdirməyi nəzərdə tutan mürəkkəb prosesdir. Həmin prosesdə aqrobiznes mühitinin yaxşılaşdırılması prioritet olmaqla, müvafiq iqtisadi və institusional islahatlar dərinləşdirilməlidir. Dövlət və qeyri-dövlət orqanları həmin göstəricilərdən ərzaq təhlükəsizliyinin daxili və xarici amillərinin monitorinqi, təhlil edilməsi və proqnozlaşdırılması üçün istifadə edə bilərlər. Eyni zamanda ərzaq təhlükəsizliyini qiymətləndirmək üçün ekspert qiymətləndirməsi, ssenarilərin təhlil edilməsi, optimallaşdırması və digər təhlil metodları tətbiq edilə bilər. Göründüyü

kimi, ərzaq təhlükəsizliyinin təminatı aqrar sahədə biznes fəallığını yüksəltməyi, müvafiq proseslərin səmərəliliyinin artırmağı nəzərdə tutmalıdır.

ƏDƏBİYYAT

1. Строев Е.С. Аробизнес –это искуство. Орловская правда. 2003, №1.
2. Devis J.H. From agriculture to agribusiness// Harvard Business Review.1956, 34(1), P. 107-115
3. Дешковская Н.С. Эволюция теории агробизнеса. Вестник Томского Государственного Университета. 2006, № 292-II, с.303-318
4. Axundov Ş. Marketinqin əsasları. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2001, 572 s.
5. Hobbs J. Transaction costs and slaughter cattle procurement: processor selection of supply chains// Agribusiness, 1996, 12(6), p.509-523

РЕЗЮМЕ

ДИЛСУЗ ГАСЫМОВ

СУЩНОСТЬ И ОТРАСЛЕВЫЕ ОСОБЕННОСТИ АГРОБИЗНЕСА

Конкурентоспособность аграрного сектора, в решающей степени зависит от уровня развития агробизнеса. Данная статья, посвящена актуальным теоретико-практическим вопросам формирования и развития бизнеса и выявлены некоторые особенности в аграрном секторе.

Ключевые слова: бизнес, сущность, аграрный сектор, формирования и развития, особенности

SUMMARY

DILSUZ GASIMOV

ESSENCE OF THE AGRIBUSINESS PROCESSES AND SECTORAL SPECIFICATIONS

The competitiveness of agrarian sector considerably depends on the development level of agrobusiness. The article has been devoted to the theoretical and practical problems of formation and development of business and its spesifications in agrarian sector have been investigated.

Key words: business, essence, agrarian sector, formation development, specifications

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

İRADƏ BAĞIROVA
“Naxçıvan” Universiteti
iradebagirova@yahoo.com

AZƏRBAYCAN- TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA NƏQLİYYAT SEKTORUNUN ROLU

Məqalədə Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin müasir vəziyyəti, nəqliyyat sektorunun bu əlaqələrdə rolu, iqtisadi təhlükəsizliyin təmin olunması üçün rellaşdırılan xarici ticarət siyasətinin əsas istiqamətləri və nəzarət strukturları tədqiq edilmişdir. Burada həmçinin, ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə regional əməkdaşlığın və xarici iqtisadi əlaqələrin inkişafı məsələlərinə də toxunulmuşdur.

Açar sözlər: nəqliyyat sektoru, xarici ticarət siyasəti, iqtisadi təhlükəsizlik, iqtisadi siyasət, idxal-ixrac əməliyyatları, investisiya, gömrük siyasəti, dövlət nəzarəti.

XX əsrdə dünya iqtisadiyyatında baş vermiş inqilabi dəyişikliklərin ana xəttini dinamik inkişaf təşkil etmişdir. Aparılan hesablamalara görə ötən əsrdə dünya üzrə ümumi daxili məhsul 19 dəfə, əhalinin sayı isə 4 dəfə artmışdır. Avrasiya ölkələri arasında mərkəzi mövqe tutan Azərbaycanın əlverişli nəqliyyat sisteminə malik olması dünya ölkələrinin marağına uyğun olan səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə əlverişli zəmin yaradır. Tarixi “İpək yolunun” bərpası TASİS və TRASEKA proqramlarının həyata keçirilməsi üçün respublikanın nəqliyyat sistemi mühüm əhəmiyyətə malikdir.

Hələ 1998-ci ilin sentyabr ayında Bakı şəhərində tarixi “İpək yolu”na həsr olunmuş beynəlxalq əhəmiyyətli konfransda Ümummilli liderimiz Heydər Əliyev demişdir: “Əminəm ki, tarixi böyük “İpək yolu”nun bərpası regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın, inkişafın, Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəm- ləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcəkdir”.

Bazar iqtisadiyyatı şəraitində bir sıra sosial-iqtisadi amillərlə yanaşı, iqtisadi amillərin təkmilləşdirilməsi mühüm məsələ kimi qarşıya qoyulmuşdur.

XXI əsrdə dünya ölkələri arasında gedən inteqrasiya prosesləri şəraitində iqtisadi əlaqələr daha da aktivləşmiş və ölkələrin iqtisadi həyatında mühüm əhəmiyyətə malik olmuşdur. Azərbaycan Respublikasının müstəqilliyi dünyanın bir sıra ölkələri ilə qarşılıqlı şəkildə idxal və ixrac əməliyyatlarında iştirakına zəmin yaratmışdır. Eyni zamanda iqtisadi əlaqələrin xarakteri, formalaşma şərtləri və xüsusiyyətləri müstəqilliyin dolğunluğunu şərtləndirən başlıca amildir.

Hər bir dövlət iqtisadi əlaqələr vasitəsilə dünya təsərrüfat sisteminə fəal surətdə qoşularaq bir tərəfdən özlərinin müvafiq təbii ehtiyatları olmadığı halda

cəmiyyətin bu və ya digər məhsullara olan tələbatını tam ödəmək, iqtisadiyyatın səmərəli quruluşunu təşkil etmək, digər tərəfdən isə iqtisadiyyatda qazandıqları əlverişli üstünlükləri dünya təsərrüfatı sistemində reallaşdırmaq üçün imkan yaradılmışdır. Müstəqillik əldə etmiş respublikalarda, o cümlədən Azərbaycanda istər daxili iqtisadi əlaqələrin, istərsə də xarici iqtisadi əlaqələrin inkişafına real zəmin yaradılmışdır.

Müasir bazar iqtisadiyyatı şəraitində ölkələrin hansı bir sahədə üstünlüklərinə baxmayaraq hər bir ölkə ərazisində mövcud olan təbii əmək ehtiyatlarından səmərəli və müştərək şəkildə istifadə etməklə, qarşılıqlı anlaşma şəraitində iqtisadi inkişafa təkan verməklə bərabər, iqtisadi əlaqələrin daha geniş formada inkişafına səbəb olur. "Açıq qapı" siyasətinin daha da dərinləşməsi ölkələrin yerləşdiyi məkandan asılı olmayaraq dünya bazarına sərbəst şəkildə çıxmaq və istehsal etdikləri məhsulları reallaşdırmaq üçün əlverişli zəmin yaradır. Eyni zamanda dünya ölkələri arasında iqtisadi əlaqələrin inkişafına təsir göstərə bilən "İpək yolu"nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin müasir dünya ölkələrinin tələbləri səviyyəsində fəaliyyət göstərməsi, TASİS və TRASEKA proqramları çərçivəsində dünya ölkələrinin nəqliyyat sistemlərinin beynəlxalq normalara uyğunlaşdırılması, TRANSXƏZƏR, Bakı-Tbilisi-Ceyhan və s. ölkələrarası yük və sərnişin daşıma əməliyyatlarını intensiv ləşdirməklə, iqtisadi əlaqələrin geniş miqyasda inkişafına şərait yaradan amillərdən biri kimi qiymətləndirilir.

Dünya ölkələri iqtisadi əlaqələr vasitəsilə cəmiyyətin bu və ya digər istehlak məhsullarına olan tələbatını ödəməklə, ölkələrarası qarşılıqlı iqtisadi münasibətlərin formalaşmasına şərait yaratmış olurlar. Bazar iqtisadiyyatı şəraitində təbii resurslardan müştərək və səmərəli istifadə etmək məqsədilə dünyanın bir sıra ölkələri tərəfindən kapital axınının gücləndirilməsi istehsalın inkişafına təsir etməklə bərabər, mənafelər baxımından ölkələrin qarşılıqlı iqtisadi əlaqələrinin formalaşmasına və gəlirlərin artmasına zəmin yaradır.

Azərbaycan Respublikasının iqtisadi əlaqələri bazar iqtisadiyyatına keçdikdən sonra, xüsusilə son illərdə daha da genişlənmiş və hazırda dünyanın 150-dən çox ölkəsi ilə idxal-ixrac əməliyyatları aparılması ilə nəticələnmişdir. İqtisadi əlaqələrə təsir göstərən başlıca amillərdən biri də dünya bazarının tələblərinə uyğun olan ixtisaslaşdırılmış sənaye və kənd təsərrüfatı məhsullarının istehsal edilməsidir. [1, s.116].

İxtisaslaşmış sənaye və kənd təsərrüfatı məhsulları iqtisadi əlaqələri intensivləşdirməklə yanaşı, hər hansı ölkənin dünya bazarında yerini müəyyən edən amil hesab edilir. Məhz bu baxımdan Azərbaycanın əlverişli təbii-iqtisadi coğrafi məkanda yerləşməsi, dünya ölkələrinin marağına uyğun olan yanacaq resurslarının və digər təbii resursların olması ixtisaslaşmış istehsal sahələrinin yaradılmasına və bu əsasda dünya bazarında yerini müəyyənləşdirməsinə imkan verir. Digər tərəfdən Azərbaycan dünya ölkələri ilə iqtisadi əlaqələrin inkişafına təsir göstərən, həmçinin dünya ölkələrinin maraqlı olduğu əlverişli nəqliyyat kommunikasiyasına malik olmasıdır.

Qeyd edək ki, nəqliyyat özlüyündə heç bir maddi məhsul istehsal etmir, lakin istehsal prosesinin davamı olmaqla bərabər məhsulun istehlakçıya

çatdırılmasında aktiv iştirak edir. Onun vasitəsilə təbii sərvətlər istehsal dövriyyəsinə cəlb edilir, məhsul istehsalına əlverişli şərait yaradılır. Bu baxımdan istər xarici iqtisadi əlaqələrdə aktiv iştirak edən, istərsə də daxili tələbata cavab verə bilən nəqliyyatın bütün sahələri respublika ərazisində inkişaf etmişdir. Həmin nəqliyyat sahələri respublikanın daxili və xarici iqtisadi əlaqələrinin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan yeni inkişaf konsepsiyasında Azərbaycanın regionun ticarət mərkəzinə çevrilməsi məqsədilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişaf etdirilməsi nəzərdə tutulur [4, s.15]. Araşdırmalar göstərir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi mühüm əhəmiyyətə malikdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Avroasiya ölkələri ilə Azərbaycanın iqtisadi əlaqələri getdikcə genişlənməkdədir. Bu ölkələr içərisində Türkiyənin xüsusi yeri vardır. Azərbaycanın Türkiyə ilə qonşuluq mövqeyində olması və iqtisadi əlaqələrin səmərəli həyata keçirilməsi üçün bir neçə istiqamətlərdə nəqliyyat sistemlərinin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Türkiyə ilə 11 km. uzunluğunda sərhəddin olmasına baxmayaraq qədim zamanlardan hər iki ölkə tarixi köklərlə bir-birinə bağlıdır. Ümumi ərazisi 780 min kv. km. olan Türkiyənin zəngin təbii resurslara malik olması xarici iqtisadi əlaqələrə təkan verə bilən istehsal sahələrinin inkişafına ciddi təsir göstərmişdir. Ərazidə zəngin filiz yataqlarının olması, əlverişli təbii iqlim şəraitinin mövcudluğu ilin bütün fəsillərində istehsal sahələrinin ritmik fəaliyyətinə imkan verir. Sənayenin bir çox sahələrinin: metallurgiya, maşınqayırma, kimya, yüngül və yeyinti sənaye sahələrinin inkişafı daxili tələbatı ödəməklə yanaşı, xarici iqtisadi əlaqələrin geniş miqyaslı inkişafına təsir göstərmişdir.

Başqa ölkələrlə olduğu kimi Türkiyənin Azərbaycanla əlaqələri daha aktivdir. Qədim tarixi əlaqələrə malik olan hər iki ölkənin iqtisadi əlaqələrinin inkişafına təsir göstərən bir sıra mühüm amillər vardır. Bunlardan:

1. Bakı-Naxçıvan-Türkiyə birbaşa iqtisadi əlaqələrin inkişafı üçün əlverişli nəqliyyat sisteminə malik olması;

2. Hər iki ölkənin iqtisadi inkişafına müsbət təsir göstərə bilən təbii resursların zənginliyi;

3.Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə ölkələrarası əlverişli nəqliyyat kommunikasiyalarının olması;

4.Türkiyənin müasir şəraitdə iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan çoxsahəli istehsal quruluşuna malik olması və s.

Göstərilən bu amillər hazırkı şəraitdə də Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin əsasını təşkil edir. 2010-cu ildə Asiya ölkələrindən Azərbaycana idxal olunan mallar içərisində Türkiyənin xüsusi çəkisi 34 faizə yaxındır. Azərbaycanın Asiya ölkələrinə ixracında isə Türkiyənin payı 3 faizdən çoxdur. Rəqəmlər bir daha göstərir ki, Azərbaycanla Türkiyə arasında aparılan idxal-ixrac əməliyyatlarında mənfi saldo yaranmışdır.

Azərbaycan-Türkiyə iqtisadi, siyasi və mədəni əlaqələri daim inkişaf etməkdədir. Artıq bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Artıq Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə

verilməsi və 2014-cü ildə Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşması hər iki ölkə arasında iqtisadi əlaqələrin yeni mərhələsi kimi qiymətləndirilir.

Yaxın gələcəkdə "İpək yolu"nun fəaliyyəti Türkiyə-Azərbaycan əlaqələrində yeni dönüm nöqtəsi olacaqdır. Avtomobil və dəmir yollarının beynəlxalq normalara uyğun qurulması yük axınlarının intensivləşdirilməsinə təsir göstərəcəkdir. Eyni zamanda Bakı-Sədərək-Dilucu-İqdir, Bakı-Astara-Təbriz-Maku avtomobil yollarından istifadə etməklə yüklərin səmərəli daşınmasını təmin etmək olar. Həmçinin, Türkiyədən dəniz nəqliyyatı vasitəsilə Xəzər dənizinə çıxış yolunun olması hər iki ölkə arasında dəniz nəqliyyatından istifadə etməklə yüklərin daha səmərəli yollarla daşınması təmin olunacaqdır.

Yuxarıda qeyd edildiyi kimi, Türkiyə-Azərbaycan arasında qarşılıqlı iqtisadi münasibətlərin inkişaf etdirilməsi nəqliyyat əlaqələrinin genişləndirilməsindən xeyli dərəcədə asılıdır. Hazırda iki ölkə arasında mövcud olan hava və avtomobil nəqliyyatı əlaqələri bahalılıq səbəbindən hər iki tərəfin potensial imkanlarından istifadə edilməsində müəyyən mənada əngəl kimi dəyərləndirilə bilər. Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin gerçəkləşdirilməsi bu istiqamətdə çox mühüm addım ola bilər. Fikrimizcə, bu layihənin reallaşması TRASEKA dəhlizi ilə daşınan yüklərin artmasına da təkan verərdi. Dəmir yolu xəttinin çəkilməsi, həmçinin, Azərbaycanın siyasi və iqtisadi nöqteyi- nəzərdən ən mühüm strateji müttəfiqi olan Türkiyə ilə etibarlı təminatlı və möhkəm əlaqəsinin olması baxımından, müstəqilliyimizin, suverenliyimizin və təhlükəsizliyimizin əlavə təminatı kimi də zəruridir. Hesab edirik ki, Bakı-Ceyhan və Bakı-Ərzurum layihələrinin gerçəkləşməsi ilə yaranan enerji dəhlizi ilə yanaşı Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi bütünlükdə bu bölgəni strateji baxımdan mühüm enerji-nəqliyyat dəhlizinə çevirə bilər. Digər tərəfdən, son zamanlar Türkiyənin üzləşdiyi çətin siyasi və iqtisadi təzyiqlər üzündən Ermənistanla sərhəd ticarətinin açılması, nəqliyyat əlaqələrinin bərpa edilməsi, Ermənistan ərazisindən daha qısa yol vasitəsi ilə şərqə doğru nəqliyyat əlaqələrinin genişləndirilməsi çağırışları da artıq əvvəlkindən tez-tez səslənməyə başlamış və bu proses xarici-daxili amillərin təsiri altında getdikcə real fakta çevrilmişdir. Yuxarıda qeyd edilənləri və eləcə də erməni tərəfinin planlarının gerçəkləşməsinə, Şərqi Anadolu bölgəsinin üzləşdiyi çətin iqtisadi vəziyyətin məhz Ermənistanla yolun bağlı olması ilə əlaqələndirilməsinə, bəzi dairələr tərəfindən belə vəziyyətin yaranmasında Azərbaycanın günahlandırılmasına yol verməmək məqsədi ilə Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinə kompleks dəstək zəruridir. Bu layihə gerçəkləşdiyi təqdirdə TRASEKA dəhlizi ilə Azərbaycandan keçən yüklərin Türkiyə ərazisinə yönləndirilməsi mümkündür və bu da Türkiyəni mühüm dəmir yol tranzit ölkəsinə çevirə bilər. Lakin, bütün bu qeyd edilənlərə baxmayaraq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu məsələ ilə əlaqədar bütün çıxışlarında öz qəti mövqeyini bildirərək qeyd etmişdir ki, nə qədər ki, Qarabağın ermənilər tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmayıb bu məsələdən söhbət belə gedə bilməz.

Əlavə olaraq onu qeyd etmək lazımdır ki, Qars vilayəti Azərbaycanla birbaşa avtobus və təyyarə reysinin açılması niyyətini bildirmişdir. Bu layihələrin gerçəkləşdirilməsi Türkiyə-Ermənistan sərhədinin açılması şansını azaldır.

Türkiyənin 59-cu hökumətinin iqtisadi proqramında 2 layihə əsas yer tutur ki, bunlardan biri də məhz Qars-Tbilisi dəmir yolu layihəsidir. Çin tərəfi də bu layihəyə böyük maraq göstərir və hətta 2000-ci ildə Pekində, Türkiyə-Çin Hökumətlərarası komissiyanın iclası zamanı bu layihənin Çin tərəfindən maliyyələşdirilməsi haqqında niyyət protokolu imzalanmışdır. [10]

Hesab edirik ki, Azərbaycan tərəfi Türkiyə və Çinlə bu istiqamətdə fəal iş aparmalıdır. Çünki ölkələrarası nəqliyyat əlaqələrinin genişləndirilməsi Azərbaycanın Türkiyə ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə xidmət edir. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin fəaliyyətə başlaması, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəmərinin istismara verilməsi və Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi Avropa Qonşuluq siyasəti çərçivəsində səmərəli əməkdaşlığı daha da genişləndirir və ticarət dövriyyəsinin gələcək artımına şərait yaradır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, regional iqtisadi əlaqələrin genişlənməsinə xidmət edəcəkdir. Bu layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından böyük əhəmiyyət kəsb edir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə intermodal və konteyner daşımalarının həcmini artıracaqdır. [7]

Artıq qeyd edildiyi kimi 2007-ci il fevralın 7-də Tbilisi şəhərində hər üç ölkənin rəhbərliyinin iştirakı ilə keçirilmiş görüşdə “Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti haqqında” üçtərəfli Saziş (bundan sonra üçtərəfli Saziş) və həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında” Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında ikitərəfli Saziş, həmçinin “Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Marabda-Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsi şərtlərinə dair Kredit Müqaviləsi” imzalanmışdır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsinə, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, həbelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir. Bu layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından böyük

əhəmiyyət kəsb edir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə intermodal və konteyner daşımalarının həcmini artıracaq. Qars-Axalkalaki yolu xəttinin ümumi uzunluğu 105 kilometrdir. Qars-Axalkalaki yolu xəttinin uzunluğu 76 km olan Türkiyə hissəsinin inşası Türkiyə tərəfinin maliyyə vəsaiti hesabına həyata keçiriləcəkdir. Layihənin Gürcüstan ərazisinə düşən hissəsinin – 29 km uzunluğundakı Qars-Axalkalaki yolu xəttinin, habelə uzunluğu 160 km olan mövcud Axalkalaki-Marabda yolunun reabilitasiya-rekonstruksiyasının isə Azərbaycan Respublikası tərəfindən 25 il müddətinə ayrılmış 200 milyon ABŞ dolları həcmində kredit hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. İkitərəfli Sazişə müvafiq olaraq, kreditin istifadəsinə müstəsna səlahiyyətlərlə nəzarət edən və bu məqsədlər üçün kredit tam qaytarılanadək büdcənin təsdiq olunması və onun icrasına nəzarət edən məşvərət orqan – Əlaqələndirici Şura yaradıl-mışdır. Azərbaycan Respublikası tərəfindən Şuranın üzvləri Nəqliyyat Naziri, Dövlət Neft Fondunun İcraçı Direktoru, İqtisadi İnkişaf nazirinin müavini və Azərbaycan Dövlət Dəmir Yolunun rəisidir.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2007-ci il 1974 saylı Fərmanına uyğun olaraq, "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin maliyyələşdirilməsini Azərbaycan Respublikası Dövlət Neft Fondu həyata keçirir. Bu Fərmana müvafiq olaraq, Azərbaycan Respublikası Hökuməti adından kreditləşmənin təşkili və bank xidmətinin həyata keçirilməsi üzrə agent bank "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti təyin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2007-ci il 2222 saylı Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Hökuməti tərəfindən ikitərəfli Saziş üzrə səlahiyyətli orqan Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi müəyyən edilmişdir. [9]

Bundan başqa, Türkiyə tərəfindən digər məsələlər də qaldırılır və bizim fikrimizcə, onlar həqiqətən də iki ölkə arasında avtomobil daşımalarının həcminə mənfi təsir edir:

a) yol vergisi;

b) icazə blankı olmayan,Azərbaycana gələn Türkiyə yük avtomobilləri üçün Azərbaycan icazə blankları 100 dollara verilir;

c) onlardan, həmçinin, geriyə Azərbaycandan mal götürmək üçün 100 dollar və üçüncü ölkələrə yük daşımaq üçün 600 dollar məbləğində vergi və rüsumlar alınır.

Bundan başqa təhlükəli malların daşınması üçün əlavə rüsumların alınması, tərəzilərdə çəkilməsi üçün və sanitar məsələləri üçün rüsumların alınması yük daşımanın maya dəyərini artırır və beləliklə yük dövriyyəsini aşağı salır. Bu məsələlərə dair Türkiyə tərəfinin mövqeyini nəzərə alaraq, aşağıdakıların həyata keçirilməsi məqsədəuyğun olardı:

a) Azərbaycanda tətbiq olunan bütün rüsumların azaldılmasını və ikitərəfli yük daşımalarına vahid bir rüsumun tətbiq edilməsini;

b) avtomobil daşımaları üzrə Azərbaycan-Türkiyə birgə nəqliyyat müəssisəsinin yaradılmasını.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bir çox sahələrdə problemlərin olmasına baxmayaraq ölkələrimiz arasında xarici iqtisadi əlaqələrin rolu getdikcə artmaqdadır. Əlbəttə ki, strateji sosial-iqtisadi əməkdaşlıq maraqları, dil və mədəniyyətimizin vahid kökdən olması, eyni regional mövqelərə malik olmağımız Azərbaycan və Türkiyə arasında bu tip münasibətlərin daha da möhkəmlənməsinə və iki dövlət bir millətin bir-birinə bütün sferalarda dayaq və sabitlik amili olmasına inamımızı daha da artırır.

ƏDƏBİYYAT

1. Əhmədov N.H. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun regional problemləri. Bakı: Elm , 2012, 345 s.
2. Həsənov Əli .Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.Bakı : Azərbaycan nəşriyyatı, 2005, 752 s.
3. Vəliyev D.Ə. Türkiyənin müstəqil və demokratik iqtisadi quruculuq təcrübəsinin prioritetləri. Bakı: “İpək yolu” nəşriyyatı, 2003, №3, 45-51 s.
4. MehdiyevRamiz.“Azərbaycan-2020:Gələcəyəbaxış”İnkişaf konsepsiyası. layihə.Bakı: 2013, 15s.
5. Bağrıaçıq A. Uyğulamalı dış ticaret işlemleri. İstanbul: Bilik yayınları, 1995, 552 s.
6. Ахмедов А.И., Мухсинова Л.Х., Азизов Р.Н., Гаджиева С.М. Международная торговля Азербайджанской Республики. Баку: Сада , 2002, 244 с.
7. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
8. www.economy.gov.az - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi
9. www.socar.az - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
10. www.tuik.gov.tr - Türkiyə Respublikası Statistika Komitəsi

РЕЗЮМЕ

ИРАДА БАГИРОВА

РОЛЬ ТРАНСПОРТНОГО СЕКТОРА В РАЗВИТИИ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

В статье исследованны современное положение экономических отношений между Азербайджаном и Турцией, роль транспортного сектора в этих отношениях, реализация основного направления иностранной торговой политики и надзорных структур обеспечения экономической безопасности. А так же, в статье говорится о проблемах иностранного экономического развития и регионального сотрудничества с целью ускорения социально-экономическое развитие страны.

Ключевые слова: транспортный сектор, иностранная торговая экономика, экономическая безопасность, экономическая политика, транспорты импорта и экспорта, инвестиция, таможенная политика, государственный надзор.

SUMMARY

IRADA BAGIROVA

THE TRANSPORT SECTOR IN THE DEVELOPMENT OF ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND TURKEY

The article investigates the present state of economic relations between Azerbaijan and Turkey, the role of the transport sector in these relations, the implementation of the main directions of the foreign trade policy and supervisory structures to ensure economic security. And also, the article studies the problems of foreign economic development and regional cooperation in order to acceleratesocio-economic development of the country.

Key words: transport sector, foreign trade economy, economic security, economic policy, transportation of import and export, investment, customs policy, government supervision.

(*Aqrar elmlər üzrə fəlsəfə doktoru, dossent. D.Qasımov tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

CEYHUN MAHMUDOV
Naxçıvan Dövlət Universiteti
ceyhun.ilhamoglu@gmail.com

AQRAR İSTEHSAL SUBYEKTLƏRİ MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Məqalədə müasir inkişaf mərhələsində ölkənin aparıcı istehsal sahələrindən biri olan kənd təsərrüfatı sahəsinin aqrar istehsal subyektləri tərəfindən əhalinin kənd təsərrüfatı məhsulları ilə və emal sənayesinin qida təyinatlı xammalla təminatı məsələləri sistemli tədqiq edilmişdir.

Məqalədə kənd təsərrüfatı sahəsindəki mövcud vəziyyət, mikrosəviyyədə onun müxtəlif tərəfləri və göstəriciləri haqqında məlumatlar araşdırılaraq ümumiləşdirilmiş, aqrar sahədəki ümumi istehsal durumu bazasında xammal, material, məsrəf, əsas fondlardan istifadə kimi əsas elementlərin ma¬ya dəyərinin səviyyəsi və inkişaf dinamikası dəqiqləşdirilmiş, bu dəqiqləşdirmələr əsasında perspektiv dövr üçün idarəetmə, təşkilati və digər sferalardakı atılacaq addımlar haqqında təxmin və təkliflərin verilməsi mümkünlüyü araşdırılmışdır.

Elmi məqalədə, həmçinin aqrar sahənin inkişafında, onun texniki təminatında mühüm rol oynayan Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi nəzdində yaradılmış “Aqrolizinq” MMC-nin fəaliyyətindən bəhs edilmişdir.

Açar sözlər: aqrar sahə, kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlıq subyektləri, aqrar inkişaf, müqayisəli təhlil.

Müasir dövrdə ölkə iqtisadiyyatı ardıcıl və məqsədyönlü şəkildə öz inkişafını davam etdirməkdədir. Bəhs olunan məsələdə aqrar sahə də istisnalıq təşkil etmir. Özünün çoxşaxəliliyi ilə seçi-lən bu sfera eyni zamanda ölkə əhalisinin əsas ərzaq təminatçısı rolunda çıxış edir. Kənd təsərrüfatı-nın makrosəviyyədə araşdırılması ilə yanaşı onun mikro situasiyalarına yanaşmanın təmin edilməsi sonrakı mərhələlərdə fəaliyyətin təşkili və idarə edilməsi baxımından müvafiq nəticələrin çıxarılmasını və təkliflərin hazırlanmasını şərtləndirir. Bu baxımdan tədqiqatın təşkili və həyata keçirilməsin-də sahə və subyektlər miqyasında istehsal-maliyyə vəziyyətinin öyrənilməsini vacib və məqsədəuyğun hesab edirik. Araşdırmanın həyata keçirilməsi zamanı aqrar sahədə fəaliyyət göstərən subyekt-lərin təsnifləşdirilməsi daha dəqiq məlumatların əldə olunmasına şərait yaradır. Bu baxımdan tədqi-qatın hüquqi (kənd təsərrüfatı müəssisələri) və fiziki (fərdi sahibkarlar) şəxslər üzrə fərdi qaydada qurulması düzgün olardı.

İstehsal-maliyyə göstəriciləri maddi-istehsal sferasına aid istənilən sahənin subyektlərinin mü-hüm göstəriciləri qrupuna aiddir. Onların sırasında ilk növbədə aşağıdakılar öz əksini tapmalıdır: subyektlərin sayı və gəlirlilik

dərəcəsi; satış fəaliyyətinin nəticələri, ayrı-ayrı istiqamətlər üzrə vəziyyət və rentabellik səviyyəsi; təsərrüfat subyektlərindəki işçi sayı, onların istehsalda iştirak dövrü-nün və aldıqları əmək ödənişlərinin həcmləri; fəaliyyət istiqamətləri, təsərrüfatçılıq kateqoriyaları üzrə əmək məhsuldarlığı ifadələri; ümumi və aqrotəyinatlı əsas fondları üzrə göstəricilərin səviyyəsi; subyektlərin malik olduğu torpaq sahələrinin həcm və tərkib ifadələri; istehsal olunan məhsullara çəkilən xərclərin strukturu, onun maya dəyəri; subyektlərin müxtəlif mənbəli və təyinatlı maliyyə resurslarından istifadə imkanları və s. Sadalanan və digər əlaqəli istehsal-maliyyə göstəricilərinin araşdırılmasına ilk növbədə aqrar təsərrüfatı müəssisələrinin timsalında nəzər yetirək. Bu baxımdan hüquqi subyektlərin əsas iqtisadi göstəricilərinin araşdırılması məlumatlarını nəzərdən keçirək. (cədvəl 1)

Cədvəl məlumatları əsasında qeyd edə bilərik ki, 2000-ci illə müqayisədə müəssisələrin sayında 499 vahid və ya 30%-lik geriləmə müşahidə olunmuş, gəlirlə işləyən subyektlərin sayı 504 vahid və ya 49,1% artmış, zərərlə işləyənlər isə 1132 vahiddən 129 vahidə enmişdir (fərq: 1004 vahid və ya 8,8 dəfə) ki, bu da fəaliyyətini düzgün təşkil etməyən subyektlərin tədricən sıradan çıxmasından xəbər verir. Mənzərənin təzahür forması, düşünürük ki, bir sıra təşkilati-idarəetmə, stimullaşdırıcı, quruluş və digər tənzimləyici tədbirlərin görülməli olması zərurətindən xəbər verir.

Cədvəldə ikinci blok kimi hüquqi subyektlərin əldə etdiyi yekun maliyyə nəticələri ifadə olunmuşdur. Onlar üzrə yekun ifadədə xalis mənfəətin əldə olunması müsbət hal kimi qiymət-ləndirilsə də (39,8 mln. manat), bununla belə zərərlilik həcmi də böyük olmuşdur (13,5 mln. manat) ki, bu da xalis mənfəət ilkin həcmini (53,3 mln. manat) aşağı salmışdır. Digər tərəfdən, 2000-ci ildə həm bitkiçilikdə, həm də heyvandarlıqda müşahidə olunan satış fəaliyyətindəki zərərlə yekunlaşma 2015-ci ildə fəaliyyətin düzgün təşkili, resurslardan məqsədyönlü istifadə və tənzimləyici addım-ların atılması nəticəsində gəlirlilik ifadəsilə özünü əvəzləmişdir. Bu həcmlərlə yanaşı müəssisələrin ümumi fəaliyyətindən 84990 min manatlıq gəlir əldə olunmuşdur ki, bu da 45153 min manatlıq fərqdən xəbər verir. Əsas fondların həcmlərinin artması, istehsalın mexanikləşmə səviyyəsinin yük-səlməsi, aqrar sferada orta əmək haqqının səviyyəsinin nisbətən aşağı olması hesabına bu sahədə məşğul olan əhalinin sayında 8,4 min nəfərlik azalma baş versə də, onların illik orta əmək haqqı səviyyəsi 2000-ci illə müqayisədə 2015-ci ildə 18 dəfə artaraq 2746 manat (orta aylıq səviyyə - 288,8 manat) təşkil etmişdir. Nəzərdən keçirilən dövrlər üzrə aqrar sahənin ümumi məhsulunda dəyər ifadəsində 17,4 dəfəlik irəliləmə müşahidə olunmuşdur.

Cədvəl 1. Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri

Göstəricilər	2000	2005	2010	2015
Müəssisələrin ümumi sayı, vahid	2158	1782	2043	1659
o cümlədən:				
gəlirlə işləyənlər	1026	1579	1869	1530
zərərlə işləyənlər	1132	203	174	129
Mənfəətin məbləği, min man.	608	7098	32385	53275

Zərərin məbləği, min man.	3923	1207	4728	13512
Xalis mənfəət, min man.	-3315	5892	27658	39763
Satışdan əldə edilən gəlir, min man.	14714	70882	188635	391801
Satışdan əldə edilən gəlir və zərər, min man.	-2515	5872	22286	39840
o cümlədən:				
bitkiçilikdə	-616	2769	8855	20241
heyvandarlıqda	-1753	3117	13021	19993
Ümumi gəlir (faktiki qiymətlərlə), min man.	1118	14757	71604	84990
Təsərrüfatda çalışan işçilərin orta illik sayı, min nəfər	23.7	16.6	17.0	15.3
Onlara hesablanmış əmək haqqı fondu, min man.	3605	7219	28076	37071
Təsərrüfatda çalışan işçilərin əmək məsarifi (min adam-gün)	6341	4264	3980	3686
Bir nəfər əmək qabiliyyətli işçinin il ərzində işlədiyi adam-gün (sayı)	267	257	238	241
K/t-nın ümumi məhsulu, (müvafiq illərin faktiki qiymətləri ilə), min man.	21558	79683	187694	374320
Əmək məhsuldarlığı - bir işçiyə düşən ümumi məhsul, man.	909	4804	11019	24477
Əsas fondların mövcudluğu, min man.	180105	191459	444242	489161
ondan kənd təsərrüfatı təyinatlı əsas istehsal fondları	158717	182314	415276	447028
Kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri,min man	184156	172139	393995	425159
Bir təsərrüfata düşən k/t təyinatlı əsas fondların orta illik dəyəri, min man.	85.3	96.6	192.9	230.1
Ümumi torpaq sahəsi, ha	495647	296765	225998	237773
ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi	335410	197072	184632	208415
o cümlədən əkin yeri	160083	59603	98400	102594
Orta hesabla bir k/t müəssisəsinə düşən k/t-na yararlı torpaq sahəsi, ha	155.4	107.6	90.2	125.6

2000 və 2015-ci illərin müqayisəsi özündə əmək məhsuldarlığının səviyyəsinin dəyişilməsinə də şahidlik edir. Bu göstərici baxılan zaman ifadələrində (dəyər ifadəsində) müvafiq olaraq 909 və 24477 manat təşkil etmişdir (artım - 26,9 dəfə). Kənd təsərrüfatı müəssisələrinin malik olduğu ümu-mi, o cümlədən əsas istehsal fondlarının inkişaf templəri baxılann illər üzrə kifayət qədər yüksək olmuşdur. Bu qrupa aid subyektlərdə mövcud olan əsas fondların həcmində dəyər ifadəsində 2000-ci və 2015-ci illərin müqayisə-sində aşağıdakı dəyişikliklər (artım) baş vermişdir: ümumilikdə möv-cud olan əsas fondlar üzrə 2,7 dəfə; aqrotəyinatlı əsas istehsal fondları üzrə 2,8 dəfə; kənd təsər-rüfatı təyinatlı əsas fondları orta illik dəyəri üzrə 2,3 dəfə; bir təsər-rüfata düşən aqrar təyinatlı əsas fondların orta illik dəyəri üzrə 2,7 dəfə. He-sablanmış nisbi göstəricilərin məzmun təhlili aqrar mü-əssisələr tərəfindən əldə olunan əsas fondlar sırasında birbaşa istehsal təşinatlı fondların üstünlük təşkil etdiyinə dəlalət edir. Belə ki, əgər 2000-ci ildə əldə olunmuş əsas

istehsal fondlarının həcmi 88,1%-ə bərabər idisə, 2015-ci ildə bu göstərici 91,3%-ə qalxmışdır ki, bu da aqrar istehsalda əl əməyinin azaldılmasına xidmət edir. Bəhs olunan müsbət məqamlarla yanaşı aqrar müəssisələrdə torpaq resurslarından istifadə həcmlərində əsaslı geriləmələr müşahidə olunmuşdur. Aşağıdakı torpaq kateqoriyaları özündə belə vəziyyəti konkret nisbi kəmiyyətlərlə göstərməkdədir: ümumi torpaq sahəsi üzrə - azalma 257874 ha və ya 52,0%; aqrar yararlı torpaq sahəsi üzrə - azalma 126995 ha və ya 37,9%; əkin yeri üzrə – azalma 57489 ha və ya 35,9%; orta hesabla bir aqromüəssisəyə düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi üzrə - azalma 29,8 ha və ya19,2%. 2000 və 2015-ci illərin müqayisəsi nəticəsində sərgilənən mənzərə istifadədən kənarda qalan torpaq sahələrinin ümumi yekunda 287232 hektarının (ümumi torpaq sahəsinin 58,0%-i) qeyri-istehsal sahələrinin hesabına baş verdiyini göstərir. Bu həcmlərin təkrarən aktiv hasilat dövriyyələrinə qaytarılması imkanlarının qiymətləndirilməsi istiqamətində aparılacaq işlər digər məsələlərlə yanaşı eyni zamanda istehsal həcmlərinin ekstensiv və intensiv genişləndirilməsində ehtiyat mənbəyi kimi hesab oluna bilər. Aqrar müəssisələrdə istehsal-maliyyə göstəriciləri sırasında məhsulların bir sentnerinin maya dəyəri və onun formalaşdıran əsas komponentlərin səviyyələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. (cədvəl 2)

Cədvəl 2.Kənd təsərrüfatı müəssissələrində məhsulların bir sentnerinin maya dəyəri, manat

Göstəricilərin adı	2000	2005	2010	2015
Əsas bitkiçilik məhsulları istehsalı:				
Dənlilər və dənli paxlalılar	8.88	8.05	14.91	16.44
Kartof	13.27	11.06	30.34	21.64
Tərəvəz (açıq torpaqda)	7.82	4.70	15.30	12.82
Bostan məhsulları	3.33	5.80	7.87	7.89
Meyvə və giləmeyvə	5.57	6.81	23.41	41.64
Çəki artımı:				
iribuynuzlu mal-qara	155.27	112.84	213.81	283.72
qoyun və keçi	91.96	98.21	186.37	245.59
donuz	219.12	110.16	600.00	2363.46
quş	150.69	127.13	192.40	169.81
Məhsul istehsalı:				
Süd	21.12	18.03	28.04	33.20
Yun	54.71	49.62	94.76	119.52
Yumurta (min ədədlə)	51.14	41.93	51.66	76.36

Cədvəl məlumatlarından aydın olur ki, dəyər ifadəsində göstərilmiş əsas aqrar məhsulların bir sentnerinin maya dəyərinin formalaşmasında artımlar müşahidə olunmuşdur. Müvafiq həcmə ayrı-ayrı amillərin təsirlərin qiymətləndirilməsi zamanı aydın olur ki, 2000-ci illə müqayisədə 2015-ci ilin nəticələrinin artması əsasən üç amilin – xaricdən idxal olunan xammal və istehsal komponentlərin (orta hesabla 1,92 dəfə), əmək ödənişlərinin (orta hesabla 18 dəfə) və ölkə daxilində baş vermiş qiymət artımlarının (orta hesabla 28,4%) hesabına mümkün olmuşdur. Bu isə öz növbəsində ayrı-ayrı istiqamət-

lər üzrə məhsulların bir sentnerin maya dəyərində aşağıdakı artımlara ol açmışdır: dənli və dənli-paxlalılar üzrə - 85,1%; kartof üzrə - 63,1%; tərəvəz üzrə - 63,9%; bostan məhsulları üzrə - 2,4 dəfə; meyvə və giləmeyvə üzrə - 7,5 dəfə. Cədvəldəki ikinci blokda ifadə edilmiş və mü-qayisə olunan iki ilə aid çəki artımları üzrə bir sentnerin maya dəyərinin vəziyyətində baş verən dəyişikliklərə gəldikdə bu kənarlaşma iribuynuzlu mal-qara üzrə - 82,7%, qoyun və keçilər üzrə - 2,7 dəfə, donuzlar üzrə - 10,8 dəfə, quşlar üzrə - 12,7% təşkil etmişdir. Analoji artımlar əsas hey-vandarlıq məhsulları olan süd, yun və yumurtada da müşahidə olunmuşdur. Bu göstəricilər müvafiq olaraq 57,2%, 2,2 dəfə və 49,3% bərabər olmuşdur. Aqrar müəssisələrdə hasil edilən məhsulların maya dəyərindəki xüsusi çəki etibarı ilə əmək məsrəflərinin artımının böyük kütləyə malik olmasını nəzərə alaraq onların cinsi ifadədə həcmlərinin dəyişməsinə diqqət yetirmək zəruridir. (cədvəl 3)

Cədvəl 3.Aqrar müəssisələrdə əsas növ məhsulların bir sentnerinə əmək məsarifi, adam-saatla

Göstəricilərin adı	2000	2005	2010	2015	2000-ci illə müqayisədə 2015-ci ildə nisbi kənarlaşma, %-lə
Dənlilər və dənli paxlalılar	10.2	11.7	9.9	11.0	+7,8
Kartof	28.9	29.2	26.7	26.0	-10,1
Tərəvəz (açıq torpaqda)	25.2	23.7	22.9	23.0	-8,7
Bostan məhsulları	11.6	11.9	12.1	12.2	+5,2
Meyvə və giləmeyvə	24.3	23.5	23.4	22.9	-5,8
Çəki artımı:					
iribuynuzlu mal-qara	289.1	276.1	259.1	259.9	-10,1
qoyun və keçi	230.8	249.6	226.5	229.6	-0,5
donuz	167.5	199.3	230.1	230.8	+37,8
quş	124.4	129.2	130.5	130.0	+4,5
Məhsul istehsalı üzrə:					
Süd	42.6	47.4	47.8	47.6	+11,7
Yun	414.0	393.0	386.9	403.2	-2,6
Yumurta (min ədədlə)	58.6	66.4	63.4	62.0	+5,8

Cədvəl 3-ün məlumatlarından aydın olur ki, aqrar müəssisələrdə əsas nov məhsulların bir sentnerinə əmək məsrəflərinin cinsi ifadəsində nəzərə çarpacaq səviyyədə artması müşahidə olunmamışdır. 2000 və 2015-ci illərin müqayisəsi nəticəsində orta hesabla dəyər ifadəsində müəyyənləşdirilmiş on səkkiz dəfəlik artım əsasən əmək ödənişlərinin artırılması hesabına baş vermişdir. Qeyd etmək yerinə düşər ki, əmək məsrəfləri Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanmış “Məhsulların (işlərin, xidmətləri) maya dəyərinə birbaşa daxil edilən məsrəflər haqqında” Əsasnamədə (16.08.1996) beş əsas qrupdan biri kimi nəzərdə tutulmuşdur. Həmin Əsasnamədə digər qruplar kimi material məsrəfləri, əsas fondlara hesablanmış köhnəlmə məsrəfləri (amortizasiya) və əmək ödənişləri əsasında hesablanmış sığorta məsrəfləri və kompleks

xarakterə malik sair xərclər nəzərdə tutlmuşdur. Ayrı-ayrı xərc maddələrinin fərdi qaydada nəzərdən keçirilməsi ilə yanaşı aqrar müəssisələrdə məhsulların istehsalına çəkilən xərclərin xüsusi çəkilərinin müəyyən edilməsi də zəruridir. Onun əsas məqsədi yuxarıda qeyd olunan "Məhsulların (işlərin, xidmətlərin) maya dəyərinə birbaşa daxi edilən xəclər haqqında" Əsasnaməyə müvafiq olaraq tərkib elementlərin xüsusi çəkilərinə aydınlıq gətirməkdir. Statistika göstəriciləri kənd təsərrüfatı müəssisələrində məhsulların istehsalına çəkilən xərclərin tərkibində 95,7%-lik həcmin 3 xərc maddəsinin payına düşdüyünü göstərir: əmək ödənişi xərclərinin (9,9%), material xərclərinin (44,8%) və sair xərclərin (41,0%). Nəzərə alınmalıdır ki, 2000-ci illə müqayisədə 2015-ci ildə əmək ödənişlərinin artım templəri 18 dəfəlik fərqə malik olmuş və cəmi xərclər strukturunda 9,9%-ə bərabər olmuşdur. Bu, isə digər 2 xərc maddəsinin artım temrlərinin daha yüksək olduğuna dəlalət edir.

Maya dəyərinin formalaşmasında mühüm tərkib elementlərdən biri kimi material məsrəfləri çıxış edir. Aqrar sahə istehsalının kifayət qədər geniş tərkibə malik olması bizi onda istifadə olunan xammal, material və digər komponentlərin fərdi qaydada ifadə olunması faktının kifayət qədər həcmli olması ilə qarşı-qarşıya qoyur. Bu baxımdan oxşar mənşəli məsrəflərin "material məsrəfləri" adı altında birləşdirilməsi nəticəsində cədvəldə verilmiş nümunəvi təsnifat ilə qarşılaşmaq mümkün-dür. Digər tərəfdən, istehsalın, fərdi zaman kəsiklərində ayrı-ayrı qruplar üzrə formalaşmış qiymət-lər və digər şərtlər nəzərə alınmaqla məhsulların istehsalına material məsrəflərinin quruluşu haqqın-da nisbi ifadədə təsəvvür yarada bilərik. Cədvəl məlumatlarından aydın olur ki, 2015-ci ildə material məsrəflərinin tərkibində toxum və əkmə materialların (21,8%) və kənar təşkilatlar tərəfin-dən yerinə yetirilmiş xidmətlərin (57,2%) payı 79,0% təşkil edir. Bu bölgüdə ikinci komponentin xüsusi çəkisinin yüksək olması müvafiq istiqamətdə aparılacaq işlərin olmasından, onun səviyyəsinin aşağı salınmasından xəbər verir.

Əsasnamənin növbəti maddəsi kimi əsas fondlar və onlara görə hesablanan amortizasiya məbləğləri təşkil edir. Maddi əşya tərkibi etibarı ilə onlar çoxsaylı qruplardan ibarətdir. İstənilən maddi istehsal sahəsi və ya müəssisəsində olduğu kimi, aqrar müəssisələrdə də xüsusi kütlə hesabı ilə bu tərkibdə binalar, tikililər, ötürücü qurğular, maşın və avadanlıqlar mühüm yer tutur. Əyani məlumatlardan da göründüyü kimi, 2000, 2005, 2010 və 2015-ci illərdə "binalar, tikililər və qurğular" və "maşın və avadanlıqlar" maddələri üzrə pay həcmləri müvafiq olaraq 79,5%, 91,2%, 89,6% və 91,9% təşkil etmişdir. Bu fakt aqrar istehsalın fəaliyyətində əsas fondların aktiv və passiv hissələrinin kifayət qədər böyük paya malik olmasını təsdiqləyir, istehsal infrastrukturunun yaxşılaşdırılması və mexanikləşmə səviyyəsinin yüksəldilməsi sahəsində gorulən işlərdən xəbər verir. Sair xərc-lər maddəsi kompleks xarakterə malik olmaqla özündə çoxsaylı xərc istiqamətlərini birləşdirir, bu qrupa daxil edilən xərclərdən səmərəli istifadə subyektlərdən mövcud olan əsas qənaət mənbələrindən hesab olunur. Aqromüəssisələrdə formalaşan, maya dəyəri kontekstində nəzərdən keçirilən göstəricilərlə yanaşı əsas maliyyə göstəriciləri kimi aqrar məhsulların satış qiyməti və rentabellik kəmiyyətlərinin araşdırılması mühüm

əhəmiyyət kəsb edir. Statistik məlumatlardan aydın olur ki, məhsulların bir sentnerinin maya dəyərində olduğu kimi, onların satış qiymətlərində də artımlar özünü biruzə verməkdədir. Düzdür, tam maya dəyəri ilə satış qiymətləri arasındakı böyük fərqin yaranması kommersiya xərclərinin səviyyəsindəki 1,1 dəfəlik əlavə artım və qeyri-mövsümlərdə yaranan saxlama xərcləri (+28,4%) də təsir göstərməkdədir. Lakin daha səmərəli, “birbaşa istehsalçı – birbaşa istehlakçı” əlaqələrinin təmini nəticəsində yaranan qiymət səviyyələri cədvəl 2.12-də verilən qiymətlərlə müqayisədə səviyyə etibarı ilə orta hesabla 15-20%-lik üstələmənin olduğuna şahidlik edir. Məsələn, bir sentnerinin maya dəyərində 85,1%-lik artım olan dənli və dənli-paxlalılar üzrə eyni həcmin satış qiymətin 2,7 dəfəlik artımlar baş vermişdir. Halbuki, kompleks xəclərin əla-və olunması bu artımın 1,8 dəfəlik artıma gətirib çıxarır. Görünür ki, burada müəssisələrin istehsala cəlbediciliyinin artırılması və bazardakı tələb-təklif tarazlığı qiymətlərin belə artımına şərait yarat-mışdır. Oxşar vəziyyət bostan məhsullarında (2,4 və 3,9 dəfə), iribuynuzlu malqaranın çəki artımın-da (82,7% və 3,4 dəfə), qoyun və keçilər çəki ar-tımında (2,7 dəfə və 4,5 dəfə), quş ətində (12,7% və 75,5%) və digər istiqamətlədə göstərməkdədir.

Satışın qiymətinin məhsullar üzrə müəyyən edilməsi özünün maliyyə ağırlığı ilə fərqlənsə də, məsələyə sistemli yanaşma bu proseslərin həyata keçirilməsi zamanı onların nə dərəcədə rentabelli olması haqqında fikir formalaşdırmalıdır. Ümumiyyətlə, rentabellik anlayı özünə müxtəlif aspekt-lərdən yanaşmanı təmin etməlidir. Belə ki, bir tərəfdən hər bir təsərrüfatçılıq forması üzrə fəaliyyətin gəlirlə yekunlaşması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Digər tərəfdən, gəlirlilik dərəcəsinin məqbul ölçülər daxilində (inhisarçılıq, haqsız rəqabət və s.) nə qədər yüksək olması da mühüm əhə-miyyət kəsb edir. Rentabellik anlayışı ümumi formada məhsul istehsalına qoyulan məcmu xərclər qarşılığında əldə olunan gəlir həcmini nisbi ifadədə xarakterizə etməklə mükəlləfdir. Onun tətbiqi maddi-istehsal sahələrində və bir sıra xidmət sahələrində həyata keçirilməkdədir. Aqrar subyekt-lərdə məhsul satışının rentabelliyi ümumi qayadalar gözlənilməklə bərabər, spesifik məqam-larla xarakterizə olunur. 2015-ci ildə rentabellik səviyyəsinin öncəki dövrə nis-bətən artdığını görsək də, 2010-cu ilin nəticələrində rentabellik səviyyəsi kartof və bostan məsulları üzrə daha yüksək ren-tabellik nəticələri ilə rastlaşırıq ki, bu da nəzərdən keçirilən zaman ifadələrində müvafiq göstərici üzrə müxtəlif səbəblərdən yaranan dalğalanma-ların olduğuna şahidlik edir. Eyni vəziyyət mal əti (5,9-dan 2,4-ə), yun (40,6-dan 26,7-yə) və quş əti (10,8-dən 3,0-a) üzrə də müşayət olunmaqdadır.

Təqiqatda müqayisə obyektlərindən biri kimi də fərdi sahibkarlar qrupu götürülmüşdür. Bu subyektlər vahid hesabı ilə daha zəif maliyyə imkanlarına malikdirlər. Sayı 1534 olan bu subyektl-ərdə 2015-ci ildə: mənfəət həcmi 7,4 mln manat təşkil etmişdir: təsərrüfat başına 4,8 min manat (bu göstərici aqrar müəssisələrdə 32,1 min manatdır, yəni 6,7 dəfə çox); istehsal olunan kənd təsərrüfatı məhsulu 25,8 mln manat təşkil etmişdir: təsərrüfat başına – 16,8 min manat; müəssisələrlə müqa-yisədə 13,4 dəfə az; aqrotəyinatlı əsas istehsal

fondları 14,8 mln.manat olub: təsərrüfat başına – 9,6 min manat, müəssisələrlə müqayisədə - 16,9 dəfə az; bir işçiyə düşən ümumi məhsul 4,3min manat, aqrar müəssisələrlə müqayisədə 5,7dəfə az; ümumi torpaq sahəsi 33363ha, təsərrüfat başına 21,7ha, müəssisələrlə müqayisədə 6,6dəfə az; aqrar yararlı torpaq sahəsi- 32530ha, təsərrüfat başına- 21,2 ha, müəssisələrlə müqayisədə- 5,9 dəfə az; əkin yeri- 23379ha, təsərrüfat başına- 15,3ha, aqrar mü-əssisələrlə müqayisədə - 4,0dəfə və s.

Aparılmış hesablamalar fərdi sahibkarlar üzrə istehsal-maliyyə imkanlarının aq-rar müəssisə-lərlə müqayisədə daha aşağı olduğu haqda fikir söyləməyə imkan verir. Miqyas və imkanların zəif-liyi özünü istehsal olunmuş məhsulu bir sentnerinin maya dəyərində də ifadə etməkdədir. Belə ki, 2015-ci ildə fərdi sahibkarların məhdud im-kanları nəzərə alınmaqla: kartof istehsalı – 26,5%, tərə-vəz istehsalı – 19,3%, bostan məhsulları istehsalı – 1,9%,quş əti istehsalı 35,3%, yun istehsalı – 0,2%, yumurta istehsalı – 3,2% baha başa gəlmiş, donuz əti istehsalı isə tamamilə dayandırılmışdır. Düzdür, aqrar müəssisələrində dənli və dənli-paxlalıların, meyvə və giləmeyvənin, mal ətinin, qo-yun və keçi ətinin, südün bir sentnerinə çəkilən xərclər fərdi sahibkarlarla müqayisədə daha yüksək olsa da (müvafiq olaraq 27,8%, 56,7%, 26,9%, 8,6%, 13,5%), müşahidələr bu fərqin əsasən maliyyə tutumlu yeni texniki vasitələrin və tex-nologiyaların tətbiqi və onlardan hesablanan amortizasiya ayırmaları ilə əlaqədar olduğunu göstərir. Həmçinin qeyd etmək yerinə düşər ki, sahibkarlıq sub-yektlərində demək olar ki, bütün əsas məhsulların istehsalında əmək məsrəflərinin dərəcəsi yüksək olmuşdur (2,8%-dən 14,1%-dək). Əsas müqayisə obyekti kimi çıxış edən göstəricilər sırasında hər iki təsərrüfatçılıq kateqoriyası üzrə bir sentnerin satış qiyməti və rentabellik çıxış edir.(cədvəl4)

Cədvəl məlumatlarından aydın olur ki, əksər məhsulların satış qiymətinin nisbi ifadəsinin aqrar müəssisələrdə daha yüksək artım templərinə malik olmasına baxmayaraq, onların mütləq ifa-dələrinin fərdi sahibkarlıq subyektlərində olduğu müşahidə olunmaqdadır. Məsələn, meyvə və gilə-meyvə üzrə 7,4 dəfəlik qiymət artımına aqrar müəssisələr malik olduğu halda, onun sentner hesabı ilə qiymətində fərdi sahibkarlar 72,11 manatla öncüldürlər. Eyni vəziyyət qoyun və keçi ətində, yu-murtada müşahidə olunmaqdadır. Digər məhsullar üzrə hər sentner üzrə daha başagəlmə özünü da-ha yüksək qiymətin təyinində də göstərir.

Cədvəl 4.Fərdi sahibkar təsərrüfatlarında və kənd təsərrüfatı müəssisələrində aqrar məhsulların bir sentnerinin satış qiyməti və satışın rentabelliyinin müqayisəsi

Göstəricilər	Fərdi sahibkar təsərrüfatları			Kənd təsərrüfatı müəssisələri		
	2000	2015	2000-ci illə müqayisədə 2015-ci ildə artım templəri, (% və ya dəfə)	2000	2015	2000-ci illə müqayisədə 2015-ci ildə artım templəri, (% və ya dəfə)

I. Kənd təsərrüfatı məhsulların bir sentnerinin satış qiyməti, manat						
Dənli bitkilər	10.59	20.40	+92,6%	9.04	23.96	+2,7 dəfə
Kartof	15.42	46.24	+3,0 dəfə	15.91	29.79	+87,2%
Tərəvəz (açıq torpaqda)	5.71	32.17	+5,6 dəfə	7.06	25.93	+3,7 dəfə
Bostan məhsulları	5.78	12.94	+2,3 dəfə	3.67	14.12	+3,9 dəfə
Meyvə və giləmeyvə	10.02	72.11	+7,2 dəfə	6.41	47.42	+7,4 dəfə
Mal-qara və quş əti, cəmi	97.02	335.02	+3,5 dəfə	92.58	212.35	+2,3 dəfə
O cümlədən:						
iribuynuzlu mal-qara	84.56	322.00	+3,8 dəfə	89.57	303.40	+3,4 dəfə
qoyun və keçi	97.13	352.23	+3,6 dəfə	77.19	349.98	+4,5 dəfə
donuz	104.00	-	-	83.53	157.59	+88,7%
quş	102.39	274.84	+2,7 dəfə	117.77	206.63	+75,5%
Heyvandarlıq məhsulları:						
Süd	19.72	51.09	+2,6 dəfə	20.41	49.66	+2,4 dəfə
Yun	26.44	156.69	+5,9 dəfə	40.50	145.81	+3,6 dəfə
Yumurta (min ədədlə)	57.55	145.82	+2,5 dəfə	34.78	89.90	+2,6 dəfə
II. Kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi ,%						
Dənli bitkilər	54.8	46.6	-14,9%	7.9	47.3	+6,0 dəfə
Kartof	103.8	61.0	-41,2%	-31.4	17.6	+17,6
Tərəvəz (açıq torpaqda)	110.0	109.1	-0,8%	-9.1	71.4	+71,4
Bostan məhsulları	112.3	56.5	-49,7%	14.3	43.1	+3,0 dəfə
Meyvə və giləmeyvə	96.5	108.5	+12,4%	4.0	24.8	+6,2 dəfə
Bitkiçilik məhsulları üzrə	86.6	39.3	-54,6%	-7.0	36.0	+36,0%
Mal-qara və quş əti, cəmi	48.1	39.1	-18,7%	-24.8	3.4	+3,4%
O cümlədən:						
iribuynuzlu mal-qara	50.4	33.9	-32,7%	-33.9	2.4	+2,4%
qoyun və keçi	44.4	44.0	-0,9%	-14.0	37.9	+37,9%
donuz	67.0	-	-	-64.6	-	-
quş	23.0	42.6	+85,2%	-13.7	3.0	+3,0%
Heyvandarlıq məhsulları:						
Süd və süd məhsulları	62.5	52.3	-16,3%	-12.4	23.9	+23,9%
Yun	33.9	43.2	+27,4%	-28.4	26.7	+26,7%
Yumurta (min ədədlə)	73.3	71.9	-1,9%	-24.3	9.9	+9,9%
Heyvandarlıq məhsulları üzrə	54.4	42.4	-22,1%	-23.2	7.1	+7,1%

Fərdi sahibkarllıq təsərrüfatları ilə aqrar müəssisələrin satış qiyməti baxımından müqayisəsi eyni zamanda bu istqamətdə rentabelliyin hansı səviyədə olması ilə bağlı vəziyyətin nə yerdə olma-sı ilə bağlı fikirlərin dəqiqləşdirilməsini zəruriləşdirir. Cədvəl məlumatlarından aydın olur ki, aqro-subyektlərdən fərqli olaraq fərdi sahibkarlıq subyektlərində meyvə və giləmeyvə (12,4%), quş əti (85,2%) və yun (27,4%) üzrə satışın rentabelliyi istisna olmaqla digər səviyyələrdə geriləmələr müşahidə olunmuşdur.

Aqrar sahə üzrə vəziyyətin xarakterizə edilməsində infrastruktur-logistika imkanlarının müəy-yən edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan yol, enerji və su sistemlərinin, anbar və lizinq təsərrüfatının, texnika və gübrələrlə təminat, konsaltinq xidmətləri, məhsuldar heyvanlarla tə-sərrüfatların təmin olunması kimi məsələlər öz aktuallığını qorumaqdadır. Bu istiqamətdə ilk növ-bədə qeyd olunmalıdır ki, 2000-ci illə müqayisədə 2015-ci ildə çəkilən yolların həcmində 2,8 dəfə-lik, su və enerji sistemlərinin formalaşmasında dəyər ifadəsində 8,29 dəfəlik artımlar müşahidə olunmuşdur. Digər tərəfdən həmin dövrdə kənd təsərüfatı məhsullarının saxlanması məqsədilə müx-təlif ölçülü 26 anbar istismara verilmişdir. 2006-cı ildən başlayaraq 2015-ci ilədək "Aqrolizinq" MMC xətti ilə 5,7 min vahiddən çox müxtəlif texnika və texniki vasitə aqrar istifadəçilərə istismara verilmişdir. Bunların əksər hissəsi 2010-2015-ci illərdə təhvil verilmişdir: 59,2 mln. manat dəyərin-də 3443 texnika vahidi.

Deyilənlərlə yanaşı texniki təminat məsələsində müəyyən geriləmələrin olması statistik məlu-matlardan aydın olur. Belə ki, məsələn əgər 2010-cu ildə hər min ha əkinə 13,4 traktor düşürdüsə, bu göstərici 2015-ci ildə 7,5 traktor səviyyəsinə enmişdir. Analoji vəziyyət taxılyığan (2,1 və 0,7 vahid), qarğıdalıyığan (0,2 və 0,1), kartofyığan (0,3 və 0,1), çuğunduryığan (1,1 və 0,9) kom-baynların sayında, həmçinin hər 100 traktor hesabı ilə qurğuların sayında: kotan (16 və 5), kul-tivator (4 və 0,4), toxumsəpən (9 və 1,2), otbiçən (4 və 0,7) sayında da müşahidə olunmaqdadır. Aqrar sahənin gübrə təminatına gəldikdə təkcə 2010-2015-ci illərdə respublikaya 634000 ton azotlu (440600 ton), fosfatlı (38900 ton), kaliumlu (22600 ton) və sair mineral tərkibli (132800 ton) gübrələr idxal olunmuşdur ki, onlardan da 184,2 min tonu aqrar əkinlərə verilmişdir. Yaranmış vəziyyət idxalın faktiki istifadəni 3,4 dəfə üstələdiyini bildirir. Bu işin daha səmərəli təşkili xarici valyuta vəsaitlərinin xərclənməsində qənaətin mümkünlüyünə dəlalət edir. Aqrar sahənin bu iki tə-sərrüfatçılıq kateqoriyası əsasında təqdim olunmuş məlumat və təhlillər bu sahə üzrə real vəziyyəti ifadə edilməsində mühüm rol oynayır. Eyni zamanda sadalananlar ümumi yanaşmada ardıcıl inkişaf templərini qorumaqda olan ölkənin kənd təsərrüfatı sistemində ehtiyat mənbələrinin axtarılması və müvafiq idarəetmə - tənzimləyici adımların atılmasında kifayət qədər önəm daşımaqdadır.

ƏDƏBİYYAT

1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s
2. Allahverdiyev H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 448s.
3. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428s.
4. M. S. Bağırov, C. İ. Mahmudov. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan, Əcəmi, 2017, 257 səh.
5. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin

formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, Qeyrət, 2014, 107s.
6. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaş-masında rolu. Naxçıvan: Qeyrət. 2013, 130 s.
7. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: Avrora, 2013, 406s.

РЕЗЮМЕ

ДЖЕЙХУН МАХМУДОВ

АГРАРНО-ПРОИЗВОДСТВЕННЫЕ СУБЪЕКТЫ НА СОВРЕМЕННОЙ СТАДИИ РАЗВИТИЯ

В статье обеспечен системный подход на деятельность аграрно-производственных субъектов на современной стадии развития. Являющаяся одним из передовых ьфеукшфдьно-производственных отраслей страны сельское хозяйство наряду с обеспечением населения сельскохозяйственными продуктами, играет большую роль в обеспечении перерабатыва-ющей промышленности пищевого профиля сырьем.

В статье проведено уточнение общей производственной обстановки в сельском хозяй-стве, обобщена информация о различных ее сторонах и показателях на микроуровне. Потому как, в первую очередь продемонстрирована информация об основных аграрных продуктах по различным временным периодам и на этой основе проведены необходимые рассчеты.

На основе общего производственного положения внесена ясность на уровни и динами-ку развития в себестоимости таких основных элементов затрат, как сырье, материалы, ис-пользование основных фондов, заработная плата, что в перспективном периоде обращает внимание на возможности высказывания предположений и предложений по составу и сущ-ности предпринимаемых шагов в управленческой, организационной и других сферах.

В работе также повествуется о деятельности «Агролизига» ООО, созданного при Министерстве Сельского Хозяйства Азербайджанской Республики, как одном из компонен-тов, играющем специфичную роль в развитии сельского хозяйства, играющего большую роль в его техническом обеспечении, разъясняется его деятельность в сфере использования производственными мощностями соответствующей отрасли.

Ключевые слова: аграрная сфера, сельскохозяйствунные предприятия, индивидуальные предпринимательские субъекты, аграрное развитие, сопоставительный анализ

SUMMARY

CEYHUN MAHMUDOV

THE SUBJECTS OF THE AGRICULTURAL PRODUCTION IN THE MODERN DEVELOPMENT STAGE

The article provides a systematic approach to the development of the activity of subjects of agricultural production stage . The leading sectors of the country´s economy from the agricultural population not only meet the demand for food products, but also food plays an important role in providing raw materials processing industry designation . Total agricultural production in view of the specification of the article, which includes informations about the demonstrators and different directions in micro-level. So , the main agricultural products , primarily reflecting different on the basis of the calculations carried out and it was stated that the information .

The cost of production of the product based on tho condition of raw material , the use of funds, such as labor costs costs and levels of key cost factors in the tynamics of development over the years has brought clarity and it will be long term management,organizational and other steps opinions aand recommendations on the structure and contents draws attention to the ability to be notified

İn the development of the agricultural sector as well, playing an important role in his technique, "Agro-Leasing" which it was established by the Ministry of Agriculture of the Azerbaijan´s Republic, also mentioned about the activities of the Limited Liability Company (MMC), it has become apparent in the organization´s activities in the sphere of utilization of production capacities.

Key words: Agrarian area, agricultural enterprice, The subjects of the individual ownership, agrarian development , comperative analysis.

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ƏLİ CABBAROV
“Naxçıvan” Universiteti
alijabbarov@yahoo.com

NAXÇIVAN-NEHRƏM TURİZM MARŞRUTU ÜZRƏ TEST TURUNUN SWOT TƏHLİLİ

Turizm marşrutlarının yaradılıb test olunması və onların turistlərin tələbatlarına uyğun şəkildə dizayn olunması baxımından yeni marşrutların işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Naxçıvan Muxtar Respublikasının turizm marağı kəsb edən yerləri arasında Nehrəm kəndi istiqamətində təşkil olunan turizm marşrutunun böyük potensialı vardır. Bu məqalədə Nehrəm kəndinə təşkil olunan tanışlıq turlarının mövcud vəziyyəti, gələcək perspektivləri, Nehrəmdə turistlərə təqdim oluna biləcək turizm cazibə gücünə malik olan obyektlərdən istifadə imkanları və burada həyata keçirlən ekskursiyaların güclü, zəif tərəfləri, yaranan fürsətlərin və təhlükəli tərəflərin SWOT təhlili aparılmışdır.

Açar sözlər: turizm; turizm marşrutu; Naxçıvan Muxtar Respublikası; Nehrəm kəndi; ekskursiya; SWOT təhlil.

1. Təqdimat

Nehrəm Naxçıvan Muxtar Respublikasının iri kəndlərindən biridir. Nehrəm özünün qədim tarixi, xalqımıza məxsus yaxşı qorunub saxlanılmış adət-ənənələri və müasirliyi ilə tarix və mədəniyyət həvəskarları üçün maraqlı ekskursiya məkanıdır. Nehrəm kəndi həm də Naxçıvan şəhərinə ən yaxın olan ən iri yaşayış məntəqəsidir. Əhalisi artıq 15 min nəfərə çatmış bu kənd Naxçıvan şəhərindən 9 kilometr, Babək qəsəbəsindən isə cəmi 4 kilometr məsafədə, Araz çayının sol sahilində yerləşir.(1) Rayon mərkəzindən keçməklə Naxçıvan şəhəri ilə bütün gün ərzində hər 10-12 dəqiqədən bir müntəzəm sərnişin nəqliyyat əlaqələri vardır.

Nehrəmin cazibədarlığı onun maraqlı tarixi, müasir inkişafı, insanlarının məşğuliyyəti, torpağa bağlılığı ilə diqqət cəlb edir. Kəndin adı çoxlarına yaxşı tanış olan bir toponim kimi, ümumiyyətlə, Naxçıvanın qədim tarixi ilə də həmahəngdir. Tarixçi araşdırmaçılar tərəfindən Naxçıvan, Nuhçıxan, Nehrəm, Nəhəcir kimi adların bəşəriyyətin ikinci atası hesab edilən Nuh Peyğəmbərin adı ilə bağlı olduğunu göstərməsi, eləcə də bu yaşayış məntəqələrinin yaşının tarixin ən qədim qatlarınadək gedib çıxması bu fikirləri daha da qüvvətləndirir.(2) Görkəmli tədqiqatçıların əsərlərində sübut olunduğu kimi etimologiyası bəşəriyyətin atası sayılan Nuh peyğəmbərlə bağlı hesab olunan Nehrəmdə xalqımızın ən qədim mədəniyyətinin izlərinə rast gəlmək olar.

Nehrəm inkişaf etmiş yaşayış məntəqəsidir. Bu, həm nehrəmlilərin təsərrüfat ənənələri, həm buradakı müasir infrastruktur şəraiti, həm də

Nehrəmdəki tarixi-dini və mədəni sahədəki nailiyyətlərə aid edilə bilər. Kənddə son illər ərzində istifadəyə verilmiş sosial-mədəni obyektlər, tikilən yaraşıqlı fərdi evlər, çəkilən hamar yollar getdikcə böyüyən kəndin simasını daha da gözəlləşdirib.(3) Nehrəmdə yaşadılan qədim el adətləri, qeyri-adi ənənələr, yaşlı insanların həyat tərzində qorunub saxlanılmış milli elementlər bu kəndin özünəməxsus xüsusiyyətlərindəndir. Novruz Bayramında keçirilən xoruz döyüşdürülməsi, xan bəzədilməsi, milli idman növləri yarışları Nehrəmə gəlmiş qonaqlarda böyük təəəssürat yaradır. Naxçıvana gəlmiş turistlər Nehrəmə də baş çəkmək istəsələr burada XVIII əsrə aid memarlıq abidəsi olan İmamzadə binası və Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi ilə tanış olub, kənd üsulu ilə hazırlanmış daş küftəsi, mev dolması, əriştə aşı, təndir lavaşı, çölmək pitisi, odunla bişirilən sac lavaşı, təndir kababı kimi milli yeməklərimizdən dadmaq imkanı əldə edərlər. Türk xalqlarına məxsus qiş azuqəsi olan qara qovurmalı və çoban kirmidı ətirli bozbaş Nehrəmdə özünəməxsus şəkildə hazırlanır.

Nehrəmlilər inanclarına sadiq insanlardırlar. Keçmişdə mövcud olmuş çətinliklər onların İslama olan inancından döndərməyib, Nehrəm camaatı bütün dini ayinlərini yerinə yetiriblər. Müstəqillik illərimizdə isə bu inamın yaşanması, insani və ümumbəşəri duyğuların təbliği üçün hər cür şərait yaradılıb. Nehrəmdə hazırda mövcud olan 9 məscid və 1 imamzadə dindarların ixtiyarına verilib. Ötən il açılışı olmuş yeni məscid isə dindarları daha çox çox sevindirib.(4)

"Nehrəm" deyəndə, şübhəsiz, yazıçı Cəlil Məmmədquluzadə yada düşür. Böyük ədibin hələ yüz il öncəsindn xalqımızın təhsili, maariflənməsi və müasirləşməsi yolunda bu kənddə həyata keçiridiyi illər xalqımızın maarifçilik tarixində mühüm yer tutur.(5) Bundan əlavə, Nehrəmdən danışarkən, ilk olaraq, onun keçmişi və bugünkü mənzərəsi ilə yanaşı adını ölkədə və dünyada tanıdan alim, şair, yazıçı, həkim, müəllim, mədəniyyət işçisi, mühəndislər, müharibə veteranları, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhildər yada düşür.(6)

Xalqımızın ümummili lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə bu kəndə göstərdiyi diqqət və qayğı və xüsusən 1990-cı ildə Moskvadan Naxçıvana qayıdandan sonra Nehrəmlə əlaqələri, buradakı tanınmış admalarla sıx münasibətləri, kənd adamları ilə keçiridiyi görüşlər Nehrəmin yaxın keçmişində öz izlərini qoymuş və bu xatirələr indi də nehrəmlilərin yaddaşından silinməyib.(7) Xüsusən Naxçıvanın blokada illərində ümummmili liderin tapşırıq və tövsiyyələri Nehrəmdə o dövrdə mövcud olmuş çətinliklərin aradan qaldırılması üçün cox həyati olub.(7)

Naxçıvanda kənd təsərrüfatı sahəsində brend səviyyəsindək tanınan Nehrəm pendiri, Nehrəm qarpızı, tut doşabı, Nehrəm qovurması kimi məhsullar təkcə muxtar respublikada deyil, ondan kənarda da yaxşı tanınmaqdadır. Kənddə yüksəkkeyfiyyətli aqrar məhsullar istehsal edilən iri fermerlər vardır.

Nehrəmdə təkcə yerli əhalinin deyil, turistlərin də sosial tələbatlarının ödənilməsi üçün 25 mağazalı ticarət mərkəzi, 2 ikimərtəbəli məişət evi, 70

yerlik qapalı bazar kompleksi, elektron xidmətlər, 24 saat xidmət göstərən əczaxana, nümunəvi səhiyyə xidmətləri də burada yaxşı təşkil olunub. Son illər salınmış müasir standartlara uyğun Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu isə Nehrəmə gediş-gəliş üçün çox rahat şərait yaradıb. (7)

2. Diskussiya

Nehrəm kəndinin turizm potensialından istifadə onun yerləşmə mövqeyi, malik olduğu turizm ehtiyatları və yerli sakinlərinin qonaqpərvərliyinə əsaslanır. Bu baxımdan, Nehrəm kəndinə təşkil olunacaq turların səmərəliliyni və onların tanışlıq-rekreasyia cazibədarlığını müəyyən etmək üçün test turların təşkil olunması və bunların əsasında gələcəkdə Naxçıvan Muxtar Respublikasının bu yaşayış məntəqəsində turizmin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Buraya təşkil olunan turların əhəmiyyəti bir də ondan ibarətdir ki, Nehrəm kəndinə indiyə qədər sırf turizm məzmunlu turlar təşkil olunmadığından buradakı potensial istifadə olunmamış qalıb. Bu isə Nehrəm kəndi istiqamətində təşkil olunan turlar üçün SWOT təhlil aparılmasını zəruri edən amillərdəndir.

Nehrəm kəndinə təşkil olunacaq turlar arasında ilk olaraq tanışlıq məzmunlu turları göstərmək olar. Bu kənddəki qədim dini obyektlər, kəndin tarixi qədim küçələri, burada xalqımıza xas olan yaxşı qorunub saxlanılmış el adətləri, böyük ədib Cəlil Məmmədquluzadənin Xatirə muzeyi və şübhəsiz ümummilli lider Heydər Əliyevin Nehrəm kəndi ilə bağlı olan xatirələri buraya ekskursyaya gəlmiş turistlərdə böyük maraq doğurur. Bundan başqa Nehrəmdə mövcud olan fermer təsərrüfatları ilə tanışlıq da turistlər, xüsusən tələbə-gənclər arasında maraqla qarşılanır. Bu məqsədlə, “Turizm və otelçilik” ixtisasında təhsil alan tələbələrin iştirakı ilə Nehrəmə təşkil olunan test turundan alınan nəticələr timsalında SWOT təhlil aparaq.

3. Metodologiya

Naxçıvan-Nehrəm turizm marşrutu üzrə ilk test turu 2017-ci ilin aprel ayında “Naxçıvan” Universitetinin “Turizm və otelçilik” ixtisasında təhsil alan III kurs tələbələrinin istehsalat təcrübəsi çərçivəsində təşkil olunub. Turun həyata keçirilməsi üçün əvvəlcədən Nehrəm kəndi haqqında məlumatlar əldə olunub, tur günü müəyyənlləşdirilib, kiçik hazırlıqlar aparılıb. Nəticədə, tələbələrin bu kəndə ediləcək səyahətə marağının yüksək olduğu müəyyənləşib. Nehrəm kəndi artıq qeyd olunduğu kimi Naxçıvan şəhərinə çox da uzaq olmadığından bu istiqamətdə tələbələri daşımaq üçün nəqliyyat vasitəsi əldə olunması da çətinlik yaratmayıb. Ayırıca qrupda təhsil alan tələbələrin bir çoxunun da Naxçıvan Muxtar Respublikası sakini olmaması da digər istiqamətlər kimi Nehrəmə də ediləcək səfərlərin motiv gücünü artıran amillərdən olub. Bu qrupda təhsil alan tələbələrdən bir nəfərinin Nehrəm kənd sakini olması 15 min nəfərə yaxın sakini olan iri bir kənddə həyata keçiriləcək ekskursiyada bələdçi probleminin də həll olunmasına köməklik edib.

Test turunda əvvəlcə Nehrəm kəndinin mərkəzində yerləşən Cəlil Məmmədquluzadənin Xatirə muzeyi ziyarət edilib, tələbələr böyük ədibin həyatı və yaradıcılığı haqqında məlumatlandırılıblar.(Şəkil 1) Sonra tələbələr

bu kənddə yerləşən iri fermer təsərrüfatlarından biri olan "Xalaoğlu" maldarlıq-quşçuluq təsərrüfatına baş çəkib, burada kənd təsərrüfatı heyvanlarının saxlanılma şəraiti, süd məhsullarının istehsalı sahəsi ilə tanış olublar. (Şəkil 2) Daha sonra Nehrəm kəndinin qədim məhəllələri boyunca keçilən ekskursiya boyu tələbələr kəndin adət-ənənələri haqqında məlumat alıb, tarixi yerlər, məscidlərlə tanış olub, kənd sakinləri ilə ünsiyyətdə olublar. (Şəkil 3.) Yarımgün ərzində davam edən ekskursiya tələbələrdə geniş təəssürat yaradıb, onlarda bir kənd yaşayış məntəqəsində həm tarixi-mədəni, həm dini-etnoqrafik, həm də aqroturizm məzmunlu səyahətlərin necə təşkil oluna biləcəyi haqda təsəvvürlər yaradıb. Tur rəhbərliyi zamanı apardığımız müşahidələr, tələbələrin ekskursiya obyektləri ilə tanışlığı zamanı verdiyi reakisyaların qiymətləndirilməsi ilə əldə olunan nəticələr bu məqalənin elmi-metodoloji əsasını təşkil edir.

Əldə olunmuş ilkin nəticələri Nehrəmə turların təşkil üçün ümumi elmi tələblər baxımından müsbət və mənfi istiqamətdə iki cür təsnif etmək mümkündür.

Müsbət	Mənfi
• Nehrəm kəndi Naxçıvana çox yaxın məsafədədir; • Nehrəmə ekskursiyalar çox az təşkil olunduğundan belə turlar olduqca maraq doğurur; • Nehrəmə aparan yol müasir səviyyədə rahatdır; • Nehrəmə səyahəti gün ərzində istənilən saatda təşkil etmək mümkündür; • Nehrəmlə birgünlük tanışlıq üçün kifayət qədər turizm ehtiyatı vardır; • Kəndin ərazisində hərəkət üçün yaxşı imkanlar vardır; • Nehrəm ərazisindəki turizm ehtiyatları öz orijinallığını qoruyub saxlaya bilib; • Nehrəmə səyahətin nəqliyyat xərcləri az olduğu bu xüsusən tələbələr kimi sosial ehtiyacları çox olan ekskursantlar üçün cazibədardır.	• Nehrəm kəndi ilə tanışlıq üçün ekskursiya xəritəsinin olmaması; • Naxçıvan şəhərindən kəndə gedən yol müasir standartlara uyğun olsa da kəndarası bəzi yerlərdə yol şəraitinin xüsusən yağıntılı vaxtlarda əlverişli olmaması; • Kəndarası taksi xidmətinin olmaması; • Kəndarası küçələrin adlarının yazılmaması; • Qədim məhəllərdən keçən küçələrin əsas yollarla çıxışının göstərilməməsi. • Nehrəm kəndi üzrə ekskursiyalarda təcrübəsizlik

4. Əldə olunan nəticələr

Nehrəm kəndinə tanışlıq məqsədilə təşkil olunmuş turlar üzrə alınmış ilkin elmi nətcələri belə SWOT təhli etmək olar:

Güclü tərəflər	**Bunların qorunub saxlanılması üçün tələb olunanlar**
Nehrəm kəndinə təşkil olunan ekskursiyalar xərclər aşağı olduğu üçün iqtisadi cəhətdən səmərəlidir;	Turizm fəaliyyətindən gəlir əldə edə bilmək üçün bundan istifadə olunmalıdır;
Nehrəmin adı yaxşı tanınıb;	Bundan marketinq tədbirlərində rasional istifadə olunmalıdır;
Nehrəm sakinləri qonaqpərvərdirlər;	Sosial münasibətlərdə peşəkar olmaq lazımdır;
Nehrəmdə qədim ənənələr yaxşı qorunub saxlanılıb;	Bu ənənələrin aşınmamasına çalışılmalıdır;
Nehrəmdə sosial infrastruktur şəraiti normal vəziyyətdədir;	Bu şəraitdən səmərəli istifadə etmək lazımdır;
Nehrəm üzrə nəqliyyat imkanları genişdir;	Bu şəraitin qorunub saxlanılması üçün turistlərin səfəri zamanı ictimai nəqliyyat vasitələriən üstünlük vermək lazımdır;
Nehrəmə gün ərzində bir necə tur təşkil etmək olar.	Günün birinci yarısında təşkil olunan turlar daha cazibədardır.
Zəif tərəflər	**Bu cəhətlərin gücləndirilməsi üçün nə etmək tələb olunur?**
Nehrəmin turizm markası kimi adı Naxçıvanın digər yerləri (məsələn, Ordubad, Əlincəqala, Əshabi-Kəhf ziyarətgahı və s.) ilə müqayisədə az tanınıb;	Bunun üçün Nehrəmi digər yollarla tanıdan vasitələrdən, məsələn Nehrəm adının Nuh Peyğəmbərin adı ilə bağlı olması, ulu öndər Heydər Əliyevin Nehrəmlə bağlı olan xatirələri kimi faktlardan istfiadə olunmalıdır;
Nehrəmdə turizm fəaliyyəti ilə məşğul olan mütəxəssis azdır;	Bunun üçün bu kəndin məktəblərindən məzun olan gənclərin universitetlərin “Turizm

Nehrəmin qədim küçələrində turistlərə təqdimat aparılması üçün çətinliklər vardır; Nehrəm kəndinin turizm potensialının tanıdılması üçün buklet, multimedia materialları çatışmır.	və otelçilik" ixtisaasına yönləndirilməsi üçün işlər aparılmalıdır; Bunun üçün burada küçə adları yazılmalı, turistlərin hərəkətinə mane olan bəzi yad ünsürlər təmizlənməlidir; Bunların yaradılması üçün işlər aparılmalıdır.
Fürsətlər Nehrəm kəndinə təşkil olunacaq turlar turizm marşrutlarının hazırlanması və əsaslandırılması baxımından təcrübə qazanmağa imkan verir; Bu kənd istiqamətindəki turlar zamanı həm aqroturizm, həm də tanışlıq turları üçün zərflər hazırlanması imkanları yaranır; Nehrəm kəndinə təşkil olunacaq turlar buranın tanıdılması üçün yaxşı fürsət yaradır; Nehrəm kəndi haqqında elektron resurslar az olduğunudan bu kəndə gələcək turistlərin foto-video təəssüratları bu resursların yaradılması üçün yaxşı fürsətlər yaradır.	
Təhlükəli tərəflər Nehrəm kəndinə səyahət zamanı qeyri-peşəkarlıq burada arzuedilməyən hallar yaranmasına səbəb ola bilər; Nehrəmdə keçirilən ekskursiyalarda iştirak edənlər təqdimat obyektinə müxtəlif səviyyədə maraq göstərə	**Bunların aradan qaldırılması üçün tələb olunan işlər** Bunun üçün tur rəhbərlər ixtisaslı olmalı, bələdçi yerli sakin seçilməlidir; Bunun üçün ekskursiyada iştirak edənlər müxtəlif əlamtələrinə görə əvvəlcədən seqmentlərə ayrılmalıdır;

bilər; Nehrəmin qədim küçələrində turistlərin hərəkəti zamanı onların yolu itirib qrupdan ayrı düşməsi halları mümkündür; Nehrəm kəskin kontinental zonada yerləşdiyindən ilin isti və soyuq aylarında buraya gələn ekskursantlar üçün çətinlik yarana bilər	Bunun üçün qrup üzvlərinin sayı optimal olmalı, geniştərkibli qrpular üçün bələdçi sayı 2 və daha çox olmalıdır; Bunun üçün mövsümə görə zaman seçilməlidir

Nəticə və təkliflər

Nehrəm kəndinə təşkil olunan turun SWOT analizi ilə aşağıdakı nətıcələr əldə olunub:

- Nehrəm kəndi Naxçıvan Muxtar Respublkasının qədim tarixə və müasir mədəni inkişaf səviyyəsinə malik bir yaşayış məntəqəsi kimi geniş turizm potensialına malikdir;
- Nehrəmə təşkil olunan turlar üçün dəqiq proqram tutulmalı, yerli əhalinin maraqları nəzərə alınmalıdır;
- Nehrəm üçün unikal olan turizm ehtiyatları əvvəlcədən araşdırılmalı, bu istiqamətdə təşkil olunan turproqramların biznes planına daxil edilməlidir;
- Nehrəm kəndinə təşkil olunan ekskursiya turları təkmilləşdirilib, ümumi metodologiyaya və yerli şəraitə uyğunluşdırılmalıdır.

ƏDƏBİYYAT

1. https://az.wikipedia.org/wiki/Nehr%C9%99m Nehrəm kəndi haqqında. İnternet ensiklopediya
2. M.Məmmədov Nuh peyğəmbərin ayağı dəyən torpaq: Nehrəm. Şərq Qapısı qəzeti, 19.02.2013 http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/595-nuh-peyzhhaembaerin-ayazhh-daeyaen-torpazh-nehraem
3. Ə.Cabbarov. Şəhərləşən kəndlərimiz. Şərq Qapısı qəzeti, 25.12.2014 http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/5885-shaehaerlaeshaen-kaendlaerimiz
4. Nehrəmdə yeni məscid tikilmişdir. Şərq Qapısı qəzeti, 12.11.2016 http://www.serqqapisi.az/index.php/resmikhronika/11248-nehraemdae-yeni-maesdzid-tikilmishdir
5. İ.Ə. Həbibbəyli. Müasir inkişafın reallıqları və üfüqləri http://www.science.gov.az/news/open/2892
6. “Bir kəndin məşhurları” – Cəlil Məmmədquluzadənin kəndinin tanınmışları http://modern.az/az/news/83746/#gsc.tab=0

7. https://www.youtube.com/watch?v=irBy-rDkYK4 - Nehrəm kəndi - Ümummili lider Heydər Əliyev Nehrəm haqqında
8. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndinin bir qrup sakini ilə görüşdə söhbəti - Prezident sarayı, 28 fevral 2001-ci il http://lib.aliyevheritage.org/az/38055594.html
9. http://www.xalqqazeti.com/az/news/news/77869 Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə verilmişdir

РЕЗЮМЕ

АЛИ ДЖАББАРОВ

SWOT АНАЛИЗ ТЕСТ ТУРА ПО МАРШРУТУ НАХЧЫВАН-НЕХРАМ

Проектирование туристических маршрутов и их тестирование имеют важное значение при разработке новых туристских маршрутов. В этом смысле, познавательные туры по направление селе Нехрам Нахчыванской Автономной Республики имеют большой потенциал. В этом научном статье исследуется состояние и перспективы существующий туры по направление селе Нехрам, использование объектов имеющий туристический потенциал и дан SWOT анализ экскурсии которые проводится здесь.

Ключевые словы: туризм; туристские маршруты; Нахчыванская Автономная Республика; село Нехрам; экскурсия; SWOT анализ

SUMMARY

ALİ JABBAROV

THE SWOT ANALYZE OF TESTING TOUR THROUGH NAKHCHIVAN-NEHRAM TOURISM ROUTE

The carrying out of tourism routes plays a significant role within creating&testing and suitable designing of them for tourists needs. Thus, the tourism route Nakhchivan-Nehram, having tourist attraction has great potential. In this scientific article was given the analyze of the current state of sightseeing tours to Nehram, its' perspectives, the operation facilities of tourism attraction places of this village and studied Strengths, Weaknesses, Opportunities, Threats **(SWOT) sides of excursions held in the Nehram village.**

Key words: tourism; tour route; Nakhchivan Autonomous Republic; Nehram village; excursion; SWOT analyse

Məqaləyə dair fotoşəkillər

Şəkil1. Nehrəmdə Cəlil Məmmədquluzadənin Xatirə muzeyi ilə Tanışlıq

Şəkil 2. Nehrəmdə “Xalaoğlu”maldarlıq-quşçuluq təsərrüfatı ilə tanışlıq

Şəkil 3. Nehrəm kəndinin qədim məhəllələrinin birində

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

SADIQ RƏHİMOV
“Naxçıvan” Universiteti
s.rahimov@nu.edu.az

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI ÖLKƏDƏ YENİ İQTİSADİ SİYASƏTİN BAŞLANĞICININ ƏSASI KİMİ (2004-2008-CI İLLƏR)

Məqalədə Azərbaycan Respublikasında 1993-2003-cü illər ərzində həyata keçirilmiş iqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitliyin bərqərar olmasının iqtisadiyyatın dinamik inkişafına əsaslı yol açması və əhalinin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaratması ətraflı izah edilmişdir.

Məqalədə əldə olunan nailiyyətlərlə yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində həll edilməmiş problemlərin istiqamətində qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) və buna müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər) çərçivəsində qarşıya qoyulmuş vəzifələr və proqramın əhatə dövründə onların icrası vəziyyəti geniş şərh edilmişdir.

Açar sözlər: Dövlət Proqramı, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, sosial təminat.

Ötən əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən respublikamız ilk illərdə daxili çəkişmələr, qeyri-sabit siyasi vəziyyət,iqtisadi xaos şəraitində yaşamışdır. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə ölkədə həyata keçirilən məqsədyönlü,uzaqgörən siyasət yaranmış siyasi və iqtisadi böhranı aradan qaldırmış, respublikamızın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açmışdır.

Ardıcıl aparılan davamlı,məqsədyönlü və uzun müddətə əsaslanan islahatlar nəticəsində artıq 1996-cı ildən başlayaraq ölkədə makroiqtisadi sabitliyə nail olunmuş və növbəti ildən isə dinamik inkişafın təməli qoyulmuşdur. 1997-ci ildə ümumi daxili məhsulun artım sürəti əvvəlki ilə nisbətən dörd faiz çox olmaqla 5.8 faizə çatmışdır. 1998-2003-cü illərdə isə bu artım orta hesabla ildə 10.0 faiz təşkil etmişdir.

Bu dövrlərdə iqtisadi islahatların ən mühüm amillərindən biri olan dövlət mülkiyyətinin özəlləşdirilməsinin həyata keçirilməsinə başlanılmış, ölkədə azad sahibkarlığın yaradılması və inkişafı üçün əlverişli münbit şərait yaradılması üçün zəruri olan təxirəsalınmaz tədbirlər görülmüş və nəticədə əhalinin güzəranının əsaslı sürətdə yaxşılaşmasına nail olunmuşdur. Uğurlu torpaq islahatının həyata keçirilməsi təmin olunmuş 1400 min hektar torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanılmışdır.

Ölkədə kiçik və orta sahibkarlığın inkişafına əsaslı yol açılmış, düşünülmüş məqsədyönlü,şəffaflıq şəraitində aparılan özəlləşdirmə proqramı başlayandan 2003-cü ilin sonuna qədər 36200 kiçik müəssisə və obyekt özəlləşdirilmiş, II özəlləşdirmə proqramı çərçivəsində isə daha geniş əhatəli sahələrin özəlləşdirilməsi davam etdirilmişdir. Sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı görülən əhatəli və davamlı işlərin nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət sektorunun xüsusii çəkisi 1995-ci ilədək 30 faizdən, 2003-cü ildə 73.0 faziə çatmışdır.

1995-2003-cü illər ərzində ölkədə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi sahəsində aparılan əsaslı və davamlı işlər həyata keçirilmiş, əmək haqlarının, pensiyaların və müvainətlərin artırılması təmin olunmuşdur. Bu illərdə orta aylıq əmək haqqı və pensiyaların məbləği 6 dəfədən çox artmışdır.

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq 1994-cü ilin sentyabrın 20-də dünyanın aparıcı şirkətlərinin iştirakı ilə bağlanmış Neft Kontraktları ölkəmizin gələcək inkişafının təmin edilməsində əsaslı rol oynamışdır. Ölkə rəhbərinin apardığı uğurlu və məqsədyönlü daxili və xarici siyasətin nəticəsində Azərbaycan dünya dövlətləri içərisində özünə layiqli yer tutmağa müvəffəq olmuşdur.

Göstərilən nailiyyətlərlə yanaşı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi ölkənin sosial iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də həll edilməmiş problemlər qalmaqda idi. Ölkənin sənaye potensialının və bununla bağlı infrasturuktur obyektlərin əksəriyyətinin Bakı şəhərində yerləşməsi və yerlərdə mövcud olan istehsal və xidmət sahələrinin, müəssisələrin fəaliyyətinin zəifləməsi və ya tamamilə dayanması əhalinin ölkə paytaxtına axınını sürətləndirmişdir. Bütün bunlar isə iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərmiş, ölkədə demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına səbəb olmuşdur.

Ölkənin regionlarının inkişafındakı mövcud vəziyyətin regionların potensialından daha səmərəli istifadə etməklə yerlərdə sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi və onlar arasındakı fəqin minimuma çatdırılması məsələsini gündəmə gətirmişdir. Müşahidə olunan vəziyyəti nəzərə alaraq hazırlanmış, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” nda 2004-2008-ci illər ərzində ölkənin ayrı-ayrı regionlarının iqtisadiyyatının inkişafını sürətləndirmək və bu istiqamətdə dövlət siyasətinin və dövlət dəstəyinin həyata keçirilməsi ilə rayonların mövcud potensialından səmərəli istifadə olunması, istehsal müəssisələrinin fəaliyyətlərinin genişləndirilməs, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşıaşdırılması, ölkənin iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi məsələləri qarşıya qoyulmuşdur.

Qəbul olunmuş Dövlət Proqramı ölkənin iqtisadi rayonları üzrə tərtib edilmişdir və burada Naxçıvan Muxtar Respublikasına ayrıca yer verilmişdir. Yazının bu hissəsində Naxçıvan Muxtar Respublikasının 1993-2003-cü illər arası dövrdəki iqtisadi və sosial inkişafı mənzərəsinə nəzər salınmasına ehtiyac vardır. Ümummilli lider Heydər Əliyevin Ali hakimiyyətə qayıdışın-dan sonra

Azərbaycanın digər bölgələri kimi Naxçıvan Muxtar Respublikası da əsaslı inkişaf yoluna çıxmışdır. Bu illər ərzində bölgə iqtisadiyyatının inkişafı üçün reallaşdırılan sosial-iqtisadi islahatların hədəfi blokada şəraitinin doğurduğu çətinliklərin aradan qaldırılması və yaranmış problemlərdən alternativ yollarla xilas olmağa iqtiqamətlənmişdir.

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsinin başlanğıcı 1996-cı ilə təsadüf edir ki, bu da cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə bağlı olmuşdur.

Uzun illər blokada şəaritində olması ilə əlaqədar fəaliyyətini dayandırmış sənaye müəssisələrinin 1996-cı ildən başlayaraq fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması, nəticə etibarı ilə əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalının təçkilinə və ümumilikdə sənaye məhsullarının istehsalının artımına səbəb olmuşdur. Belə ki, 2003-cü ildə muxtar respublikada istehsal edilmiş sənaye məhsulunun həcminin 1993-cü ildəki səviyyəyə nisbətən 3,4 dəfə üstələməsi əsas göstəricilərdən biri olmuşdur (2.67). 1993-2003-cü illər ərzində muxtar respublikada əsas kapitala 147.4 milyon manat həcmində investisiya yönəldilmişdir (2.68). Bunun nəticəsi olaraq həmin dövrlərdə 15 inzibati bina, 24 nasos stansiyası,135 subartezian quyusu, 6 ticarət mərkəzi, 60 elm və təhsil müəssisəsi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 123 istehsal və xidmət obyekti, ehtiyacı olan müxtəlif kateqoriyalı insanlar üçün 47 fərdi ev tikilərək istifadəyə verilmişdir. (2.69).

Bu illər ərzində muxtar respublikada aqrar sahənin inkişaf etdirilməsi üzrə ardıcıl və məqsədyönlü işlər aparılmış, bu sahənin inkişaf etdirilməsində yeni mərhələyə başlanılmışdır. Aparılmış ardıcıl islahatlrın nəticəsində muxtar respublikada əkin sahələri 2003-cü ildə 1993-cü ilə nisbətən 72.1 faiz çoxaldılmış, bütün növ əkin məhsullarının istehsalı bir neçə dəfə artırılmışdır. Kənd təsəürrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafına xüsusi diqqət verilmiş, heyvanların baş sayında,istehsal olunan məhsulların həcm artımında əsaslı irəliləyişlər əldə edilmişdir.

İqtisadiyyatın bütün sahələrində qazanılmış uğurlar məşğulluq probleminin də həllinə zəmin yaratmışıdır. Təhlil olunan illər ərzində muxtar respublikada 21851 yeni iş yeri yaradılmışdır ki, bunun da 11377-si və 52.1 faizi daimi iş yerləridir (2.73). Bu illər ərzində aparılmış uğurlu fəaliyyətin nəticəsidir ki, 2003-cü ildə muxtar respublikada 168040.4 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 1993-cü ildəki müvafiq göstəricini 6.8 dəfə üstələyir (2.74). Azərbaycan iqtisadiyyatında qazanılan uğurları daha əzəmətli etmək, ölkənin bütün regionlrının sosial-iqtisadi baxımdan yüksək səviyyədə inkişaf etdirmək, əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədini daşıyan Dövlət Proqramı və onun əsasında hazırlanan "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" nda enerji təhlükəsizliyinə xidmət edən sahələrin davamlı inkişaf etdirilməsi, yeni su elektrik stansiyalarının tikilməsi, elektrik enerjisi, qaz, istilik təminatı sisteminin inkişafı, yeni avtomobil yollarının salınması məsələləri təsbit edilmişdir.

Proqramda eyni zamanda kənd təsərrüfatının üzümçülük, taxılçılıq, heyvandarlıq, ipəkçilik, tərəvəzçilik,meyvəçilik, arıçılıq sahələrinin inkişaf etdirilməsi suvarma-drenaj şəbəkələrinin bərpası, yeni emal sahələrinin yaradılması kimi mühüm tapşırıqlar qarşıya qoyulmuşdur.

Tikinti materialları istehsalı sahələrinin inkişaf etdirilməsi və yeni yataqların aşkar edilməsi üzrə işlərin aparılması, bölgədə turizmin inkişaf etdirilməsi, sosial obyektlərin bərpası, tikinti və təchizat üzrə əsaslı tapşırıqlar proqramda yer almışdır.

Proqramdan irəli gələn genişmiqyaslı tapşırıqların yerinə yetirilməsi üzrə 2005-2008-ci illər arasında aparılmış uğurlu icraların nəticəsində muxtar respublikada mkroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində böyük uğurlar qazanılmış, əhalinin həyat səviyyəsi əsaslı sürət yaxşılaşmışdır.

Proqramın icrası dövründə ümumi daxili məhsulun (ÜDM) real həcmi 3.4 dəfə artaraq 795.7 milyon manata çatmış, ÜDM-in adambaşına düşən nominal həcmi 3.3 dəfə artaraq 2057.3 manat təşkil etmişdir. Muxtar Respublikanın sənayesində 6.4 dəfə, kənd təsərrüfatında isə 2 dəfə artım olmuşdur (3.7). Bu illər ərzində müxtəlif növ heyvandarlıq məhsullarının istehsalı üzrə artım 15-20 faiz arasında olmuşdur. Dövlət Proqramı çərçivəsində muxtar respublikada infrasturkturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu sahələrə irihəcmli investisiyalar yönəldilmişdir (3.10).

Elektrik enerjisi təminatı sahəsində əsaslı işlər aparılmış, 87 meqavat gücündə olan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində 4.5 meqavat gücündə su elektrik stansiyası tikilərək istifadəyə verilmiş, yeni su elektrik stansiyalarının tikintisi üzrə işlər davam etdirilmiş və bununla da Naxçıvan Muxtar Respublikası enerji idxal edən diyardan onu ixrac edən ölkəyə çevrilmişdir. Bu dövrdə muxtar respublikaya uzun fasilədən sonra təbii qazın verilməsi bərpa olunmuşdur.

Muxtar Respubliknın sosial-iqtisadi inkişafında önəmli infrasturktur olan nəqliyyat və rabitə sisteminin yeniləşməsi sahəsində bölgədə 350 kilometr magistral yol çəkilmiş, yerli əhəmiyyətli yolların əsaslı təmiri aparılmış, böyük tutumlu danışıq, video informasiya, sürətli internet, videotelefon,videokonfrans kanalları yaradılmışdır.

Dövlət proqramı çərçivəsində əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması üzrə əsaslı tədbirlər aparılmış, bu illər ərzində muxtar respublikada 10 xəstəxana, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, onlarla digər tibb müəssisələri tikilmiş, müasir tibbi ləvazimat və avadanlıqlarla təchiz edilmidşir. Proqramın həyata keçirilməsi dövründə təhsil ocaqlarının tikintisinə, onların mddi texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi önəm verilmiş, bu illər ərzində 48 yeni məktəb tikilmiş,19 məktəb isə əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Əhalinin sosial təminatının yaxşılaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirilmiş, əlillər və şəhid ailələri üçün 36 mənzilli yaşayış binası, müharibə veteranları, əlillər, qaçqın və məcburi köçkünlər üçün 156 fərdi ev, əlillər üçün 2 bərpa mərkəzi inşa edilmişdir. İdmanın inkişaf etdirilməsi sahəsində dövlətin xüsusi önəm verdiyi bir şəraitdə muxtar respublikada yeni idman obyektlərinin tikilməsi üzrə davamlı iş aparılmış, proqramın əhatə etdiyi dövrdə 2 olimpiya idman kompleksi və 4 şahmat mərkəzi tikilmidşir.

Mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə yönəldilmiş Dövlət və Regional inkişaf proqramlarının həyata keçirilməsinin uğurlu nəticələri bundan sonraki dövrdə də həyata keçiriləcək sosial-iqtisadi siyasət, yaradılmış iqtisadi potensial iqtisadi inkişafın sürətləndirilməsinə və daha yüksək səviyyəyə qalxmasında, əhalinin həyat səviyyəsinin yaxşılaşmasında, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsində mühüm nailiyyətlər qazanılması üçün uğurlu və dayanıqlı zəmin yaratmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı-2004
2. Naxçıvan Muxtar Respublikası-90 (quruculuq salnaməsi)-Naxçıvan 2014
3. Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər). Naxçıvan-2005
4. Naxçıvan Muxtar Respublikasının 2009-2019-cu illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Naxçıvan-2009

РЕЗЮМЕ

САДЫГ РАГИМОВ

ГОСУДАРСТВЕННАЯ ПРОГРАММА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНОВ КАК ОСНОВА НАЧАЛА НОВОЙ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ В СТРАНЕ (2004-2008-ЫЕ ГОДЫ)

В научной статье подробно и пояснительно даны открытие основательных путей динамического развития и создание условий для улучшения жизненного уровня населения установлением макроэкономической стабильности, в результате проведенных экономических реформ за 1993-2003-ые годы.

В соответствии с темой в статье, наряду с достижениями, излагаются поставленные задачи в принятой в направлении нерешенных проблем в области социально-экономической жизни страны, в частности, в развитии регионов и занятости населения, Государственной Программе

социально-экономического развития регионов Азербайджанской Республики (2004-2008-ые годы), и в соответствии с ней в Программе Регионального Развития Нахчыванской Автономной Республики (2005-2008-ой годы), а также состояние их выполнения в период, охватываемый программой.

Ключевые слова: Государственная Программа, социально-экономическое развитие, промышленность, сельское хозяйство, социальное обеспечение.

SUMMARY

SADIG RAHIMOV

THE STATE PROGRAM OF SOCIO-ECONOMIC DEVELOPMENT OF REGIONS (2004-2008 YEARS) AS A START OF NEW ECONOMIC POLICY IN THE COUNTRY

In this article were explained the favorable condition like macroeconomic stability which ivfluences to dynamic development and bevel of life after the economic reforms implemented alwing the 1993-2003 years in the Republic of Azerbaijan.

In pevralel of achievements, also were given defailed explainatation of the fulfilling problems which were put forward The State Program of the development of regions of Republic Azerbaijan (2004-2008 years) and following by it The Regional Program of NAR in (2005-2008 years) accepted in the framework of unsolved problems of within the socio-economic live, especially regional development and enyoloyment of population.

Key words: State Program; socio-economic development; industry; agriculture; social-defence

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

MƏDİNƏ ALLAHVERDİYEVA
“Naxçıvan” Universitetinin
qfil@hotmail.com

NAXÇIVAN MUXTAR RESPUBLİKASI REGİONLARININ İNKİŞAFINDA SƏNAYENİN ROLU

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasət regionun sosial-iqtsadi mənzərəsini kökündən dəyişmış, burada müasir, güclü infrastrukturun qurulması, yeni müəssisələrin yaradılmasına, iş yerlərinin açılmasına zəmin yaratmış, investisiya fəaliyyətinin sosial iştiqamətinin gücləndirilməsi, insan kapitalına, infrastrüktüra qoyulan investisiyaların prioritetliyi təmin etmişdir.

Açar sözlər: Naxçıvan Muxtar Respublikası, Dövlət proqramları Ümumi Daxili Məhsul, investisiya, sənaye, kənd təsərrüfatı, informasiya texnologiyaları

Müasir dövrdə sənayenin inkişafı iqtisadiyyatda mühüm yer tutur. Sənaye elə bir sahədir ki, bu sahənin inkişafına nail olmadan iqtisadiyyatda hər hansı bir uğurdan söhbət gedə bilməz. Ancaq ölkəmizdə, eləcə də muxtar respublikamızda sənayenin hərtərəfli inkişafına gedən yol heç də hamar olmamışdır. Azərbaycanda bu sahədə kifayət qədər potensial olsa da, bu potensialdan istifadə edilməsi yalnız ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur.

Ölkəmizin ayrılmaz tərkib hissəsi olan və son illərdə daha sürətli inkişaf yoluna qədəm qoymuş muxtar respublikamızda da sənayenin inkişafı üçün kifayət qədər münbit şərait vardır. Burada ən başlıca məqamlardan biri də bu qədim diyarın faydalı xammal yataqları ilə zəngin olmasıdır. Təbii ki, bütün bu kimi amillər muxtar respublikada sənayenin inkişafında mühüm rol oynayır və son illərin statistik məlumatları bu sahənin gələcəyi ilə bağlı hər birimizdə optimist əhval-ruhiyyə yaradır.

Naxçıvan Muxtar Respublikası sənaye məhsulu istehsalının artım tempinə görə, sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının 10 iqtisadi rayonu arasında ilk yerdədir. Yaradılan münbit sahibkarlıq mühiti öz növbəsində yeni hüquqi və fiziki şəxslərin yaranması, sənayedə fəal təsərrüfat subyektlərinin sayının artması proseslərini xeyli dərəcədə sürətləndirmişdir.Sənaye potensialının müntəzəm əsasda gücləndirilməsi məqsədilə həyata keçirilən sistemli tədbirlər öz bəhrəsini verməkdədir.

Sənaye məhsulu istehsalı regionda iqtisadi inkişafın mühüm göstəricilərindən biri olub, əməktutumlu yeni iş yerlərinin yaradılmasının, innovasiyaların tətbiqi və ixracyönümlü əmtəələrin çeşidinin artırılmasının əsas yolların-

dan biridir. Sənayeləşmə vasitəsilə müxtəlif sahələrdən əldə olunan xammal ehtiyatları insanların tələbatlarına cavab verə bilən son məhsul halına gətirilir, ixtisaslaşmış əməyin tətbiqinə geniş meydan açılır.

Sənaye məhsulu istehsalının 95,6 faizi malların, 4,4 faizi isə xidmətlərin payına düşmüşdür. Sənayenin dövlət sektorunda 63 milyon 746 min manatlıq, qeyri-dövlət sektorunda isə 799 milyon 124 min manatlıq məhsul istehsal olunmuşdur. İstehsal olunan sənaye məhsulunun 92,6 faizi özəl sektorun payına düşmüşdür

Muxtar respublikada son illərdə çörək-bulka məmulatı, un, ət və süd məhsulları, quş əti, makaron, çay, qənd, duz, şirniyyat, meyvə şirəsi, spirtli içkilər, pasterizə edilmiş və qablaşdırılmış bal, qovrulmuş və paketlənmiş kənd təsərrüfatı məhsulları, mineral sular, dekorativ daşlar, travertin üzlük daşlar, plastik materiallar, əhəng, gəc, mərmər, müxtəlif çeşidli mebellər, metal, çuğun və əlvan metal emalı və sair məhsulların istehsalı ilə məşğul olan sənaye müəssisələri istifadəyə verilmişdir. Naxçıvanda faydalı qazıntı hasilatı xüsusi yer tutur. Sənaye əhəmiyyətli daş duz, dolomit, travertin, tuf, mərmərləşmiş əhəngdaşı, gips, gil, qum, mergel, sink-qurğuşun, molibden, miss-molibden, qızıl və mineral sular kimi zəngin təbii sərvətlərə malik muxtar respublikada müxtəlif növ tikinti materiallarının, o cümlədən dəmir-beton, kərpic, travertin, mərmər və sair məhsulların istehsalının genişləndirilməsi və istehsal olunmuş məhsulların dünya bazarına çıxarılması üçün əlverişli şərait mövcuddur. 2015-ci ildə muxtar respublikada 916 milyon 817 min 900 manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da ötən ildəki müvafiq göstəricini 2 faiz üstələyir. Sənaye məhsulu istehsalının 95,8 faizi malların, 4,2 faizi isə xidmətlərin payına düşmüşdür. Sənayenin dövlət sektorunda 41 milyon 792 min 500 manatlıq, qeyri-dövlət sektorunda isə 875 milyon 4 25 min 400 manatlıq məhsul istehsal olunmuşdur. İstehsal olunan sənaye məhsulunun 95,4 faizi özəl sektorun payına düşmüşdür. Sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən 2015-ci ildə təsərrüfat subyektlərinə 14 milyon 318 min 400 manat həcmində kreditin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 2,5 dəfə çoxdur. Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş, 2015-ci ildə 316 milyon 797 min 300 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur.

İllər	**İstehsal olunmuş sənaye məhsulu**, min manat	**Əvvəlki ilə nisbətən, faizlə** (müqayisəli qiymətlərlə)
2010	318564,8	144,4
2011	680921,2	2,1
2012	799492,4	115,7
2013	862870,5	106,3
2014	891486,4	102,5
2015	916817,9	102,0

Ölkə iqtisadiyyatında getdikcə daha çox diqqət cəlb etməyə başlayan məsələlərdən biri də sənaye sferasında atılan addımlar və burada regionların potensialından daha geniş şəkildə istifadə olunmasıdır. Müasir dövrdə iqtisadiyyatın sənaye sektorunun inkişafında sənaye parklarının yaradılması böyük əhəmiyyət kəsb edir.Belə layihələr müxtəlif sənaye istiqamətlərinin paralel, eyni zamanda tarazlı inkişafını təmin edir, habelə istehsal sahələrinin və onların innovasiya istiqamətlərinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına şərait yaradır.

Xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatında ixracın, idxalı əvəz edən məhsulların istehsalının, məhsulların rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına üstünlük verirlər. Sənaye parkı sənaye sahələrini inkişaf etdirmək üçün ayrılan torpaq sahəsi olaraq nəzərdə tutulur.

Sənaye parklarının əhəmiyyətli cəhətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın dəstəklənməsinin bir yolu kimi sənaye parklarının yaradılmasına başlanılmışdır. Qeyd edək ki, bu sahədə artıq müvafiq qanunvericilik bazası yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Əsasnamə" sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm dövlət sənədidir.

Muxtar respublikamızda fəaliyyət göstərən və yeni qurulacaq istehsal müəssisələrində yerli xammal mənbələrindən düzgün istifadə istehsal zamanı yarana biləcək əlavə xərclərin minimuma endirilməsi ilə yanaşı, həm də keyfiyyətli yerli sənaye məhsullarının əldə edilməsinə şərait yaradır ki, bu da həmin məhsulların ölkəmizdən kənarda tanıdılması baxımından çox əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi.
2. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi
3. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"
4. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
5. www.serqqapisi.az

РЕЗЮМЕ

МАДИНА АЛЛАХВЕРДИЕВА

РОЛЬ ПРОМЫШЛЕННОСТИ В РЕГИОНАХ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Экономическая политика проведенная в Нахчыванской Афтономной Республике в корне изменила социально экономический пейзаж региона, способствовала созданию новых учреждений, стала основой новых рабочих мест усилила направления социальных инвестиций человеческого фактора, и обеспечила приоретет вложения инвестиции в инфроструктуру.

Ключевые слова: Нахчыванская Афтономная Республика, Государственные программы, общевнутренный уражой, промышленность, сельское хозяйство, информационная технология.

SUMMARY

MADINA ALLAHVERDIYEVA

THE ROLE OF İNDUSTRY İN REGİONS OF NAKHCHİVAN AUTONOMOUS REPUBLİC

Held in Nakhchivan Autonomous Republic economic policy has changed the socio-economic landscape of the region, contributed to the creation of new institutions, has become the basis for new jobs, increased the area of social investment, human factors, and provided the priority investments in infrastructure

Keywords: Nakhchivan Autonomous Republic, Government programs, Public Domestic Product, investment, industry, agriculture, technology information.

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

HÜSEYN BAĞIRSOYLU
“Naxçıvan” Universiteti
h.bagirsoylu@nu.edu.az

NAXÇIVAN MR-DƏ SƏRBƏST TİCARƏT ZONALARININ YARADILMASI SAHƏSİNDƏ QANUNVERİCİLİK BAZASININ HAZIRLANMASI

Muxtar Respublikada iqtisadiyyatın kompleks inkişafı, onun şaxələndirilməsi sahəsində aparılan sənaye, kənd təsərrüfatı və digər sahəvi və mərhələ təyinatına uyğun işlər məhsul bolluğunun yaradılmasına yönələn fəaliyyətin təcəssümüdür. İstər makroiqtisadi göstəricilərin, istərsə də ayrı-ayrı sahə və fəaliyyət istiqamət-lərinin nəzərdən keçirilməsi bu məkanda sahibkarlıq mühitinin yeni yüksəliş mər-hələsinə qədəm qoymasından, bir sıra əmtəələr üzrə daxili tələbatın yerli istehsal hesabına ödənilməsindən və ixrac imkanlarının yaranmasından xəbər verir.

Açar sözlər: Xüsusi iqtisadi zonalar , qanunvericilik bazası, makroiqtisadi göstəricilər, sərbəst ticarət zonaları

Muxtar Respublika rəhbərliyi tərəfindən atılan məqsədyönlü addımların məqsədləri sırasın-da əhalinin ərzaq və digər tələbatının yüksək səviyyədə ödənilməsi, onun ilin bütün mövsümlərində keyfiyyətli ərzaq məhsulları ilə təmin olunması sadalana bilər. Bu-nunla belə, artan iqtisadi potensial məhsul artıqlığı ilə nəticələnə bilər ki, bu da əlavə bazarlar axtarışı məsələsini aktuallaşdırır. Bəhs olunan sahədə atılacaq addım-lar sırasında ticarət təyinatlı zonaların yaradılması mühüm əhəmiyyət kəsb edir.

Tarixə nəzər saldıqda görərik ki, Azərbaycan Respublikası tərəfindən müstə-qilliyin əldə olunmasında sonra sahibkarlığın inkişafı məqsədilə xüsusi iqtisadi (o cümlədən ticari ixtisaslaşmanı nəzərdə tutan) zonaların yaradılması üzrə qanunveri-cilik müstəvisində bir sıra addımlar atılmışdır. Məsələn, 1995-ci ildə BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəsi tərəfindən Sumqayıt şəhərində xüsusi iqtisadi zonanın yaradılması fikri irəli sürülmüşdür (lakin həmin fikir həyata keçmədi). Sonralar Naxçıvan və Lənkəran şəhərlərində xüsusi iqtisadi zonaların ya-radılması ilə bağlı dinləmələr və fikir mübadiləsi aparıldı. Daha sonra, 2002-ci ildə Azərbaycan hökuməti xüsusi iqtisadi zonaların (sərbəst ixrac zonası şəklində) yaradılması ilə bağlı Dünya Bankı və Beynəlxalq Vlyuta Fondu ilə razılaşmalar əldə etdi. Lakin sonrakı bir neçə ildə bu sahədə aparılan işlərdə fasilə yaranmışdır. [1; 23-25]

2006-ci ildən başlayaraq xüsusi təyinata malik iqtisadi zonalar üzrə məsələlərin aktuallaşması və təkrar gündəmə gəlməsi onların ölkə və region iqtisadiyyatlarının inkişafında nə dərəcə mühüm rol oynayacağından xəbər verirdi.

Qeyd edildiyi kimi, sərbəst ticarət zonaları ölkələrin, və regionların iqtisadi sisteminin tərkib elementi kimi təzahür edir. Onun yaradılması və tam-mənalı fəaliyyətinin təşkili digər məsələlərlə yanaşı hüquqi sahədə görülməli olan işlərin mövcudluğu, məzmunu və keyfiyyəti ilə də səciyyələnir. Hüquqi-iqtisadi tənzim-ləmə mənbə etibarı ilə iki istiqamətdə aparılan işlərin vəhdəti-ni, onların birinin-di-gərini tamamlanmasını, mübahisəli məqamların aradan qaldırılması müxanizmlə-rinin işlənilməsini tələb edir. Deyilənlərə həmçinin “region” komponentinin əlavə olunması da nəzərdən yayınmamalıdır.

Yaradılması, ölkə daxilində və beynəlxalq səviyyədə tanınması, qəbul edil-məsi proseləri özü-özlüyündə müvafiq nizamlayıcı xarakterli proseslərlə müşayət olunduğu üçün onun hər bir tərəf üzrə hüqui-normativ, tənzimləyici xarakterə malik bazasının mövcudluğu, fərdi şəkildə tətbiq imkanlarının qiy-mətləndirilməsi zərurəti ortaya çıxır. [8; 93-94]

1). Sərbəst ticarət zonalarının beynəlxalq müstəvidə hazırlanmış və qüvvədə olan, bəhs olunan istiqamət üzrə fəaliyyətin nizamlanmasına birbaşa və dolayı təsiri ilə bilinən hüquqi-normativ aktlar və digər qanunvericilik sənədləri;

2). Müvafiq zonaların sahib-ölkə daxilində fəaliyyətini təmin edən, bu fəaliyyətin təşkilində birbaşa və dolayı təsirə malik Qanunlar, digər müxtəlif sərəcəyə malik tənzimləyici aktlar;

3) zona daxilində fəaliyyətin tənzimlənməsinə yönəldilən, əsasən “zona (ad-ministrasiya) – sahibkar (satıcı) – istehlakçı (alıcı)” arasındakı qarşılqı əlaqələri tənzimləyən qanunvericilik normaları;

Hüquqi-normativ tənzimləmənin bir tərəfini beynəlxalq müstəvidə bu sahə üzrə ixtisaslaşmış, onların fəaliyyətinə özünün nizamlayıcı, məsləhət və digər xarakterli xidmətlərini göstərən strukturlar təşkil edir.

Qeyd olunmalıdır ki, onların fəaliyyəti əsasən STZ-lərlə əlaqəli ümumi təyinatlı göstərişlər səviyyəsində müəyyən edilir. Bu normaların, o cümlədən yenilən-miş Kioto (1999) və əlaqəliliyi ilə seçilən digər (gömrük və s.) Beynəl-xalq Konven-siyaların (“Yüklərin gömrük məqsədilə qiymətləndirilməsi haq-qında Konvensiya (1950)”, “Yüklərin gömrük tariflərində təsnifatı üçün no-menklatura haqqında Kon-vensiya (1950), “Gömrük prosedurlarının sadələş-dirilməsi və harmonikləşdirilməsi haqqında Konvensiya” (Kioto-1973), “Kom-mersiya nümunələri və reklam material-larının idxal olunmasının sadələşdiril-məsi haqqında Konvensiya” (1952), “Elmi avadanlıqların müvəqqəti idxal olunması haqqında Konvensiya” (1968), “Müvəq-qəti idxal haqqında İstanbul Konvensiyası” (1990) və s.), Memorandumların və digər beynəlxalq səviyyəli, tənzimləyici xarakterə malik sənədlərin, həmçinin BMT-nin İqtisadiyyat və Beynəlxalq Əlaqələr Komissiyalarının, Dünya Ticarət Təşkilatının və oxşar miqyasda olan s. strukturların hazırladıqları normativ xarak-terli sənədlərin tələblərinə uyğun olaraq sərbəst ticarət zonası aşağıdakı istiqamət-lərdə öz səy-lərini səfərbər etməli və daha mütərəqqi mexanizmlərdən istifadəyə nail olmalıdır:

1. beynəlxalq iqtisadi müstəvidə olan, həmçinin təmsil etdiyi və ticarət əmə-liyyatları apardığı ölkələrin qanunlarına və öz aidiyyattı seçilən digər hü-quqi-

normativ aktlarına hörmətlə yanaşması, onların pozulması hallarının qarşısını almalı;
2. zonanın fəaliyyətinin təşkilində şəffaflıq prinsipinə riayət olunması və perspektiv dövrlər üçün elmi-təcrübi əsaslandırmaya malik proqnozlaş-dırma işinin icrası;
3. zona üzrə standartlaşdırma təyinatlı işlərin həyata keçiriməsi, bu istiqamətdə sənədləşdirmələr üzrə mümkün sadələşdirmələrin tətbiqi;
4. informasiya texnologiyalarından maksimal istifadəyə nail olunması, elektron ticarət imkanlarından istifadənin maksimallaşdırılması;
5. zona fəaliyyətinin daha məhsuldar, süni bürokratik əngəllərlə müşayət olunmayan məcrada təşkili, bu sahədə zəruri minimal nəzarətdən istifadə olunması;
6. səmərəli nəzarətin saxlanılması şərtilə qanuni ticarətin asanlaşdırılması məqsədilə risklərin idarə olunması (buraya zəruri sığorta fəaliyyəti də da-xil ola bilər);
7. etibarlı ticarət iştirakçıları üçün prosedurların "sürətləndirilmiş" şəkildə yerinə yetirilməsi;
8. dövlət təşkilatları, gömrük orqanları və mülkiyyət formasından asılı olmayaraq digər əlaqəli, maraqları olan təşkilat və subyektlərlə əməkdaşlıq və tərəfdaşlıq.
9. zona daxilində əməyin təşkili və əmək ödənişi, işçilərin sığortalanması, ödənilən məzuniyyətlər və digər sahələrdə müvafiq işlərin beynəlxalq və yerli qanunvericiliklərə müvafiq olaraq həyata keçirilməsi və s. [5; 128-129]

Təsnifatda göstərilən bəndlərin hər biri özünün qloballığı ilə, geniş mənşəyə malik olması ilə, iştirakçı tərəflərin "rəngarəngliyi" fərqlənir. Eyni zamanda bəhs olunan müddəaların dəyişmə amplitudasına da diqqət yetirmək zəruridir. Onu da qeyd etmək yerinə düşər ki, ifadə olunan normalara riayət olunması yaradılmış, yaradılması davam etdirilən və ya nəzərdə tutulan sərbəst ticarət zonaları haqqında müsbət imicin formalaşmasında öz sözünü deyəcək, beynəlxlq müstəvidə yaranan bir sıra məsələlərdə ona üstünlük yaradacaqdır.

ƏDƏBİYYAT

1. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı: Elm və həyat, 2007, 602 s.
Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı: AzTU-nun mətbəəsi, 2015, 301s.
2. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri. Bakı: ADPU-nun mətbəəsi, 2006, 287 s.
3. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
4. Abdullayeva R.A. Sosial sferanın iqtisadiyyatı. Bakı: Asiya, 2009, 415 s.
5. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s
6. Allahverdiyev H.B. Bazar iqtisadiyyatı şəraitində ərzaq təhlükəsizliyi və onun tənzimlənməsi problemləri // İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı, ADİU-nun mətbəəsi, 2000, №3-4, s. 38-45.
7. Ağayev S.T. Sahibkarlıq fəaliyyətində maliyyə menecmentinin təşkili. Bakı:

Elm, 2003, 200 s.
8. Axundov Ş.Ə. Marketinqin əsasları. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001, 572s.

РЕЗЮМЕ

ГУСЕЙН ВАГИРСОЙЛУ

ПОДГОТОВКА ПРАВОВОЙ БАЗЫ ДЛЯ СОЗДАНИЯ ЗОН СВОБОДНОЙ ТОРГОВЛИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

Всестороннее развитие экономики автономной республики, промышленности, сельского хозяйства и других полевых и поэтапных присвоений в области ее диверсификации является воплощением деятельности, направленной на создание изобилия продукта. Обзор макроэкономических показателей, а также отдельных областей и областей деятельности свидетельствует о том, что предпринимательская среда в этой области входит в новый этап развития, пополняя внутренний спрос на некоторые товары и создавая возможности для экспорта.

Ключевые слова: специальные экономические зоны, законодательная база, макроэкономические показатели, зоны свободной торговли

SUMMARY

HUSEYN BAGIRSOYLU

PREPARATION OF LEGAL BASE FOR CREATION OF FREE TRADE ZONES IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Comprehensive development of the economy in the Autonomous Republic, industry, agriculture and other field-oriented and stage-by-stage assignments in the field of its diversification are the embodiment of activities aimed at the creation of product abundance. The review of macroeconomic indicators, as well as individual fields and areas of action, suggests that the entrepreneurial environment in this area is entering a new phase of development, replenishing domestic demand for some goods, and generating export opportunities.

Key words : special economic zones, legislative base, macroeconomic indicators, free trade zones

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ELNURƏ XUDAVERDİYEVA
Azərbaycan Dövlət Aqrar Universitetinin
elnura@yahoo.com

KİÇİK VƏ ORTA SAHİBKARLIĞA DÖVLƏT DƏSTƏYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Çoxsaylı və mürəkkəb iqtisadi proseslərlə səciyyələnən kiçik və orta sahibkarlığın dövlət dəstəyinə ciddi ehtiyacı vardır. Ölkənin daxili bazarının demək olar ki, bütün sahələrini əhatə edən və ona yüksək dərəcədə uyğunlaşa bilən kiçik və orta sahibkarlıq iqtisadiyyatın sabit inkişafına təsir göstərir, eləcə də ölkədə siyasi mühitin təmin olunmasında çox mühüm rol oynayır. Odur ki, Azərbaycan dövləti kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə xüsusi qayğı ilə yanaşır və böyük diqqət göstərir. Lakin həyat daim inkişaf edir və təbiidir ki, digər sahələrdə olduğu kimi bu sahədə də təkmilləşdirməyə ehtiyac olur. Məqalədə məhs bu məsələlərdən bəhs olunur.

Açar sözlər: rəqabət, məşğulluq, kredit, vergi güzəştləri, sahibkarlıq, xarici və daxili mühit və i.a.

Kiçik və orta sahibkarlığa dövlət dəstəyi dedikdə, onların səmərəli fəaliyyət göstərmələri üçün iqtisadi, hüquqi və təşkilati mühitin formalaşdırılması və zaman keçdikcə dəyişmiş şəraitə uyğun olaraq daha da təkmilləşdirilməsi nəzərdə tutulur.

Kiçik və orta sahibkarlıq subyektlərinə münasibətdə dövlət aşağıdakı vəzifələri yerinə yetirir:

* iqtisadiyyatda rəqabət mühitinin formalaşdırılması, onun qorunub saxlanması və daha da təkmilləşdirilməsi;

* öz biznesini qurmaq üçün təşəbbüskarlığı və məsuliyyəti üzərinə götürən şəxsin fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılması;

* məşğulluq problemlərinin həll olunmasına təsir göstərilməsi və innovasiyaların müdafiə edilməsi.

Bütün bunlar kiçik və orta sahibkarlığın inkişafına müsbət təsir göstərməklə, sosial sabitliyin təmin olunmasına, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə, kiçik biznesin üstün inkişafını təmin edən elmi-texniki siyasətin həyata keçirilməsinə şərait yaradır.

Bununla yanaşı, kiçik və orta sahibkarlıqla bağlı müəyyən olunan aşağıdakı xüsusi məqsədlər də vardır:

1) Kiçik və orta sahibkarlığın səmərəli fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılması. Bunlara kiçik və orta sahibkarlıq subyektləri hüquqlarının müəyyən edilməsi, onların qeydiyyatdan keçirilməsi, lisenziya verilməsi, xüsusi infrastrukturun yaradılması, təkmilləşdirilməsi, qorunub saxlanması və s. daxildir.

2) Yeni fəaliyyətə başlayan kiçik və orta sahibkarlıq subyektlərinin müdafiə edilməsi və onların dövlət dəstəyi ilə əhatə olunması.

3) İqtisadiyyatın ayrı-ayrı sahələrində inkişaf səviyyəsi aşağı olan, yaxud da üzərinə çox ağır yük düşən kiçik və orta sahibkarlıq subyektlərinin dövlət tərəfindən xüsusi imtiyazlarla dəstəklənməsi.

4) Kredit verilməsi, vergi güzəştləri edilməsi yolu ilə kiçik və orta sahibkarlıq subyektlərinin bazarda çətinliklə satın aldıqları resursları əldə etmələrinə maliyyə yardımı göstərilməsi. [1, s. 234-235]

Müasir dövrdə ölkəmizin kənd təsərrüfatında kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsinin ən mühüm amillərindən biri dövlət dəstəyinin təkmilləşdirilməsidir.

Kiçik və orta sahibkarlığa dövlət dəstəyi sahəsində maliyyə-kredit tənzimlənməsi təcrübəsi xarici ölkələrin və ölkəmizin iqtisadçı alimlərinin əsərlərində kifayət qədər işıqlandırılmışdır. Onların yekdil fikrinə əsasən aşağıdakı səbəblər üzündən hətta bazar münasibətlərinin yüksək səviyyədə inkişaf etmiş olduğu ölkələrdə də kiçik və orta sahibkarlıq dövlətin dəstəyi olmadan fasiləsiz və maneəsiz inkişaf edə bilməz:

- biznesin digər sahələrinə nisbətən kənd təsərrüfatında təkrar istehsal prosesinin uzun müddət davam etməsi məhsul istehsalçılarını kreditorlarla münasibətdə qeyri-bərabər vəziyyətdə qoyur;
- kənd təsərrüfatında istehsal proseslərinin təbii-iqlim şəraitindən asılılığı istehsal olunan məhsulun həcminə, hətta onun tamamilə məhv olmasına təsir edə bilər;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının demək olar ki, eyni vaxtda kreditə ehtiyacları olur və bu da bankların işini çətinləşdirir.

Məlum olduğu kimi, riskin müxtəlif formaları vardır, onlar obyektiv olaraq insan həyatı və fəaliyyətinin bütün sahələrində özünü göstərir. Sahibkarlıq fəaliyyəti üçün isə təşkilati-iqtisadi yenilik, ehtiyatlardan istifadənin daha səmərəli üsullarının axtarılıb tapılması, çeviklik, lazım gəldikdə riskə getmək və digər keyfiyyətlər səciyyəvidir. Sahibkarlıq fəaliyyətində istehsalın son nəticələri bir çox cəhətdən sahibkarın xarici və daxili riskləri aşkara çıxarmaq və onları idarə etmək bacarığı ilə müəyyən edilir.

Kənd təsərrüfatında risk şəraitinin xüsusiyyəti ondan ibarətdir ki, iqtisadiyyatın bu sahəsində istehsal prosesi canlı orqanizmlərin – bitki və heyvan orqanizmlərinin – həyat fəaliyyətlərinin təbii hadisələrdən bilavasitə asılı olduğu inkişaf prosesləri ilə əlaqədardır. Kənd təsərrüfatında istehsal proseslərinin əlverişsiz təbii hadisələrin (havaların şaxtalı keçməsi, dolu düşməsi, quraqlıq və daşqınların baş verməsi və i.a.) mənfi, bəzi hallarda isə faciyəli nəticələri bunlarla şərtlənir.

Sahibkarlıq fəaliyyəti nəticələrinin risklərin idarə edilməsinin xarici mühitin mənfi təzahürlərindən asılılıq dərəcəsinin azaldılmasına imkan verən bir sıra metodları vardır. Müəssisə üzrə bütövlükdə istehsalın son nəticələrinə müxtəlif risklərin təsirini müəyyən dərəcədə istehsalın şaxələndirilməsi yolu ilə aşağı salmaq olar. Burada məqsəd daxili riskləri minimuma endirməyə və istehsalın dayanıqlığını yüksəltməyə imkan verən müxtəlif fəaliyyət növlərinin

bir-biri ilə qarşılıqlı surətdə əlaqələndirilməsinin optimal variantını axtarıb tapmaqdan ibarətdir. Bu problemi istehsalın sahə strukturuna "əl gəzdirilməsi" və onun parametrlərinin optimallaşdırılması vasitəsilə də həll etmək olar. Bunlar mövcud resurslardan daha səmərəli istifadə olunmasına və müəssisənin dəyişən təsərrüfatçılıq şəraitinə uyğunlaşmasına imkan vermiş olar. [2, s. 383 - 354]

Müasir dövrdə xarici mühitin mənfi təsirləri ilə şərtlənən və insanlardan asılı olmayan xarici risklərin idarə olunmasının əsas metodlarından biri sığortalamadır. Sığortalama xaricimühitin mənfi təsirindən müəssisəyə dəyməsi gözlənilən ziyanın ağırlığını minimuma endirməklə, məhsul istehsalçılarının sabit gəlir əldə etmələrinə imkan verir.

Təcrübə göstərir ki, sığortalamanın dövlət tərəfindən dəstəklənməsi əlverişsiz keçən illərdə kənd təsərrüfatı məhsulları istehsalçılarına əlavə kreditlər, subsidiyalar, birbaşa pul ödənişləri verilməsi, borcun silinməsi yolu ilə maliyyə yardımı göstərilməsinə nisbətən daha sərfəlidir. Lakin bunlar kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə yardımı göstərilməsinin əhəmiyyətini azaltmır. Əksinə, bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlığa dövlət dəstəyinin ilk növbədə maliyyə yardımının çox böyük və əvəzsiz əhəmiyyəti vardır. Çünki maliyyə - kredit münasibətləri iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən biri olub, onun müxtəlif sahələrinin inkişaf sürəti və meyillərinə öz təsirini göstərir. Bu baxımdan aqrar sahədə maliyyə - kredit münasibətlərinin düzgün təşkili son nəticədə mülkiyyət formasından asılı olmayaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının müxtəlif növ resurslara olan tələbatının ödənilməsinə, səmərəli geniş təkrar istehsalın həyata keçirilməsinə və bütövlükdə aqrar iqtisadiyyatın maliyyə vəziyyətinin sağlamlaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu isə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə əlverişli şərait yarada bilər. [3, s. 435]

Beləliklə, kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsinin maliyyə-iqtisadi amillərinə aşağıdakıları aid etmək olar:

1) kiçik və orta sahibkarlığa dövlət tərəfindən maliyyə yardımı göstərilməsi (büdcədən maliyyələşdirmə, subsidiya və subvensiyaların, kompensasiyaların verilməsi);

2) kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərinin və tariflərin tənzimlənməsi;

3) kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, onların istehsal etdikləri məhsullara təminatlı qiymətlərin müəyyən edilməsi və güzəştli vergi siyasətinin həyata keçirilməsi;

4) tədiyə qabiliyyətli tələbin stimullaşdırılması;

5) istehsal vasitələrinin, məhsulların və digər qiymətlilərin təbii hadisələrdən sığortalanması.

Məlum olduğu kimi, dövlət müxtəlif forma və metodlardan istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalçılarına maliyyə yardımı göstərir. Lakin bu sahədə hansı forma və metoddan istifadə edilməsindən asılı olmayaraq qarşıya qoyulan başlıca məqsəd makroiqtisadi göstəricilərin yüksəldilmə-

sindən və iqtisadi artımın təmin edilməsindən ibarət olur. Bu məqsədlə stimullaşdırma tədbirlərindən istifadə edilir. Kənd təsərrüfatı məhsullarının satışına gəldikdə o, müxtəlif kanallarla reallaşdırılır və hazırda onların satınalma qiymətləri olduqca aşağıdır. Halbuki qiymətlərin səviyyəsi məhsul istehsalına sərf olunan ictimai məsrəflərin səviyyəsi ilə xarakterizə olunur. Bazarda bu və ya digər məhsula olan tələb və təklifin səviyyəsinin üst-üstə düşməsinə isə nadir hallarda rast gəlinir və bu proses mücərrəd xarakter daşıyır. Buna aqrar sahənin ənənəvi xüsusiyyətləri də təsir göstərir. Digər tərəfdən, aqrar sahə məhsulları qiymətlərinin səviyyəsinə yersiz müdaxilələr də təsir edir. Bütün bunlar nəticə etibarilə aqrar sahədə geniş təkrar istehsalın imkanlarını məhdudlaşdırır, bazar qiymətləri ayrı - ayrı sahələrdə durğunluq və böhranlı şərait yaradır. Bunlar onu deməyə əsas verir ki, dövlət istər məhsul istehsalı, istərsə də reallaşdırılması proseslərini tənzimləməli və bu məqsədlə konkret tədbirlər görməlidir.

Uzun müddətdir bütün bitki növləri əkin sahəsinin hər hektarına görə dövlət tərəfindən sahibkarlara işlətdikləri yanacaq və motor yağının dəyərinin ödənilməsi üçün kompensasiya verilir. Əlbəttə, bu yaxşı haldır və məhsul istehsalının artırılmasında stimullaşdırıcı rol oynaya bilər. Lakin onu da qeyd etmək lazımdır ki, bu əkin sahələrinin strukturunda arzuolunmaz nəticələrə və bəzi söz-söhbətlərə gətirib çıxarır. Fikrimizcə bunların qarşısının alınması üçün bu sahədə müəyyən təkmilləşdirmələrin aparılmasına ehtiyac vardır. Başqa sözlə, bizə elə gəlir ki, dövlətin kənd təsərrüfatı məhsulları istehsalçılarının sərf etdikləri xərcin ödənilməsinin bir hissəsini öz üzərinə götürməsindənsə, bəzi xarici ölkələrdə olduğu kimi, məhsulların reallaşdırılmasında hər cür maneələrin qarşısının alınması üçün dövlət tədarükü sistemindən istifadə olunması, əkin sahəsinin hər hektarına görə verilən kompensasiyaların ləğv edilməsi, məhsulların alış qiymətlərinin artırılması, onun minimum və maksimum həddinin müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Bu, yersiz söz-söhbətlərin aradan qaldırılmasına, məhsul istehsalçılarının gəlirlərinin artmasına və sabit saxlanmasına imkan verə bilər. Təminatlı qiymətlərdən istifadə olunmasının səmərəliliyi haqqında da eyni sözləri demək olar.

Bəs, təminatlı tədarük qiymətləri nə deməkdir, ondan istifadə edilməsinin nə kimi əhəmiyyəti vardır? Təminatlı tədarük qiymətləri bütün ölkə və regional səviyyədə tənzimlənə bilər. Bu qiymətlərdən adətən orta bazar qiymətləri təminatlı qiymətlərdən aşağı olduğu, yaxud da ərzaqın, təminatlı qiymətlərdən kənd təsərrüfatı məhsulları xammallarının bilavasitə dövlətə satıldığı hallarda istifadə edilir.

Təminatlı qiymətlər dövlət hakimiyyəti orqanları tərəfindən məqsədli qiymətlərə əsasən müəyyən olunur. Bu qiymətlər kənd təsərrüfatı məhsulları istehsalçılarının (dövlət dəstəyinin digər formalarından da istifadə olunmaqla) geniş təkrar istehsalın həyata keçirilməsi üçün kifayət qədər gəlir əldə etmələrini təmin edə bilər. Təminatlı qiymətlərin və bu qiymətlərlə reallaşdırılacaq məhsulların siyahısı və həcmi (kvotası), onların səviyyəsi və tədbiq olunması qaydaları hökumət tərəfindən müəyyən edilməlidir. Beləliklə, təminatlı qiymətlərin əsasını məqsədli qiymətlər təşkil edir.

Məqsədli qiymətlərdən bazar qiymətləri kənd təsərrüfatı məhsulları istehsalçılarının yaşayış minimumunu təmin edə bilən səviyyədən aşağı düşdükdə istifadə olunur. Dövlət məhsulu ya məqsədli qiymətlə satın alır, yaxud da məqsədli qiymətlə satış qiyməti arasındakı fərqi kənd təsərrüfatı məhsulları istahsalçılarına ödəyir. Bu qiymətlərdən təminatlı qiymətlərin və təminat dərəcələrinin müəyyən edilməsi, habelə qanunvericiliyə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına kompensasiyaların hesablanmasında istifadə oluna bilər. Bazarda müəyyən şəraitdə formalaşan məqsədli və təminatlı qiymətlərin bir - birinə uyğun gəlməsi mümkündür. Təminatlı qiymətlərdən istifadə olunması sənaye və kənd təsərrüfatı məhsullarının qiymətləri arasındakı kəskin fərqlərin azaldılmasına, xərclərin ödənilməsinə, gəlirin artmasına və məhsulun rentabellik səviyyəsinin yüksəlməsinə, götürülmüş kreditlər üzrə faiz məbləğlərinin ödənilməsindəki çətinliklərin aradan qaldırılmasına, təkrar istehsalın təmin edilməsinə və nəticə etibarilə məhsul istehsalının çoxalmasına imkan vermiş olar. [2, s. 372]

Kiçik və orta sahibkarlığa dövlət dəstəyinin istiqamətləri içərisində kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli kreditlərin verilməsi və vergi siyasətinin yeridilməsi önəmli yer tutur.

Kənd təsərrüfatında kredit münasibətlərinin zəruriliyi məhsul istehsalçılarının əldə etdikləri gəlirlərlə onların sərf etdikləri xərclər arasında uyğunsuzluğun əmələ gəlməsi, habelə gəlirlərin daxil olduğu vaxtla xərclərin sərf edildiyi vaxt arasında mütənasibliyin pozulması ilə əlaqədardır. Bazar iqtisadiyyatı şəraitində sahibkar kənd təsərrüfatı məhsulları istehsalını özünün xüsusi vəsaiti hesabına həyata keçirə bilmir və bu səbəbdən də kənardan əlavə vəsait cəlb edilməsinə ehtiyac olur. Kreditə olan tələbat ən sadə şəkildə belə formalaşır.

Ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçılarına özlərinin cari tələbatlarını ödəmək məqsədilə güzəştli şərtlərlə kredit vermək üçün xüsusi fond – Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır. Fondun nümayəndələri mütəmadi olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının yanında olur, onlara 6% - lik dərəcə ilə kreditlər verir. Lakin bizə elə gəlir ki, kreditin ölkənin bütün ərazisində vahid faiz dərəcəsi ilə verilməsi düzgün deyildir. Ona görə ki, ölkənin regionları özlərinin təbii imkanlarına, istehsalın ixtisaslaşması istiqamətlərinə, nəqliyyat - coğrafi şəraitlərinə, əhalinin adət - ənənələrinə və tarixən toplanmış istehsal təcrübələrinə görə bir - birindən əsaslı surətdə fərqlənirlər. Nəticədə ölkə ərazisinin tarixən mürəkkəb ərazi strukturu formalaşmışdır, və bununla əlaqədar olaraq regionlar arasında olan coğrafi, təbii, iqtisadi və sosial fərqləri nəzərə almamaq olmaz. [4, s.13]

Faktlara müraciət edək. Azərbaycanın Aran iqtisadi rayonuna daxil olan Kürdəmir və Ucar rayonlarında, habelə Gəncə - Qazax iqtisadi rayonuna daxil olan Tovuz və Şəmkir rayonlarında dənli bitkilər əkilib becərilir. Rəsmi statistik məlumatlara görə 2013-cü ildə dənli bitkilərin orta məhsuldarlığı Kürdəmir rayonunda 22,2 sentnerə, Ucar rayonunda 21,7 sentnerə, Tovuz rayonunda 37,0 sentnerə, Şəmkir rayonunda isə 41,0 sentnerə bərabər olmuşdur. [5, s. 487- 488] Göründüyü kimi, ölkənin müxtəlif ərazilərində

yerləşən rayonlarda dənli bitkilərin orta məhsuldarlığında kəskin fərqlər vardır. Deməli, bütün ölkə ərazisində taxılın satınalma qiyməti eyni olduğu şəraitdə müxtəlif təbii-iqtisadi zonalarda fəaliyyət göstərən məhsul istehsalçılarının əldə etdikləri gəlirlərin həcmində kəskin fərqlər olacaqdır, və bu, digər şərtlər nəzərə alınmazsa, ilk növbədə istehsalçıların fərdi xüsusiyyətlərindən, işin təşkilindən deyil, torpaq sahələrinin münbitliklərindəki fərqlərlə əlaqədardır, və fikrimizcə bunlar nəzərə alınmalıdır. Başqa sözlə, regionlar üzrə verilmiş kreditlərə görə faiz dərəcələrində fərq qoyulmalı, taxılın satınalınma qiymətində müxtəliflik olmalıdır. Əgər belə olarsa, müxtəlif – təbii-iqlim şəraitində fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərində kəskin fərqlər olmaz, onların sabit gəlir əldə etmələrinə şərait yaranar və məhsul istehsalının artırılması təmin edilmiş olar. Bunları digər kənd təsərrüfatı məhsullarına da aid etmək lazımdır. Bu sözlər vergi dərəcələrinə də aiddir. Başqa sözlərlə desək, regionlar üzrə vergi dərəcələrində də müxtəlifliyin olması məqsədəuyğundur. [2, s. 372, 389]

Kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə vəziyyətlərinə və nəticə etibarilə gəlirlərinin artmasına təsir edən amillərdən biri də əhalinin tədiyə qabiliyyətli tələbinin yüksəlməsidir. Bu, istehsal olunan məhsulların tez bir zamanda reallaşdırılmasına, sahibkarın sərf etdiyi xərcin ona qayıtmasına səbəb olur və o da bu vəsaitdən cari ehtiyaclarının ödənilməsi üçün istifadə edir. Deməli, əhalinin real gəlirləri, alıcılıq qabiliyyəti və mövcud əmtəə ehtiyatları arasında qarşılıqlı əlaqə vardır. Bunu tanınmış iqtisadçı alim, iqtisad üzrə elmlər doktoru, professor Bəyalı Ataşov çox yaxşı ifadə edib və yazır ki, “fizioloji normalara uyğun qidalanmanı qurmaq istəyən ailələrə onların büdcələri imkan verirmi, ehtiyac duyduqları məhsulu istədikləri vaxt ala bilirlərmi, pul olanda arzuladıqları ərzaq həmiişə tapılırmı? Cəsarətlə israr etməyə hazıram ki, əksəriyyətimiz bu suallara müsbət cavab verməyə çəkinirik. Çünki “gəlir - tələbat - əmtəə” həlqəsindəki tarazlıq tez-tez pozulur və istehlakçıların böyük hissəsi həyati əhəmiyyəti olan düzgün qidalanma kimi zəruri bir proseduranı lazımi qaydada qura bilmir”. [6, s. 90] Tamamilə yerində deyilən sözlərdir. Çünki pul olanda yaşamaq üçün lazım olan məhsulları asanlıqla olmasa da, hər halda axtarıb tapmaq mümkündür. Deməli, dövlətin aqrar siyasətinin istiqamətlərindən biri də əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi qayğısına qalınmasıdır. Bu, onunla əlaqədardır ki, bazar ağzınadək lazımi mallarla doldurula bilər, lakin əhalinin tədiyə qabiliyyəti olmasa, həmin məhsullar yalnız məhsul olaraq mağazalarda, marketlərdə qalacaqdır.

Deməli, ərzaq probleminin həlli bir-biri ilə qarşılıqlı əlaqədə olan iki problemin - ərzaq bolluğu yaradılması və buna uyğun olaraq əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi - eyni vaxtda həll olunması deməkdir. Ərzaq təhlükəsizliyinin həll edilməsində isə yerli məhsul istehsalçılarının, ilk növbədə kiçik və orta subyektlərin dövlət dəstəyi ilə əhatə olunmasının çox böyük rolu və əhəmiyyəti vardır.

Xarici ölkələrdə müxtəlif kənd təsərrüfatı bitkiləri və sığorta halları üçün çoxsaylı sığorta proqramları mövcuddur və onların sayı daim artır. Belə ki, 1994-1996-cı illərdə ABŞ-da taxıl istehsalının sığortalanması ilə əlaqədar

proqramların sayı 8,3% artaraq təqribən 2,5 minə çatmış, həm də sığortalanmış əkin sahəsi 2,0 dəfədən çox artmışdır. Ölkədə bitkiçilik məhsulları istehsalı ilə məşğul olan fermerlər özlərinin əkin sahələrini quraqlıq, doluvurma, donvurma, daşqın, sunami kimi təbii hadisələrdən, ziyanverici və xəstəliklər nəticəsində əkin sahələrinin məhv olması hallarından sığorta etdirirlər. Ölkəmizdə də nəinki bu təcrübələrdən, həm də digər ölkələrin təcrübəsindən istifadə olunması səmərəli nəticələr verə bilər.

Bütün bunlar şübhəsiz ki, ölkəmizdə kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsinə özünün müsbət təsirini göstərə və ərzaq probleminin həll olunmasında çox mühüm rol oynaya bilər.

NƏTİCƏ Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirərək aşağıdakı nəticələri çıxarmaq olar:

1. Kiçik və orta sahibkarlığın dövlət dəstəyinə ciddi ehtiyacları vardır. Odur ki, dövlət onların qayğısına qalmalı, səmərəli fəaliyyət göstərmələri üçün sağlam rəqabət mühiti, ilk dəfə öz biznesini qurmaq istəyənlərə şərait yaratmalı, innovasiyaları müdafiə etməlidir. Bunu digər amillərlə yanaşı, həm də kənd təsərrüfatında istehsalın daha çox riskli xarakter daşıması zəruri edir.

2. Kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsinin başlıca amillərindən olan dövlət dəstəyinin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsi məqsədəuyğun olardı:

* dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən olan və kənd təsərrüfatı məhsulları istehsalçılarının cari tələbatlarının ödənilməsində, geniş təkrar istehsalın fasiləsizliyinin təmin edilməsində çox mühüm rol oynayan kredit verilərkən regionların təbii-iqlim şəraiti və iqtisadi imkanları nəzərə alınmaqla fərqli faiz dərəcələrinin müəyyən edilməsi;

* aqrar sahə məhsullarının qiymətlərinin səviyyəsinə yersiz müdaxilələrin qarşısının alınması, istehsalçıların gəlirlərinin artırılması və sabit saxlanılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi; əkin sahəsinin hər hektarına görə verilən kompensasiyaların ləğv edilməsi;

3. Ölkəmizin regionları təbii imkanlarına, istehsalın ixtisaslaşması istiqamətlərinə və digər əlamətlərinə görə bir-birindən fərqləndiklərinə görə regionlar üzrə fərqli vergi dərəcələrinin müəyyən edilməsi;

4. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin yaxşılaşdırılması sahəsində tədiyə qabiliyyətli tələbin stimullaşdırılması və əmlakın sığortalanması sahəsində işlərin daha da yaxşılaşdırılması.

ƏDƏBİYYAT

1. Oqtay Məmmədli, Mürsəl İsmayılov, Fazil İsmayılov. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərslik. Bakı, "MBM" nəşriyyatı, 2014-cü il, 623 s.
2. Экономика и управление аграрным производством. Учебное пособие. Ростов-на-Дону. Издательство ООО "Мини Тайп". 2008 г., 714 с.
3. A. Abbasov. Ərzaq təhlükəsizliyi. Bakı, "Nasir" nəşriyyatı, 2007-ci il, 602 s.
4. Əli Nuriyev. Regional idarəetmənin əsasları. Dərslik. Bakı, "Elm" nəşriyyatı, 2007-ci il, 427s.

5. Azərbaycanın Kənd təsərrüfatı 2014 (statistik məcmuə), 662 s.
6. B.X. Ataşov. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, “Elm” nəşriyyatı, 2005-ci il, 335 s.

РЕЗЮМЕ

ЭЛНУРА ХУДАВЕРДИЕВА

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

Малое и среднее предпринимательство, которое характеризуется многочисленными и сложными экономическими процессами, серъезно нуждается в поддержке государства. Малое и среднее предпринимательство, охватывающее, можно сказать, все сферы внутреннего рынка и хорошо приспосабливающийся им, влияет на стабильное развитие экономики, играет очень важную роль в обеспечении политической среды страны. Поэтому азербайджанское государство проявляет особую заботу и уделяет большое внимание на развитие малого и среднего предпринимательства, Но жизнь постоянно развивается, и, как и в других областях, в этой области тоже необходимо совершенствование. Статья посвящается именно этому вопросу.

Ключевые слова: малое предпринимательство, государственная поддержка, предпринимательский климат, смешанная экономика, основные критерии и показатели и т.д.

SUMMARY

ELNURA KHUDAVERDIUEVA

THE MAİN DİRECTİONS OF STATE SUPPORT FOR THE DEVELOPMENT OF SMALL AND MEDİUM ENTERPRİSES

Small and medium business which is characterized by numerous and complex processes is need of state support. Small and medium business covering almost all areas of the internal market and highly adaptable affects the stable developmeny of the economy place a very important role in ensuring that the political environment in the country. Therefore the government of Azerbaijan pays specias care and great attention to the development of small and medium business. But life is constantly evolving and naturaly as in other areas is need too improve in this area. The article deals with precisely this issue.

Research purpose - the further development of small and medium-sized businesses in agriculture and improvement of state support in the country.

Research methodology - comparative and analytical analysis.

Findings - the further development of small and medium enterprises in the country and ways to solve the power problem.

Цель – дальнейшее развитие малого и среднего бизнеса в сельском хозяйстве и совершенствование государственной поддержки в стране.
Методология - сравнительный и аналитический анализ.
Результаты исследования – дальнейшее развитие малых и средних предприятий в стране и пути решения проблемы питания.

Key words: competition, employment, credit, tax incentives, entrepreneurship, external and internal environments, etc.

(İqtisad üzrə elmlər doktoru, prof. S.Səbzəliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

FİLOLOGİYA

AKİF İMANLI
Naxçıvan Müəllimlər İnstitutu
a.imanli @ yahoo.com

“ARPA” VƏ “ARPAÇAY” ADLARI HAQQINDA

Məqalədə Naxçıvan MR Şərur rayonu ərazisində mövcud olan Arpaçay hidronimi, Arpaçay oykonimi və Türkiyə Cümhuriyyətinin Qars vilayətindəki Arpaçay hidronimi və Arpaçay xoroniminin mənşəyi araşdırma predmeti kimi götürülmüşdür. Qeyd olunan dörd Arpaçay adının ikisi su obyektinin, biri kənd, digəri isə rayon (ilçə) adında özünü yaşadır. Şərurdakı Arpaçay oykonimi və Qarsdakı Arpaçay ilçəsi Arpaçay hidronimi əsasında adlandırıldığı üçün hər iki ad hidronim adı ilə omonimlik yaratmışdır. Ona görə də biri omohidrooykonim, digəri isə omohidroxoronimdir. Məqalədə belə nəticəyə gəlinmişdir ki, arpa və arpa komponentli adların hamısı mənşəcə eyni mənbədən törənmiş, qədim türk etnonimi əsasında yaranmışdır.

Açar sözlər: Arpaçay, oykonim, hidronim, xoronim, etnooykonim, Şərur, Qars, arpi, arpat, arpa

Arpa mənşəli xüsusi adlar türk məskənlərində geniş yayılmışdır. Professor H.Mirzəyev təkcə indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisində vaxtilə mövcud olan bu adlar haqqında yazır ki, ermənilər Dərələyəzin Keşişkənd rayonunda Arpaçayın üstündə salınmış Arpa kəndinin adını dəyişib (10.IX.1946) Areni qoysalar da, 1986-cı ildə çap etdirdikləri toponimlər lüğətinin bir neçə yerində Arpa sözünü erməniləşdirməyə cəhd etmələrinə baxmayaraq, Arpa toponimi ilə bağlı digər adları lüğətdə verməyə məcbur olmuş, onları gizlədə bilməmişlər: Arpagədik, Arpaçaduq, Arpagöl, Arpadağ, Arpadərəsi, Arpa dərə, Arpaenməz, Arpatəpə, Arpalı, Arpalıq, Arpalıqçay, Arpalıqqaya, Arpahavaclıq, Arpayol, Arpanyol, Arpaçay, Arpaçayır, Arpaçuxuru, Arpavut, Arpa uçurumu, Arpa tala kimi xüsusi adlar buna canlı misaldır (9, s. 238).

Hazırda Naxçıvan MR Şərur rayonunun ərazisində Arpaçay adlı iki onomastik vahid vardır ki, onlardan biri hidronim, digəri Arpaçay su obyektinin adından yaranan Arpaçay yaşayış yeri adıdır. Arpaçay oykonimi hidronim adından yarandığı üçün omohidrooykonimdir. Şərur rayonu ərazisindən axıb gedən Arpaçay Şərqi Arpaçay adlanır.

Uzunluğu 126 km olan Şərqi Arpaçay başlanğıcını Ermənistan ərazisində 3000 m yüksəklikdə Alp çəmənlikləri zonasından götürüb, 780 m yüksəklikdə Araz çayına Naxçıvan Muxtar Respublikasının Şərur rayon ərazisində qovuşur (2, s. 61).

Bundan başqa bir Arpaçayda indiki Ermənistan adlanan qədim türk yurdu Şörəyel (Şirak+el) mahalındakı Düzkənd (ermənilər 7.XII.1945-ci ildə bu adı dəyişərək Axuryan adlandırmışlar) ərazisindən axıb Araza qovuşan çaydır. Arazın sol qolu olan Arpaçay (Axuryan) çayı rayon boyu axıb gedir. Uzunluğu 186 km olan bu çay başlanğıcını Amasiya rayonu ərazisində 2020 m hündürlükdə yerləşən Arpa gölündən götürür. Hövzəsinin sahəsi 9670 kv km-dir (5, s. 103).

Arpaçay adlı bir çay da eyni zamanda Türkiyə Cümhuriyyəti Qars vilayətinin Susuz, Arpaçay, Ağyaxa (Akyaka) ilçələri (rayonları) ərazisindən axıb gedir. Bu çay başlanğıcını Çıldır gölündən götürür.

Qarsdakı Arpaçay ilçə (rayon) adı eyniadlı su obyektinin adından yarandığı üçün onlarda omonimlik təşkil edir. Adətən, onomastik terminlər sistemində hər hansı ölkə, vilayət, inzibati ərazi adı xoronim (bu söz yunanca xora "ölkə, el", onim "ad" deməkdir) adlandırılır. Ona görə də bunu omohidroxoronim kimi qeyd etmək olar.

Arpaçay adının etimologiyası haqqında fikirlər müxtəlifdir. Belə bir fikir var ki, Arpaçayın yazılı mənbələrdə adına ilk dəfə XII əsrdən təsadüf edilir. Bəzi tədqiqatçılara görə arpa əkinləri olan sahədən axdığı üçün belə adlanmışdır (1, s. 43).

XIX əsrin 30-cu illərində V. Qriqoryev adlı bir rus müəllifi Naxçıvana dair hazırladığı statistik məlumatda ("Naxçıvan əyalətinin statistik təsviri" – rusca) Arpaçay adının etimologiyasına dair belə bir qeyd verir ki, XVII əsrdə İrana səyahət etmiş Turneforun fikrinə görə çayın yuxarı axarında yabanı arpa bitkisi bitdiyinə görə bu çaya Arpaçay adı verilmişdir (10, s. 10). Professor Q. Qeybullayev kitablarının birində yazır ki, Arpaçayın mənbəyi Türkiyə ərazisində 2006 m yüksəklikdə olan Arpa gölündən başlanır. Gölün adı isə ətrafda bitən yabanı arpa bitkisi ilə bağlıdır (7, s. 147).

Professor İ. Bayramov Arpa toponiminin Arpa türk şəxs adından yarandığını və sonralar bunun tayfa adı kimi sabitləşdiyini qeyd edir (3, s. 76). Müəllifin qeyd etdiyi Arpa şəxs adı haqqında Faruk Sümər belə məlumat verir: "Əbu Səid Bahadır xanın ölümündən sonra (1335-ci ildə vəfat etmişdir) elxani taxtına çıxarılan Arpaqaunu (qısaca Arpa) Diyarbəkr valisi oyrat Əli Padşah tanımadı. Musa adlı bir şahzadəni xan elan edərək Arpaya hücum etdi. Arpa xan məğlub olaraq öldürüldü, yerinə Musa keçdi, Əli Padşah dövlətə hakim oldu" (11, s. 156).

Arpa kənd adlarının qeyd olunan şəxs adından və ondan formalaşan tayfa adından yaranması inandırıcı görünmür.Təkcə ona görə ki, kəndin adı şəxs adından çox-çox əvvəl mövcud olmuşdur.

Yunan müəllifi Ksenefont (e.ə. 430-354) "Anabasis" adlı əsərində skiflərin yaşadığı ərazidə Arpazos çayının adını çəkir. Arpazos Arpaçay (Qərbi Arpaçay) adının yunan dilində yazılış forması olmaq etibarilə "Arpaz" və qədim yunan dilində müəllifin əlavə etdiyi "os" adlıq hal şəkilçisindən ibarətdir. Ksenefont yerli əhalidən eşitdiyi Arpaçay adını qədim yunan dilində "ç" səsi olmadığından onu "z" səsi ilə verərək Arpaz (əsli Arpaç) kimi qeyd etmiş, deməli, Arpaçay adının "ay" səslərini nəzərdən qaçırmış, sonra qədim

yunan mənşəli “os” adlıq hal şəkilçisi əlavə etməklə onu Arpazos (Arpaços) kimi yazmışdır. Buradan aydın olur ki, Arpaçay hidronimi e. ə.V əsrdən mövcud idi (4, s. 17-18).

Azərbaycanda, Ermənistanda və Türkiyənin şərqində çoxlu Arpa adlı toponimlər vardır. Qafqaz Albaniyasındakı Arpa kənd adı XII əsrdən məlumdur (4, s. 128).

Göründüyü kimi, Arpa və Arpa komponentli adların tarixi çox qədimlərə gedib çıxır və bunu şəxs adı ilə əlaqələndirmək özünü doğrultmur.

Arpaçay və Arpagöl adlarını yabanı arpa bitkisinin adı ilə əlaqələndirən professor Q. Qeybullayev sonralar yenə bu məsələyə qayıdaraq göstərir ki, “Arpaçay adı əslində “Arpaçay” adında “br” qoşa səsinin “rb” (“rp”) ilə əvəzlənməsi nəticəsində “Apraçay”dır. Türk dillərində, o cümlədən Azərbaycan dilində belə əvəzlənmə vardır: torpaq-topraq, yarpaq-yapraq və s... Deməli, Apraçay (Abraçay) adı Arpaçay formasını kəsb etmişdir. “Abraçay” isə qədim türk dillərində abra “xeyir vermək”, “yardım etmək”, “maddi rifaha səbəb olmaq” mənasındadır. Çaya belə ad verilməsi onun xalqın təsərrüfat həyatında, xüsusilə suvarmada müsbət rolu ilə bağlıdır (4, s. 18-19).

B. Budaqov və Q. Qeybullayev birlikdə yazdıqları kitabda bir daha bu fikri təsdiq edirlər ki, Şərqi Türkiyədə və Naxçıvan MR ərazisindən axan Arpa çaylarının adları heç də arpa taxıl bitkisinin adı ilə yox, Altay dil ailəsinə mənsub bəzi dillərdə abra “xeyir verən”, “xilas edən”, “firavan yaşamağa səbəb olan” sözündəndir (4, s. 67-68).

Beləliklə, bura qədər deyilənlərdən belə məlum olur ki, Arpaçay və arpa komponentli adların etimoloji izahında üç fikir var:

1.Arpaçayın yabanı arpa bitkisi adından əmələ gəlməsi;

2.Bu adın əslinin Apraçay (Abraçay) olduğu və fonetik hadisə (metateza hadisəsi) nəticəsində Arpaçay formasına düşməsi və çay sözünə əlavə olunan “abra”nın qədim türk dillərində (Altay dil ailəsinə mənsub bəzi dillərdə) “xeyirxah”, “xeyir verən”, “firavan yaşamağa səbəb olan” mənası verməsi;

3.Arpa və Arpa komponentli adların tayfa adında yaranması.

Bu adların tayfa adından yaranması ehtimalı daha çoxdur. Professor H. Mirzəyev Fəxrəddin Kırzıoğlunun arpa derivatlı adların tayfa adı ilə bağlı olduğunu qeyd edərək yazır: “O, (F. Kırzıoğlu-A. İ.) göstərir ki, Xan Tenri dağından öz mənşəyini alan və İssık gölə tökülən Arpa suyu hövzəsindən çox-çox qədimlərdə bir türk eli, türk oymağı gəlib Dərələyəzdə, Ağbaba və Şörəyeldə məskunlaşmış və öz adlarını çox qala, kənd və göl adlarında əbədiləşdirmişdir (9, s. 238-239).

Arpa ilə düzələn toponimlərin arealının böyüklüyü, yəni Dərələyəzdə Arpa kəndi, Arpaçayı, Zəngəzurda Arpagədik, Arpatəpə, Qarabağda Arpagədik, Qarsda Arpaqala, Allahverdi rayonunda Arpatala qışlağı, Batumi yaxınlığında Arpa kəndi, Ağbabada Arpa kəndi, Arpaçayı, Arpagölü, Krımda Arpalar kimi xüsusi adların olmasını Arpa tayfasının geniş ərazilərdə məskən salması ilə əlaqələndirən H. Mirzəyev Arpa etnoniminin mənşəyini izah etməyin mürəkkəb məsələ olduğunu qeyd etməklə, bu məsələni gələcəkdə araşdırmağı nəzərdə tutmuşdur (yenə orada).

Bizcə, arpa etnonim adı kimi iki sözün birləşməsi yolu ilə formalaşmışdır: ar+pa. Sözün birinci hissəsi ar//ər haqqında alimlər eyni fikirdədirlər. Bu söz qədim türk dillərində "kişi, igid, döyüşçü, qoryucu" mənalarında işlənmişdir (4, s. 30,41; 7, s. 69 və s.).

M. Kaşgarlı er, ar sözünün "erkək (cəm forması ərən)", "adam", "kişi" mənalarında işləndiyini qeyd edir (6, s. 35, 124, 141, 172 və s.).

Ar //ər avar, avşar, bulqar, qacar, savar, kəngər, xəzər, kuçar, candar, çakar və s. kimi qədim türk tayfalarının adında da özünü göstərir.

Arpa sözündəki pa komponentinin qədim türk dilində "bəy", "şahzadə", "başçı" anlamında işlənən pi //bi //biy sözündən (4, s. 29; 7, s. 56) törəndiyini ehtimal etmək olar.

Şumer dilində işlənən be sözü "cənab", "hökmdar", "hakim" mənalarında olmaqla türk dillərində müxtəlif fonetik variantlarda işlənərək "bəy", "başçı", "hakim", "cənab", "rəis", "şahzadə", "əsilzadə" və s. mənalar daşıyan beg //bəy sözü ilə eyni mənşəlidir. Biy //bek əvvəlcə "əcdad, bani" mənasında işlənmiş, "cənab" məzmununu sonra qazanmışdır. Bek //bey //biy titulu hələ hunlar tərəfindən işlənmişdir. Monqol dilindəki beki titulu türk dillərindən alınma hesab edilir (8, s. 19-20).

Bunda əlavə, qədim türk dillərində "mətin", "bahadır", "igid", "qüvvətli" mənlarında işlənən bat sözü də olmuşdur (4, s. 31; 7, s. 180, 184).

Xəzər türklərinin bir qolu arpat adlanırdı. Bəzi müəlliflər Attilanın başçılığı ilə hun tayfaları Macarıstanı fəth etdikdən sonra, Macarıstan VI əsrdən digər türk tayfası avarların hakimiyyəti altına düşmüş, 250 il orada hakim olmuşlar. Avarlardan sonra Arpatlar bu ölkədə hakimiyyət qurmuşlar. Macar millətinin təşəkkülündə bu türk tayfası mühüm rol oynamışdır. Orta Asiya türklərinin adət və ənənəsini davam etdirən arpatlar xristianlığı qəbul etdikdən sonra hunlar və avarlar kimi tədricən türklüklərini itirmişdir (12, s. 8).

Vaxtilə İrəvan xanlığının Qarnibasar mahalında mövcud olmuş Arpava, əsli Arpaova, yəni "Arpa obası" mənasında olan kənd adının və Qazaxıstanda İssıkgölə tökülən Arpasu çay adının izahına B. Budaqov və Q. Qeybullayev "Bəlkə də tayfa adıdır",-deyə tərəddüdlə yanaşmışlar (4, s. 128). Arpaova (Arpa obası) oykonimində obanın kimə aid olduğu elə adın özündə aşkar görünür; obada, kənddə arpa etnonimi məskunlaşdığından yaşayış yerinin belə adlandırılması şübhə doğurmur.

Bir sözlə, arpa və arpa komponentli adların arbat //arpat //arpa etnonimindən yaranması qənaətinə gəlmək olar. Bu etnonimin mənşəyində dayanan arpi //ərbi (y)// arbat //arpat sözləri zaman keçdikcə danışıqda arpa formasını almış və bu cür də sabitləşmişdir. Adın mənası isə "igid ərlər", "mətin, bahadır bəylər", "şahzadə ərən // ərlər" kimi yozula bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 2000, 588 s.
2. Babayev S.Y. Qədim diyarın təbiəti. Bakı: Azərnəşr, 1970, 212 s.

3. Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 696 s.
4. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: “Oğuz eli”, Bakı 1998, 454 s.
5. Ələkbərli Ə.Y. Qədim türk-oğuz yurdu “Ermənistan” Bakı: “Sabah”, 1994, 204 s.
6. Kaşgarlı M. Divanü lugat-it türk. Tercümesi. Çeviren. Besim Atalay, Baskı 4. , cilt I. Ankara: Ankara Universitesi Basım Evi, 1998, 530 s.
7. Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən . Bakı: Azərnəşr, 1994, 248 s.
8. Məmmədov A.M. Azərbaycan dilinin erkən tarixinə aid materiallar. Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 5-24; 270 s.
9. Mirzəyev H.İ. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı: ADPU mətbəəsi, 1997, 352 s.
10. Статистическое описаніе Нахичеванской провинціи. Составленное В.Григорев. СПб, 1833.
11. Sümər F. Oğuzlar, Bakı: Yazıçı, 1992, 432 s.
12. Zülfüqarov V. Macarıstan. “Zaman” qəzeti, 26-28 fevral 2011-ci il.

РЕЗЮМЕ

АКИФ ИМАНЛЫ

ОБ ИМЕНАХ АРПА И АРПАЧАЙ

В статье предметом исследования стало происхождение гидронима Арпачай и ойконима Арпачай, сушествующих на территории Шарурского района Нахчыванской Автономной Республики, и гидронима Арпачай и хоронима Арпачай в Карсской области Турецкой Республики.

Двое наименований Арпачай из четырех рассмотренных называют водный обьект, односеление, последнее-район (илче). Поскольку ойконим Арпачай в Шаруре и район (илче) Арпачай в Карссе именованы на основе гидронима Арпачай, значит, обо имена образуют с ним синонимию. При этом одно из них является омогидроойконимом, другое-омогидрохоронимом. В заключении статьи делается вывод о том, что все рассмотренные имено, обозначенные словом «арпа» или с компонентом «арпа», по происхождению имеют один и тотже источник, т.е. они образованы на основе древнетюркского этнонима.

Ключевые слова: Арпачай, ойконимы, гидроним, хороним, этноойконим, Шарур, Карс, арпи, арпат, арпа

SUMMARY

AKIF IMANLI

ABOUT ARPA AND ARPACHAY HOMES

In the article Arpachayhydronyms existing in Sharur region of NAR, Apachayoyconyms, origin of Arpachayhydronyms and ArpachayKhronyms in Kars province of Turkey Republic are shown as a research subject.

Two of four marked Arpachay name can be met in water subject, one in village, the other in region name. As Arpachayoyconyms in Sharur and Kars Arpachay region in titled on the basis of Arpachayhydronyms, both of the names had originated homonymous with hydronyms. That's why one of them is omohydrooyconyms, the other is omohydrokhoronyms. The conclusion in the article is that, all the names arpa and arpa components were derived from the same source and originated on the basis of Turkish ethnonyms.

Key words: Arpachay, oyconyms, hydronyms, khoroyms, ethnooy-conyms, Sharur, Kars, arpi, arpat, arpa.

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

SƏDAQƏT HƏSƏNOVA
“Naxçıvan” Universiteti
sedaqethesenova@gmail.com

SƏMƏD VURĞUN VƏ ƏDƏBİ DİLİMİZ

Məqalədə Səməd Vurğunun ədəbi dilimizə münasibəti məsələsindən danışılır. Bu məqsədlə onun dil-üslub xüsusiyyətləri araşdırılır. Şairin ədəbi dilimizdəki xidmətini göstərən dil faktları üzə çıxarılır. Səməd Vurğunun yaradıcılığındakı dialektlər də təhlilə cəlb edilir. Məqalədə irəli sürülən elmi-nəzəri fikirlər faktik materialla əsaslandırılır.

Açar sözlər: dil, üslub, dialekt, poetizm, bədiilik.

Azərbaycanın ilk Xalq şairi S.Vurğunun poeziyası zəngin dil-üslub xüsusiyyətlərinə malikdir. Dil-üslub özəllikləri şairin ədəbi dilimizdəki mövqeyini yetərincə göstərir və özünəxas imzasını təsdiq edir. “Şəxsiyyətinə və yaradıcılığına məxsus bədii və inqilabi miqyaslar şairin, bütünlükdə milli poeziyanın da bioqrafiyasında tarixi yerini və xidmətini müəyyənləşdirir. Nizaminin və Xaqaninin, Nəsiminin və Füzulinin, Vaqifin və Sabirin böyük varisi və xələfi rolunda indi o tayda Şəhriyar, bu tayda Vurğun çıxış edirdi” (3, 6).

S.Vurğunun poetik dilində “vətən” sözü xüsusi bir vüsətlə səslənir. Onun həm bütövlükdə Azərbaycanı, həm də vətənin ayrı-ayrı bölgələrini tərənnüm edən əsərlərində içdən gələn və özünəxas deyim tərzi diqqəti çəkir. Şairin fikrincə:

Elindən, gülündən ayrılan könül...
Nə qədər olsa da “Vətən” sözünü
Duysun ürəyində, anlasın gərək (4, 86).

Dünyanı vətəninin simasında tərənnüm edən S.Vurğun, birinci növbədə, Azərbaycanın vurğunu idi. “Hər şerində Vurğun – eyni vaxtda üç qatda, Azərbaycan, Dünya və Tarix adlı üç məkanda yaşayan filosofdur” (3, 9). Bu aspektdən yanaşanda Azərbaycan birinci və daha yüksək qatda idi ki, həmin dövrdə azərbaycançılıq Əhməd Cavaddan sonra S.Vurğun poeziyasına hakim kəsilir və ucalıq məqamına çatırdı. Təsadüfi deyildir ki, S.Vurğun poeziyası 1940-1950-ci illərdə ən kamil azərbaycannamə örnəyi idi. Hələ 1926-cı ildə yazdığı şeirlərin birində o deyirdi:

Dağlarında vardır havalı yellər,
Ah, o sərin yellər, səfalı yellər;
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət, Şuşa! (4, 26).

Söz aləmində hərənin bir yolu, bir izi var. Lakin bu yolların və izlərin ömrü nə qədərdir? – sualına şairlərin sənətkarlıq xüsusiyyətləri və üslub özəllikləri müstəvisindən çıxış edərək cavab tapmaq mümkündür. Hələ

zamanında şerimizin bayraqdarı hesab edilən Səməd Vurğunun aydın yolunun, aydın dilinin müqəddəs azərbaycançılıq ideyaları işığında uzun zaman, bəlkə də əbədi yaşayacağı şübhəsizdir. Heca vəznində möhtəşəm poemalar yazmış böyük şairimiz milli vəznimizin əbədi olaraq özümüzə qayıdışında Şah İsmayıl Xətayi və Molla Pənah Vaqifdən sonra zirvə məqamında dayanır. XX yüzilin 20-ci illərində - əsrin əvvəlində "mürəkkəb" hesab olunan dilimizdəki ağırlığın hələ də davam etdiyi bir zamanda S.Vurğun ona fərqli bir duruluq gətirdi. Beləliklə də, "Azərbaycan şeir dilini Vurğun yenidən yaradır. Bu tamlıqda, duruluqda, saflıq və gözəllikdə Azərbaycan türk şeir dili o illər hamıdan çox Vurğuna xas idi" (3, 10). Və bu dildə vətənin tərənnümü daha geniş vüsətdə, daha fəqli təbdə idi:

Tərlan təbim havalanıb uçsa da,
Şimşək olub buludlardan keçsə də,
Fəzalardan sizə söhbət açsa da,
Vətən adlı öz yuvası var onun.

Odlar yurdu, əhdimiz var əzəldən,
Bu ilqardan nə mən döndüm, nə də sən.
Ana qəlbin bir ümmandır, ey vətən,
Vurğun kimi bir qəvvası var onun (5, 150).

Hələ 1920-ci illərin şeirlərində Səməd Vurğunun əsas yaradıcılıq prinsipləri aydın olur:

Nə gülləri, çiçəkləri sayrışan,
Tər cunalı yazların,
Ağ sədəfli sazların,
Nə də ki zurnalı düyünlər şairiyəm.
Mən
Günəşi yarışa çağıran
Böyük günlər şairiyəm (4, 122).

XX yüzilin 20-ci illərində S.Vurğunun dilində ümumişləklik dərəcəsi aşağı olan "dəsti-səbahi", "səmiə", "namütənahi", bəhri-bipayan, müləvvən, şəbab, səhneyi-ülfət, ənis (həmdəm), bari-möhnət, hənuz, əlan və s. kimi ərəb-fars mənşəli söz və ifadələr; "yarın", "bıqmaq", "pək", "bəkləmək", "çocuq", "yapma", "əkmək", "çıldırmaq", "yosma", "eş", "gömlək", "sıtmalı gecələr", "sokak", "yavru", "nerdə", "şu", "iştə", "qurnaz", "suç", "arkadaş", "öylə", "xayır", "məndil", "qoşmaq" (qaçmaq), "əvət", "qarınca", "şaşırmaq", "ək-şimiş" kimi türk dili vahidləri; "requlyator" (nizamlayıcı), "tok", "komsomalka" kimi rus-Avropa sözləri, "genosse" kimi varvarizm, "şömən-düfər" (dəmir yolu) kimi nitq istisnaları ilə qarşılaşmaq mümkündür. Bəzən 30-cu illərin əvvəlində də belə faktlara rast gəlmək olur. Hətta onun poeziyasında XX yüzilin Osmanlı ədəbi dil normalarını əks etdirən faktlar da vardır:

Varsın məni okşamasın gözəllərin kılığı,
Neyləyirəm bir aşkı ki, onun var ayrılığı (4,138).

Belə faktlar şairin dil xəlqiliyinə zərbə vura bilmir. Onun dilinin kökündə, poeziyasının dərinliyində olan xəlqilik alınma sözlərlə müqayisə edilə bilməz. Dilimiz başqa dillərlə münasibət yaradan qədim zamanlardan indiyə qədər heç bir söz ustası alınma sözlərdən imtina etməmişdir. Lakin bu sözlərə münasibət bütün dövrlərdə eyni dərəcədə olmamışdır. Səməd Vurğunun dilindəki alınma sözlər dövrün ədəbi dil normalarından kənara çıxmasa da, tezliklə onlar bu normalardan kənarda qaldı və bu prosesin həyata keçməsində şair əsas qüvvələrdən biri oldu. Şeir yazmağı şərəf hesab edən şairin söz qatarı sıxlaşdıqca, fikirləri dərinləşdikcə dili daha da gözəlləşdi:

Şeir yazmaq şərəf oldu,
Şeir inci, sədəf oldu,
Durna kimi səf-səf oldu
Sinəmizin söz qatarı (5, 241).

Doğrudan da, 1930-cu illərin ortası və 1940-cı illərdə Səməd Vurğunun dili müqayisəyəgəlməz bir sürətlə saflaşmış, işləndikcə şəfffaflaşmış, çağdaş Azərbaycan dilinin norma və özəlliklərinə sahib olmuşdur. 1935-ci ildə yazdığı “Azərbaycan” şeri bu fikrin təsdiqini verən ən mükəmməl qaynaqlardan biridir. “Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!” müraciət və sualının səsləndiyi bu əsər milli tariximizdə ən mükəmməl Azərbaycannamədir. “Ayrılarmı könül candan?” – bu, kiməsə, yaxud nəyəsə yönələn ritorik sual deyil, şairlə vətən arasında “elani-eşq” və “əhdi-peyman” idi. Təsadüfi deyildir ki, bir bədii metafora kimi Azərbaycan Vurğuna qədər hələ heç bir şeirdə bu qədər bütöv, bu qədər tam olmamışdı. Heç nə bu rəmzi əbədi, mənəvi vəhdəti parçalamağa qadir deyildi” (3, 5).

Dilimizin gözəlliklərini ifadə etmək baxımından Səməd Vurğunun 1943-cü ildə yazdığı “Dağlar” şeri də səciyyəvidir:

Binələri çadır-çadır
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!

Maral gəzər asta-asta,
Enib gələr çeşmə üstdə.
Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar! (4, 85)

Azərbaycan nitq mədəniyyəti tarixində “alovlu natiq” kimi tanınan Səməd Vurğunun poetik dili böyük bir ehtirasa malik idi. “Səməd Vurğun həmişə tribunaya da qartal kimi sinə gərərdi və bu tribuna nə qədər uca olsaydı, Vurğun ona bir o qədər yaraşardı. Ov dalınca çıxdığı qaya başından təbiətə boylanarkən bütünlüklə zirvələr, dağlar Vurğun ilhamının şaha qalxdığı, at oynatdığı oylaq və meydan üçün vüsət və ucalıq ölçüsü yox idi. Şair kosmosun fəthi dövrünü görsəydi, ayrı heç nəyi yox, məhz kosmik peyki planetə müraciət etmək üçün ən münasib tribuna adlandırardı və həmişə olduğu kimi, Vurğun monoloqu belə bir tribunaya yenə də yaraşırdı!” (3, 4).

Siz, ey çəmənlərdə gülən çiçəklər!
Bu sakit ahəngi pozan küləklər!
Ey təmiz duyğular, təmiz ürəklər!
Salam gələcəyin böyük adına!
Salam insanlığın etiqadına! (4, 171).

Yaradıcılığının ilk dövrlərindən Səməd Vurğunun fərdi üslubunu müəyyənləşdirən faktlar formalaşmağa başlamış, poetik dildə müəllifinin kim olduğunu tanıtmışdır. "Azərbaycan!" müraciətli xüsusi vurğulu, yüksək poetik xitaba malik olan şair 1935-ci ildə yazdığı bir şerində bu fikri təsdiq etmişdir:

İnsanlar dost kimi oxuyur məni,
Sözüm ağızlarda əzbər çəkilir.
Əlimlə qurduğum sənət bağında
Ətirli lalələr, güllər əkilir (4, 191).

Hər şeydən öncə, sənətkar zamanının övladıdır. *Söylədi əmr ilə "bu gün" sözünü, Zaman ayırmadı bizdən özünü* misralarının müəllifi olan Səməd Vurğun sovet dönəmində Azərbaycanın cəsarətli şəxsiyyətlərindən idi. Repressiya prosesinin başlandığı bir zamanda farslar və ruslar tərəfindən ikiyə bölünən Azərbaycandan, poetik dildə bu məsələdə "günahkar" olan Arazdan, tarix boyu haqsızlığa qarşı üsyanlar beşiyindən – Təbrizdən danışmaq hər kəsin işi deyildir. Hələ 1935-ci ildə o, romantik bir ehtirasla deyirdi:

Ah, Araz, ah, Araz, vədimiz hanı?
Bir ürək ikiyə parçalanmasın (4, 210).

Azadlıq bayrağı güllü bir yazda
Təbrizin üstündə parlayacaqdır! (4, 211).

Təbriz oğlu, Təbriz qızı,
Yadlar yedi haqqımızı,
Bir üsyanla doğacaqdır
Azadlığın dan yıldızı (5, 42).

Ağır başlı insanlara "pantürkist, panislamist, şovinist" damğalarının hazırlandığı bir zamanda "türk", "Türkiyə" sözlərinin işlənməsi yasaq idi. Səməd Vurğun isə "Füzulinin dərdi" şerində "Böyük ruhunla bir türksən!" deyirdi (4, 185). O, "Böyük şairin şərəfinə" şerində A.S.Puşkinin "Yevgeni Onegin" poemasını Azərbaycan dilinə çevirməsi ilə bağlı demişdir:

Axıtdım alnımın inci tərini,
Yanmadım ömrümün iki ilinə.
Rusiya şerinin şah əsərini
Çevirdim ilk dəfə türkün dilinə (4, 228).

Lakin şerin bu bəndindəki son misra "Çevirdim Vaqifin şirin dilinə" şəklində yayılmışdır.

Poetik dildə Azərbaycanın toponimik xəritəsini bütövləşdirən şairin dilindəki səliqə-sahman onun poetik dil uğurlarının əsasında dayanırdı:

Gəl qələm götürüb qoşa saz tutaq,
Süsənlər, sünbüllər, güllər bizdədir.

Gecələr qoynuna ay qonaq gələn
Sonası çığrışan göllər bizdədir (5, 7).

Şairin şifahi və yazılı nitq tipologiyasının bir arada göründüyü poetik dilində üslubun müstəqilliyi maraqlı dil vahidlərinin seçilməsinə səbəb olur. Bu mənada, ilk yaradıcılıq illərində onun dilində müşahidə edilən *gecənin qəlbi, zülm eli, sayğısız divanə, elçiləmək, xəyal küsdürmək, səfalət yuxusu, tufanlar əsri, qatil qəlb, suların duyumlu səsi, köhnə romantikanın xəstə qurdu, motorlu kəlmələr, Şərqin ciyərlərini gəzən azar, şerin başında turp əkmək, qafiyəlii dəllallar, sənətin bazarı, dərd almaq, dərd yemək, dərdli qəzəl, nazik adamlar, tərlan könül, azğın ürək, ətəkli çöllər, qəlbi saz kimi çalmaq, sərsəm gecələr, rəssam xəyallı, şair könüllü, sözün sağı, rəngi rəngləmək, topuqdan yüksəyə qalxmayan xəyal, kağızın yorulmağı, həsrətin son övladı, şəfəqlərdə çimən təbiət, sənətin yarı, çarlığın zülüm quşu, haqqın dodaqları, uğursuz dillər, ala gözlü gündüzlər, sərin küləyin nazlanmağı, səhərlərin ülkər gözü, şaşqın xəyal, dənizlərdə kürək çəkən xəyallar, açarsız, qapısız əfsanələr, küsəndirmək, şerin könül dastanı, könül yolçusu, axar qoşmalar, sınğın ruh, can verən şeirlər, fələk bəxtimizə baxdı qıyqacı, yaslı köynək, səhərin tərlan seyri, könül kamançası, qara böhtan, qəlbi şaxta vurmaq, azadlıq çırağı, fəlakət divi, könüldən-könülə yol açmaq, ürəyi sovqat göndərmək, ağılın fəzası, könüllər mülkü, ovçu könül* və s. kimi çoxsaylı ifadələr sözlərin işlənmə balansından xəbər verir. “Böyük sənətkarların böyüklük müsabiqəsində onların dilinin lüğət tutumu mühüm faktordur. Ancaq bu da faktdır ki, bir-birinə yaxın söz ehtiyatına malik müxtəlif sənətkarlar eyni səviyyədə bədii məhsul verməyə bilər. Bu halda sözdən istifadə qabiliyyəti, sözlə manevr etmək bacarığı həlledici olur. Söz tutumu siqlətlə bağlıdır, sözdən istifadə çevikliyi isə bədii obrazın mükəmməlliyini, keyfiyyətini şərtləndirir” (2, 55).

Poetik dil müəllifinin əsas estetik idealının yönünü müəyyənləşdirən üslub imkanlarının üzə çıxması üçün çox yararlıdır. Bu anlamda, poetik tutumluluq Səməd Vurğunun hər hansı bir əsərində ilk misralardan hiss olunur:

Yenə qılıncını çəkdi üstümə
Qurbanı olduğum o ala gözlər.
Yenə cəllad olub durdu qəsdimə
Qələm qaş altında piyalə gözlər.

Başımdan getmişdi sevdanın dəmi,
Xəyalım gəzirdi bütün aləmi.
Bu dustaq könlümü, deyin, yenəmi
Çəkdiyiniz sorğuya, suala, gözlər ? (5, 44).

Doğrudan da, söz sənətkarlarının dilində sözlərin işlənmə dərəcə və üstünlüyü eyni deyildir. Müəllifin niyyətini düzgün ifadə etmək baxımından sözlər müxtəlifdir. Məqsəd və mətnə uyğunlaşan sözlər poetik dildə daha diqqətçəkici olur. Eyni söz işlənmə məqamından asılı olaraq ayrı-ayrı anlamlarda üzə çıxa bilər. Bu, sözləri bir-birindən ayıran mühüm əlamətdir ki, bədii dildə daha böyük işlənmə meydanına malik olur. “Bədii sözü ümumi mətndən ayırmaq mümkün deyil” (1, 170).

Başına döndüyüm gülüzlü sona,
Ömrümün ilk çağı yadıma düşdü,
Şairlər vətəni bizim tərəflər,
Tərlanlar oylağı yadıma düşdü.

Oxuyun qəlbimi dastan işində,
Ürək döyünməzmi astan içində?
Payızın fəslində bostan içində
Şamamanın tağı yadıma düşdü (4, 220).

Məlumdur ki, hər bir söz hər hansı bir məfhum və anlayışı ifadə etməkdən başqa, həm də real hadisələrin poetik izahçısıdır. Onların dərin obrazlılığı "bədii ləyaqət" anlayışının formalaşmasına kömək edir. Bədii ləyaqətə malik sözlər ədəbi simaların qələmində xüsusi təravətlə işlənir və həyatdakı gerçəkliklər bədii gerçəkliklə ifadə edilir:

Sən bizim ellərin ruhuna bir bax!
Bizdən inciməmiş bir əziz qonaq,
Nişanlı qızların görüşdən qabaq
Telini saymağı yadıma düşdü (4, 220).

Özü dediyi kimi "qəlbimin qanıyla şeir yazan" şair nitq bölgülərini elə tənzimləyir, qafiyələri elə qurur ki, bədii vüsət insanda heyrət doğurur:

Şirindir insanın öz azadlığı,
Könül azadlığı, göz azadlığı,
Qələm azadlığı, söz azadlığı,
Dünyanın ən böyük varı məndədir (5, 19).

Söz bədiilik qaynağıdır. Adi sözlər gözlənilməz üslubi rənglərə malik olur. Bədiiliyin əsas cəhəti sözün obrazlı mahiyyətini üzə çıxarmaqdır. Bəzən elə məqamlarla qarşılaşırıq ki, sözün ilk dəfə səslənməsi təəssüratı yaranır. Söz tapıntıları obrazlılığı canlandırır. Sözseçmə bacarığı dilin poetikləşməsinə qüvvət verir. Poetik dilin ən böyük keyfiyyəti odur ki, o daim dəyişmə və zənginləşmə prosesində olur. Dilin canlılığı onun bədii keyfiyyətini artıran vasitələrdəndir. Bu mənada, Səməd Vurğun sözlərin bədii ələyaqət və keyfiyyətini artıran söz ustalarındandır.

Aşıq Şəmşir, Dəlidağdan keçəndə
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə
Saz tutub, söz qoşub yada sal məni.

Hay vurub, qıy vurub səs sal dağlara,
Gözəllər oylağı göy yaylaqlara.
Mənim bu dərdimi de oylaqlara –
Sinəmdən oxladı bir maral məni (5, 227).

Əsərlərinin birində "Hücuma başlayır mənim söz ordum" deyən Səməd Vurğunun dili aforistik məzmun daşıyan fikirlərlə zənginliyi cəhətdən də diqqəti çəkir. Əgər şairin yaradıcılığındakı aforizmlər toplansa, həcmli bir kitab

alınar. Onun ilk yaradıcılıq dövrünü səciyyələndirən aşağıdakı örnəklər bu baxımdan maraqlıdır:

Vicdan düzəldəcək, həyatı, vicdan!” (4, 12).
Örtülü düşmən daha qorxuludur (4, 124).
Əgər mənliyini sevməsə insan,
Onun bu dünyada mənası bir daş (4, 135).
Bil ki, hər əmələin bir kainatdır (4, 139).
Səbəbsiz deyildir nə ölüm, nə qan (4, 141).
Dünyada hər günün bir hökmü vardır (4, 146).
Cahana hər gələn bir əsər qoyur (4, 152).
Bir də ki, dünyada böyük adamlar
Sağlığında böyük ad almamışlar (4, 164).
Saxta insanların qəlbindəkini
Sadə baxışlarla yoxlamaq olmaz (4, 166).
Günəş bir qüvvədir yandıqca sönməz,
Tarixin təkəri geriyə dönməz (4, 227).
Hər tilsimli yolu bir hünər açar (5, 14).
Hər insan ömrünün bir kitabı var (5, 148).
Mənasız gözəllik xatirdə qalmaz (5, 148).
Ürəksiz deyilən sözlər saxtadır (5, 149).
Şairin şöhrəti əsərindədir (5, 214).

Səməd Vurğunun elə fikirləri var ki, indi də aktuallığı ilə diqqəti çəkir. O, xalqın bir çox dərdlərini qələmə alır, onlara münasibət bildirir. Bu bəlalar işində elələri var ki, onlar bütün zamanlar üçün təhlükə mənbəyidir. Bu baxımdan, o, dilimizi mükəmməl bilməyən gəncləri, savadsız müəllimləri göstərir:

Bizim gəncliyin də bir çox dərdi var:
Sevirəm onların həyat səsini.
Əfsus ki, bilməyir hələ də onlar
Nə öz dilimizi, nə özgəsini!
Yarımçıq elm ilə, yarımçıq savad
Gəncliyin üstündə böyük ləkədir.
“Savadsız müəllim!”.. Bu gülməli ad
Gələcək günlərə bir təhlükədir... (176, 237).

Şairin tənqid obyektlərindən biri özgənin elmini mənimsəyən və bu həqiqəti dərk etmədən özündən razı qalan alimlərdir:

Bəzən bir alimin çox iftixarla
Dediyi özgənin fikirləridir.
Qurtarır nitqini, baxır vüqarla,
Elə bil, öz sözü, öz hünəridir (5, 238).

Səməd Vurğunun dilində *teylənmək* (qaçmaq), *üy* (barmaq bükükləri), *bələn* (çöl) kimi maraqlı dialekt örnəkləri onun dilinə xüsusi bir təbiilik gətirir. Dialektlərin dəyəri ondadır ki, onlar müxtəlif tarixi dövrlərə uyğun dil hadisələrinin aydınlaşdırılmasında mühüm rol oynayır. “Dialekt və şivələrin lüğət tərkibi onun başqa sahələrinə nisbətən sürətlə dəyişsə də, müxtəlif

illərdə, əsrlərdə o dildə danışanların tarixində baş vermiş hadisələr burada özünəməxsus şəkildə mühafizə edilir və qorunub saxlanır. Sanki xalqların inkişaf tarixinin müxtəlif zamanları sözlərə öz möhürünü vurur, onlarda tarixin izləri yatıb qalır" (1, 3). Bu mənada, Səməd Vurğun da dialektləri poetik dilə gətirmiş, onları dialektizm səviyyəsinə yüksəltmişdir.

Səməd Vurğunun dilində *sənrimək* sözü ilə qarşılaşırıq ki, "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə həmin dialektə rast gəlmədik. Yəqin ki, Qazaxda işlənən həmin dialekt az işləndiyindən qeydə alınmamış və bu səbəbdən də lüğətə salınmamışdır.

Şairin dilindəki bənzətmələr də Vurğunsayağıdır. Şamın əriyib damcı-damcı axıb tökülməsi şairin nəzərində onun gözündən yaş tökməsini təsəvvürə gətirir:

Könül verdim min axşama,
Pərvanətək yandım şama...
Gözündən yaş dama-dama
Şam da dilə gəldi birdən: -
Şair, nə tez qocaldın sən?! (5, 136).

Səməd Vurğun az yaşayıb çox fikir söyləyən, sözdən çox fikrə meydan açan, ana dilimizi ritmi, deyim tərzi, sözə münasibəti ilə zənginləşdirən "bayraqdar" şairdir. Sözsüz ki, əldə bayraq tutanlar həmişə dəstənin qarşısında addımlayır. Sanki bioloji həyatının qısalığını hiss edirmiş kimi şair bir zamanlar yazırdı:

Unutmadım
Adımı dolaşıq çağıran
Suların düyümlü səsini...
Mənə çox görməsin zaman
Çalışıb yaşamaq həvəsini (4, 99).

Mənəvi həyatı bioloji həyatından uzun olan və bundan sonra da uzanacaq Səməd Vurğun uzaqgörənliklə bunu da deyirdi:

Bəxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandır ayrılıq dərdi.
Demə, Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni (5, 227).

Doğrudan da, Azərbaycan sinəsi sözlə dolu Səməd Vurğunu unutmayacaq. Çünki könül candan, Səməd Vurğun Azərbaycandan ayrılmaz.

ƏDƏBİYYAT

1. Əhmədov B.B. Azərbaycan dili şivələrində fonosemantik söz yaradıcılığı. Bakı, 1994.
2. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlili. Bakı: Maarif, 1979. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlili. Bakı: Maarif, 1979
3. Qarayev Y. Azərbaycan ədəbiyyatının Vurğun dövrü / S.Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, I c. Bakı, Şərq-Qərb, 2005., s.4-14.
4. Səməd Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, I c. Bakı, Şərq-Qərb, 2005.
5. Səməd Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, II c. Bakı, Şərq-Qərb, 2005.

РЕЗЮМЕ

САДАГАТ ГАСАНОВА

САМЕД ВУРГУН И НАШ ЛИТЕРАТУРНЫЙ ЯЗЫК

В статье говорится об отношении Самеда Вургуна к нашему литературному языку. С этой целью исследуются языковые и стилевые особенности его произведений. Выявляются языковые факты, указывающие на роль поэта в развитие нашего литературного языка. Привлекаются к разбору диалекты, использованные в творчестве поэта. Научно-теоретические мысли, выдвинутие в статье, обоснованы фактическими материалами.

Ключевые слова: язык, стиль, диалект, поэтизм, художественность.

SUMMARY

SADAGAT HASANOVA

SAMAD VURGUN AND OUR LITERARY LANGUAGE

The article deals with the issue of Samad Vurgun’s approach to our literary language. For this purpose his language-style features are being investigated.Linguistic facts showing the poet's service in our literary language are revealed. The dialects in the creativityof Samed Vurgun are also analyzed.The scientific-theoretical ideas put forward in the article are justified by the actual material.

Key words: language, style, dialect, poetry, art.

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

QƏNİRƏ ƏSGƏROVA
“Naxçıvan” Universiteti
asgerovaganira@gmail.com

NAXÇIVANLI DİLÇİLƏRİN ONOMASTİKA SAHƏSİNDƏKİ FƏALİYYƏTLƏRİ

Məqalədə naxçıvanlı dilçilərin onomastika, xüsusilə toponimika sahəsindəki fəaliyyətləri araşdırılmışdır. Məqalədə əsasən A.Bağırovun,və F.Rzayevin bu sahədəki fəaliyyətləri incələn-miş, Azərbaycan onomastikasına göstərdikləri xidmət, bu tədqiqatların əhəmiyyəti və tədbiq sahələri müəyyənləşdirilmişdir.

Açar sözlər: Azərbaycan onomastikası, naxçıvanlı dilçilər, toponimika, oykonimlər, A.Bağırov

Onomastik vahidlər xalqımızın tarixi, milli varlığımızın dəlillərindən, qan yaddaşı, mill ünvanıdır. Xalqımızın adət-ənənələri, tarixi, dili, etnoqrafiyası, etnogenezi, coğrafiyası və s.kimi xüsusiyyətlər bu onomasik vahidlərdə öz əksini tapmışdır. Azərbaycan dilçiliyində onomastikanın tədqiq tarixi qədim deyil,son dövrlərə təsadüf edir. 1970-ci illərdə Azərbaycan Pedaqoji İnstitutu(indiki Pedaqoji universitet) onomastik tədqiqatların mərkəzinə çevrilmişdir. Və mərhum professorumuz Afad Qurbanovun təşəbbüsü və rəhbərliyi ilə onomastika problemləri laboratoriyası yaradılmışdır. Onomastik vahidlərin sistemli və ardıcıl öyrənilməsinə başlanılır, onomastika bağlı elmi dissertasiya mövzuları verilir, bu sahədəki işlər genişləndirilirdi. Bu gün artıq Azərbaycan onomasikası müstəqil bir elm sahəsinə çevrilmək üzrədir, özünün metodu elmi-tədqiqat obyekti, məqsədi vardır.Azərbaycan onomasikasının öyrənilməsində, onun elmi müddəallarla zənginləşməsində naxçıvanlı dilçilərin ayrıca payı vardır.

Filologiya elmləri doktoru mərhum Adil Bağırov Naxçıvan Muxtar Respublikasının onimlər sistemini tamamən tədqiqata cəlb etmiş,demək olar ki, Naxçıvan onomasikasının heç bir vahidi , onimi tədqiqatdan kənarda qalmamışdır. 2000-ci ildə müəllifin “Naxçıvan hidronimləri” əsəri çap olunmuşdur Bu əsərdə Naxçıvanda olan su ilə bağlı bütün onomastik vahidlər onların leksik-semantik xüsusiyyətləri, yaranma yolları incələnməşdir. Bildiyimiz kimi, Naxçıvan toponimləri xalqımızın tarixi qədər qədim tarixə malikdir. Toponimika xalqımızın tarixini bu günə daşıyan mənəvi varlığımız, sərvətimiz, əsas vasitələrdəndir. Bu toponimlər müəyyən tarixi şəraitdə yaranmış, müəyyən tarixi hadisələrlə bağlı ola bilən, bəziləri dəyişikliyə məruz qalmış, formalaşmış, milli mənəvi abidələrimiz kimi bu günümüzə gəlib-çatmışdır. Xalqımızın təşəkkülünü öyrənmək,bu torpaqların əzəli xalqımıza məxsusluğunun sübütü baxımdan toponimlərin araşdırılması və torpaq iddiasında olanlara qarşı

tutarlı cavab baxımından çox əhəmiyyətlidir. Bunu nəzərə alan dilçi alim 2002- ci ildə “Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri”(1) adlı əsərini çap etdirmişdir. Bu əsər adı çəkilən əsərin davamı olaraq müəllifin doktorluq dissertasiyasının bir hissəsini əhatə edirdi. Monoqrafiyada Azərbaycan Respublikasına bağlı Naxçıvan MR-in toponimlər sistemi tarixi-linqvistik planda tədqiq edilir. Monoqrafiya altı fəsildən ibarətdir. Burada oykonimlər, oronimlər, xromononimlər, urbanonimlər, dromonimlər və onların leksik-semantik xüsusiyyətləri, struktur- semantik tipləri, tarixi, dil mənsubiyyəti, fonetik, morfoloji və sintaktik özəllikləri incələnmiş, xarakterinə görə ümumiləşdirmələr və sistemləşdirmə aparılmışdır. Bu monoqrafiyada müəllif çox ciddi elmi müddəalar əldə etmişdir. Müəllıf belə bir nətıcəyə gəlmişdir ki, Naxçıvan toponimləri xalqımızın milli ünvanıdır və əhali bu ünvana azərbaycanlı möhürünü bəşəriyyətin məskən saldığı ilk günlərdən vurub. Ərazıdəki toponimlər bu xalqın qanı ilə yoğrulmuş milli adlardır. Bu adların doğum yeri Naxçıvandır.(2,47) Əsərin bir əhəmiyyəti odur ki,əsərin sonunda Naxçıvan toponimləri sözlüyü təqdim edilmişdir. Bölgələr üzrə təqdim olunan oykonimlər sözlüyü iki hissədən ibarətdir. I hissədə bugün də özünü göstərən oykonimlər əks olunmuş, II hissədə isə passiv fonda keçən 197 oykonim göstərilmişdir. Bu sözlük gələcək tədqiqatlar üçün əhəmiyyətli mənbədir.

Görkəmli alimimizin 2008-ci ildə “Naxçıvan oykonimləri” (1597-2007-ci illər materialları əsasında) adlı əsərı işıq üzü görür. Əsərdə Naxçıvan zonasının tarixi ərazilərindəki yaşayış məntəqə adlarının 400 illik dövrü incələnmiş, itib-batmaqda olan adlarımız araşdırılıb üzə çıxarılmış,qədim və müasir oykonimlər sistemi fundamental şəkildə şərh edilmişdir. Əsərin birici hissəsində toponimlərin –oykonimlərin tədqiq tarixi,dil mənsubluğu araşdırılmış,hər bir toponimik adın məna açımı elmi şəkildə əsaslandırılmışdır. Bu hissədə xalqımızın təşəkkül tarixində yaxından iştirak edən müxtəlif tayfa və tayfa birləşmələri ,bu torpaqlarda yaşayan ayrı-ayrı tayfa və etnoslarıların izini təmsil edən etnooykonimlərin tədqiqinə geniş yer verilmiş, bu adlar etimoloji baxımdan təhlil olunmuş, leksik-semantik cəhətdən qruplaşdırılmışdır. Oykonimlərin statistikası, passiv fonda keçmiş adlar onların paralelləri verilmiş, tarixi-coğrafi baxımdan incələnmişdir, yeri gəldikcə polemik fikirlər irəli sürülmüş, müəllifin dediyi kimi torpaqlarımıza göz dikmiş erməni millətçilərinin əsassız iddialları real dil faktları əsasında təkzib edilmişdir. İkinci hissədə müxtəlif mənbələrdən Azərbaycan coğrafiyası, tarixşünaslığı və dilçiliyi üçün dəyərli məlumatlar toplanılmış və hər onimin üstündə türkün möhürü sübuta yetirilmişdir. Dilçi alimin 2010-cu ildə ”Onomologiya problemləri” (3) əsərinin birinci cildi işıq üzü gördü.Burada onomalogiyanın antroponim, etnonim, toponim yarımşöbələrinə aid materiallar araşdırılmış, müxtəlif mənbələrdə işlənən xüsusi adlar aşkarlanıb üzə çıxarılmış, bu adların əmələgəlmə, yaranma yolları, struktur semantik tipləri, mənşəyi və ictimai-siyası xarakterinə görə təhlil edilmişdir.Əsərin II fəsli M.Kaşğarinin “Divanü-Lüğat-in türk”əsərində oğuz boy adlarının Naxçıvandakı izlərinə həsr olunmuşdur. Qədim oğuz tayfaları ilə bağlı toponimlər araşdırılmış, Peçenek, Qarxun, Bəkdüz, Bayat tayfa adları ilə bağlı yaranmış onomastik vahidləri incələnmişdir.

Monoqrafiyadakı yazılar ilk dəfə işıq üzü görürdü. 2012-ci ildə çap olunan əsərdə isə (4) Naxçıvan toponimlərin üslubi imkanları, poetik xüsusiyyətləri araşdırılmış, zoonim, fitonim, kosmonim və ktematonimlərin aktual məsələləri tədqiqata cəlb edilmiş, onların yaranma yolları,mənşəyi müəyyənləşdirilmişdir. Müəllif ən kiçik onomastik vahidi də incələmişdir. Müəllifin bütün əsərləri tədris prosesində tətbiq ediləcək əsərlərdir.Bu vəsaitlərdən tədqiqatçılar üçün ən əsas mənbə ola bilər.

Ümumiyyətlə, mərhum A.Bağırovun Azərbaycan onomasikasının inkişafında özünəməxsus iz qoymuşdur.

Filologiya üzrə fəlsəfə doktoru Rzayev Firudin Həsən oğlu "Əlincə çayı vadisi toponimlərində türk layı" mövzusunda 2003 –cü ildə elmi dissertasiya müdafiə etmişdir. Əlincə çayı vadisinin toponimik vahidləri, növləri tamamilə toplanaraq müasir toponimik səviyyədə tədqiq edilmiş, leksik-semantik qruplarına nəzər salınmış, ilk dəfə olaraq paleotoponimlərin hərtərəfli linqvistik təhlilləri verilərək,bütün toponimlərin növlərin funksional-struktur tipləri ətrafl tədqiq olunmuşdur. Toponimlərin fotosemantik,semantik leksik-semantik təhlili belə qanunauyğunluğu təsdiqləyir ki, əraziyə daxil olan bütün toponimlərin ən qədim layını türk mənşəli toponimlər təşkil edir və onların bir qisminin yaranma dövrü e.ə.II-I minilliklərdə təşəkküllümüzdə xüsusi rol oynamış türkdilli tayfa, etnosların adları ilə bağlıdır. "Naxçıvan MR toponimlərinin tədqiqinə bir nəzər" adlanan dissertasiyanın birinci fəslində bu ərazinin qədimliyinə,etnik tərkibinə, qədim yazı nümunələrinə, Naxçıvanla bağlı əsərlərə istinad edilmiş, fikirlər söylənilmişdir.

Dissertasiyanın II fəsli "Əlincə vadisi toponimlərinin linqvistik təhlili" adlanır. 3 bölmədən ibarət olan bu fəslin "Əlincə vadisi toponimlərinin fonosemantik təhlili" adlanan I bölmədə əsasən paleotoponimlərdəki fonetik hadisələr və bəzi dialekt paralelliklər araşdırılmışdır.

II fəslin II bəndi "Əlincə vadisi toponimlərinin strukturu" adlanır. O.T.Malçanovanın dilçilikdə və toponimikada sözyaratma ünsürlərinin müqayisəsinə diqqət yetirilmiş, S.M.Mollazadənin, T.Əhmədovun S.F.Köçərlinin və başqalarının əsərlərindəki fikirlər üzərində dayanılaraq toponimlərə qoşulub yeni toponim yaratmayan yalnız semantik bütövlük yaradan –lı, -lu, -lik, -çık şəkilçiləri haqqında izah verilmiş, B.A.Budaqovun, V.L.Quqasyanın dağ, təpə, dərə və s. coğrafi nomenlərlə bağlı fikirlərinə istinad olunmuşdur. Oykonimlərin yaranma və formalaşma xüsusiyyətləri bölməsində Əlincə vadisində daxil olan oykonimlər dil qanunlarına və toponomik modellərə uyğun olaraq etnotoponimlərdən törəyən oykonimləri, antroponim, hidronim, fitonim, oronim xarakterli, paleomifik və digər adlardan formalaşan oykonimləri qruplara ayıraraq incələnmişdir. "Oronimlərin struktur tərkibi" bölməsində Əlincə vadisində çoxluq təşkil edən relyef quruluşlu oronimlər öz yaranma formalarına və quruluşlarına görə diqqətə çatdırılmışdır. Hidronimlərin struktur tərkibi bölməsində müəllif Əlincə vadisində İ.A.Vorobevanın qeyd etdiyi fikirlərə istinad edərək hidronimlərin digər toponimik sistemdəm daha çox sabitliyə malik olduqlarını və vadidəki əski etnoslarımızla bağlı hidronimlərdə bunların şahidi olduğunu göstərir.

Dissertasiyanın III fəslində vadinin oykonimlər sistemi araşdırılmış və müəyyənləşdirilmişdir ki, müxtəlif türkdili tayfalar avtoxton sakinlərdir və bu ərazidəki oykonimlər həmin tayfaların adları öz ana dilindədir və məna çalarlıqları yalnız qədim türk-Azərbaycan sözlərinə mənsubdurlar. Aparılan tədqiqat sübut etdi ki, vadi toponimlərin tədqiqi türk xalqlarının tarixini, etnogenezini və etnoqrafiyasını öyrənmək üçün zəngin material mənbəyidir, vadi toponimləri çox gərəkli və yüksək səviyyəli dil faktları olmaqla, onların onların linqvistik təhlilləri ilə Qafqazda, o cümlədən Azərbaycanda türk dilli tayfaların yaşaması tarixini aydınlaşdırmaq mümkündür, toponimlər qədim türkdili etnoslara mənsub olub bu etnosların dilindəki sözlər hesabına formalaşıblar. Toponimlərin fotosemantik, leksik-semantik təhlilləri göstərdi ki, onlar minillərin ardından günümüzədək türk-Azərbaycan toponimiyasına xas olan qanunauyğunluqla formalaşmışdır. Əlincə vadisindəki etnos adları tarixdə öz dövlətlərini yaratmış türkdilli xalqların toponimlərində etnos kimi qalmasına diqqət çəkilmişdir.

Müəllifin 2006-cı ildə “Qədim Şərur oykonimlərinin mənşəyi” adlı əsəri çap olunur. Əsərdə qədim Naxçıvanın Şərur bölgəsindəki oykonimlərin mənşəyi araşdırılmış, onları yaradan əski türk tayfalarının tarixdəki yeri və bu tayfa adlarının daşıdığı mənalara yeni elmi konsepsiyadan nəzər salınmışdır. Bununla bərabər əski türk tayfalarının yayılma arealı, areal türk onomastik vahidləri və toponimlərinin Şərur oykonimləri ilə müqayisələri aparılmış,oykonimlərdəki əski türk leksik vahidlərinin müqayisəli təhlilləri verilmişdir. Əsər 3 fəsildən ibarətdir. Birinci fəsildə Şərur oykonimlərinə dair məlumatlar oxucuların diqqətinə çəkilmiş, bu sahədə aparılmış, lakin tədqiq edilməmiş bəzi faktorların nəzərə alınmamasın dıqqət çəkmişdir. Faktorlar bunlardır:

1.Toponimik sözlüklərin sistemli şəklində öyrənilməməsi;
2.Oykonimlərin tarixi qaynaqlarındakı adlanmalarının bugünkü adlarla müqayisə olunmaması;
3.Oykonimlərin etnoslar baxımından sistemli şəkildə tədqiqi edilməməsi və onları yaradan etnosların fəaliyyəti dövrlərinin araşdırılmaması; və.s.

Bütün bunları nəzərə alaraq tədqiqatını davam etdirmiş, Şərur ərazisində yaşayan qədim türk tayfalarını araşdırmış, son dövrlərdə yaranan oykonimlərdən bəhs etmiş,

Şərur oykonimlərində yazıyaqədərki dövr fonetik və leksik elementlər incələnmiş, yeni elmi nəticələr əldə edilmişdir. Tədqiqatlardan irəli gələn yeni elmi nəticələrin tarix, coğrafiya, dil istiqamətlərinin tutarlı təkzibləri dünya tarixşünaslığının irəli sürdüyü “Şimaldan cənuba türk tayfalarının köçü” ideyasının tamamilə doğru olmadığını sübut edən real həqiqətlərdir. F.Rzayev göstərir ki,coğrafi müqayisələr, linqvistik araşdırmalar, arxeoloji qazıntıların elmi nəticələri kasların, sakların, oğuzların, busla və manqların, eləcə də onların hun qolları (hunqurlar,hunqarlar) çox qədimdən (e.ə.II minillik) ərazilərimizdə avtoxton sakinlər olmuşlar (6,61). Şərur rayon oykonimlərinin formalaşmasında iştirak edən e.ə. və eramızın sonrakı dövrlərində yaşamış türk tayfalarının izləri, eləcə də yazıyaqədərki dövr elementlərinin bu adlarla

toponimləşməsi ərtazinin çox qədimdən türk xalqlarına mənsubluğunu qeyd-şərtsiz sübut edən tarixi faktlardır. Dilçiliyimizə, xüsusilə onomastika sahəsinə bir çox elmi yeniliklər gətirən, Azərbaycan dilçiliyində özünəməxsus mövqeyi olan, tanınmış dilçi alimimizin 2014-cü ildə "Naxçıvan əhalisinin etnogenezi tarixindən. e.ə.VI-III minilliklər.(Naxçıvan oykonimləri əsasında) əsəri də bir çox real gerçəkləri üzə çıxarmağa imkan vermişdir. Əsərdə qədim Naxçıvanla bağlı tarixi faktlar tədqiqatlar araşdırılmış , Naxçıvan ərazisində yaşayan prototürk-Azərbaycan boyları incələmişdir. Bu monoqrafiya bir çox gerçəkləri təsdiq edir. Əsərin əhəmiyyətinə diqqət çəkən AMEA-nin həqiqi üzvü İ.Hacıyev yazırdı ki, Naxçıvanda hələ e.ə.VI minilliklərdə mövcud olmuş tayfaların ümumtürk arealında yayımı və bu siyasi proseni aid olduğu dövrlərin müqayisəli təhlilləri rus ideologiyasında yer almış "türklərin ərazilərə gəlmə" kosepsiyasının da tamamilə rədd etməklə,ilk tarixi köçlərin məhz bu ərazilərdən şimala doğru olduğunu sübut edir (52, 7). Onu da qeyd edək ki, F.Rzayev bu əsərə xəritə də əlavə etmişdir ki, bu da Azərbaycan tarixşünaslığı, eləcə də Naxçıvan tarixi üçün elmi əhəmiyyət kəsb edən faktlardandır. Eyni zamanda müəllif Naxçıvan paleotoponimlərində yazıyaqədərki dövr protoAzərbaycan dil elementlərini araşdırmış, yazıyaqədərki türk dili leksik vahidlərinin (ar, igid, bəy, bak//bek) bütün türk adlar sistemində də təkrarı Naxçıvan ərazisinin bu türklərin ana yurdu olduğunu təsdiqləyən faktlar kimi dəyərləndirmişdir.

2017-ci "Naxçıvan əhalisinin etnogeniz tarixindən " (6) əsəri çap olunur və bu əsər dilçiliyimizə yeni töhfə idi.

Kitabda Azərbaycan dilinin Bəsrə-Kəngər körfəzindən Dəmirqapı Dərbəndə qədər yayılması, Rafael Dü Man, Adam Alyari, Ungelberq Kekberq, Öjen Flanden, Paskal Kost kimi Fransız və Avropa səyyahlarının kitablarına istinadən göstərilmişdir. Burada Osmanlı imperiyası, İran, bütün Qafqaz ərazilərinin və Rusiyada ticarətində əsas ünsiyyətin Azərbaycan dilində mühüm vasitə olması göstərilmişdir. Bunu bu ərazilərdə yerli sakinlər olmuş kəngər, maq, Midiya tayfaları bus, budi, arizant, partagen, sak, zəngi, oğuz, skif tayfaları paralat, yirik, arimaspi, kimmer, şirak kaspi, gel, çul, yuci, kol, bolqar tayfaları basil, çakır, kuruqur, qazan, Qıpçaq, Xaçmataq türkləri və onların dilinin II cilddə etnooykonimlərə əsasən linqvistik təhlilləri sübut etmişdir. Burada tək səs-hərflərin məna daşıması faktlarının sübutu, ilkin dilimizin birhecalı olması variantının dil faktları ilə təsdiqi, toponimik adlar üzərində aparılacaq tədqiqatlara yeni bir konsepsiyanın təqdimi və onun dil faktları ilə sübutu, F.Rzayevin dilimizlə bağlı yeni elmi nəticələrinin əsl mahiyyətini ortalığa çıxarır. Oykonimlərin quruluşundan ortalığa tək səslərin fonomorfem kimi çıxması amilini göstərən müəllif səs+söz+cümlə təkamülünü dilimizin ən qədim dillərdən, ilk formalaşan dil olduğunu göstərmişdir. Göstərilən prototürk tayfa dillərinin Naxçıvan-Naxər ölkəsi ərazisində yaranmış çarlıq, ölkə, əyalət kimi qurumlarında ümum ünsiyyət vasitəsi olduğu da elmi cəhətdən əsaslndırılmış, bu digər tayfa dillərinə təsirinə dair tarixi dil faktları göstərmişdir.

II cilddə Naxçıvanın qədim və müasir ərazilərindəki tayfalarla bağlı adların mənaları, onların mifik inancları, Assur, Urartu, Uyğur yazılarındakı bu tayfa dillərinə məxsus sözlər və ifadələr ətraflı tədqiq edilmişdir. Etimoloji təhlillər zamanı, sözlərin aid olduqları dövrləri, onların ümum prototürk dil ünsürləri ilə müqayisəli təhlili verilmişdir. Nəticədə dilimizin əski dövrlərinə dair yeni dil və tarixi faktlar ortalığa çıxarılmışdır.

Firudin Rzayevin e.ə. II-I minilliklərə dair bu əsərdə tayfaların adlanma prosesi, dilin ifadə imkanları, mifik təfəkkür amili, tarixi, coğrafi faktlar, qədim türk və areal türk sözlükləri və.s vəhdətdə götürülmüşdür ki, toponimikaya dair tədqiqatlarda bu cür elmi konsepsiyaya təsadüf edilmir. Tədqiqatın bu üslubu yeni olmaqla ağır zəhmət tələb edir ki, müəllif bu yeni konsepsiyasını qüsursuz, layiqincə yerinə yetirmişdir.

Müəllif bütün bunlara 30-dan yuxarı prototürk tayfası və tayfa qollarının tarixi və ərazisi, dili və inancının Şümer, Urartu və digər salnamə yazılarına, antik müəlliflərin əsərləri və dini kitablara əsl tədqiqatçı bacarığı ilə yanaşması sayəsində əldə etmiş, səriştəli dilçi alim olduğunu, sanballı və ağır bir zəhmətin öhdəsindən bacarıqla gələn əsl tədqiqatçı peşəkarlığını ortalığa çıxarmışdır.

Bu F.Rzayevin türk xalqlarının dili və onun mənşəyi haqqındakı yetərincə sahib olduğu bilgi, elmi əsərlərin düzgün təhlili və dil faktlarının tam təyin edilməsi ilə bağlı olmuşdur.

Bütün bunlarla yanaşı bu əsərdə dilimizin ən qədim dövr dilçilik yönündən diqqəti çəkən əsas amillərindən biri də I cilddə olduğu kimi II cilddə də 8 min il öncəki dilimizdə kök və şəkilçi münasibətlərinin müasir dilimizin morfoloji və leksik qanunları ilə müqayisələrinin elmi izahlarıdır. Burada əski dilimizdə az-az təsadüf olunan amorf, flektiv dil xüsusiyyətlərinin izahları da dil tariximiz üçün bir elmi faktı ortalığa çıxarır. Əgər bu gün dünya dillərində amorf (kök dil) və flektiv dil ünsürləri hələ yaşamaqdadırsa, bir daha qeyd edək ki, protoAzərbaycan dili bu prosesi 8 min il öncə adlamış, tarixi baxımdan ən qədim dil olmuşdur. Bu tarixi faktın özü də monoqrafiya müəllifinin dilçilik elminə gətirdiyi bir elmi yenilikdir.

Bildiyimiz kimi sözlərin öndən, orta və sondan dəyişilmələri, flektivlik əlamətləri slavyan, roman-german, sami, ərəb və s. dillərə aiddir. Burada daxili və xarici fleksiyalar mühüm rol oynayır ki, bunlar monoqrafiyada geniş izah olunur.

Firudin Rzayev amorf-kök dillərə dair nümunələr göstərməklə yanaşı, flektiv dillərə dair qədim Manna və Midiya toponimlərindən Qilzan, Urimzan, qıpçaqlarda Koman, Kuman, peçeneqlərdə Yazı Kapan kimi tayfa əski **–an** “mənsubluq”, bəzən də “bənzətmə” mənalı şəkilçini nümunə verərək, Naxçıvan etnooykonimlərində bunun bütün variantlarda geniş izahını təqdim edir. Eyni hal **-ut/at/t**-“yer məkan”, “cəmlik”, **-a, -ik-“**kiçiltmə” və s. şəkilçilərə də aiddir ki, müəllif bəzən bunların leksik məna da daşımasına dair oykonimlərdən misallar və dil faktları göstərir.

Müəllifin fikrincə, amorf dillər bu üç mərhələnin ilkin, flektiv dillər orta, aqqlütinativ-iltisaqi dillər isə son, sabit və mükəmməl mərhələsi

olmuşdur. Biz də bu fikirlə tam şərikik və dilimizin bu dil quruluşlarından ən qədim dil olduğunu təsdiq edirik.

Müəllif eyni zamanda Helt, Axxıyava, Assur yazılı mətnlərin əski türk dilində olduğunu elmi faktlarla sübut etmişdir.

Dilçi alim F.Rzayevin bu əsərində diqqətimizi çəkən son dövrlər dilçilikdə geniş aspektdən tədqiq olunan adlardakı predikativlik məsələsidir. Qeyd edək ki, prediqkat və predikativlik anlayışlarında predikat-məntiqdəki mühakimə obyektini-subyekti (mübtəda, yəni haqqında nə danışılırsa o şeyi) müəyyən edən anlayış kimi dəyərləndirir. Əsərdə oykonimik adların izahında da müəllif bu variantlar kontekstində predikativliyin mövcud obyektdə bir səslə, bir sözlə, bir söz birləşməsi və sözlərin müxtəlif şəkildə birləşməsi ilə də ifadəsinə dair nümunələr göstərmişdir.

Beləliklə, Naxçıvan dilçilərin onomastika sahəsindəki apardığı tədqiqatlar Azərbaycan onomastikasının inkişafına böyük xidmətlər, tövhələr vermişdir.

ƏDƏBİYYAT

1. A.Bağırov “Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri” Bakı: Elm, 2002
2. A.Bağırov “Naxçıvan oykonimləri” Bakı: Nurlan, 2008
3. A.Bağırov “Onomalogiya problemləri” I cild, Bakı: Elm və təhsil, 2010
4. A.Bağırov “Onomalogiya problemləri” II cild, Bakı: Elm və təhsil, 2012
5. F.Rzayev “Əlincə çayı vadisi toponimlərində türk layı” Avtoreferat; Naxçıvan 2003
6. F.Rzayev. Naxçıvan əhalisinin etnogenizi tarixindən.2.cilddə,I c.2014,II c.2017.

РЕЗЮМЕ

ГАНИРА АСКЕРОВА

ДЕЯТЕЛЬНОСТЬ НАХЧЫВАНСКИХ ЯЗЫКОВЕДОВ В ОБЛАСТИ ОНОМАСТИКИ

В статье исследована деятельность нахчыванских языковедов в области ономастики, особенно топонимики. Были исследованы в точности труды А.Багирова, лы и Ф.Рзаева в этой области,а также определены их заслуги в этой области, значимость этих исследований и сфера их применения.

Ключевые слова: азербайджанская ономастика, нахчыванские языковеды, топонимика, ойконимы, А.Багиров.

SUMMARY

GANIRA ASGEROVA

THE ACTIVITIES OF THE LINGUISTS FROM NAKHCHIVAN IN THE FIELD OF ONOMASTICS

The article studies the activities of the linguists from Nakhchivan in the field of onomastics, particularly in the field of toponymy. The paper higlights mainly the activities of A. Bagirov, and F.Rzayev in this field, their contributions to the Azerbaijan onomastics, and defines the importance of these researches and their application fields.

Key words: Azerbaijan onomastics, linguists from Nakhchivan, toponymy, activity, A. Bagirov

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

NURLANA ƏLİYEVA
“Naxçıvan” Universiteti
n.məmmədova@nu.edu.az

ABBAS ZAMANOV SABİR ƏDƏBİ İRSİNİN TƏDQİQATÇISI KİMİ

Məqalədə professor, əməkdar elm xadimi, ədəbiyyatşünas, pedaqoq Abbas Zamanovun milli ədəbiyyatşünaslığımızın tədqiqində yorulmaz fəaliyyətindən bəhs olunur. Xüsusən də, tədqiqatçı alim kimi M.Ə.Sabir irsinin tədqiqindən, satirik şairimizə həsr etdiyi monoqrafiyalardan da məqalədə söhbət açılır. Nəinki Sabirlə bağlı, digər ədiblərimizin də yaradıcılığını tədqiq edən ədibin Azərbaycan ədəbiyyatı tarixində göstərdiyi fəaliyyət baxımından da məqalə maraqlıdır.

Açar sözlər: ədəbiyyatşünas, satirik şair, ədəbi irs, monoqrafiya, mətnşünas, pedaqoq, tədqiqatçı alim

Filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın müxbir üzvü, tənqidçi, ədəbiyyatşünas, mətnşünas, tərcüməçi, pedaqoq, hələ sağlığında adı korifeylər sırasında çəkilən Abbas Zamanov milli ədəbiyyatşünaslığımızın ən fəal və mükəmməl, eləcə
də yorulmaz tədqiqatçılarından biri olub.

Abbas müəllim tədqiqatçı alim kimi klassik Azərbaycan ədəbiyyatını, xüsusən C.Məmmədquluzadə və M.Ə.Sabirin adı ilə bağlı olan “Molla Nəsrəddin” və mollanəsrəddinçilər dövrünü araşdırmış, öyrənmiş və öyrətmişdir. C.Məmmədquluzadə ilə M.Ə.Sabirdən başqa, M.P.Vaqifin, N.Nərimanovun, S.S.Axundovun, Ə.Haqverdiyevin, S.M.Qənizadənin, S.Hüseynin və başqalarının əsərlərinin nəşrində yaxından iştirak etmiş, böyük Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın çox qiymətli xatirələrini, müasirlərinin xalq şairi Sabir haqqındakı xatirə və məqalələrini nəşrə hazırlamış, tənqidçi və teatrşünas kimi müasir ədəbiyyatımızın və teatr sənətimizin problemlərindən, yaradıcı nailiyyətlərindən, çatışmazlıqlarından yazmış, bir sözlə ədəbiyyatımızı təbliğ etmişdir.

Abbas Zamanovun elmi yaradıcılığında əsas yeri məşhur satirik şair Mirzə Ələkbər Sabirlə bağlı tədqiqatlar tutur. Bildiyimiz kimi, Sabir bir ədəbi məktəb yaratmışdır, bu ədəbi məktəb böyük inkişaf yolu keçmiş, Abbas Zamanov tərəfindən isə Azərbaycanda Sabir irsinin tədqiqi, təbliği, nəşri- bir sözlə sabirşünaslıq adlı tədqiq sahəsi yaranmışdır. Abbas Zamanovun istər “Sabir gülür”, “Sabir bu gün”, “Müasirləri Sabir haqqında”, “Sabir və müasirləri” adlı monoqrafiyaları Sabirin həyatına, şəxsiyyətinə, yaradıcılığına dair təsəvvürümüzü xeyli genişləndirən mənbələr sırasındadır.

Onun Sabirlə bağlı araşdırmalarının mərkəzində “Sabir və müasirləri” mövzusu dayanmışdı. Bu monoqrafiyanı ədəbiyyatşünas alim Abbas Zamanov 1962-ci ildə M.Ə.Sabirin anadan olmasının yüz illik yubileyi ərəfəsində çap etdirmişdir, bu kitab Sabir haqqında yazılan məqalə, xatirə, Sabirin şeirlərindən ibarət olub, dahi şairimizi bir daha oxuculara tanıdan bir əsər kimi qiymətləndirilir. Monoqrafiyada Sabirin həyat və yaradıcılığının qaranlıq cəhətlərinə aydınlıq gətirən A.Zamanov həvəslə Sabirin həyat səhifələrini vərəqləyir, xəstələndiyi günlərdən tutmuş “Hop-hopnamə”nin işıq üzü görməsinə qədər bütün məsələləri səciyyələndirir. “Müasirləri Sabir haqqında ” adlı monoqrafiyasında isə Sabirin sağlığından başlayaraq onun haqqında söylənilən fikirlərə yer vermiş, müasirlərinin Sabirə olan münasibətini əks etdirən materiallar şərh etmişdir. Onun tərtib etdiyi kitablar yalnız ədəbiyyatşünaslığa deyil, XX əsr Azərbaycan mədəniyyəti və maarifi tarixinin tədqiqində, klassik irsin öyrənilməsində bir ensiklopediyadır.

Abbas Zamanovun tədqiqatlarında Sabir haqqında onun cənublu müasirlərinin fikirlərinə də yer vermiş, belə nəticəyə gəlmişdir ki, Sabirin cənublu müasirləri onun şimaldakı müasirlərindən az sevməmiş, şairin yaradıcıllığı hər iki Azərbaycanda sevilmişdir. Onun “Füzuli və Sabir”, “Səhhət və Sabir”, “İmzasız məktublar”, “Şairin dünya şöhrəti”, “Hophopnamə” Amerikada, “Bir kitabın tarixi adlı” məqalələrində də ədəbiyyatşünas alim şairin yaradıcılıq əlaqələrindən danışmış, Sabirin klassik irsimizdən qaynaqlandığınından söz açmışdır.

Sabir poeziyasından söhbət açarkən Sabir poeziyasının xüsusiyyətlərini, onun ictimai və inqilabi məzmun dərinliyini, ona xas olan gülüşün, satiranın inqilabi mahiyyətini, dövrün həqiqətlərini bütün amansızlığı ilə göstərə bilmək cəsarətindən söz açır. Ümumiyyətlə Abbas Zamanov Sabir gülüşünü təhlil edərək Sabirin eyni satirada bəzən gülüşdən ciddi şeirə, fəryada, bəzən isə ciddi şeirdən gülüşə keçdiyini göstərmişdir. Abbas Zamanov yazırdı: “Sabir gülə-gülə ağlayır, ağlaya-ağlaya gülür. Onun qəhqəhələrindən göz yaşları və fəryad, göz yaşlarından acı qəhqəhə doğur” – deyən ədəbiyyatşünas alim “Sabir gülür” adlı məqaləsində şairin satirik gülüşünün mənbələrini araşdırmış, bu gülüşlə klassik irsimizin təzəliyini, təravətini düşünmüşdür (3, s.87)

Akademik İsa Həbibbəyli onun haqqında yazır: "Abbas Zamanov XIX-XX əsrlər və müasir ədəbiyyatımızın ən görkəmli tədqiqatçılarından biridir. O, nəinki Azərbaycanda, demək olar ki, bütün mədəni dünyada görkəmli sabirşünas-alim kimi tanınmışdır" . Qeyd edək ki, Abbas Zamanov filologiya sahəsində yeganə elm adamıdır ki, "Sabir və müasirləri" adlı əsərinə görə namizədlik dissertasiyası müdafiə etmədən birbaşa elmlər doktoru alimlik dərəcəsinə layiq görülmüşdür (2, s.336). Bəli, Sabir irsinin çoxəhatəli tədqiqi məhz Abbas Zamanovun qələminə məxsusdur. "Sabir gülür", "Sabir bu gün", "Sabir xatirələrdə", "Müasirləri Sabir haqqında" kitabları gərgin axtarışlardan və dərin elmi mühakimələrdən yoğrulmuşdur. Ömrünün bəlkə də bütün qızıl dövrünü Tiflis arxivlərində elmi araşdırmalara, axtarışlara həsr edən Abbas Zamanov Üzeyir Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Eynəli Sultanov, Qurbanəli Şərifzadə və başqaları haqqında ilk dəfə

yeni materiallar əldə etmişdi. Mirzə Cəlil yaradıcılığı, "Molla Nəsrəddin" jurnalı barəsində mükəmməl tədqiqatlar aparan ilk müəlliflərdən idi. Ömrü arxivlərdə keçən Abbas Zamanov həm də mətinşünas-alim kimi Azərbaycan filologiyasının inkişafında öz töhfəsini vermişdir. Bu da bəllidir ki, bir çox klassik şair və yazıçıların əsərlərinin əsas naşirlərindən biri məhz Abbas Zamanov olmuşdur. O, neçə-neçə klassik ədəbiyyat yaradıcısının əsərlərini taparaq üzə çıxarmışdır.

M.Ə.Sabirin Abbas müəllimin tərtibində ərəb əlifbası ilə Azərbaycan dilində nəşr olunmuş "Hop-hopnamə"si Şərq ölkələrində geniş yayılaraq böyük maraq doğurmuşdur. Sabirin Avropada, amerikada, Şərq ölkələrində nəşr olunub oxunmasında, tanınmasında Abbas Zamanovun çox böyük rolu vardır. Sabir irsinə bağlı olan alim Sabirin simasında Azərbaycan ədəbiyyatını böyük bir zövqlə tərənnüm edirdi. Abbas müəllim Sabiri və müasirlərini öyrənə-öyrənə həm görkəmli sabirşünas oldu, həm də Sabiri və ümumiyyətlə, mollanəsrəddinçiləri tələbələrə öyrədə-öyrədə bu əzəmətli məktəbin böyük təbliğatçısı kimi tanındı.

Abbas Zamanovun yaradıcılıq tədqiqi iə məşğul olan haqq dünyasına qovuşan filologiya üzrə fəlsəfə doktoru, dosent Fərqanə xanım Kazımova onunla bağlı "Professor Abbas Zamanov (həyatı və yaradıcılığı)" adlı monoqrafiyasını tərtib etmişdir. Həmin monoqrafiyada bu görkəmli şəxsiyyətin həyat yolundan tutmuş yaradıcılığının bütün nöqtələrinə nəzər salan, hətta biblioqrafiyasına qədər tərtib edən Fərqanə xanım Abbas Zamanovu klassik mücəssimə, ədəbiyyat mücahidi adlandırmışdır. Fərqanə xanım monoqrafiyasında çox maraqlı, düşündürücü bir ifadə işlətmişdir: "Uca Allahım bu bütöv, əvəzsiz insana, insanlıqla yanaşı bəlkə ona görə uzun ömür yazmışdı ki, bir qədər çox yazıb xalqı qidalandırsın. Həyatın hər üzünü görən, lakin "şikayətlənmək üçün əsas " görməyən Abbas müəllim millətinə qədərincə xidmət göstərdi" (3, s.3).

Professor Əziz Şərifin də dostu, müasiri Abbas Zamanov haqqında dediyi yanıqlı, səmimi ifadələr də ədəbiyyat mücahidinə verilən qiymətlərin ən yüksəyi idi: "…Heç bir ədəbiyyat sənin kimi fədakar mücahidsiz ötüşə bilməz. Vay o ədəbiyyatın halına ki, onun Abbas Zamanovu olamasın!" (3,s.274).

Bəli, Abbas Zamanov Azərbaycan ziyalılarının ən gözəl keyfiyyətlərini özündə təcəssüm etdirən nadir şəxsiyyətlərdən biri idi. Abbas müəllim Azərbaycanın elm, mədəniyyət tarixində şərəfli yeri olan və daima yad edilən işıqlı, mübariz şəxsiyyət, fədakar ədəbiyyat mübarizidir.

ƏDƏBİYYAT

1. A.Zamanov. Seçilmiş əsərləri. Bakı, 2003, 316 s.
2. Müasirləri Abbas Zamanov haqqında. Bakı, 2003, 336 s.
3. F.Kazımova. Professor Abbas Zamanov (həyatı və yaradıcılığı). Bakı, 2012, 360 s.
4. Həbibbəyli İ. Şikayətlənmək üçün əsas yoxdur… // Şərq qapısı, 2011, 14 dekabr
5. K.Əliyev. Sabir gülür // Ədəbiyyat və incəsənət, 1982, 5 mart.

РЕЗЮМЕ

НУРЛАНА АЛИЕВА

АББАС ЗАМАНОВ КАК ИССЛЕДОВАТЕЛЬ ЛИТЕРАТУРНОГО НАСЛЕДИЯ САБИРА

В статье говорится о роли деятельности профессора, заслуженного научного деятеля, литературоведа, педагога Аббаса Заманова в исследовании нашего национального литературоведения. В статье в особенности повествуется об исследовании Сабирского наследия ученым исследователем Аббасом Замановым , а так же о монографиях посвященных им поэту- сатирику. Статья привлекает внимание с точки зрения исследования автором не только творчества Сабира, но и творчества других представителей Азербайджанской литературы.

Ключевые слова: литературоведение, поет-сатирик, литературное наследие, монография, педагог, ученый исследователь

SUMMARY

NURLANA ALIYEVA

ABBAS ZAMANOV AS A RESARCHER OF SABİR LİTERARY HERİTAGE

İn the article delas with intense activity in the study of national literary critic, teacher Abbas Zamanov. Especially, article deals with as a researcher scientist, research of Sabir heritage, monographies which is dedicated to our satirist. Not only Sabir related, but also this aricle is more interesting writers who have explored in terms oj action of history ”s Azerbaijan literatures.

Key words: literary critic, satirist, literary heritage, monography, teacher, researcher.

(*Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

RAMİZ QASIMOV
AMEA Naxçıvan Bölməsi
ramizasef@yahoo.com.tr

BÖYÜK DEMOKRAT CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA DİNƏ MÜNASİBƏT MƏSƏLƏSİ

Məqalədə dinin milli-mənəvi dəyər və ictimai problem kimi Cəlil Məmmədquluzadə yaradıcılığında təqdimindən bəhs olunur. Göstərilir ki, görkəmli ədib Cəlil Məmmədquluzadə yaradıcılığında din milli-mənəvi dəyər kimi təqdim olunur. Cəlil Məmmədquluzadə yaradıcılığında din yox, ictimai inkişafa maneçilik törədən qatı dindarlıq və din xadimləri tənqid edilir.

Açar sözlər: Cəlil Məmmədquluzadə yaradıcılığı, milli-mənəvi dəyərlər, ictimai problem, din, fanatizm, din xadimləri.

Görkəmli ədib, istedadlı publisist, dramaturq, yazıçı, ictimai-siyasi xadim Cəlil Məmmədquluzadənin (1869-1932) adı Azərbaycan milli intibahının səhifələrində, milli oyanış və azadlıq ruhunun yüksəlişində, maariflənmə və müasir inkişaf yolu seçmədə əbədi bir ünvan qazanmış sənətkardır. Onun yaradıcılığında hər cür mövhumat, cəhalət və gerilikdən xilas, oyanışa və özünüdərkə çağırış həmişə aparıcı yeri tutmuşdur. Bəlkə də buna görədir ki, sovet ədəbiyyatşünaslığı və müasir dövrün bəzi adamları bu görkəmli ədibin yaradıcılığında din və şəriətin tənqid edildiyi haqda fikirlər irəli sürmüşlər (1; 4; 10; 11; 12; 17; 23). Hətta böyük ustadın müasiri, Azərbaycan ədəbiyyatşünaslığının atası Firdin bəy Köçərli belə Mirzə Cəlilin “ateist” olması, din, şəriət və ruhanilik əleyhinə yazdığını söyləmişdir (13). Halbuki milli ədəbiyyatımızın böyük öndəri olan Cəlil Məmmədquluzadənin əsas yaradıcılıq missiyası Azərbaycan xalqının azadlığı, milli oyanışı və ruhunun yüksəlişi, özünüdərk və müasirləşmə məsələsi idi. Onun yaradıcılığında tənqid hədəfləri isə sadə, savadsız xalqın başına corab hörməyə çalışan yerli və işğalçı məmurlar, üzdəniraq ziyalılar, cəhalət, mövhumat, fanatizm və ətalət yayan din xadimləri və b. idi. Bu mənada Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycan xalqının milli istiqlal, özünüdərk, mənbəyi, Azərbaycançılıq məfkurəsinin açıq kitabı idi (2; 3; 9; 15).

“Günü-gündən millətlər qımıldaşıb özləri üçün hökumətdən növ-növ azadlıq tələb” edən (21, s. 150) bir vaxtda, “belə bir gülünc zamanda, belə quli-biyabani insanların tarixini yazmaq üçün, əhval və ətvarını təsvir etmək üçün məgər “Molla Nəsrəddin”in yaranmağı təbii deyil?” (21, s. 156) deyən Mirzə Cəlil yaradıcılığında “ictimai satira vasitəsilə cəmiyyəti dəyişmək, yeniləşdirmək, məmləkəti irəli aparmaq, milli-mənəvi özünüdərk proseslərini dərinləşdirmək” (8, s. 10) və bütün bunlar üçün real imkanlar müəyyənləşdirmək əsas bədii məqsəd, milli amal, ictimai məfkurə idi. Bu mənada Cəlil

Məmmədquluzadə kimi bir maarifçi, realist bir ədib üçün əsərlərində şəxsiyyət daha çox dünyaya, mühitə, yeni dəyərlərə, inkişafa, elmi-texniki tərəqqiyə, elmə, biliyə münasibətdə müəyyənləşən bir məzmun kəsb edirdi. Hətta indiyə qədərki ədəbiyyatşünaslıqda din və mövhumat əleyhinə yazılmış “baltanı dibindən vuran” (Ü.Hacıbəyov), ən mükəmməl əsər kimi bəhs edilən “Ölülər” əsərində belə mətnin özü başqa həqiqətlər açır. Maraqlıdır ki, “Ölülər” əsərində “günün günorta çağının qulduru” (Ə.Sultanlı) kimi bəhs olunan Şeyx Nəsrullah bütün əməllərini iki qüvvənin – bir öz ayıqlığını itirmiş, heysiyyətini və ağlını mövhumata qurban verən Hacı Həsən əmi kimi qatı dindarların və ziyalılığı hərf oxumaqla yekunlaşan kütbeyin ziyalıların, bir də ona öz maraqları ilə nökər kimi xidmət nümunəsi göstərən Şeyx Əhməd kimi yançıların hesabına həyata keçirmə imkanı qazanır (16). Təsadüfi deyil ki, əsərin özündə Şeyxin otağa daxil olma səhnəsini təqdim edərkən ədib özü də belə yazır: “Hacı Həsən bir tərəfdən və Şeyx Əhməd bir tərəfdən Şeyx Nəsrullahı qoltuqlayıb gətirirlər içəri...” (18, s. 399). Yəni Şeyx Nəsrullahın “cəfəngiyat elmi” (5) ictimai mühitdə böyük hörmət və nüfuz sahibi, hamının özünə meyar götürdüyü Hacı Həsənin və bütün bu planları quran, camaatın psixologiyasını yaxşı bilən və dəyərləndirən Şeyx Əhməd tərəfindən inanış haqqı qazanır. Doğrudur, bir çox mənbələrdə “Ölülər”in timsalında ustad Cəlil Məmmədquluzadənin “mənəvi ölülüyə” tutulması, şüurların ölməsi və düşüncənin itməsi (1; 4; 5; 10; 11; 12; 14; 17; 23), hətta yarpağın belə titrəməməsi (14) kimi qatı, sərt fikirlər deyilmişdir. Ancaq, bizim fikrimizcə, birmənalı surətdə demək mümkün deyil ki, mühit başdan-başa mənəvi ölülüyə məhkum olunmuş mühit idi. Hətta bəzi mənbələrin özündə də belə mühitdə bir şübhə, tərpəniş kimi hisslərin olduğu söylənilir (3; 5; 8; 12; 13; 23). Çünki əsərin özündə də Şeyx Nəsrullahın “möcüzələrini” şübhə ilə qarşılayan camaat təsvir olunub. Özü etiqad və ibadət sahibi olsa da, Hacı Həsən əmi hələ də şübhə içində və heyrətdədir ki, “insan öləndən sonra necə dirilə və necə bizim kimi ağıllı-başlı adam ola bilər?”: “Çünki çox qəribə işdir, insan məəttəl qalır. ...Vallah dünyanın işlərinə məəttəl qalmışam. Yəni həqiqətdə bu bir möcüzədir ki, insan öləndən sonra dirilə və bizim kimi ağıllı–başlı adam ola” (18, s. 389, 392). Və yaxud: “Mənim özümün də ağlım çaşıb, heç bilmirəm nə cür dirildəcək” (18, s. 394). Hacı Həsənin şübhələrinə fanatizmə qapılmış mühit – kütlə psixologiyası qınaqedici nəzərlə yanaşır. Mühitdə adamların bir-birindən etiqad kasadlığı adı ilə qorxu duyması cəfəngiyata inanmaq məcburiyyəti yaradır: “Hacı Həsən ağa, sən elə sözləri buyurmayasan. Allahın hikmətinə gərək əl aparmaq olmaz...” (18, s. 392). Hacı Həsən əmi inanmamaq istəsə də, ətrafındakı adamların etiqad dolu nəzərləri ona xof gətirir və inama məcbur edir. Çünki bu mühitdə etiqad kasadlığı böyük nöqsandır. Bir şeyi də qeyd etmək lazımdır ki, inanan insanların hamısının nəzərləri bir Şeyx Nəsrullaha və onun yaradacağı möcüzəyə dikilmir, əslində, ilahi hikmətə inam möhkəmliyi sona qədər Şeyx Nəsrullaha inanmağa vadar edir. Asif Əfəndiyevin də fikirlərinə istinad etsək (5), Şeyx Nəsrullah adiliyi ilahi hikmətin fonunda qeyri-adilik – möcüzə heyrəti qazanır. Şeyx Nəsrullah aktyorluğu isə, sadəcə buna təkan verir və itirdikləri üçün burnunun ucu göynəmiş, onları

qaytarmaqdan ötrü içi keçən insanları inanmağa və etiqad bəsləməyə yönləndirir. Əsərdən götürülən ayrı-ayrı detallar onu göstərir ki, Hacı Həsən kimi möhtərəm zatlar heç də indiyəcən ədəbiyyatşünaslıqda deyilən kimi mənəvi ölü deyillər. Bir tərəfdən ondakı şübhə Hacı Həsənə insanlıq haqqı qazandırır, digər tərəfdən atalıq hissləri ilə də diqqəti cəlb edir. Hələ ölməmiş, sönməmiş, mənəviyyatının dərin qatlarındakı inam və ləyaqət hislərilə cəfəngiyata şübhə və etirazını ifadə edir. Əvvəlcə qızı Nazlının Şeyxə ərə getmək etirazını böyük vəhşətlə, sərt qarşılayan Hacı Həsən əminin qəlbinin dərinliklərindən gələn və cəfəngiyata müqavimət göstərən dəruni bir hisslə qızını dilə tutmaq, könlünü almaq, qəlbini qırmamaq istəyir: "Yox, qızıma degilən ağlamasın. Mən razı olmanam ki, o ağlasın. Dur gedək, mən də onu dilə tutum. Yox, yox, Nazlı qızım ağlamasın, dur gedək" (18, s. 422). Bu mənada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev indiyə qədərki mübahisələrə sanki son qoyaraq qətiyyətlə böyük ustadımız Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinin timsalında bütün yaradıcılığında din məsələsilə bağlı son nöqtəni qoyaraq demişdir: "Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək... Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən indi də bəhrələnməliyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə belələri ilə o vaxt mübarizə aparıbdır və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir" (7, s. 93). Bu baxımdan görkəmli ədib Bakı axundu Əbütürab Axundoğlunun "Həyat" qəzetindəki "dinməmək və danışmamağın fəziləti barəsində vəz və nəsihəti haman tarixi bir əsirdə heç kəsin xəyalına gəlməyən və yersiz nəsihət idi. Elə bir zamanda ki, Rusiya hökuməti yapon davasında sınandan sonra öz laxlamış məqamında bir qıldan asılı idi və Rusiyanın əsrlərcə əzilmiş tayfaları vaxtdan istifadə edib üsyana hazırlaşırdılar ki, özlərinə bir gün ağlayalar... Bir belə əsrdə müsəlman camaatının ruhani rəhbəri qəzetlər vasitəsi ilə camaatı dəvət edirdi nəyə? – sükuta və danışmamağa. Nədir danışmamaq? Danışmamaq zahiyədə oturub Allahı çağırmaqdır. Nədir danışmamaq? Lal və kar oturub mövtə və fövtə müntəzir olmaqdır. Nə mənə azadlıq lazımdır, nə mənə hüquq lazımdır, nə mənim üçün qabağa çıxıb qonşularla ədavət əvəzinə ülfət və ittihad bağlayıb ümumi hesab olunan düşməni, müstəbid hökümətini yıxmaq və sonra məmləkətdə qardaşlıq üsuli-idarəsi qurub yaşamaq lazımdır və bunların hamısının əvəzində Axund Əbütürabın vəz və nəsihətinə görə dinməmək və danışmamaq lazımdır" (22, s. 172-173), - deyə nəsihətinin timsalında, etiqad və iman sahibləri olan sadə insanları laldinməzliyə, təvəkkülə dəvət edən ruhaniləri təəssüflə milli mücadilənin əngəllərindən biri kimi kəskin surətdə tənqidlə qarşılayırdı. "Köhnəyə qələm çəkib yeni yaşayış yaratmaq", "məişətin hər bir sahəsində inqilab törətmək" üçün, Mirzə Cəlilə görə, "camaatın bəsirət gözünü açmaq", "dost ilə düşmənini tanıtmaq" ən əhəmiyyətli, vacib məsələ idi.

Ədib "Traktor və Əli şiəsi", "İran meyvələri", "Qəzalarda yol məsələsi", "Leylətül-qədr", "VI Şuralar qurultayı", "Namaz qılan və tramvay çəkən", "Heç vecinə deyil" və s. felyeton və məqalələrində dünyanın elmi-

texniki tərəqqi və inkişafından müsəlmanları geri salan səbəblərə diqqət çəkərək yazırdı: “Traktor ibarətdir elə maşından ki, onun dalına bir neçə kotan dəmirini bağlayırsan, bir saatın müddətində az qalır bir desyatin torpağı əkib çıxsın başa. Əli şiəsi də ibarətdir elə bir yaranmışdan ki, onun gecə-gündüz fikri-zikri cənnətin qəbzini mollalardan yalvarıb istəməkdir. İndi mən istəyirəm... bir belə sual verəm:

- Aya, bir kəs ki, fikrində qoya …iki şeyi bir-birilə yapışdıra, yəni traktor ilə Əli şiəsini qonşu edə, aya, bunlar bir-birinə yapışar, ya yox? Mən deyirəm yapışmaz” (20, s. 319). Və yaxud “Namaz qılan və tramvay çəkən” felyetonunda yazır: “Birisi gedib zəhmət çəkib namaz qılmaq öyrənib, birisi də gedib zəhmət çəkib tramvay elmini öyrənib. …İndi mənə bir belə məsələ ərz olub ki, aya, namaz qılmaq və tramvay işini bilmək - bunların hansı əfzəldir? Əgər desək ki, tramvay elmi bir qəpiyə dəyməz, onda bəs biz niyə tramvaya minib əhli-qübur ziyarətinə gedirik? Əgər desək ki, tramvay elmi namaz “elmindən” (nəüzibillah) çətindir və lüzumludur, onda Fazili-Dərbəndi həpəndə nə cavab verərik?…” (20, s. 435-436) “Qəzalarda yol məsələsi” felyetonunda da: “Bizə nə araba yolu lazımdır, bizə nə avtomobil yolu lazımdır, bizə nə dəmir yolu lazımdır. Bizi hidayət elə haman yola ki, siratəlləzinə ənəmtə əleyhümı o yolu göstər ki, iman əhllərinə göstərmisən. Yoxsa bizə traktor yolu lazım deyil” (20, s. 336) - deyə, mövhumatın və savadsızlığın yaratdığı ictimai problem və təəssüratları əks etdirirdi. Bu tipli məsələlər – müasirlik və köhnəlik, dünya işi və şəriət vacibatları, elmi-texniki tərəqqi və dini fanatizm kimi məsələlərdən “Dünya və axirət”, “Beynəlxalq qadınlar günü və şəriət”, “Oktyabr inqilabı və şaxsey” və b. yazılarında bəhs edən görkəmli ədib müasirliklə şəriətçiliyi, qatı dindarlığı qarşılaşdırmış, müsəlmanları elmi-texniki tərəqqidən, maarif və mədəniyyətdən, müasirlik və dünya işlərindən uzaq salan səbəblərə diqqəti cəlb etmişdir. Əslində böyük ədibin “Münacat”, “Dost”, “Gözəl millət”, “İnsan və heyvan”, “Əsrimizin möcüzələri”, “Bir qətrə göz yaşı”, “Allah vardır”, “Allahı çistka etmək olarmı?”, “Allah taalanın sifətləri”, “Müsəlmançılıq”, “Rişə” və sş. kimi məqalə və felyetonlarında müsəlman fanatizminin əsasını təşkil edən əsaslardan bəhs olunur. Cəlil Məmmədquluzadə bu kimi yazılarında heç də sovet ədəbiyyatşünaslığının qabartdığı kimi qatı ateist və dinsizlik mövqeyi nümayiş etdirmir. Fikrimizcə, ədib sadəcə olaraq felyetonlarında yazdığı kimi, mövhumat, cəhalət və fanatizm qalalarını uçurmaq, onların insan şəxsiyyətində özünə yer tutan sütunlarını yıxmaq, insanları müasirliyə və inkişafa, elmi-texniki tərəqqiyə qoşmaq üçün dindən və şəriətdən bir qədər qoparmaq və bununla da, şəriət, mövhumat tiranlığına son qoymaq məqsədlərini güdmüşdür. Çünki ədibin özü də yazırdı ki, “Molla Nəsrəddin”in məqsədi nə dinə sataşmaqdır, nə təzə bir məzhəb icad eləməkdir. “Molla Nəsrrəddin”in qəsdi vəhşi adətləri ortalıqdan götürmək yolunda çalışmaqdır” (19, s. 510). Bu baxımdan görkəmli mirzəcəlilşünas alim akademik İsa Həbibbəyli də tamamilə doğru yazırdı ki: “Cəlil Məmmədquluzadə heç də indiyədək yazıldığı kimi, “islamın düşməni” deyildi. Ədib islam pərdəsi altında xalqı soyan, aldadıb fanatizmə aparan, heysiyyətinə toxunan yalançı din xadimlərinin bəd əməllərini pisləyirdi.

…C.Məmmədquluzadə …yalandan "ölü diriltmək" məharəti göstərən Şeyx Nəsrullah kimi "İsfahan lotularını" məsxərəyə qoymaqla özünün mənsub olduğu xalqın mənəvi oyanışı ilə bağlı real, həyati məqsədlərinə çatmaq niyyətini izləyirdi" (8, s. 277). "Cəlil Məmmədquluzadəyə görə "milli intibah dövrü kimi" səciyyələnən bir vaxtda yalnız qatı islamçı mövqe ilə qabağa getmək çətindir. Bunu Mirzə Cəlilin ateist olması kimi başa düşmək də yanlış meyildir. Böyük ədib, sadəcə olaraq, dirçəliş, fırtına və tərəqqi dövrünün tələbləri ilə itaətçiliyin, moizəçiliyin, ətalət və ədəbə çağırışın, axirət xülyalarının uyğun gəlmədiyini aydın şəkildə dərk edirdi" (8, s. 275). Böyük maarifçi ədib Cəlil Məmmədquluzadə özü də "Bir əldə iki qarpız tutmaq olmaz" adlı felyetonunda: "Zəmanəmizin təqazasından belə məlum olur ki, dünyanı axtaran gərək ibadəti də bir az yumşaq eləsinı ibadətə gecə və gündüz məşğul olan gərək dünyaya dəxi aşiq olmasın. Yoxsa bir əldə iki qarpızı saxlamaq olmaz" (19, s. 394) – deyə dünyanın inkişaf sürətinə qoşulmaq mənasında ibadətçilik və dindarlığı yumşaltmağın, dünya işlərinə qarışdırmamağın tərəfdarı kimi çıxış edir, maarifə, elmə, təhsilə üstünlük verməyin əhəmiyyəti barədə başqa bir yerdə yenə də yazırdı: "Tarix bunu bizə göstərir ki, maarif artdıqca ruhanilər hörmətdən düşür…, elm və fənn meydana gələn kimi ruhanilər aradan çıxıblar… Yaşasın maarif, puç olsun cəhalət!" (19, s. 473) Göründüyü kimi, görkəmli ədib dinə qarşı mübarizə qəsdi həyata keçirmək məqsədi güdmürdü. Çünki yuxarıda qeyd etdiklərimizdən başqa böyük ədib Cəlil Məmmədquluzadə "Din və millət" adlı məqaləsində də: "Ən qabaqda dindir. Sonra millətdir. Qabaqca din icad olubdur. Sonra millət əmələ gəlibdir" (20, s. 424) – deyə, əslində dinin ictimai strukturdakı vacib yerini bir sosioloq kimi təyin edir və heç də dinin cəmiyyətdəki vacib, olduqca əhəmiyyətli mənəvi rolunu təkzib etmək, ləğv etmək qəsdi güdmür. Əksinə, böyük ədib "Azadeyi-vicdan" məqaləsi ilə də bu niyyətdə olmadığını tam təsbit edir, sadəcə etiqad azadlığı tələbində olduğunu nümayiş etdirir. "Azadeyi–vicdanın ilk mənası var: biri budur ki, mənim aləmimdə mən gizlicə hiss elədiyim şeyləri nə cür ki öz ağlım kəsir və insafım qəbul edir, o cür də qanıram və ona görə də əməl eləyirəm... Allahı tanımaq və ona sitayiş eləmək həmçinin mənim gizli hissimdir, yəni mənim vicdanım nə cür ki mənə yol göstərir, ona görə də mən Allaha ibadət eləyirəm, dəxi bu barədə mənə həmçinin güc və hökm yoxdur və ola da bilməz" (20, s. 32-33), - deyən ədib insanları, o cümlədən təsvir və təqdim etdiyi obrazlarını da bu baxımdan etiqad və Allaha ibadət nöqteyi-nəzərindən qınaq yerinə çevirmir və belə bir amala da xidmət göstərmir. Sadəcə insan şəxsiyyətini təhdid və zorakılıq altına ala biləcək ictimai stereotip və düşüncə tərzinə çevrilən dini fanatizm və mövhumatçılığa qarşı çıxır. "Çox vaxt görürsən ki, millət və dini elə qarışdırırlar ki, heç baş açа bilmirsən. Soruşursan ki, "Sən nə millətisən?" Cavab verir ki, "Əlhəmdülillah, mən müsəlmanam". …Beləliklə, nə qədər ki, dünyada din və dindarlıq varsa, o qədər də millətçilik davam edəcəkdir" (20, s. 425), - deyə ədib dini millətçiliyə çevirmənin əleyhinə olduğunu, milli mənsubiyyəti təyin etmənin vasitəçisi olmasına etirazını bildirir, şəxsiyyət və insan azadlığı üçün bunun bir maneə olduğunu göstərirdi. Bu mənada maarifçi ədib şəriət qaydalarının insan şəxsiyyətinin münasibət

formasına çevrilməsinin ziyanlı olduğunu göstərərək “Dünya və axirət” adlı felyetonunda yazırdı: “Dünya və axirət məsələsi bu biçarə mömin müsəlmanları lap çaşdırıbdır. Bilmirsən kimə inanasan, hansını atıb, hansını tutasanş Bir tərəfdən baxıb görürsən ki, bu gün-sabah ölüb gedəcəksən. Bəs necə olsun? Hara gedəcəksən və öləndən sonra qəbir evində başıva nə iş gələcəkdir? Məgər İnkir-Minkir yalandır? Məgər o zalım oğlanlarının sual-cavabından qurtara biləcəksən? Bu tərəfdən də dünyanın işlərinə baxanda görürsən ki, dünyasız da dolanmaq mümkün olmur. Görürsən ki, istəyirsən ki, yerdən durub dəstəmaz alasan, bir də görürsən ki, qocalıqdan belin və ya qıçın quruyub və ya başın gicəlləndi, məcbur olursan filan professorun yanına gedəsən və onların murdar dərmanlarını içəsən. Xülaseyi-kəlam, insan bilmir hansının dalınca getsin: dünyanınmı, axirətinmi? Mollanınmı, professorunmu? Məscidəmi gedəsən, darülfünamı gedəsən? Namazmı qılasan, fənn kitabımı oxuyasan?.. Əgər dünyanı tullasam, bəs bu gözəl dünyanın nemətlərindən mən nə səbəbə məhrum olum? Və tibb elminin feyzlərindən nə səbəbə istifadə etməyim? Bəs dədə Molla Ruhullanın duası necə olsun? Bəs mollanın istixarəsi necə olsun? Bəs Kərbəla ziyarətinə müşərrəf olmaq necə olsun?.. Bəs cənnət-cəhənnəm, huri-qılman, bunlar necə olsun?” (20, s. 440-441).

Beləliklə, Cəlil Məmmədquluzadə kimi bir maarifçi, realist bir ədib üçün əsərlərində tənqid hədəfi insanların qəlbindəki etiqad və milli-mənəvi dəyər olan din deyildi. Bu dəyərlərdən və xalqın etiqadından sui-istifadə edib onu cəhalət və mövhumat, ətalət və qaranlıq yaymaqda faydalanan adamlar, geniş mənada ictimai qüvvələr idi. Ədib sadəcə dünyaya, mühitə, yeni dəyərlərə, inkişafa, elmi-texniki tərəqqiyə, elmə, biliyə münasibət göstərməyi və bu istiqamətdə ibadəti bir az yumşaldıb dünya işlərinə də baş qoşmağı, bir sözlə inkişaf etməyi və günün tələblərinə cavab verməyi vacib hesab edirdi.

ƏDƏBİYYAT

1. Cəfər M. Cəlil Məmmədquluzadə. Bakı: Çinar-Çap, 2002, 72 s.
2. Cəfərov N. Mirzə Cəlil: Ona qədər və ondan sonra. “Azadlıq” qəzeti, 6 dekabr 1994/
3. Əliyev K. Mirzə Cəlil müdrikliyi. “Azərbaycan müəllimi” qəzeti, 1 yanvar 1987.
4. Əliyev Y. Cəlil Məmmədquluzadə. Bakı: Azərnəşr, 1967, 568 s.
5. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı: Gənclik, 1976, 192 s.
6. Hacıyev T. Sabir: qaynaqlar və sələflər. Bakı: Yazıçı, 1980, 175 s.
7. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1998, 178 s.
8. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009, 424 s.
9. Həbibbəyli İ. Cəlil Məmmədquluzadənin ədəbi taleyi: zaman və gerçəklik // Cəlil Məmmədquluzadə: taleyi və sənəti (Tərtib edəni akademik İ.Həbibbəyli). Bakı: Elm və Təhsil nəşriyyatı, 2010, 196 s.
10. Hüseynov F. “Molla Nəsrəddin” və Mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, 279 s.

11. İbrahimov M. Böyük demokrat // Əsərləri: 10 cilddə, IX cild. Bakı: Yazıçı, 1982, 663 s.
12. İsrafilov H. Ölülər. Bakı: Azərb. SSR EA nəşr., 1966, 460 s.
13. Köçərli F. Mübariz ateist. // Cəlil Məmmədquluzadə: məqalələr, xatirələr. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, 460 s.
14. Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə, IV c. Bakı: Elm, 2016, 776 s.
15. Qasımov R. Cəlil Məmmədquluzadə yaradıcılığında "kiçik" adam obrazlarının ictimai-bədii funksiyası. Bakı: Elm və Təhsil, 2012, 216 s.
16. Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı: Elm, 1999, 208 s.
17. Məmmədov M. Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1963, 156 s.
18. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, I cild. Bakı: Öndər, 2004, 584 s
19. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, II cild. Bakı: Öndər, 2004, 584 s.
20. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, III cild. Bakı: Öndər, 2004, 480 s.
21. Məmmədquluzadə C. Əsərləri: 6 cilddə, IV cild. Bakı: Azərnəşr, 1985, 276 s.
22. Məmmədquluzadə C. Əsərləri: 6 cilddə, VI cild. Bakı: Azərnəşr, 1985, 311 s.
23. Mir Cəlal. Cəlil Məmmədquluzadə realizmi haqında. Bakı: BDU, 1966, 70 s.
24. Sultanlı Ə.Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərnəşr, 1964, 304 s.

РЕЗЮМЕ

РАМИЗ ГАСЫМОВ

ВОПРОС ВЕРЫ В ТВОРЧЕСТВЕ ВЕЛИКОГО ДЕМОКРАТА ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ

В статье говорится о представлении веры в творчестве Джалила Мамедкулизаде как национально-духовной ценности и общественной проблемы. Указывается, что в творчестве видного литератора Джалила Мамедкулизаде вера представлена как национально-духовная ценность. В творчестве Джалила Мамедкулизаде критикуется не вера как таковая, а ярый фанатизм, мешающий общественному развитию, и религиозные деятели.

Ключи слов: Творчества Джалила Мамедкулизаде, национально-духовной ценности, общественной проблемы, вер, фанатизм, религиозные деятели.

SUMMARY

RAMIZ GASIMOV

FAITH QUESTION IN WORKS OF GREAT DEMOCRAT JALIL MAMMADKULUZADE

It is told in the paper about representation of faith in works of Jalil Mammadkuluzade as national-spiritual value and one of the public problems. It is underlined that in works of eminent writer Jalil Mammadkuluzade the faith is presented as national-spiritual value. In works of Jalil Mammadkuluzade the faith isn’t criticized by itself, only the ardent fanaticism, preventing social development, and religious figures are attacked.

Key words: Works of Jalil Mammadkuluzade, national-spiritual value, public problems, faith, fanaticism, religious figures.

(*Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ANAR ABUZƏRLİ
“Naxçıvan” Universiteti
anar_abuzerov@mail.ru

1920-1940-CI İLLƏR NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ TƏNQİDİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus yeri olan Naxçıvan ədəbi mühitinin nümayəndələri ədəbi tənqid sahəsində də diqqətəlayiq xidmətlər göstərmişlər. Bu cəhətdən 1920-1940-cı illərin müvafiq materialları da maraq oyadır. Doğrudur, həmin dövrün ədəbiyyatında olduğu kimi, ədəbi tənqidində də inkişaf birxətli olmamış, təzadlar və ziddiyyətlərlə müşayiət edilmişdir. Bu isə mövcud quruluşun ideoloji tələbləri ilə bilavasitə əlaqədar idi.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, ədəbi tənqid, Naxçıvan ədəbi mühiti.

1920-ci ildə Azərbaycanın sovetləşdirilməsindən sonra digər sahələrdə olduğu kimi, yaradıcılıq sahələrində də sosializm prinsiplərinin qeyd-şərtsiz tətbiqinə başlanıldı. Yeni cəmiyyət quruculuğu adı altında aparılan siyasət əslində daha çox hakimiyyət orqanlarının ideoloji əlavəsinə, tələb və tapşırıqlarının ifadəçisinə çevrilən ədəbiyyatın da formalaşdırılması prosesini şərtləndirdi. Bədii yaradıcılıqda olduğu kimi, ədəbi tənqiddə də sosializm platforması qısa müddət ərzində ön plana keçdi.

Ümumiyyətlə, həmin dövrdə bütün Sovetlər Birliyində, o cümlədən SSRİ tərkibində olan Azərbaycanda ədəbi tənqid daha çox ideoloji siyasətin üzvi komponenti kimi çıxış edir, müasir ədəbi mühitə, bədii nümunələrə, müxtəlif sənətkarların əsərlərinə qiymət verərkən ilk növbədə məhz sosioloji metodun prinsiplərinə əsaslanır, ictimai mündəricə amilini önə çəkirdi. Ədəbiyyatşünas Şamil Salmanov “Oktyabr və Azərbaycan ədəbi tənqidinin inkişafı” məqaləsində yazırdı: “Azərbaycan ədəbi tənqidinin ilk nümunələrini yaradanlar sırasında gördüyümüz Ə.Nazim, M.Quliyev, H.Mehdi, H.Zeynallı, M.Rəfili, A.Musaxanlı, M.K.Ələkbərli, Ə.Şərif, H.Nəzərli, T.Hüseynov və başqalarının öz məqalələrində proletar ədəbiyyatının yaradılması və inkişaf etdirilməsi problemləri, onun novator mahiyyəti ətrafında söhbət gedirdi, marksist-leninçi sənət nəzəriyyəsi işlənib hazırlanırdı” (11, s. 34). Qeyd olunan novatorluq isə ilk növbədə məhz marksist-leninçi təlimin prinsiplərinin önə çəkilməsindən ibarət idi. Ədəbiyyatşünaslıqda vurğulandığı kimi: “inqilabın, inqilabi zəmanənin mənafeyi onların (1920-1930-cu illərdəki tənqidçilər nəzərdə tutulur- A.A.). ədəbiyyata və sənətə də münasibətində həlledici rol oynayırdı” (15,s.261).

O fikirlə də razılaşmaq lazım gəlir ki, “yeni ədəbiyyatın təcrübələri o vaxt (1920-ci illər nəzərdə tutulur-A.A.) hələ çox az və təşəkkül etmək üzrə olduğundan, onun gerçəkliyi bədii idrak imkanlarının yetkin olmadığından bu ədəbiyyatın hadisələrini, gündəlik inkişafını izləyən, ən mühüm faktlarına həssas olan ədəbi tənqiddə də müəyyən bir çatışmazlıq, yaradıcılığın mahiyyətinə səthi baxış və s. bu kimi kəsirlər vardı” (10,s.79).

Professor Nizaməddin Babayev (Şəmsizadə) də 1920-1930-cu illərin ədəbi fikrinə həsr etdiyi kitabında analoji qüsurlara qısa şəkildə nəzər yetirmişdir: “Yeni həyatın tələbinə uyğun olaraq tənqiddə və ədəbiyyatşünaslıqda da, ümumiyyətlə, bütün bədii yaradıcılıq, habelə ideoloji fikir sahəsində olduğu kimi, yenini daha tez yaratmaq və hegemoniya qazandırmaq zərurəti” nəticəsində ədəbi tənqiddə “obyektiv əsası olmayan paradokslar” da az deyildi (2, s. 133).

Ədəbiyyatşünas Vəli Nəbiyev isə “Janrın qəhrəman axtarışları və ədəbi tənqid (30-cu illər)” məqaləsində o dövrün ədəbi fikrini belə səciyyələndirmişdir: “Tənqid dönə-dönə yeni insan, yeni qəhrəman məsələsi üzərinə qayıdır, ədəbiyyatdan ... “pambıq və neft mübarizəsi qəhrəmanlarını” təsvir etməyi, yeni insan tipləri yaratmağı tələb edirdi” (19,s.124).

Onu da nəzərə almaq zəruridir ki, sovet dövrü ədəbiyyatşünaslığında 1920-1930-cu illər Azərbaycan ədəbi tənqidindən danışılarkən çox vaxt birtərəfli yanaşma və dəyərləndirmələrə üstünlük verilmiş, sosioloji tənqidin təşəkkülü və inkişafından yalnız müsbət tendensiya kimi söz açılmışdır.

Bunlarla yanaşı, 1920-1940-cı illərin ədəbi tənqidində bir sıra məqamlarda bədii-estetik mahiyyətə varmaq meylləri də nəzərə çarpırdı və özlüyündə bu, həm yaradıcılıq prosesi, həm də filoloji fikir üçün önəmli idi. Digər tərəfdən, həmin illərin ədəbi tənqidi bütövlükdə dövrün yaradıcılıq mühitini, bədii mənzərəsini qiymətləndirmək üçün də müvafiq material verir. Bütün hallarda o dövrün ədəbi tənqidi uğur və qüsurları ilə bütövlükdə ədəbiyyatşünaslığımızın müəyyən mərhələsi kimi öyrənilməyə layiqdir. Bu baxımdan həmin illərin Naxçıvan ədəbi mühitində ədəbi tənqidin mövqeyinə nəzər salmaq da bir sıra məsələləri aydınlaşdırmağa imkan verir.

Tədqiqat göstərir ki, 1920-1940-cı illərdə Naxçıvanda da ədəbi mühitin yeni ideoloji prinsiplər əsasında qurulmasına xüsusi fikir verilmiş, müəyyən təşkilatlanma işləri də aparılmışdır.1920-1930-cu illərdə Naxçıvanda yaşlı nəslə mənsub yazarlardan Əli Məhbus, Şeyx Məhəmməd Rəsizadə, Molla Mahmud Çakər və digərləri ilə yanaşı, Əyyub Abbasov, Əvəz Sadıq, Əsgər Kəngərli, Əli Zəbun, Müzəffər Nəsirli, Məmmədəli Tarverdiyev, Qurban Qurbanov, Əbdül Kazım, Bayram Mərdanlı, Rza Şərifzadə, Ənvər Əylisli, Baqi Hüseynov və digər istedadlı gənclər də bədii yaradıcılıqla məşğul idilər. Onların əsərləri Naxçıvan mətbuatında müntəzəm nəşr olunurdu. 1921-ci ildə Naxçıvanda mətbuatın əsasının qoyulması, əvvəlcə “Cavanlar həyatı”, az sonra “Füqəra səsi”, ardınca “Şərq qapısı” adıyla qəzetin nəşri ədəbi mühitə, o cümlədən ədəbi tənqidə də müsbət təsir göstərmişdir.

1920-1940-cı illərdə Naxçıvanda yaşayıb-yaradıcılıqla məşğul olan müəlliflərin bədii əsərləri və ədəbi-tənqidi məqalələri Bakıda və Tiflisdə çıxan

müxtəlif qəzet və jurnallarda da (“Yeni yol”, “Kommunist”, “Gənc işçi”, “Yeni fikir”, “Dan yıldızı”, “Qızıl şəfəq” və s.) dərc olunurdu. O illərdə Naxçıvanda hətta bəzi bədii kitablar da nəşr olunmuşdu ki, Əyyub Abbasovun “Mübarizə” adlı şeir kitabı (1932) bu qəbildən idi.

Həmin illərdə bir sıra ədəbi müzakirələr də keçirilir, yeni yazılmış əsərlər müzakirə mövzusuna çevirilirdi ki, bunlar da özlüyündə ədəbi tənqid faktı kimi maraq doğurur. O dövrdəki yaradıcılıq mühitinin fəal üzvlərindən olan şair Müzəffər Nəsirlinin arxivində “Sovet hakimiyyəti illərində Naxçıvanda ədəbi həyat” adlı maraqlı bir material var. 1973-1974-cü illərdə yazılmış həmin əsərdə 1920-1940-cı illərin Naxçıvan ədəbi mühiti barədə də bir sıra məlumatlar yer almışdır. M.Nəsirlinin xatırladığı kimi: “1925-1926-cı illərdə Naxçıvanda ədəbi mühakimə və ədəbi gecələr təşkil olunurdu” (9, s. 6). Ümumiyyətlə, 1920-ci illərdə Azərbaycan ədəbi mühitində müxtəlif əsərlərlə bağlı ədəbi mühakimələr (məhkəmələr) keçirilirdi ki, bunlar da dövrün ədəbi tənqidinin təzahür formalarından biri olmaqla yanaşı, ideoloji doktrinalara da xidmət göstərirdi. Professor Cəlal Qasımov bu barədə yazır: “Ədəbi məhkəmələrdə əsərlərin gələcəkdə necə və hansı istiqamətdə təhlil edilməsi böyük ustalıqla yönləndirilir və ədəbi tənqidin məhz bu istiqamətdə inkişafı müəyyənləşdirilirdi” (6,s.71).

1926-cı ildə Naxçıvan Xalq Maarif Komissarlığı yanında “Qızıl qələm” ədəbiyyat birliyi fəaliyyətə başlamışdı ki, bu da Bakıdakı müvafiq cəmiyyətin təsiri ilə əlaqəli idi. Bununla yanaşı, Əvəz Sadıq, Əyyub Abbasov və Abbas Gülməmmədovun təşəbbüsü ilə Naxçıvan komsomol klubu yanında “Gənc qələmlər” ədəbiyyat dərnəyi də təşkil olunmuşdu. 1927-ci ildə isə Naxçıvanda yerli partiya təşkilatının təşəbbüsü və nəzarəti ilə “Gənc qızıl qələmlər” ədəbi birliyi təşkil olundu ki, bu da əslində muxtar respublikada Proletar Yazıçıları Cəmiyyətinin rəsmən yaradılması demək idi. Naxçıvanda nəşr olunan “Şərq qapısı” qəzetinin redaktoru Abbas Gülməmmədov, muxtar respublikanın xalq maarif komissarı V.Həsənzadə, mərkəzi icraiyyə komitəsinin sədri M.Babayev, eləcə də gənc yaradıcı qüvvələrdən Əyyub Abbasov, Müzəffər Nəsirli, Əsgər Kəngərli, Nemət Hüseynov, Səkinə Rzalı birliyin rəyasət heyətinə üzv seçildilər. “Gənc qızıl qələmlər” təşkilatının ilk rəhbəri Əyyub Abbasov idi (bax: 9, s.6-7).

Belə ədəbi birlik və dərnəklərdə oxunan əsərlər, həmçinin qarşıda duran vəzifələr müzakirə olunur, müvafiq ədəbi-tənqidi fikirlər də irəli sürülürdü. Bəzən isə geniş əks-səda doğuran müxtəlif hadisələr də baş verirdi. Məsələn, ədəbi gecələrin birində Ə.Kəngərli, M.Nəsirli, Ə.Zəbun, N.Axundov və digərləri yeni şeirlərini nəzərə çatdırmış, qocaman şair Molla Mahmud Çakər isə bir “Saqinamə”sini oxumuşdu. Daha çox mərsiyə şairi və ifaçısı kimi tanınan Çakəri əvvəllər də tənqid edən “Molla Nəsrəddin” jurnalı bu dəfə də onu diqqətdən qaçırmamışdı. Jurnalın 2 mart 1928-ci il tarixli 9-cu sayında “İki müxbirin məktubundan” imzasıyla dərc olunmuş “Qızıl qələmlər cəmiyyətində” adlı yazıda Naxçıvan ədəbiyyat təşkilatının yığıncağında oxunan bəzi əsərlərin müəlliflərinin müasir tələblərdən uzaq düşməsinə satirik münasibət bildirilmişdi: “İclasda ölkəmizin gənc proletar şairlərindən 80 ya-

şında olan Balabəy çıxışda bulunub Şeyx Sədinin firənglərə əsir düşüb Firəngistana əsir getməsindən nağıl edib sonra da özünün duzlu və sone üsulunda yazılmış şeirlərindən oxuyub hüzzarı feyziyab etdi. Ondan sonra da məşhur ağlaşma şairlərimizdən 65 yaşında cavan “futurist” Molla Mahmud Çakər çıxıb özünün yeni inşad olduğu ən son üsulda yazılmış: saqi, baqi doldur piyaləni ey, mən nuş eyləyim peydərpey, - mətləli şeiri-könülqapanını bir musiqi ahənginə uyduraraq oxudu. Gənc şairlərimizin hər ikisini əhli-məclis gurultulu və sürəkli əl çalmaqla alqışladılar. Ölkəmizə yaxından bələd olmayanlar da deyirlər ki, Naxçıvanda şair yoxdur” (8,s.487).

“Molla Nəsrəddin” jurnalının 6 sentyabr 1928-ci il tarixli 36-cı sayında “Cız-cızzadə” imzası ilə verilmiş “Elmi müəssisələrimiz” adlı yazıda isə Naxçıvanda elmi-ədəbi mühitin zəifliynə diqqət yönəldilmişdi: “Naxçıvanda ədəbiyyat cəmiyyəti yuxulamaqdadır. Tədqiq və tətəbbö cəmiyyəti də onun kimi sərgərdandır” (8,s.704).

Ədəbi mühitin dirçəldilməsi, bundan da çox sosializim ideyalarının təbliği, yaradıcı qüvvələrin, xüsusən gəncliyin marksist-leninçi ruhda formalaşdırılması niyyəti ilə o zaman Azərbaycan proletar yazıçılar cəmiyyəti xətti ilə bir sıra şair və yazıçılar Naxçıvana gələrək burada müxtəlif ədəbi tədbirlər də təşkil etmişdilər. Məsələn, cəmiyyətin məsul katibi Süleyman Rüstəm 1928-ci ilin oktyabrında Naxçıvana gəlmiş, burada ədəbi gəncliyin toplanışını keçirmişdi. 1931-ci ildə isə yazıçı Mehdi Hüseyn Naxçıvana gələrək yazıçıların iclasında iştirak etmişdi. Mehdi Hüseynin iştirakı ilə Naxçıvanda keçirilmiş yaradıcılıq yığıncağı ilə əlaqədar “Şərq qapısı” qəzetində dərc olunmuş “Ədəbi gəncliyin sağlam yaradıcılığı uğrunda” adlı redaksiya məqaləsində ədəbi həyatdakı nöqsanlara, qarşıda duran vəzifələrə diqqət yetirilmişdi. Bir müddət sonra “Şərq qapısı” qəzetində ədəbiyyat səhifələri müntəzəm yer tutmağa başladı ki, bu, ədəbi tənqidin inkişafına da müsbət təsir göstərdi.

1933-cü ildə tanınmış yazıçılar Mirzə İbrahimov və Əli Vəliyev Naxçıvana işləməyə göndərilmiş, onlar bir müddət muxtar respublikanın ədəbi-mədəni mühitində fəallıq göstərmişdilər. Belə ki, Ə.Vəliyev muxtar respublikanın mətbuat orqanı olan “Şərq qapısı” qəzetinə, M.İbrahimov isə Naxçıvan MTS-nin siyasi şöbəsinin orqanı olan “Sürət” qəzetinə redaktorluq etməsi, akademik İsa Həbibbəylinin (Həbibovun) vurğuladığı kimi: “burada ədəbi-mədəni mühitin canlanmasına, mətbuat, teatr və dramaturgiyanın inkiafına təkan vermişdir” (5, s.54).

1934-cü ilin 23-24 aprelində Naxçıvanda yazıçıların konfransı keçirildi. Konfransda Mirzə İbrahimov “Yazıçılar qurultayına hazırlıq”, Əli Vəliyev isə “Sosialist kəndi və onun ədəbiyyatda bədii şəkildə ifadəsi haqqında” adlı məruzələrlə çıxış etmişdilər. Həmin məruzələr o dövrün ədəbi tənqid faktı kimi maraq doğurur. “Şərq qapısı” qəzetinin 5 may 1934-cü il tarixli sayında dərc olunmuş “Ədəbiyyat xronikası”nda bu barədə məlumat verilmiş, xüsusən Mirzə İbrahimovun “Azərbaycan ədəbiyyatında əmələ gələn dönüş və müvəffəqiyyətlər üzərində dayanması” ayrıca vurğulanmışdı (16). Şair Müzəffər Nəsirli bu barədə yazırdı: “M.İbrahimov, Ə.Vəliyev Naxçıvanda öz çətin və

məsul vəzifələrini yerinə yetirməklə bərabər, muxtar respublikada Azərbaycan ədəbiyyatını təbliğ edir, gənclərə ədəbiyyat aləmində baş verən yenilikləri çatdırırdılar" (9,s.19-20).

1932-ci ildə proletar yazıçıları cəmiyyəti ləğv edildikdən sonra yazıçıların yeni təşkilatının yaradılması istiqamətində hazırlıq işləri başlanıldı. 1934-cü ildə Naxçıvanda da sovet yazıçılar ittifaqının yerli təşkilatı yaradıldı. "Şərq qapısı" qəzetinin 1 may 1934-cü il tarixli sayında bu barədə məlumat verilmişdir. Həmin məlumatdan öyrənirik ki, Naxçıvan Sovet Yazıçılar İttifaqı təşkil olunmuş, Mirzə İbrahimov sədr, Əbdül Kazım isə müavin seçilmişdi. İttifaqın heyətində Qurban Qurbanov, Əli Vəliyev, Baqi Hüseynov, Lətif Hüseynzadə, Rza Şərifzadə kimi üzvlər və üzvlüyə namizədlər təmsil olunmuşdu. M.İbrahimov, Ə.Vəliyev və B.Hüseynov Naxçıvan yazıçılar təşkilatından Azərbaycan yazıçılarının birinci qurultayına nümayəndə seçilmişdilər. Bu faktları M.Nəsirli də xatırlatmışdır (9, s.21-22).

Tanınmış yazıçılardan Mirzə İbrahimovun və Əli Vəliyevin 1930-cu illərin əvvəllərində bir müddət Naxçıvanda yaşayıb fəaliyyət göstərmələrinin muxtar respublikada "ədəbi gəncliyin inkişafı üçün ciddi əhəmiyyətə malik olduğunu" vurğulayan professor Yavuz Axundlu bir fakta da diqqət yönəltmişdir: "Bilavasitə onların təşəbbüsü ilə o zaman "Şərq qapısı" qəzeti nəzdində ayda iki dəfə "Ədəbiyyat qəzeti" buraxılırdı. Bu illərdə M.İbrahimov və Ə.Vəliyevin "Şərq qapısı" qəzetində tez-tez hekayə, oçerk və məqalələri dərc olunurdu" (1, s.15). Həmin qəzet barədə M.Nəsirli yazırdı: "Şərq qapısı" qəzetinin redaktoru Əli Vəliyev və Mirzə İbrahimov yoldaşların təşəbbüsü ilə Naxçıvan mətbəəsində böyük formatda "Ədəbiyyat qəzetəsi" də çap edildi. Qəzeti Mirzə İbrahimov özü redaktə edir və qəzet ətrafına ümid verici gəncləri toplayırdı. Çox təəssüf ki, "Ədəbiyyat qəzetə"sinin ömrü az oldu. Bir neçə nömrədən sonra nəşri dayandırıldı. Buna baxmayaraq gənclər yenə də həvəslə yazıb-yaradırdılar" (9, s.22).

Qeyd etdiyimiz kimi, o illərdə Naxçıvanda yaşayıb-yaradan bir sıra müəlliflər yerli mətbuatla yanaşı, Bakıda, Tiflisdə və digər şəhərlərdə Azərbaycan dilində nəşr olunan qəzet və jurnallarda da müxtəlif səpkili yazılarla çıxış edirdilər ki, onların sırasında ədəbi-tənqidi məqalələr də var idi. Bu baxımdan Müzəffər Nəsirlinin, Əsgər Kəngərlinin, Qənbərlinin və digərlərinin yazıları maraq doğurur. M.Nəsirli "Şərq qapısı" qəzetinin 5 avqust 1934-cü il tarixli 176-cı sayında dərc etdirdiyi "Naxçıvan şura ədəbiyyatı" adlı məqaləsində bəzi müəlliflərin əsərlərinə nəzər salaraq dəyərləndirmələr aparmışdı. Məqalədə o dövrün istedadlı gənc ədiblərindən olan Əbdül Kazımın yaradıcıllığını müsbət qiymətləndirən M. Nəsirli daha çox mövzu. Məzmun aktuallığına diqqət yetirmişdi: "Əbdül Kazım yaradıcılığında olan ümumi cəhət aktual problemlərin bədii ifadəsidir və daha mürəkkəb məsələlərin həll olunmasıdır... " Məqalə müəllifi "Səməd" poeması üzərində işləyən gənc şairə tövsiyə edirdi ki, həyatı, üz tutduğu mövzunu dərindən öyrənsin, obrazlara və təsvir vasitələrinə də xüsusi diqqət yetirsin

M.Nəsirlinin həmin məqaləsindəki tənqidi qeydlər daha çox dövrün siyasiideoloji tələblərinə uyğun şəkildə üzə çıxmışdı. Məsələn, M.Nəsirli o

zaman bir sıra bədii əsərləri, tərcümələri ilə tanınan Şeyx Məhəmməd Rəsizadənin (Hüseyn Cavidin qardaşı idi-A.A.) yaradıcılığına da toxunmuş, onun əsərlərinin sənətkarlıq baxımından zəifliyi ilə yanaşı, ideoloji tələblərlə ayaqlaşmadığı belə ümumiləşdirmişdi: “Rəsizadə yoldaşda nöqsan cəhət əsərlərində obrazların azlığı, təsvirin cansızlığı, verilən məsələnin məqalə tərzində inkişafıdır. M.Rəsizadə yoldaş sosialist realizmi, inqilabi romantizmi mənimsəməli, ölkəmizin inkişafına aid mühüm əsərlər verməyə çalışmalıdır” (sitatlar bu mənbədən götürülüb: 12, s.94).

1920-1930-cu illərdə Naxçıvanda yaşayan yazarların bir sıra ədəbi-tənqidi məqalələri Tiflis mətbuatında dərc olunmuşdur. Bunların çoxu teatr tamaşaları ilə əlaqədar yazılmış resenziyalar idi. Tiflisdə çıxan “Yeni fikir” qəzetinin 18 iyul 1923-cü il tarixli sayında “Tamaşaçı” imzasıyla verilmiş bir yazıda iyulun 2-də Naxçıvanda Bakıdan gəlmiş Abbas Mirzə Şərifzadə, Mərziyə Davudova və s. aktyorların göstərdikləri tamaşadan danışılır və muxtar respublikada teatra böyük marağın olması vurğulanırdı: “Bilet kassasının qabağında böyük qələbələik müşahidə olunurdu...Bu həmin camaatdır ki, əvvəllər onlara bazarda zor ilə bilet salmaq mümkün deyildi. Abbas Mirzə Şərifzadə Şeyx Sənan rolunu böyük məharətlə ifa etdi” (20). Qəzetin 12 fevral 1924-cü il tarixli sayında isə Naxçıvanda C.Məmmədquluzadənin “Ölülər” əsərinin oynanılması nəzərə çatdırılmışdır.

“Yeni fikir” qəzetinin 23 may 1926-cı il tarixli sayında tənqidçi Seyid Səbri Naxçıvandan göndərdiyi məqaləsində yazırdı ki, 16 mayda Bakı Dövləti Türk Dram teatrı Naxçıvanda C.Cabbarlının “Oqtay Eloğlu” əsərini oynadı. A.Şərifzadənin Oqtay rolunu məharətlə ifa etməsi məxsusi vurğulanırdı. “Abasmirzə demək olar ki, səhnə Məcnunudur. Səhnə mühitində yalnız sənətkar olmayıb, bütün vücudu ilə teatra məftun bir artistdir” (21). Seyid Səbri həmin qəzetin 4 iyun 1926-cı il tarixli sayındakı məqaləsində isə Bakı teatrı aktyorlarının Naxçıvanda H.Cavidin “İblis” faciəsini göstərməklərindən söz açmışdır.

Naxçıvanın o illərdəki teatr mühitinə “Şərq qapısı” qəzeti də diqqət yetirirdi. Qəzetin 24 avqust 1930-cu il tarixli nömrəsində Azərbaycan Dövlət dram Teatrı aktyorlarının Naxçıvana qastrol səfərindən danışılmış, “Bakı aktyorlarının Naxçıvanda yay klubu təsis edilməsinə” kömək göstərmələri, “yerli yaradıcı qüvvələr arasında iş aparmaları” bildirilmişdir.

Məmmədəli Tarverdiyevin “Şərq qapısı” qəzetinin 16 noyabr 1929-cu il tarixli sayındakı məqaləsində noyabrın 10-da naxçıvanlı aktyorların H.Cavidin “Şeyx Sənan” əsərini tamaşaya qoyması bildirilmiş, sonra isə tamaşa, ümumən əsər barədə maraqlı ədəbi-tənqidi mühakimələr nəzərə çatdırılmışdı: ”Şeyx Sənan” pyesinin mahiyyətinə gəlincə qeyd etməliyəm ki, Hüseyn Cavidin bu tarixi və məzum əsəri bədii cəhətcə çox qüvvətlidir.Oyunun gedişində ümumiyyətlə “Şeyx Sənan” hazırkı mühit və yaşayışda din əleyhinə nəzərə çarpır. Fəqət pyesdə bir neçə fəlsəfələr var ki, buradan kiçik nöqtələrdə ayrılır. Lakin bu, o qədər də qorxulu deyildir. Zira “Şeyx Sənan” hələlik səhnəmizdə oynanıla bilər” (18).

1930-cu illərin ikinci yarısında Naxçıvanda ədəbiyyatın, eləcə də ədəbi tənqidin inkişafında müəyyən durğunluq və problemlər yaşanmışdır. O illərin mətbuatındakı bəzi yazılar da bundan soraq verir. Məsələn, Bakıda çıxan "Ədəbiyyat qəzeti"nin 11 may 1938-ci il tarixli sayında "Qənbərli" imzasıyla dərc olunmuş "Azərbaycan Sovet Yazıçıları İttifaqının Naxçıvan şöbəsi haqqında" adlı məqalədə (7) şöbənin fəaliyyətindəki bir sıra nöqsanlar tənqid olunmuşdur. Təşkilatın fəaliyyəti üçün lazımi şəraitin olmadığına diqqət çəkən müəllif yazırdı: "Naxçıvan yazıçılarının binası yoxdur. Yazıçılar ittifaqından gələn təliqələr katib Lətif Zeynalovun evində saxlanılır. Rayon və kəndlərdən gələn gənc yazıçılar, aşıxlar və ədəbiyyat maraqlıları Naxçıvan yazıçılar təşkilatının "məsul işçilər"ini tapa bilmədiklərindən geri qayıdırlar".

Təşkilatın yeni seçilmiş rəhbər heyətini fəaliyyətsizlikdə günahlandıran, ədəbi-tənqidi müzakirələrin keçirilmədiyinə, yeni yazılmış əsərlərin uğur və qüsurlarının göstərilmədiyinə də toxunan məqalə müəllifi faktlarla danışırdı: "Naxçıvanda 27 nəfər gənc yazıçı və 19 nəfər aşıx vardır ki, bunlarla da heç bir qonqret iş aparılmayır. Bu vaxtadək bir dəfə də olsun, iclas, məşqələ, disput və sairə keçirilməmişdir. Hələ bir il bundan qabaq seçilmiş heyət üzvləri belə bir yerə yığışıb iclas eləməmişlər... Gənclərin yazmış olduqları roman, hekayə, oçerq və pyesalara göstəriş verən, onların müvəf-fəqiyyət və nöqsanlarını göstərən yoxdur. Naxçıvan yazıçılarından Qurban Qurbanov "Ayrım", Hüseyn Baqi "Xəndan", Qasım Tağıyev "Qultur həyat", Məmməd İsmayılov "Bizim gənclər", Hüseyn Hüseynov "Yüksəliş" kimi əsərlər yazmışlar. Lakin bunların əsərləri heç bir yerdə müzakirə və tənqid edilməmişdir. Vaqtilə yaxşı şeirlər yazan yoldaşlar indi qayğısız iş nəticəsində yazıçılıqdan uzaq düşmüşlər..".

Qənbərlinin Naxçıvandan göndərdiyi həyəcan dolu tənqidi məqaləyə "Ədəbiyyat qəzeti"nin rəhbərliyi də münasibət bildirmiş, "Redaksiyadan" başlıqlı qeyddə Azərbaycan Sovet Yazıçıları İtttifaqından və muxtar respublikanın yerli təşkilatlarından yazıçılarla işi gücləndirmək, ədəbi mühiti canlandırmaq sahəsində lazımi tədbirlər görmələrinin vacibliyi nəzərə çatdırılmışdı.

1940-cı ildə Bakı şəhərində Azərbaycan Sovet Yazıçıları İttifaqı tərəfindən gənc yazıçıların respublika konfransı keçirildi. Həmin konfransda Naxçıvandakı ədəbi qüvvələri Ənvər Əylisli, Yaqub Məmmədov, Abbasqulu Quliyev, Hüseyn Əzim, Miryəhya Seyidov (sonralar ədəbiyyatşünas kimi tanınan Yəhya Seyidov), Təvəkkül Zeynalov kimi gənclər təmsil edirdilər. Bundan sonra Naxçıvanda da ədəbi mühitin müəyyən canlanması müşahidə edildiyi kimi, ədəbi tənqid də fəallığını artırdı, mətbuatda naxçıvanlı yazıçıların əsərləri barədə bəzi ədəbi-tənqidi materiallar dərc olundu.

"Ədəbiyyat qəzeti"nin 28 aprel 1941-ci il tarixli sayında Ə.C. imzası ilə verilmiş "Filiallardakı gənc yazıçılar haqqında" adlı məqalədə o dövr Naxçıvan ədəbi mühitinin fəal üzvlərindən olan Qurban Qurbanovun və Ənvər Əylislinin yaradıcılıqlarına ayrıca diqqət yetirilmişdi. Əvvəllər "Şərq qapısı" qəzetində kiçik hekayələr və oçerklərlə çıxış edən Q.Qurbanovun "Ayrım", həmçinin Nizami Gəncəvinin poemasının təsiri ilə yazılmış "Xosrov və Şirin"

dramlarına müsbət qiymət verilmişdi. Məqalədə Ənvər Əylislinin yaradıcılığı müfəssəl dəyərləndirilmiş, onun “Bahar” şeirindən nümunə gətirilmişdi. Şairin poeziyası barədə bəzi tənqidi qeydlər də nəzərə çatdırılmışdı: “Əylislinin son şeirləri ilə əvvəlki şeirləri arasında dil, ifadə və obrazlılıq cəhətincə nəzərə çarpacaq bir fərq görünmür...Əylisli öz yaradıcılığına qarşı çox tələbkar olmalı, şeirləri üzərində daha ciddi işləməklə özünün siyasi, elmi və ədəbi biliyini artırmağa çalışmalıdır” (3).

Böyük vətən müharibəsi illərində muxtar respublikada ədəbiyyata yeni qüvvələr gəldi, müxtəlif nəsillərə mənsub qələm sahibləri dövrün tələblərinə uyğun əsərlər yazır, bir sıra maraqlı sənət axtarışları aparırdılar. ədəbiyyatda olduğu kimi, ədəbi tənqiddə də qələbəyə səfərbərlik ovqatı ön plana keçmişdi. Bu baxımdan müharibə illərində bir müddət Naxçıvanda yaşayan tənqidçi Əziz Şərifin “Şərq qapısı” qəzetində dərc etdirdiyi bəzi məqalələr maraq doğurur. O, qəzetin 9 oktyabr 1942-ci il tarixli sayında dərc etdirdiyi “Kəskin silah” adlı məqaləsində şair və yazıçıların diqqətini faşizm üzərində qələbə uğrunda mübarizəyə qələmləri ilə kömək göstərməyə, xalqda mübarizə əzmini, vətənpərvərlik ruhunu qüvvətləndirməyə çağırırdı: “Qoy bizim də bədii sözümüz cəbhədəki igid döyüşçülərimizi, arxadakı yorulmaq bilmədən işləyən fəhlə və kolxozçularımızı, ¸gözünü həsrət və ümidlə döyüş bölgəsinə tikən ana və bacılarımızı ruhlandırsın,.. onları qarı düşmənə qarşı mübarizə üçün istər cəbhədə, istərsə də arxada səfərbərliyə alsın” (13).

Ə.Şərif “Naxçıvanlı gənc şairlər Böyük vətən müharibəsi günlərində” məqaləsini isə (14) muxtar respublikanın gənc ədəbi qüvvələrinin yaradıcılıq axtarışlarına həsr etmişdi. Bu ədəbi-tənqidi məqalədə müəllif “yerli şairlərdən Hüseyn Əzim, Hacı Əsgərov, Əsgər Səfərov, müəllim əli Məmmədov yaradıcılığındakı vətənpərvərlik motivlərinə toxunur, bəzi nümunələri oxuculara təqdim edir” (12,s.102).

Müharibə başa çatdıqdan sonra ədəbi mühitin qayğılarına diqqət müəyyən qədər artdı, lakin ideoloji basqılar da davam edirdi. 1946-cı ilin oktyabr ayında Naxçıvan vilayət partiya komitəsi tərəfindən muxtar respublikada yaşayan şair və yazıçıların müşavirəsi keçirildi. Həmin müşavirə o zaman aktual sayılan bir mövzuya -sovet rəhbərliyinin ədəbiyyat və incəsənət sahəsində qəbul etdiyi qərarlara (bu qərarlar birtərəfli idi və bəzi yazıçıları əsassız günahlandırırdı), həmçinin sovet rəhbərlərindən Jdanovun məruzəsinə həsr olunmuşdu. Müşavirədə Naxçıvanda yaşayan şair və yazıçılardan Hüseyn Əzim, Əbülfəz Abbasquliyev, Hüseyn İbrahimov, Müzəffər Nəsirli və bəzi digərlərinin bir sıra əsərləri müsbət qiymətləndirilmiş, həmçinin nöqsanlar da nəzərə çatdırılmışdı. Xüsusən bəzi yazarların əsərlərindəki mücərrədçilik, sözçülük, ideyasızlıq pislənilmiş, ədəbi tənqidin öz fəallığını artırması, yeni yaranan əsərlərə diqqətlə yanaşıb onları vaxtında təhlil edib dəyərləndirməsinin vacibliyi də önə çəkilmişdi, təbii ki, mövcud quruluşun siyasi-ideoloji tələbləri baxımından... (bax: 17).

1940-cı illərin ikinci yarısında Naxçıvanda M.Nəsirli, M.Tarverdiyev, H.İbrahimov, D.Ordubadlı, Ə.Abasquliyev, H.Razi, H.Əzim, C.Cavadlı, Ə.Mahmud, Ə.Məftun, İ.Səfərli və başqaları kimi istedalı ədiblər yazıb-

yaradırdılar ki. onların bir sıra əsərləri Azərbaycan ədəbiyyatının diqqətəlayiq nümunələri sırasındadır. Təsadüfi deyil ki, 1949-cu ilin mayında "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş bir məqalədə Naxçıvan ədəbi mühitinin uğurlarına diqqət yetririlmişdi (4).

Deyilənlər göstərir ki, 1920-1940-cəı illərdə Naxçıvanda ədəbi-tənqidi fikir özünəməxsus inkişaf yolu keçmişdir.

ƏDƏBİYYAT

1. Axundlu Y.İ. Ədəbi mühit və sənətkar. Bakı: Adiloğlu, 2002, 188 s.
2. Babayev N.Ş. Ədəbi mübahisələr. Bakı: Yazıçı, 1986, 179 s.
3. Ə. C. Filiallardakı gənc yazıçılar haqqında. "Ədəbiyyat qəzeti", Bakı, 28 aprel 1941-ci il, № 17
4. "Ədəbiyyat qəzeti", Bakı, 28 may 1949-cu il, № 15
5. Həbibov İ.Ə. Ədəbi yüksəliş. Bakı: "Bilik" cəmiyyətinin nəşri, 1985, 64 s.
6. Qasımov C.Ə. Ədəbi məhkəmələr. Bakı: Zərdabi LTD, 2002, 304 s.
7. Qənbərli. Azərbaycan Sovet Yazıçıları İttifaqının Naxçıvan şöbəsi haqqında. "Ədəbiyyat qəzeti", Bakı, 11 may 1938-ci il, № 22
8. Molla Nəsrəddin, səkkiz cilddə, VII cild. Bakı: Çinar-çap, 2010, 836 s.
9. Nəsirli M. Sovet hakimiyyəti illərində Naxçıvanda ədəbi həyat (makina yazısı),
151 s. (Material M.Nəsirlinin ailə arxivindədir)
10.Salmanov Ş.M. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər).Bakı: Elm, 1980, 186 s.
11. Salmanov Ş.M. Müasirlik mövqeyindən. Bakı:Yazıçı, 1982, 205 s.
12. Surə S.N. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil,
2010, 208 s.
13. Şərif Ə. Kəskin silah. "Şərq qapısı" qəzeti, Naxçıvan, 9 oktyabr 1942-ci il, № 210
14. Şərif Ə. Naxçıvanlı gənc şairlər Böyük vətən müharibəsi günlərində. "Şərq qapısı" qəzeti, Naxçıvan, 10 oktyabr 1942-ci il, № 2111
15. Şəmsizadə N.Ş. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997, 290 s.
16. "Şərq qapısı" qəzeti, Naxçıvan, 5 may 1934-cü il, № 128
17. "Şərq qapısı" qəzeti, Naxçıvan, 20 oktyabr 1946-cı il, № 116
18. "Şərq qapısı" qəzeti, Naxçıvan, 16 noyabr 1929-cu il
19. Yaradıcılıq metodu məsələləri (məqalələr məcmuəsi).Bakı: Elm, 1989, 152 s.
20. "Yeni fikir" qəzeti, Tiflis,18 iyul 1923-cü il
21. "Yeni fikir" qəzeti, Tiflis, 23 may 1926-cı il

РЕЗЮМЕ

АНАР АБУЗАРЛИ

ОСОБЕННОСТИ РАЗВИТИЯ КРИТИКИ В НАХЧЫВАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЕ В 1920-1940-Х ГОДАХ

Представители Нахчыванской литературной среды занимающей особое места в литературе Азербайджана оказали достойную внимания услугу и в области литературной критики. С этой точки зрения определенные материалы 1920-1940-х годов вызывают интерес. Однако как и в литературе того периода, развитие литературной критики так же не было односторонним, сопровождалось контрастами и противоречиями. Это было непосредственно связано с текущей структурой идеологических требований.

Ключевые слова: Ключевые слова: Азербайджанская литература, литературная критика, Нахчыванская литературная среда

SUMMARY

ANAR ABUZARLI

FEATURES OF THE DEVELOPMENT OF CRITICISM IN NAKHCHIVAN LITERARY ENVIRONMENT IN 1920-1940-IES

Representatives of Nakhchivan literary environment occupying a special place in the literature of Azerbaijan rendered a worthy service in the field of literary criticism. From this point of view certain materials of the 1920s-1940s are of interest. However, as in the literature of that period, the development of literary criticism was also not one-sided, accompanied by contrasts and contradictions. This was directly related to the current structure of ideological demands.

Key words: Key words: Azerbaijan literature, literary critics, Nakhchivan literary environment

(*Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir*)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ÇİNARƏ RZAYEVA
AMEA Naxçıvan Bölməsi
cinarerzayeva@yahoo.com.tr

NAXÇIVANDA TOPLANAN NAĞILLARDA ALINMA SÖZLƏR

Bildiyimiz kimi dilimizin lüğət tərkibində müəyyən bir hissəni alınma sözlər təşkil etdir. Məhz bu alınmalar nağıllarda da özünü göstərir. Məqalədə qədim tarixə malik folklorun maraqlı nümunəsi olan nağıllarda alınma sözlər, ərəb və fars sözləri seçilmişdir. Belə ki, nağıllarda işlənən ərəb və fars mənşəli sözlər 6 qrupa-dini məzmunlu, elm və sənətlə bağlı, məişət məzmunlu, xüsusi şəxs adları, məkan adı bildirən və işləkliyini qoruyan sözlərə bölünərək təhlillər aparılmışdır. Tədqiqat zamanı belə nəticəyə gəlindi ki, nağıllarda işlənən alınmaların demək olar ki, hamısı bu gün də günümüzdə işlənməkdədir. Bu da nağılların dilini sadələşdirir və hamı tərəfindən başadüşülməsinə imkan yaradır. Məqalədə nümunələr Naxçıvanda toplanan nağıllar əsasında verilmişdir.

Açar sözlər: Naxçıvan, nağıl, leksika, alınma sözlər, ərəb və fars**,**

Folklorun maraqlı və zəngin nümunələrindən olan nağılların tarixi çox qədimdir. Nağılların şifahi xalq ədəbiyyatında özünəməxsus yeri var. Bu janr dilinin sadəliyi ilə də seçilir. Belə ki, orda işlənən sözlərin demək olar ki, hamısı hamı tərəfindən başa düşülür.

Nağıllarda alınma sözlərə də tez-tez rast gəlinir, bu alınmalar nağılın dilini ağırlaşdırmır. Çünki bu alınmalar lüğətimizin bir layını təşkil edir. Onu da qeyd edək ki, nağıllarda nə qədər alınma sözlər olsa da, öz ana dilimizə məxsus sözlər çoxluq təşkil edir. Ana dili öz saflığını və gözəlliyini həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatda göstərir. Dilimizin qüdrəti, saflığı və gözəlliyi haqqında bir çox görkəmli şəxsiyyətlərin dəyərli fikirləri vardır. O görkəmli şəxsiyyətlərdən biri olan ulu öndər Heydər Əliyev deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir" (1, s. 3). Ulu öndərin bu sözləri nəinki ölkəmizdə, hətta ölkədən kənarda yaşayan azərbaycanlıları bu sərvəti qorumağa, dəyər verməyə sövq edir.

Dilimizin lüğət tərkibini zənginləşdirən amillərdən biri də alınmaların və yeni sözlərin daxil olmasıdır. Bu proses dünya dillərinin hamısında özünü göstərir. Demək olar ki, əksəriyyəti özlərinə qonşu olan xalqların və bəzi ölkələrin əsarəti altında qalması nəticəsində onların dilləri ilə ünsiyyətdə olmuş, bunun nəticəsi olaraq da qarşılıqlı sözlər qəbul etmişdir. Bu proses Azərbaycan dilində də özünü göstərir. Doğma vətənimizdə və vətəndən kənarda yaşayan Azərbaycanlıların doğma dili olan Azərbaycan dili bir çox dillərlə, o cümlədən əsarəti altında qaldığı xalqların, əsasən də qonşu xalqların dilləri ilə hər zaman

ünsiyyətdə olmuşdur. Dilimizə keçən alınmalara baxmayaraq, bu dil özünün qüdrətini, saflığını itirməmiş, əksinə daim inkişaf edərək, zənginləşmişdir.

Azərbaycan dili ilə ərəb və fars dili çox qədim zamanlardan ünsiyyətdə olmuş, hər iki dil söz alıb və söz vermişlər. Dilimizə daxil olan ərəb və fars mənşəli sözlərin bir qismi olduğu kimi, bir qismi isə fonetik dəyişmələrə məruz qalır. Alınmaların bəziləri elə dəyişir ki, onun alınma yoxsa milli söz olduğunu seçmək bir qədər çətinləşir.

Əvvəldə qeyd etdiyimiz kimi dilimizin lüğət tərkibində müəyyən bir hissəni alınma sözlər təşkil edir. Bu alınma sözlər təkcə yazılı ədəbiyyat nümunələrində deyil, həmçinin şifahi xalq ədəbiyyatında da özünü geniş şəkildə göstərir. Belə ki, folklor mətinlərinin lüğət tərkibində işlənmiş alınma leksikanın müəyyən bir hissəsi ərəb və fars mənşəli sözlərdən ibarətdir.

Qeyd edək ki, ərəb və fars sözlərinin böyük bir qismi dini məzmunludur və bu səbəbdən onlarda arxaikləşmə çox zəifdir. Bu xüsusda Naxçıvanda toplanan nağıllarda ərəb və fars mənşəli sözləri belə qruplaşdırırıq:

1. Dini məzmunlu sözlər
2. Elm və sənətlə bağlı olan sözlər
3. Məişət məzmunlu sözlər
4. Xüsusi şəxs adları bildirən sözlər
5. Məkan adı bildirən sözlər
6. İşləkliyini qoruyan sözlər

a) *Dini məzmunlu sözlər*. Bu sözlərin işlənmə tezliyi həm yüksəkdir, həm də bu sözlərdə arxaikləşmə yoxdur. Nağıllarda fəallıq təşkil edən bu sözlər müasir dildə də işləkdir. Nağıllarda işlənən dini məzmunlu sözlərin bir çoxu “Qurani - Kərim”də yer tutan sözlərdir. Dini məzmunlu sözlərlə bağlı bir neçə nümunəyə nəzər salaq: Allah, İlahi, Vallah, təsbeh, cənnət, Allahu-əkbər, namaz, peyğəmbər, Quran, məscid, Tanrı, dua və s. Əvvəlcədən onu deyək ki, nümunələr nağılların imla yazısına toxunulmadan, nəql edildiyi kimi, yəni kitapda necə verilibsə elə də verilir. “Sənəm cadu” nağlından aldığımız bir nümunəyə diqqət yetirək:

Gecə həmin bağman yatıp yuxuda görür ki, bına dərya tərəfdən nə isə bir nemət yetişəcəh. Durur səhər tezdənnən yuxusunu arvada nağıl eləyir. Arvat deyir:

– A kişi, *Allah* xeyir eləsin (4, s.127)!

Qeyd edək ki, Allah sözü bir çox nağıllarda öz əksini tapıb. Çünki Allah hamının qəlbindədir, buna görə də demək olar ki, bütün nağllarda Allahdan yardım istənilir və hər hansısa bir işin yerinə yetməsi üçün ona dualar edilir. Bunlarla bərabər həmçinin, birinə bəddualar ediləndə də Allahdan istəyirlər. Eyni nağıldan aldığımız bir nümunə:

Hə, *Allah lənət eləsin.* Deyir, bə sən bırda təh qalıbsan, bə qərip adamsız, bə bizə niyə gəlmirsiz (4, s. 130)?

İnsanlar and içəndə belə yenə Allahın adını çəkillər. “Ögey ana” nağılında bu dediyimiz öz əksini tapıb.

Ana, *sən Allah*, qızılın yerini de, bəlkə analığım bizi incitmiyə (4, s. 144).

Allaha and vermək bir çox nağıllarda qarşımıza çıxır. Bu da müqəddəs varlığa and içərək hər hansı çətin bir işin öz həllini tapacaq düşüncəsinin insanlarda formalaşmasıdır.

İnsan ona verilən hər bir şeyə görə, gözəl nemətləri verən, bütün çətin işləri düzəldən Allaha şükür edir. Bu, qədim tarixə malik olan nağıllarda da geniş formada öz əksini tapmışdır. "Tacir oğluynan padşah qız" nağılından oxuyuruq:

Qarı nənə qurban sənə. Gəl bu sirri aç mənə görüm niyə ərə getmirsən? Belə qalıb qız qarımıyassan ki. *Allaha şükür var*–dövlət səndə, pul səndə, özün də bir dünya maralı (4, s. 188).

Bu nümunədə qarı nənə padışah qızına verilən var-dövlətə və onu gözəl yaratdığı üçün Allaha şükür edir.

Bu deyilənlərlə bərabər, döyüşə gedən də Allahı çağırıb onun böyüklüyünü dilə gətirir. "Şah Abbasın nağılı"nda pəhləvanın düşmənlə döyüşə getdiyi zaman Mahmud vəzirə dediyi parçaya nəzər salaq:

Əgər mən birinci dəfə *"Allahu əkbər"* desəm, bil ki, düşmənimlə başladım döyüşə. İkinci dəfə *"Allahu əkbər"* eşitsən bil ki, düşməni yerə vurmuşam, əgər üçüncü dəfə *"Allahu əkbər"* eşitsən onda düşməni öldürmüşəm, məni gözlə gəlim gedək (5, s. 253).

Nağıllara nəzər saldıqda Allahın digər adları da qarşımıza çıxır:

Vallah, hal–əhvalat belədi. Mən onu o vaxt qıymadım öldürməyə, qoydum belə sandığa, atdım dəryaya (4, s. 129).

İlahə gözləri əvvəlki yerinə qoyub, üzünü tutdu *ilahiyə*, çox yalvardı, sonra gözlərini bağlayıb yatdı (3, s. 204).

Bir gün *Tanrının* bı adamlara yazığı gəldi (5, s. 226).

Allah mənim dadıma yetdiyinə görə, əhd eləmişəm ki, ömrümün axırına kimi *məscidi* süpürüm (5, s. 348).

O, *təsbehi* arvadın əlindən alandan sonra işini möhkəm tutmaq üçün pul verib üç şahid tutdu. Biri *təsbeh* düzəldən, biri qazı, biri də məhlə mollası (3, s. 212).

İndi ki, elədi, gedəh, o dağa ki, çatanda mənə elə bir acı qəmçi çəh ki, mən o acı qəmçinin hersinnən o dağların üstünnən aşacam. Elə atdı axı, *cənnət* atıdı (4, s. 118)

Davud *peyğəmbər namazı* qılıb qurtarandan sonra arxaya dönür və görür ki, oğlannarının heç biri başın qaldırmadı (5, s. 324).

Bir gecə oğlan yuxudan hövlnak qalxıb, anasını oyatdı:

- Ana, yuxuda gördüm ki, *Quran* oxuyuram (5, s. 348).

Duanı oxudu, hərə öz əlindəki gülü iylədi, vali qarışıq hamısı ömrünü bağışladı Bəşirə (5, s. 309).

Göründüyü kimi, dini məzmunlu bu ərəb sözlərinin, demək olar, hamısı müasir yazılı və şifahi ədəbi dilimizdə işlənməkdədir. Yuxarıda qeyd etdiyimiz kimi dinlə bağlı sözlərdə arxaikləşmə demək olar ki, yox dərəcəsindədir.

b) *Elm, sənət və peşə ilə* bağlı olan sözlərin əksəriyyəti ərəb və fars mənşəlidir və bu sözlər ədəbi dilin bir çox üslublarının inkişafında fəal mövqe tutmuş, vətəndaşlıq hüququ qazanmışdır. Məsələn: *həkim, kitab, hökmdar, hökm* və s.

Razılaşırlar ki, hərəmiz üç saat oyaq qalıb keşik çəkək ki, qurd-quş bizi yeməsin. Dərzi ilə *həkim* yatır, dülgər keşik çəkir (5, s. 338).

Qırxınsı gün gördüm yuxu məni tutur, *kitabı* verdim bir keçələ, durdum gördüm cəfakeş mənəm, keçəli qucaqlayıb mənə deyir (5, s. 224):

Hökmdar sağ olsun, niyə mənə salam vermədin? Axı salam böyükdən kiçiyədi. Uşağın cəsarəti *hökmdarın* xoşuna gəldi (5, s. 326).

Vəzirinən şah oğlu şah Abbas danışır ki, ə, bınnar kimdi, bizim *hökmümüzə* əməl eləmir, şişək yandırıllar? Gəzə–gəzə gəlillər, ışıx yanan pəncərədən baxıllar (4, s. 125).

c) *Məişət məzmunlu* sözlər ərəb mənşəli leksikanın ən zəngin hissəsidir. Belə sözlərin nağıllarda sayı və işlənmə tezliyi yüksəkdir. Məsələn: *saat, kitab, ayna, qələm, dəsmal, sandıq, qədəh* və s.

Axırda ustadı ona bir *ayna* da bağışlayır və deyir ki, ürəyində kimi fikirləşsən onun əksini bu *aynada* görəcəksən (5, s. 337).

Meşəni bir xeyli dolaşandan sonra bir çarhovuz gördü. Çarhovuza yaxınlaşdı, qolları *qələm* olduğundan, aşağı əyildi ki, dodaqları suya çatsın (5, s. 347).

Bir neçə *saat* keçəndən sonra hökmdar geri qayıdırdı, gördü Süleyman torpaqda nəsə axtarır (5, s. 327).

Məni qabağına qatıb atdan geyindirib, üstən qıfılladı, üstən geyindirip, atdan qıfılladı. Kəmərimə qılınc taxdı, bir *dəsmal* çörəh bağladı (5, s. 231).

Bınnar sandığın başında şərtdəşillər. Bir-birlərinə deyillər, əgər *sandıx-da* dünya malı olsa onda o, müştəriyə çatacax (5, s. 237).

Yuxarıda verdiyimiz *sandıq* sözü *sənduq* formasında ərəbcədən dilimizə keçmiş, fonetik dəyişikliyə uğramış sandıq olaraq lüğətimizdə öz əksini tapmışdır.

ç) *Xüsusi şəxs adları bildirən sözlər*: “Adların necə törəndiyini təsəvvür etmək çətin deyil. İlk insan qrupları və ailə yaranandan, formalaşandan sonra, əlbəttə, adlar da meydana gəlmişdir. Tayfa, nəsil, yaxud ailə içində adamların sayı artdıqca onları fərqləndirmək, fərdiləşdirmək lazım gəlirdi. Adlar məhz bu tələbi ödəmək üçün törənmişdir” (2). Demək olar ki, dilimizdə tarix boyu müxtəlif dillərdən keçmə şəxs adları mövcuddur. Alınma şəxs adlarının çox hissəsi ərəb və fars dilindən keçmədir. Bu da şəxs adlarının bir qisminin dini adlar olması ilə bağlıdır. Yuxarıda da qeyd etdiyimiz kimi, dinlə bağlı sözlərin və adların demək olar ki, hamısı ərəb mənşəlidir. Belə adlara nağıllarda da tez-tez rast gəlirik. İlk olaraq dinlə bağlı adlara nəzər salaq. Onu da qeyd edək ki, bu adların çoxu ibranicədir. Məsələn, Cəbrayıl, Davud, Süleyman, İsmayıl, Abbas və b.

Cəbrayıl Davud peyğəmbərin yanında nazil olur (5, s. 324).

Süleymanın sözü hökmdarın o qədər xoşuna gəldi ki, ona bir ovuc qızıl verdi (5, s. 327).

Gördülər ki, atası qızı *İsmayıla* verməyəcək, cavanlar xəlvətcə sözü bir yerə qoydular ki, hər ikisi şəhərdən çıxıb qaçsınlar (5, s. 305).

Ərəb mənşəli dini şəxs adlarına nəzər salaq:

Bınnarın yaşı on səkkiz olannan sonra dəyirmançı oğlanın adını *Məhəmməd* qızın adını Pəri
Qoydu (5, s. 339).

- A kişi, nə çox deyingilənirsən? Sən get, *Zəhra* addı bir qızın var, xırda qızın, onu gətir, ver mana, səni dolandırmaq mənim boynuma, nəkkədər deyirsən qızıl, gümüş, mal verim sana (3, s. 133).

"Beçə dərviş nağılı"nın əvvəlində verilən şeirdə *Abbas* adı ilə bağlı nümunəyə nəzər salaq.

Ya məni öldür, qan eylə,
Ya seyrağıbı gözdən sal.
Şah Abbas cənnətməkan,
Tərəziyə vurdu təkanİki
qoz, bir girdəkan (5, s. 259).

Digər şəxs adları:

Əgər *Pərini* mənə verməsən, yerin təkinə də girsən, göyə də çıxsan, tapıb səni öldürəcəyəm (3, s. 251).

Mahmud vəzir, niyə sən mənim verdiyim əmrin yerinə yetirilməsinə imkan verməmisən (5, s. 251)?

Balaca oğlu *Cahangir* isə qüvvətli, ağıllı, qanacaqlı min adama cavab verə bilən bir oğlan imiş (5, s. 259).

Dərviş durdu ayağa, əppəyi götürdü əlinə ki, təndirə yapsın, Məlik Cümşüd vaxt itirməyib tez onu təndirə basdı, duvağı ağzına qoyub oturdu üstündə (3, s. 138).

Dərviş adına bir çox nağıllarda rast gəlinir. Mifik obraz rolunu oynasa da demək olar ki, əksər nağıllarda əks olunur.

Nağıllarda işlənən ərəb və fars mənşəli şəxs adlarına aid nümunələrin sayını istənilən qədər artırmaq olar. Çünki dilimizdə alınma şəxs adlarının çoxu ərəb və fars mənşəlidir. Ona görə də bu adlar milli adlarla yanaşı nağıllarda öz əksini tapıb.

d) *Məkan adı bildirən sözlər:* Nağıllarda da bu adlara rast gəlinir çünki hər bir nağılda hadisələr müəyyən məkanlarda baş verir. Məsələn, İsfahan, Təbriz, Yəmən və s.

Bunlar dərələrdən sel kimi, təpələrdən yel kimi keçib üç günə *Təbrizə* yetişdilər, *Təbrizdə* də oturmayıb Usta Sefiəddini götürüb geri, *İsfahana* döndülər (3, s. 214).

Bu pulu düzəltsə – düzəltsə, ancaq *Yəmən* şəhərindəki tacirbaşı Hüseyn düzəldə bilər (5, s. 355).

e) *İşləkliyini qoruyan sözlər.*

Azərbaycan nağıllarında elə ərəb və fars sözləri işlənmişdir ki, onların çoxu danışıq dilində, şivələrdə işlənir və asanlıqla başa düşülür. Eyni zamanda nağıllarda ərəb və fars sözləri Azərbaycan sözləri ilə birlikdə elə işlənmişdir

ki, mənasını asanlıqla dərk etmək olur. Nümunələrdə bu cür sözlər kəmiyyətcə daha çoxdur. Məsələn, *dərd, tədbir, günah, firəvan, dost,* heyifslən, ağıl, insaf, cavan *və s.*

Sizdən gəlirəm, azarlamışam, *dərdimə* dəvə əti deyiblər, gəldim anan verdi. İndi gedirəm (3, s. 218)

Keçəl bu *tədbirdən* də xəbər tutdu (3, s. 219)

Günah özündədi, sənə demədimmi qarının felinə uyma (3, s. 238)

Hamı *firəvan*, xoş ömür sürəcək (3, s. 249).

Dostu baş üstə deyib, səhərisi gün min tümən pulu dəsmala qoyub düyünlədi (3, 261)

Sən də məni ayaqlarımdan yeməyə başla, nə mən sənin üzünü görüm, ağlayım, nə də sən mənim üzümü görüb *heyifslən* (3, s. 260).

Çox belə sədaqətli, etiqadlı, inamlı, *insaflı,* səxavətli, çox gözəl bir oğlandı (5, s. 310).

Vaxt gəlib o vədə oldu ki, mənim on beş yaşım tamam oldu. *Cavanlıq,* yetkinlik eşqi beynimə vurdu (5, s. 358).

Nağıllarda işləkliyini qoruyan sözlərlə yanaşı elə sözlər də vardır ki, onlar hamı tərəfindən başa düşülməyir. Məsələn, *tələtüm və s.*

Əmr elə qayığa meyvə gətirib doldursunlar. *Tələtümə* düşsək yeyək (5, s. 298).

Nağıllarda işlənən bir qrup ərəb və fars mənşəli sözlər vardır ki, onlar olduğu kimi tələffüz olunur. Yəni Azərbaycan dilində də heç bir fonetik dəyişikliyə uğramadan tələffüz olunur. Belə ki, eyni tələffüz olduğu üçün və onlarda ahəng qanunu pozulmadığına görə onları türk sözlərindən seçmək çətindir. Məsələn bir neçə ərəb və fars mənşəli sözlərə nəzər salaq.

Ərəb və farsca tələffüzi	Azərbaycanca tələffüz
Peyğəmbər	Peyğəmbər
Dərd	Dərd
Ayna	Ayna
Murad	Murad

Bu qəbildən olan *murad* sözü də diqqəti çox çəkir. Belə ki, ilk baxışda türk sözü olaraq düşündüyümüz, işlənmə tezliyi yüksək olan bu söz dilimizə ərəb dilindən keçmişdir. Mənası arzu, məqsəd, niyyət, dilək, istək, kam

“Abdulla və Mehriban Sultan” nağlından götürülən bir parçaya nəzər salaq:

Abdullanın atası oğluna qırx gün, qırx gecə toy vurdurur, onu Mehriban Sultanla evləndirir. Onlar *muradlarına* çatırlar. Siz də yeyin, için, *muradınıza* çatın (5, s. 353).

Təkcə bu nağılda yox bir çox nağılların sonunda murad sözünə rast gəlinir. Çünki nağılların sonu demək olar ki, bir-birinə oxşar formada bitir, yəni öz muradlarına çatırlar.

Belə sözlərlə yanaşı elə antroponimlər də vardır ki, onların türk mənşəli yoxsa ərəb və fars mənşəli olmasını aid etməkdə çətinlik törədir. Məsələn, yuxarıda verdiyimiz murad sözü həm də antroponim kimi işlənir. Bu qəbildən olan antoponimlərdən biri də Əhməd adıdır.

Bu minvalla çox dolandım, axırda *Əhməd* adlı bir tacirlə sövdələşdim ki, birlikdə alver edək (5, s. 360).

Nağıllarda işlənən sözlər istər milli sözümüz olsun, istərsə də alınma sözlər, onların hamısı demək olar ki, bu gün işləkliyini qoruyur. Çünki nağıllarda arxaikləşmə çox azdır. Ümumişlək sözlərin olması, hamı tərəfindən başa düşülən terminlərin işlənməsi nağılların dilini bir o qədər sadə edir. Bu da nağılı oxuyan hərkəsin nağılı olduğu kimi başa düşməsinə əsas verir.

ƏDƏBİYYAT

1. Azərbaycan dili və nitq mədəniyyəti (ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı: “ULU”, 2015, 236 s.
2. Mirzəyev O. Adlarımız. Bakı: Azərnəşr, 1986
3. Naxçıvan folklor antologiyası. I cild. Naxçıvan: “Əcəmi”, 2010, 513 s.
4. Naxçıvan folklor antologiyası. II cild. Naxçıvan: “Əcəmi”, 2011, 496 s.
5. Naxçıvan folklor antologiyası. III cild. Naxçıvan: “Əcəmi”, 2012, 560 s.

РЕЗЮМЕ

ЧИНАРА РЗАЕВА

ЗАИМСТВОВАННЫЕ СЛОВА СОБРАННЫЕ В СКАЗКАХ В НАХИЧЕВАНИ

Как известно, определенная часть нашего языкового словаря составляет заимствованные слова. Именно эти заимствованные слова появляются и в сказках. В статье были исследованы арабские и персидские, заимствованные слова в древне исторических сказках. Использованные в сказках слова арабского и персидского происхождения разделены на 6 групп: религиозные, связанные с наукой и искусством, бытовые, конкретные имена людей, названия мест и слова сохранившие свою используемость и проведены анализы. В течении исследования был сделан вывод, что заимствованные слова, употребленные в сказках на сегодняшний день почти все используются. И это упрощает язык сказок и дает возможность всем его понять. В статье были использованы образцы, собранные из сказок в Нахичевани.

Ключевые слова: Нахичевань, сказка, лексика, заимствованные слова, арабский и персидский

SUMMARY

CHİNARA RZAYEVA

BORROWED WORDS COLLECTED IN FAIRY TALES IN NAKHICHEVAN

As you know, a certain part of our language dictionary is borrowed words. It is these borrowed words that appear in fairy tales. The article explored Arabic and Persian, borrowed words in ancient historical tales. The words of Arabic and Persian origin used in the fairy tales are divided into 6 groups: religious, related to science and art, everyday, concrete names of people, names of places and words that have retained their usability and analyzed. During the study, it was concluded that borrowed words, used in fairy tales to date, almost all are used. And this simplifies the language of fairy tales and makes it possible for all to understand it. In the article, samples collected from fairy tales in Nakhichevan were used.

Keywords: Nakhichevan, fairy tale, vocabulary, loan words, Arabic and Persian

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

AYTƏN ƏHMƏDOVA
Gəncə Dövlət Universiteti
83-aytan@mail.ru

AZƏRBAYCAN DİLİNDƏ QRAMMATİK ŞƏKİLÇİLİ QOŞMALAR

Azərbaycan dilində işlədilən barədə (barəsində), xüsusda (xüsusunda), sayəsində, ənada (əsnasında), uğrunda, yolunda, əvəzində və s. sözlərin hansı nitq hissəsinə aid olması haqqında vahid fikir yoxdur, o cümlədən onların qoşma olması da birmənalı qəbul edilmir. Lakin məqalədə verilən izahlardan aydın görünür ki, bunların bəziləri artıq qoşma kimi sabitləşmiş, digər qismi isə əsas nitq hissəsində uzaqlaşaraq, qoşma funksiyasını yerinə yetirir. Fikrimizcə, böyük dərəcədə mücər-rədləşmə nəticəsində əsas nitq hissələrindən uzaqlaşdığından onların daha çox qoşma kimi qəbul edilməsi məqsədəuyğundur.

Açar sözlər: Azərbaycan dili, qoşma, qrammatik şəkilçilər, leksik məna, qoşma-nın semantikası.

Məlumdur ki, köməkçi nitq hissələrinin səciyyəvi cəhətlərindən biri onların sabit, dəyişməz formaya malik olmasıdır. Bu fikri qoşmaların da əksəriyyətinə şamil etmək olar; bunlar tam sabitləşmiş, ilkin kökü ilə semantik-qrammatik əlaqəsini itirmiş qoşmalardır. “*Aid, dair, savayı, görə, üçün, ötrü*” və s. qoşmalar bu qəbildəndir. Onlar hansı sözlə əlaqəyə girməsindən, hansı sintaktik mühitdə olmasından asılı olmayaraq, sabit fonetik-qrammatik formaya malikdir, heç bir dəyişikliyə uğramır. Buna baxmayaraq, dilimizdə qoşma funksiyasını yerinə yetirən, lakin qoşma kimi tamam sabitləşməmiş xeyli sayda sözlər də vardır. Bu sözlər həm nominativ formada, yəni heç bir şəkilçi olmadan, həm də müəyyən qrammatik şəkilçinin iştirakı ilə qoşma funksiyasına malikdir. Buraya *haqqında (haqda), barədə (barəsində), xüsusda (xüsusunda), sayəsində, ənada (əsnasında), uğrunda, yolunda, əvəzində və s.* kimi sözlər daxildir. Bu sözlərin bəzilərində sözün əsli ilə əlaqə müəyyən dərəcədə qalsa da, digər qismində bu əlaqəni tapmaq mümkün deyil, çünki kökün özü müasir dilimizdə işlək söz kimi mövcud deyil, yəni şəkilçini çıxdıqdan sonra qalan hissə leksik-semantik vahid kimi dilimizdə işlədilmir. Bunlar haqqında ayrı-ayrılıqda bəhs ediləcəkdir. Qeyd edək ki, bu tipli sözlərin elələri vardır ki, əslində onların qoşma ilə heç bir əlaqəsi olmasa da, bəzi türkoloji əsərlərdə onların hamısı qoşma adı ilə təqdim olunur və təhlil edilir. Buraya “*boyunca, arxasında, önündə*” və s bu tipli sözlər aid edilir [8, 492-504].

Bu sözlər haqqında Azərbaycan dilçiliyində müxtəlif fikirlər vardır. M.Hüseynzadə onları “əsas nitq hissəsi ilə köməkçi nitq hissəsi arasında keçid mərhələ təşkil edən yaqımqoşmalar” adlandırır [4,223]. F.Zeynalov onları

köməkçi adlarla qoşmalar arasında keçid halda olan sözlər qrupu kimi təqdim etsə də, onlardan ayrı-ayrılıqda danışarkən “köməkçi ad” terminindən istifadə edir [9,159]. Bəzi dilçilər isə başqa ad vermədən onları qoşmaların içərisində öyrənmişlər. Bu fikrə M.Hüseynzadənin eyni adlı kitabının 1963-cü il nəşrində də rast gəlirik [3,222]. Q.Kazımov göstərir ki, “Köməkçi adların bir qismi tədricən qoşmalara çevrilməkdədir. Buraya haqqında, barəsində, uğrunda, əsnasında, əvəzində, xüsusunda, üzərində kimi sözlər daxildir. Bunlar tam qoşmalaşmadığı üçün iki cür işlənə bilirlər: *haqda –haqqında, barəd –barəsində, xüsusda – xüsusunda* və s. [6,351].

Demək lazımdır ki, bu tip sözlərə eyni münasibət türkoloji ədəbiyyatda da özünü göstərir. Belə ki, N.A.Baskakov, V.A.İsenqaliyeva onları qoşmaların [2, 513; 5, 78], A.N.Kononov köməkçi adların [7,344] tərkibində öyrənirlər.

İlk olaraq “*barəsində//barədə*” qoşması haqqında danışaq.Bu söz qoşma funksiyasında tam sabitləşmiş söz deyil; yəni müxtəlif qrammatik formalarda işlədilə bilir. Bu sözün qoşma vəzifəsində bütün şəxslər üzrə dəyişməsi onun daxili dinamik vəziyyətindən, qrammatik mütəhərrikliyindən xəbər verir. Məsələn: *Jandarmlarda Sahib barəsində əsaslı dəlillər olmadığından onu həbs edə bilmirdilər* (M.İbrahimov); *İndi mənim barəmdə nə fikirləşəcəklər?* (V.Sultanlı); *Oğul, sənin barəndə çox yanılmışam* (S.Azəri); *Deməli, bizim barəmizdə hər şeyi bilirsiniz* (M.Süleymanlı); *Əlbət ki, sizin barənizdə hələ çox-çox yaxşı sözlər deyiləcək* (H.İbrahimov); *Onlar barədə biz də yanlış fikirdə olmuşuq* (S.Azəri).

Məlum olduğu kimi, “*barə*” sözü fars mənşəli olub, adətən, mənsubiyyət şəkilçisi ilə işlənir.Müasir Azərbaycan dilində müstəqil istifadə olunan “*barə*” sözü yoxdur. Qeyd edək ki, bəzi tədqiqatçılar “köməkçi adlar” başlığı altında ayrılıqda müstəqil işlənmə xüsusiyyətinə malik sözlər kimi, “*bəri, sayə*” sözlərini də əlavə edirlər [6,348]. Lakin bizə belə gəlir ki, bu sözləri “iç, orta, ara” və s. tipli, yəni müstəqil mənaya və qrammatik xüsusiyyətlərə malik olan sözlərlə eyni cərgəyə qoymaq olmaz.

Danışıq dilində “*barə*” sözündən yaranmış “*barədəki*” sözü həmin sözün bir vaxtlar dilimizdə işlək olmasından xəbər verir. Bu da diqqəti çəkir ki, “*barədəki*” sözünün özü də müstəqil leksik vahid kimi dilimizdə mövcud deyil; bu söz üçüncü şəxsdə və adlıq halda olan sözlərlə işlənir və atributiv xüsusiyyətə malik olur: *kitab barədəki fikirlər, şəhər barədəki düşüncələr* və s. Aydındır ki, *-dakı*[2] şəkilçisi adlara qoşularaq sifət yaradır, lakin dilimizdə ayrıca leksik-semantik mənaya malik “*barədəki*” sifəti də yoxdur; bu söz də özündən əvvəlki sözlə birlikdə işlədilir. Bunun səbəbi, fikrimizcə, “*barədə*” sözünün müstəqil şəkildə deyil, birləşdiyi sözlə birlikdə *-dəki*[2] şəkilçisini qəbul etməsidir. Ona görə də “barədəki” söz-forması müstəqilliyə malik deyil, müxtəlif sözlərlə və müxtəlif formalarda əlaqədə fəaliyyət göstərir.

Bu sözün kökünün müasir dilimizdə olmaması onun qoşma kimi varlığını daha da möhkəmləndirir, çünki kökü müstəqil leksik mənalı söz kimi mövcud olmayan sözlər dildə, bir qayda olaraq, köməkçi nitq hissəsi kimi formalaşmış olur. Bu sözün “*barədə*” kimi formalaşması isə onda qoşma keyfiyyətini daha da gücləndirmiş olur; belə ki, bu formada artıq həmin söz

bütün şəxslərə aid ola bilir. Lakin onu demək lazımdır ki, bu qoşmanın hansı hala qoşulması maraqlıdır; qoşmanın bu forması birinci, ikinci şəxsin təkində, üçüncü şəxsin cəmində adlıq halda (*mən barədə, sən barədə, onlar barədə),* birinci və ikinci şəxsin cəmində isə, həm adlıq, həm də yiyəlik halda olan sözlə əlaqəyə girir. Məsələn: *Yeni gələnlər barədə hələ bir məlumatımız yoxdur* (V.Sultanlı); *Sizin barədə hərə bir söz danışır* (S.Əhmədov); *Sizin barənizdə eşitdiklərim həqiqətə uyğun deyildi* (S.Əhmədov).

Bu qəbildən olan qoşmalardan biri də "*sayəsində*" sözüdür. Bu söz də tam sabitləşmiş qoşma hesab edilə bilməz; ən əvvəl ona görə ki, "*sayə*" komponenti müxtəlif mənsubiyyət şəkilçiləri ilə və yerlik halda qoşma funksiyasını yerinə yetirir: *mənim sayəmdə, sənin sayəndə, onun sayəsində, bizim sayəmizdə, sizin sayənizdə, onların sayəsində.* Əvvəl verdiyimiz qoşmalardan fərqli olaraq, bu qoşmanın qoşulduğu sözün hal vəziyyəti yayğın deyildir; həm şəxs əvəzliyi, həm də istənilən isimlə işlənərkən həmin sözlərin yiyəlik hal şəkilçili olmasını tələb edir. Məsələn: *Dostunun sayəsində vəzifədə həmişə irəli getmişdir* (V.Sultanlı); *Sizin sayənizdə, bəlkə, mən də bir çörək sahibi oldum* (M.İbrahimov).

Digər tərəfdən isə, qoşma funksiyasında işlənən bu söz həmin mövqeyində şəkilçisiz variantda işlədilə bilmir; yəni ki, bu söz qoşma kimi sabitləşməmişdir. Bunu təsdiqləyən faktlardan biri də əvvəlki sözlərdə gördüyümüz kimi, bu sözün də bəzən aid olduğu sözsüz, müstəqil şəkildə cümlə üzvü funksiyasında çıxış etməsidir: *Sayənizdə mən də öz yerimi tapa bildim* (İ.Şıxlı).

"*Barə*" sözü kimi, "*sayə*" sözü də müstəqil leksik-semantik vahid kimi müasir Azərbaycan dilində mövcud deyil. Lakin əslində "*kölgə*" mənasına malik olan bu söz klassiklərin əsərlərində hətta iyirminci əsrin əvvəllərinə qədər işlənmişdir.

Bu söz müxtəlif şəxslərə aid mənsubiyyət və yerlik hal şəkilçisi ilə cümlə üzvü kimi çıxış edir, lakin müəyyən zamandan sonra kök hissəsi öz mənasında işlənməklə yanaşı, özündən əvvəlki sözlə birlikdə bir qrammatik mənanın ifadəsinə xidmət edir ki, bu zaman qoşma kimi formalaşır. Digər halda isə sözün kökü ilkin semantik mənasından uzaqlaşır, yəni həmin söz müasir dilimizdə müstəqil söz kimi işlənmə keyfiyyətini itirir, yenə də qoşma kimi formalaşır. "*Sayəsində*" sözü məhz ikinci tipdən olan qoşmadır.

"*Sayəsində*" qoşmasının əvvəlkilərdən fərqləndirici cəhətlərdən biri də odur ki, bu söz mənsubiyyət, yaxud mənsubiyyət və hal şəkilçisi olmadan qoşma funksiyasında çıxış edə bilmir; daha doğrusu, həmin sözün kökü şəkilçisiz özündən əvvəlki sözə birləşib işlənmir.

Bu fikirlər bu və ya digər dərəcədə "*əsnasında, xüsusunda*" sözləri haqqında da demək olar. Bu sözlərin də kökü müasir dilimizdə müstəqil şəkildə işlək deyil. Maraqlıdır ki, "Azərbaycan dilinin izahlı lüğəti"ndə "*xüsus*" sözü dilimizin leksik vahidi kimi qeydə alınmışdır [1,310]. Lakin qeyd edək ki, bu sözlərin qrammatik forma əsasında dəyişə bilmə və söz yaradıcılığına münasibəti fərqlidir. Hər şeydən əvvəl bu sözlər yerlik hal şəkilçisi ilə, həm də təyinedici sözlə, xüsusən də işarə əvəzliyi ilə işlədilir. Məsələn: *Bu* ***əsnada***

həyət qapısı şiddətlə döyülməyə başladı (Ə.Vəliyev); *Dayım bu* ***xüsusda, deyəsən,*** *heç danışmaq istəmirdi* (M.İbrahimov).

Hər iki sözün qoşma kimi yerlik hal şəkilçisi ilə yanaşı, mənsubiyyət şəkilçisi ilə də işlənməsi faktı vardır. Bu xüsusiyyət onları əvvəlki qoşmalarla birləşdirir. Mənsubiyyət şəkilçili formanın qoşulduğu söz də hansı halda olması ilə fərqlənir. Belə ki, əvəzlik bu qoşma ilə adlıq halda, digər sözlər isə yiyəlik halda əlaqəyə girir. Məsələn: *Həmin xüsusda söhbətimiz hələ çox olacaq* (S.Əhmədov); *Mal almaq xüsusunda razılığa gələ bilmədik* (V.Sultanlı).

Əslində hər iki sözün yerlik hal şəkilçisi ilə işlənə bilməsi onların qoşmalaşa bilmə imkanına təkandır. Əvvəlki nümunələrdə də gördüyümüz kimi, bəzi sözlər məhz yerlik hal formasında qoşmalaşırlar. Amma bu sözlərdən ikincisi, yəni “*xüsus*” sözü söz yaradıcılığında da iştirak edir; belə ki, dilimizdəki *“xüsusi, xüsusiyyət*” və bunlardan yaranan sözlərin kökündə məhz bu söz durur. Müasir dilimizin tələbləri baxımdan bu isim kök və şəkilçiyə ayrıla bilməsə də, başqa sözlərin də tərkibində olması onun potensial kök olduğunu göstərir. “*Xüsusən, xüsusilə*” modal sözləri də tarixən bu sözün üzərində meydana çıxmışdır. Modal söz olaraq kök və şəkilçiyə ayrılmasalar da, onların tarixən eyni kökdən yaranması aydın görünür.

“*Əsna*” komponenti haqqında isə bu fikri söyləmək olmaz; belə ki, bu söz kök şəklində müasir dilimizdə işlənmədiyi kimi, onun hər hansı bir şəkildə söz yaradıcılığında iştirakı da müşahidə olunmur. Bu isə həmin sözün müasir dilimiz üçün arxaik olduğunu göstərir. Bu arxaik forma isə yalnız “*əsnada, əsnasında*” sözlərində ilişib qalmışdır. Bu qoşmanın da mənsubiyyət şəkilçili forması yiyəlik hallı sözə, mənsubiyyət şəkilçisiz forması isə adlıq hallı sözə qoşulur və qoşulduğu sözə zaman mənası aşılayır. Müasir ədəbi dilimizdə geniş işləkliyə malik olmayan bu sözə bədii əsərlərin dilində tez-tez rast gəlmək mümkündür. Məsələn: *Söhbətin bu əsnasında Sübhan özünü saxlaya bilməyib ayağa durdu* (M.İbrahimov); *Bu əsnada xalamın kiçik qızı Xavər də özünü yetirdi* (H.Mirələmov).

Fikrimizcə, bu tipli sözləri müasir dilimiz baxımından istisna hesab etmək olar, ona görə ki, dilimizdə az işlənməklə yanaşı, həm də ayrılıqda kök formada da mövcud deyil. Eyni sözü “*sayə*” sözü haqqında demək olmaz, çünki bu sözün kök forması müasir dilimizdə olmasa da, *“sayəsində*” sözünün qoşma kimi işlədilməsi çox məhsuldardır və hər kəs tərəfindən dərk olunandır.

Bu formada meydana çıxan “*uğrunda*” sözü də müasir dilimizdə qoşma funksiyasında çıxış edir. Q.Kazımov bu sözü köməkçi adlar cərgəsində təqdim edir [6, 347]. Əslində “*uğur*” sözündən meydana gələn bu söz müasir dilimizdə kökü ilə açıq əlaqəyə malik deyil. Bu söz qoşma olaraq, “*sonra, üçün*” qoşmalarının sinonimi kimi işlədilir və dilçilik ədəbiyyatında da belə təqdim olunur. Lakin dərindən fikir verilsə, qoşmanın özü və kökü arasında semantik bağın olduğu görünmüş olar. “*Vətən uğrunda*” ifadəsi “*Vətən üçün*” anlamında işlədilsə də, əsil mənasında “*Vətənin uğuru üçün*” deməkdir. Burada belə bir müqayisə də aparmaq olar: “üçün, ötrü” qoşmaları müxtəlif səciyyəli sözlərə qoşularaq, səbəb mənasından başqa digər məzmunları da formalaşdıra bilir.

Məsələn, həmin qoşmalar *"qardaşım üçün (qardaşımdan ötrü) almışam*" cümləsində vasitəli obyekt məzmunu yaratmışdır ki, burada səbəb məzmunu, demək olar ki, yoxdur. Amma həmin mövqedə "*uğrunda*" qoşmasını işlətmək olmaz. Bu isə "uğrunda" qoşmasının tarixi kökü ilə bilavasitə bağlıdır. Bu qoşma müasir dilimizdə səbəb məzmununda deyil, məqsəd məzmununda işlədilir. Məsələn: *Bütün gənclər Vətənimizin gözəl, parlaq gələcəyi uğrunda çalışmalıdır.*

Bu qoşmanı əvvəldə izahını verdiyimiz digər qoşmalardan fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, bu sözün qoşma kimi mənsubiyyət və ya yiyəlik hal şəkilçisiz variantı yoxdur. Fikrimizcə, bunun əsas səbəbi, bir tərəfdən, sözün özünün mənasının dar olması, digər tərəfdən, qoşma kimi daha sonrakı dövrün məhsulu kimi meydana çıxmasıdır.

Müasir dilimizdə müvafiq fonetik-qrammatik şəkildə formalaşmış və başqa sözlə əlaqədə qoşma funksiyasını yerinə yetirən sözlərdən biri də "*yolunda*" sözüdür. Məlum olduğu kimi, bu söz müstəqil leksik vahid kimi dilimizdə ümumişlək sözlərdən olub, konkret leksik semantikaya malikdir. Məsələn: *Kəndimizə yeni yol çəkilmişdir*.

Lakin demək lazımdır ki, bu sözün məcazi anlamı da dilimizdə işlənməkdədir: *həyat yolu, ömür yolu, yaradıcılıq yolu* və s. Qeyd edildiyi kimi, sözlərin məcazi anlama malik olması, daha çox mücərrədlik ifadə etməsi onların köməkçi nitq hissəsinə keçmə prosesini şərtləndirən əsas amillərdəndir. Bu cəhətdən dildə yeni qoşmaların yaranması bu amillə ciddi şəkildə bağlıdır.

"*Yolunda*" sözü öz həqiqi mənasını saxlamaqla yanaşı, başqa bir istiqamətdə qoşmalaşmağa doğru da inkişaf edir. Bir az əvvəl "*yol*" sözünün məcaziliyi, mücərrədliyi ilə bağlı verdiyimiz faktlarda həmin söz ilkin semantikası ilə əlaqəsini hələ tamam üzməmişdir; bu əlaqə həm leksik-semantik, həm də qoşulduğu sözlə qrammatik münasibətdə özünü göstərir. Belə ki, həmin söz məcazi anlamda olsa da, leksik-semantik müstəqilliyini qoruduğu kimi, qoşulduğu sözlə olan əlaqəsi də dinamik səciyyəyə malikdir. Burada tərəflərdən birindən digərinə sual doğduğu kimi, həmin sözü də bu birləşmə daxilində müxtəlif şəkilçilər qəbul edib, rəngarəng qrammatik formalara düşərək, ayrı-ayrı sintaktik funksiyaları yerinə yetirməyə şərait yaradır. Bu isə müvafiq sözün müstəqil leksik mənalı söz, ifadənin isə sərbəst söz birləşməsi olduğunu göstərir.

F.Zeynalov bu sözün mücərrədləşməsinin ilkin səbəbi kimi onun birləşmə daxilində işlənməsi və bu zaman mənsubiyyət şəkilçisi ilə formalaşması faktını qeyd edir. Müəllif bu tip sözləri köməkçi adlarla qoşmalar arasında keçid xarakterli sözlər adlandırır. Onların mücərrədlik bildirməsini, əsas məzmundan təcrid olunmasını. mənalarının məhdudlaşmasını və məkani hal şəkilçilərini qəbul etməsini köməkçi adlara yaxınlaşan əlamətlər kimi təqdim edir [9,160]. Lakin müəllifin də qeyd etdiyi kimi, yalnız yerlik hal şəkilçisi ilə işlənmə xüsusiyyəti onları köməkçi adlardan fərqləndirir.

"*Yolunda*" sözü qoşmalaşma prosesinin ən mühüm mərhələsindədir. Belə ki, bu söz həmin mövqedə etimon sözün mənasına malik deyil; bu, daha çox mücərrəd bir məna – qrammatik mənadır. İkincisi, hansı sözə qoşulursa,

qrammatik cəhətdən dəyişmir, sadəcə, başqa qoşmalar kimi, az halda xəbərlik şəkilçisi ilə işlənə bilir ki, bu da ədəbi dil nəzərindən normal hesab edilə bilməz: *Bu döyüş Vətən yolundadır*. Üçüncüsü, birinci komponentdən ikinci komponentə sual doğmur. Bu da həmin ifadənin tərəflərinin daha çox birikdiyindən xəbər verir. Bütün bunlar isə həmin sözün qoşma funksiyasını daşıdığını bir daha göstərir. Məsələn: *Ailəmin səadəti yolunda mən öz azadlığımdan da keçməyə hazıram* (İ.Şıxlı).

Qeyd etmək lazımdır ki, “*yol”* sözü mənsubiyyət şəkilçisiz, yalnız yerlik hal şəkilçisi və “bu” işarə əvəzliyi ilə həmin semantik-qrammatik mövqedə işlədilə bilir. Məsələn: *Bu yolda öldü var, döndü yoxdur*. Düşünürəm ki, bu mövqedə həmin söz leksik mənalı söz kimi, həm də əsas tərəf kimi çıxış edir.

Nümunədən göründüyü kimi, burada “*yolunda*” sözünü asanlıqla “*üçün*” qoşması ilə əvəz etmək olur. Bu fakt da həmin sözün qoşma funksiyasında olduğunu bir daha göstərir.

Onu da demək lazımdır ki, istər “*haqq*+mənsubiyyət şəkilçisi”, istərsə də “*barə*+mənsibiyyət şəkilçisi” formasında olan sözlər eyni məzmunda qoşulduğu söz olmadan, müstəqil şəkildə işlənib cümlə üzvü funksiyasını yerinə yetirə də bilir və maraqlıdır ki, bu mövqedə, demək olar ki, yalnız ikinci şəxsin cəmində olan söz işlədilə bilir, başqa şəxs formalarını müşahidə etmək olmur. Məsələn: *Haqqınızda tutuqlama hökmü var; Barənizdə çıxarılan qərar ədalətli deyil.*

Bu nümunələrdə həmin sözlərin qarşısına müvafiq olaraq ikinci şəxs cəmdə olan şəxs əvəzliyini yiyəlik halda əlavə də etmək olar ki, bu zaman ifadənin məzmununda ciddi fərq özünü göstərməz: Sizin haqqınızda tutuqlama hökmü var; Sizin barənizdə çıxarılan qərar ədalətli deyil. Bu fakt onu göstərir ki, həmin sözlər xalis qoşma hesab edilə bilməz; onlar keçid prosesində olan sözlər kimi xarakterizə edilməlidir.

Bu sözlə bağlı maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, bəzən aid olduğu sözdən ayrı düşür və yenə də məhz həmin funksiyaya malik olur. Məsələn: *Haqqında danışdığım cavan oğlan budur* (M.Hüseyn). Funksional cəhətdən qoşmanın xüsusiyyətini daşısa da, aid olduğu sözdən ayrı, onsuz işlənməsi bu sözün qoşma kimi tam sabitləşmədiyini göstərir. Lakin misaldan da göründüyü kimi, “*haqqında”* sözü bu mövqeyində də müstəqil leksik mənalı sözün səviyyəsində deyil.

Təhlilini verdiyimiz nümunələr mənsubiyyət və hal şəkilçisinin iştirakı ilə formalaşmışdır. Lakin bu qəbildən olan “*naminə*” sözü də buna bənzər formada olsa da, ikinci şəkilçi yerlik halda yox, yönlük haldadır. Bu söz fars mənşəli “*nam*” sözündən olub, “ad” mənasındadır. İyirminci əsrin əvvəllərinə qədər dilimizdə işlədilmiş bu söz hal-hazırda işlək deyil. Ona görə də həmin söz bütöv şəkildə də müasir dilimizdə konkret olaraq müstəqil leksik məna daşımır. “*Naminə*” sözü də ikinci və ya üçüncü növ təyini söz birləşməsinin ikinci komponenti olaraq, təktərəfli şəkildə işlədilir və yalnız başqa sözlə əlaqədə müəyyən fikrin ifadəsinə xidmət edir. Bu söz digər sözlərdən fərqli olaraq, şəxs əvəzlikləri ilə işlənmir, daha doğrusu, onun əlaqəyə girdiyi

sözlərin əhatəsi çox məhduddur. Sözün özü obrazlı ifadə formasına malik olub, əsasən, mücərrəd anlayışlı və dəyərlilik məzmununa malik sözlərlə işlədilir. Məsələn: *Vətən naminə hər şeyə hazıram.*

Nümunənin məzmunundan görünür ki, "*naminə*" sözü "*üçün, ötrü, görə*" səbəb bildirən qoşmalarının funksiyasına malikdir: *Vətən naminə--Vətən üçün – Vətəndən ötrü – Vətənə görə.* Buna görə də fikirləşirik ki, müasir dilimizdə onsuz da az istifadə edilən "*naminə*" sözü qoşma vəzifəsindədir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti, II cild, Bakı: Şərq-Qərb, 2006, 792 s.
2. Баскаков Н.А. Двойственная природа и проблема частей речи (на материале тюркских языков), Вопросы теории частей речи. с.235-236
3. Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı: Azər tədris nəşr, 1963, 276 s.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə, morfologiya, Bakı: Şərq-Qərb, 2007, 280 s.
5. Исенгалиева В.А. Служебные имена и послелоги в казахском языке. Алма-Ата, 1957
6. Kazımov Q. Müasir Azərbaycan dili, morfologiya. Bakı: Elm və təhsil, 2010, 400 s.
7. Кононов А.Н. Грамматика современного турецкого литературного языка. Изв. АН СССР, Москва-Ленинград, 1956, 570 с.
8. Сравнительно-историческая грамматика тюркских языков. Морфология. «Наука», Москва, 1988, 560 с.
9. Zeynalov F. Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı: Maarif, 1971, 312 s.

РЕЗЮМЕ

АЙТЕН АХМЕДОВА

ПОСЛЕЛОГИ С ГРАММАТИЧЕСКИМИ ОКОНЧАНИЯМИ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Единая мысль о принадлежности к какой – либо части речи таких слов, как *о, за счет, во время, на пути, за, вместо и др.,* используемых в Азербайджанском языке, отсутствует. В том числе, их принадлежность к послелогам принимается неоднозначно. Но из пояснений, описываемых в статье, становится ясно, что некоторые из них принимаются в качестве послелогов, а некоторые, отдалившись от основных частей речи, выполняют функцию послелогов. По нашему мнению, считается целесообразным воспринимать их в качестве послелогов, в связи с тем, что они, абстрагируясь в большей степени, отдалились от основных частей речи.

Ключевые слова: Азербайджанский язык, послелог,

грамматические окончания, лексическое значение, семантика послелога

SUMMERY

AYTAN AHMADOVA

GRAMMATIC INFLEXIONAL POSTPOSITIONS IN AZERBAIJANI LANGUAGE

There is no common idea about on, in this case, trough, meanwhile, for, instead of and other words used in Azerbaijani language refer to which part of speech, as well as it is not admitted exactly that they are postpositions. However, it seems clearly from explanations given the article that some of them already have stabilized as postposition, others have moved away main part of speech and have implemented the function of postposition. In our opinion , it is advisable to accept them mainly as postposition for moving away main parts of speech as a result of becoming extremely abstraction.

Key words: Azerbaijani language, postposition, grammatical inflections, lexical meaning, semantics of postpositions .

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

SEVİNC BAYRAMOVA
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitu
sevincbayram@mail.ru

İBN HACİBİN ƏRƏB DİLÇİLİYİ SAHƏSİNDƏ YAZDIĞI ƏSƏRLƏRİ VƏ “ŞAFİYƏ” SİNİN SƏRF ELMİNDƏKİ YERİ

Orta əsr Azərbaycan alimlərindən olan İbn Hacıb Ərəb dilçiliyi sahəsində yazdığı “Kafiyə” (sintaksis) və “Şafiyə” (morfologiya) əsərləri ilə daha çox şöhrət qazanmışdır. Alim məqalədə ələ aldığımız “Şafiyə” əsərini yazmaqla bu iki elm arasında bir sədd çəkmişdir. Bu sahədə ilk müstəqil kitab olan “Şafiyə” illərdir elm əhli tərəfindən bəyənilir, öyrənilir və buna əsaslanaraq bu sahədə müxtəlif kitabların yazılması üçün dəyərli bir qaynaq rolunu oynayır. Əsərin əlyazma nüsxələri Şərqdən Qərbə dünyanın hər tərəfinə yayılmışdır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda əsərin on yeddi ədəd əlyazma nüsxəsi mühafizə olunur.

Açar sözlər: İbn Həcib, Şəfiyyə, əlyzma, paleoqrafik təsvir, şərh, sərf, nəxf, arud

İbn Hacib adı ilə tanınan Əbu Əmr Cəmaləddin Osman bin Ömər bin Əbu Bəkr bin Yunus əd-Dəvini əl-Misri ən-Nəhvi Orta əsr Azərbaycan alimlərindəndir. İbn Hacibin əsli “Dəvin” və ya “Düveyn” qəsəbəsində yaşayan bir ailəyə məxsusdur. Yaqut əl-Həməvinin “Mucəmul-Buldan” əsərində “Dəvin Azərbaycan sərhədlərinin şərqində Tiflis yaxınlığında yerləsən və həmin dövürdə Arrana bağlı olan bir yerdir” deye məlumat verir. [8, 632]Sonralar ailəsi Əyyubilərlə birlikdə Misirə köçmüş və orada “İsna” və ya “Əsna” adlı balaca bir qəsəbədə məşkunlaşmışlar. İbn Hacib h. 570 (m. 1175)-ci ildə bu qəsəbədə anadan olmuşdu. Səlahəddin Əyyubi(öl.1193)nin “Əyyubilər” dövlətini qurduğu illərdə anadan olan İbn Hacib dörd il sonra təhsil almaq üçün atası ilə birıikdə İsnadan ayrılıb Qahirə şəhərinə gedir. O, uşaqlıq və gənclik illərindəki təhsilini burada alır. Alimin İbn Hacib adı ilə tanınması atasının məşhur komandir Səlahəddin Əyyubinin dayısının oğlu Əmir İzzəddin Musək əs-Səlahinin *(1169-1193)* hacibi (hökmdarın şəxsi xadimi, köməkçisi) olması ilə bağlıdır. [5, 250], [11, 616] Qeyd edək ki, alimin həyatı ilə əlaqəli ən mühüm məlumatları İbn Xəlliqan *(1211-1282)* vermişdir. Belə ki, İbn Xəlliqan İbn Haciblə görüşüb söhbət etmiş və onun haqqında əsaslı məlumalara sahib olmuşdu. Sonrakı dovrün alimləri İbn Hacib haqqında məlumatların daha çox qismini İbn Xəlliqana isnad edərək yazmışlar. İbn Xəlliqan alim haqqında belə deyir; “ Əbu Əmr, yəni İbn əl-Hacib hələ kiçik yaşlarından Qurani-Kərimi əzbərləmiş, İmam Malikin məzhəbini tutaraq, həmin məzhəb üzrə fiqhlə (İslam hüququ) məşğul olmuş, ərəb dili , təcvid, qiraət elmləri ilə maraqlanmış və tanınmış şəxsiyyət halına gəlmişdir. Dərin elmi

və yüksək axlaqi xüsusiyyətləri səbəbiylə bir çox alimin tərif və təqdirinə nail olmuşdur”. *[12, 178]* Dövrünün elmlərinə dərindən yiyələnən İbn Hacibin həyatı, elmi yaradıcılıq baxımından çox zəngin olmuşdur. O, Misir və Şam arasında çox səyahətlər etmişdir. Bu səyahətlər əsnasında zamanının məşhur alimləri ilə görüşüb və onlarla bir çox sahədə elmi müzakirələr aparmaq fürsətini də əldə etmişdi. Həmin alimlər arasında İbn Hacibin müəllimlərindən Əbu Muhəmməd Qasım Şatibi (1143-1194) , Əbu əl-Fəzl Muhəmməd ibn Yusif Qəznəvi (1202) ilə bərabər Qiyas bin əl-Faris əl-Ləhmi (1208), Hibətullah b. Əli əl-Busiri (1202), İbn Əsakir (1123), Əbyari (1221), Şazəli (1258) də olmuşdur. [1, 420] Qeyd edək ki, İbn Hacib qiraət elmini dövrünün tanınmış qiraət ustadlarından olan, əş-Şatibi, Əbu-l-Cud əl-Ləhmi və əl-Qəznəvidən almışdır. İbn Hacib təhsilini tamamladıqdan sonra. 1212-ci ildə “Fəzliyyə” mədrəsəsində ərəb dilçiliyindən (sərf və nəhv), eyni zamanda qiraət və başqa elmlərdən tələbələrə dərs demişdi. [10, 460] Yetişdirdiyi tələbələri arasında Cəmaləddin b. Malik (1273), əl-Malik ən-Nasiri (1257), ən-Nusaybi (1295), ər-Razi (1295) daha çox tanınanlardandır. İbn Hacib tanınmış ailədən olmasına baxmayaraq, daha çox əxlaqının gözəlliyi, sadəliyi və elminin yüksək olması ilə seçilib tanınır və hər kəs tərəfindən sevilirdi. O, sadəcə öz dövrünün deyil, eyni zamanda keçmiş dövrlərin mədəniyyəti və elmləri ilə də maraqlanırdı. İbn Hacib elm əhli tərəfindən mükəmməl əsərlər yazan bir alim olaraq qəbul edilmiş və şəxsiyyəti hər zaman yüksək qiymətləndirilmişdir. Şeyx Şəhabəddin Əbu Şamə İbn Hacib hakkında “Elm, əxlaq və fəzilət baxımından dövrünün yeganə adamıydı. Qabiliyət və bacarığı baxımından isə, elm adamlarının ən zəkalısı idi. O, son dərəcə etibarlı, kamil, təvazökar, çok həyalı, insaflı, elmi və elm əhlini sevən, elmi yayan, elm uğrunda əziyyətlərə qatlanan və çətinliklərə sinə gərən biri idi.” demişdi. [7, 176]. Alim haqqında digər fikir isə beədir. “ İbn Hacıb aləmin ən ağıllısı, ən bacarıqlısı idi.” [12, 178] O, sadəcə elmi ilə deyil, yüksək əxlaqı keyfiyyətləri ilə də ətrafındakılardan seçilirdi. İbn Xəlliqan “İbn Hacib diplom almaq məqsədi ilə mənim yanıma dəfələrlə gəldi, hər gəlişində ona ərəb dilinin ən çətin mövzularından suallar verdim. O, hər dəfəsində sakit və özünə güvənərək ən gözəl və doğru şəkildə cavablar verdi.” [6, 48b-49a], [7, 176] deyə bildirmişdir. İbn Hacib 26 şəvval h.646 (11 fevral 1249-cu il) da 74 yaşında Misirin İsgəndəriyyə şəhərində vəfat etmişdir. Alim *“Bəbu-l-Bəhr”* qəbristanlığında, Şeyx Salih bin Əbu Şamə türbəsinin yanında dəfn olunmuşdur. [5, 250]

İbn Hacibin müxtəlif elm sahələrində yazdığı dəyərli əsərlərin müəllifidir. Lakin, alim ən böyük məharətini Nəhv və Sərf elmində göstərmişdir. O, Orta əsrlərin böyuk dilçi alimlərindən sayılır. Belə ki, İbn Hacib Misir qrammatika məktəbinin XIII əsrdəki ən böyük nümayəndəsi hesab olunurdu. [13, 261] Ərəb dilçilik elmi sahəsində yazdığı əsərlərindən dolayı alim həmçinin “*ən-Nəhvi*” adı ilə də tanınmışdır. İbn Hacibin bu sahədə yazdığı əsərlərə nəzər salaq:

“ Əl-Kafiyə”. Bu əsər İslam Şərqində Nəhv mövzusunda ilk sirada gələn əsərlərdən biridir. Qeyd edək ki, ərəb dilçiliyi sahəsində yazılmış üç əsas kitab

var ki, bunlar Sibəveyhi*(767-809*)nin *"əl-Kitab"*ı, Zəməxşərinin*(1074-1144) "əl-Mufassal"ı* və İbn Hacib*(1174-1248)*in *"əl-Kafiyə"* əsərləridir. İbn Xalliqan İbn Hacib şöhrətini məhz "Kafiyə"sinə borclu olduğunu bildirir. Bu kitab İslam ölkələrində çox məşhur olmuş və başda İbn Hacib olmaqla hər dövrdə müxtəlif alimlər tərəfindən ona 100-ə yaxın şərh və haşiyələr yazılmışdır. Bunların içərisində ən məşhuru və çox bəyənilən şərh Molla Caminin *"Fəvaidu-z-Zuaiyyə"*si olmuşdur. Bu şərh uzun illər Osmanlı mədrəsələrində dərs kitabı olaraq tələbələrə oxudulmuşdur.

Şərh əl-Kafiyə. Bu İbn Hacibin öz əsərinə yazmış olduğu şərhdir.

Əş-Şafiyə. Əsər ərəb dilçiliyinin morfoloğiya bölümündən bəhs edir. İrəliqə bu əsər haqında geniş məlumat verəcəyik.

Əl-İzah fi-şərhi-l-mufassal. İbn Hacibin Zəməxşərinin *"əl-Mufassal"* əsərinə yazdığı şərhdir.

Əl-Muktəfi li-l-mubtədi şərhu-l-İzah li-Əbi Əli el-Farisi. Sibəveyhinin *"əl-Kitab"*ına alimin yazdığı şərhdir.

Əl-Əmali ən-Nəhviyyə. Müəllif əsərdə ayələri təfsir edərkən fiqhi məsələləri də diqqətdə saxlayıb. Eyni zamanda Quranda olan nəhvlə əlaqəli çətin məsələləri də açıqlamışdı. Əsərdə hədisləri açıqlayan alim, eyni zamanda məşhur ərəb şairi Mütənəbbinin şerlərindən bəzi beytlərin də izahlarını vermişdir.

İrab badı ayet əl-Kuran əl-Azim, Bu əsərdə Alim Qurani Kərimin müxtəlif ayələrini nəhv baxımından açıqlayıb, izahını vermişdir.

Əl-Vafiyə fi nəzm əl-Kafiyə; Şərh əl-Vafiyə nəzm əl-Kafiyə. Alim "Kafiyə"nin öyrənilməsi asanlaşdırmaq üçün onu nəzmə də çəkmişdi.

İbn Hacib ərəb dilçiliyinin sırf sərf (morfologiya) bölməsindən bəhs edən*"əş-Şafiyə"* əsərini yazmaqla bu sahədə ilk cığırı açmışdır. O zamana qədər ərəb dilçiliyindən bəhs edən əsərlərdə sərf və nəhv elmi bir yerdə ələ alınırdı. İbn Hacib isə, ərəb dilinin nəhv (sintaksis) bölməsindən bəhs edən *"əl-Kafiyə"* əsərindən sonra sərf (morfologiya) bölməsi ilə əlaqəli *"Şafiyə"* əsərini yazmaqla bu iki elmi bir-birindən ayırmışdır. İbn Hacib *"Şafiyə"*ni *"Kafiyə"*nin bacısı adlandırırdı. Belə ki, alim bunu əsərin müqəddiməsində özündən nəhv elmindən bəhs edən *"Kafiyə"* əsəri kimi sərf və imla qaydalarını əhatə edən sanballı bir əsər yazmasını tələb etdikləri üçün bu kitabı qələmə aldığını bildirmişdir. [3, 47b] Alim *"Şafiyə"* əsərində bu ayrılığı sərf elminin tərifini verdikdə bir daha açıqlamışdır.

التصريف علم باصول تعرف بها احوال ابنية الكلام التي ليست باعراب.

"Sərf, sözlərin formalarını İrab (sintaksiz (nəhv) hallar) olmadan öyrənən qaydalar elmidir."

Alimin xüsusi ilə nəhv elmi sahəsində bir çox həmkarı ilə fikir ayrıqları olmuş və onlarla sağlam elmi diskusiyalar aparmışdır.

İbn Hacib *"Şafiyə"* əsərini qələmə alanda məşhur alim Sibəveyhidən öz dövrünə qədər olan alimlərin əsərlərini və fikirlərini dəyərləndirmişdir. *"Şafiyə"* kitabı Sərf haqqında yazılmış əsərlərin xülasəsidir. Belə ki, alim

“əş-Şafiyə” kitabında *“əl-Kitab”*ın xülasəsini təşkil edən, *“əl-Mufassal”*da sərflə əlaqəli mövzuları bir araya gətirib onları müəyyən qruplara ayırıb, düzənləyib və lazım olan əlavələri etməklə onu mükəmməl səviyyəyə gətirmişdir. Əsər eyni zamanda özündən sonra da bu sahədə tədqiqat aparanlar, kitab yazanlar üçün əvəzsiz bir qaynaq olmuşdur. Hal-hazırda da bu kitab dərs vəsaiti olararaq tələbələrə tədris olunur. Əsərdən faydalanaraq onlarla sərf kitabı yazılmışdır. Həcm baxımından kiçik görünən bu əsərdə alim sərflə əlaqəli bütün qaydaları yığcam, bir-birinə uyğunlaşdıraraq ardıcıl şəkildə qeyd etmış və nizama salmışdır. Bu kitabda bu sahədə yazılmış digər kitablarda olduğu kimi müqəddimə və mövzu ilə əlaqəli geniş izahlar yoxdur. Əsər qısa və məzmunlu olması ilə seçilir. İbn Hacib “Şafiyə”sində bütövlükdə ərəb dilinin morfologiya bölməsini əhatə edən mövzuları iyirmi beş əsas başlıq altında toplamışdir. Kitabda mövzunun başlıqları verildikdən sonra, həmin mövzu qısa olaraq açıqlanmış və misallarla izah olunmuşdur. Müəllif “Sərf” elminin tərifini, isim və fel qəliblərini, vəzn və formalarını, mücərrəd-məzid (sadə və düzəltmə) qəliblər və onların mənalarını cox geniş şəkildə açıqlamışdı. Daha sonra isə, mazi (*keçmiş zaman*), muzari (*indiki zaman*), əmr, ism-i fail *(mübtəda*), ism-i məful (*tamamlıq),* ism-i təfdil (*üstünlük dərəcəsi*), sifət-i müşəbbəhə *(sifətin əlamətləri),* qəliblər, məsdərlər, zaman, məkan və alət isimləri, muşaqqar və mənsub *(təsirlik halda olan isimlər*), isimlərlə əlaqəli qaydalar, cəm şəkilləri, sözlərdəki hərflərin səs dəyişməsi ilə əlaqəli ibtida, vəqif, imalə, ilal, ibdal, ilal həzfi, tərhim həzfi, həmzənin istifadəsi və idğamla əlaqəli hərflərin məxrəc və sifətlərini geniş şəkildə açıqlayıb hər birini ayrı-ayrılıqda izahı verilmişdir. Burada eyni zamanda *“məsailu t-təmrin”* adlandırdığı bəzi düzgün və ya düzəltmə sözlərin vəzinlərinin təsbiti ilə əlaqəli çalışma və tapşırıqlar da yer almışdir. Alim bu mövzu ilə əlaqəli Zəməxşərinin *“əl-Mufassal”*ında olmayan, lakin, Sibəveyhinin *“əl-Kitab”*ı ilə İbn Cinninin *“əl-Münsif”, “ət-Tasrifu-l-muluki”* və *“Sirru sınati-l-İrab”* əsərlərində sərflə bağlı mövzulardan faydalanmışdır. Əsərin sonunda *“Xətt”* başlığı yer alır ki, bu da imla qaydalarından bəhs edən çox əhəmiyyətli bölmədir. Müəllif bu hissənin hazırlanmasında İbn Kuteybənin *“Ədəb əl-Katib”,* İbn Durustəvəyhin *“Ədəb əl-kuttab”,* İbn Cinninin *“əl-Məqsur və əl-Məmdud”*u ilə İbnu-d-Dəhhanın *“Babu-l-hica”* əsərlərindən faydalanmışdır. [4, 55] Qeyd edək ki, İbn Hacib “Şafiyə” əsərində qırx iki ayə, səkkiz şer və bir atalar sözunə də yer vermişdir.

İbn Hacib Misir qrammatika məktəbinin nümayəndəsi olmasına baxmayaraq *“Şafiyə”* əsərində Bəsrə qrammatika məktəbinin göruşlərini əsas götürməklə bərabər eyni zamanda Kufə və Bağdad qrammatika məktəblərinin də görüşlərinə də yer vermişdir. Belə ki, İsa b. Ömər əs-Səqəfi *(710-770),* Əbu Əmr b. Əla*(689-770),* Xəlil b. Əhməd *(718-791),* Yunus b. Həbib *(710-798),* Əbu Ubeydə ət-Teymi *(728-825),* Sibəveyhi *(öl.794 və ya 796)(Bəsrə qram. mək.)*, Əli b. Həmzə əl-Kisayi *(öl.805),* Yəhya b. Ziyad əl-Fərra *(761-822),* Əbu Osman əl-Mazini, *(Kufə qram. mək.),* İbn Keysan (öl.932), İbn Xaləveyh (öl.980), Əbu Əli əl-Farisi (901-987) və İbn Cinni (942-1002) *(Bağdad*

qramm. mək.) kimi böyük dilçi alimlərin görüş və fikirlərindən faydalanmışdır. [2, 288]

"Şafiyə" həcm baxımından qısa lakin, əhatəli olmasina baxmayaraq, başa düşülməsi də bir o qədər çətin əsərdir. Bu səbəbdəndir ki, başda alimin özü olmaqla bərabər onlarla elm əhli əsərə şərh və haşiyələr yazmışlar. Əsərə yazılan onlarla şərh içərisində orta əsr Azərbaycan alimlərindən olan Əhməd bin Həsən Çarpərdi(öl.1346)nin "Şərh əş-Şafiyə" əsəri daha çox bəyənilib rəğbət görmüşdür. Orta əsrlərdə məktəb və mədrəsələrdə ərəb dilçiliyi sahəsində ən çox tədris olunan kitablar arasında yer alan bu əsərin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda on yeddi ədəd əlyazma nüsxəsi mühafizə olunur.

"Şafiyə" əsəri müxtəlif ölkələrdə dəfələrlə çap olunmuşdur. Məsələn; ilk dəfə *1805-ci* ildə Hindistanın qərbi Benqal əyaləninin paytaxı olan Kəlkütə şəhərində nəşr olunub yayınlanmışdır. Sonralar isə müxtəlif yerlərdə *1824-cı ildə Bolaq (Tatarıstan),1842, 1880,1881, 1887, 1891, 1906-cı illərdə Qahirə,1850, 1861, 1871, 1885-ci illərdə Kanbur (Hindistan), 1851, 1890) , 1892, 1903 (daş basma), 1911-ci illərdə İstanbul, 1861, 1892, 1903-ci illərdə Dehli və 1278, 1912-ci illərdə Leknes (Norveç)də* nəşr olunmuşdur.

Əsərin əlyazma nüsxələri Şərqdən-Qərbə dünyanın hər tərəfinə yayılmışdır. *AMEA* M. Füzuli adına Əlyazmalar institutunda da İbn Hacibin *"əş-Şafiyə"* əsərinin yeddi ədəd əlyazma nüsxəsi vardır. Həmin nüsxələrdən iki ədədi (*B-5545/3490* və *B- 733/3282) XIX* əsrdə Azərbaycanın məşhur mətnşünaş, kitabşunas alimi Əbdülqəni Nüxəvi Xalisəqarızadə tərəfindən *h.1253(m.1837)* və *h.1264(m.1847)*-cü illərdə Şəkidə köçürülmüşdür. Fondda mövcud olan digər nüsxələrə də qısaca nəzər salaq. *A-550/20736* sifri altında qorunan əlyazma h.*1126(m.1714)*-cı ildə Yasin bin Eykam tərəfindən köçürülmüşdür. *B-2001/15600* sifrli nüsxə *h.1182(m.1865)*-ci ildə Türkiyənin Qars səhərində Əbdurrəhman tərəfindən köçürülmüşdür. Digər *B-47/5476* sifrli nüsxə *h.1079(m.1668)-cu* ilin Ramazan ayında köçürülüb. *A 532/20654* sifrli nüsxənin katibi, yazıldığı tarix və yer haqqında heç bir məlumat yoxdur. Bu nüsxələr arasında Şəki şəhərində köçürülən iki əlyazmadan birininin (*B-733/3282*) elmi-paleoqrafik təsvirinə geniş şəkildə nəzər salaq:

Əlyazma nüsxəsi Rusiya istehsalı olan ağ rəngli kağıza qara mürəkkəblə şikəstə və nəstəliq elementləri olan gözəl nəsx xətti ilə yazılmışdır. Mətində فعل' افعل' تفاعل' تفعل' (fəalə, əfalə. təfəalə, təfə'alə) babları və bəzi sözlər qara mürəkkəblə iri, qalın xətlə yazılmışdır. Mətndə sərf elmini əhatə edən mövzu başlıqları və " و" (vav) bağlayıcısı qırmızı mürəkkəblə yazılmışdır. Mətnin haşiyələrində göstərilmiş bəzi nüsxə fərqlərindən və yazılmış ayrı- ayrı izahlardan aydın olur ki, Əbdülqəni Nuxəvi Xalisəqarizadə bu mətni əsərin digər nüsxələri ilə müqayisəli şəkildə tədqiq etmişdir. Əlyazma həm Şərq həm də müasir üsulla səhifələnmişdir. Əsərin mətni məcmuənin *48b-71a* vərəqlərini əhatə edir. Əlyazma abidəsinin ölçüsü *17x22,5* sm. dir. Cildi Şərq medalyonları ilə bəzədilmiş, bağlamaq üçün əlavə dili olan tünd qəhvəyi rəngli dəridir. Əsərin əvvəli və sonu aşağıdakı kimidir.

Əvvəli: الحمد لله رب العالمين... اما بعد فقد سألني من لا يسعني مجالفته ان الحقَ بمقدَمتي في و اما الحروف فلم يكتب منها بالياءغير بل الي وعلي حتَي. تمت :Sonuالاعراب.... Bu əlyazma nüsxəsi görkəmli الشافية... . kitabşunaş, mətnşünas alim Əbdülqəni Nüxəvi tərəfindən *h.1264(m.1848)-cü* ildə Şəki şəhərində köçürülmüşdür. [9, 247]

“Sərf” elmi sahəsində ilk müstəqil kitabın müəllifi olan Azərbaycan əsilli Orta əsr alimi İbn Hacibin *“Şafiyə”* əsəri bu sahə ilə məşğul olan tələbə, müəllim və tədqiqatçılar üçün hər zaman dəyərli qaynaq olaraq qalır.

ƏDƏBİYYAT

1. Candemir Doğan. eş-Şafiye ile esasu-s-Sarfın karşıraştırmalı analizleri, Ekev Akademi dergisi, sayı 34, Ankara, 2008.
2. Dursun Hazer. Osmanlı medreselerinde Arapça öğretimi ve okutulan ders kitapları, G.Ü.Ç.İ.F.D.C.I, sayı 1, Çorm, 2002,
3. “Əş-Şafiyə”, Əlyazma B-733/3282.
4. Hulusi Kılıç. İslam Ansklopedisi, mad. İbn əl-Hacib, T.D.V., c. 21, İstanbul,1992,
5. إبن خلّقان- شمس الدين أحمد بن محمّد, وفيات الاعيان, المجلّدالثالث,بيروت, ١٩٧٠
6. إبن خلّقان- شمس الدين أحمد بن محمّد, وفيات الاعيان, المخطوطات – د- 65\10042.
7. أبو الفداء الحافظ ابن كثير, البداية و النهاية, ألجزء الثالث عشر و الجزء الرابع عشر, مكتبة المعارف, بيروت,١٩٨٨
8. ياقوت الحموي, معجم البلدان, المجلّد الثاني, تهران, ١٩٦٥.
9. Kamandar Şərifov. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə kitabxanasının Kataloqu, c. I. Bakı-Nurlan 2009.
10. محمد علي التبريزي, ريحانة الادب, الجزءان السابع و الثامن,ه١٣٤٩.
11. شمس الدين الصامي, قاموس الاعلام, الجلد الاول, إستانبول,١٨٨٩.
12. طاشكپري زاده أحمد أفندي, موضوعات العلوم, الجزء الاول, الاقدام, ش.١٣١١.
13. Vasim Məmmədəliyev. Ərəb dilçiliyi, Bakı, 1985.

РЕЗЮМЕ

БАЙРАМОВА СЕВИНДЖ

ПИСЬМЕННЫЕ РАБОТЫ НАПИСАННЫЕ ИБН ХАДЖИБИН В ОБЛАСТИ АРАБСКОГО ЯЗЫКОЗИОМИЯ И МЕСТО ЕГО ПРОИЗВЕДЕНИЯ «ШАФИЙА» В МОРФОЛОГИИ

Известный азербайджанский учёный Средних веков Ибн Хаджиб завоевал особую популярность после написания таких произведений, как «Кафийа»(синтаксис) и «Шафийа» (морфология). Автор, как бы, разграничил эти науки. «Шафийа» являясь первым самостоятельным

трудом, посвящённом морфологии, на протяженим многих лет изучается учёными. На основаниск этого произведения написано множество книг. Рукописи этого произведение были распространены по всему миру с Востока на Запад. В Институте Рукописей имени М. Физули при НАНА хранятся 17 экземпляров рукописи.

Ключевые слова: Ибн Хаджиб, Шафийа, рукопись, палеографическое описание, комментарий, сарф, нахф, аруд.

SUMMARY

BAYRAMOVA SEVINDJ

THE WRITINGS OF IBN HADJIB IN THE FIELD OF ARABIK LANGUAGE AND THE PLASE OF HIS WORKS IN THE GRAMMAR "SHAFIYAH"

Ibn Hadjib, one of medieval Azerbaijani scholars gained his fame because of his works on Arabic linguistics titled "Kafiyah" (Syntax) and "Shafiyah" (Morphology). The scholar made a differenciation between these two sciences by writing the book titled "Shafiyah", about what this article is. "Shafiyah", as the first independent work on this area, has been approved, studied and played an important source for writing of variety of books in this field by scholars over the years. The manuscripts of this book of him spread over the world from the East to the West. 17 copies of this composition have stored in the Institute of Manuscripts named after M.Fuzuli under ANAS.

Key words: Ibn Hadjib, Shafiyah, manuscript, paleographic description , commentary, sarf, nahv, arud

(Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ELMİRA HUSEYNOVA
“Naxçıvan” Universiteti
sedoniyaa@gmail.com

LİNQVO-FƏLSƏFİ PRAQMATİKA NƏDİR?

Praqmatizm Amerikan ideyasının fəlsəfəyə fərqli bir töhfəsidir. Bu cərəyan 20-ci əsrin əvvəllərində ortaya çıxmağa başladı, sonra tənəzzül etdi və əsrin sonlarına doğru yenə diqqət çəkməyə başladı. Praqmatizm fəlsəfi bir metod olaraq yaranmış və Çarles Sanders Pirs (1839-1914) tərəfindən elmə gətirilmişdir. Daha sonra dilçiliyin bir sahəsinə çevrilmişdir.

Praqmatikanın dilə müəyyən yanaşma tərzləri vardır. Məqalədə ümumi praqmatikdan deyil, yanaşma tərzlərindən biri olan Linqvo-fəlsəfi praqmatikdan bəhs edilir. Linqvo-fəlsəfi praqmatika dilin istifadəsi zamanı ortaya çıxan linqvstik hadisələri əsas götürərək danışanın nitqindəki mənanı araşdırır. Bu yazıda da yarandığı ilk dövrdən başlayaraq alimlərin linqvo-fəlsəfi praqmatika haqqında söylədikləri fikirlər əsas götürülmüşdür. Mövzuya praktiki nöqteyi-nəzərdən yanaşılmışdır.

Açar sözlər: praqmatika, dilçilik, linqvo-fəlsəfi praqmatika, diskurs, məna

1970-ci illərdə yaranan praqmatika dilçiliyin sahələrindən biridir və o insanların müəyyən bir situasiyada kommunikativ və ya nitq aktlarını necə yaradıb və dərk etdiklərini öyrənir. Praqmatika dilçiliyin yeni yaranan bir sahəsi olsa da, tarixi çox qədimə gedib çıxır. *Pragmaticus* sözü latın sözü olub qədim Yunanistan və Romada “praktik olmaq” mənasında işlənmişdir.

Praqmatika sahəsinin dilin istifadəsinə müxtəlif yanaşma tərzləri vardır və əksər praqmatik araşdırmalar, ikisi ənənəvi və bir yeni olmaqla, bu yanaşmalar ilə əlaqədardır: linqvo-fəlsəfi praqmatika, qarşılıqlı sosial-mədəni praqmatika və mədəniyyətlərarası praqmatika. Linqvo-fəlsəfi praqmatika dilin istifadəsi zamanı ortaya çıxan linqvstik hadisələri əsas götürərək danışanın nitqindəki mənanı araşdırır. Qarşılıqlı sosial-mədəni praqmatika təsdiq edir ki, praqmatika həmçinin ünsiyyət zamanı ortaya çıxan sosial və mədəni fərqləri öz tədqiqat sahəsinə daxil etməlidir. Fəlsəfə meyilli praqmatika və müxtəlif mədəniyyətlər arasında ünsiyyət üzrə aparılan tədqiqatlar arasındakı əlaqə mədəniyyətlərarası praqmatikanın inkişafına şərait yaratmışdır. Onun tədqiqat sahəsinə dünya üzərində istifadə edilən dillərin ünsiyyət funksiyası və rolu daxildir. Mədəniyyətlərarası praqmatika mədəniyyətlərarası əlaqənin xarakteristikasına xüsusi fikir verərək bu iki ənənəvi yanaşmanı birləşdirərək vahid izah sistemi yaratmağa çalışır.

Linqvo-fəlsəfi praqmatika

Dilşünaslıq tədqiqatlarının bir sahəsi kimi praqmatika ilk dəfə Moris, Karnap və Pirs tərəfindən 1930-cu illərdə irəli sürülmüşdür. Praqmatika məntiqi formadan kənar mənanın kontekstdən asılı aspektlərini öyrənir.

Praqmatikanın inkişafında atılmış ən əlamətdar addım 1967-ci ildə Pirsin Uilliam Ceymsin mühazirlərini üzə çıxarması olmuşdur. Praqmatikanın inkişafında dönüm nöqtəsi isə Qraysın verdiyi prinsip izahı və danışığın əlaqəli dörd düsturudur. ("Ünsiyyət zamanı fikir mübadiləsi məqsədi ilə tələb olunan töhvəni ver"). Real mənada praqmatikanın əsasını təşkil edən prinsiplərin tarixi qədim dövrün natiqlərinə qədər gedib çıxır. 4-cü əsrin natiqləri Donatus və Servius Qraysın məşhur "nə deyilir" və "nə nəzərdə tutulur" fikirləri arasındakı fərqləri təmsil edirdilər. Qraysın söhbət prinsipləri natiqlər tərəfindən istifadə olunublar. Dionisin Halikarnas əsərində "təbii prinsip" olaraq qeyd edilir ki, "söz sırasında zamanda erkən baş vermiş hadisələr sonra baş vermiş hadisələrdən əvvəl qeyd olunur". Qrays da "İntizamlı ol" prinsipi ilə "Onlar ailə qurdu və uşaqları oldu", "Onların uşaqları oldu və ailə qurdular" cümlələrinə istinad edərək fikir fərqlərini izah etməyə çalışıb. Kvintilianın qaydası olaraq qeyd olunan "nə kontekstin tələb etdiyindən çox danış, nə də az" fikri də Qraysın kəmiyyət prinsipi ilə əlaqəlidir. Həmin prinsipə əsasən Qrays qeyd edir ki, "nə tələb ediləndən çox məlumat ver, nə də az". (1, səh 87)

Qrays modelində danışanın deməd̈iyi, amma əgər fərqli situasiyada olsaydı, deyəcəyi ehtimal edilən fikirlər göstərilir. Baxmayaraq ki, Qraysın üzə çıxardığı Uilliam Ceymsin mühazirələri ilə əlaqədar bu fikir artıq bir əsr əvvəl deyilmişdir. Əsas fikir Con Stuart Milin Uilliam Hamiltonun some (bir az) əvəzliyini məntiqi cəhətdən "some only, some but not all" (sadəcə bir az, bir azı, hamısı yox) sözlərini eyniləşdirməyinə qarşı olaraq yazdığı qeydlərində də görmək mümkündür. (2, səh 99)

Milin qeyd etdiyi fikirlər öz dövrünün nümayəndələri tərəfindən dəfələrlə səsləndirilmişdir.O belə söyləmişdir: "Biz bötöv bir sinifdən bəhs ediriksə, *all* sözündən istifadə etməliyik, əgər *some* əvəzliyindən istifadə etsək, buradan o məna çıxır ki, biz bötöv sinfi deyil, onun xüsusi bir hissəsini nəzərdə tuturuq".Onun qeyd etdiyi prinsipə görə danışanın daha zəif təsir bağışlayan *some* (bəzi, bir az) əvəzliyini deyil də, əvəzləmək mükün olan yerlərdə ondan daha güclü təsir yaradan *all* (hamı, hamısı, bötöv) əvəzliyindən istifadə etməli və dinləyən bundan müvafiq nəticə çıxarmalıdır.

Məsələ: O, bir azını bilir və ya O, hamısını bilmir.

Mil və Monkun yaratdığı bu prinsip Stouson tərəfindən "Linqvstik davranışın ümumi qaydası" adı altında daha da təkmilləşdirilmişdir. O, Qraysa istinadən demişdir: "Daha böyük iddia irəli sürmək mümkündürsə, onun azı ilə kifayətlənməməliyik". Qraysın töhfəsi ünsiyyət zamanı ortaya çıxan mənanın təsirini əsaslandırmasıdır. Milin irəli sürdüyü fikirlər prinsiplərin istifadə olunması və danışanın ifadə etdiyi mənanın şərhi çərçivəsində səmərəlilik və həmsöhbətlərin qarşılıqlı məqsədinə əsaslanır. Sonrakı əsəri bu şərhin genişləndirilməsinə yönəlmişdir və burada leksik əlaqələr, məna dəyişiklikləri,

“nə deyilir” fikrinin xüsusiyyətləri və semantikanın rolu araşdırılır. (3, səh 34-35)

Son dövrlər məna mexanizminin öyrənilməsinə çoxlu əsərlər həsr edilmişdir. Həmin əsərlərdə mənanın necə işlənməsi və bunların praqmatika nəzəriyyəsi ilə əlaqəsi tədqiq olunmuşdur. Digər nəzəri tərəfdən isə mənanın yaradılmasında və bərpaedilməsində danışanın və dinləyənin qarşılıqlı təsiri oyun nəzəriyyəsi və iki istiqamətli optimallıq nəzəriyyəsi vasitəsi ilə təhlil edilmişdir.

Levinson (2000), Bax (2001) və Horn (1989, 2009) kimi alimlərin əsərləri Qraysın praqmatikasını daha da genişləndirmiş, həmçinin zənginləşdirmişdir. Mütənasiblik nəzəriyyəsi üzrə aparılan araşdırmalar idrak və ünsiyyət perspektivindən yanaşaraq praqmatikanı nəzərdən keçirmiş və tədqiqat obyekti kimi danışanın ifadə etdiyi məna və məqsəddən daha çox fikrin izahına yönəlmişdir. Mütənasiblik nəzəriyyəçiləri Qrays modelinin dörd düsturu, Levinsonun üç evristik, yaxud Hornun iki prinsipi əvəzinə birinin kifayət edəcəyi məsələsində mübahisə edirlər. Mütənasibliyin Komunikativ Prinsipi onların Optimal Mütənasiblik Prezumpsiyası verilən kontekst daxilində yaranan koqnitiv təsirlər və edilən cəhd arasındakı mübadiləyə əsaslanır. Linqvstik məna ilə müsbət məzmunun qeyri-müəyyənliyini vurğulamaqda yeni Qrays yanaşması ilə razılaşan mütənasiblik nəzəriyyəçiləri həmçinin məntiqi məzmunun (what is said-nə deyilir) daha geniş izahını vermişlərdir. Onlar praqmatik cəhətdən öhdəsindən gəlmək mümkün olmayan törəmə materialları klasik mənalara birləşdirməyə cəhd etmişlərdir. Praqmatik cəhətdən zənginləşdirilmiş məzmun izahla ifadə olunur. Mütənasiblik Nəzəriyyəsinin prizması bir çox praqmatik məsələni işıqlandırmağa kömək edir: kinayə, metafora və s. (4, səh 99-102)

Qaydalardan asılı olan mənanın aspektlərinin kontekstdən asılı araşdırma sahələrinə əvəzliklər, nitq aktları, fərziyyə, istinad, və məlumat strukturu daxildir. Ona görə deyilir ki, praqmatika ifadə olunan kontekst və linqvstik aktların araşdırılmasıdır. Nitq aktı nəzəriyyəsi əsas alt sahəni meydana gətirir. Artıq uzun müddətdir qəbul edilib ki, fikrin nəzəri məzmunu danışanın məqsədindən asılı olaraq fərqləndirilməlidir. Nitq aktlarının müəyyənləşdirilməsi və təsnifatının başlanğıcı Vitqensteyn, Ostin və Sirl tərəfindən qoyulub. “Beləliklə mən sənin lə ailə qurmağa söz verirəm” şəklindəki açıq ifadə olunan fikirdə danışan nəsə edir, yəni məqsədi tərəfindən təyin olunan bir hərəkət həyata keçirir, sadəcə nəsə bir söz demir. Ostinin fikrincə mənanın həqiqətən əsaslanan nəzəriyyəsi üçün bu cür hərəkətlər problem yaradır. Onlar adi həqiqət dəyərlərindən məhrum edilirlər. Digər bir fikir isə “Mən indi burdayam” cümləsindəki kimi hərəkətlər ifadə olunduqları zaman fikirlər buna uyğun olaraq özlərini təsdiq edirlər. Xüsusi linvstik əhəmiyyət kəsb edənlər isə dolayı nitq aktlarıdır. “Duzu mənə uzada bilərsən?” cümləsindəki kimi Yes-no (bəli-xeyir) cavabı tələb edən cümlələrdə standart olaraq çatdırılan bir tələb var. Fikirlər kimi fərziyyələr də praqmatikanın tərkibində məntiqi olmayan nəticəni təmsil edə bilər. Çünki semantik və ya məntiqi fərziyyərlər fikrin doğruluğu və ya səhvliyi üzrə zəruri şərt meydana çıxarır. Praqmatik fərziyyə məh-

dudiyyət yaradır. Onun zəif nöqtəsi və ya çatışmayan cəhəti həqiqətə əsaslanan fikirlərin ziddiyəti və ya iki-mənalılıq deyil, verilən kontekstdə ifadə edilən fikrin qeyri-müvafiqliyidir. (6, səh 25) Məsələ, But (amma, ancaq , lakin) və ya even (hətta) kimi diskurs hissəciklərindən istifadə etməklə şəxs əvəzliklərində 2-ci şəxsin təkini etik təsiri gücləndirmək üçün istifadə etmək olar.

Nitq aktları və fərziyyələr məntiqi səviyyədə, istinad isə fraza səviyyəsində fəaliyyət göstərir. İstinad zamanı dinləyicidə qarşıdakı insana uyğun olaraq, diskursun əqli modelinə əsaslanan fikir yaratmaq və ya onu qəbul etməyə sövq etmək üçün linqvstik ifadələrdən istifadə edir. Fəlsəfədə digər bir ənənəvi fikrə görə isə istinad ifadə edilən real dünya hadisələri və linvstik ifadələr arasında bir başa semantik əlaqədir. İnformatika və dilçilik üzrə araşdırma aparan tədiqatçılar danışanın və dinləyənin qarşılıqlı inanclarına əsaslanan bu əlaqəni izah etməyə çalışıblar. Bu fikrə əsasən istinad edilən ifadənin forması referentin məlumat səviyyəsindən asılıdır. Belə çıxır ki, o danışanın dinləyənin məlumat bazasına eləcə də, verilən kontekstdə iştirak edən oponentə uyğun olaraq irəli sürdüyü ehtimallardan asılıdır.

Hər bir dil istifadəçilərini istinadın müxtəlif yolları ilə təmin edir. İstinadın parqmatikası üçün iki sual meydana çıxır: a) verilən dilin istifadəçilərinə yaradılan istinad yolları hansılardır? b) danışan insana verilən kontekstə əsasən bu formalardan hansını istifadə etməli olduğunu göstərən amillər nələrdir? Danışanın istinad ifadələri (sıfır forma, əvəzliklər, qeydi-müəyyənlər, işarə əvəzlikləri, müəyyən təsvirlər, xüsusi isimlər) arasından etdiyi seçim diskurs tərəflərinin məlumat bazasından asılı olaraq məhdudlaşdırılır. Prinsin strukturuna görə tərəflər yeni diskurs və köhnə diskurs, yeni dinləyici və ya köhnə dinləyici olaraq təsnif olunurlar. Nunberq əsərində verdiyi cümlə ilə təxirəsalınan istinadda praqmatikanın rolunu izah etmişdir: The ham sandwich at Table 7 wants his check – 7-ci stolda donuz ətli sendviç sifariş verən müştəri hesabı istəyir. (5, səh 56-59)

Məlumat bazasının əsas aspektlərindən biri də müəyyənlik anlayışıdır. İngilis dilinin müəyyənlik artiklının mənası üzrə aparılan tədqiqatlar göstərmişdir ki, diskurs daxilində referent ya tanışdı, ya da dinləyənin məlumatı vardır. Tanış olduğunu fərz etsək, onda bilinməyən bir şey dinləyici tərəfindən diskurs modelinə uyğunlaşdırılmalıdır. Bu məsələ Horn və Abbot tərəfindən şərh edilib. Onlar bildiriblər ki, a və the artiklları arasındakı əlaqə Hovkins tərəfindən təklif olunmuş skalyar mənalardan biridir, yəni qeyri-müəyyənlik artiklından istifadə edən şəxs əslində göstərir ki, müəyyənliyi pozmadan həmin artıkldan daha güclü bir vasitədən istifadə edə bilməzdi.

Sintaksisin diskurs funksiyaları üzrə aparılan tədqiqatlar müəyyən müşahidələrə əsaslanır. Həmin müşahidələrə əsasən demək olar ki, hər dil öz istifadəçilərini eyni fikri ifadə etmək üçün müəyyən strukturlarla təmin edir. Yəni ifadə edilən fikir müxtəlif tipli cümlələr ilə fərqli başa düşülə bilər. Dildəki hər bir konstruksiya diskursda müəyyən funksiya ilə əlaqədardır. Aşağıdakı cümlələri nəzərdən keçirək:

(1) A) Ali ordered the cake - Əli tortu sifariş etdi.

b) The cake was ordered by Ali - Tort Əli tərəfindən sifariş edildi.
c) The cake, Ali ordered – Tort, Əli sifariş etdi.
d) It’s Ali who ordered the cake – Tortu sifariş edən Əlidir.

Eyni fikir müxtəlif cümlə quruluşları ilə ifadə olundu. Onların hər biri danışanın fikrini dinləyənə necə çatdırmaq istəməsindən asılı olaraq dəyişir. Məsələ, 1 c cümlə modelində danışan bilinən bir məlumatı çatdırır, yəni cümlə əvvəlki diskursa əlaqəlidir. 1 d cümləsində isə danışan inanır ki, dinləyən kiminsə tort sifariş etdiyini artıq bilir. 1 b cümlə modeli məçhul növ üzərində qurulub və burada diskurs daxilində bilinən məlumat bilinməyəndən əvvəl təqdim edilir. Bu cümlə quruluşları danışanın maksimum dərəcədə öz diskursunu formalaşdırmağa imkan verir. Bu yolla yeni məlumat dinləyənin bilik bazasına daxil edilir.

Mövzu, diqqət mərkəzi və verilən yeni məlumat diskurs praqmatika tərəfindən uzun müddət araşdırılıb. Xüsusuilə də, Praqa məktəbinin “funskional cümlə perspektivləri” tədqiqatından sonra bu geniş vüsət alıb. Roberts diskursun strukturunu formalaşdırmaqda “müzakirə edilən sualın” əhəmiyyətini vurğulamışdır. İnformasiya strukturuun terminoloji ardıcıllığını yaratmaq üçün edilən təşəbbüslərdən biri 1998 –ci ildə Krifkada verilmişdir. Həmin yazıda diskurs təhlilinin geniş perspektivləri haqqında məlumat verilmişdir.

ƏDƏBİYYAT

1. CARASSA, Antonella and Marco COLOMBETTI (2009), Joint meaning, *Journal of Pragmatics* 41, p. 1837-1854.
2. CHAPMAN, Siobhan (2005), *Paul Grice : Philosopher and Linguist*, Basingstoke, Palgrave.
3. GAZDAR, Gerald (1979), *Pragmatics*, New York, Academic Press.
4. Alessandro CAPONE, Franco LO PIPARO, and Marco CARAPEZZA (Eds.), *Perspectives on Pragmatics and Philosophy*, New York, Springer.
5. HORN, Laurence (2012a), Implicature. In Gillian RUSSELL and Delia GRAFF FARA (Eds.), *The Routledge Companion to Philosophy of Language* , New York, Routledge.
6. HORN, Laurence (2012b), Implying and inferring. In Keith ALLAN and Kasia JASZCZOLT (Eds.), *The Cambridge Handbook of Pragmatics* , Cambridge, Cambridge University Press.

РЕЗЮМЕ

ЭЛМИРА ГУСЕЙНОВА

ЧТО ТАКОЕ ЛИНГВО-ФИЛОСОФСКАЯ ПРАГМАТИКА?

Прагматизм - это вклад американской идеи в философию. Это движение начало появляться в начале 20-го века, затем распалось, но к концу века снова начали привлекать внимание. Прагматизм возник как философский метод и был доведен до науки Чарльзом Сандерсом Пирсом (1839-1914). Впоследствии он стал полем лингвистики. Область

прагматики включает в себя множество подходов к использованию языка. В статье затрагиваются не общие прагматики, а лингво-философская прагматика - один из подходов к языку. Лингво-философская прагматика стремится исследовать значение говорящего в рамках основанной на высказываниях, в основном ориентированной на лингвистические ограничения на использование языка. Здесь в этой статье основной сферой внимания является лингвистико-философский подход ученых к языку и их концепция с начального периода, когда возникали прагматики.

Ключевые слова: прагматика, лингвистика, лингво-философская прагматика, дискурс, смысл

SUMMARY

ELMIRA HUSEYNOVA

WHAT IS LINGUISTIC-PHILOSOPHICAL PRAGMATICS?

Pragmatism is the contribution of American idea into the philosophy. This movement started to appear at the beginning of the 20th century, then fell into decay, but towards the end of the century again commenced to draw attention. Pragmatism arose as a philosophical method and was brought to the science by Charles Sanders Piers (1839-1914). Afterwards it turned a field of the linguistics.

The field of pragmatics includes a great variety of approaches to language use. The article touches on not general pragmatics, but linguistic-philosophical pragmatics – one of the approaches to the language. Linguistic-philosopical pragmatics seeks to investigate speaker meaning within an utterance-based framework focusing mainly on linguistics constraints on language use. Here in this writing the main sphere of focus is the scientists' linguistic-philosophical approach to the language and their conception from the initial period that pragmatics occured.

Key words: pragmatics, linguistics, linguistic-philosophical pragmatics, discourse, meaning

(*Filologiya üzrə elmlər doktoru, prof. S.Həsənova tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ÜLKƏR ƏLİYEVA
AMEA Folklor İnstitutu
u.aliyevab@mail.ru

NOVRUZ BAYRAMININ QƏDİM MİDİYA VƏ ŞUMERƏ UZANAN KÖKLƏRİ

Məlum olduğu kimi, Novruz bayramı Şərqi xalqlar arasında, o cümlədən türk xalqları arasında tanınır və yayılır. Elmi ədəbiyyatda Novruz bayramının kökləri haqqında bir çox spekulyasiya var. Məqalədə bu yaz bayramının kökləri haqqında bəzi fikirlər araşdırılır. Bu məqalədə Şərqin təqvim tənzimlənməsinin mənbələri və kökləri haqqında ətraflı təsəvvür yaratmaq cəhdləri qoyulur. Müəllif yazılı ədəbiyyatın ətraflı materialına əsaslanaraq Novruz bayramının Midiya və Şumer köklərini göstərir.

Açar sözlər: Novruz, bayram, Midiya, Şumer, yazılı ədəbiyyat

İ. Nəsimi şeirlərinin birində Novruz bayramında ifa edilən «Rast» muğamın və onun iki guşəsinin adını çəkir:

“Üşşaq” meyindən qıla ol işrəti - “Novruz”,
Ta “Rast” gələ “Cəng”i-“Hüseyni” də sərəfraz (1, s. 113).

Məlum olduğu kimi, «Rast» muğamında «Mayeyi-Rast»dan sonra «Üşşaq» (mənası «aşiqlər», «aşiq-məşuq» deməkdir) və «Hüseyni» (ərəbcə gözəl mənasındadır) guşələri gəlir. «Rast» dəstgahının mayəsində ifa olunan bu guşə, yəni «Uşşaq» dəqiq ölçülərə əsaslanaraq (2/4və ¾), üç müxtəlif melodiyadan ibarətdir. «Üşşaq» guşəsilə «Vilayəti» şöbəsi arasındak ı musiqi parçası isə «Hüseyni» adlanır (2, s. 21-22).

Təqdim olunan misralardan belə aydın olur ki, Novruz bayramında «Üşşaq» və «Hüseyni» guşələrinin ifa edilməsi ənənəsi XIV əsrdə də mövcud imiş. Maraqlıdır ki, “Üşşaq” 12 muğamdan birincisi olan «Rast»ın guşələrindən biri olub, eyni zamanda “Novruzi-bozork” (böyük novruz) adlanır (3, s. 25). Bu guşənin bilavasitə Novruzla əlaqələndirilməsi, eləcə də sözügedən muğam guşəsinin adının «aşiq və məşuq», «aşiqlər» anlamlarına gəlməsi, bizcə, təsadüfi deyil və haqqında bəhs etdiyimiz bayramla bağlı artıq çoxdan unudulmuş bir ənənənəyə işıq salmaq baxımından maraqlı ip ucu verir. Məsələ burasındadır ki, Strabon Novruzun hələ qədim Midiyada qeyd edildiyindən söhbət açaraq çox maraqlı bir məlumat verməkdədir. O özünün «Coğrafiya» adlı əsərində bildirir ki, Midiyada nikahlar baharda gecə ilə gündüzün bərabər olduğu vaxtda kəsilir, adaxlı dəvə beyni və alma yedikdən sonra nikaha daxil olur (4, s. 681).

Deməli, qədim Midiyada gənclər nikaha Novruz bayramında, yəni baharda gecə ilə gündüzün bərabər olduğu vaxtda girərmişlər. Bu fakt bizə Novruz bayramının genezisini dəqiqləşdirmək baxımından çox dəyərli mənbə

verir. Çox güman ki, subay oğlan və qızların adaxlanmaq və ya evlənmək məqsədilə bəxtlərini sınamaq üçün məhz Novruz günü icra edilən qulağagetmə ayini (16, s. 127) də dolayısı ilə bu inanc sisteminin bir parçası olmuşdur.

Bir çox Şərq xalqlarının, ilk növbədə də türk xalqlarının hər il mart ayında sevə-sevə keçirdikləri Novruz bayramının təşəkkülü və tarixi ilə bağlı bir çox mülahizələr irəli sürülmüşdür. Bəziləri onu zərdüştiliklə, bəziləri isə İslamla, daha dəqiq desək, Həzrət Əlinin doğum günü ilə bağlamağa çalışmışlar.

Novruz bayramının mənşəyi ilə bağlı bir sıra xalqlarda müxtəlif məzmunlu rəvayətlər mövcuddur. Məsələn, farslara aid bu rəvayətlərdən biri əfsanəvi İran hökmdarı Cəmşidin Güney Azərbaycana gəldiyi günlə bağlıdır. Rəvayətə görə, Cəmşid Azərbaycana gəldiyi gün bura onun çox xoşuna gəlib, o, böyük bir taxt qurduraraq yaraşıqlı bir libas geyib taxta oturmuş, bu vaxt doğan günəş taxta və başındakı taca düşərək ətrafı işığa qərq etmişdir. Bu şöləni görən xalq həmin günü bayram etmişdir (9, s. 342).

Bu əfsanə Novruzun farslara məhz Azərbaycan, başqa sözlə, Midiya əhalisindən keçmiş ola biləcəyini düşünməyə ciddi əsas verir. Və belə düşünmək üçün əlimizdə başqa bir dolayı fakt da var. Məsələ burasındadır ki, Midiyada qeyd edilən Novruz ənənəsindən söz açan Strabon bir çox adət və ənənənin farslara midiyalılardan keçdiyini yazmışdır: «Deyilənlərə görə, midiyalılar ermənilərin, onlardan daha öcnə isə farsların adət-ənənələrinin əsasını qoyanlardır. Farsların ox atmağa, at minməyə, şahlara qulluq eməyə olan həvəsləri və geyimləri midiyalılardan qaynaqlanır. Tiara, kitara, uzunqollu xiton, yun papaq və şalvar midiyalılardan farslara keçmişdir. Bu da təbiidir. Çünki bu cür geyimləri midiyalıların ölkəsi kimi soyuq ölkələrdə geyinmək daha rahatdır» (17, s. 119).

Cəmşidin «Novruz»u ilə bağlı Firdovsi özünün "Şahnamə"sində də qeyd edir:

Edib Cəmşidə Gövhər nisar,
Belə bir günə Novruz adı qoydular "
Təzə il başı Hürmüzi fərvərdin,
Başa çatdırıb yerdəki zəhmətin
Belə şanlı bayram neçə əsr var,
Qalıbdır o şahdan bizə yadigar (10, s. 50).

Digər bir İran rəvayəti də odun Cəmşid tərəfindən kəşf edilməsi ilə bağlıdır (8, s. 6-7).

Maraqlısı budur ki, orta əsr müəlliflərinin bəziləri də Novruz bayramını Pişdadilər sülaləsinin hökmdarlarından biri olan Cəmşidin adı ilə bağlayırlar. Məsələn, İbn Miskəveyh, Təbəri və İbn əl-Bəlxi kimi orta əsr müəllifləri Novruzu Cəmşidin yaratdığını söyləyirlər (11, s. 99). Nizami və Xaqani kimi böyük şairlərimiz də öz yaradıcılıqlarında bu fikrə şərik çıxırlar. Bu xüsusda dahi şair Nizami Gəncəvinin təsviri də maraq doğu-rur: «Firudin bayramında, Cəmşid novruzunda şadlıq cahandan qəmin adını silib apardı. Firudin bayramı

«Mehrikan»dır. Novruz Cəmşidin adı ilə əlaqələndirildiyi kimi, «Mehrikan» da Firudin adı ilə bağlı idi» (12, s. 126).

Novruz bayramını İslam dini ilə bağlayan rəvayətlər də az deyil. Bu rəvayətlərə görə, Allah dünyanı gecə ilə gündüzün bərabər olduğu Novruzda yaratmışdır. Novruz Adəmin palçıqdan yoğurulduğu, Adəmlə Həvvanın görüşdüyü, Yusif peyğəmbərin quyudan qurtarıldığı, Musa peyğəm-bərin əsası ilə Qırmızı dənizi yararaq tərəfdarlarını qurtardığı gündür və s. islamiyyətə görə, Novruz Həzrəti Məhəmmədin Pey-ğəmbər olduğu gündür. Şiə türklərinə görə, Novruz Həzrət Əlinin peyğəmbər tərəfindən xəlifə olaraq elan edildiyi gündür (8, s. 11-13). Ələvi-Bəktaşilərə görə, Həzrət Əli Novruz günündə doğulmuş və Hz. Fatma ilə bu gündə evlənmişdir. Hz. Həsən və Hz. Hüseynin doğulduğu və Kərbala müsibətinin olduğu gündə Novruz hesab edilir (15, s. 152-155).

Azərbaycanda isə tədqiqatçılar arasında Novruz bayramının genezisi ilə bağlı iki fikir dominantlıq təşkil edir. Bunlardan biri bu bayramın yazın gəlişini simvolizə edən mövsümi, digəri isə zərdüştlüklə bağlı bir bayram kimi şərh edilməsi ilə bağlıdır. Lakin son dövrlər bayramın köklərinin əski mifoloji təsəvvürlərlə bağlılığı haqqında fikirlər də səslənir. Məsələn, N. İsmayılov bildirir ki, Novruz bayramının sadəcə yazın gəlişi ilə əlaqəli olması fikri ağlabatan deyildir. Onun fikrincə, Novruzun yalnız bahar bayramı kimi qeyd olunması elmi cəhətdən özünü doğrultmur. Yəni insanlar təbiətin oyanmasını, yazın gəlişini, hər il təkrarlanan mövsümi bir prosesi heç vaxt əbədiyaşar bayrama çevirməzdi. Alim bu bayra-mın köklərini əski mifoloji təsəvvürlərdə öz əksini tapmış insanın dörd ünsür vasitəsilə yaradılması ritualı ilə əlaqələndirir (14). Digər bir tədqiqatçı N. Quliyev hesab edir ki, Novruz mərasimlərinə daxil olan su, od, yel və torpaq çərşənbələrinin bayram edilməsi ənənəsi isə ritual-mifoloji semantikasına görə birbaşa yaradılışı simvolizə etməkdədir (13, s. 104). Onun fikrincə, lap qədimlərdən insanların bu elementlərlə sıx təmasda olması, həyatın bilavasitə onlardan asılı olması fikri həmin elementlərin kultlaşdırılması barədə təsəvvürlərin yaranmasına gətirib çıxarmış və bunun nəticəsində də onların yaradılışda ilkin substansiya kimi iştirakına inam formalaşmışdır (13, s. 104).

B. Tuncay isə bayramın tarixinin şumerlərə qədər uzandığını və bu tarixi sevgi tanrıçası İninninin də əsas personajlarından biri olduğu bir mifoloji süjetlə bağlamaqdadır. O yazır ki, «sözügedən bayram barədə ilk yazılı mənbə 5 min il öncəyə aid şumer mətnləridir ki, bu mətnlərdən eyni bayramı martın 21–də şumerlərin qeyd etdikləri və bu bayramın məhsuldarlıq və cobanlar tanrısı Dumuzunun şərəfinə keçirildiyi məlum olur. Şumerlər həmin bayramı eyni tanrının adı ilə Dumuzu bayramı adlandırırdılar. Bununla bağlı ayrıca bir mifik süjet də var idi və həmin süjet barədə Lipin və Belov birgə qələmə aldıqları “Gil kitabələr” adlı kitablarında məlumat verməkdədirlər. Süjetin qısa məzmunu belədir: «Yeraltı ölülər dünyasının hakimi Ereşkiqal məhsuldarlıq və çobanlar tanrısı Dumuzunu öz qaranlıq dünyasında əsir edir. Bu səbəbdən də yer üzündə bütün çiçəklər solur, ağacların yarpaqları tökülür. Sevgi tanrısı İninni sevgilisi Dumuzunu xilas etmək üçün yeraltı dünya-ya enir, 7 qapı keçir

və uzun sərgüzəştlərdən sonra Dumuzunu əsirlikdən xilas edir. Bu martın 21-də baş verir. Həmin gün ağaclar yenidən çiçək açır, təbiət oyanır» (5, s. 111).

Beləliklə, təbiətin oyanışı ilə bağlı olan bayramın qədim Azərbaycanda, daha dəqiq desək, Midiyada nədən həm də gənclərin nikaha girdiyi gün olmasının səbəbi aydınlaşır. Eyni zamanda Novruz bayramının genezisi barədə B. Tuncayın gəldiyi nəticə bir daha təsdiqini tapmış olur.

Əgər gələcəkdə muğamların, o cümlədən Rast muğamının, eləcə də onun guşələrinin Şumer dövründə yarandığı barədə R. İmraninin irəli sürdüyü nəzəriyyə (6) tam sübut olunarsa və təsdiqini taparsa, bu, Novruz bayramının genezisi məsələsinə bir daha aydınlıq gətirmiş olar.

Şumerlərin «Novruz»u bilavasitə çobanlar tanrısı Dumuzunun adı ilə bağlı olmuşdur. Bir sıra mənbələr, o cümlədən «etnoqrafik məlumatlar, ayrı-ayrı memuarlar, xatirələr, bədii ədəbiyyat materialları göstərir ki, qədim Azərbaycanda bahar mövsümü ərəfəsində, ümumiyyətlə, heyvandarlıqla məşğul olan əhalinin həyatında, məişətində böyük canlanma baş verir» (8, s. 16) və baharın gəlişi müxtəlif ayinlərlə anılırdı. Qədim Cin mənbələrində də heyvandarlıqla məşğul olan əski turk xalqlarının yeni ili baharda, martın 21-də bayram etməsi ilə bağlı faktlar vardır (8, s. 60-61).

Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" əsərində əski türklərin on iki heyvanlı təqvimi ilə bağlı izahında Novruzla yazın gəlməsinə işarə edilərək yazılmışdır: "... türklər ili dörd fəslə bölərək ad verirlər. Hər üç ayın bir adı var, ilin keçməsi bununla bilinir. Novruzdan sonra yaza "oğlak ay", sonra "uluğ oğlak ay" deyilir" (7, s. 356).

Şumerlərin «Novruz»u təkcə çobanlar tanrısı Dumuzunun adı ilə bağlı deyil. Bayramın əsasında duran mifoloji süjetin əsas iştirakçılarından biri də sevgilisini - Dumuzunu qaranlıq dünyadan xilas edən və onunla nikaha girən sevgi və doğum tanrıçası İninnidir. Bu tanrıçanın üzərinə qayıtmağımız əbəs deyil. Çünki düşünürük ki, körpə uşaqların beşiyi başında oxunnan ninnilər qədimdə bu tanrıça ilə əlaqədar olmuşdur, bugünə kimi etimologiyası məlum olmayan «ninni» sözü də tanrıçanın adının bir qədər təhrif edilmiş formasıdır.

Şumer izlərini nağıllarımızda da görmək mümkündür. Belə ki, qədim şumer mənbələrinin yazdığına görə, Kiş sülaləsinin və Şumer dövlətinin ilk hökmdarı Etana olmuşdur. Bu adın bir türk adı olduğu, Anadolunun bir parçasında bir müddət bəylik etmiş türk sülalələrdən birinin Eretana oğulları adlandığı məlumdur. Qədim şumerlər Etana ilə bağlı bir dastan da qoşmuşdular və bu dastanın süjeti Azərbaycanda çox məşhur olan Məlikməmməd nağılının süjeti ilə ağlasığmaz dərəcədə üst-üstə düşür. Dastanda əbədi həyat çiçəyini tapmaq qərarına gələn Etana şah tanrıların məsləhəti ilə yola çıxır və bir quyuya düşür. O orada balaları qartal tərəfindən yeyilmiş ilanın həmin qartalla döyüşünün şahidi olur və ilanı öldürür. Etana qartalın belinə minib göyə qalxır. Göyə qalxanda Etana ilə qartal arasında dialoq baş verir. Quş qəhrəmana yerə baxmağı və onun nəyə oxşadığını təsvir etməyi təklif edir. Etana yeri öncə xəlbirlə, sonra çörəklə müqayisə edir (25, s. 128).

Qeyd etmək lazımdır ki, istər tarixçilər, istər sənətşünaslar, istər arxeoloqlar, istər dilçilər, istərsə də folklorşünas alimlər şumerlərlə türklər, o cümlədən Azərbaycan arasında müəyyən bağların olduğu fikrində, demək olar ki, yekdildirlər. Məsələn, görkəmli tarixçi alim, qədim Şərq dillərinin gözəl bilicisi Yusif Yusifov şumerlərin daşıdığı və qonşuları tərəfindən onlara şamil edilmiş bütün adlara sonrakı minilliklərdə də türk soy və boyları içərisində rast gəlindiyini xüsusi qeyd etmişdir (17, s. 85).

“Bibliya təpələri” kitabının müəllifi, qədim Şərq tarixinin böyük bilicisi Erix Tseren vaxtilə yazmışdır: «Alimlərin çoxu şumer dilini türk dili saymış və bu gün də saymaqda davam edirlər» (23, c. 193).

Sənətşünas alim N. Rzayevin sözlərinə görə, qədim mədəniyyət və incəsənətimizdə şumer izlərinə həm Cənubi, həm də Şimali Azərbaycanda rast gəlinir. Bu izlər qədim azərbaycanlıların şumerlərlə qaynayıb qarışmasının, etnik yaxınlığının bir əlaməti kimi də çox maraqlıdır (24, s. 67).

B. Tuncay yazır ki, şumerlər Messopatamiyanın, yəni İkiçayarasının adı elmə məlum ən qədim xalqı idi. Onlar bu əraziyə kənardan gəlmişdilər. Belə hesab edilir ki, eramızdan əvvəl IV minilliyə aid edilən əl-Übeyd, eradan əvvəl 3000-2800-ci illərə təsadüf edən Uruk və eradan əvvəl 2800-2600-ci illəri əhatə edən Cömdət - Nəsr mədəniyyətləri bu xalq tərəfindən yaradılmışdı.

Ayrı-ayrı alimlər şumerlərin Messopatamiyaya, başqa sözlə, İkiçayarasına Anadoludan, Şərqi Qafqazdan, yəni Şimali Azərbaycandan, Cənubi Azərbaycandakı Urmiya gölü sahillərindən, eləcə də Cənubi Türkmənistandan köçüb gəldikləri barədə fikirlər irəli sürmüşlər. Bu da təbiidir. Cünki alimlər həm Anadolu, həm Azərbaycan, həm də Cənubi Türkmənistan ərazilərində şumer mədəniyyəti ilə üst-üstə düşən mədəniyyətin izlərinə rast gəlmişlər.

Şumer mədəniyyətinin görkəmli tədqiqatçılarından biri, tanınmış arxeoloq Samuel Kramer özünün “Tarix Şumerdən başlayır” adlı kitabında şumerlərin İkiçayarasına Cənubi Azərbaycanda yerləşən Urmiya gölü sahillərindən köçdüyünü, bunun eradan əvvəl lV minillikdə baş verdiyini yazmaqdadır (17, s. 85).

D. Rederin sözlərinə görə, Şumerlərin dili ayrıca bir dildir. Bizə məlum olan dillərlə onu bağlamaq hələlik əsaslı və mübahisəsiz nəticələr verməmişdir. Yalnız onu qəti demək olar ki, o, iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər (22, c. 15). Q. Vinkler isə bildirmişdir ki, bizə gəlib çatmış şumer mətnlərinin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də, dünyada ən qədim mədəni dil olan şumer dilinin ümumi xarakteri barədə bizdə yetərincə təsəvvür yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi quruluşlu dildir və sami dillərinin quruluşundan tamamilə fərqlənir (21, c. 6-7).

Tanınmış qazax ədibi və tədqiqatçısı Oljas Süleymenov belə hesab edir ki, qədim mixi yazılarda qeyri-dəqiq ifadə olunmuş şumer vokal sisteminin bərpası məsələsində müasir türk dili materialı ilə müqayisənin böyük əhəmiyyəti vardır. Onun fikrincə, bu halda U-Ü və A-Ə qarşıdurması nəzəri cəlb edir. O, şumer cingiltili samitlərinin bir qayda olaraq türk kar samitlərinə uyğun gəldiyini söyləyir (17, s. 90-91).

Görkəmli dilçi alim A. Məmmədov özünün "Şumer-Türk leksik paralelləri" adlı məqaləsində dillərin yaxınlıq səviyyəsini müəyyənləşdirməkdə leksik qatın əvəzsiz rol oynadığını nəzərə alaraq, şumer dili ilə türk dillərinin genetik bağlılığını sübut edən 120 leksik paraleli misal gətirmişdir (20, s. 5-6).

Şumer-türk paralellərinin və bu paralellər əsasında genetik qohumluq əlaqələrinin üzə çıxarılması sahəsində professor Tofiq Hacıyevin əməyi də yüksək qiymətləndirilməlidir. O, istər fonetika, istər leksika, istər morfologiya və istərsə də sintaktik quruluş baxımından böyük maraq doğuran paralelləri üzə çıxara bilmişdir (19, s. 22-23).

Bu sahədə A. Acalov, M. H. Tantəkin, İ. Sadıqov və B. Tuncay kimi folklorşünas alimlərin gördüyü işləri də unutmamaq lazımdır. Onlardan sonuncusunun «Bilqamıs» dastanındakı türk adət və ənənələrinin izlərinin araşdırılması sahəsindəki işi mövzumuz baxımından daha böyük maraq kəsb edir. Fikrimizi onun üzə çıxartdığı bir maraqlı paralellə tamamlamaq istərdik.

Alim yazır ki, bu gün Azərbaycanda, eləcə də digər türk ölkələrində bir kəsi yola salarkən arxasınca su atmaq adəti yaşamaqdadır. Belə hesab olunur ki, yolçunun arxasınca su atmaq yolun uğurlu olmasına kömək edir. Şumer ədəbiyyatının şah əsəri olan "Bilqamıs" dastanında eyni adət və inancın izlərinə rast gəlinmişdir. Bu isə o deməkdir ki, yola çıxan adamın ardınca su atmaq adətinin ən azı 5 min il yaşı var (17, s. 96):

Sabunlu köklər ilə bədənini yudu o.
Öz qamətinə layiq gözəl paltar geydi o.
Sinəsinə yaraşan boyunbağı da asdı
Belinə qurşaq vurub, başına tac qoydu o.
İgidlərin ardınca bir cam təmiz su atdı.
Pillələrlə çıxıb o evin damına qalxdı (18, s. 32).

Bütün bu deyilənlər bir daha sübut edir ki, Növruz bayramının genezisinin ilkin ocağını qədim Midiya və Şumerdə axtarmaq lazımdır.

ƏDƏBİYYAT

1. Nəsimi İ. İraq Divanı. Bakı, Yazıçı, 1987.
2. Axundov İ. Azərbaycan muğamları. Monoqrafiya. – Bakı: Mütərcim, 2015. – 96 səh.
3. Əsgər Əhməd. " XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti". Bakı-2012, "Elm" nəşriyyatı, 372 səh.
4. Страбон. География в 17 книгах. Перевод, статья и комментарий Г.А. Стратановского. М., Изд-во Наука, 1964.
5. Tuncay B. Etnoqonik miflər (ümumtürk materialları əsasında). Bakı, "Nurlan", 2013, 308 səh.
6. İmrani R. Muğam Şumerdən başlanır. Elm, 2000.
7. Kaşğari M. "Divanü lüğat-it-Türk". Dörd cilddə, II cild (Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər), Bakı, "Ozan", 2006.
8. Fərzəliyev T. Azərbaycan folklorunda xalq dram və oyun tamaşaları. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VII kitab. B.: Elm, 1987 s. 3 – 39.

9. Köprülü M.F. Nevruza aid. Hayat Mecmuası, c.I. Sayı:18 (mart 1927).
10. Şərəfxanlı N. Dədə-Qorqud jurnalı “Ərgənəkon Bayramı Novruz” Bakı: 2003.
11. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. B.: Elm, 1985.
12. Bunyadova Ş. Nizami və etnoqrafiya. B.: Elm, 1992.
13. Qurbanov N. Novruz mərasimlərinin mifoloji-kosmoqo-nik mahiyyətinə dair. Azərbaycan şifahi xalq ədəbiy-yatına dair tədqiqlər (iyirminci kitab), Bakı, Səda nəşriyyatı, 2006, s. 103-112.
14. İsmayılov N. Novruz bahar bayramı deyil. Mərkəz qəzeti №48 (915), 15 mart 2005-ci il.
15. Temren B. “Bektaşi Geleneklerinde Nevruz Kutlama-ları: Kırklar Bayramı”, Folklor/ Edebiyat, 1995, sayı: 3.
16. Qulağagetmə. Novruz bayramı Ensiklopediyası. «Şərq-Qərb», Bakı, 2008. 208 səh.
17. Tuncay B. Azərbaycan türklərinin islamaqədərki dili və ədəbiyyati (şifahi və yazili ədəbi nümunələr əsasında), Bakı, Elm və təhsil, 2015, 288 səh.
18. Bilqamıs dastanı. Bakı: Gənclik, 1985. 104 s.
19. Hacıyev T.Azərbaycan ədəbi dili tarixi. I, Bakı: 1976.
20. Məmmədov A. Azəbaycan dilinin erkən tarixinə dair materiallar. Azərbaycan filologiyası məsələləri. I. Bakı: 1989.
21. Винклер Г. Западная Азия в древние времена. История человечества. т.III,СПб, 1903.
22. Редер Д.Г. Мифы и легенды древнего двуречья. "Наука", Москва,1965.
23. Церен Э. Библейские холмы. "Правда", Москва,1986.
24. Rzayev N. Qayalar danışır, Bakı: "Elm" 1985.
25. Oğuz Y. Tuncay B, Türkün gizli tarixi. Bakı: Apostrof, 2009, 49 s.

РЕЗЮМЕ

УЛЬКЕР АЛИЕВА

КОРНИ ПРАЗДНИКА НОВРУЗ, СВЯЗАННЫЕ С ДРЕВНЕЙ МИДИЕЙ И ШУМЕРОМ

Как известно, праздник Новруз известен и широко распространен среди восточных народов, в том числе, среди тюркских народов. В научной литературе существует множество предположений о корнях праздника Новруз. В статье исследуются некоторые мнения о корнях этого весеннего праздника. В этой статье делается попытка создания подробной картины источников и корней календарной обрядности Востока. Автор на основе подробного материала письменной литературы раскрывает Мидийские и шумерские корни праздника Новруз.

Ключевые слова: Новруз, праздник, Мидия, Шумер, письменная литература

SUMMARY

ULKER ALIYEVA

ROOTS OF THE NOVRUZ HOLIDAY RELATED TO ANCIENT MIDDLE AND SHUMER

As is known, the Novruz holiday is known and widely distributed among the eastern peoples, including among the Turkic peoples. In scientific literature, there is a lot of speculation about the roots of the Novruz holiday. The article explores some opinions about the roots of this spring holiday. In this article an attempt is made to create a detailed picture of the sources and roots of the calendar ritual of the East. The author based on the detailed material of written literature reveals the Median and Shumerian roots of the Novruz holiday.

Keywords: Novruz, holiday, Media, Shumer, written literature

(*Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

RUHƏNGİZ MƏMMƏD
Naxçıvan Dövlət Universiteti
1981@hotmail.com

MƏMMƏD SƏİD ORDUBADİNİN MƏTBUAT HAQQINDA DÜŞÜNCƏLƏRİ

Bu məqalədə Görkəmli Azərbaycan maarifpərvəri Məmməd Səid Ordubadinin, fəlsəfi irsi ilə bağlı dəyərli araşdırmalar aparılmış, onun ana dilinə verdiyi dəyərlər, Azərbaycan dilinin və ədəbiyyatının inkişafına, əsərləri ilə savadsızlığa, nadanlığa elmin düşməni hesab edilən cəhalətə qarşı çıxış etməsindən bəhs edilir. Azərbaycan dövr üçün höküm sürən elmsizliyi, cəhalət və geriliyi ürək ağrısı ilə qələmə almış, öz əsərlərində xalqını buna səsləyr.

O dövrün ən məşhur “Əxtar” məktəbində oxuyarkən belə M.T.Sidqinin sayəsində yazdığı şerləri çap etdirərək xalqı qəflət yuxusundan oyatmağa çağırırdı. M.S.Ordubadi məktəbin, elm öyrənməyin və öyrətməyi sadəcə carçısı deyildi. O həmçinin təlim prosesində müəllim və şagirdlərin ünsiyyətdə götürdüyündən onu təkcə müəllim fəaliyyəti ilə məhdudlaşdırmırdı. Bir yazıçı, bir şair, bir ziyalı kimi öz əsərlərində də maarifləndirməyə üstünlük verirdi. Onun, “Ömrü vahi” məqaləsi dövrünün məktəb təhsil ocağına olan tələbatında ürəy ağrısı ilə bəhs olunur. M.S.Ordubadinin əsl vətənpərvər Azərbaycan maarifçisi idi.

Məmməd Səid Ordubadi təlim prosesində müəllim və şagirdləri ünsiyyətdə götürdüyündən onu təkcə müəllim fəaliyyəti ilə məhdudlaşdırmayıb, ata-anaların da bu işə cəlb olunmasını təbliğ edirdi. Məmməd Səid Ordubadi məktəbin, elm öyrənməyin və öyrətməyin sadəcə carçısı deyildi. O, qabaqcıl bir müəllim kimi təlim prosesində uşaqlara müəyyən elmi biliklər verməyi, təbiət və cəmiyyətin müxtəlif hadisələri haqqında onlarda elmi dünyagörüşün formalaşmasını, idrak qabiliyyətlərinin inkişafını təmin etməyi əsas götürürdü. Məmməd Səid Ordubadi bir müəllim kimi təlimin bu cəhətini yazmış olduğu əsərləri vasitəsilə ödəməyə çalışmışdır.

Açar sözlər: M.S.Ordubadi, təlim, təhsil, dil, “Əxtar” məktəbi maarifçilik ideyaları.

Dövrünün görkəmli maarifçilərindən olan Məmməd Səid Ordubadi də özündən əvvəlki pedaqoqların dil haqqında fikirlərinə əsaslanaraq demokratik ideyalı müasirlərinin görüşləri ilə səsləşən fikirlər irəli sürür, ana dilinə xüsusi əhəmiyyət verir, onun məktəblərdə tədris edilməsi uğrunda mübarizə aparır, bu sahədə əməli iş görürdü. Məmməd Səid Ordubadi yaxşı dərk edirdi ki, xalqın savadlanması, elmə, maarifə qovuşması, ictimai-siyasi hadisələrdən baş çıxarması üçün ana dili mühüm bir silahdır. O, hər bir xalqın müstəqilliyini saxlaması, yaşaması, təlim-tərbiyəsi işinin müvəffəqiyyətlə nəticələnməsi üçün

ana dilini tədrisdə mühüm şərt hesab edirdi. «Ana dili məhv olarkən xalq artıq yox olur» - deyə hər bir xalqın müstəqilliyini saxlaması üçün dili əsas şərt hesab edən K.D.Uşinskinin bu ideyasını qəbul etmişdir.

Məmməd Səid Ordubadiyə görə, gözəl ədəbi dili ancaq yazıçılar, jurnalistlər, mühərrirlər yaratmırlar. Onu bütün xalq yaradır. Odur ki, bütün xalq onu bilməlidir. Ona görə də xalqın mövcud olması, başqa xalqlar arasında tanınması üçün Məmməd Səid Ordubadi xalqı dilinə və ədəbiyyatına ehtiramla yanaşmağa, başqa təsirlərdən qorumağa çağırır, xalqın bu sahədə olan nöqsanlarına acıyır. Məmməd Səid Ordubadi heysiyyətə, mühitə qapılaraq kor-koranə, başqa-başqa xalqların «lisanlarını», adət-ənənələrini təqlid edərək öz dilinə, adət-ənənəsinə biganə qalmağı kəskin tənqid edirdi. Böyük sənətkar xüsusilə şer, sənət dilinin obrazlılığına, canlı və təsirli olmasına fikir verir, dilini korlayanları, pis vəziyyətə salanları istehza ilə qarşılayırdı.

Dil məsələsi siyasi səciyyə daşıyırdı. Bəzən Azərbaycan xalqı müstəqil bir xalq, onun dili isə müstəqil bir dil kimi inkar edilirdi. Xalqın özünü «qövm», «tayfa» hesab edənlər dilini «şivə», «Qafqaz şivəsi» adlandırır, «Sənin ayrıca bir lisanın yoxdur» (89, №23, 1907) - deyə onu öz milli zəminəsindən ayırmaq istəyirdilər. Böyük Rusiya imperiyasının siyasəti aydın idi. O milli dilləri tədricən sıxışdırıb aradan çıxarmaq siyasəti yürüdürdü. Hətta Lenin də bu siyasəti bəyənmədiyini, belə bir siyasətə qəti etirazını bildirərək yazırdı: «Rusiyada əhalinin yarısından çoxu, demək olar, beşdə üçü (dürüstü 57 faizi) milli əsarət altındadır, onlar hətta ana dilindən də azad istifadə edə bilmirlər, onları zorla ruslaşdırırlar» (109, c.28, s.268). Demokrat maarifpərvərlər dili milləti yaşadan əsas əlamətlərdən biri sayır və bu fikri təkrar-təkrar yazırdılar. Məmməd Səid Ordubadi də bununla xalqı başa salmağa çalışırdı ki, əcnəbilərin dilinə, adət-ənənələrinə aludə olmaqla heç vaxt öz xalqını yüksəltmək, başqa xalqlar içərisində hörmət qazanmaq olmaz. Əksinə, bu sifət - dilinə, adət-ənənəsinə hörmət etməməklik, başqa xalqlarda da ikrah hissi doğura bilər. Buna görə də öz xalqına, onun dilinə, adət-ənənəsinə qiymət verməlisən ki, başqa xalqlar buna qibtə etsin.

Məmməd Səid Ordubadiyə görə, hər bir xalq öz ana dili vasitəsilə tərbiyə olunur, həyatı, dünyanı dərk edir. Ana dilinə alçaq nəzərlə baxmaq, vətən övladlarının mənəviyyatını zəhərləmək, xalqı yox etmək deməkdir. Məmməd Səid Ordubadi həmin məqalədə darülfünun qurtarmış «bəzi əfəndilər müstəsna olmaq şərtilə» ziyalıları nəzərdə tutaraq yazırdı: «Rusca oxumuş, türk dilində müəllimlik edən arxadaşlardan birisinin məktubundan bir parça: «Əfəndim, mən istəyirəm getmək iyunun on beşində mineralnı sulara, hansı ki, olar çox mənfəətli məndə olan cüzi naxoşluğa. …bəy də gedəcəkdir mənilə bərabər, ancaq qalmaq üçün orada iyirmibeş gün hərgah siz də istərsiniz gəlmək, olar mənim üçün çox yaxşı və çox xoşbəxtlik…». İlk nəzərdə insan, bu cümlələrin türk dilində olduğuna əsla şübhə etməz, çünki hər kəlməsinə diqqət etsə, düzgüncə türk sözləri olduğunu təsdiqdən özünü alamaz. Lakin cümlələrdəki ahəngə, o qarışıq mübtəda-xəbərlərə bir musiqişünas sameəsilə qulaq versə, dərhal «xaxol» ruhilə düşünülmüş, türk kəlmələrilə vücuda gəlmiş bir əcubə olduğunu anlar.

Məmməd Səid Ordubadi publisistik yazılarında bir böyrü üstə yatmaqdan təngişən və gərnəşərək o biri böyrü üstə yatmaq xəyalına düşən həmvətənlərini dərin təəssüflə təsvir edirdi. Ordubaddan “İrşad” qəzetinə göndərdiyi məqalələrdən birində millətini sevən Hüseyn Sultanın şəhərdə məktəb açdırmasından bəhs edərək yazırdı ki, Hüseyn Sultanın vəfatından sonra məktəb də “vəfat etdi”. İllər keçdi, zəmanə dəyişdi, adamlar həyata yeni nəzərlə baxmağa başladılar. Müsəlmanlar isə “köhnə hamam, köhnə tas rolunu götürüb həmsayələrin istehzaları altında insan ağladan bir komediya” oynamaqda davam etdilər. Fəal mollanəsrəddinçi və vətənpərvər maarifçi olan M.S.Ordubadi yeni dərs üsuluna biganə qalanları tənqid etməklə yanaşı məktəblərin maddi-texniki bazasının yaradılmasına mane olan ünsürləri də məzəmmət edirdi. Səid imzası ilə yazdığı “Ömrü vahi” məqaləsində deyilirdi ki, yerli bəylər, əyanlar və tacirlər məşvərət edib qiraətxana və məktəb tikdirməyi qərara aldılar. Amma vədlərinə xilaf çıxdılar, balaların gələcəyini düşünmədilər. Gənc nəslə xoşbəxtlik arzu edən humanist maarifçi mənasız dini tədris üsullarını, mədrəsə müəllimlərinin savad və bilik etibarı ilə məhdudluğunu nəzərdə tutaraq yazırdı: “...Ayna ürəkli uşaqlarımız xərabə məscidlər guşəsində toz-torpağın, bitərbiyət müəllimlərin tərbiyəsi altında böyürləri üstə sıxılıb guya təhsili-elm edirlər” [2,s.13].

M.S.Ordubadi 1908-ci ildə dərc etdirdiyi bir xatirəsində uşaqların təlim və tərbiyəsi ilə maraqlanmayan, məktəblər açmaq işinə yardım göstərməyən sərvətlilərə qarşı kəskin hücuma keçirdi. O, ötən illəri, Ordubadda Məhəmməd Tağı Sidqinin təşəbbüsü ilə açılan “Əxtər” məktəbi, sonra müəllimlərin vəbadan vəfat etməsini, pedaqoq-alim Sidqinin Naxçıvana köçməsini, beləliklə də məktəbin qapanmasını xatırlayır. Məktəb bağlanan gün şagirdlərin necə pərişan olduğunu, pəncərədən boylanıb yazı taxtasına baxa-baxa göz yaşı axıtdığını, köhnəpərəstlərin isə həmin günü bayram kimi qeyd etdiyini ürək yandıran ifadələrlə təsvir edirdi. Xatirədə deyilirdi ki, “Şərqi-Rus” qəzeti çıxandan bəri məktəb açmaq barədə bir çox məqalə dərc olunmuş, məktəbsiz uşaqlar dəfələrlə öz dərdlərini yazıb “İrşad” və “Həyat” qəzetlərinə göndərmişlər, ancaq bu təşəbbüslərin heç biri fayda verməmişdir. Maarifçi “Məktəb xatirəsi” adlı publisist yazısında dövlətliləri məktəb açmaq üçün vəsaiti əsirgəməməyə çağırır, bütün həmvətənlərinə üz tutaraq deyirdi: “Qardaşlar! Günü günə, saatı saata satmaq əbəsdir. Məktəb bu gün açılsa, sabahdan nə qədər nəfli olduğunu cümləmiz düşünürük” [227, №25].

Xalq maarifinin ehtiyacları üçün kifayət qədər vəsait ayrılmaması, gənc nəslin təhsil və tərbiyəsinin acınacaqlı vəziyyətə düşməsi qabaqcıl ziyalıları qəzəbləndirsə də zülmət səltənətindən çıxış yolu görünmürdü. Doğrudur, Azərbaycanda hökumət hesabına müəyyən qədər ümumtəhsil məktəbi açılmışdı, amma bunlar zəhmətkeş balalarının ən cüzi hissəsini qəbul edə bilərdi. Belə bir şəraitdə məktəb təhsilinin kütləviliyindən danışmağa dəyməzdi.

Keçmiş sovet hakimiyyəti qələbə çaldıqda sonra xalq maarifi yeni inkişaf və tərəqqi yoluna qədəm qoydu. Bu yolda inamla addımlamaqdan ötrü ciddi səylər göstərilməli, əsaslı tədbirlər hazırlanıb həyata keçirilməli idi. Odur ki, mətbuat səhifələrində çıxış edən mollanəsrəddinçi publisistlər, pedaqoqlar

və digər maarif xadimləri qarşıda duran vəzifələrə diqqət yetirməyi başlıca vəzifə sayırdılar. M.S.Ordubadi "Maarif dünyamızda" sərlövhəli məqaləsində yazırdı: "Tərəqqimiz yolunda olunan təşəbbüslər ciddi, maarifimiz uğrunda atılan qədəmlər qətidir. Elm-maarifin nəşrinə dair Maarif Komissarlığı əlindən gəldiyi qədər çalışır, sənəlik, altı aylıq, bəlkə üç aylıq kurslar və mütəəddid ibtidai və edadi məktəblər də açır" [85].

Bununla belə, Maarif Komissarlığına təklif olunurdu ki, qısa müddətli müəllimlik və musiqi kurslarının işini yaxşılaşdırsın, proqramların təkmilləşdirilməsi qayğısına qalsın.

M.S.Ordubadi öz yazılarında məktəblərin vəziyyətinə toxunaraq sinifdən və məktəbdənkənar işlərin canlandırılması, məktəblərin bacarıqlı kadrlarla möhkəmləndirilməsi, lazımi avadanlıq və cihazlarla təchiz edilməsi, qəzalarda yeni məktəblər açılması, mükəmməl tədris proqramlarının tətbiqi üçün təkliflər irəli sürürdü. Qəzetlərdə dərc olunan "Sinif xətt-hərəkətimiz lazımmıdır?!", "Tam vaxtıdır", "Maarif xadimlərinin müşavirəsi" sərlövhəli baş məqalələrində, "Yeni iqtisadi siyasət və maarifimiz" sərlövhəli məqaləsində və digər yazılarında bu barədə ətraflı danışılır.

Heç bir şeydən korluq çəkməyən, bütünlüklə təchiz və təmin edilmiş məktəblər yaratmaq fikrini dönə-dönə nəzərə çatdıran Məmməd Səid Ordubadi şagirdlərə əmək təlimi verilməsini, kənd məktəblərində təcrübə məşğələlərindən ötrü torpaq sahəsi ayrılmasını, fənn kabinetləri və laboratoriyalar açılmasını zəruri hesab edirdi. O, yerli maarif orqanlarını müəllimlərə həssaslıqla yanaşmağa, bu nəcib tərbiyəçilərin ehtiyaclarını təxirsiz ödəməyə çağırır, müəllimlərin hörmət və nüfuzunu artırmaq, səmərəli fəaliyyətini təmin etmək üçün görülməli olan tədbirlərdən söz açırdı.

M.S.Ordubadi xalqın gələcəyi və ümidi sayılan uşaqların qayğısız və şən böyüməsini, hamılıqla təhsilə cəlb olunmasını arzulayır, bu istiqamətdə görülən işlərin müvəffəqiyyətlə nəticələnməsinə çalışırdı. "Məktəb və cocuqlara yardım!" məqaləsində yazırdı ki, hakimiyyət var qüvvəsini sərf edərək zəhmətkeş xalqı işıqlı gələcəyə aparmaq istəyir, bundan ötrü isə "məktəb və məktəblərin içində qiymətli üzük qaşları kimi parlayan cocuqlar lazımdır". Hökumət onları mühafizə etmək üçün heç nəyi əsirgəməmiş, bütün müəssisələrin ehtiyac içində olduğu vaxtlarda belə "istiqlal və mədəniyyətimizin yeni əkilmiş toxumlarını" qayğı ilə göyərtmişdir, indi işə daha çox can yandırmaq tələb olunur, çünki "məktəblərə yardım məsələsinin bir saat təxirə salınması gələcəkdə bizi bir il geri ata bilər" [86].

Yardım həftəsinin başlanğıcında, 1921-ci il dekabrın 23-də "Kommunist" qəzetində dərc olunan "Bu gün" məqaləsində və iki gün sonra çıxan "İctimai düşüncələr"də [15] maarifçi həmin fikri inkişaf etdirir, bütün vətəndaşları ictimai düşüncə ilə hərəkət etməyə, "istiqbal çiçəkləri olan balaları hifz eləməyə" səsləyirdi.

Bir müddət sonra, 1923-cü ilin fevralında qışın soyuğu və aclığın çəngəsində qalmış uşaqlara növbəti yardım həftəsi münasibəti ilə dərc olunan "Sahibsiz balalara yardım həftəsi" məqaləsində yenə Ordubadinin ürək çırpıntıları və həyəcanlı səsi eşidilirdi. On-on beş il əvvəl ümidsizliklə

dövlətlilərə ağız açıb onları insafa gətirmək istəyən maarif dostu indi ölkənin əsil sahiblərini, ən çox etibar etdiyi doğma adamları yardıma haraylayırdı: “...bu bədbəxt balaları köhnə dünya öz xaraba hasarlarının altında bizə irs buraxıb getmişdir. Bu gün özünü yeni dünya və yeni bir məişət içində hiss edən Azərbaycan xalqı əski xarabalığı təmirə başladığı vaxt gərək əvvəlcə onun pərişanlıqları altında çapalayan ac balaların səsini eşitsin, anlara atalıq və hamillik yardımı versin” [87].

Məktəblərdə dərslərin üç növbədə keçirilməsindən, şagirdlərə sinifdənxaric işlər üçün imkan verilməməsindən bəhs edən “Məktəb həyatından” sərlövhəli səmimi məqaləsində (88) pedaqoq dərsə gedən uşaqları “zəhmət gününün ilk xəbərçiləri” adlandırırdı.

Sovet hakimiyyəti illərində də təhsilə göstərilən ögey münasibət Ordubadinin gözündən yayınmamışdır. Ancaq bütün bunlara rəğmən o, gələcəyə ümidlə, nikbin, optimist baxışla baxırdı. Göstərirdi ki, uzaq qəzalarda və qaranlıq kəndlərdə yoxdan yaradılmış məktəbləri ən çətin şəraitdə belə yaşatmağa və maliyyə cəhətdən təmin etməyi istəsə bacara bilən Kommunist Partiyası bütün ölkədə savadsızlığı ləğv etmək vəzifəsinin öhdəsindən bacarıqla gələcəkdir.

Məmməd Səid Ordubadinin təhsili hamı üçün zəruri sayması, ümumi icbari təhsilə keçilməsi ideyası dünyanın bir sıra böyük pedaqoqlarının ümumi təhsil haqqında ideyaları ilə səsləşir. Təsadüfi deyildir ki, böyük çex pedaqoqu Yan Amos Komenski «yalnız varlıların və adlı-sanlı şəxslərin uşaqları deyil, əksinə, hamı, adlı-sanlılar, adsız-sansızlar, varlılar və yoxsullar, oğlanlar və qızlar bütün şəhərlərdə və qəsəbələrdə, kəndlərdə və kəndciklərdə bərabər olaraq məktəbə cəlb edilməlidirlər» deyirdi. Böyük fransız materialist filosofu Deni Didro nəinki ümumi, hətta icbari təhsil ideyasını da müdafiə edirdi. Hələ vaxtilə Azərbaycanın böyük mütəfəkkir dramaturqu Mirzə Fətəli Axundzadə, şairin müasiri görkəmli müəllim pedaqoq Fərhad Ağazadə və başqaları da ümumi icbari təhsilə böyük əhəmiyyət vermişlər. Lakin Məmməd Səid Ordubadi islahatlar yolu ilə ümumi icbari təhsilin həyata keçirilməsini tələb edən M.F.Axundzadədən, F.Ağazadədən fərqli olaraq öz ideya və nəzəriyyəsinin həyata keçirilməsi üçün tələb edilən konkret imkanları nəzərə almırdı. O, yaşadığı quruluş daxilində həmin məsələlərin həyata keçirilməsini ancaq arzu edirdi. Bu isə hələ cüzi miqdar məktəblər açılmasına belə imkan verməyən Rusiya imperiyasında mümkün deyildi. Məmməd Səid Ordubadi bir maarifçi kimi dərk edə bilmirdi ki, siyasi hakimiyyəti xalq öz əlinə almayınca ümumi icbari təhsildən danışmaq mənasızdır.

«Dövrün görkəmli maarifçi və pedaqoqları, ziyalıları mətbuat səhifələrində çıxış edərək məktəb və mədrəsə təliminin forma və məzmununda əsaslı dəyişikliklər aparmağı tələb edirdilər» Belə tələblərə qoşulanlardan biri də görkəmli pedaqoq Məmməd Səid Ordubadi idi. Savadsızlığın ləğvində yeni tipli məktəblərin rolunu yüksək qiymətləndirirdi. Buna görə də o, dini məktəbləri və onun təlim-tərbiyə sistemini tənqid edir, mühüm elmi müəssisə kimi qiymətləndirdiyi məktəblərdə dinin tədrisinə etiraz edirdi. Şair-müəllim insanı buxovlayan, elmin inkişafına mane olan dini və onun tərəfdarlarını tənqid

edərək elmlə dinin daban-dabana zidd olduğunu göstərirdi: «İbtidai məktəb proqramı olduqca təmiz, qollanışlı, aydın, qolay və mənfəətli olmalıdır. Xurafata, mövhumata aid süprüntüləri mümkün mərtəbə siniflərə buraxmamalıdır. Əvvəldə girmiş olsa da süpürüb təmizləməyə diqqət və qeyrət etməlidir» (16, c.4, s.207) - deyə dini elmdən ayırırdı. Belə fikir yürüdürdü ki, din pərdəsi altında hər cür dinsizlik edən savadsız din xadimləri insanların başlarını «hər dürlü» mövhumat ilə doldururlar. Ona görə də şair xalqı elmin inkişafına mane olan haqq söz deyəni «kafir» adlandıran, elmin qatı düşməni olan din fırıldaqçılarına inanmamağa çağırırdı. Xalqı aldadan, var-yoxdan çıxaran, cəhalətdə saxlayan şəxslər yetişdirən «mollaxana»lara qarşı amansız olmağı təbliğ edirdi.

Məmməd Səid Ordubadi bir qisim əhalinin məktəblərin qayğısına qalmadıqlarını, məktəblərə laqeyd münasibət bəslənildiyini, «təlim və tərbiyə» dedikdə ilk növbədə məktəblərin, məktəb otaqlarının nəzərdə canlandığını qeyd edərək yazırdı: «Təlim və tərbiyə məsələsində ilk nəzəri-diqqətə alınacaq nöqtə məktəblərdir, məktəb otaqlarıdır. Məktəblər, səhhəti ixlal etməyəcək dərəcədə havadar, uca yerlərdə yapılmalıdır. Pis, murdar, üfunətli yerlərdən uzaq olmalıdır. Xəstəxana, həbsxana, məzarıstan kimi yapı (bina)lara yaxlaşmamalıdır. Xırıltı, gurultusu çox olan mövqelərə yanaşmamalıdır. Məktəb binaları mümkün dərəcədə geniş yerlərdə vaqe olmalı, rütubəti çox olan yerlərdən həzər edilməlidir. «Günəş girməyən yerə təbiblər girər» məsəli məşhuri-aləmdir. Buracıqda bir az haşiyə çıxmaq istəyirəm. «Rütubət» sözülə «tərbiyə» kəlməsini düşündükcə Naxçıvandakı «Məktəbi-tərbiyə» ilə onu istila edən müzirri - səhhət rütubəti xatırlamamaq bir dürlü əldən gəlməyir. … Xaricdən şəhərə varid olmuş bir səyyah-zavallı məktəbin divarlarına göz gəzdirəcək olsa (yarım arşın qədər) xəcalətdən tərləmiş olduğunu müşahidə edər»

Məmməd Səid Ordubadi yeni üsullu məktəbləri təbliğ etməklə kifayətlənmir, o həm də təlim, sistemini yaxşılaşdırmaq qayğısına qalır, vətən övladlarından elmi dünyagörüşə malik saf mənəviyyatlı, vətəninin, xalqının azad gələcəyini düşünən inkişaf etmiş şəxslər yetişdirməyi arzu edirdi. Bunun üçün Məmməd Səid Ordubadi məktəblərdə təlimin keyfiyyətini yüksəltməyi vacib sayırdı. Onun şagirdlərdə əqli və əxlaqi inkişaf etdirən əsas vasitə hesab edərək, bu işi müəllim və şagirdlərin birgə fəaliyyəti kimi başa düşürdü. O yazırdı ki, «…bir neçə il sonra təhsili-ibtidainin istər qız, istər oğlan üçün məcburi tutulacağı şübhəsizdir. Lakin bizim istədiyimiz kimi deyil. Ümumrusiya türklərinin səmimi dostu «Pruşkeviç»lərin istədiyi kimi olacaq, indi xanım qızlar milli məktəblərdə ana dilini oxuyub öyrənməsələr, yaxud ata-anaları tərəfindən məhrum edilsələr, bir-iki il sonra zor ilə, qəhr ilə oxumağa məcbur olacaqlar» (16, c.4, s.201).

Göründüyü kimi, artıq Ü.Hacıbəyovun sözləri ilə desək, 1905-1906-cı illərin təsirləri Azərbaycanda tərəqqi və təkamül mənbələrini yaratmışdı. Bu tərəqqi-təkamül mənbələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb cəhalət qaranlığının ən uzaq guşələrini işıqlandırır (83, №135, 1915).

Məmməd Səid Ordubadi qabaqcıl maarif xadimi kimi, xalqın maarif-lənməsi, cəhalətdən xilas olması yollarını gənc nəsildə görürdü.

Məmməd Səid Ordubadi istər dini məktəblərdə, istərsə də məscidlərdə və məbədlərdə «elm və fəzilət» adı ilə xalqı aldadıb «əxlaq dərsi» verən bir «sürü meymun»ları, yalançı din dəllallarını kəskin tənqid edir və onları ifşa edirdi.

Məmməd Səid Ordubadinin mövhumat əleyhinə mübarizəsi onun istər iri həcmli əsərlərində, istərsə də xalq maarifi ilə əlaqədar əsərlərində və publisist yazılarında öz əksini tapmışdır. Ordubadinin yaradıcılığında yalançı din əleyhinə mübarizədə insanın ruhu, əqli və mənəvi keyfiyyətləri, təbii hissləri və ehtirasları, inam və etiqadı üzvi bağlılıqla tərənnüm edilir, insani keyfiyyətlərə yiyələnməyin müstəqim yolu dəqiq göstərilir. Şair-müəllim «elm-ürfana», «əqli-mərifətə» (13, c.1, s.195) yiyələnməyin yollarını mədh edərək, insan həyatının gözəlləşdiriləcəyinin yəqinliyinə möhkəm inanır və poeziyanın zirvəsində «kamil və aqil bəşər» ideyasını əbədiləşdirirdi.

Məmməd Səid Ordubadi yaradıcılığında ağılla qəlb, dinlə idrak arasında yaradılmış süni uçurumlardan doğan əksliklər, sosial problemlər, despotizmin tənqidi, mövcud üsuli-idarənin mahiyyəti, sxolastik təlimin məzmunundan doğan ağır nəticələr dərindən əks etdirilir, ictimai zülmə və sinfi bərabərsizliyə qarşı aparılacaq mübarizənin əhəmiyyəti qeyd edilir, ictimai zülmə elm və idrakın qüvvəsi ilə üstün gəlməyin mümkünlüyü göstərilir. Ordubadi istəyirdi ki, məscidlər, məbədlər öz yerlərini kitabxanalara, məktəblərə versin, «fəzlü mərifət günəşi» parlasın, insanlar mədəniyyətə qovuşsunlar.

Məmməd Səid Ordubadinin ehtiraslı təbliğatçılıq fəaliyyəti onun maarifpərvər ideyaları ilə sıx bağlı olmuşdur. Böyük sənətkarın maarifçilik görüşlərində elm, məktəb, sxolastik təlim, tədris və s. məsələləri əsas yer tuturdu. Ordubadi öz fikirlərini daha geniş təbliğ etmiş, köhnə biliklərlə «cocuqları zay edən» sxolastik məktəblərin və onların təlim-tərbiyə üsulunun əleyhinə çıxmışdır.

Məmməd Səid Ordubadinin fikrincə, insan nə qədər öyrənir, nə qədər oxuyursa yenə azdır. Buna görə də gecə-gündüz oxumaq və hər şeydən xəbərdar olmaq lazımdır ki, Vətənə xidmət etməyin əsl yolunu axtarıb tapasan. Həyatda elə adamlara rast gəlmək olur ki, onlar azacıq bilikləri ilə fəxr edib, hər şeydən xəbərdar olduqlarını söyləyirlər.

Məmməd Səid Ordubadiyə görə, insan bütün elm sahələrini öyrənməkdə çətinlik çəkir. Bunu nəzərə alaraq o, hər bir adama yalnız öz meyli və marağına görə müəyyən sahə seçib öyrənməyi məsləhət görürdü.

Məmməd Səid Ordubadinin maarif və məktəb, elm və idrak, bilik və insan haqqında olan fikirləri publisistik yazılarında geniş yer tutur. Bu əsər maarif və məktəb tariximizi öyrənmək baxımından zəngin mənbələr hesab oluna bilər. Şair elm, bilik, təlim və tərbiyəyə malik olanları hər şeydən əziz tutur və onları «Azərbaycanın maarif zülmətində nur» adlandırırdı. «İşdə üstün gəliyor zülmətə nur» - deyən Ordubadi «nur»un şöləsinin yayılacağına dərindən inanırdı.

Yuxarıda bəhs etdiyimiz şer və publisist yazılara pedaqoji cəhətdən diqqətlə yanaşdıqda Ordubadinin şagirdlərə və müəllimlərə bəzi pedaqoji tələblər verdiyini də müəyyənləşdirmək olur.

-- Hər bir şagirdin evdə tədris guşəsi olmalıdır;

-- Şagird tədris əşyalarını, məktəb formasını səliqəli və təmiz saxlamalıdır;

-- Hər bir şagird evə verilmiş tapşırıqlar üzərində müntəzəm işləməli, dərslərini təkrar etməli, öyrənməlidir;

-- Hər bir şagird məktəbə səliqəli məktəb formasında getməli, dərslərinə gecikməməlidir;

-- Hər bir şagird məktəbdə həyati və əməli əhəmiyyəti olan dərslərə və təbiət elmlərinə xüsusi diqqət yetirməlidir;

-- Hər bir şagirdin məqsədi elmlərə sahib olmaqla gələcəkdə xalqa, vətənə xidmət etməkdən ibarət olmalıdır;

-- Hər bir müəllim də öz növbəsində şagirdlərinə xüsusi qayğı ilə yanaşmalı, onların təlim-tərbiyəsi qeydinə qalaraq elmə, təhsilə, məktəbə həvəs oyatmalıdır;

-- Müəllim təlimin keyfiyyətini yüksəltmək uğrunda mübarizə aparmalı, təlim prosesində şagirdləri fəal işlətməlidir.

Məmməd Səid Ordubadi təlim prosesində müəllim və şagirdləri ünsiyyətdə götürdüyündən onu təkcə müəllim fəaliyyəti ilə məhdudlaş-dırmayıb, ata-anaların da bu işə cəlb olunmasını təbliğ edirdi. Məmməd Səid Ordubadi məktəbin, elm öyrənməyin və öyrətməyin sadəcə carçısı deyildi. O, qabaqcıl bir müəllim kimi təlim prosesində uşaqlara müəyyən elmi biliklər verməyi, təbiət və cəmiyyətin müxtəlif hadisələri haqqında onlarda elmi dünyagörüşün formalaşmasını, idrak qabiliyyətlərinin inkişafını təmin etməyi əsas götürürdü. Məmməd Səid Ordubadi bir müəllim kimi təlimin bu cəhətini yazmış olduğu əsərləri vasitəsilə ödəməyə çalışmışdır.

ƏDƏBİYYAT

1. Axundov Y., Həbibov İ. Qanlı sənələr. "Vətən səsi" qəzeti, 1992 fevral, 6 fevral

2. Ordubadi M.S. Dumanlı Təbriz. II kitab, Bakı: Yazıçı, 1985, 732 s.

3. Ordubadi M.S. Əsərləri, I cild, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 448 s.

4. Ordubadi M.S. Qanlı illər. Bakı, 1991, 144 s.

5. Ordubadi M.S. Seçilmiş şeirlər və hekayələr. Bakı: Azərnəşr, 1951, 183 s.

6. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 140 s. http://ebooks.preslib.az/pdfbooks/azbooks/eb-az_05092012_04.pdf

РЕЗЮМЕ

РУХАНГИЗ АЛИЕВА

РАЗМЫШЛЕНИЯ МАМЕД САИДА ОРДУБАДИ ОБ О ПРЕССЕ

В статье повествуется об окружающем Мамеда Саида Ордубади обществе – видного просветителя, поэта, писателя, драматурга Азербайджана, о роли этой среды в его творчестве, и о просветительской политике, которую вел Ордубади для своего народа.

Творчество любой литературной личности формируется в общественно-исто-рической и литературно-культурной обстановке, которая способствует его станов-лению.

В детстве и в подростковые годы на развитие мировозрения М.С.Орду-бади на здравых основах, в правильном направлении, особенно в шлифовании художественного вкуса действовал фактор, которым являлись стихи. Они являлись пропагандирующим звеном свободного мышления, автором которых был заведуюший школы «Ахтер» Мамед Таги Сидги.

Во времена учебы в школе «Ахтер» встреча Ордубади с людьми разного миро-возрения и убеждения серьезно подействовала на его морально-духовное воспитании и расширение кругозора. Надо также отметить роль этой школы в посвящении службе обществу выдающихся в последующих периодах личностей, которые прославились в различных сферах деятельности.

Мамед Саид Ордубади показал, что если хотите увидеть в будушем сыновей отчиз-ны умными, образованными, морально чистыми, правдивыми, любящими своей народ патриотами, вырастающимися настоящими личнос-тями, тогда вместо безразличия надо постоянно уделять им внимание, отрекать их от неверного пути, суметь их вер-нуть на правильное русло, беречь от вредных влияний общества, правильно направлять и воспитывать, объясняя все. В такой обстановке мы обеспечим будушее Родины и народа.

Ключевые слова: М.С.Ордубади, среда, творчество, Родной язык, Родина, народ, школа «Ахтер».

SUMMARY

RUHANGIZ ALIYEVA

MAMMAD SAID ORDUBADI’S REFLECTIONS ON THE PRESS

The article studies the worthwhile philosophical heritage of Mammad Said Ordubadi, the prominent Azerbaijan educator. It reflects the great educator’s struggle against ignorance and illiteracy in his works which he considered to be the enemy of the people. In his works M. S. Ordubadi touhed upon the issues, like illiteracy, backwardness and ignorance which were specific for that time in Azerbaijan in great sorrow and challenged people to fight against it, too.

In the years when he was still a student in the school "Akhtar" which was very popular at that time, M. S. Ordubadi published his poems in which he called people to open their eyes to the world thanks to M.T.Sidgi. He was not only a simple Gerald of school, teaching and studying. As he considered the teaching process as a communication between teachers and students, he didn't limit this process as a teacher activity; he also propagated the involvement of parents in this process. As a poet and a writer and as an intellectual man of his time, he always popularized enlightening in his works. In his article "Omru vahi" he sorrowfully reflected the demand of the people for school and education in his time. M.S.Ordubadi was a real patriotic Azerbaijan educator.

As a leading teacher, he supported to give students certain scientific knowledge, forming their scientific outlook about the different events of nature and society and providing the development of their cognitive abilities in the teaching process. As a teacher M. S. Ordubadi tried to meet this demand of his people by his works.

Key words: M. S. Ordubadi, language, training, education, enlightenment ideas of "Akhtar" school, creativity.

(*Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ZÖHRƏ QAFAROVA
Sumqayıt Dövlət Universiteti
z.qafarova@yahoo.com

TƏSƏVVÜFÜN TARİXİ, BƏDİİ-ESTETİK KONSEPSİYA KİMİ FORMALAŞMASI

Həqiqətdir ki, tariximizin pik dövrü olan Şah İsmayıl hakimiyyətinin, ədəbiyyatımızın klassik dövrü olan orta əsrlərin, mədəniyyətimizin, milli mənəviyyatımızın formalaş-masında təsəvvüfün rolu böyük olmuşdur. Bu çoxlarını təəccübləndirə bilər. Bu gün təsəvvüfün harada və nə səbəbə yaranması, hansı mənanı ifadə etməsi, ərəb mənşəli söz olub-olmaması ilə bağlı mübahisəli fikirlərin çoxluğu konkret nəticələr çıxartmağa maneələr törətsə də məntiqi cavab tapmağa imkan yaradır. Odur ki, təsəvvüf sözünün kökünə, mənşəyinə elmi və ümumi nəzər yetirərkən qarşıya çıxan fikirləri diqqətlə araşdırmaq lazımdır.

Açar sözlər: təsəvvüf, milli mədəniyyət, təsəvvüfün kökü, təsəvvüfün mənşəyi, tarix, ədəbiyya

Mürəkkəbliyi və çoxcəhətliliyinə görə sonsuz olan maddi aləm insan zəkası və mənəviyyatında əks olunaraq özünün ən yüksək formalarından birinə, elmə çevrilir. Bu kimi idrak isə varlığı bütün forma və təzahürləri ilə insan beyninin ən kiçik hissəciklərindən tutmuş ən mürəkkəb proseslərin vasitəsi ilə öyrənməyə çalışır. İnsanların özlərinin də dünyaya baxışlarını şərtləndirən dünyagörüşləri vardır ki, onlara bütövlükdə elmi idrakın məhsulu demək düzgün olmazdı. Məhz belə dünyagörüşləri cəmiyyətdə müxtəlif münasibətlərin, tarixi istiqamətlərin yaranmasına səbəb olmuşdur. Odur ki, tarixə nəzər salsaq görərik ki, həm dünyagörüşü, həm də elmi idrak məhz insanların həyatı dərk etmək səbəbi anlamaq məqamının son nəticəsidir. Bizə məlum olan belə nəticələr içərisində materialist və idealist baxışların olması da təsadüfi deyildir. Əsasən elmi idraka söykənən və materiyanı müəyyənedici hesab edən materializmdən fərqli olaraq varlığı, materiyanı şüurlu izah edən idealizmin təsir dairəsi daha geniş olmuşdur. Bu səbəbdən bəşərin ən böyük dinləri idealist dünyagörüşlərini tamamlayaraq öz ideyalarını buradan istiqamətləndirmişlər. Həmin dinlər içərisində ən kamili və dürüstü elmi idraka bu günə kimi məlum olmayan, bəzi sirləri özündə ehtiva edən “Quran-i Kərim” ilə bəşərə sözünü deyən din-İslamdır. Daşıdığı ideyalarına görə həm tarixiliyi, həm də elmiliyinə görə İslamın ədəbi-mədəni məfkurəsi digər dinlərdən qat-qat üstündür.

Bildiyimiz kimi islam dini etiqaddır və dini etiqad da dialektik prosesin yetirməsidir. Çox anlaşılmaz, ağla sığmayan yollarla xalqımızı on əsrlik şəriksiz inamından uzaqlaşdırmaq üçün onu daha keçmişə qaytarmaq, min illik

yolu, yaxud milli tarixin ən bərəkətli dövrünü kəməndə qoyub geri atmaq və inkişaf yollarında toplanmış uğurların haram olduğunu sübuta yetirməyin sonu mənasız olduğu üçün bu gün biz milli təfəkkürümüzə qayıdırıq. Milli və dini sədaların səmimi ittifaqı isə hələ də bir çoxlarını heyrətləndirməkdədir. Belə heyrətlərin içərisində təsəvvüfün olması şübhəsizdir.

Bir zamanlar "təsəvvüf" anlayışının özü ərəb istilası anlayışı kimi fundamental bir qəza səviyyəsində şərh olunurdu. Lakin bu istilanın min illik dili, incəsənəti, adət və ənənəsi ihfilyasiyaya uğramadan nəinki ikinci minilliyə, hətta daha sonrakı minilliklərə də təsirini göstərməyə qadirdir. Həmin istilanın ən incə məqamlarından olan təsəvvüf tarix, ədəbiyyat və bir də dinin məfkurəsinə çevrilərək öz mahiyyətini qorumaqda davam edir. Bu bir həqiqətdir ki, tariximizin yüksəliş mərhələsi olan Şah İsmayıl hakimiyyətinin, ədəbiyyatımızın klassik dövrü olan orta əsrlərin, mədəniyyətimizin, milli mənəviyyatımızın formalaşmasında təsəvvüfün rolu böyük olmuşdur. Bu çoxlarını təəccübləndirə bilər. Görən təsəvvüf nədir ki, belə nəhəng bir mahiyyəti daşımaq qüdrətinə malikdir? Görən təsəvvüfün məhz elmi idraka sığan açıqlaması varmı? Görən bu gün təsəvvüf hansı məram və məqsədi ehtiva etmək imkanına malikdir?

Təsəvvüfün harada və nə səbəbə yaranması, hansı mənanı ifadə etməsi, ərəb mənşəli söz olub-olmaması ilə bağlı mübahisəli fikirlərin çoxluğu konkret nəticələr çıxartmağa maneələr törətsə də məntiqi cavab tapmağa imkan yaradır. Odur ki, təsəvvüf sözünün kökünə, mənşəyinə elmi və ümumi nəzər yetirərkən qarşıya çıxan fikirləri diqqətlə araşdırmaq ehtiyacı yaranır. Məsələn, təsəvvüf sözünün sufi kəlməsi ilə əlaqəsini dəstəkləyən bəzi tədqiqatçılar onun yunan mənşəli, hikmət və düşüncə mənasında anlaşılan "sofa" kəlməsindən götürüldüyünü göstərir. Bu alimlərin sırasında Əbureyhan Biruni, klassik və orijinal görüşləri ilə tanınmışdır. Eramızdan əvvəl antik yunan fəlsəfəçiləri içərisində bir qrup hikmət əhli məhz həqqi, gerçək varlığı bütün digər varlıqların yaranmasının ilk səbəbi hesab edirdilər. Həmin fəlsəfəçilər sofistlər adını almışdılar və bunu nəzərə alan Biruni fəlsəfə sözünün də məhz "feyl və sof" sözlərinin birləşməsindən əmələ gəlmiş, "hikmət sevən" mənasında işlədildiyini söyləmişdir. Bu sofistlərin görüşlərini qəbul edən müsəlmanlar da sonra özlərinə bu görüş əhlinin adını götürərək sufilər kimi tanınmışlar. Bu fikrin məntiqi baxımdan müəyyən dərəcədə sufilərin görüşlərinə yaxınlığı heç də onun tam dürüstlüyünü sübuta yetirmir. Biruninin bu fikri ilə razılaşmayan bir çox tədqiqatçılar var ki, onlar həmin sözün hələ islam dininin təşəkkül tapmasından qat-qat əvvəl ərəb dilində işləndiyini söyləyirlər. Onlardan bəziləri sufi kəlməsinin ərəb dilində "suf" sözündən gəldiyini göstərirlər ki, burada "suf"- xirqə və ya yun paltar geyinən mənasında işlədilir. Lakin bir çox islam təfsirçilərinin fikrinə xirqəni yalnız sufilər geyinmirdilər və odur ki, bu anlamın da dürüstlüyü mübahisəlidir. Digər qisim tədqiqatçıların fikrincə isə "sofuluq", "səfa" sözü kimi götürülən sufilik "kökündən təmizlənmiş" anlamını da verə bilər. Lakin yenə də bu həqiqətdə, sufilik sözünün mənasına yaxın deyildir. Bu baxımdan dahi Nəsiminin bir beytində işlətdiyi sufi və səfa sözlərini müqayisə edək:

Qazi məsto, müfti məsto, sufi məsto, saf məst,
Cüreyi-cami ələstdən möminü küftar məst. (2, 93)

Bu beytin əlyazma variantında həmin sözlər yazılışlarına görə tamamilə fərqlənirlər. Belə ki, sufi və saf sözləri yazılış zamanı əlef və vav hərflərinin əvəzlənməsinə görə fərqli ifadə olunurlar. Deməli, Nəsimi dilində səfa və sufi sözləri başqa-başqa mənaları özündə ehtiva etmişdir.

Sufi kəlməsinin mənşəyi ilə bağlı digər bir araşdırmalar içərisində onun yan-yana düzülmüş insanlar qrupu mənası verən “səffə” ilə eyni kökdən olduğunu göstərənlər də olmuşdur. Lakin bu məsələ də ərəb dilçiliyində narazılıqla qarşılanmışdır. Tək-tək dərvişləri sufi, onların birləşdiyi qrupu sufiyyə adlandıraraq bu yol ilə getməyə çalışanları mütəsəvvüf, ümumi cəmiyyətdə mütəsəvvifə deyilməsi fikri həmin səffə sözünün imkanlarına, leksik-semantik mənasına sığan anlayış deyildir. Sufilik, təsəvvüf, sufizm sözlərinin daşıdığı mənalar haqqında fikir çoxluğunu nəzərə alıb onları ümumi bir qrupda birləşdirərkən aşağıdakı nəticələri aldıq.

1. Təsəvvüfün əflatun fəlsəfəsinin davamı olduğunu söyləyənlərə görə sufi sözü yunan dilindəki sofa sözündən törənmişdir.
2. Geyim və həyat tərzlərinə görə seçilən, əsasən yun paltar geyindiklərinə görə suf adını alan kimsələrin adından törəyən sufi kəlməsi kimi verilmişdir.
3. “Saf insan” mənasını verən səfa sözündən törənmiş sufi kəlməsi qeyd edilmişdir.

Bütün bunlar şübhəsiz ki, yenə də sufi sözünün tam məna açıqlaması üçün əsas hesab edilə bilməz. Bu baxımdan təsəvvüfün təşəkkül tarixini də araşdırmaq məqsədəuyğundur. Təsəvvüfün yunan mənşəli olması fikrinin tamamilə yanlış olduğunu sübut edən əsaslı dəlillər çoxdur. Ən sadə izahlardan biri kimi təsəvvüfün ideya istiqamətinin yalnız tək varlığa, yaradana aid olmasını göstərmək olar. Ancaq antik yunan filosoflarının dünyagörüşlərində bəzən çoxallahlığın nişanələri bu məsələni tamamilə inkar edir. Elə buradan da nəticə çıxarmaq olar ki, təsəvvüf məhz islam əqidəsindən doğan, onun ideyalarında əksini tapmaq imkanına malik bir cərəyan kimi formalaşmışdır. Təsəvvüfün antik yunan fəlsəfəsinə deyil, məhz islam fəlsəfəsinə aid olması fikrini isə tarixçilər dəfələrlə əsərlərində göstərməyə çalışmışlar. Hətta bəzi islamşünaslar islam dininin təriqətləri içərisində təsəvvüf nümayəndələrini yüksək dəyərləndirərək bütöv, kamil bir dinin təriqətlərə parçalanmasının səbəblərini, həmçinin təsəvvüf cərəyanının yaranmasına təkan verən amilləri göstərmişlər. Bu fikirlərdən məlum olur ki, müsəlmanların sıx, eyni ideya, eyni niyyətlə birləşdikləri icmaların təriqətlərə parçalanmasını doğuran səbəblər müxtəlif olmuşdur. Onların içərisində ərəb-müsəlman mədəniyyətinin qeyri-ərəb (əcəmi) dini və fəlsəfi təlimlərin təsiri altında parçalanması fikri müəyyən dərəcədə şübhəlidir. Mənbələrin birində bildirilir ki, Məhəmməd peyğəmbərin səhabələri və onların sonrakı nəsli- tabiilər öz əqidələrinin düzgünlüyünə şəkk-şübhə etmirdilər və mürəkkəb həyat məsələlərinin həllində “Quran-i Kərim”ə və “Sünnə”yə müraciət etməklə kifayətlənmirdilər. Onlar, dinin ehkamları ətrafında mübahisə aparmağı yüngüllük və bidət kimi qiymətləndirirdilər. Daha sonralar bir çox digər xalqların islama daxil olması ilə ona yeni

mədəniyyət və elmlər daxil olur. Bunun nəticəsində islam əqidəsi və kəlamı elminə müxtəlif tərəfli yanaşma özünü göstərir və bu zaman bu fikirlərin təqlidi başlanır. Bu fikirlərin dürüstlüyünü nəzərə alsaq yenə də təsəvvüfün islamdan sonra deyil, əksinə ondan qat-qat əvvəl, həm də gətirilmə təriqət olma ideyası ilə qarşılaşacağıq. Bu isə təsəvvüf məfkurəsinin ziddinə olan bir ideyadır.

Qərb mənbələrində filosof İ.Holdsiyer sufiliyin yaranmasını qədim hind dinləri və Budda təliminin təsiri ilə əlaqələndirir. A.Mets isə özünün "Müsəlman renesansı" əsərində sufilikdə başqa dinlərin, həmçinin zərdüştlüyün, yeni əflatunçuluğun əlamətlərini axtarır. Bunların əksinə olaraq İran tədqiqatçısı Hüseyn Nəsr sufiliyin "Yalnız İslam dini, İslam vəhyi"(1, 113) ilə bağlı olduğunu göstərərək Qərb alimlərinin fikrini inkar edir. Sufilik İslam dini əsasında formalaşan təriqət kimi peyğəmbərlərin vəfatından bir əsr sonra meydana çıxmağa başlamış, VIII-IX əsrlərdə artıq bir dini cərəyan kimi özünü təsdiqləmişdir. Təsəvvüfün yaranma tarixi ilə bağlı məlumatlardan birində bildirilir: "Sufiliyin əsasını misirli Zunnun əl-Misri və bağdadlı Əbu Abdulla əl Mühasibi qoymuşdur. Sonralar sufiliyi Cüneyd inkişaf etdirərək mərhələlərini açıqlamışdır"(4, 67). Daha sonra bildirilir ki, X-XI əsrlərdə sufiliyin nümayəndələrindən olan Hüseyn ibn Mənsur əl-Həllac kafir elan olunaraq 922-ci ildə edam olunmuşdur. Sonralar isə Əhməd Qəzali, Eynəlqüzad Həmədani və başqaları sufiliyi yapma cəhətlərdən təmizləyərək dini təriqət şəklinə salmışlar. Elə bu zamandan da "vəhdəti-vücud" təlimi təriqətin əsası kimi təbliğ olunmuşdur. Bu məsələ ilə bağlı digər bir məlumatda bildirilir: "Allah ilə insanın eyniliyi fikri Həllac tərəfindən daha bariz şəkildə irəli sürüldü. Onun "Ənə əl-həqq" hökmü müsəlman Şərqində sufilər arasında azadfikirliliyə çağırış oldu. Həllac dinsizlikdə təqsirləndirilərək Bağdad zindanına salındı, mühakimə olunduqdan sonra edam edildi"(6, 27). Mövcud olan belə mənbələr sufiliyin tarixinə "sosialist realizmi" pəncərəsindən baxışların nəticəsidir. Buna görə də həmin mənbələrdə bir çox detallar ateist və materialist aspektdən nəzərdən keçirilmişdir.

Sufilik tarixinə hər cür təsirdən uzaq, sərbəst yanaşan mənbələrdən birində verilmişdir: "Bir inam və düşünmə sistemi olaraq təsəvvüf İraqda (Kufə və Bəsrədə) VIII yüzillikdə yaranmış, bir müddət sonra bütün İraqa yayılmış, özəlliklə Bağdadda böyük mütəssəvviflərin yetişməsinə yol açmışdır"(5, 30). Bu mənbədə sufiliyin ilk təmsilçisi (ilk sufi) kimi Kufəli Əbu Haşimi göstərilmişdir. Həsənül Bəsri, Bəyazit Bistami, Cüneyd Bağdadi, Həllac Mənsur isə burada sonrakı böyük mütəssəvviflər kimi tanınmışlar. Təsəvvüf tarixinə birtərəfli yanaşmağın mümkünsüzlüyü bu haqda qəti hökm çıxarmağa imkan vermir. İslam mənşəli bir təriqət kimi sufiliyin islam mədəniyyətinə göstərdiyi təsir bu gün göz önündədir. Lakin sufilik tarixindən söhbət gedərkən iki cəhəti nəzərə almaq lazımdır ki, bunlardan biri sufiliyin məhz dini təməl üzərində təşəkkül tapması, digəri isə İslam dini ilə bərabər sufilik təlimin də olduqca geniş və müxtəlif ərazilərdə yaşayan ardıcıllarının mənəvi həyatı, təfəkkür tərzi, ənənələrinə təsiridir.

Təsəvvüfün mahiyyətinə vardıqca təsəvvüf və onunla məşğul olan mütəsəvvif və sufi kimi tanınan kəslərin ideya istiqamətləri bir-birini tamamlayır. Bu yolda əsaslı bir görüşə sadiq qalaraq Allah-a qovuşmağa çalışanlara, bunu özlərinə məqsəd bilənlərə mütəssəvvif demişlər. Daha sonralar sufi kəlməsi ilə mənşə və məna əlaqəsi olan təsəvvüf anlayışı meydana çıxmışdır ki, öz mahiyyəti etibarilə müxtəlif görüşləri əks etdirmək iqtidarı daşımışdır. Təsəvvüf haqqında mənbədə bildirilir: “Təsəvvüf bəzi sözlüklərdə, ağlın, yetmədiyi bilgi anlamında, özəlliklə Allah qavramında, gerçəyə könül aracılığıyla ya da iradəni zorlayaraq ulaşıla biləcəyini qəbul edən görüş deyə tamamlanır”(5, 30). Həmin mənbədə verilmiş məlumatda açıqlanır ki, təsəvvüfün təməli cahanda tək bir varlığın xaricdə, yəni yer üzündə əksi ilə əlaqədar görüşlə bağlıdır. Həmin tək varlıq Allahdır. Digər varlıqlar hansı ki, dürüst görünə bilmək imkanına malikdir, tək olan Allah-ın müxtəlif görüntüləridir.

Görünən bütün varlıqlar Allah-ın anlaşılıb bilinməsi üçün yaradılmışdır. Sufilik təlimində məhz belə görüşlər “vəhdəti vücud” mahiyyətində ortaya çıxır. Bu məsələyə başqa bir mənbədə belə bir izah verilir: “Sufilik ruhu bütün varlıqda, hətta təbiətdə, materiyada da təzahür edir, nəhayət mütləq həqiqətə-Allaha qovuşur”(4, 67). Gördüyümüz kimi yenə insanın Allah-a qovuşması, onun özünün ilahiləşməsi “vəhdəti-vücud” ideyası anlamını ortaya çıxarır. Ziyəddin Göyüşov bu məsələ ilə bağlı bildirir: “Sufilərin təliminə görə dünya Allahın təcəssümüdür”(8, 62). Göyüşovun fikrincə həmin təlimin başlanğıcında sufi anlayışının yaranmasından qat-qat əvvəl islamda asketizm təlimçilərini zidd və ya abid adlandırırdılar. Həmin insanlar nə dünya nemətlərindən imtina etməyi, öz qüvvənə arxalanmağa və yalnız Allah-a ümid olmağı, həmçinin də Allah-a ibadətdən başqa həyatın mənası olmadığı fikrini irəli sürürdülər. Onların fikrincə mükafat və cəzalar qabaqcadan müəyyənləşdirilmişdir. Bu fikirlər sufiliyin ilk yaranışında bəsit şəkildə ortaya atılsa da, sonralar “vəhdəti vücud” təlimi şəklində tam halında təriqətə, dini cərəyana çevirmişdir.

Məlumdur ki, dinin, təsəvvüfün və fəlsəfənin əsas araşdırma obyekti yaradılış problemi, ümumiyyətlə dünyanın və insanlığın yaranma səbəbidir. Lakin fərq burasındadır ki, şəriət və təsəvvüfün varlığa münasibəti heç də eyniyət təşkil etmir, əksinə görüşlərinə görə fərqlənir. Onlar arsındakı fərq məhz “yaratmaq” və “görünmək” anlayışları ilə izah edilə bilər. Belə ki, şəriət, yəni din bütün varlıqların Allah tərəfindən yaradıldığını və Allahın onların heç birinə bənzəmədiyini iddia edirsə, təsəvvüf bütün mövcud varlıqların Allah-ın görüntülərindən qeyri heç nə olmadığını təsdiq edir. Təsəvvüfə görə Allah, bütün varlıqlar və həmçinin insan bir bütövün içərisində aranıb araşdırılır. Odur ki, sufilik və həmçinin insan bir bütövün içərisində aranıb araşdırılır. Odur ki, sufilik təliminin ardıcılları sonralar insanın mənəvi aləminin təşkilinə rəhbərlik ilə bağlı əxlaqi təmizləmə istiqamətində hərəkət, əməl və fikir münasibətlərinin daim izlənməsi üçün tam mənada mürəkkəb əxlaqi qadağalar işləyib hazırlamışlar. Bu baxımdan mənbələrin birində bildirilir: “Sufizmin əsaslandığı ilk başlıca amillər zühd (asketizm) və fəqirlik hesab olunur. Buna

görə də deyirlər: Zahid (asket) fəqirdir, fəqir sufidir”(4, 145). Zahid nə qədər varlı olsa bununla fərəhlənmək və məhrum olduqlarının təəssübkeşliyini çəkməz fikri hələ Şəri Səqətidə ifadə olunmuşdur. Şərq mütəffəkirlərindən Əbu Usmanın fikrincə də dünyanı tərk edib sonra ona sahib olacaq kəs ilə maraqlanmamağının özü zühddür. Bütün bu məsələlər təsəvvüfün əsasını təşkil etsə də tam mənada onun cəhətlərinə uyğunlaşmır. Belə ki, sufilər zühd və fəqirliyin bəzi ştrixlərini dəstəkləsələr də özlərini zahid zahid və ya fəqirlər kimi tənha deyil, Allahla birlikdə, yəni vəhdətdə görürdülər. Məhz buna görə də Cüneyd Bağdadi təsəvvüf anlayışının açıqlamasını verərkən, haqqın sənə məxsus “sən”i öldürməsi, özünəməxsus “sən”i diriltməsi fikrini söyləmişdir. Göründüyü kimi, sufilikdə varlıq, yaranışla bağlı məsələlər müxtəlif həyat tərzi, əxlaq və dünyagörüşlərinə malik insanlar tərəfindən fərqli izah olunur. Bu baxımdan İ.Petruşevski sufiləri qruplara bölərək onlardan bir qrupunu asketizm mistisizmdən üstün tutan, müsəlman “möminliyi” yolundan çıxmayanlara, digərlərini mistizmi əsas bilərək monoteist mövqedə möminliyi qəbul edən sufilərə aid etmişdir.

Bunlardan başqa onun nəzərində bir qrup sufi də var ki, onlar üçün şəriətin icrası o qədər də əhəmiyyətli deyildir. Odur ki, onları ifrat sufilər hesab edən Petruşevski yazır: “Şəriəti ariflər, yəni artıq Allahla əlaqə imkanına çatanlar üçün lazımsız hesab edən belə sufilər formanı yalnız mistik yolun fədəkarlığında Allahla hələlik əlaqə imkanına çatmayan kəslər üçün vacib sayır və hər hansı dinin xarici mahiyyətinə əhəmiyyət vermirdilər”(7, 320). Bu məsəl ilə bağlı mənbələrin əksəriyyətində sufilər iki qrupa bölünərək ifrat sufilər və tərki-dünyalığı üstün tutan “mömin” sufilər adını alırlar. Orta əsrlərin yaşayış normalarını təbliğ edən “Qabusnamə” kitabında həmin fikir belə çözələnir: “Bu dəstənin adət və ənənələri, cavanmərdlikləri iki cürdür: biri yoxsul sufilərə xasdır, o birisi sufipərəstlər. Lakin tam mənada dərslik odur ki, heç bir şeyin olmasın”(3, 208). Bu mənbədə əsl sufi məhz tərkidünya olmuş, fəqir həyatını seçmişlərdir. Gördüyümüz kimi sufi adını daşıyan insanların həyat tərzi ilə bağlı fikirlər üstünlük təşkil edir. təsəvvüf tarixinin onun mahiyyətini əks etdirməkdə nə dərəcədə rolu olduğunu görməmək mümkün deyil. Təsəvvüfi dəyərlərin əks olunduğu əsas mənbələr məhz bədii-estetik fikrin daşıyıcısı olan ədəbi irsdir. Həmin irs imkan verir ki, təsəvvüfün məhz gizli qalan, anlaşılmayan məqamlarını açılsın.

ƏDƏBİYYAT

1. Hüseyn Nəsr. Səsəsətu Hukəmə muslimin. Beyrut, 1971
2. İmadəddin Nəsimi. Əsərləri. I cild. Bakı. Elm, 1973
3. Qabusnamə. Azərnəşr, Bakı, 1989
4. Maqsud Fərhadoğlu. Fəlsəfənin əsasları. Bakı, Maarif, 2000
5. Mine Mengi. Türk Edebiyyatı Tarihi. Metnler. Akğac
6. Zakir Məmmədov. Azərbaycanda XI-XII əsrlərdə fəlsəfi fikir. Bakı, Elm, 1978
7. Петрушевский И.Щ. Ислам в Иране в VII-XV веках. Ленинград
8. Зияддин Геюшев. Этическая мысл в Азербайджане. Баку, 1968

РЕЗЮМЕ

ЗОХРА ГАФАРОВА

ИСТОРИЯ СУФИЗМА, ФОРМИРОВАНИЕ ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКОЙ КОНЦЕПЦИИ

Как известно, суфизм играл большую роль в формировании национальной культуры и нравственности в средние века, в период правления Шаха Исмаила приходящийся на пик развития нашей истории и считающиеся эпохой классической литературы. Несмотря на то, что многочисленные споры о причинах и месте возникновения суфизма, о его смысловой нагрузке, о арабском или неарабском происхождении этого слова создают на сегодняшний день проблемы для выведения конкретных выводов, это помогает в поисках логического ответа на интересующие нас вопросы. Все это создает необходимость внимательно исследовать высказанные по этому вопросу мысли, рассматривая корень слова суфизм и его происхождение с научной и общей точки зрения.

Ключевые слова: суфизм, национальная культура, корень суфизма, происхождение суфизма, история, литература

SUMMARY

ZOHRA QAFAROVA

HISTORY OF SUFIZM AND ITS FORMATION AS AN AESTHETIC CONCEPT

İt is true that, sufizm has great impact on the peak period of Shah İsmail dominance, our classic period of middle age literature, as well as our culture and it plays crucial role for formation of our national inwardness. It can surprise many people .Although today ,a lot of discussed opinons about when and why tesevvuf appeared, what meaning it is, and whether it is arabic word pose restrictions it creates logical chances. Therefore, while looking through the foundation of word sufizm, its root through academic assumptions it is recommended to research given opions.

Key words: Sufizm, national inwardness, root of sufizm, foundation of sufizm, history, literature academic assumptions it is recommended to research given opions.

(*Filologiya üzrə elmlər doktoru H.Həşimli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

TARİX

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi
ismayil_haciyev@yahoo.com

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ NAXÇIVAN

Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində Naxçıvan məsələsinə xüsusi əhəmiyyət verməsi faktlarla göstərilmiş, Cümhuriyyət hökuməti və parlamentinin fəaliyyətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirilməsi, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verilməməsi üçün ona siyasi, hərbi, maddi və mənəvi kömək göstərilməsi əsaslandırılmışdır.

Burada həmçinin Müsəlman Milli Komitəsinin Naxçıvanı qorumaq uğrunda fəaliyyəti, erməni daşnaklarına qarşı mübarizəsi, Osmanlı dövləti ilə yaratdığı əlaqələr, bölgədə yaradılan Araz-Türk Respublikası, Rusiyanın, İngiltərənin və ABŞ-ın Naxçıvanla bağlı siyasətləri araşdırılmışdır. Tədqiqat nəticəsində belə bir yekun nəticə çıxarılmışdır ki, yerli əhalinin istifadə etdiyi müxtəlif vasitələr, xüsusilə naxçıvanlıların inadlı mübarizələri Naxçıvanı Azərbaycanın tərkibində qoruyub saxlamışdır.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, naxçıvanlılar, türklər, Rusiya, İngiltərə, ABŞ, Araz-Türk Respublikası, ermənilər

1917-ci ilin Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda yaranan Zaqafqaziya Komissarlığının, daha sonra, 1918-ci il fevralın 23-də yaranan Zaqafqaziya Seyminin Sovet Rusiyasını tanımaqdan imtina etməsi Brest-Litovsk müqaviləsinin Cənubi Qafqazla bağlı maddələrinin yerinə yetirilməsi yolunda ciddi problemlərə yol açdı. Belə ki, Zaqafqaziya Seymi bəyan etdi ki, o bolşevik hökumətini tanımır və bu səbəbdən Zaqafqaziya Seyminin iştirakı olmadan Sovet Rusiyasının imzaladığı Brest-Litovsk müqaviləsinin Qafqazla bağlı müddəalarını yerinə yetirməyəcəkdir. Bu səbəbdən Türkiyə hökuməti Cənubi Qafqazda yaranan yeni siyasi vəziyyəti nəzərə alaraq, Cənubi Qafqazla bağlı Brest-Litovskda Sovet Rusiyasına qəbul etdirdiyi müqavilə əsaslarını Zaqafqaziya Seyminə də qəbul etdirmək məcburiyyətində qaldı. Türkiyə tərəfi ilə Seym arasında aparılan bir sıra məsləhətləşmələrdən sonra Brest-Litovsk müqaviləsinin şərtlərinin yerinə yetirilməsi və sərhədlərin müəyyən edilməsi ilə bağlı tərəflər arasında Trabzonda konfrans keçirilməsi qərarlaşdırıldı. Türkiyə ilə Seym arasında Trabzon danışıqları 1918-ci il martın 14-də açıldı və aprelin 13-dək davam etdi və nəticəsiz başa çatdı. Brest sülhünü qəbul edib, Qars, Ərdəhan və Batum vilayətlərinin Türkiyəyə keçdiyini təsdiq etməklə bağlı Trabzondakı Zaqafqaziya nümayəndələri arasında, həmçinin Seymdəki

fraksiyalar arasında birlik yox idi. Erməni və gürcülər Türkiyənin tələblərini rədd edib, onunla müharibə aparmağa çalışırdılarsa, Azərbaycan fraksiyası qarşılıqlı güzəştlər əsasında Osmanlı imperiyası ilə razılığa gəlməyi təklif edirdi. Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxartdı ki, gürcülər Batumu əldə saxlamaqla Qars və Ərdəhanın güzəştə gedilməsinə razı idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Azərbaycan fraksiyası isə bu fikirdə idi ki, Qars və Ərdəhanın əhalisinin əksəriyyəti türklər olduğu üçün Brest-Litovsk müqaviləsinin bu iki vilayət haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Zaqafqaziyanın tərkibində ayrıca müsəlman respublikasına çevrilməlidir, əgər bu mümkün olmazsa, onda o, Türkiyəyə birləşdirilməlidir. Batum isə xaricə mühüm çıxış yolu kimi Zaqafqaziyanın tərkibində qalmalıdır [16, s. 132]. Aprelin 13-də danışıqlar kəsildi və Seym hökuməti Türkiyənin Brest-Litovsk sülhünün şərtlərinin yerinə yetirilməsi ilə bağlı tələblərinin qarşısına silahla çıxmaq haqqında qərar qəbul etdi. Nəticədə, səkkiz gün davam edən müharibə nəticəsində Osmanlı dövləti Brest-Litovsk sülhü ilə ona verilmiş ərazilərə silah gücünə yiyələndi.

1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Türkiyənin tələblərini qəbul etdiyini bildirdi və sülh danışıqların davam etdirilməsini xahiş etdi. Elə həmin gün Seym Zaqafqaziyanı müstəqil demokratik, federativ respublika elan etdi [27, s. 92] və bununla da, Zaqafqaziyanın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi.

Osmanlı dövləti ilə Zaqafqaziya Respublikası arasında Batum konfransı 1918-ci il may ayının 11-də açıldı və fasilələrlə iyunun 4-nə qədər davam etdi. Batum konfransının 1918-ci il mayın 11-də keçirilən ilk və son ümumi iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə Türkiyənin tələblərini şərh edərək bildirdi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılmışsa həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz [34, s.110]. Daha sonra on iki maddə və üç əlavədən ibarət olan “Osmanlı imperiyası ilə Zaqafqaziya Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında” müqavilə layihəsi müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim edildi. Bu layihədə artıq Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi [16, s.147-148]. Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Zaqafqaziyanın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi [16, s. 157-158]. Zaqafqaziya nümayəndə heyəti isə, Brest-Litovsk müqaviləsi əsasında sülh bağlamaq üçün Batuma gəlmişdi.[6] Türk tələbləri ilə bağlı nota Zaqafqaziya nümayəndə heyətinə təqdim edildikdən sonra nümayəndəlikdə gərgin bir

vəziyyət yarandı və Zaqafqaziya heyətində, həmçinin Seymdə onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşməyə başladı. Batum danışıqlarında meydana çıxan ziddiyyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni nümayəndələrinin isə Almaniyaya sığınmasına gətirib çıxartdı ki, belə şərtlər daxilində Zaqafqaziya Federasiyasının mövcudluğu sual altında qaldı.

1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi və burada Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi. Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi [33, s. 336-338]. Seymin buraxılması ilə yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər [7, v. 46-47]. Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi [7, v.49-50]. Beləliklə, Türkiyənin haqlı tələblərinə münasibətdə vahid bir fikrə gələ bilməyən Zaqafqaziya Seymi süqut edərək Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarına parçalandı.

Türkiyə Zaqafqaziya Seymi ilə başladığı Batum danışıqlarını Seymin parçalanmasından sonra yaranan Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları ilə davam etdirdi və bu danışıqlar 4 iyun 1918-ci il tarixli Batum müqavilələrinin imzalanması ilə nəticələndi. Trabzon konfransında Osmanlı dövlətinin Brest-Litovsk sülhü ilə bağlı tələblərini qəbul etməyən və nəticədə müharibəyə rəvac verən erməni və gürcülərdən fərqli olaraq Azərbaycan nümayəndələrinin sülh tərəfdarı olmalarına və sonadək Türkiyə ilə müharibəyə qarşı mübarizə aparmalarına baxmayaraq, sonda Ermənistan və Gürcüstanla paralel olaraq Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Azərbaycan Tiflis quberniyasının Abastuman və Askueri istisna olmaqla Axıska və Axalkələk qəzalarının, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli (İğdır) qəzalarının, Eçmiədzin qəzasının Sərdarabad hissəsinin Osmanlı dövlətinə keçdiyini qəbul etməklə bərabər, İrəvan qəzasının Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələrini, Şərur-Dərələyəz qəzasının Şərur hissəsini və Ordubad istisna olmaqla Naxçıvan qəzasını Türkiyəyə verməli oldu. Bundan əlavə, Aleksandropol (Gümrü) türklər tərəfindən tutulduqdan sonra Azərbaycan yeni yaranan erməni dövləti üçün siyasi mərkəz olaraq İrəvanı ermənilərə güzəştə getməyə məcbur edildi [16, s.182-183].

Batum konfransı başa çatdıqdan sonra erməni quldur dəstələri bu müqaviləni tanımadıqlarını bəyan edib türklərə qarşı silahlı mübarizələrini davam etdirsələr də, bunun elə bir əhəmiyyəti olmadı. Osmanlı dövləti Batum müqavilələri ilə əldə etdiyi ərazilərə yiyələndi. 1918-ci il iyulun 20-də Osmanlı ordusu erməni quldur dəstələrinin müqavimətini qıraraq Naxçıvana girdi və beləliklə Naxçıvanda türk bayrağı dalğalanmağa başladı. 11-ci alay komandanı Sürəyya bəy Naxçıvan Məhəlli hökumət rəisi təyin edildi. Bir qədər sonra onu

Əli Şəfiq bəy əvəz etdi [16, s.184]. 1918-ci il avqustun 15-də Osmanlı Sultanı VI Mehmed Vahidəddin tərəfindən “Elviye-i Səlasə” əhalisinə yayımlanan bir bəyannamə ilə bu torpaqlar rəsmən ilhaq edildi. Sentyabrın 14-də bölgədə idarəçilik orqanlarının qurulması haqqında qərarnamə qəbul edildi. Bu qərarnaməyə görə, Qars, Ərdəhan, Batum və ətraf ərazilərdə (Batum müqavilələrinə görə Osmanlı dövlətinə keçən ərazilərdə) Batum və Qars livalarından ibarət mürəkkəb Batum vilayəti təşkil edildi [16, s.184]. 1918-ci il oktyabrın 30-da dünya müharibəsində məğlub olan Türkiyənin Mudros barışığını imzalamasından sonra, noyabrın 3-də Naxçıvan və ətraf yerlərin silahlı erməni quldur dəstələrinin və Ermənistan Respublikasının təcavüzündən qorumaq zərurətindən bu ərazilərdə Araz-Türk Respublikası yaradıldı [12].

1918-ci ilin mayında müsəlman şərqində ilk dəfə yaradılmış yeni suveren dövlət - Azərbaycan Xalq Cümhuriyyəti çətin və mürəkkəb şəraitdə 23 ay yaşayıb fəaliyyət göstərdi. Bu Cümhuriyyət Rusiya ilə yanaşı dünyanın böyük dövlətlərinin - ABŞ, İngiltərə və Fransanın siyasi, iqtisadi siyasətlərinin məngənəsində mübarizə aparmalı oldu, öz suverenliyini qoruyub saxlamaq üçün bütün vasitələrə əl atdı, bu yolda çox mürəkkəb problemlərlə üzləşdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113 895, 97 kv. km idi. Onun 97 296, 67 kv. km-i mübahisəsiz, 16 598, 30 kv. km-i mübahisəli zonaları əhatə edirdi [11, s.461]. Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı. Azərbaycan tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti, Antanta ölkələri ilə əlaqələri, qonşu ölkələrlə münasibətləri, daxili regionlarla əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər bir sıra tarixçilər tərəfindən öyrənilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrindən tədqiqat əsərlərində bəhs edilsə də, problemin bütün tərəfləri öyrənilməmişdir. Hətta bu problemlə bağlı müxtəlif fikirlər mövcuddur. Azərbaycan sovet tarixşünaslığında belə bir fikri əsaslandırmağa çalışmışlar ki, guya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ayrı-ayrı bölgələrinin ərazi toxunulmazlığını və onların əhalisinin təhlükəsizliyini nəinki təmin edə bilməmiş, hətta buna cəhdlər belə göstərməmişdir. Lakin arxiv sənədləri, obyektiv araşdırmalar bu mövqeyin həqiqətə uyğun olmadığını göstərir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti öz fəaliyyətində, daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdir [10, s.6]. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqədar Naxçıvan ətrafında yeni konkret tarixi şəraitdə sosial və ictimai-siyasi qüvvələrin yeni nisbəti yaranmışdı. Cümhuriyyətin fəaliyyət göstərdiyi dövrdə baş vermiş sosial və siyasi proseslər bir-biri ilə çox sıx əlaqəli inkişaf edirdi. Bu proseslər daxili və xarici amillərin mürəkkəb qarşılıqlı təsirini əks etdirən bir mənzərə yaratmışdı. RSFSR çar Rusiyasından miras qalmış millətçilik ideologiyasını hər vəchlə müdafiə və inkişaf etdirərək

çox mürəkkəb şəraitdə müsəlman aləmini parçalamaq, bu regionda ona arxa ola biləcək xristian dövləti - Ermənistan Respublikası yaratmaq məqsədi ilə cəhdlərini daha da genişləndirirdi.

Ermənistan Respublikasının Naxçıvana hücumları, hakimiyyət çəkişmələri bu bölgəni daha çıxılmaz vəziyyətə salmışdı. Əhalinin xeyli hissəsi qaçqına çevrilmişdi, aclıq hökm sürürdü. Naxçıvan diyarına 1828-1830-cu illərdə köçürülmüş və orada məskunlaşdırılmış erməni əhalisi diyarda vəziyyətin daha da mürəkkəbləşməsinə çalışırdı. Naxçıvandakı ermənilərə, xarici silahlı qüvvələrə arxalanan Ermənistan Respublikası Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirirdi. ABŞ, İngiltərə, Fransa, Rusiya dövlətləri Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər. Naxçıvan ermənilər diyarın təkləndiyindən və daxildəki ziddiyyətlər, habelə hakimiyyətsizlik məngənəsində boğulduğundan istifadə edərək Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər. Erməni qüvvələri vəziyyətin mürəkkəbliyindən, qarışıqlıqdan istifadə edərək "Böyük Ermənistan" yaratmaq üçün ərazi iddiaları irəli sürürdülər. Ermənilər torpaq iddiaları ilə bağlı layihə hazırlamış və bunu Ənvər paşaya da təqdim etmişdilər. Bu layihəyə görə Naxçıvan və Ordubadla birlikdə Sürməli, Axalkələk, Eçmiədzin, İrəvan (qəzası), Borçalı, Qazax, Şərur-Dərələyəz, Qarabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi. Ermənilər bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzaların əhalisinin 70 faizi ermənilərdir [5, v.4]. Əslində isə Şərur-Dərələyəz qəzasında əhalinin 72,3 faizini, Naxçıvan qəzasında 62,5 faizini, İrəvan qəzasında 60,2 faizini, Sürməlidə 70 faizini, Qarayazıda 89 faizini azərbaycanlılar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi. 1918-ci ilin yayında Naxçıvan ikitərəfli təhlükə ilə rastlaşdı. Bir tərəfdən Naxçıvana köçürülən və burada yaşayan erməni əhalisi bu diyarın Ermənistana birləşdiriləcəyi barədə yayılan şayiələrdən ruhlanaraq Naxçıvana Ermənistanın bir hissəsi kimi baxır və diyarın müxtəlif yerlərində hər cür fitnəkarlıq törədirdilər. Digər tərəfdən isə daşnakların ingilislərdən geniş yardım alaraq [14, s.9,10] Culfanı öz əlinə keçirmiş qaniçən Andranik Ozanyan Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdı: Yaycı, Dizə, Düylün, Süst, Ceşməbasar, Tumbul və b. kəndlər tamamilə dağıdılmışdı. Lakin bu azğınlıqlara baxmayaraq müttəfiq dövlətlər - İngiltərə və Fransa daşnakların hərbi əməliyyatlarına yardım göstərdiklərini bildirməkdə davam edirdilər. Belə ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi haqlı olaraq türklərlə əlaqəni daha da genişləndirməyi lazım bildi [13, s.159]. Həmin vaxtda türklər Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın komandanlığı altında olan türk diviziyası Şərur qəzasına daxil olduqdan sonra hücumu müvəqqəti dayandırmış və beləliklə Andranikin Naxçıvanı ələ keçirməsi üçün əlverişli imkan yaranmışdı. Belə bir şəraitdə Naxçıvan Milli

Komitəsi daşnakların sayca üstün qüvvələri ilə döyüşə girmədən geri çəkilməyi məqsədəuyğun sayırdı. Bununla belə, bütün xalq öz torpaqlarının müdafiəsi üçün ayağa qalxdı. Nehrəm kəndində qonşu kəndlərin nümayəndələrinin fəal iştirakı ilə xalq qoşun dəstələri yaradıldı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsi ilə qarşılaşaraq onu əzdi. Andranik rüsvayçılıqla Qarabağ dağlarına qaçmağa məcbur oldu. Bu hadisələrdən sonra, yeni daşnak talanlarına yol verməmək məqsədilə türk qoşunları Naxçıvana, Ordubada və Culfaya daxil oldular. Türklərin daşnaklara qarşı döyüşdə kifayət qədər qətiyyətli olmaması Naxçıvan Milli Komitəsi ilə onların arasında soyuqluq yaratmışdı. Türklər Naxçıvana daxil olan vaxt ilk siyasi tədbir kimi Naxçıvan Milli Komitəsini və milli hissələri buraxmışdılar. Xəlil bəy isə Naxçıvanın general qubernatoru təyin olunmuşdu [29, s. 36]. Lakin vəziyyət uzun sürmədi. Tezliklə Naxçıvan Milli Komitəsinin və onun silahlı dəstələrinin fəaliyyəti bərpa edildi. 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Elə yerli hakimiyyət ki, daşnakların hücumuna davam gətirsin və diyarı heç vaxt onların tapdığı altına qoymasın. Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu.

1918-ci ilin noyabrında yerli əhali Araz-Türk Respublikasının müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi [15, s.47].

Araz-Türk Respublikasının əhalisi 1 milyon nəfər, ərazisi 8696 kv. km olmaqla [12, s.33] tərkibinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Kəmərli, Mehri və s. bölgələr daxil idi. Respublikanın paytaxtı Naxçıvan şəhəri, hökumətin sədri isə Əmir bəy Nərimanbəyov idi [15, s.47]. Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı.

Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. 1919-cu il yanvarın 4-də Naxçıvandan Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə göndərilən müraciətdə Naxçıvan, Şərur və Ordubad qəzalarında ermənilərin törətdiyi vəhşiliklər haqqında geniş məlumat verilirdi. 1918-ci il noyabrın 4-də İrəvan müsəlmanları, dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanları, yanvarın 4-də Ordubad qəzasının sakinləri, yanvarın 2-də İrəvan quberniyasının ictimai xadimləri yaranmış ağır vəziyyətlə bağlı Azərbaycan hökumətinə müraciət etmiş və tədbirlər görülməsini xahiş etmişdilər [9, 1919, 5-31 yanvar, 4 noyabr]. 1918-ci il dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanlarının Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə xəbər verirdi ki, “bəzi kəndlərdə bütün Zəngəzur qəzasının Ermənistana birləşməsi barədə Ermənistan hökumətinin elanları asılmışdır. Onların məqsədi bundan

ibarətdir. Əgər bunu etməyə gücləri çatmasa, Zəngəzur, Şərur-Naxçıvan və Ordubad qəzalarının bütün müsəlman əhalisini qılıncdan keçirsinlər, bu qəzaları müsəlmanlardan təmizləsinlər ki, xalqların gələcək sülh konfransında özlərinin bu yerlərə sahiblik hüquqlarını sübut etsinlər və həmin əraziləri Ermənistan elan etsinlər, çünki bütün xalqlar müsəlmanların yaşamadığı qəzaları ermənilərinki hesab edəcəklər... Nə vaxta qədər bizim hökumət öz müsəlman qardaşlarının qırılaraq məhv edilməsinə yabançı kimi soyuqqanlıqla tamaşa edəcəkdir... Əgər ermənilər bu əraziləri müsəlmanlardan təmizləsələr, sonra gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq və burada bizim xalqımızın izi də qalmayacaq...” [9, 1919, 14 yanvar]. 1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərməyə məcbur oldu. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu [9, 1919, 7 yanvar]. Yanvarın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti müzakirə etdi, qəbul olunmuş qətnamədə hökumətə ciddi tədbirlər görməyi tapşırdı. Yanvarın 25-də Parlament “İrəvan quberniyasındakı hadisələrə dair” məsələni yenidən müzakirə etdi. M.Ə.Rəsulzadə bəyanatla çıxış edərək bildirdi ki, Naxçıvan qəzasında ermənilər günahsız müsəlmanların qanını tökür. O, hökuməti bir daha kəskin tədbirlər görməyə çağırdı [9, 1919, 31 yanvar].

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılmasında və əhalinin problemlərinin həllində İrəvan quberniyasından olan ictimai xadimlərin, onların yaratdıqları müxtəlif təşkilatların mühüm rolu olmuşdur. 1919-cu ilin yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirilmiş, burada Araz-Türk Respublikasının yaranması, bölgədəki vəziyyət haqqında məlumat verilmiş və çıxış yolları göstərilmişdir. Yanvarın 5-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlı nümayəndələrin fövqəladə iclası keçirilmiş və quberniya müsəlmanlarının Həmyerlilər cəmiyyəti yaradılmışdı [3, v.2]. Bir gün sonra Həmyerlilər cəmiyyətinin idarə heyəti aşağıdakı tərkibdə seçildi: T.Makinski, H.Qasımov, R.İsmayılov, M.Ə.Sidqi, A.Makinski. Həmyerlilər cəmiyyəti öz nümayəndəsi kimi Mirabbas Mirbağırovu İrəvan quberniyasına göndərdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Naxçıvan əhalisinə, eyni zamanda İrəvan quberniyasından olan qaçqınlara müxtəlif yardımlar edir və onların ehtiyaclarını ödəmək üçün maliyyə vəsaiti ayırırdı. Azərbaycan hökumətinin Naxçıvan üçün ayırdığı 900 min manatı P.Bayrambəyov və Y.Qazıyevə vermişdi [18, s.92]. AXC hökumətinin razılığı ilə M.Mirbağırov Gəncəyə gəlmiş, burada ona 12 nəfər Azərbaycan zabiti qoşulmuş və onlar Ordubadda əhali ilə görüşdükdən sonra 1919-cu il fevralın 19-da Naxçıvana çatmışdılar [3, v.2]. M.Mirbağırov və onunla gələn heyət yerli hökumətin rəhbərləri, ingilis general-qubernatoru və xalqın nümayəndələri ilə görüşləri oldu. Fevralın 23-də keçirilən yığıncaqda Naxçıvan əhalisi yekdilliklə Azərbaycana birləşmək arzusunda olduğunu bildirdi. Nümayəndələr Azərbaycanın təmsilçiləri kimi mövcud yerli hökuməti tanıdıqlarını bildirdilər. M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət

məsələlərinə dair maddələrdən ibarət olan akt hökumətin, Milli Şuranın və əhalinin nümayəndələri tərəfindən imzalandı [18, s.94]. Mirabbas Mirbağırov (Mirbağırzadə) 1919-cu ildə Naxçıvanın Azərbaycana birləşməsi haqqında akt qəbul etdirmiş “Mirbağırzadə missiyası”nin başçısı kimi xatırlanır [28]. M.Mirbağırov Naxçıvanda olduğu müddətdə bölgədəki və ətraf yerlərdəki siyasi-hərbi vəziyyətlə tanış oldu, əhalinin və ictimai qüvvələrin mövqelərini öyrəndi. Bütün bunlardan sonra Azərbaycan hökumətinə aşağıdakı təkliflərini verdi: “1. Bu mahalı idarə etmək üçün müttəfiqlərin, İran və Ermənistanın təsirinə qarşı mübarizə aparmağa qabil olan, özgə təsiri altına düşməyən və müəyyən məqsədyönlü siyasəti inadla və ardıcıllıqla həyata keçirən, habelə iradəli, cəsur, qətiyyətli, rüşvətə meyl etməyən azərbaycanlı general-qubernator təyin olunmalıdır. 2. Bölgəyə Hərbi nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir. 3. Mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar mütləq azərbaycanlılar təyin edilməlidirlər. 4. Yerli hərbi işi təşkil etmək üçün göndərilən zabitlər kifayət etmədiyindən əlavə zabitlər dəstəsini bölgəyə yollamaq lazımdır. 5. Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu və digər faydalı mineralları olan və müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Respublikası tərəfindən səxavətlə təchiz olunmalıdırlar” [18, s.95]. M.Mirbağırovun Naxçıvana səfəri, Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrinin artırılması sahəsindəki təkliflərinin çox böyük əhəmiyyəti oldu. Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı. Azərbaycan hökuməti M.Mirbağırovun və Naxçıvanın Müvəqqəti hökumətinin işlər müdiri Bəhram xan Naxçıvanskinin təklifləri əsasında 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaratdı [4, v.3]. Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov onun köməkçiləri təyin olundular. General-qubernatorluğun nəzdində Şura yaradıldı. Yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün 500 min manat pul ayrıldı [18, s.96]. Bir qədər sonra - 1919-cu il 30 mart tarixli sərəncamla bölgədə idarəçiliyin təşkilinə daha 1 milyon manat ayrıldı [4, v.3]. 1919-cu il martın 8-də Araz-Türk Respublikasının xüsusi missiyası Bakıya gəldi. Bu missiyaya Bəhram xan Naxçıvanski rəhbərlik edirdi. O, yolüstü Tiflisdə və Gəncədə danışıqlar aparmışdı. Bəhram xan özü ilə Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirmək təklifini də gətirmişdi. Bəhram xan Bakıdan eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etdi [24, s.161].

1919-cu ilin əvvəlində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını, Naxçıvan Milli Komitəsini ləğv etmişdilər. İngilislər Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək üçün hər cür üsul və vasitələrə əl atır, fəal danışıqlar aparırdılar. Hələ 1919-cu il yanvarın əvvəllərində Böyük Britaniya ordusunun mayoru Hibbon Naxçıvana gəlmişdi. Onun gəlişinin əsl məqsədi diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz-Türk Respublikası silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdu [35, s.56]. 1919-cu ilin fevralında digər bir

ingilis komissarı kapitan Lautenin başçılıq etdiyi nümayəndə heyəti də Naxçıvana gəlmişdi [19, v.24]. O, Britaniya qoşun hissəsinin Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda yerləşdirilməsi, bu yerlərdə bütün məsələlərin ingilis hakimiyyət orqanları tərəfindən həll ediləcəyi barədə danışıqlar aparmışdı. Naxçıvan rəhbərləri yerli muxtariyyəti saxlamaq şərtilə ingilislərin təkliflərini qəbul etmiş və hətta bir neçə ingilispərəst yerli hakimi öz hökumətlərinin tərkibinə daxil etmişdilər [19, v.26]. Böyük Britaniya komandanlığının Naxçıvana münasibətdə ikiüzlü, riyakar siyasəti həmişə müşahidə olunmuşdur. Məsələn, M.Mirbağırovun başçılığı ilə Naxçıvana gələn nümayəndə heyətinə ingilis valisi "Bakının buraya hərbi işin təşkili üçün zabitlər göndərməyə haqqının olmadığını" bildirib, onlara eşitdirmişdi ki, "bu ərazi hələlik Azərbaycanın tərkib hissəsi deyil və məlum deyil ki, kimə çatacaq; indi burada ingilis general-qubernatorluğudur..." [2, v.3] Başqa bir fakt: 1919-cu il martın 10-da Ermənistanla Naxçıvan şəhərindəki daşnak hərbi hissələrindən Ermənistanın daxili işlər nazirinin adına göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı daşnakların Şərur qəzasının bir sıra kəndlərini tutmasına etiraz etmir. Elə bu siyasətin nəticəsi olaraq 1919-cu ilin iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da, yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovdu [23, s.91-92]. Yenə başqa bir misal: 1919-cu il mayın 4-5-də ingilis generalı Devi Naxçıvana gələrək bildirmişdir ki, Naxçıvan və Şərur qəzası Ermənistan Respublikası ərazisində yerləşdiyinə görə Ermənistan hökumətinə tabe olmalıdır [20, v.17]. Lakin həmin təklif müsəlmanların yığıncağında müzakirə olunarkən bildirildi ki, ermənilərin tutmuş olduqları ərazilər tarixən Azərbaycan torpaqları olduğundan və bu yerlərdə müsəlmanlar yaşadıqlarına görə Devinin təklifi məqbul sayıla bilməz. Naxçıvan və Şərur qəzalarının müsəlmanları özlərinin və yaşadıqları ərazinin Azərbaycan Respublikasına tabe olduğunu təsdiq edir və erməni silahlı hissələrini deyilən qəzaların ərazisinə buraxmamağı qərara alırlar [32, 1919, 16 may]. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər [24, s.165]. Milli Şura əlverişli vəziyyətdən istifadə edib, erməni nizami hissələrini əzdi. Naxçıvan və Şərur qəzalarının, demək olar ki, bütün ərazilərini tutaraq, burada öz şəriksiz nüfuzunu bərpa etdi [35, s.51-53].

Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli müəyyən işləri görə bilməsə də, bəzi diplomatik-siyasi yollardan istifadə edirdi. Bu sahədə Azərbaycan hökumətinin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri səmərəli və işgüzar fəaliyyət göstərir, Azərbaycan rəhbərliyini və Xarici İşlər Nazirliyini obyektiv məlumatlarla təmin edir, bir sıra hallarda təkliflərini də çatdırırdılar. M.Təkinski Naxçıvanla bağlı AXC hökuməti sədrinə yazırdı ki, əgər Ermənistan Qarabağın Azərbaycana keçməsinə razılaşarsa, ingilislər Şərur-Naxçıvan rayonunu ona verəcəklər [8, v.30]. Onun fikrincə, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək olmazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında da M.Təkinskinin böyük əməyi olmuşdur [25]. O, bu məsələlərlə əlaqədar məlumat hazırlayaraq Xarici İşlər Nazirliyinə gön-

dərirdi. Bununla əlaqədar F.Xoyski Azərbaycan hökumətinin məlum mövqeyini Tomsona bildirmişdi.

Naxçıvan bölgəsinin müsəlmanları özlərini Azərbaycanın ayrılmaz hissəsi sayır və hökumətdən silah-sursat alacaqlarına ümid edirdilər. Bu dövrdə Şərur-Naxçıvan bölgəsində süvari dəstə və top, pulemyotlarla birlikdə 6 minədək qoşun hissələri olmuşdur [18, s.143]. Bunlar öz döyüş keyfiyyətlərinə görə ermənilərinkindən heç də geri qalmırdı. Naxçıvanlılar baş nazirdən buraya zabit kadrları göndərməyi və 100 min manat pul buraxılmasını xahiş edirdilər [8, v.30]. Azərbaycan hökuməti Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat göndərmişdi və daha 300 min manat göndərilməsi nəzərdə tutulmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin baş nazirləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvana köməklik edir, onun Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir və qəhrəman naxçıvanlıların fəaliyyətlərini də yüksək qiymətləndirirdilər. F.Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu bölgə ilə bağlı qeyd etmişdir ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi [32, 1919, 10 sentyabr]. 1919-cu il dekabrın 22-də N.Yusifbəyli parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdir: “İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa-vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar...” [5, iş 37, v.4-5].

1919-cu ilin ikinci yarısında Zaqafqaziya məsələləri üzrə Paris sülh konfransı adından çıxış edən ABŞ-ın rolu bölgədə kəskin surətdə artdı. Hələ 1919-cu ilin əvəllərindən Azərbaycanla ciddi maraqlanan ABŞ nümayəndələri tez-tez Bakıda görünməyə başlamışdılar. Şübhəsiz onların Azərbaycana dair planlarında mühüm strateji mövqedə yerləşən Naxçıvan diyarı da öz əksini tapmışdı. Lakin ilk vaxtlar amerikalıların siyasəti də ermənipərəstliyi ilə ingilislərdən az fərqlənirdi. 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ polkovniki Rey eyni vaxtda həm müsavatçılarla, həm daşnaklarla, həm də türk zabiti Xəlil bəylə danışıqlar aparmışdı [20, v.71]. O, Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq ideyasını irəli sürmüşdü [17, s. 29-30]. 1919-cu il avqustun axırlarında Amerika polkovniki Paris sülh konfransı və Antantanın ittifaq şurası adından AXC hökumətinə bildirmişdi ki, Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general- qubernatorluğu təşkil olunacaqdır [35, s.65].

1919-cu il sentyabrın 1-də Haskelin Paris sülh konfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi "Naxçıvan və Şərur-Dərələyəz qəzaları haqqında əsasnamə"də həmin fikirlər bir daha nəzərə çatdırıldı [21, v.135]. Əsasnaməyə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar bitərəf zona elan edilir və burada bütün idarəçilik işləri Amerika general-qubernatorluğuna tapşırılırdı [30, s.300-301]. Lakin ABŞ-ın həmin mövqeyi AXC hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilmədi. V.Haskel birincidən o qədər də fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi. Azərbaycan xarici işlər naziri sentyabr ayının 29-da Haskelə yazırdı ki, onun hökuməti şərtlərin bir qisminə etiraz edir. Bununla belə hökumət Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general-qubernatorluğun yaradılmasının əleyhinə deyildir. Azərbaycan hökuməti 12 bənddən ibarət layihə hazırladı və sentyabr ayında polkovnik Haskelə göndərdi. V.Haskel Azərbaycan tərəfindən təqdim edilən layihəni qəbul etmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və K.M.Əsgərovu qəbul edərək bildirdi ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmund Delli Naxçıvana qubernator təyin edilmişdir və bir aydan sonra öz vəzifəsinə başlayacaqdır. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin 10 bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisinin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi [32, 1919, 23 oktyabr]. Oktyabr ayının 24-də Ceyms S.Rey Naxçıvana gəldi və müsəlman Milli Şurası qarşısında neytral zona yaratmaq barədə V.Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi ki, Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını..., polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm. Ceyms Rey sərəncamla bəyanatda qeyd olunanları rəsmiləşdirdi. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarının nümayəndəsi kimi qaldı. Noyabr ayında C.Rey və E.Delli cəhd göstərsələr də, general-qubernatorluq yarada bilmədilər, onların missiyası süquta uğradı və Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmadı. Bunu görən ermənilər 1919-cu ilin sonlarında Naxçıvana yenidən hücum etdilər. Ermənistanın nizami qoşun hissələri ilə Naxçıvan Milli Komitəsinin hərbi dəstələri arasında qanlı toqquşmalar başlandı. Bu qanlı döyüşlər amerikalıların ümidlərini doğrultmadı. Döyüş qabiliyyətini itirmiş Ermənistan ordusu heç bir əhəmiyyətli müvəffəqiyyət qazanmadı. Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur, Ordubad və Naxçıvan torpaqları 1920-ci ilin ortalarına doğru tamamilə erməni daşnaklarından təmizləndi. Kalbalı xan və onun tərəfdarlarının səyləri nəticəsində Naxçıvandakı general-qubernatorluq 1920-ci ilin martında faktiki olaraq ləğv edilmiş və Naxçıvan yenidən dövlət müstəqilliyi qazanmışdı. Təsadüfi deyildir ki, o günlərdə Naxçıvan, Şərur, Ordubad və Vedibasar rayonu nümayəndələrinin iclası "qəti olaraq AXC-yə birləşmək"

cəhdini ifadə edirdi [15, s.116]. Naxçıvan diyarının əhalisini erməni qırğınından xilas etmək üçün türklərin köməyinə ehtiyac duyulurdu. Yerli əhali nümayəndələrinin türk qoşunlarını Naxçıvana dəvət etmək barədə mətbuatda dərc olunmuş müraciətdə də həmin reallıq öz ifadəsini tapmışdı. Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymur bəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən böyük şadlıqla qarşılandı. Hadisələrin sonrakı gedişi bir daha təsdiq etdi ki, bu tədbir Naxçıvan əhalisinin yeni qırğınının qarşısını almış, diyarın gələcək siyasi taleyinin həllində, onun məhz Azərbaycan dövlətinin tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli, bəlkə də müəyyənedici rol oynamışdır.

Beləliklə, aydın olur ki, “Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirmiş” [9, 2017, 17 may], hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın itirilməsinə və ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş və bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparmış, eyni zamanda Naxçıvana hərbi və maddi köməkliklər göstərmiş, lakin bütün bunlarla yanaşı, özləri çətin ictimai-siyasi və hərbi vəziyyətlə qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməmişlər. Bölgə əhalisinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan ərazisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmış və nəhayət 1921-ci ilin martında və oktyabrında imzalanmış beynəlxalq Moskva və Qars müqavilələrinə uyğun olaraq Naxçıvan Azərbaycanın himayəsinə verilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 894, siy.2, iş 94.
2. ARDA, f.894, siy.2, iş 76.
3. ARDA, f.894, siy.2, iş 94.
4. ARDA, f.894, siy.2, iş 102.
5. ARDA, f.894, siy.10, iş 31.
6. ARDA, f.894, siy.10, iş 178.
7. ARDA, f.970, siy.1, iş 1.
8. ARDA, f.970, siy.1, iş 54.
9. “Azərbaycan” qəzeti.
10. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev. Naxçıvan, 2010, 384 s.
11. Azərbaycan tarixi. Yeddi cilddə. Beşinci cild (1900-1920-ci illər), Bakı, 2008, 696 s.
12. Bir sıra tədqiqatçılar bunun noyabrın 18-də olduğunu qeyd edirlər.
13. Cəfərli E. Rusiya və Türkiyənin və Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri). Naxçıvan, 2017, 224 s.
14. Emin Arif (Şıxəliyev). İngiltərənin geosiyasi maraqlarında “erməni məsələsi”nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan, 2016, 144 s.

15. Hacıyev A. Qars və Araz-Türk respublikaları tarixindən. Bakı, 1994, 124 s.
16. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, Bakı, 2011, 474 s.
17. Quliyev C., Mədətov Q., Nadirov A. Sovet Naxçıvanı. Bakı,1984, 136 s.
18. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, 328 s.
19. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 314, siy.5, iş 67.
20. NMRDA, f. 314, siy.5, iş 71.
21. NMRDA, f. 314, siy.5, iş 73.
22. Naxçıvan tarixi atlası. Bakı, 2010, 52 s.
23. Naxçıvan Muxtar Respublikası. Bakı, 2001, 222 s.
24. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı,1996, 304 s.
25. Paşayev A. Məmməd xan Təkinski kimdir?//Xalq qəzeti, 2010, 18 iyul
26. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, 120 s.
27. Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000, 373 s.
28. Tahirzadə Ə. Mirabbas Mirhüseyn oğlu Mirbağırzadə//525-ci qəzet, 2005, 19 fevral.
29. Atnur İ.E. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçivan (1918-1921). Doktora tezi. Erzurum, 1996, 438 s.
30. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998, 616 с.
31. Авалов З. Независимость Грузии в международной политике. 1918-1921 гг. Париж, 1924, 220 с.
32. Газета “Азербайджан”.
33. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919, 420 с.
34. Каземзаде Ф. Борьба за Закавказье (1917-1921). Баку, 2010, 328 с.
35. Мадатов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку, 1968, 190 с.

РЕЗЮМЕ

ИСМАИЛ ГАДЖИЕВ

АЗЕРБАЙДЖАНСКАЯ НАРОДНАЯ РЕСПУБЛИКА И НАХЧЫВАН

В статье на основе фактов показаны важная роль, отведенная нахчыванскому вопросу в период деятельности Азербайджанской Народной Республики, некоторые вопросы в деятельности республиканского парламента и власти, связанные с Нахчываном,

политическая, военная материальная и моральная помощь, оказанная области, во имя избегания оккупации со стороны армян.

Здесь также исследована деятельность Мусульманского Национального Комитета в целях защиты Нахчывана, борьба против армянских дашнаков, связи с Османским государством, созданная в области Аракс-Тюркская Республика, политика США и Англии в отношении Нахчывана. Во время исследования автор пришел к заключению, что разные методы, использованные населением, особенно упорная борьба нахчыванцев способствовали сохранению Нахчывана в составе Азербайджана.

Ключевые слова: Азербайджанская Народная Республика, нахчыванцы, тюрки, Россия, Англия, США, Аракс-Тюркская Республика, армяне

SUMMARY

ISMAYIL HAJIYEV

AZERBAIJAN PEOPLE REPUBLIC AND NAKHCHIVAN

In the article by the facts the author has showed Nakhchivan problem takes an especial place in the activity of Azerbaijan People Republic. The following problems were substantiate that during the activity of the government and parliament of Azerbaijan People Republic they paid a especial attention to some problems related with Nakhchivan, for do not give permission the occupation of the region by Armenians the government gave Nakhchivan political, military, material and spiritual help.

In here the author also speaks about the activity of Moslem National Committee for to defend Nakhchivan. The fighting of the Committee against armenian dashnaks, its relations with Ottoman empire, Araz-Turk Republic created in the region, the policy of Russia, England and USA related with Nakhchivan were investigated. After the investigation the author has got such results that the different variant used by aborigine people, especially persistent fighting of Nakhchivani gave opportunity to keep Nakhchivan under the rule of Azerbaijan Republic.

Key words: Azerbaijan People Republic, Nakhchivani, turks, Russia, England, USA, Araz-Turk Republic, armenians

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

VƏLİ BAXŞƏLİYEV
AMEA Naxçıvan Bölməsi
velibahshaliyev@mail.ru

NAXÇIVANIN QƏDİM KÖÇ YOLLARININ TƏDQİQİ

Naxçıvan ərazisində yeni aşkar olunan Eneolit abidələrinin tədqiqi qədim köç yollarını müəyyən etməyə imkan vermişdir. Araşdırmalar göstərir ki, Naxçıvanın qədim sakinləri Dərələyəz və Zəngəzur dağlarında olan xammal mənbələrindən, xüsusilə obsidian və mis yataqlarından istifadə etmişlər. Obsidian başlıca olaraq Göyçə və Sünikdən gətirilmişdir. Mis əşaların tədqiqi başlıca olaraq Naxçıvan ərazisində olan mis və polimetall yataqlarından istifadə olunduğunu göstərir. Eneolit abidələrinin xəritələşdirilməsi onların başlıca olaraq xammal mənbələrinə gedən yollar üzərində salındığını təsdiq edir.

Açar sözlər: Naxçıvan, Dərələyəz, Zəngəzur, mis yataqları, obsidian, köç yolları.

2010-2016-cı illərdə Naxçıvançay və Sirabçay vadisində aparılan araşdırmalar zamanı 20-dən artıq Eneolit abidəsi aşkar olunmuşdur (3, c. 88-95). Bu yaşayış yerlərinin tədqiqi zamanı mis filizinin minerallarının tapılması burada məskunlaşan qədim sakinlərin ətraf aləmlə, o cümlədən misin mineralları ilə tanış olduğunu göstərir. I Kültəpə, Uçan Ağıl, Zirincli, Ovçulartəpəsi kimi yaşayış yerlərindən mis filizinin və minerallarının tapılması Naxçıvan qədim sakinlərinin metal emalına maraq göstərdiyini təsdiq edir (1, s. 30-31). Ovçulartəpəsindən körük ucluğunun, Zirinclidən isə saxsı qəlibin tapılması (5, c. 46-50), e.ə.V minillikdə Naxçıvanda metal emalının mənimsəndiyini təsdiq edir (9, p. 69-72). Ovçular Təpəsi yaşayış yerindən aşkar olunan metal əşyaların tərkibinin Naxçıvandakı mis yataqları ilə müqayisəsi bu yataqların qədim insanlar tərəfindən istifadə olunduğunu göstərir.

I Kültəpə yaşayış yeri və onun ətrafında aparılan araşdırmalar Naxçıvanın qədim sakinlərinin Zəngəzur və Dərələyəz sıra dağlarındakı xammal mənbələrindən, xüsusilə obsidian və mis yataqlarından istifadə etdiyini göstərir (4, 136-145). Bu xammal mənbələrinə gedən yolları müəyyənləşdirmək üçün Naxçıvan MR-in müxtəlif rayonlarında, xüsusilə Ordubad, Culfa və Şahbuz rayonları ərazisində kəşfiyyat xarakterli araşdırmalar da aparılmışdır. Araşdırmaların əsas məqsədi yuxarıda da qeyd etdiyimiz kimi, metal, xüsusilə mis filizi yataqlarını və köç yollarını müəyyənləşdirməkdən ibarət olmuşdur.

Qədim köç yollarını müəyyənləşdirmək üçün müəyyən etnoqrafik araşdırmalar da aparıldı 2015-ci ildə Uçan Ağıl yaşayış yerində apardığımız araşdırmalar zamanı Ordubad rayonunun Göygöl bölgəsindən gələn çobanlarla

müsahibə apardıq. Göygöl ətrafında mis yataqlarının olması isə bizə məlum idi (2, c. 17). Buna görə ilk səfərimiz Göygölə oldu. Bu ərazidə olduğumuz müddət ərzində yol boyu xeyli mövsümi yaşayış yerlərinə rast gəldik (Şəkil 1). Bu yaşayış yerlərində yalnız Orta əsrlər keramikasına rast gəlinirdi. Bununla yanaşı yaşayış yerlərində dairəvi və dördkünc formalı binaların qalıqları da saxlanmışdı. Araşdırma zamanı müəyyən olundu ki, bu binaların bir qismi yaşayış sahəsi kimi, bir qismi isə heyvan ağılı kimi istifadə olunmuşdur. Yaşayış yerlərinin yaxınlığında kurqanlara da rast gəldik. Lakin tədqiqat aparmadan onların dövrünü dəqiq demək mümkün deyildir.

Çobanlarla apardığımız sorğu nəticəsində müəyyən etdik ki, bu ərazidən başlıca olaraq Kəngərli rayonuna maldarları yaylaq kimi istifadə edir. Maldarlar Göygöl yaylaqlarına gəlmək üçün 5-6 gün vaxt sərf edirmişlər. Onlar başlıca olaraq iyun ayının ortalarında gəlir və sentyabr ayınadək yaylaqda qalırmışlar. Sonra havalar soyuduğu üçün Arazboyu qışlaqlara dönürmüşlər. Ehtimal ki, qədim mədənçilər maldarlar arasından çıxmışdır. Göygöl ərazisi qışda qarla örtülü olduğu üçün həm maldarların, həm də mədənçilərin yaşaması üçün əlverişli deyildi. Şübhəsiz ki, bu yaylaqlardan və mədənlərdən yay vaxtı istifadə olunmuşdur.

Şəkil 1. Göygöl ətrafındakı yaşayış yeri.

Göygöl yaxınlığında yol boyu bir neçə yerdə mis filizinin təzahürləri ilə rastlaşdıq. Yarğanlar sel sularının yuyub gətirdiyi mis filizinin mineralları olan malaxit və azuritlə zəngin idi. Bəzi yerlərdə daşların və qayaların üzəri yaşıl mis oksidi ilə örtülmüşdü. Məlum olduğu kimi, Ordubad rayonu ərazisində vaxtilə mis külçələri də tapılmışdır (2, c. 9-15). Şübhəsiz ki, Göygöl yaylaqlarında olan mis yataqları qədim dövrdən insanların diqqətini çəkmiş və istifadə olunmuşdur. Bu yataqdan istifadə olunub olunmadığını daha da dəqiqləşdirmək üçün yatağın bir neçə yerindən filiz nümunələri götürüldü.

Şərur rayonunda Ovçulartəpəsi yaşayış yerindən aşkar olunan mis alətlərin və filiz qalıqlarının analizi, onların Vayxır Misdağı və Əlincəqala yaxınlığındakı Göydərə yatağının filizi ilə müqayisəli təhlili bu alətlərin yerli metal yataqları əsasında istehsal edildiyini göstərmişdi. Qeyd edək ki, bizim əvvəlki illərdə apardığımız araşdırmalar da bunu sübut edir. Lakin faktları dəqiqləşdirmək məqsədi ilə Ordubad rayonunun Pəzməri, Kələki və Urumıs kəndləri yaxınlığındakı metal yataqlarından da nümunələr götürülərək tədqiqata təqdim edilmişdir.

Araşdırma zamanı həmçinin Göygöl yaylağında olan heyvanlardan ikisi təcrübə məqsədi ilə alınaraq kəsildi. Tədqiqat başlıca olaraq heyvanların sümükləri üzərində aparılır. Heyvanların arandan yayalağa və əksinə hərəkəti zamanı onların yedikləri yem və içdikləri su nəticəsində heyvan sümüklərində müəyyən dəyişiklik baş verir. Bu dəyişikliklərin analizi, xüsusilə dişlərdə toplanan izotopların tədqiqi heyvanların hərəkət istiqamətini müəyyən etməyə imkan verir. Eyni araşdırmalar Kültəpə və onun ətrafından aşkar olunan heyvan sümükləri üzərində aparılır. Bu araşdırmaların müqayisəli təhlili qədim maldarların və onlarla birlikdə hərəkət edən mədənçilərin köç yollarını müəyyən etməyə imkan verir.



. Şəkil 2. Dərə Şahbuz yaşayış yerinin keramikası.

Maldarlarla apardığımız sorğular çobanların bir qisminin Sirab, Nəhəcir, Qazançı və Bayəhməd istiqamətində hərəkət edərək Göygölə getdiyini

müəyyən etməyə imkan verdi. Odur ki, yolumuzu bu istiqamətdən salaraq Bayəhməd aşırımından Göygölə keçdik. Yol boyu yaylaqlarda olan heyvan sürüləri və maldar insanlarla rastlaşırdıq. Bu yaylaqlarda həmçinin Babək rayonundan gəlmiş maldarlar var idi. Maldarların hərəkət etdiyi yollar üzərində xeyli yurd yerləri var idi. Maraqlıdır ki, bu yurd yerlərinin birində biz mis filizinin təzahürləri ilə də rastlaşdıq və həmin nümunələr analiz üçün götürüldü.

Naxçıvan maldarlarının köç yollarını müəyyən etmək üçün Şahbuz rayonunun Keçili və Gömür kəndi ərazisində də araşdırmalar aparıldı. Araşdırmalar zamanı Keçili kəndi yaxınlığındakı Bulaq başı yerləşməsi xüsusilə maraqlı oldu. Burada yurd yerində mədəni təbəqənin olması yaylaqdan uzun müddət istifadə olunduğunu təsdiq edirdi. Arxeoloji materiallar başlıca olaraq Orta əsrlərə aid idi. Şübhəsiz ki, qədim dövrlərdən burada yaşayış olmuşdur.

Bu istiqamətdə aparılan araşdırmalar zamanı yeni bir Eneolit yaşayış yeri aşkar olundu. Bu yaşayış yerini vaxtilə bu ərazidə olan yaşayış yerinin adı ilə Dərə Şahbuz adlandırdıq. Yaşayış yeri təqribən iki hektara yaxın ərazini əhatə edirdi. Yerüstü materiallar başlıca olaraq keramika məmulatı, obsidian və dən daşlarından ibarət idi. Küpə və kasa tipli qablardan ibarət olan keramika məmulatı başlıca olaraq saman və qum qarışıq keramikadan hazırlanaraq çəhrayı rəngdə bişirilmişdi. Keramikalardan bəzilərinin üzərində daraqvari alətin izləri qalmışdı. Lakin darama naxış yalnız bir nümunədə rastlanmışdı. Kasa tipli qablardan birinin üzərində bişirildikdən sonra yuvarlaq deşik açılmışdı (Şəkil 2). İlkin tədqiqatlara əsaslanaraq Dərə Şahbuz yaşayış yerinin materiallarını Eneolit dövrünün Erkən və Son mərhələsinə aid edə bilərik.



Şəkil 3. Qədim Naxçıvan sakinlərinin istifadə etdiyi obsidian yataqları

Kömür kəndində Salvartı yaylaqlarında aparılan araşdırmalar bu yaylaqlarda Şərurun müxtəlif yerlərindən gələn maldarların məskunlaşdığını

göstərdi. Araşdırmalar zamanı məlum oldu ki, burada maldarlar hava şəraitindən asılı olaraq sentyabrın sonu və oktyabrın əvvəllərinədək qalırmışlar. İstər Salvartı yaylaqlarında, istərsə də Keçilidə apardığımız araşdırmalar zamanı müəyyən edildi ki, Naxçıvanın maldarları yaxın keçmişdə, yəni sovetlər dövründə indiki Ermənistan ərazisindəki yaylaqlara getmək üçün başlıca olaraq Ərəfsə keçidindən istifadə etmişlər. Sünik obsidian yataqlarının Ərəfsə yaxınlığında olması da bu baxımdan diqqətəlayiqdir (Şəkil 3).

Araşdırmalar zamanı diqqətəlayiq cəhətlərdən biri o idi ki, Şərur maldarları Salvartı yaylaqlarından istifadə etmək üçün Kəngərli rayonunun Qarabağlar, Çalxanqala, Babək rayonunun Payız kəndindən keçən dağ yolundan istifadə etmişdilər. Şübhəsiz ki, bu yol əks istiqamətdə də istifadə edilmişdir.

Qeyd edək ki, əvvəlki illərdə apardığımız araşdırmalar zamanı Qarabağlar kəndi yaxınlığında və Sust kəndində Eneolit yaşayış yerlərinin olduğu müəyyən olunmuşdu. Bu istiqamətdə aparılan araşdırmalar zamanı Şahbuz rayonunun Sələsüz kəndi yaxınlığında aşkar olunan Eneolit yaşayış yeri də əhəmiyyətli oldu (Şəkil 4). Bu yaşayış yeri diyarımızın qədim köç yollarınının istiqamətini müəyyənləşdirməyə imkan verdi. Sələsüz yaşayış yerindən aşkar olunan keramika əsasən saman, bəzən isə qum qarışıq gildən hazırlanaraq çəhrayı, bəzən isə boz rəngdə bişirilmişdir. Keramika məmulatı arasında qum qarışıq keramika üstünlük təşkil edir. Kasa tipli qabların biri boyalıdır. Bu tip boyalı keramikanın bənzərlərinə Culfa Kültəpəsinin keramika məmulatı arasında rast gəlmək olur (7, p. 33-165; 8, p. 59-71).



Şəkil 4. Sələsüz yaşayış yerini keramikası.

Bu yoldan həmçinin qədim Kültəpə sakinləri də istifadə edə bilərdi. Qarabağlar ətrafında Eneolit məskənlərinin aşkar olunması bu baxımdan diqqətəlayiqdir. Məlum olduğu kimi, Kültəpə sakinlərinin istifadə elədiyi

obsidianın 65% Göyçə gölü hövzəsindəki yataqlardan gətirilmişdir. Bu yataqlara getmək üçün ən əlverişli yol isə Arpaçay vadisidir. Arpaçay vadisində indiki Ermənistan ərazisində də Eneolit yaşayış yerləri aşkar edilmişdir. Şübhəsiz ki, bu vadi qədim dövrdə Naxçıvanda məskunlaşan maldar tayfalar tərəfindən istifadə edilmişdir. Sirabçay vadisindəki yaşayış yerlərindən aşkar olunan obsidianların analizi onların bəzisində Göyçə obsidianının üstünlük təşkil etdiyini göstərir. Kültəpə sakinləri Payız dərəsindən Sust-Qarabağlar-Ovçular istiqamətində Göyçə hövzəsinə gedə bilərdilər.

Məlum olduğu kimi, Şərur rayonunun Gümüşlü kəndi yaxınlığında zəngin gümüş qarışığı olan Sink-Qurğuşun yatağı var. Ovçulartəpəsində aparılan araşdırmalar zamanı Eneolit dövrünə aid təbəqədən qurğuşun filizinin qalıqları aşkar olunması bizi bu metal yatağında araşdırmalar aparmağa vadar etdi. Araşdırmalar zamanı həm analiz üçün filiz nümunələri götürüldü, həm də ərazi araşdırılaraq keramika nümunələri götürüldü. Keramika nümunələri başlıca olaraq Orta Tunc, Dəmir dövrü və Orta əsrlərə aid idi.

2016-cı ilin araşdırmaları zamanı Naxçıvan şəhəri yaxınlığında Eneolit dövrünə aid yeni bir yaşayış yeri qeydə alınmışdır. Bu yaşayış yerinin Naxçıvançay vadisində olması olduqca önəmlidir. Bu abidə Azərbaycanın Cənubunda məskunlaşan tayfalarla Naxçıvan tayfaları arasındakı əlaqələri müəyyən etmək baxımından önəmlidir. Bu yeni abidə qədim əkinçi-maldar tayfaların Naxçıvançay və Sirabçay vadisi boyunca şimala-Zəngəzur dağlarına hərəkət istiqamətlərini müəyyənləşdirməyə imkan verəcəkdir. Bu, ilkin araşdırmalar sayəsində ölkəmizin qədim sakinlərinin ətraf aləmlə əlaqələrini müəyyənləşdirmək mümkün olmuşdur.

Arxeoloji araşdırmaların nəticələri Naxçıvan ərazisindən keçən qədim köç yollarını müəyyən etməyə imkan vermişdir. Bu köç yollarından həm Naxçıvan əhalisi, həm də Azərbaycanın cənubunda məskunlaşan qədim tayfalar istifadə etmişdir (6, p. 1956-1965). Yeni aşkar olunan yaşayış yerləri köç yollarının müəyyən istiqamətlərini müəyyən etsə də bu məsələ hələlik tam həll olunmamışdır. Şübhəsiz ki, gələcək araşdırmalar bu istiqamətdə yeni faktlar əldə etməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar, 2010, 160 s.
2. Бахшалиев В.Б. Древняя металлургия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, 120 с.
3. Бахшалиев В.Б. Новые энеолитические памятники на территории Нахчывана // Российская археология, 2014, № 2, с. 88-95.
4. Бахшалиев В.Б. Новые материал ы неолита и энеолита из Нахчывана // Российская археология, 2015, № 2, с. 136-145.
5. Рзаева Р.Н.Находки инструментов металлообработки в окрестностях Кюльтепе I / Российская археология, 2015, № 2, с. 46-50.

6. Farhang Khademi Nadooshan, Akbar Abedi, Michael D. Glascock, Nasir Eskandari, Mostafa Khazaee. Provenance of prehistoric obsidian artifacts from Kul Tepe, northwestern Iran using X-ray fluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, 40, p. 1956-1965.
7. Akbar Abadi, Hamid Khatib Shahidi, Christine Chataıgner, Kamalaldin Niknami, Nasir Eskandari, MehdiKazempour, Alireza Pirmohammadi, Javid Hoseinzadeh, Ghader Ebrahimi. Excavations at Kultepe (Hadishahr) North - Western İran, 2010. First Preliminary Report // ANES, 2014, 51, p. 33-165
8. Stephan Kroll. Der Kultepe bei Marand eine Chalkolithische siedlung in İranisch-Azarbaidjan // Archäologische Mitteilungen aus Iran, 1990, 23, p. 59–71.
9. Marro C., Bakhchaliyev V. and Ashurov S. Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100.

РЕЗЮМЕ

ВЕЛИ БАХШАЛИЕВ

ИССЛЕДОВАНИЕ ДРЕВНИХ КОЧЬЕВЫХ ПУТЕЙ НАХЧЫВАНА

Исследование нововыявленных энеолитических памятников позволяют определить направления древний кочевых путей. Исследования показывают, что древние поселенцы Нахчывана использовали сырьевые ресурсы, а особенно обсидиановые и медные залежи Даралаяз и Зангезурского хребтов. Обсидиан в основном привезен из Гекче и Сюника. Исследование древних медных предметов показало, что в изготовлении их использованы местные медные и полиметаллические ресурсы Нахчывана. Картографирование энеолитических поселений показывают, что они были расположены на пути передвижения древних поселенцев к сырьевым ресурсам.

Ключевые слова: Нахчыван, Даралаяз, Зангезур, медные залежи, обсидиан, кочевые пути.

SUMMARY

VELI BAKHSHALIYEV

RESEARCH OF ANCIENT NOMADIC WAYS OF NAKHCHYVAN

The directions ancient nomadic ways allow to define a research of the monuments which are new revealed the Chalcolithic Age. Researches show that ancient settlers of Nakhchivan used raw material resources, and especially obsidian and copper deposits Daralayaz and Zangezur mountain. Obsidian is generally brought from Gekche and Syunik. The research of ancient copper objects has shown that in their production are used local copper and polymetallic resources of Nakhchivan. Mapping the Chalcolithic Age

settlements is shown that they have been located on the way of movement of ancient settlers to raw material resources.

Keywords: Nakhchyvan, Daralayaz, Zangezur, copper deposits, obsidian, nomadic ways.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin inkişafı fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF KETPL-2-2015-1(25)-56/47/5.**

(*Akademik İ.Hacıyev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

FƏXRƏDDİN SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
hacifexreddin@yahoo.com.tr

NAXÇIVAN XANLIĞI DÖVRÜNƏ AİD EPİQRAFİK ABİDƏLƏR

Məqalədə Naxçıvan xanlığı dövrünə aid epiqrafik abidələrdən bəhs olunur. Qeyd olunur ki, bu kitabələr Naxçıvanın xanlıq dövrü tarix və mədəniyyətinə aid dəyərli məlumatlar təqdim edirlər. Məqalədə muxtar respublikanın bir sıra yerlərində (Əshabi-Kəhf, Ordubad şəhəri və s.) tədqiq olunan kitabələrdən bəhs olunmuşdur.

Açar sözlər: Naxçıvan xanlığı, Əshabi-Kəhf, Ordubad şəhəri, başdaşı, kitabə.

1736-cı ildə Səfəvilər dövlətinin süqutu ilə hakimiyyətə gələn Nadir şah Əfşarın səltənəti çox uzun sürmədi. Nadir şahın 1747-ci ildə qətlə yetirilməsi ilə onun yaratdığı böyük imperiyanın dağılması nəticəsində yaranan kiçik feodal dövlət qurumlarından biri olan Naxçıvan xanlığı çox mürəkkəb ictimai-siyasi vəziyyətdə olmasına baxmayaraq qonşu xanlıqlarla normal münasibətlər şəraitində yaşamaq üçün fəal xarici siyasət yeritməklə bərabər, daxili siyasət sahəsində də düşünülmüş addımlar atır, müəyyən qədər abadlıq, quruculuq işləri ilə məşğul olur, nəticədə mədəniyyət də tədricən inkişaf edirdi.

XVIII yüzilliyin II yarısında, xüsusilə görkəmli dövlət xadimi və diplomat I Kəlbəli xan Kəngərlinin hakimiyyəti dövründə Naxçıvan xanlığı özünün inkişaf dövrünü keçirirdi. Bu özünü epiqrafik abidələrin hazırlanmasında da göstərirdi. Naxçıvan bölgəsində həmin dövrə aid müəyyən qədər kitabələr gəlib çatmışdır. Az bir qismi inşaat xarakterli, əksəriyyəti isə məzar kitabələrindən ibarət olan bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında, xanlıqlar dövründə Naxçıvan bölgəsində qismən də olsa həyata keçirilən quruculuq və xeyriyyəçilik işləri, ümumiyyətlə dövrün tarix və mədəniyyəti haqqında müəyyən fikirlər söyləməyə imkan verir.

Belə kitabələrdən bir neçəsi inzibati-ərazi bölgüsü cəhətdən muxtar respublikanın Culfa rayonu ərazisində yerləşən “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində qalmışdır. Burada qalan əsas kitabə ziyarətgah – mağaranın axırında yerləşən məscidin mehrabında qoyulmuşdur. Bu kitabə Naxçıvan xanlarından Şükrulla xan Kəngərlinin Əshabi-Kəhflə əlaqədar xeyirxah əməlindən xəbər verir.

Ölçüsü 145x35 sm olan mərmər lövhənin səthi çərçivələrlə bölünmüş, onların içərisində və lövhənin səthinin kənarlarında lentvari haşiyə şəklində kitabə həkk edilmişdir. Mərkəzdə, 15 ədəd çərçivə içərisində nəfis şəkildə həkk edilmiş kitabənin mətni Qurani-Kərimin “əl-Kəhf” surəsindən götürülmüş 9, 10, 11, 12, 17 və 18-ci ayələrdən ibarətdir.

Mərmər lövhənin kənarlarında ensiz haşiyə şəklində həkk edilmiş kitabənin isə məzmunundan aydın olur ki, qar, yağış təsirindən burada yazılmış xətlər məhv olmuşdu. Ona görə də bu əzəmətli məkanın taleyi barəsində Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli – adı çəkilən ölkənin keçmiş hakimi, xeyirxah əməllər banisi, bağışlanmış Heydərqulu xanın xələfi – qərar verərək buyurdular ki, həmin lövhənin üzünü təzədən, səhvsiz ayrı bir daş lövhəyə yazdırsınlar və yadigar olaraq keçmiş lövhənin yerinə nəsb etsinlər. Bu əmrə əsasən mərhum, mömin Molla Mustafanın oğlu Məhəmməd Xətib Naxçıvani işə başlayıb, 1190-cı ilin səfər əl-müzəffər ayında lövhəni yazıb qurtarmışdır (1, s. 240-241; 2, s. 22-25; 3, s. 31-32).

Səfər, 1190 h.i. = 22.03 – 20.04.1776-cı il.

Kitabədən aydın olur ki, hazırda mövcud olan mərmər kitabənin yerində Qurani-Kərimin qeyd olunan ayələri həkk olunmuş kitabə var imiş. Ancaq zaman keçdikcə təbii qüvvələrin təsirindən həmin kitabə məhv olmuş, ona görə də onun mətni olduğu kimi, indi mehrabda olan lövhəyə həkk edilmiş və köhnə kitabənin yerinə qoyulmuşdur. Həmin vaxt bu xeyirxah göstərişi verən adamın – Şükrulla xanın adı da orada, kitabənin kənar haşiyələrində qeyd edilmişdir.

Kitabədə adı qeyd edilən Heydərqulu xan Naxçıvan ərazisində qədim zamanlardan məskun olan Kəngərli tayfasının başçılarındandır. Kitabəni yenidən yazdırıb mehraba qoyduran Şükrulla xan isə onun oğludur. XVI əsrdən etibarən Naxçıvan torpaqları tiyul hüququ ilə (müəyyən xidmət müqabilində tayfa başçılarına, sərkərdələrə və başqa görkəmli şəxsiyyətlərə müvəqqəti verilən torpaq sahələri) kəngərlilərə verildiyindən, eyni zamanda ərazinin idarə edilməsi bu tayfanın başçılarına tapşırıldığından və onlar ərazinin iri feodalları olmaqla bərabər, həm də hakimləri hesab olunduğundan kitabədə hər iki şəxsiyyət Naxçıvan ölkəsinin hakimi kimi qeyd edilmişdir.

Əshabi-Kəhfdə Şükrulla xan Kəngərlinin adı ilə bağlı bir məqam da vardır. Bu müqəddəs yerə ziyarətə gələrkən Şükrulla xanın ailəsi həmişə bu yerdə düşərgə saldığı üçün həmin yer “Şükrulla xan taxtı” adlanır (11, s. 97).

Mehrabdan yan tərəfdə üzərində kitabə olan iki ədəd yaşıl rəngli lövhə vardır. Onlar gəc və sementlə qayaya nəsb edilmişdir. Aşınmaya məruz qalmış bu kitabələrin mətni “əl-Kəhf” surəsindən götürülmüş ayələrdən ibarətdir. Fikrimizcə, bu kitabələr vaxtilə məsciddə qoyulan kitabənin parçalarıdır. XVIII əsrin son rübündə kitabənin üzü yenidən yazıldıqdan sonra bu parçalar kənara atılmamış, orada saxlanmışdır. Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılarkən həmin kitabələrin ətrafı bişmiş kərpiclə hörülərək səliqəyə salınmışdır.

Naxçıvan xanlığı dövründən bizədək gəlib çatan kitabələrin verdiyi məlumatlar əsasında, xanlıqlar dövründə Naxçıvanda yaşamış bir sıra görkəmli şəxsiyyətlərin adları, titulları, yaşadıqları dövrdəki fəaliyyəti, tutduqları mövqe, qəbirlərinin yeri, vəfat tarixləri və s. müəyyən edilmişdir. Belə şəxsiyyətlərdən biri görkəmli astronom, ensiklopedik biliyə malik alim, ictimai-siyasi xadim Nəsirəddin Tusinin nəslindən olan İzz Şərəf xanım və onun atası Mirzə İnayətdir. Keçən yüzilliyin 60-cı illərində Ordubad şəhər Came məscidinin ətrafında aşkar edilərək Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilən, hazırda

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən, mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsinin üzərində ərəb dilində süls xətti ilə həkk edilmiş kitabənin mətnindən məlum olmuşdur ki, bu abidə Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı İzz Şərəf xanımın xatirəsinə hazırlanmışdır (şəkil 1). Əvvəli Qurani-Kərimin 55-ci ("ər-Rəhman") surəsinin 26-cı ayəsi ilə başlanan kitabənin mətninin tərcüməsi belədir: "Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzz Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169" (7 aprel 1756-cı il) (5, s. 93; 10, s. 65-66).

Orta əsrlər zamanı zəmanəsinin görkəmli şəxsiyyətlərinin müqəddəs yerlərin, o cümlədən Came məscidlərinin ətrafında torpağa tapşırılması adəti geniş yayılmışdı. Mirzə İnayətin və qızı, mərhumə İzz Şərəf xanımın Ordubad şəhər Came məscidinin ətrafında dəfn olunması onların Ordubadın kübar ailələrindən birinin üzvü və zəmanəsinin sayılıb-seçilən şəxsiyyətlərindən olduğunu göstərir. Həmçinin bu kitabə Nəsirəddin Tusi nəslinin Ordubad şəhərində və şəhər ətrafı kəndlərdə qədim zamanlardan yaşadıqlarını və əslən Ordubaddan olduqlarını bir daha təsdiqləyir. Kitabə bu cəhətdən Ordubad şəhər Came məscidinin şərqdən giriş qapısının baş tərəfində qoyulan və mətni Səfəvi hökmdarı I Şah Abbasın Ordubad şəhər əhalisini xəzinəyə veriləcək bir sıra vergilərdən azad etməsi haqqında 1604-cü il tarixli fərmanından ibarət olan kitabədən sonra, ikinci epiqrafik sənəd kimi tarixi baxımdan çox əhəmiyyətlidir (5, s. 128-129; 7, s. 80-83).

Xanlıqlar dövründən indiyədək gəlib çatan kitabələrin verdiyi məlumatlar təsdiq edir ki, həmin dövrdə Naxçıvan bölgəsində bir sıra sənətkarlar yaşayıb yaratmışlar. Kitabələrin əks etdirdiyi məlumatlardan aydın olur ki, adı elmi dövriyyəyə daxil edilən belə naxçıvanlı sənətkarlardan biri də Kərbəlayi Şahverdi Dabbaqdır. Dabbaq Kərbəlayi Şahverdinin adını bizə Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbristanlığında qeydə alınaraq tədqiq edilən mərmər başdaşı üzərində ərəb dilində həkk edilən kitabə çatdırmışdır. Kitabənin mətni belədir: "Ey mərhəmətli, rəhmli! Qurani-Kərim LV-26. Bu qəbir Məhəmməd Ordubadinin oğlu, mərhum, günahları bağışlanmış Kərbəlayi Şahverdi dabbağındır. 1180-ci il, mubarək ramazan ayının 21-də (20 fevral 1767-ci ildə)". Məşhur bir sənətkarın – dabbağın adını özündə əks etdirən bu kitabə dabbaqlıq (dəri aşılama) sənətinin Ordubad şəhərində qədim və orta əsrlər zamanından inkişaf etdiyini təsdiq edir (5, s. 95).

"Malik İbrahim" qəbristanlığında indiyədək qalan bir məzar kitabəsi isə Ustad Mehdinin oğlu əttar Məşədi Əsgərxanın xatirəsinə hazırlanmışdır. Kitabənin mətni belədir: "Qurani – Kərim LV-26. Bu qəbir mərhum ustad Mehdinin oğlu, mərhum, günahları bağışlanmış əttar Məşədi Əsgərxanındır. 1188-ci il, məhərrəm əl-həram ayının 20-də (3 aprel 1774-cü ildə)" (5, s. 99; 7, s. 99). Göründüyü kimi, mərhumun atası kitabədə "Ustad" titulu ilə təqdim olunmuşdur. Bu titulla orta əsrlər zamanı görkəmli alimlərə, şairlərə, öz peşəsinin incəliklərinə bələd olan, bu sahədə kamilləşən məşhur sənətkarlara

və s. müraciət edilirdi. Adına əlavə olunan bu titul göstərir ki, Ustad Mehdi zəmanəsinin sayılıb seçilən, görkəmli şəxsiyyətlərindən olmuşdur.

Həmin qəbiristanlıqda tədqiq olunan başqa bir məzar kitabəsi Mirzə Həşim adlı görkəmli bir alimin adını özündə əks etdirir. Mərmərdən hazırlanmış başdaşı (şəkil 2) üzərində ərəb dilində, nəstəliq xətti ilə altı sətirdə həkk edilən kitabənin mətninin tərcüməsi belədir: “Bu işıqlı qəbir və ruhani yataq Mirzə Möminin oğlu, rəbbani alim, dövrün və zəmanənin müctəhidi Mirzə Həşimindir. 12 zilqədə, 1202-ci il (14.08.1788-ci il). Onu (kitabəni) yazdı və həkk etdi: Məhəmmədsaleh əl-Hüseyni əl-Qəzvini” (5, s. 102; 7, s. 101).

Kitabədə mərhum Mirzə Həşimin “rəbbani alim, dövrün və zəmanənin müctəhidi” titul və epitetləri ilə təqdim olunması göstərir ki, XVIII əsrdə Naxçıvan bölgəsində yaşamış və ali dini rütbə olan “müctəhid” dərəcəsinə qədər yüksəlmiş görkəmli alim olmuşdur. “Müstəhid” titulu şiə din xadimləri içərisində ali ruhani təbəqəsinə mənsub olan adamlara verilirdi. Onlar hər hansı dini və hüquqi məsələdə müstəqil fikir yürütmək hüququ olan və bununla əlaqədar qərar çıxaran, fitva verən, Quran ayələri və hədislərdən hökm çıxaran islam alimləri hesab olunurdular. Mirzə Həşimin “Müctəhid” titulu daşıması onun çox nüfuzlu din xadimi olduğunu göstərir (5, s. 133).

Kitabədən o da aydın olur ki, Müctəhid Mirzə Həşimin xatirəsinə hazırlanmış başdaşı üzərindəki kitabəni Məhəmmədsaleh əl-Hüseyni əl-Qəzvini adlı sənətkar həkk etmişdir. Bu məlumatlar göstərir ki, XVIII yüzillikdə Naxçıvanda əslən Qəzvindən olan daş üzərində işləmə, bədii daşyonma sənəti ilə məşğul olan ustalar da fəaliyyət göstərmişlər. Həmçinin kitabə XVIII yüzillikdə Ordubad şəhəri ilə Qəzvin şəhəri arasında mədəni əlaqələrin olmasını təsdiqləyir.

Ordubad şəhərində tədqiq olunan başqa bir kitabə isə məşhur Seyyid sülaləsi - Hüseynilər sülaləsindən olan Seyyid Hüseyn əl-Hüseyninin xatirəsinə hazırlanmışdır. Kitabənin (şəkil 3) mətninin tərcüməsi belədir: “[O] əbədidir! Mərhum, günahları bağışlanmış seyyidlərin və nəciblərin pənahı Seyyid Hüseyn əl-Hüseyninin vəfatı. 1186-cı il 04.04.1772-24.03.1773-cü il” (5 s. 98; 10, s. 71).

İ.P.Petruşevski Hüseyni seyyid sülaləsindən bəhs edərkən yazır ki, onlar Təbriz şəhəri ətrafında idarə etdikləri kəndləri və şəhərin özündə vəqfləri olan iri feodallar idi (9, s. 219). Ehtimal etmək olar ki, kitabədə Hüseyni soyadı ilə təqdim olunan mərhum Seyyid Hüseyn də həmin sülaləyə mənsub olmuşdur. Kitabənin mətnində mərhumun adına əlavə olunan “Seyyidlərin və nəciblərin pənahı” epitetləri onun zəmanəsinin görkəmli və nüfuzlu şəxsiyyətlərindən biri olduğunu göstərir.

Kitabələrin təqdim etdiyi məlumatlar təsdiq edir ki, XVIII yüzillikdə Naxçıvanda başqa ölkələrdən gəlmiş adamlar da yaşamışdır. “Malik İbrahim” qəbiristanlığında qeydə alınmış bir kitabədə (şəkil 4) belə bir məlumat vardır: “Bu qəbir Əliəsgər Bərbərinin oğlu, mərhum Əliəkbərindir. Cəmadi əl-əvvəl ayının 9-u, 1189-da”.

Göründüyü kimi kitabədə hicri-qəməri təqvimi ilə 9 cəmadi əl-əvvəl 1189-cu ildə (miladi, 8 iyul 1775-ci ildə) vəfat etmiş Əliəkbərin atası Əliəsgər "Bərbəri" nisbəsi ilə təqdim olunmuşdur (5, s. 99). Bu nisbə göstərir ki, o əslən Şimali Afrikanın ən qədim sakinlərindən olan "Bərbər" tayfalarına mənsubdur. Kitabə Ordubad şəhərinin bir sıra yerlərlə, o cümlədən Şimali Afrika ölkələri ilə əlaqələrinin olduğunu göstərir (5, s. 131).

Xanlıqlar dövründən zəmanəmizədək gəlib çatan məzar kitabələrinin bir qismində kiçik həcmli mənzum parçalara – beyt və misralara rast gəlinir. Dünyanın faniliyi, ölümdən şikayət və s. kimi fikirlərin ifadə olunduğu şeir parçaları naxçıvanlı xəttat və həkkakların, bədii daşyonma sənəti ustalarının kitabələri yazarkən heç də həmişə, eyni formadan istifadə etmədiklərini, şablonçuluqdan qaçdıqlarını, həkk etdikləri kitabələrin daha məzmunlu və təsirli olması üçün müxtəlif üsullara müraciət etdiklərini təsdiq edir.

Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında tədqiq olunan Sadıq adlı adamın hicri 1200 / 4.11.1785 – 23.10.1786-cı ildə vəfat etmiş oğlu Ağanəsir babaya məxsus məzar kitabəsində (şəkil 5) belə bir mənzum parça həkk olunmuşdur:

Ey həmnəfəs, keçəndə mənim məzarımın üstündən,
Uzaq ol məndən və ruzigarımdan!
Yüz min gül içində açmış bir gül idim,
Birdən əcəl yeli ayırdı növbaharımdan! (5, s. 100).

Yaxud da, vaxtilə Ordubad şəhərinin cənub tərəfində yerləşən "Pir Eyvaz" qəbristanlığında tədqiq edilən, hazırda Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyində mühafizə olunan Ağababanın oğlu Məşədi Rəcəbəliyə məxsus olan, hicri 1212 / 26.6.1797 – 14.6.1798-ci il tarixli məzar kitabəsində belə bir şeir parçası ilə rastlaşırıq:

O tazə tingin həyatı sona yetdi,
Bu fani dünyadan nakam getdi!
Əfsus ki, cavanlıq gülşəni,
Xəzan (payız) dövründə söndü! (5, s. 103).

Qəbirüstü xatirə abidələri üzərində həkk edilən epitafiyalarda–məzar kitabələrində Yaxın Şərq poeziyasından götürülmüş nümunələrə də rast gəlinir. Məsələn, Ordubad şəhərində Səfi bəy Əylisinin hicri 1183-cü ilin məhərrəm ayında (7.5.-5.6.1769-cu il) vəfat etmiş oğlu Məhəmmədrəhimin xatirəsinə hazırlanmış başdaşı üzərində "Ölüm kasasını hər kəs içəcəkdir!" misrası həkk edilmişdir (5, s. 97).

Şərq aləmində geniş yayılmış bu mənzum parça VIII-IX yüzilliklərdə yaşamış saray şairi Əbül-Ətahiyyəyə məxsusdur. Harun ər-Rəşidin müasiri olmuş Əbül-Ətahiyyənin bu misrası Bağdaddan Reyə, Səlcuqlar zamanında isə Kiçik Asiyaya keçmiş, oradan isə şimal-şərqə və şimal-qərbə yayılmışdır (8, s. 56). Ona görə də bəzi kitabələrdə "Qəbir elə bir qapıdır ki, bütün insanlar ona daxil olacaqdır!" – misrası ilə tamamlanan bu mənzum parçaya bir sıra müsəlman ölkələrinin epiqrafik abidələrində, o cümlədən Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi Naxçıvan bölgəsində də rast gəlinir.

Haqqında bəhs olunan bu kitabələr, həmçinin digər xalqlara mənsub şairlərin yaradıcılığından götürülmüş beytlər və misralar orta əsr naxçıvanlı sənətkarların Azərbaycan, eyni zamanda, Yaxın Şərq poeziyasından xəbərdar olduqlarını, Azərbaycanla qonşu ölkələr arasında ədəbi-mədəni əlaqələrin olduğunu təsdiq edən ən gözəl maddi dəlillərdəndir.

Göründüyü kimi, ərazidə XVIII yüzilliyin II yarısına aid gəlib çatan kitabələr Naxçıvanın xanlıqlar dövrü tarix və mədəniyyətinin bir sıra problemlərinin öyrənilməsinə kömək edir.

Əvvəlki yüzilliklərlə müqayisədə yüksək səviyyədə olmasa da, Naxçıvan ərazisində XIX yüzillikdə də epiqrafik abidələr yaradılmış, onların bir qismi indiyədək gəlib çatmışdır. Bu abidələr dövrün siyasi, sosial-iqtisadi həyatı və sair məsələlər haqqında dəyərli məlumatlar təqdim edirlər.

Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyində mühafizə olunan mərmər lövhə (35x29x12 sm)üzərində həkk edilmiş kitabənin mətnindən aydın olur ki, vaxtilə şəhərin cənub tərəfində, indiki Mədəniyyət sarayının yerində yerləşən iki mərtəbəli Kürdətal məscidinin qarşısındakı nəhəng çinar ağacı hicri 1230-cu ildə əkilibmiş. Üç sətirdə, nəsx xətti ilə həkk edilmiş kitabənin (şəkil 6) mətni belədir: “Çinarın əkilmə tarixi. 1230-cu ildə” (10, s. 22-23).

1230 h.i. = 14.12.1814-02.12.1815-ci il.

Çox təəssüflər olsun ki, keçən yüzilliyin 80-ci illərində yanından kanal qazılarkən gövdəsinin diametri 2 metrdən artıq olan ağacın kökləri kəsilmiş və qurumuşdur (10, s. 22-23). Azərbaycan epiqrafik abidələri içərisində belə məzmunlu kitabələrə nadir hallarda rast gəlinir.

Ordubad şəhərinin mərkəzində yerləşən Təkeşiyi (Yəhya bəy) məscidinin şərqdən giriş qapısının baş tərəfində qoyulmuş mərmər lövhə (82x55 sm) üzərində fars dilində nəstəliq xətti ilə mənzum formada həkk olunmuş kitabənin (şəkil 7) mətninin son hissəsindən aydın olur ki, bu məscid hicri 1241-ci ildə bərpa olunmuşdur. Kitabədən aydın olur ki, məscid bu vaxtadək daha iki dəfə təmir və bərpa etdirilmişdir. Həmçinin kitabədə məlumat verilir ki, kitabəni Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi əl-Həccar (daşyonan) həkk etmişdir (7, s. 105-106).

Xanlıqlar dövrünə aid məzar kitabələrinin bir hissəsi qadınların xatirəsinə hazırlanmışdır. Ordubad şəhərindəki “Malik İbrahim qəbristanlığı”nda bu qəbildən olan bir neçə kitabə tətbiq olunmuşdur. Yuxarıdan çatma tağla tamamlanan, mərmərdən hazırlanmış başdaşı (58x31x7 sm) üzərində, ərəb dilində, süls xətti ilə həkk edilmiş kitabə. Mətnin tərcüməsi belədir: “*Quran LV-26,27. Mərhumə, günahları bağışlanmış Həvva xanım. 1166-cı il*” (5, s. 92-93).

1166 h.i.=08.11.1752-28.10.1753-cü il.

Qəbristanlıqda sarımtıl-ağ rəngli mərmərdən hazırlanmış, yuxarıdan çatma tağla tamamlanan başqa bir başdaşı (35x28x5 sm) üzərində, üç sətirdə, ərəb dilində süls xətti ilə həkk edilmiş kitabənin mətni isə belədir: “*Bu qəbir - gül mərhumə, bağışlanmış Pəricahan xanımındır. 1221*” (10, s.75-76).

1221 h.i.=21.03.1806-10.03.1807-ci il.

Həmin qəbristanlıqda ağ mərmərdən düzbucaqlı şəklində hazırlanmış

başdaşı üzərində, ərəb dilində, süls elementli nəsx xətti ilə həkk edilmiş kitabə Bacıxanım adlı qadının xatirəsinə həsr olunmuşdur. Mətni belədir: "*Şeyx Məhəmmədin qızı Bacıxanım təkəbbür dünyasından köçdü. 1233*" (10, s. 78).

1233 h.i.=11.11.1817-30.10.1818-ci il.

Naxçıvan şəhərində də xanlıq dövrünə aid, qadının xatirəsinə hazırlanmış kitabə tədqiq olunmuşdur. Ağ rəngli mərmərdən hazırlanmış və hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilən kitabənin mətni belədir: "*Qurani-Kərim LV-26. kərbəlayi Hüseynin arvadı Sona xanım. İyirmi səfər 1238-ci ildə*" (10, s.79)

20 səfər 1238 h.i. = 6.11.1822-ci il

Ordubad rayonunun Yuxarı Əylis kəndində xanlıqlar dövrünə aid gəlib çatan məzar kitabələrinin məzmunundan aydın olur ki, bu abidələrin də çoxu qadınların xatirəsinə hazırlanmışdır. Kənd qəbiristanlığında tədqiq olunan 9 kitabədən altısının qadınlara (Şərəfnisə, Hökumə xanım, Nurşərəf, Həvva xanım və s.) aid olması diqqəti çəkən məsələdir.

Müsəlman epiqrafikası üzrə tanınmış tədqiqatçılardan tacik alimi A.Muxtarovun (6, s. 69) və dağıstanlı alim Ə.Şıxsəidovun (12, s. 328) fikrincə, orta əsrlərdə bir sıra qadınların xatirəsinə möhtəşəm yazılı qəbirüstü xatirə abidələrinin hazırlanması onların əcdadlarının və ya özlərinin sosial vəziyyəti, kübar mənşəyi ilə əlaqədar olmuş, həmin qadınlar, əsasən vəzifəli və imkanlı şəxslərin ailə üzvləri olmuşlar. Bu baxımdan orta əsr ticarət mərkəzlərindən olan Əylis şəhərində qadınlara məxsus məzar kitabələrinin çoxluğu təbii görünür. Ona görə də ehtimal etmək olar ki, xatirəsinə məzar kitabələri hazırlanmış bu mərhumələr Əylisin kübar ailələrinə mənsub qadınlar olmuşlar (4, s. 14).

ƏDƏBİYYAT

1. Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı Elm, 2003, 392 s
2. Səfərli H. Duaların Allaha çatdığı yer – Əshabi-Kəhf. Bakı: Elm, 2002, 48 s
3. Səfərli H. "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi. Naxçıvan: "Əcəmi" NPB, 2016, 72 s.
4. Səfərli H. Yuxarı Əylis: tarixi, abidələri. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Naxçıvan: 2007, № 3, s. 11-17.
5. Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
6. Мухтаров А. Намогильные кайраки с женскими именами (XIV-XVI вв). В кн. Древность и средневековье народов Средней Азии. История и культура. Москва: Наука, 1978, с. 69-76.
7. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI –Yeni nəşrlər evi, 2001, 216 с.

8. Нейматова М.С. Эпиграфические памятники и их значение в изучении социально-экономической истории Азербайджана. Автореферат дис.докт.ист.наук. Баку: Элм, 1968, 96 с.
9. Петрушевский И.П. Восстание ремесленников в городской бедноты в Тебризе в 1571-1573 гг. ССИА. Вып. 1. Баку: Изд-во АН Азерб. ССР, 1949, с. 214-224.
10. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАНА Азербайджана. Инв. № 8383.
11. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.
12. Шихсаидов А. Эпиграфические памятники Дагестана X-XVII вв. как исторический источник. Москва: Наука, 1984, 464 с.

РЕЗЮМЕ

ФАХРЕДДИН САФАРЛИ

ЭПИГРАФИЧЕСКИЕ ПАМЯТНИКИ ЭПОХИ НАХЧЫВАНСКОГО ХАНСТВА

В статье исследовано эпиграфические памятники эпохи Нахчыванского ханства. Отмечается, что эти памятники представляют ценные данные об истории и культуре ханства. Статья написана на основе эпиграфических памятников, исследованный целого ряда местностей (Асхаби- Кяф, город Ордубад и др.) автономной республики.

Ключевые слова: Нахчыванское ханство, Асхаби-Кяф, город Ордубад, надгробный камень, надпись.

SUMMARY

FAKHRADDIN SAFARLI

THE EPIGRAPHIC MONUMENTS ABOUT THE TIME OF NAKHCHIVAN KHANATE

In the article it is dealt with the epigraphic monuments about the time of Nakhchivan khanate. It is marked that these epitaphs introduce valuable information about the history and culture of the khanate period of Nakhchivan. In the article it is talked the investigated epitaphs, which had been discovered in some places (Ashabi-Kahf, Ordubad city etc.) of the autonomous republic.

Key words: The Nakhchivan khanate, Ashabi-Kahf, Ordubad city, tombstone, epitaph.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5**

Şəkil 1.



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.

Şəkil 5

Şəkil 6

Şəkil 7

(*Akademik İ.Hacıyev tərəfindən təqdim edilmişdir*)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

İBRAHİM KAZIMBƏYLİ
"Naxçıvan" Universiteti
ibrahimkazimbeyli@gmail.com

İRƏVAN BÖLGƏSİNDƏ ERMƏNİ-MÜSƏLMAN ZİDDİYYƏTLƏRİNİN İLKİN MƏRHƏLƏSİ (XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİ)

Elmi məqalədə Cənubi Qafqazdakı erməni-müsəlman konfliktinin İrəvan bölgəsi üzrə gedişinin ilkin səbəbləri, izlənilir. Tarixi faktları araşdırarkən və təhlil edərkən bir fakt daha qabarıq görünür: Xristian "böyük güclər". Azərbaycan torpaqlarında "erməni məsələsində" və "erməni dövlətinin" yaradılmasında xüsusi canfəşanlıq göstərmişlər. Fikrimizi təkcə bir faktla təsdiqləyək. Rusiya-Osmanlı müharibəsinin (1877-1878-ci illər) nəticəsində imzalanan San-Stefano və Berlin müqavilələrində Osmanlı dövlətinə təzyiq vasitəsi kimi "erməni məsələsi" ortaya atıldı. Bundan sonrakı dövrdə Rusiya ilə yanaşı İngiltərə və Fransa kimi böyük dövlətlərin xristian təəssübkeşliyi ilə hər vəchlə ermənilərı dəstəkləmələri XIX əsrin sonuna doğru Cənubi Qafqazda ziddiyyətlərin daha da gərginləşməsinə gətirib çıxardı. Bütün bu faktlar məqalədə ətraflı təhlil olunur.

Açar sözlər: İrəvan, bölgə, ziddiyyət, mərhələ, erməni-müsəlman.

1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrinə görə Rusiyanın istəyi və təkidi ilə İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülərək məqsədli şəkildə əsasən Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ ərazilərində məskunlaşdırılan ermənilərin çarizmin hər cür qayğı və dəstəyi ilə əhatə olunmaları və XIX əsrin ikinci yarısında Cənubi Qafqaza erməni köçünün növbəti mərhələsinin gerçəkləşməsi artıq XIX əsrin sonu – XX əsrin əvvəllərində ermənilərı bölgədə əməlli bir güc halına gətirdi. Eyni zamanda, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin nəticəsində imzalanan San-Stefano və Berlin müqavilələrində Osmanlı dövlətinə təzyiq vasitəsi kimi "erməni məsələsi"nin ortaya atılması, bundan sonrakı dövrdə Rusiya ilə paralel İngiltərə və Fransa kimi böyük dövlətlərin xristian təəssübkeşliyi ilə hər vəchlə ermənilərı müdafiə etmələri və dəstəkləmələri XIX əsrin sonuna doğru ermənilərin siyasi və hərbi cəhətdən təşkilatlarında mühüm rol oynadı. Məhz bu dövlətlərin dəstəyi ilə dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq uğrunda mübarizə aparan və "Böyük Ermənistan" yaradılması nəzərdə tutulan ərazilərdə yaşayan aborigen türk-müsəlman əhaliyə qarşı diskriminasiya, terror, qırğın, soyqırımı həyata keçirməyi özünün əsas mübarizə forması elan edən erməni "Armenakan" təşkilatı (1885), "Hnçaq" (1887) və "Daşnaksütyun" (1890) partiyaları meydana gəldi. Bununla

da Qafqazda erməni hərəkatı ideoloji, siyasi və hərbi doktrinası formalaşmış məqsədyönlü sistemli bir hərəkata çevrildi.

Rusiya XIX əsrin sonlarından genişlənən erməni hərəkatının təşkilatlanması üçün xaricdə erməni siyasi təşkilatlarının yaranmasına kömək etməklə bərabər öz ərazisində də belə qurumların mövcudluğuna və istənilən fəaliyyətinə göz yumurdu. Bu siyasət Rusiyanın Şərqi Anadolu məsələsində Osmanlı dövlətinə qarşı erməni amilindən istifadə etmək planları ilə bağlı idi.

XX əsrin əvvəllərində artıq Daşnaksütyun partiyasının Rusiyada 2311, Türkiyədə 692, İranda 90 yerli təşkilatı yaradılaraq fəaliyyət göstərirdi. Cənubi Qafqazın demək olar ki, bütün şəhərlərində fəaliyyət göstərən daşnak komitələri xüsusi adlar altında təşkil olunmuşdu. Qars, İrəvan, Naxçıvan və Şuşada yaradılan mərkəzi daşnak komitələri isə Qars və ya İrəvanda yerləşən mərkəzi orqana tabe idilər. Geniş miqyasda fəaliyyət göstərən Daşnaksütyun bölgədə silahlı dəstələrinin sıralarını genişləndirmiş, Rusiyada inqilabi çıxışlar başlayan zaman öz ordusunu səfərbər edərək onun sayını 100 min nəfərə çatdırmışdı. (17) Bu o demək idi ki, leqal və ya qeyri-leqal Qafqazda yaşayan hər bir erməni ailəsindən silah altına alınmış əsgər var idi.

Ermənilərin XIX əsrin 90-cı illərində Şərqi Anadolu vilayətlərində Osmanlı dövlətinə qarşı qaldırdığı silahlı üsyanlar məğlub edildikdən sonra onların əsas fəaliyyət mərkəzi Cənubi Qafqaza keçdi. M.S.Ordubadinin yazdığına görə, “erməni yazıçısı və ideoloqu Arsruni Türkiyə şəraitinə baxıb, işin çətinə düşdüyünü görüb, ermənilər Qafqaza daşımağı məsləhət görmüşdü”. (18) Məhz bu dövrdə Osmanlı dövlətindən köçən ermənilər hesabına Cənubi Qafqazda ermənilərin sayı 400.000 nəfər artaraq 900.000-dən 1,3 milyona qalxdı. (21)

Qaçqın erməni ailələrini məskunlaşdırmaq üçün erməni kilsəsi, erməni siyasi partiyaları və erməni ziyalıları birgə “çıxış yolu” tapdılar ki, silah gücünə, kütləvi qırğınlar törətməklə azərbaycanlıları qırğına məruz qoysunlar, öz tarixi-etnik torpaqlarından qovsunlar və nəticədə azərbaycanlılardan boşaldılacaq bu ərazilərdə Osmanlı dövlətindən köçən erməni ailələrini məskunlaşdırsınlar. “Kaspi” qəzetinin müxbiri həmin dövrdə İrəvandan alınan məktublar əsasında yazırdı ki, ermənilər İrəvan quberniyasından bütün müsəlmanları sıxışdırıb çıxarmağı və sərbəst surətdə onların yerində Türkiyədən gələn ermənilər məskunlaşdırmağı qərara almışlar.(1)

Arsruni və onunla eyni əqidədə olan Bahadurov və digər erməni ideoloqlarının planına görə, Cənubi Qafqazda türk-müsəlmanlara qarşı təqib, terror və soyqırım əməlləri gerçəkləşdirilməli, müharibə səbəbindən erməni və müsəlmanlar bir-birindən ayrılmalı və nəticədə Bakı quberniyasını və Yelizavetpol quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasını və Yelizavetpol quberniyasının yaylaq və dağətəyi bölgələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib bu yerlərdə erməni səltənəti yaradılmalı idi. (18) 1905-1906-cı illərdə İrəvan bölgəsi də daxil olmaqla Cənubi Qafqazın əksər bölgələrində baş verən erməni-müsəlman toqquşmalarının təməlində ermənilərin bu sərsəm ideyaları dayanırdı. Bölgədəki Rusiya hakimiyyət nümayəndələrinin açıq və ya gizli şəkildə

ermənіləri himayə etməsi və onlara dəstək verməsi türk-müsəlman əhalinin təklənməsinə və ermənilərin terror və soyqırım aktları qarşısında dövlət himayəsindən məhrum olmalarına gətirib çıxartdı.

XIX əsrin sonlarına doğru Cənubi Qafqazda erməni hərəkatının genişləndiyi dövrdə Rusiya hökuməti özünün strateji və regional maraqlarına uyğun olaraq ermənіləri nəzarət altında saxlamağa çalışırdı. Lakin, bəhs edilən dövrdə erməni maraqlarının həyata keçirilməsi məqsədilə Daşnaksütyun və Hnçaq partiyaları tərəfindən silahlı erməni birləşmələrinin yaradılması işi üçün varlı ermənilərdən hədə-qorxu yolu ilə məcburi "ianə" toplanması işi genişlənirdi. İanə verməkdən imtina edən erməni zənginlərinə qarşı Daşnaksütyun və Hnçaq partiyalarının üzvləri tərəfindən silsilə sui-qəsdlər törədilməsi onunla nəticələndi ki, bu partiyaların siyasətinə və mübarizə formasına rəğbət bəsləməyən erməni zənginləri də özlərinin və ailələrinin həyatlarını qorumaq üçün məcburi şəkildə "erməni maraqları" üçün ianə verməyə məhkum oldular. Getdikcə vəziyyət elə bir şəkil aldı ki, bu prosesə mane olmaq istəyən bölgədəki Rusiya hökumət məmurları belə terrora məruz qaldılar. General Əlixanov-Avarski, Bakı qobernatoru Nakaşidze, Yelizavetpol vitse-qubernatoru Andreyev, polkovnik Bıkov, polkovnik Saxarov və bir çox ermənilərə münasib olmayan və onların əməllərinə dəstək verməyən rus məmurları erməni terrorunun qurbanı oldular.

"Erməni məsələsi"nin ideya mənbəyi rolunu oynayan Eçmiədzin kilsəsi erməni siyasi partiyaları ilə birgə erməni hərəkatına birbaşa rəhbərlik edirdi. Osmanlı Dördüncü Ordu Komandanlığından Hərbiyyə Nəzarəti vasitəsilə Sədarətə təqdim edilən 19 aprel 1903-cü il tarixli bir raportda ermənilərin bir aydan bəri Eçmiədzin kilsəsinin qarşısında iki şikəst qız və oğlan uşağını saxladıqları, xristianların heysiyatına təsir etmək üçün onlara həsr edilən təsirli mahnılar oxutdurduqları, bu yolla ermənіləri qızışdırdıqları və külli miqdarda pul yığdıqları haqqında məlumatlar verilirdi. (3)

Artıq erməni hərəkatının idarəolunmaz bir şəkil aldığını və özünün də nəzarətindən çıxdığını görən Rusiya hökuməti ermənilərə qarşı bir sıra cəza tədbirləri həyata keçirdi. Belə ki, 1884-cü ildə Tiflisdə çıxan erməni qəzeti "Mşak" bağlandı. Həmin il Eçmiədzin katolikosu seçilən İstanbul erməni kilsəsinin patriarxı, Türkiyədəki iğtişaşlarda fəal iştirakı ilə məşhur olan Nerses Varjapetyanın təyinatı qəbul edilmədi və onun Rusiya ərazisinə daxil olmasına icazə verilmədi. 1885-ci ildə erməni məktəblərinin bir çoxu bağlandı. 1896-cı ildə bir çox erməni ziyalıları Sibirə sürgün edildi. Erməni xeyriyyə cəmiyyətləri bağlandı, erməni mətbuatına senzura qoyuldu. Erməni məsələsi ilə çarın tapşırığına əsasən xüsusi məşğul olan Qafqazın o zamankı hakimi knyaz Q.S.Qolitsının 1898-ci ildə təqdim etdiyi məlumatda çarın 14 iyun 1897-ci il sərəncamı ilə erməni məktəblərinin Rusiya Təhsil Nazirliyinə tabe edilməsi haqqında göstərişinə tabe olmaq istəməyən 320 məktəbin bağlandığı, 31 məktəbin isə fəaliyyətinə davam etdiyi bildirilirdi. (16)

Erməni məktəbləri ilə paralel olaraq Eçmiədzin kilsəsinin ixtiyarında olan torpaqların və digər əmlakın dövlət tərəfindən müsadirə edilməsi erməni hərəkatının dini-ideoloji mərkəzi olan və bir çox hallarda birbaşa hərbi-siyasi

rəhbər təşkilatı kimi çıxış edən Qriqoriyan kilsəsinin mövqeyini zəiflətmək məqsədi daşıyırdı. Lakin ermənilər kilsənin tövsiyyəsi ilə Rusiyanın bu addımına bütün Cənubi Qafqaz boyu çar məmurlarına qarşı silahlı çıxışlar və sui-qəsdlərlə cavab verdilər.(4) İrəvan quberniyasının Sürməli qəzasının rəisi Aleksandr Antonoviç Boqoslavski sui-qəsd nəticəsində öldürüldü; (5) Yelizavetpol polis rəisi Erməni komitəsinin üzvləri tərəfindən qətlə yetirildi; (6) Tiflis Dördüncü Polis Dairə Komissarının müavini öldürüldü (7) və s.

Qafqaz hakimi knyaz Qolitsının ermənilərə qarşı radikal mövqeyi ermənilərin ona qarşı da sui-qəsd törətmələri ilə nəticələndi. 1903-cü ilin oktyabrın 14-də Tiflisdə Hnçaq üzvləri tərəfindən təşkil edilən sui-qəsd nəticəsində knyaz Qolitsın ağır yaralandı. Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə göndərilən 6 noyabr 1903-cü il tarixli sənəddə bildirilirdi ki, “Qafqaz valisi Qolitsınə qarşı sui-qəsdə cəhd edən erməni komitəsinin beş üzvündən dördü Osmanlı, biri isə İran ermənisidir. Bunlardan üç nəfəri hücum zamanı valinin köməyinə gəlmiş kəndlilər tərəfindən öldürülmüş, iki nəfəri isə ağır yaralı halda xəstəxanaya aparılmışdır. Buna görə də Rusiya məhəlli hakimiyyət orqanları Erməni komitəsinə qarşı cəza tədbirlərinə başlamış və 50-dən çox erməni həbs edilmişdir”. (8)

Bu hadisədən sonra Qolitsın özünün xahişi ilə Qafqaz hakimi vəzifəsindən azad edildi və Peterburqa göndərildi. Qafqaz hakimi vəzifəsinə ermənilərə münasibətdə Qolitsının əks mövqeyində dayanan İ.Vorontsov-Daşkov təyin edildi.

İ.Vorontsov-Daşkov hələ Qafqaz hakimi vəzifəsinə təyin edilməsindən 3 il əvvəl, 1900-cü ildə rus çarına yazırdı: “Böyük Pyotrun dövründən başlayaraq rus siyasəti müharibələrdə bizim tərəfimizdə olan ermənilərə qarşı dostluq münasibətində olmuşdur... Türkiyə ermənilərinin müdafiə edilməsində qətiyyət göstərməliyik, xüsusilə belə bir zamanda ki, hərbi müdaxiləmizə asanlıqla səhnə ola biləcək bölgələrdə yaşayan xalqların bizimlə duyğularına zərbə vurmaq əvəzinə onları müdafiə etməliyik”. (19)

İ.Vorontsov-Daşkovun Qafqaz hakimi təyin edilməsi ilə knyaz Qolitsının dövründə ermənilərə qarşı həyata keçirilən siyasi xətt dəyişildi. Cənubi Qafqazda ermənilər sıxışdırmaqdansa, onların potensial təhlükəyə çevrilmiş qüvvəsindən daha səmərəli istifadə etmək qərarına gəlindi. İ.Vorontsov-Daşkovun ermənilərə münasibətdə tutduğu siyasi xətt və onun bu istiqamətdəki fəaliyyəti çarizm tərəfindən məqbul hesab edildi. Bunun nəticəsi idi ki, çarizm 1905-ci il fevralın 26-da Qafqaz canişinliyini bərpa edərək bölgədə həm mülki, həm də hərbi hakimiyyəti İ.Vorontsov-Daşkova verib onun səlahiyyətlərini genişləndirdi.

Rusiya hökuməti tərəfindən 1903-cü ildə müsadirə edilmiş erməni kilsələrinin əmlakının 1905-ci il avqustun 5-də yenidən onların özlərinə qaytarılması ilə bağlı çar fərmanının verilməsi ermənilərin əl-qolunu əməlli açdı. Bu münasibətlə Tiflisdə olan Eçmiədzin katalokosu Rusiya imperatoruna və onun ailəsinə dualar etdi. Bu əsnada mərasimdəki ermənilərdən beş-on erməni anarxisti katalikosa etiraz edərək, “partlatdıqları bombalar sayəsində hökuməti ermənilərin mallarını geri qaytarmağa məcbur edənlərə təşəkkür

etmək lazımdır" dedilər. (9) Lakin onların sözlərinə əhəmiyyət verən olmadı və az sonra polis tərəfindən həbs edildilər.

Çarizm İ.Vorontsov-Daşkovun əli ilə təşkil etdiyi qırğınlarda aşağıdakı taktikanı həyata keçirirdi: bir tərəfdən inqilabiləşən, hakimiyyəti hədələyən çıxışlara cəhd edən xalqlar, digər tərəfdən isə Rusiya üçün arzuedilməz xalqa çevrilmiş ermənilər milli münaqişənin qarşı-qarşıya duran tərəfləri kimi bir-birini qıraraq zəifləyəcək, bundan çarizm qazanmış olacaqdı. (16)

Ermənipərəstliyini heç vaxt gizlətməyən və hər zaman açıq şəkildə bəyan edən İ.Vorontsov-Daşkovun ermənilər açıq-aşkar himayə etməsi və dəstəkləməsi Cənubi Qafqaz müsəlmanlarına ağır fəlakətlər gətirdi. İ.Vorontsov-Daşkov Cənubi Qafqazda erməni və türk-müsəlman əhali arasında milli ədavət toxumu səpərək knyaz Qolitsının hakimliyi dövründə geniş vüsət alan ermənilərin bölgədəki Rusiya məmurlarına qarşı terror fəaliyyətinin istiqamətini bölgədəki türk-müsəlman əhaliyə qarşı yönəltdi və bununla da bölgə millətlərarası toqquşmalara səhnə oldu.

Hadisələrin xarakteri, miqyası və gedişi azərbaycanlıların soyqırımının dövlət səviyyəsində hazırlanıb həyata keçirilən cinayət olduğunu göstərir. Xüsusilə 1903-cü ildə İ.Vorontsov-Daşkovun Qafqaza hakim təyin edilməsindən sonra hadisələr daha qızğın şəkil almışdı. Türklərə nifrətini, ermənilərə isə hüsn-rəğbətini gizlətməyən bu şəxs hər yerdə öz məmurlarına və kazaklara ermənilər himayə etmək barədə göstəriş vermişdi. Qanlı hadisələrin çar məmurları tərəfindən qızışdırılması, onların bir çox hallarda rus qoşunlarına ermənilərlə bir cəbhədə döyüşmək əmri verməsi, ən yaxşı halda isə çar çinovniklərinin müşahidəçi mövqeyi tutması azərbaycanlıların soyqırımının mütəşəkkilliyini təmin etmək baxımından düşünülmüşdü. Bakıda qubernator Nakaşidze, Deminski, Lileyev, İrəvanda qubernator Paskeviç, vitse-qubernator Baranovski, Naxçıvanda qəza polis rəisi Angil, Şuşada Qalaşşapov və digərləri milli qırğınların birbaşa təşkilatçısı və təhrikçiləri idilər. Bir çox hallarda bu məmurlar azərbaycanlı əhaliyə qarşı qırğınları özlərinin bilavasitə göstərişləri ilə başlayır, sonra isə qanlı hadisələri soyuqqanlılıqla seyr edir, dəhşətli faciəyə göz yumur, insanların kömək üçün etdikləri müraciətləri qulaqardına vururdular. Bunu nəzərdə tutan "Molla Nəsrəddin" jurnalı həmin dövrə aid nömrələrinin birində çarizmin riyakarlığını ifşa edərək yazırdı: "Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olurlar ki, təbiblər onların çölə çıxmasını rəva görmürlər". (16)

Ermənilərin müsəlman əhali üzərinə hücumlarının Rusiya hakimiyyət orqanları tərəfindən təşkil edildiyi, ermənilərin törətdiyi hər cür cinayətlərə rus məmurlarının göz yumduqları və onlara hərtərəfli dəstək verdikləri bəhs edilən dövrdə Osmanlı dövlətinin Cənubi Qafqazın müxtəlif şəhərlərində fəaliyyət göstərən şəhbəndərlərin İstanbul hökumətinə göndərdikləri teleqram və hesabatlarda da öz əksini tapmışdır. Məsələn, Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 13 dekabr 1905-ci il tarixli teleqramda Cənubi Qafqazın müxtəlif bölgələrində ermənilərin müsəlmanlar üzərinə hücum edərək uşaq və qadınlara belə fərq

qoymadan hamısını qətl etmələri haqqında məlumat verilir və bildirilir ki, bütün bunlar Rusiya mülki və hərbi məmurlarının gözləri qarşısında baş verir. Rusiya məmurları nəinki ermənilərin cinayətlərinə göz yumur, hətta onları silahla təmin edir və ermənilərə kənardan gələn silah və digər yardımları onlara çatdırırlar. Müsəlmanlara münasibətdə isə ayrıseçkilik vardır. Qırğına məruz qalan müsəlman qardaşlarına yardıma gedən müsəlmanlar rus hərbçiləri tərəfindən gülləbaran edilirlər. (10)

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə göndərilən 18 iyul 1905-ci il tarixli məlumatda da açıq şəkildə göstərilirdi ki, Qafqazda ermənilərlə müsəlmanlar arasında nifaq salan və toqquşmaların baş verməsinə rəvac verən məhz Rusiya hökümətidir və hökümət bu yolla Cənubi Qafqazı inqilabi çıxışlardan kənarda saxlamaq istəyir. (11)

Əslində Rusiyanın hakim dairələri 1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etməklə ikili oyun oynamışdılar. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə isti-qamətlənəcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadıqları ərazilərdə törətdikləri qırğınlara biganə qalmış, bəzi hallarda isə ermənilərin tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdur. (2)

C.Zeynaloğlu 1924-cü ildə İstanbulda nəşr olunan “Müxtəsər Azərbaycan tarixi” kitabında Cənubi Qafqazda erməni-müsəlman toqquşmaları törətmək məqsədilə Rusiya hökuməti tərəfindən Peterburqdan xüsusi xəfiyyə məmurlarının göndərilməsinə diqqəti çəkərək yazırdı: “Qafqazda ermənilər qiyam edərək öz kilsə və vəqflərinin idarəsini ələ aldılar. Hətta ötədən bəri Osmanlı dövləti əleyhinə hərəkət etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılmağa və müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi... Yalnız azəri türkləri hələ qəflətdə idilər və iğtişaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq və əsrlərcə yaxşı keçinən iki milləti biri digərinə qırdırdı”. (22)

1905-1906-cı illərdə baş vermiş erməni-müsəlman toqquşmaları ilə bağlı əlimizdə əsas mənbə rolunu oynayan M.S.Ordubadinin 1911-ci ildə nəşr etdiyi “Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi” əsərində müəllif, erməni-müsəlman münaqişəsinin və bunun ətrafında baş verən hadisələrin dörd əsas səbəbinin olduğunu yazır: “Birinci səbəb, erməni Daşnaksütyun komitəsinin müstəbid idarə üsulunu təşkil etməyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı; ikinci səbəb, məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır; üçüncü səbəb və iğtişaşlara gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır; dördüncü səbəb, ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmalarıdır”. (19)

1905-1906-cı illər erməni-müsəlman toqquşmaları ilə bağlı M.S.Ordubadinin göstərdiyi səbəblər həqiqəti əks etdirsə də, bunlar həqiqətin

hamısı deyildi. Ermənilərin azərbaycanlılara qarşı soyqırım törətməsinin əsas səbəbi onların Azərbaycan torpaqlarına gəlmə olması, ərazi iddiaları və ona nail olmaq üçün əl atdıqları etnik təmizləmə siyasəti idi. Sosial-siyasi, iqtisadi, mədəni və dini sahədə mövcud fərqlər tabe xarakterdə idi. (20)

Bəhs edilən dövrdə Osmanlı dövlətinin Cənubi Qafqazın müxtəlif şəhərlərində fəaliyyət göstərən şəhbəndərlərinin Osmanlı hökumətinə göndərdikləri raport və hesabatlardan məlum olur ki, tarixşünaslığımızda Cənubi Qafqazda erməni-müsəlman toqquşmalarının tarixi ilə bağlı mövcud olan 1905-1906-cı illər xronologiyası hadisələrin sadəcə ən qızğın dövrünü ehtiva edir. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan bu sənəd və materiallardan aydın olur ki, Cənubi Qafqazda erməni-müsəlman münaqişəsi ermənilərin XIX əsrin 90-cı illərində Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamların uğursuzluqla nəticələnməsindən sonra onların Cənubi Qafqaza kütləvi axını ilə eyni dövrdə paralel olaraq başlamış və 1910-cu ilə qədər davam etmişdir. Azərbaycanlılara qarşı hücumların təməlində də bir növ Osmanlı dövlətindəki uğursuzluqların hayfını Cənubi Qafqaz müsəlmanlarından çıxmaq və bu ərazidə özlərinə dövlət yaratmaq üçün baza formalaşdırmaq niyyəti dayanmışdı. Bu hücumların ilkin dövrlərində Rusiya hakimiyyət orqanlarının ermənilərə qarşı cəza tədbirlərinə əl atmasına cavab olaraq ermənilərin onların özlərinə qarşı terror aktları həyata keçirmələri nəticə etibarilə ona gətirib çıxartdı ki, hökumət məmurları özlərinin və ailələrinin təhlükəsizliyini təmin etməkdən ötrü ermənilərin müsəlmanlara qarşı hücumlarına qarşı ya səssiz dayanmalı, ya da onlarla əlbir hərəkət etməli oldular. Rusiya hökumət məmurlarının ermənilərlə əlbir hərəkət etmələri və onlara açıq dəstək nümayiş etdirmələri Vorontsov-Daşkovun Cənubi Qafqaza hakim göndərilməsindən sonra rəsmi dövlət siyasətinə çevrildi.

Cənubi Qafqazda müsəlmanlarla ermənilər arasında meydana gələn iğtişaşlarla bağlı Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə daxil olan 21 aprel 1903-cü il tarixli məktubdan məlum olur ki, artıq bu dövrdə Cənubi Qafqazın bir çox yerlərində, xüsusilə də İrəvan bölgəsində çox sayda insan tələfatları ilə müşaiyət olunan erməni-müsəlman toqquşmaları baş verməkdə idi. Belə ki, başşəhbəndərin məktubunda göstərilir ki, "İrəvandakı gimnaziya tələbələrindən biri rus, digəri erməni olmaqla iki qızın alış-veriş üçün girdikləri dükanda baş verən xoşagəlməz hadisədən sonra müsəlmanlarla ermənilər arasında iğtişaşlar baş qaldırmışdır. Bu iğtişaşlarda 40 müsəlman və bir neçə xristian öldürülmüşdür. Bu hadisələrlə bağlı Tiflisdə hökümət əleyhinə nümayiş olmuş, amma nümayiş kazak süvari alayı tərəfindən qan içində boğulmuşdur. Bundan bir qədər sonra Bakıda da iğtişaşlar baş qaldırmış, toqquşmalar olmuş, iştirakçıların bir hissəsi həbs edilmiş, bu iğtişaşlarda bir neçə zabit və Bakı polis rəisi də qətlə yetirilmişdir..." (12)

1903-cü ildə Daşnaksütyun partiyası fəallarının və silahlı erməni birləşmələrinin toplaşdığı əsas yerlərdən olan Qars və İrəvan bölgəsindəki vəziyyət Osmanlı siyasilərini də vaxtaşırı narahat etmiş və bu ərazilərdən tez-tez Osmanlı ərazilərinə gerçəkləşdirilən erməni hücumlarının qarşısını almaq üçün hökumət hərbi və diplomatik sahələrdə qabaqlayıcı tədbirlər görmüşdür.

Məsələn, 1903-cü il may ayının 6-da Qarsdakı Osmanlı başşəhbəndərliyindən İstanbul hökumətinə daxil olan məlumatda bildirilirdi ki, Qars, İrəvan və digər bölgələrində olan erməni dəstələrindən beş yüz nəfərin yaxın zamanlarda İrəvan tərəfdən Osmanlı ərazilərinə təcavüz edəcəkləri haqda məlumat alındığından Osmanlı dövləti bu təcavüz aktına imkan verilməmək üçün Peterburq və Tehrandakı səfirlikləri vasitəsilə Rusiya və İran hökümətləri nəzdində təşəbbüs göstərməlidir.(13) Bu məlumatla bağlı Osmanlı hökuməti Peterburq səfirliyi vasitəsilə Rusiya hökuməti ilə danışıqlar aparır və sonuncu bu məsələ ilə bağlı aidiyyəti olan qurumları xəbərdar edəcəyini vəd edərək işini bitmiş hesab edir. (14) 1903-cü il avqustun əvvəllərində Osmanlı dövlətinin Peterburq səfiri ilə Rusiya xarici işlər naziri arasında baş tutan növbəti görüşdə isə, Qafqazda toplanan erməni silahlı birləşmələrinin İrəvan bölgəsindəki türk-müsəlman əhaliyə qarşı təcavüzkar fəaliyyətləri müzakirə mövzusu olmuş və Rusiya baş diplomatı kont Lamsdorf, Qafqaz valisi kont Qalitsin ilə görüşüb bu hadisələrin təkrarlanmaması üçün bütün tədbirlərin görüləcəyi təminatını vermişdir. (15)

Beləliklə erməni-müsəlman konfliktinin genişlənməsi prosesi getdikcə sürətlənirdi ki, 1905-ci ildən açıq talan və qırğınlara başladılar. Növbəti yazılarımızda bu məsələlərdən geniş bəhs edəcəyik.

ƏDƏBİYYAT

1. ARDA, fond. 970, siy.1, iş. 202, v. 468.
2. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri, s. 48.
3. Başbakanlıq Osmanlı Arxivi (BOA), HR.SYS, no. 2774/61, v. 2.
4. BOA, Y.A.HUS, no. 458/118; BOA, Y.A.HUS, no. 459/7;
5. BOA, Y.A.HUS, no. 477/100.
6. BOA, Y.A.HUS, no. 477/73.
7. BOA, Y.A.HUS, no. 483/28.
8. BOA, Y.A.HUS, no. 463/28, v. 1.
9. BOA, Y.A.HUS, no. 493/60.
10. BOA, Y.A.HUS, no. 496/128.
11. BOA, Y.A.HUS, no. 490/85.
12. BOA, Y.A.HUS, no. 448/91.
13. BOA, HR.SYS, no. 2774/62, v. 2
14. BOA, HR.SYS, no. 2864/29.
15. BOA, HR.SYS, no. 2864/38.
16. Cəfərli E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı, Nurlan, 2008, s. 125-126.
17. Naxçıvan tarixi. Üç cilddə, II cild, Naxçıvan: “Əcəmi” NPB, 2014, 528 s.
18. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991.
19. Öke M.K. Uluslararası Boyutlanyla Anadolu-Kafkasya Ekseninde Ermeni Sorunu. İstanbul, İz Yayıncılık, 1996, s. 180.
20. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı, Elm, 2008, s. 264 (şəkilli).

21. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: продстоящая распродажа мугани инодцат. С.Р, 1911
22. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992, s. 144.

РЕЗЮМЕ

ИБРАГИМ КАЗЫМБЕЙЛИ

ПЕРВИЧНЫЙ ЭТАП АРМЯНО – МУСУЛЬМАНСКОГО ПРОТИВОРЕЧИЯ В ЭРИВАНСКОМ РЕГИОНЕ (КОНЕЦ XIX – НАЧАЛО XX ВЕКА)

В научной статье выслеживается ход первичных причин армяно-мусульманского конфликта по Эриванскому региону. При исследовании и анализе исторических фактов ярко выделяется следующиее положение: Христианские «великие силы» по вопросу «армянского дела» и по «создании армянского государства» проявляют необыкновенное усердие. Например при заключение Сан-Стефанского и Берлинских соглашений по итогам Русско-Турецкой войны (1877-1878 гг) для нажима на Османское государства на стол был выброшен «армянский вопрос». После этого в результате христианского пристрастие Англии и Франции привело к тому, что к концу XIX века противостояние на Южном Кавказе еще больше обострились. Все эти факты в статье подробно анализуруются.

Ключевые слова: Эриван, регион, противоречие, этап, армяно-мусульманский.

SUMMARY

IBRAHIM KAZIMBEYLI

THE FIRST PERIOD OF ARMENIAN- MUSLIM CONTRARIES IN IRAVAN PROVINCE (THE END OF THE XIX – THE BEGINNINGS OF THE XX CENTURIES)

In the scientific article the maiden reasons of Armenian-Muslim conflict are noted on Iravan province in Southern Caucasus. While investigating historical facts and analyzing one fact comes across: Christian “great powers” became very active in “Armenian matter” and in the creation of “Armenian state” in Azerbaijani lands. Let’s ratify our idea just with one fact. In the treatments signed during the result of Russia - ottoman war (1877-1878), San-Stefano and Berlin as to the pressure to Ottoman state “Armenian matter” raised. Hereafter besides with the Russia the Christian lover England and France bulwark resulted in anyway to be much more conflicts become intensive in Southern Caucasus towards the end of the XIX century. All these facts are analyzed in the article.

Key words: Iravan, province, conflict, stage, armenian-muslim.

(*Akademik İ.Hacıyev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

HACI QADİR QƏDİRZADƏ
AMEA Naxçıvan Bölməsi
hqadirzade@yahootr.com

“KİTABİ DƏDƏ QORQUD”DA BAMSI BEYRƏKLƏ BAĞLI BOY: NAXÇIVAN PARALELLƏRİ VƏ ORTAQ CƏHƏTLƏR

Məalədə “Kitabi-Dədə Qorqud” dastanının Bamsı Beyrəklə bağlı boyunda mövcud olan adət və inamlar xüsusən, uşaqların doğulması, toy, yaşınma adətləri, onların Naxçıvan paralelləri, diğər türk xalqları ilə etnogenetik əlaqələr və ortaq cəhətlər araşdırılmışdır.

Açar sözlər: Elçilik, nişanlılı, evlənmə, toy, bəylik məsələsi, yaşınma

Boyla tanışlıq sübut edir ki, burada təkcə qəhrəmanlıq məsələləri deyil, eyni zamanda ailə məişət münasibətləri, qədim inamlar sistemi də geniş yer tutur. Ümumiyyətlə, dastan qəhrəmanlıq dastanı adlansa da, göstərilən qəhramanlıqların müəyyən hissəsi məhəbbətlə, ailə məişəti ilə bağlı olduğunu söyləyə bilərik. Xüsusən Qanturallı, Bamsı Beyrəklə bağlı boylarda bu daha qabarıq şəkildədir. Dəli Domrulda isə məişət münasibətləri, mənəvi düşüncə ana xətti təyin edir.

Beyrəklə bağlı boyda başlıca xətt el duası ilə övladların doğulması, onların doğulmamışdan öncə el qaydasında nişanlanması -*“Beşikkərtdi yavuqlu”* elan edilmələridir. Sonrakı mərhələdə evlənmə adətləri ilə bağlı cəhətlər xüsusi yer tutur. Digər məsələlər də bunların ətrafında cərəyan edir.

Beşikkərtdi adəti, onun genezisi və Naxçıvan paralelləri haqqında. Boydan məlum olur ki, İç Oğuzun, Dış Oğuzun bəyləri Bayındır xanın söhbətinə toplaşmışdılar. Baybörə və onun adamları da məclisə gəlmişdilər. O baxıb gördü ki, tanınmış bəylərin hamısının oğlanları yanlarındadır. Hönkür-hönkür ağlamağa başladı. Qazan xan səbəbini soruşduqda o dedi ki, *necə ağla-mayım, necə sızlamayım?Oğuldan dayağım yox, qardaşdan sayılmağım. Allah-Təala məni qarğayıbdır. Arzum budur mənim də oğlum olsun.* Belə dedikdə Qalın Oğuz bəyləri göyə üz tutdular. Əl qaldırıb dua etdilər. *“Allah -Təala sənə bir oğul versin”,*- dedilər. Ol zaman bəylərin alqışı alqış, qarğışı qarğış idi.

Baybican bəy də yerindən durub dedi: *“Bəglər, mənim dəxi həqqimə bir dua eyləyin. Allah-Təala mana da bir qız verə”.* Bəylər ona da dua etdilər.

Baybican bəy dedi: *“Bəglər, Allah-Təala mana bir qız verəcək olursa, siz tanıq olın: mənim qızım Baybörə bəg oğlına beşikkərtmə yavuqlu olsun!”*[1]. Allah Baybörə bəyə bir oğul, Baybican bəyə bir qız verdi.

Ədəbiyyat materiallarına əsasən adətin genetik baxımdan ümumtürk xarakteri daşıdığını söyləmək olar. Belə ki, adaxlanma adəti ilə bağlı geniş

məlumat genetik cəhətdən Bamsı Beyrək boyuna yaxın olan "Alpamış" dastanının özbək variantında (Konqrat variantı) da vardır.[2]

"Alpamış" dastanının qaraqalpaq variantında da uşaqlar *"beşikkəsmə nişanlı"* hesab edilirlər.[3] Qazaxlar, Altay və Sibirin türk xalqları arasında müxtəlif variantlarda yayılmış "Kozi Korpeş və Bayan-Sulu" povestində də uşaqları olmayan iki ata əhd edib razılaşırlar ki, gələcəkdə birinin oğlu, digərinin qızı olsa, onları nişanlayıb *"beşikkəsmə"* yolu ilə adaxlayacaqlar.[4]

Ümumiyyətlə, Orta Asiya, Altay, Sibir, Volqaboyu, Qafqaz və Anadolu türklərinin qəhrəmanlıq dastan və nağıllarında deyikli adətinin geniş yayıldığı aydın olur *"Deyikli"("beşikkəsmə", "göbəkkəsmə")* adətinin öyrənilməsində məhəbbət dastanlarının da böyük elmi əhəmiyyəti vardır.

Naxçıvandan toplanmış etnoqrafik çöl materiallarına, folklor nümunələrinə əsaslanaraq demək olar ki, uşaqları olmayan valideynlərin nəzir verməsi, ziyarətə getməsi, el duası və bunların nəticəsində Allahn onların istəklərini yerinə yetirməsi, övladları olması inamı geniş yayılmışdır və bu gün də ona əməl edilməkdədir. Bu gün məişətimizdə olmasa da, yaxın keçmişə qədər övladları olmayan və ya gələcəkdə qohumluq əlaqələri qurmaq istəyən valideyinlərin, xüsusən ataların "əhd etmə"ləri də müəyyən rol oynayır.

Digər nağıl və dastanlarımızda uşaqsızlıqdan ahu-zar edən kişiyə dərviş libasında bir adam yaxınlaşıb ona alma verib deyir ki, apar qadınınla böl, sonra ye. Doğulacaq uşaq qız və ya oğlan olacaq, filankəsin beşikkəsmə adaxlısıdır. Bu adətlərə qaynaqlarda tez-tez rast gəlmək olar. Müqayisəli araşdırmalar göstərir ki, türk xalqlarının ailə məişətində *"deyiklilik"* adəti geniş yer tutur və müxtəlif adlarla tanınır.[5]

Bu məqsədlə "Kitabi-Dədə Qorqud" dastanında Bamsı Beyrəklə Banıçiçəyin deyikliliyinin necə nəticələndiyini izləyək. Baybican bəylə Baybörə razılaşdıqdan sonra uşaqlar həddi–buluğa çatana qədər dastanda onların deyikliliyi (adaxlı) olması xatırlanmır. Ancaq Beyrək ova çıxıb Banıçiçəyin çadırına yaxınlaşdıqda Banıçiçək deyir ki, dayə, babam mənə səni üzü niqablı Beyrəyə vermişəm deyərdi. Sınaşdıqdan sonra Beyrək altun üzüyü Banıçiçəyin barmağına taxıb "*ortamızda bu, nişan olsun, xan qızı"*-dedi. Banıçiçək isə… *"həman imdi ilərü turmaq gərək, bəg oğlı"*-dedi.[6]

Deməli, əsl nişanlılıq buradan başlanır, qız elçi gözləyir. Beyrək atasına məsələni bildirərkən onların "beşikkəsmə" adaxlı olması xatırlanmır. Həmçinin, atası deyir ki, Banıçiçəyin Dəli Qarcar adlı bir qardaşı var, qızı diləyəni oldürər.[7]

Beləliklə, deyikliliyin formal xarakter daşıdığı məlum olur. Maraqlıdır ki, Banıçiçəyə elçi gedən Dədə Qorqud onun qardaşı ilə danışır, atası Baybican bəyin adı çəkilmir. Banıçiçək isə atası haqqında danışarkən *"babam mənə səni üzü niqablı Beyrəyə vermişəm",*-deyərdi ifadəsi də atasının vəfat etməsinə işarədir. Dastana söykənib qəti fikri söyləmək mümkün deyil. Çünki bir tərəfdən Banıçiçəyin Beyrəyə verilməsində Baybican bəyin adı çəkilmirsə, digər tərəfdən Beyrək gəlin otağı qurub qırx yoldaşı ilə orada yeyib-içib oturarkən kafərin casusu bunları görüb getdi Bayburut Hisarının bəyinə:

«Sultanım, Baybican bəg ol sana verəcəgi qızı Beyrəgə verdi. Bu gecə gərdəgə girir», - dedi.[8]

Gətirilən nümunədən belə çıxır ki, Baybican bəy Banıçiçəyi Bayburut Hisarının bəyinə verməyə razılaşmışdır. Lakin dastanda bununla bağlı heç bir məlumat yoxdur. Banıçiçəyin söylədiyinə əsasən Banıçiçəyi Beyrəyə atası vermişdir. Dastanda isə bunun Dəli Qarcar tərəfindən yerinə yetirildiyi aydın olur. Məsələyə aydınlıq gətirmək məqsədi ilə dastanla bağlı əldə olunmuş bütün materialların müqayisəli təhlili heç bir nəticə verm̈ədi. Bizcə, qorqudşünaslar bu məsələyə xüsusi diqqət yetirməlidirlər.

Naxçıvanda bu məsələdən bəhs edərək böyük dramaturq C.Məmmədquluzadə “Danabaş kəndinin əhvalatları” əsərində Xudayar bəyin dilindən belə deyir: *“Qardaş, Kərbəlayı Heydər, mənim əzizim və iki gözümün işığı! Sənin oğlun oldu, Allah onu sənə çox görməsin, öz birliyi xatirinə. Qardaş, indi bu saat elə mənim də övrətim ayaq üstədir, gərək ki, özün də bilirsən. Qardaş, gəl oturanların yanında əhd bağlayaq, əgər indi xəbər gətirdilər ki, mənim də oğlum olub, onda bunların hər ikisinin qardaşlıq siğəsini oxudaq, onlar da bizim kimi qardaş olsunlar. Ya xeyir, mənim qızım oldu, siğəsini oxudub verək sənin oğluna.*
Bəli, əhd bağlandı, xəbər gəldi ki, Xudayar bəyin qızı oldu. Kərbəlayı Heydər oğlunun adını qoydu Vəliqulu, Xudayar bəy qızının adını qoydu Gülüsüm. Həmin gecə molla Pirqulu Gülüsümün siğəsini oxudu Vəliquluya.[9]

Mətnlərin qarşılıqlı müqayisəsinə əsaslanaraq demək olar ki, dastanda və Naxçıvanda mövcud olan adətlər tam üst-üstə düşür. Onu da deməkdə fayda vardır ki, bu sadəcə olaraq bir nümunədir. XX yüzilliyin ortalarına qədər Naxçıvanda belə hallara tez-tez rast gəlinirdi.

Azərbaycanlılarda *“deyikli”* adı ilə məlum olan xalq adətinin araşdırılması tarixilik və elmi baxımdan böyük əhəmiyyət kəsb edir.

Naxçıvanda ümumi olaraq “deyikli” kimi tanınan bu adət *“göbəkkəsmə” (göbəkkərtmə) “qarında demə”, “beşikkəsmə” (beşikkərtdi)* adlanır. Qeyd olunan adlar daha çox şəraitlə bağlıdır. Adətin mənasına diqqət verdikdə valideynlərin öz uşaqlarını çox körpə yaşlarından şərti olaraq nişanlamaları ortaya çıxır. *“Qarında demə”* (doğulmamışdan əvvəl valideynlərin razılaşması) adətinə görə, arvadları hamilə olan iki kişi razılaşırlar ki, birimizin oğlu, o birimizin qızı olsa, bir-birlərinin nişanlısı olacaq və böyüyəndə evlənib ailə quracaqlar. Eyni sövdələşmə uşaqların göbəyi kəsilərkən və ya onlar beşiyə qoyularkən də edilirdi. Deyikli uşaqlar adətən eyni yaşda olsalar da, bəzi hallarda qızları özündən bir neçə yaş böyük oğlan uşaqlarına deyikli edirdilər. Deyikli uşaqlar çox vaxt bir yerdə böyüyürdülər. Həddi-buluğa çatdıqdan sonra onların qovuşmamasına pis hal kimi baxırdılar. Deyiklilik müxtəlif səbəbdən ola bilərdi.

Qaynaqlara söykənərək demək olar ki, deyikli adəti çox qədim tarixə malikdir. V.M. Jirmunskinin E.S.Hattlanda əsaslanaraq qeyd etdiyi fikrə görə, adətin qədim izləri Ataxaqanlığı dövrü ilə səsləşir.[10] Bu fikir daha çox nikahın bağlanmasında ataların əsas rol oynaması ilə əlaqədardır. Toplanmış materialların əksəriyyətində və qaynaqlarda atalar əhd bağlayırlar. Türklərin

adət-ənənələri ilə tanışlıq göstərir ki, bu forma ilə nikah bağlanması Anadolu türkləri arasında da geniş yayılmışdır.[11] Nikahın bağlanmasında bir neçə cəhəti xüsusilə qeyd etməliyik: övladı olmayan kişilərin əhdləşməsi, oğlu və qızı olmayan ataların əhdləşməsi, övliya və dərvişin müəyyən tövsiyəsi ilə bağlanan nikahlar, qohumluğu möhkəmləndirmək və digər səbəblərlə bağlı nikahlar.

Anadolu türklərində bu adət "*beşikkəsmə"* adlanır. Qaynaqlardan məlum olur ki, *"beşikkəsmə"* daha çox qohum və dost ailələr arasında edilir. Hətta oğlanın valideynləri elçi sifəti ilə qız evinə gəlir, bəzən uşağın beşiyinə bir yaylıq bağlayır və deyir ki, qız oldu bizim gəlinimiz. Gələcəkdə ciddi bir səbəb olmasaydı (nişanlılardan birinin xəstəliyi və ya ölməsi) adətə mütləq əməl edilərdi.[12]

Kiçik yaşlı uşaqların nişanlanması (deyikliliyi) adəti Qafqaz xalqlarında da geniş yayılmışdır. Adət daha çox *"göbəkkəsmə"*, *"beşikkəsmə", "beşikdə kərde", "beşik qısma"* adları ilə məlumdur.[13] Ədəbiyyat materiallarından məlum olur ki, Qafqaz xalqlarında bu tip nikahlara çox ciddi yanaşılardı.

S.M.Abramzon yazır ki, keçmişdə qırğızlar arasında yayılmış adətlərdən biri hələ doğulmamış uşaqların nikahlanmasıdır. Bu adət *"belkuda"* adlanır. Uşaqların beşikdə nişanlanmasına *"beşik kuda"* deyilir.[14]

Adəti geniş şəkildə verməyimizin başlıca səbəbi Naxçıvanda olan adət və inamların genetik cəhətdən qədim tarixi köklərə malik olmaqla ümumtürk, xüsusi ilə oğuz-türk xarakteri daşıdığını göstərməkdir.

Bütövlükdə dastanda, xüsusilə bu boyda *"yaşınma"* adəti geniş yer tutur. *Çağırdılar, Beyrək gəldi. Banıçiçək yaşmağlandı...* Müqəddimədə "*Ərə varalıdan bərü dəxi qarnım toymadı, yüzim gülmədi. Ayağım başmaq, yüzim yaşmaq görmədi"*. Dastanda *"yaşmaqlanma"* üzün müəyyən hissəsinin, əsasən burunun aşağı hissəsi də daxil olmaqla ağızın örtülməsidir. Etnoqrafik materiallara əsaslanaraq deyə bilərik ki, Naxçıvanda yaşlı qadınlar arasında indi də yaşmaqlanmaq vardır. Qeyd etməkdə fayda vardır ki, yaşınma adəti ilə bağlı ayrıca araşdırma aparmaqla dastanla qarşılaşdırmalara geniş yer vermişik.

Boyda Bamsı Beyrəyin Banıçiçəklə sınaşmasında *"Qavradı, qızın bağdamacın aldı. Əmcəgindən tutdu*." Dastanda döş mənasında *"əmcəg"* ifadəsi işlədildiyini görürük. Naxçıvanda döş mənasında *"əmcək"* deyimi olsa da, bu, o qədərdə xoş qarşılanmamaqla xalq arasında işlənməsi ayıb hesab olunmuşdur.

Sınaşdıqdan, Beyrək barmağındakı üzüyü Banıçiçəyin barmağına taxdıqdan sonra Banıçiçək ona deyir ki, *indi ki, belə oldu irəli durmaq, yəni el adətinə görə elçiliyə gəlmək gərəkdir.* Dastanda olduğu kimi adət Naxçıvanda indi də qorunub saxlanmaqdadır. Dastanın bu hissəsində Banıçiçəyin Qısırca adlı yengəsinin olduğu diqqəti cəlb edir. Naxçıvanda mövcud olan adətə görə qız gəlin köçərkən onun yaşlı qohumlarından biri, adətən xalası və ya bibisi yengə kimi gəlinlə bərabər oğlan evinə gəlir. Bəzən yengə iki nəfərdən ibarət olurdu. Dastanda bir məsələ diqətimizi çəkdi adətən yengə evli,uşaqlı

qadınlardan olurdu. Banıçiçəyin yengəsi qısırca, doğmayan olduğunu görürük. Biz çöl materialı toplayarkən bu tip qadının yengə olması və onun mama adlanmasına Ordubad bölgəsinin Gənzə kəndində rast gəlmişik. Qeyd edim ki, kənd camaatı həmin qadına çox hörmətlə yanaşmışlar.

Boyda diqqəti çəkən məqamlardan biri də elçiliklə bağlı adətlərdir. Bu boyda diqqət çəkən məsələlərdən biri Banıçiçəyin qardaşının Dəli Qarcar adlanmasıdır. Ümumiyyətlə, dastanda bir neçə Dəli adı çəkilir- Dəli Qarcar, Dəli Tondaz, Dəli Budaq, Dəli Uran, Dəli Ozan və Dəli Domrul. Dəli Qarcar və Dəli Domrul istisna olmaqla digər Dəlilərin adı ancaq döyüşdə epizodik olaraq çəkilir. Dəli Ozan adı isə Beyrəklə əlaqəli olaraq ilk dəfə Beyrəyin tanınmaz qiyafədə toy məclisinə gəlməsi, ox atıb hünər göstərdikdən sonra Qazan xanın ona: *“Mərə dəly ozan!...”* deməsi ilə belə adlanmışdır. Qazan xanın izni ilə yemək yedikdən sonra yeməkləri dağıtmış, musiqiçiləri döymüş və qadınların məclisinə getmişdir. Bütün bunları bir ozanın etməsi mümkün deyildi. Ümumi götürdükdə bu dəlilik həddi kimi qiymətləndirilməklə ozan və onun dəlilik həddi kimi qiymətləndirilməsi Beyrəyin belə adlandırılmasına səbəb olmaqla onun haqqını bərpa etməsinə qədər davam etmişdir. Bunlarla müqayisədə qalan iki Dəli diqqətimizi cəlb etməkdədir ki, onlardan ayrıca bəhs etmək niyyətindəyik. Yeri gəlmişkən bu boydakı Dəli Qarcarın dəliliyi el adətinə əməl etməməkdə, bacısını istəyəni öldürməklə hədələməsindədir. Beyrəyin Banıçiçəyə evlənmək istədiyini bilən atası deyir: *“Ay oğul, Banıçiçəgin bir dəli qartaşı vardır, adına Dəli Qarcar deyirlər, qız diləyəni öldürər.”* Naxçıvanda olduğu kimi dastanda da düzəlməsi çətin hesab edilən elçiliyə elin ən hörmətli adam, başbiləni Dədə Qorqud göndərilir. Oğuz türk elində *“elçiyə zaval yoxdur”, “elçi toxunulmazdır”* deyilsə də Dəli Qarcar bunlara məhəl qoymur.

Naxçıvanda elçiliyə gələn adam dilli-dilavər olmaqla gələcək qohumluqda, yaxın olmaqdan söhbət açır. Adətə uyğun olaraq elçiləri təhqir etmək, qovmaq ayıb hesab olunurdu. Elçiləri ailənin ağsaqqalı və ya ağbirçəyi qarşılayırdı. Elçiliyə gələnlər ilk qarşılanmadan münasibətləri bilərdilər. Olurdu ki, onları o qədər də xoş qarşılamırdılar. Bir qayda olaraq elçiliyə rəhbərlik edən adam ev sahibinə: “ qonaq istəmirsiniz”? –deyə müraciət edərdi. Ev sahibi isə “qonaq Allah qonağıdır, buyurun”- deyərdi. Sədərək bölgəsindən topladığımız bir adət diqqəti cəlb edir. Əgər qızı vermək istəmirlərsə, elçilər ayaqqabılarını soyunan kimi kiçik uşaqlardan biri tez ayaqqabıları gəldikləri istiqamətdə cütləyirdi. Yəni necə gəlmisiniz elə də qayıdın. Babək, Şahbuz və Şərur bölgəsinin bir sıra kəndlərində gəlişi arzulanmayan elçilərə çay verilməzdi. Çünki çay razılıq əlaməti sayılır. Adətən, elçilərdən dilavər hesab edilən adam deyirdi: *“Mənə bir stəkan çay verin, ürəyim yanır”.* Qız tərəfindən ona cavab verirdilər: “*Gözümüz üstə yerin var, amma çayımız yoxdur*”. Bir sıra kəndlərdə isə razılıqdan asılı olmayaraq çay verilirdi. Lakin elçilər çayı içmirdilər və bildirirdilər ki, biz buraya şirin çay içməyə gəlmişik. Adətə görə, oradan-buradan söhbət etdikdən sonra elçilərdən biri ev sahibinə deyirdi: “Heç soruşmursunuz nə məqsədlə gəlmişik?” Sonra, başlayırdı ailə qurmaqdan, el adətindən danışmağa və

nəhayət, keçirdi əsas məsələyə. Bir qayda olaraq deyirdilər ki, biz öncədən yaxşı münasibətdə olmuşuq və ya qohumuq, indi Allahın əmri, Peyğəmbərin (s.ə.v.) şəriəti ilə sizin filan qızı filankəsin oğluna istəyirik. Dədə də Dəli Qarcara müracət edərək deyir:

Gen ətəgin, tar koltuğuna qısılmağa gəlmişəm.
Tənrinin buyuruğuilə, peyğəmbərin qövlülə
Aydan arı, gündən görkli (Naxçıvanda sudan duru H.Q.) qız qardaşın Banıçiçəyi
Bamsı Beyrəgə dileməgə gəlmişəm.[15] (Oxşar müraciətə Qanturallının Selcan xanımı diləməsi məqamında da rast gəlirik.)

Bunun qarşılığında Dəli Qarcar Dədəyə küfr edib onu öldürmək istəyir. Lakin Dədənin duası və Allahın kəraməti ilə Dəli Qarcarın əli quruyur, Dədədən aman diləyir. Dəli Domrulla bağlı həmin boyda bəhs edəcəyik.

Elçiliklə əlaqəli bir məqam da diqqətimiz cəlb etməkdədir. Dədə Qorqud qayıdıb gəldikdə Baybörə bəy deyir: *"Dədə, oğlanmısan, qızmısan?"* Yəni müsbət və ya mənfi cavabla gəlmisən. Dədə deyir: *"Oğlanam!"* İndi də Naxçıvanda çətin işdən və ya elçilikdən qayıdandan *"oğlanmısan, qızmısan?"* deyə soruşurlar.

Boyda nişanlı *"adaxlı"* adlanır. Naxçıvanda nişanlılara *"adaxlı"* deyilməsi, onların gizli görüşlərinin *"adaxlıbazlılıq"* adlanması vardır.

Bu boydakı elçilik, onunla bağlı adət və inamlara Naxçıvanda demək olar ki, indi də əməl olunmaqdadır.[16] Elçiliklə bağlı diqqətimizi çəkən bir məqam da mövcuddur. Dədənin könlünə dəydiyi, onu təhqir etdiyi üçün bəlaya düçar olan Dəli Qarcarın düşdüyü vəziyyətdən sonra, bacısını, yəni Banıçiçəgi Beyrəyə verməyə razı olduqdan sonra Dədəyə dediyi sözlər: *"Dədə, qız qardaşımın yoluna bən nə istərəm, verirmisən?"* Bu adət Naxçıvanda bölgələrə uyğun olaraq *"kəsi-biçi", "söz kəsmə", "toy məsləhəti", "başlıq", "süd pulu"* və s. adlarla məlum olmaqla formal xarakter daşısa da onlara indi də əməl olunur.

Boyda diqqəti cəlb edən məqamlardan biri də toy-düyün və yasla bağlı adətlər və inamlardır ki, bunların Naxçıvan paralellərindən geniş şəkildə bəhs edəcəyik.

Öncə toy-düyün məsələsinə baxış.

Dastanın ilk boyundan başlayaraq bir neçə yerdə *"ulu toydan", "toy məclisi"*ndən bəhs olunur. Müqayisəli araşdırmalar sübut edir ki, Naxçıvanda *"toy"* ifadəsi daha çox evlənmə adəti ilə əlaqəli işlənmişdir. Lakin oğlan uşaqlarının sünnət edilməsi adətinin *"sünnət toyu"* adlanması toy ifadəsinin "Dədə Qorqud"dakı kimi geniş musiqili məclis mənasında işləndiyini də sübut edir.

Toy ailə şənliklərinin ən yaddaqalan, geniş şəkildə qeyd ediləni olmaqla, evlənmə mərasiminin zirvə toplantısı sayıla bilər. Maraqlıdır ki, etnoqrafiya elmində evlənmə ilə bağlı adətlər və inamlar ümumi ad altında-toyla bağlı adətlər, inamlar kimi öyrənilirsə, xalq arasında *"toy"* dedikdə ancaq qızın oğlan evinə gəlin gətirilməsi məqsədi ilə həyata keçirilən adətlər, inamlar, onların yerinə yetirilməsi nəzərdə tutulur. *"Toy"* ifadəsi daha çox

musiqi və şənliklə əlaqələndirilir. Toy səsi şahidlik səsidir, iki gəncin qovuşmasını el–obaya, ətrafa çatdıran sədadır. Əski çağlardan demək olar ki, bütün türk xalqlarında toy, *“tüy”, “düyün”, “ulu toy”* və s. adlarla məlum olmuşdur.

Azərbaycanlılarda *“toy”* deyərkən evlənmə mərasiminin əsas məclisi nəzərdə tutulur. Bir çox hallarda sünnət adəti ilə bağlı məclis *“sünnət toyu”* adlanır. Bizim başlıca məqsədimiz *“toy”* sözünün mənşəyini araşdırmaqdan ibarət olmasa da, qaynaqlar əsasında yığcam halda məsələyə müəyyən açıqlama vermək yerinə düşərdi.

“Kitabi-Dədə Qorqud” dastanlarında toy-el şənliyi, müxtəlif oyunlar, yarışlar keçirilən, ayrı-ayrı adətlər və inamlara əməl edilən musiqili məclis kimi təsvir olunur.

“Dirsə xan oğlu Buğac xan boyu”nda yazılır ki, *xanlar xanı Bayandır xan ildə bir kərə toy edib oğuz bəylərini qonaqlardı. Yenə toy edib atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdır.*[17]

Buradan aydın olur ki, toy şənlik, qonaqlıq mərasimidir. Yenə həmin boyda övladı olmayan Dirsə xan sonsuzluqdan qurtulmaq üçün: *“Xanımının sözü ilə ulu toy elədi, hacət dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç oğuz, Daş oğuz bəylərini üstünə yığınaq etdi. Ac görsə, doyurdu, yalın görsə donatdı. Borcluyu bocundan qurtardı. Tepe kimi ət yığdı, göl kimi kımız sağdırdı. Əl götürdülər, hacət dilədilər. Bir ağzı dualının alqışı ilə Allah-Təala bir əyal verdi”.*[18] Bu toy məclisi yaradanla əlaqə vasitəsi, hacət diləmə toplantısı olmaqla “*el duası*” etmək məqsədi ilə qurulmuşdur.

Bamsı Beyrəklə bağlı “toy” ifadəsi evlənmə adəti kimi xatırlanır. Beyrək əsirlikdən qurtardıqdan sonra bulaqdan su götürən kiçik bacısı ilə qarşılaşır. Və görür ki, bacısı “qardaş, Beyrək”-deyib ağlar–bozlar. *“Toy-düyünün qara oldu”* deyib ağlar.

Əbülqazi Bahadır Xanın “Türklərin soy kütüğu (Şecere-i Terakime)” əsərində də toyun şənlik, advermə məclisi olduğu aşkarlanır. *“Oğlan bir yaşına gəlincə Qara xan ölkəyə dəvət çıxardı və böyük toy etdi”.*

Toy günü oğlanı meydanın ortasına gətirib Qara Xan bəylərinə dedi: *“Bizim bu oğlumuz bir yaşına basdı. İndi buna nə ad qoyarsınız, deyib, bəylər cavab vermeden öncə oğlan dedi: menim adım Oğuzdur.*[19]

Azərbaycanlılarda olduğu kimi, Orta Asiya türklərində də *“toy”* oğlan evində keçirilən musiqili, əyləncəli şənlik mənasında işlənməklə gəlinin gətirilməsi ilə xarakterik olan məclisdir. Qazaxlarda toyun əsas hissəsi *“uzatar toy”* adlanır.[20]

A.T.Bekmuratovanın və digər müəlliflərin məlumatlarına görə, evlənmə ilə bağlı olaraq qızın oğlan evinə gətirilməsi üçün bir sıra adətlər həyata keçirilir. Toyun qız evində olan hissəsi *“kına toy”,* oğlan evindəki məclis *“oramal toy”* adlanır.[21] Qırğızlarda da azərbaycanlılarda olduğu kimi, mərasimin qız evində keçirilən məclisi *“qız toyu”, “qız alun”* adlanır.

Q.P.Vasilyeva, N.A.Kislyakov, A.Djikiyev, Ş.M. Abramzon və digər müəlliflərin məlumatlarından aydın olur ki, Orta Asiya və Qazaxıstanda evlənmə adətləri kompleksinin əsas zirvəsi *“toy”* adı ilə tanınan məclisin keçirilməsidir.[22]

Altay və Sibir türklərində də evlənmə mərasimi, gəlini oğlan evinə gətirməklə bağlı olaraq qız və oğlan evlərində keçirilən əsas şənliklər "toy", "tuy" adlanır.[23]

Anadolu türklərində evlənmə mərasiminin ən yüksək zirvəsi qız və oğlan evində keçirilən törən- "düğün" adlanır. Xatırladaq ki, bəzi bölgələrdə bu törənin toy-düyün adlanması da olmuşdur. Düyün-törənilə bağlı "Kitabi-Dədə Qorqud"da da xəbər verilir. Dastanda toy "*ulu dügün"* adlanır.

Boydan bəlli olur ki, nişanlılıq müddətində Banuçiçək Beyrəyə köynək toxuyub göndərmişdi. Beyrək bu köynəklərdən birini Yalançı oğlu Yırtacuğa (boyda bu ad daha çox Yalancuğ kimi verilir) bağışlamışdı. O, yalandan Beyrəyin ölüm xəbərini gətirmək üçün həmin köynəyi qana bulayıb Bayındır xana gətirir. Bayındır xan deyir ki, bunu Banıçiçəyə aparın o toxuduğu üçün tanıyar. Deməli, oğuzlar arasında qızların nişanlılıq dövründə müxtəlif əşyalar toxuması geniş yayılmışdır. Uyğun olaraq bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da qızlar nişanlılıq dövründə oğlana qış üçün isti köynəklər, corab, əlcək toxuyardılar. Bunlarla yanaşı onların özlərinə cehizlik olaraq xalça, cecim, palaz və s. toxumaları, müxtəlif tikmələr hazırlamaları geniş yayılmışdır.

Al duvaqlı gəlin. Dastandan bəlli olur ki, ərə gedən qızların, yəni gəlinlərin başına qırmızı rəngli duvaq salınmışdır. Naxçıvanda da XX əsrin 70-80-ci illərinə qədər bu adət kütləvi xarakter daşımaqla qızlıq, paklıq və ilk dəfə nikaha daxilolma rəmzi sayılmışdır.

Beyrəklə bağlı boydan bəlli olur ki, toyu olan bəylər də qırmızı qaftan geymişdir. Bu isə bəylik rəmzi idi.

ƏDƏBİYYAT

1. "Kitabi- Dədə Qorqud", Bakı. Yazıçı, 1988. Bakı. c. 265. s.52
2. Жирмунский В.М. Тюркский героический эпос. Избранные труды. Ленинград, Наука, 1974, 728 с. s. 119-120
3. Yenə orada, s.135
4. Казахский эпос. Алма-Ата, 1958, s. 441-450; Логашев Н.У. «Алтай-Бучай». Ойротский народный эпос. Новосибирск, 1941, с. 199-288.; Кузуй-Кортес и Маян-Хылу. Башкирские сказки. Уфа, 1943, kitabında, s. 111-135 və s.
5. Qədirzadə Q.İ. "Kitabi-Dədə Qorqud" dastanında və Naxçıvanda mövcud olan "Beşikkəsmə" adətinin tarixiliyi və genezisinə dair. NDU, Elmi əsərləri xüsusi buraxılış № 2. Qeyrət, 1998.c. 34-37.
6. "Kitabi-Dədə Qorqud", s.55
7. Yenə orada, s.55
8. Yenə orada, s.57
9. Məmmədquluzadə C. "Danabaş kəndinin əhvalatları". Seçilmiş əsərləri, Bakı, Çinar-çap müəssisəsi, 2003, s. 38-39.
10. Jirmunskiy V. M. Gös. əs. s. 205

11. Petekçi A. Bozkurt ilçesinde beşik kertme TFA. № 271, 1972, s. 6220-6223.
12. Серебрякова М.Н. Семья и семейная обрядность в турецкой деревне. Москва, Наука, 1979, s. 94; Petekçi A.Gös. əs. s.6220-6223.
13. Гаджиева С.Ш. Семья и брак у народов Дагестана в XIX-начале XX вв. Москва, Наука, 1985, 358 с .
14. Abramzon S.M. Gös. əs s.223
15. “Kitabi-Dədə Qorqud”, s.56
16. Qədirzadə Q.İ. Azərbaycanlılarda elçiliklə bağlı adətlər, inamlar və digər türk xalqları ilə ortaq cəhətlər. Naxçıvan Regional Elm Mərkəzinin əsərləri. VI buraxılış. Naxçıvan, Əcəmi, 2001, s.125-130
17. “Kitabi-Dədə Qorqud”, s.34
18. Yenə orada, s.35
19. Ebülqazi Bahadır Han.(Şecere-i terakime).Türklerin soy kutigu. Tercüman 1001. Temel eseri. s.14
20. Лобачева Н.П. Различные обрядовые комплексы в свадебных церемониях народов Средней Азии и Казахстана. Домусульманские верования и обряды в Средней Азии. Москва, Наука, 1975 kitabında, s.304
21. Бекмуратова А.Т. Быть и семья каракалпаков в прошлом и настоящем. Нукус. 1970, s.62
22. Василева К.Т. О роли этических компонентов в сложении свадебной обрядности туркмен. История, археология и этнография Средней Азии. Сб. в честь 60-летия С.П.Тольстова. Москва, 1968 kitabında, s. 324-333.; Кисляков Н.А. Очерки по истории семьи и брака у народов Средней Азии и Казахстана. Ленинград, Наука, 1969, s.114.; Джикиев А. Семья и брак у туркмен Юго-восточного побережья Каспийского моря в XIX-XX вв. Изв. АН Турк. ССР. 1958, 2, s. 62-68.
23. Семейная обрядность народов Сибири. Москва, Наука, 1980, kitabında, s.6-36

РЕЗЮМЕ

ГАДЖИ ГАДИР ГАДИРЗАДЕ

РАЗДЕЛ БАМСЫ БЕЙРЕК В ЭПОСЕ «КНИГА МОЕЦО ДЕГА ГОРГУДА: ПАРАЛЕЛИ И ОБИЦИЕ ЦЕРТЫ В НАХЦЫВАНЕ

В статье исследуется обычайи и поверии, особенно рождение детей, свадьбы, закрытие лица от постороних встрчающиеся в разделе Бамсы Бейрек эпоса «Книга моего Деда Горгуда» и их паралели в Нахчыване и этногенетические связи и общность с другими тюркскими народами.

Ключевые слова: сватовство, женитьба, свадьба, жених, закрытие лица от посторонних.

SUMMARY

HACI GADİR GADİRZADE

BOY WITH BAMSI BEYREK IN EPOS OF "KİTABİ DEDE GORGUD": NAKHCHIVAN PARALELLES AND COMMON FEATURES

İn this article were explored traditions and beliefs, especially the birth of children, wedding, living habits , their Nakhchivan parallels, common features and ethnogenetic relations with other Turkic peoples boy with Bamsi Beyrek in epos of "Kitabi Dede Gorgud".

Key words: Match-making, fiancée, marriage, wedding, of a bey, living

(*Akademik İ.Hacıyev tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

FİZZƏ QULİYEVA
Naxçıvan Dövlət Universiteti
fizze25@mail.ru

NAXÇIVANIN QƏDİM SƏNƏT NÜMUNƏLƏRİNDƏ ASTRAL SİMVOLLAR

Naxçıvanın qədim sənət əsərlərində xeyli sayda astral simvollara rast gəlinir. Naxçıvanın qədim sənət əsərlərindəki astral simvolları əsasən iki qrupa bölünərək araşdırılmışdır. Tədqiqat göstərir ki, astral simvollar, astral simvollarla təsvir edilən heyvan və insanlar ölkəmizin qədim sakinlərinin dünyanın mifoloji quruluşu ilə bağlı düşüncələrini, bu dünya ilə o biri dünyanın əksliyini, mübarizəsini və vəhdətini əks etdirmişdir. Belə nəticəyə gəlmək olar ki, Naxçıvanın qədim maddi-mədəniyyət nümunələrində rast gəlinən astal simvollar insanların ideoloji görüşləri, səma cisimlərinə, axirət dünyasına inamı ilə bağlı olmuşdur.

Açar sözlər: Naxçıvan, astral simvol, günəş, ulduz, ay, fantastik təsvirlər.

Naxçıvanın qədim sənət əsərlərindəki astral simvolları əsasən iki qrupa bölmək olar: realist və fantastik təsvir edilən simvollar. Realist astral simvollara günəş, ay, ulduz motivlərini, fantastik astral simvollara isə astral elementlərlə verilən mifik insanları, heyvanları, bitkiləri, və s. işarələri aid etmək olar.

Azərbaycanın qədim əhalisinin sitayiş etdiyi səma cisimlərindən biri də Günəşdir. Günəşə sitayiş Tunc dövründə xüsusilə çox tərəqqi etmişdir (1, s.13). Günəşə sitayişin izləri müxtəlif dekorativ tətbiqi sənət nümunələrində əks olunmuşdur. Bu izlərə qayaüstü təsvirlərdə, folklor nümunələrində və məişət əşyalarında rast gəlmək mümkündür. Günəşıı simvolizə edən solyar işarələrin təsvirinə astral simvollar sırasında daha sıx rast gəlinir. Günəşin olduqca müxtəlif təsvirləri vardır. Solyar işarələrin təsvirləri bir-birindən kəskin fərqlənərək, primitiv çox sxematik və yaxud çətin anlaşılan məzmunda ola bilirlər. Dünya xalqlarının mədəniyyətində solyar işarlələrin müxtəlif variantları mövcud olmuşdur. Aşşur tanrısının simvolu qanadlı günəş diski, Misirdə günəş tanrısı Ranın simvolu Qırmızı dairə kimi təsvir edilmişdir. Naxçıvanın Gəmiqaya abidələrində üstünlük təşkil edən solyar işarələrin müxtəlif variantlarına rast gəlinir. Onlar dairə, iki, yaxud dörd yerə bölünmüş dairə rəsimləri ilə təmsil olunmuşdur (Şəkil 1, 1, 2). Gəmiqayada rastlanan ĸonsentrik dairələrdən ibarət rəsmlərdən biri ilan başı ilə tamamlanır (Şəkil 1, 3). Tədqiqatçılar onun Günəşi simvolizə etdiyini söyləmişdir (3, s. 40; 1, s. 195; 2, s. 76-77; 4, s. 26-27). İlan başı ilə tamamlanan spiral rəsimlərinə Şahtaxtı, Kolanı keramikalarında da rast gəlinmişdir. İşıq, od, istilik rəmzi olan

Günəş nizamlayıcı başlanğıc kimi xaotik başlanğıca qarşı qoyularaq Erkən Tunc dövrü gil qablar üzərində dairəvi batıq, yaxud relyef dairələrə həkk olunmuşdur. Tədqiqatçılar bu tip batıqları məhsuldarlığın təmin edilməsi, məhsulların bəd qüvvələrdən qorunması anlamı ilə bağlı olduğunu qeyd etmişlər. Bu tip təsvirlərə I Kültəpədən (7, s. 302, tablo XXII, 1, 2) və II Kültəpədən (11, şəkil 39, şəkil 40) aşkar edilmiş gil qablar üzərində tez-tez rastlanır. Culfadan aşkar olunmuş Erkən Dəmir dövrü boyalı qabı üzərində günəş təsviri dairədən paylanan şüalar şəklində təsvir edilmişdir (Şəkil 1, 4). Bu tip motivlərin paralleləri Gəmiqayada dairəvi, ya da oval fiqurlardan ibarət işarələrlə həkk olunmuşdur. Qaya təsvirlərində rast gəlinən dairəvi nöqtələrin ulduzları simvolizə etdiyi ehtimal olunur (10, s. 44-46). Onlara başlıca olaraq insan və heyvan rəsmlərinin ətrafında rastlanmışdır. Rəsmlərin birində keçiyə doğru hərəkət edən insanın başı yaxınlığında iki kiçik oval dairə vardır.



Şəkil 1. Dekorativ tətbiqi sənət nümunələrində Günəş simvolları.

Astral simvollardan olan ulduz təsvirinə Naxçıvanın Tunc dövrü abidəsi olan Gəmiqaya qayaüstü rəsimlərində kompozisiya elementi olaraq rast gəlinir (Şəkil 2). Günəş kimi ulduzun da semantikası olduqca dərindir. Azərbaycan xalqı arasında yayılan inanclara görə hər insanın bir bəxt ulduzu var. O ulduz söndükdə insanın həyatı sona çatır. Ulduzlar həmçinin ölən insanların göyə çəkilmiş ruhları olduğuna inam da mövcud olmuşdur. Günəş təsvirlərində olduğu kimi ulduz rəsimlərinin ətrafında xaotik dünyanın təmsilçiləri kimi ilan, quş təsvirlərinə də rast gəlinir (Şəkil 3). Xalq arasında

yayılmış «ilan ulduz görməyincə ölməz» ifadəsi ilə bu təsvir arasında sıx bağlılıq aydın nəzərə çarpır. Bir çox astral simvollar kimi ulduz da məhz tanrılaşdırılmış göy cisimlərindəndir. Astrologiya elminin sürətlə inkişaf etməsinə baxmayaraq ulduzlar hələ də sirli-sehirli aləmin möcüzələri sırasındadır. Saysız hesabsız olan bu göy cisimlərində xüsusi olaraq seçilmiş ilin 12 ayını təmsil edən bürclər mövcuddur. Ulduzlar həmçinin istiqamət verici cisimdir. Gəmilərin dənizdə yolu düzgün təyin etəməsində, yaxud insanların gecə hərəkəti zamanı ulduzların böyük rol oynadığı məlumdur.



Şəkil 2. Astral simvollu araba təsviri

I Kültəpə (Şəkil 3, 1), II Kültəpə (Şəkil 3, 2) və Nəhəcirdən aşkar olunan boyalı qablar üzərində çoxguşəli ulduz rəsimlərinə rast gəlinmişdir. Nəhəcirdən aşkar olunan monoxrom boyalı küpələrdən birində naxışların kompozisiyası səkkiz guşəli ulduz şəklindədir. II Kültəpədə isə bu tip təsvirə polixrom boyalı kasanın üzərində rastlanmışdır (8, s. 110). Altı guşəli ulduz təsvirinə I Kültəpədən aşkar edilmiş qoşa qulplu, dar boğazlı, yastı oturacaqlı, matra formalı su qabında rast gəlirik. Qabın üzərində konsentrik təsvir edilmiş ulduzun ətrafında dövrə vuran quşlar qeyd etdiyimiz kimi axirət dünyasına inamla bağlı olaraq həkk olunmuşdur (Şəkil 3). Tədqiqatçıların bəziləri qabların üzərindəki quş təsvirlərini məhsuldarlıqla və insanların quşa olan inancları ilə bağlamışlar. Fikrimizcə ulduz və quş təsvirləri qədim dövrdə axirət dünyasına inanclarla əlaqədar olaraq təsvir edilmişdir. Astral simvolların bəzən axirət dünyası ideyası ilə bağlılığı heç də təsadüfi deyil. Qədim dövr insanların inancına görə öləndən sonra ruhun səmaya qalxması, ulduza və yaxud quşa çevrilməsi inamı mövcud olmuşdur. Bu inama folklor nümunələrimizdə də rast gəlirik. Folklor nümunələrində bəzi astral cisimlərin Yer üzərində törədilən ədalətsizliklərlə bağlı olaraq Göyə çəkilən insanlarla eyniləşdirilməsi ilə bağlı folklor nümunələri vardır. Ülkər və yeddi bacı ilə bağlı əfsanələr də buna misal ola bilər. Mifoloji inanclara görə Ülkər gözəl bir qız imiş. Ağanın zülmündən qurtarmaq üçün ulduz olub Göyə çəkilir. (1, s. 186) V. B. Baxşəliyevin fikrinə görə Göy xeyiri, bərəkəti təmin edən xeyirxah ruhların məskən saldığı məkandır-nizamlayıcı başlanğıcdır. Ağanın zülmü şər qüvvələri-xaosu təmsil edir. Yer üzərində ədalətin təntənəsi naminə Tanrı Ülkəri Göyə aparır. Qeyd etdiyimiz kimi ruhun quş cismində yaşaması

Azərbaycan nağıllarında, folklor nümunələrində də rast gəlinir. Xalqımız arasında olan inanclara görə quşlar ölən uşaqların məsum ruhlarıdır.

Gəmiqaya təsvirləri və Tunc dövrünün keramika məmulatında bənzərlik təşkil edən rəsmlərindən biri də Aypara təsvirləridir. Aypara təsvirlərinə I Kültəpə (7, s. 302, tablo XXII, 4) və II Kültəpə (11, şəkil 43, 8) yaşayış yerlərindən aşkar olunan gil qablar üzərində rast gəlmək mümkündür.

Aypara təsvirləri Günəş təsvirləri ilə müqayisədə az rastlansa da, Ayla bağlı inancların insanların ideoloji təsəvvürlərində müəyyən yer tutduğunu göstərir (1, s. 221).

Astral təsvirlərin ikinci qrupuna aid fantastik təsvirlər də olduqca maraqlıdır. Bəzi təsvirlər aydın olsa da bəzilərinin nə olduğunu müəyyənləşdirmək çətindir. II Kültəpədən aşkar olunmuş polixrom boyalı keramikası üzərindəki təsvirin nəyi ifadə etdiyini demək çətindir (Şəkil 5). Başından şüaşəkilli xətlər ayrılan bu təsvir, ola bilsin ki, mifoloji bir obrazdır. Fantastik təsvirlər sırasına insan rəsmləri də aiddir. Onların bəzisinin başı II Kültəpə keramikasında olduğu kimi quş dimdiyinə bənzədilmişdir. Məlum olduğu kimi, Misirdə tanrılar heyvanbaşlı təsvir edilirdi. Bizcə, bu quşların Göylə Yer arasında bir vasitəçi olduğunun ifadəsidir. Gəmiqaya təsvirlərində təsvirlərində insanların başı dairə şəklində verilmişdir (1, s. 213). Belə təsvirlərə Son Tunc və Erkən dəmir dövrünün sənət nümunələri arasında da rast gəlinir. Kolanı nekropolundakı qəbirlərin birinin divarında aşkar olunan olunan daş plitənin üzərində mifoloji atlı təsviri verilmişdir (1, s. 171, şəkil 48). Onun başı içərisində nöqtə olan dairə şəklindədir. İçərisində nöqtə olan dairə geniş yayılmış solyar işarələrdəndir. Bu baxımdan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı üzərindıki təsvirlər maraq doğurur. Bu təsvirlərin birində insanın başı şüalanan Günəş diski şəklində verilmişdir (9).



Şəkil 3. Keramika üzərində astral təsvirlər.

Şəkil 4. Fantastik keçi təsviri.

Gəmiqayada həmçinin fantastik heyvan rəsmlərinə də rast gəlinir. Gəmiqayadakı keçi təsvirlərindən birinin buynuzu aypara şəklində verilmişdir ki, bu da onun Göy aləmi ilə bağlı olduğuna işarədir (Şəkil 4). V.Əliyevin fikirinə görə, Keçi buynuzlarının bu şəkildə təsvir edilməsi qədim totemlərin Yer üzündə Günəşi təmsil etməsi ilə bağlıdır (3, s. 30).

Şəkil 5. Fantastik insan təsviri (II Kültəpə).

Qeyd etmək istəyirik ki, qədim Şərq mədəniyyətində keçi rəsimlərinin astral simvollarla təsviri geniş yayılmışdır. Gəmiqayada buynuzları aypara şəklində təsvir edilən öküz rəsimləri də vardır (Şəkil 6). Bu təsvirdə fantastik öküz və keçi təsvirləri solyar işarələrlə birlikdə verilmişdir. Bizcə bu təsvirlərdə həmin heyvanların Göy aləmi ilə bağlı olduğu aydın şəkildə ifadə olunmuşdur.

Qeyri-adi varlıqların təsvirinə Azərbaycan folklorunda da rastlanır. Əkil-Bəkilin quş və insan şəklində verilməsi (6, s. 239-245), yaxud su pərisinin yarı insan, yarı balıq şəklində təsvir edilməsi buna misal ola bilər (1, s. S. 172, şəkil 49, 12).



Şəkil 6. Gəmiqayada astral simvollu heyvan təsvirləri.

Gəmiqaya rəsmlərinin müəyyən qrupu qeyri adi varlıqların təsvirindən ibarətdir. Keçiyəbənzər, belində şarşəkilli hürkücü olan, quyruğu spiral şəklində belinə doğru əyilmiş tək buynuzlu heyvan, ayparaşəkilli uzun buynuzları olan gövdəsi pələngə bənzəyən heyvan, buynuzları yuxarıya qalxaraq ilan şəklində əyilmiş keçiyəbənzər heyvan, qanadlı heyvan, ikibaşlı ilan təsvirləri və s. Polimorf və fantastik varlıqların təsvir edilməsi qədim Şərq incəsənəti üçün xarakterikdir. Araşdırmalar göstərir ki, bu tip heyvanların təsviri insanların dünyanın mifoloji quruluşu ilə bağlı düşüncələrini, bu dünya ilə o biri dünyanın əksliyini, mübarizəsini və vəhdətini əks etdirmişdir (1, s. 182-219). Belə nəticəyə gəlmək olar ki, Naxçıvanın qədim maddi-mədəniyyət nümunələrində rast gəlinən astal simvollar insanların ideoloji görüşləri, səma cisimlərinə, axirət dünyasına inamı ilə bağlı olmuşdur.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvan qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320s.
2. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003, 165 s.
3. Əliyev V. Gəmiqaya abidələri. Bakı, Azərnəşr, 1993, 80 s..
4. Museyibov N. Qobustan və Gəmiqaya təsvirlərində bir qrup iĢarə haqqında. AQOTP, Bakı, 1992, s. 26-27.
5. Salamzadə Ə., Rzayev N., Kərimov K., Əfəndiyev R.. Azərbaycan incəsənəti. Bakı: Maarif, 1977, 213 s.
6. Seyidov M. Azərbaycan xalqının soy kökünü düşünürkən. Bakı: Yazıçı 1989, 496 s.
7. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.

8. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
9. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа. Баку: Элм, 1989, 128 с.
10. Окладникова Е.А. Петроглифы средней Катуни. Новосибирск: Наука, 1984, 112 с.
11. Сеидов А.Г. Памятники Куро-Араксской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.

РЕЗЮМЕ

ФИЗЗЕ КУЛИЕВА

АСТРАЛЬНЫЕ СИМВОЛЫ НА ДРЕВНИХ ОБРАЗЦАХ ИССКУСТВА НАХЧЫВАНА

На древних предметах искусства Нахчывана встречаются разнообразные изображения астральных символов. Эти астральные символы разделены на две группы и исследованы. Исследования показывают, что астральные символы, изображения человека и животных с астральными символами отражали идеологические представления поселенцев нашей родины о мифологическом системе мира, а также противоборство светского мира с потусторонним миром и их единство. Можно заключить, что астральные символы, встречаемые на древних предметах искусства были связаны с идеологическими представлениями, верованиями к астральным светилам, а также потустороннему миру.

Ключевые слова: Нахчыван , астральные символы, солнце, звезда, луна, фантастические изображения.

SUMMARY

FIZZE GULIYEVA

ASTRAL SYMBOLS ON ANCIENT MODELS OF ART OF NAKHCHYVAN

On ancient objects of art of Nakhchivan meet various images of astral symbols. These astral symbols are divided into two groups and investigated. Researches show that astral symbols, images of the person and animals with astral symbols reflected ideological representations of settlers of our homeland about mythological system of the world, and opposite of the secular world with the other world and their unity. It is possible to conclude that the astral symbols met on ancient objects of art have been connected with ideological representations, beliefs to astral objects, and also the other world.

Keywords: Nakhchivan, astral symbols, sun, star, moon, fantastic images.

(*Akademik İ.Hacıyev tərəfindən təqdim edilmişdir*)

"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

COĞRAFİYA

XASMƏMMƏD ƏSƏDOV
xeln@mail.ru
NAZIM BABƏYLİ
nazimnym@mail.ru
ƏNNAĞI ƏSGƏROV
askerov_a1970@mail.ru
AMAK Ekologiya İnstutu

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ÇAYLARINDA SEL HADİSƏSİ

Naxçıvan MR-in təbii şəraiti - bitki örtüyünün zəif inkişafı, meşələrdən demək olar ki, məhrum olması, kəskin kontinental iqlim, aktiv fiziki aşınmanın mövcudluğu, eləcə də insanların antropogen fəaliyyəti ərazinin hər yerində sel axınlarının keçməsinə səbəb olur.

Məqalədə çaylar sel axınlarının aktivlik dərəcəsinə və gücünə görə rayonlaşdırılır, sel ocaqaları haqqında məlumatlar verilir, eyni zamanda sel axınlarının hidroloji xüsusiyyətləri göstərilir.

Daşınan materialın həcminə və aktivliyinə görə Gilançaydan şərqdə yerləşən çayları dünyanın ən selli çaylarından hesab etmək olar.

Açar sözlər: sel, gətirmələr, bərk axın, gətirmələrin çöküntüsü, eroziya, aşınma

Naxçıvan Muxtar Respublikasının özünəməxsus fiziki-coğrafi şəraiti, meşə örtüyünün olmaması, geoloji-geomorfoloji xüsusiyyətləri, iqlimin kontinentallığı, aktiv fiziki aşınma, eləcə də insan fəaliyyəti çaylarda sel axınlarının yaranması üçün əlverişli şərait yaradır. Bu, Muxtar Respublikanın bütün çayları üçün səciyyəvi olsa da, Gilançaydan şərqə doğru sellərin dağıdıcı gücü və təkrarlanma ehtimalı daha böyükdür.

Çay məcralarında, dərələrdə və hövzələrində aşınma prosesləri nəticəsində toplanan qırıntı materialları, leysan yağışları və intensiv qar əriməsi zamanı sel hadisələrinin yaranmasına səbəb olur. Uçqun, ufantı, sürüşmə materialları zaman-zaman çay dərələrində tıxaclar yaradır və bu tıxacların açılması dəhşətli dağıntılarla nəticələnir. Yüksək dağlıqda alp və subalp çəmənlikləri landşaftında bitki örtüyü eroziyanın qarşısını aldığı üçün buralarda ümumiyyətlə sel hadisələri demək olar ki, yaranmır.

Şəkil 1. Yarğan eroziyası

Lakin son zamanlar yüksək dağlıqda torpaqların deqradasiyası, xüsusilə plansız otarılma, biçənəklərin genişləndirilməsi, hərbi müdafiə məqsədi ilə yolların çəkilişi landşaftın normadan artıq yüklənməsinə, eroziyanın inkişafına (şəkil 1), bu da öz növbəsində sellərin aktivləşməsinə səbəb olur. Yamacların meylliyi, onların çılpaqlıq dərəcəsi də sellərin inkişafına və gücünə təsir edir. Oroqrafik, geoloji, iqlim, torpaq-bitki şəraiti nəzərə alınmaqla sellərin aktivliyinə və axının gücünə görə iki rayona bölmək mümkündür:

1. Sel axınlarının daha aktiv olduğu Gilançaydan şərqə doğru.
2. Sellərin nisbətən zəif olduğu Gilançaydan qərbə doğru [3].

Birinci rayonda sel axınları strukturlu olur və nəinki Azərbaycanın, hətta dünyanın ən güclü selrayonlarından biri sayılır. Bu rayonda, xüsusilə rayonun şərq qurtaracağında, bir sel hadisəsi zamanı 1 mln/m^3-dən artıq qırıntı materialları daşınır (şəkil 2).



Şəkil 2. Vənəndçay dərəsində sel materialları

Hövzənin aktiv olma səbəbi çay düşməsinin çox böyüklüyü, torpaq-bitki örtüyünün zəif inkişafı, çılpaqlaşmış ərazilərin nisbətən çox olması və s. faktorlarla əlaqədardır. Qeyd etmək lazımdır ki, bu rayonda yerləşən Vənəndçay, Əylisçay, Ordubadçay, Gənzəçay, Kotamçay çayları dünyanın ən selli çayları siyahısına daxildir.

Gilançaydan qərbə doğru ərazidə və ya ikinci rayonda sel hadisələri daha az baş verir. Şərqi Arpaçaya qədər sellərin gücü zəifləyir və daha sonra yenidən artır. Bu rayonda ən selli çay Çanaqçıçaydır. Rayonda sel ocaqları təxminən 2000 m hündürlükdə formalaşır, talaşəkilli meşələrə rast gəlinir. Çayların düşməsi nisbətən aşağıdır. Bütün bu amillər sel axınlarının birinci rayona nisbətən daha az olmasını şərtləndirir. Cədvəldə bəzi çay hövzələrinin seləmələgəlmə xüsusiyyətləri göstərilmişdir (cədvəl 1).

Tədqiqat obyektində sel ocaqlarının sahəsi təxminən 537 km^2 və ya Muxtar Respublika ərazisinin 10 %-i qədərdir. Gilançaydan şərqə bu 140 km^2 və ya ümumi hövzənin konusa qədərki sahəsinin 20%-i qədərdir. Gilançaydan qərbə doğru isə sahə 397 km^2 və ya çay hövzələrinin konusa qədərki sahəsinin 15%-dir.

Cədvəl 1

Sel əmələgəlmə ocaqları haqqında məlumat

Çayın adı	Gətirmə konusuna qədər orta meyllik, ‰-lə	Gətirmə konusuna qədər sahə, km^2-lə	Seləmələgəlmə ocaqlarının sahəsi, km^2-lə	Sel ocaqları sahəsinin %-lə miqdarı	Sel ocaqlarının yuxarı sərhəddi, m-lə
Çanaqçıçay	55,0	170	37,7	22,2	2000
Naxçıvançay	31,8	1392	211,0	15,8	2500
Cəhriçay	38,3	360	103,8	28,9	2000
Əlincəçay	43,8	514	37,1	7,2	2500
Qaradərə	40,6	282	7,0	2,5	2000
Gilançay	41,0	379	78,3	21,2	2800
Düylünçay	64,0	121	12,3	10,1	2500
Vənəndçay	97,7	85	23,3	27,4	2500
Əylisçay	123,2	52	4,5	8,7	2500
Ordubadçay	126,3	40	11,0	27,5	2500
Gənzəçay	129,0	42	7,1	16,9	2500
Kotamçay	240,6	20	3,3	16,5	2500

Göründüyü kimi Gilançaydan şərqə doğru sel ocaqları qərbə nisbətən 1,5 dəfə çoxdur. Yuxarı axarlarda çox yüksək sürətə malik olan sellər dağətəyi zonada meylliyin birdən-birə azalması nəticəsində zəifləyir və sel gətirmələri çökərək prolüvial gətirmə konusları yaradır. Gilançaydan şərqə doğru çay hövzələrində uzunluğu 3-10, eni 5-6 km-ə çatan konuslara rast gəlinir.

Gənzəçay, Ordubadçay, Əylisçayın gətirmə konusları birləşərək şleyf yaradır. Şərqi Arpaçayın mənsəb hissəsində formalaşan qədim çay terrası bu gün Muxtar Respublikanın ən çox məskunlaşma ərazisidir. Çay üzərində su anbarının tikintisi müasir konusun inkişafının və dağıdıcı sellərin qarşısını almışdır [4].

Qərb hissədə konusların səthi az meyllidir. Çaylar adətən konusların periferisi və ya konuslararası çökəkliklərlə axır. Gətirmə konuslarının yuxarı hissələri daha iri, çeşidlənmiş materiallardan təşkil olunduğu halda Araz kənarında onlar nisbətən kiçik hissəciklərdən təşkil olunmuşdur. Konuslarda şaxələnən çay suyunun əksər hissəsi bu çöküntülər içərisində filtrasiya olunaraq zəngin yeraltı su ehtiyatı yaradırlar. Qeyd etmək lazımdır ki, bu gün Muxtar Respublikada geniş yayılan kəhriz sistemlərinin əksəriyyəti allüvial-prolüvial gətirmələrdə yerləşmişlər. Yeraltı sular Araza doğru səthə daha yaxın yerləşmişlər [5].

Sellərin ən çox dağıdıcı fəaliyyəti Naxçıvançay istisna olmaqla məhz konuslar üzərində olur. Belə ki, əlverişli əkinçilik və məskunlaşma şəraitinə malik olan münbit torpaqları, bol yeraltı suları, düzən relyefi ilə fərqlənən konuslar daha çox məskunlaşma ərazilərindəndir. Yuxarı və orta axarlarda çayın eroziya fəaliyyəti yalnız dibin və müəyyən qədər yamacların yuyulmasına yönəldilmişdir və bu hissələrdə məcraya daxil olan sel materialları əsasən tranzit xarakter daşıyır. Orta axarlarda, dərələrin daraldığı yerlərdə selin hündürlüyü bəzən 10 m-ə qədər qalxa bilir. Belə yerlərdə tez-tez tıxaclar əmələ gəlir və tıxacların açılması gətirmə konuslarında və çay sahillərində yerləşən yaşayış məntəqələri üçün olduqca böyük təhlükə yaradır.

Çaylarda sel hadisəsi zamanı selin əsas tərkib hissəsini təşkil edən dib gətirmələri düzənlik zonaya qədər, bəzi hallarda isə mənsəbəqədər daşınaraq prolüvial çöküntülərin əsas tərkibini təşkil edir. Gətirməkonuslarında aparılan tədqiqatlar göstərir ki, Naxçıvançay, Əlincəçay, Gilançay və Vənəndçay çayları il ərzində təxminən 34000 ton dib gətirmələri daşımaqdadır (şəkil 3).

Şəkil 3. Əlincəçay məcrasında iri həcmli dib gətirmələri

Çay gətirmələrinin bir hissəsi dib eroziya nəticəsində yaranır. Tək Naxçıvançay, Əlincəçay, Gilançay və Vənəndçay hövzələrindən asılı, dib materialları və kimyəvi həllolmuş vəziyyətdə il ərzində 228000 ton material daşınır. Bunun 50 %-i asılı, 15 %-i dib, 35%-i isə kimyəvi həllolmuş maddələrdir.

Cədvəl 2

Bərk axının miqdarı

№	Çay	Məntəqə	Sutoplayıcının sahəsi. km^2	Orta illik gətirmələr. t/il			Eroziya modulu. t/km^2			
				Asılımaddələr	Dibgətirmələri	Kimyəvihəllolmuş maddə	Asılı	Dib	Kimyəvi	Ümumi
1	Naxçıvançay	Qarababa	449	38186	11456	31322	85.1	25.6	69.7	180.4
2	Əlincəçay	Xanağa	313	14413	4324	13216	46.1	13.8	42.3	102.2
3	Gilançay	Başdizə	379	37872	11362	29116	100.0	30.0	76.8	206.8
4	Vənəndçay	Danaqurd	66	22723	6717	6984	344.0	102.0	105.8	551.8

2-ci cədvəldən göründüyü kimi eroziya modulu müxtəlif hövzələrdə müxtəlif kəmiyyətə malikdir və ayrı-ayrı hövzələrdə eroziya modulu bir-birindən 5-5.5 dəfə fərqlənir. S.H.Rüstəmova görə Muxtar Respublikada geoloji, hidroloji, torpaq-bitki, iqlim xüsusiyyətlərindən asılı olaraq bu kəmiyyət 102-552 ton/km^2 arasında dəyişir. Muxtar Respublikanın ərazisi üçün bərk axımın eroziya modulu 190 ton/km^2-ə bərabərdir [3,6].

A.V.Volına görə Azərbaycan üçün eroziya modulu 134 ton/km^2, Naxçıvan çayları üçün isə 259 ton/km^2-dir. Bizim fikrimizə görə A.V.Volın ilə S.H.Rüstəmov arasında uyğunsuzluq birinci müəllifin tədqiqatlar zamanı kiçik çay hövzələrində araşdırma aparmaması ilə əlaqədardır.

Alınan nəticələri Azərbaycanın Kiçik Qafqaz hissəsinin digər çay hövzələri ilə müqayisə etdikdə Naxçıvan Muxtar Respublikasında səthi eroziyanın iki dəfə intensiv getdiyini görmüş olarıq. Lakin Muxtar Respublika çay hövzələrinin bu göstəricisi Böyük Qafqazın cənub yamac çay hövzələri ilə müqayisədə 6 dəfə, Qobustan çayları ilə müqayisədə təxminən iki dəfə azdır. Rəqəmlərdəki bu fərqlərin yaranması hövzələrin meylliyi, meşəlik əmsalı, litologiyasının fərqliliyi ilə əlaqədardır (cədvəl 3).

Cədvəl 3

Eroziya modulunun digər ərazilərlə müqayisə cədvəli

S.H. Rüstəmova görə [3]

№	Ərazi	Çayların meylliyi %	Meşəlik əmsalı %	Əsas süxurlar	Eroziya modulu ton/km^2
1	Kiçik Qafqazın şimal-şərqi	18-38	20-30	Əhəngdaşı, qranit, qumdaşı	134
2	Qobustan	28-55	0-1	Əhəngdaşı, gilli şist, qumdaşı, gillər	557
3	Böyük Qafqazın cənub yamacı	17-81	15-60	Əhəngdaşı, qumdaşı,gil	1500
4	Naxçıvan MR	24-190	0-0.4	Qranit, diorit, əhəngdaşı	259

Naxçıvan Muxtar Respublikasında sellər ümumiyyətlə iki qrupa ayrılır:

1. Daşlı-sulu sel axınları. Bu tip çaylar Gilançaydan şərqdə, əsasən Ordubad rayonunda, Zəngəzurun cənub-qərb yamaclarında geniş yayılıb (şəkil 4).
2. Daşlı-palçıqlı sellər. Bu qrup çaylar Gilançaydan qərbdə Dərələyəz silsiləsinin cənub-qərbi üçün səciyyəvidir (şəkil 5) [3].

Şəkil 4. Düylünçayda daşlı-sulu selin gətirmələri

Şəkil 5. Əkin sahəsi palçıqlı seldən sonra

Sellər qədim dövrlərdən təbiətin qorxunc hadisəsi kimi yaşayış məntəqəsinə, təsərrüfatın müxtəlif sahələrinə, eləcə də təbiətə çoxlu ziyan vurmuşlar. Məsələn: 3 iyun 1884-cü ildə Ordubadçaydan keçən sel dalğalarının hündürlüyü 8 metrə, sel materiallarının qalınlığı isə 1,5 metrə, çəkisi isə 100 tona çatmışdır (şəkil 6).

Şəkil 6. Ordubadçayın gətirmə konusunda nəhəng sel materialı

1939-cu ilin iyun ayında Kotamçayda baş verən sel hadisəsi bir saat davam etmiş, axım 15 m^3 və ya 75-90 tonluq qayaları hərəkətə gətirmiş, Kotam kəndində selin hündürlüyü 3 metrə qalxmışdır. 20 iyul 1931-ci ildə Gənzəçay Ordubad şəhərinin şərqinin bir hissəsini tamamilə dağıtmışdır. 1939-cu ildə şəhərin bu hissəsi sel nəticəsində yenidən dağılmışdır.

20 avqust 1931-ci ildə Ordubdçayda baş vermiş sel hadisəsi zamanı Ordubad şəhərində 30 ev, 68 təsərrüfat, 4 körpü tamamilə dağılmış, 23 insan məhv olmuş, 1 mln m^3 bərk material Arazboyu əkin sahələrini örtmüş, Culfa-Ordubad yolunun 1300 m-lik hissəsi xəritədən silinmişdir.

3 iyul 1984-cü ildə Əylisçayda baş verən sel nəticəsində 43 insan ölmüş, Nucadı kəndi tamamilə yox olmuş, sel ağacları kökündən çıxarmış və əkin sahələrini tamamilə yox etmişdir.

1928, 1930, 1933, 1939, 1946, 1948 və s. illərdə Muxtar Respublikada Çanaqçıçay, Axuraçay, Arpaçay, Əliəsgər dərəsi, Salvardı, Gömür, Sələsüz, Buzqov, Əlincə, Xırdaçay, Düylünçay, Vənəndçay, eləcə də Darıdağ, Tükandərəsi (Biçənək), Daylaqlı dərələrindən keçən sellər onlarla insanın həyatına son qoymuşdur [1].

1997-ci ilin iyun ayında Əlincəçay üzərində yerləşən Qazançı su anbarının dağılması nəticəsində çayın suyu məcranı aşmış, yaranan sel evlərin, müxtəlif tikililərin, meyvə bağlarının çox hissəsini məhv etmiş, 9 körpü tamamilə sıradan çıxmış, 11 kənd ciddi xəsarət almışdır (şəkil 7).

Şəkil 7. Selin bağlara vurduğu ziyan

Son 25 il ərzində Muxtar Respublikada 12 fəlakətli dağıdıcı sellər təsərrüfatların müxtəlif sahələrinə milyon dollardan artıq maddi ziyan vurmuşdur [2].

Naxçıvan Muxtar Respublikası Azərbaycanın Baş Qafqaz silsiləsinin cənub yamaclarından sonra ikinci fəal sel əmələ gətirən rayonudur.

S.H.Rüstəmov sellərin fəalliği və gücünə görə Naxçıvan Muxtar Pespublikası ərazisini 2 hissəyə bölür:

1. Sel hadisələrinin daha fəal olduğu sahə - Gilançaydan şərqə Ordubad rayonunun ərazisi.
2. Gilançaydan qərbə olan, sellərin fəaliyyətinin nisbətən zəif olduğu sahə [3].

Gilançaydan şərqə çılpaq qayaların və sıldırımlı dərələrin dağ yamaclarına,həmçinin çay yataqlarının gətirmə konusunadək olan orta meyllik 40-240‰-ə bərabərdir. Bitki və torpaq örtüyünün zəifliyi buranı sellərin fəaliyyət meydanına çevirmişdir. Ərazinin ən selli çayları Vənəndçay, Əylisçay, Ordubadçay, Gənzəçay və Kotamçay çaylarıdır. Burada sel əmələ

gətirən ocaqların yuxarı sərhəddi 2000-2500 m yüksəklikdə olub, gətirmə konusuna qədər olan hövzənin 10-30 %-ni təşkil edir.

Aparılan çoxillik tədqiqatların nəticəsi olaraq C.M.Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikasında sel təhlükəsi xəritəsi tərtib olunmuş və onun yaradacağı fövqəladə hallar təhlükə dərəcəsinə görə rayonlaşdırılmışdır (xəritə)



Son zamanlar çay hövzələrində selə qarşı mübarizə tədbirləri aparılır. Bu tədbirlər aktiv və passiv olmaqla iki qrupa bölünür. Aktiv profilaktik tədbirlərə sel təhlükəsi gözlənilən yamaclara və sel ocaqlarına, subasarlara

ağac və kolluqlar əkilməklə bərkidilməsi, yamacların terraslaşdırılması, otarılmanın nizamlanması və digər aqrotexniki tədbirlər daxildir.

Selə qarşı passiv tədbirlərə isə çay dərələri və selovlarda qoruyucu və sel axınlarını istiqamətləndirən bəndlərin tikilməsi aiddir.

ƏDƏBİYYAT

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999, 226 s.
2. Bababəyli N.S. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Atlası. III bölmə. Sel təhlükəsi.Naxçıvan, 2017, s.101-108
3. Материалы по гидрографии СССР. Реки Азербайджанской ССР.II том. Баку, 1958, 288 с.
4. Bababəyli N.S., BababəyliY.N. Naxçıvan MR çaylarında orta çoxillik axın. AMEA NB Xəbərlər. Cild 7, №4, Naxçıvan-2011, s.293-299
5. Həbibbəyli İ., Həşimli H., Daaniş M., Bababəyli N. Kəhriz sistemləri. Bakı, 2010. 159 s.
6. Rüstəmov S.H. Azərbaycan SSR-nin çayları və onların hidroloji xüsusiyyətləri. Bakı, 1990, 196 s.
7. Волын А.В. Твердый сток и скорость эрозии. Изв. АНСССР. Сер.географическая. Москва, 1946

РЕЗЮМЕ

ХАСМАМЕД АСАДОВ, НАЗИМ БАБАБЕЙЛИ, АННАГИ АСКЕРОВ СЕЛЕВЫЕ ЯВЛЕНИЯ РЕКАХ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

Природные условия Нахчыванской АР - слабое развитие растительного покрова, почти полное отсутствие лесов, резкая континентальность климата, наличие активного физического выветривания, а также антропогенная деятельность обусловливает повсеместное прохождение на территории селевых потоков.

В статье районируются реки по степени селевой активности и мощности потоков, выдаются сведения об очагах селеобразования, также указываются гидрологические характеристики селевых потоков.

По преобладанию несомого материала и активности реки восточнее реки Гиланчай можно считать одними из мощных селеносных рек в мире.

Ключевые слова: сель, поток наносов, твердый расход, отложение наносов, эрозия, выветривание

SUMMARY

XASMAMMAD ASADOV, NAZIM BABABEYLI, ANNAGI ASGAROV

FLOOD EVENTS IN THE RIVERS OF HAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Natural conditions of Nakhchivan AR- weak development of vegetation cover, almost complete absence of forests, the sharp continentality of the climate, availability of active physical weathering (erosion), and antropogenic activity determines ubiquitous passage flood events on the territory.

In the article are zoning the rivers according to the degree of mudflow activity and the strength of the streams and are given the information adout flood pits, and also are shown hidrological characteristics of mudfow flows. By the predominance of the material to be carried and by the activity the rivers located easter than the river Gilanchay we can count one of the strengthest mudflow rivers in the world.

Key words: mudflow, drift of deposits, sediment discharge, uphuilding, erosion, weathering

(*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent N.Bababəyli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ŞƏFƏQ ƏLİYEVA
“Naxçıvan” Univeristeti
Shefeqaliyeva@gmail.com

XX YÜZİLLİKDƏ NAXÇIVANDA ƏHALİNİN MƏSKUNLAŞMASI MƏSƏLƏLƏRİ

Məqalədə XX yüzillikdə Naxçıvanda əhalinin məskunlaşması məsələlərindən danışılır. Bu məqsədlə erməınilərin siyasəti ilə Ermənistan SSR-dən Naxçıvana köçürülən əhalinin demoqrafik vəziyyəti ön plana çəkilir. XX əsrin müxtəlif tarixi mərhələlərində azərbaycanlıların zorla köçürülməsinin coğrafi şəraitə təsir göstərməsi və əhalinin məskunlaşmasında iqlimin rolu məsələləri aydınlaşdırırlır.

Açar sözlər: əhali, məskunlaşma, qaçqın, iqlim, demoqrafiya.

Azərbaycanın qədim torpaqlarında “böyük Ermənistan” dövləti yaratmaq xülyasında olan erməni millətçiləri bu ideyanı həyata keçirmək üçün tarix boyu ən iyrənc üsullara əl atıb, bəşəriyyət tarixində bənzəri olmayan vəhşiliklər törədiblər. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyalar həyata keçirən erməni daşnakları 1918-ci ilin martında və aprelin əvvəlində Bakı, Şamaxı, Quba, Lənkəran, Qarabağ, Naxçıvan, İrəvan və digər bölgələrdə kütləvi qırğınlar həyata keçirib, on minlərlə soydaşımızı qətlə yetiriblər.

Azərbaycan xalqı tarix boyu erməni millətçilərindən ağır zərbələr almış, lakin buna lazımi cavab verməmişdir. Bunun əsas səbəblərindən biri erməni xəyanətinin lazımi səviyyədə qiymətləndirilməməsi olmuşdur.

XX yüzillikdə erməni millətçilərinin xəyalən yaratdığı “böyük Ermənistan” ərazisinə Azərbaycan, Türkiyə, Gürcüstan və İran torpaqları da daxildir. Azərbaycan dedikdə, onlar, ilk növbədə Naxçıvanı nəzərdə tutur, buna görə də Naxçıvanla bağlı saxta və qeyri-obyektiv məlumatlar yayırlar. Naxçıvan əhalisinə qarşı soyqırımlar törədirlər. İndiyə qədər Naxçıvanlılar çoxlu sayda itki versələr də, erməni daşnaqlarının arzularının reallaşmasına imkan verməmişlər.

XX yüzillikdə erməni millətçi dairələri xaricdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı sovet rəhbərliyinə dəfələrlə müraciətlər etmiş və onların bu barədəki istəkləri cavabsız qalmamışdır. Belə ki, 1946-cı il oktyabrın 19-da SSR-i Ali Sovet Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı fərman verdi (2, 148). Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. Həmin hadisədən bir il sonra ermənilərin xeyrinə növbəti sənəd imzalandı. İ.Stalinin 1947-ci il dekabrın 23-də imzaladığı SSRİ Nazirlər Sovetinin 4083 nömrəli

qərarına əsasən, 1948-1950-ci illərdə Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali mərhələlərlə 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min , 1950-ci ildə isə 50 min nəfər Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülür (7, 71). Lakin yeni ərazinin iqlimi dağlıq ərazinin iqlim və şəraitinə uyğunlaşan əhaliyə mənfi təsiq edir. Ermənistanın dağlıq bölgələrindən Azərbaycanın Kür-Araz vadisinə köçürülən on minlərlə əhalinin taleyi faciəli oldu. Onlardan hər üç nəfərdən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib aclıq və xəstəlikdən həlak oldu (3, 382-383). Bu köçürmələr qış aylarında baş verdiyindən azərbaycanlı ailələr üçün ciddi fəsadlar törədirdi. Bundan başqa, müharibədən sonra acınacaqlı həyat sürən əhalinin zorla köçürülməsi azərbaycanlı köçkünlər üçün çox ağır bir zərbə idi.

Hər bir regionda əhalinin məskunlaşma səviyyəsi, forması, kəmiyyət və keyfiyyət göstəriciləri hər şeydən əvvəl ərazinin təbii-coğrafi mövqeyi, əlverişli iqlimi, zəngin torpaq örtüyü, bitki və heyvanataləmi və təbii resursları ilə səciyyələnir. Bu baxımdan, Naxçıvan Muxtar Respublikası daəhəmiyyətli təbii-coğrafi mövqedə yerləşməklə əlverişli iqlimə və zəngin təbiətə malik bir ərazidir. Məhz buna görə də 1948-1953-cü illərdə Ermənistandan köçürülən azərbaycanlıların bir qismi Naxçıvan MSSR rəhbərliyinə müraciət edirlər ki, onların Naxçıvan MSSR-də yerləşdirilməsinə köməklik etsinlər. Zəngibasar rayonunun Elyas kənd kolxozunun 20 aprel 1949-cu il tarixli ümumi iclasında köçmə məsələsi müzakirə edilir və iclasda 300 nəfərdən artıq işçi Naxçıvan MSSR-in Şərur rayonuna köçmək istədiklərini bildirirlər. Ermənistan SSR-in Vedi rayonundan 150 təsərrüfat Şərur rayonuna yerləşdirilir. Bundan başqa, Vedi rayonunun Qaralar və Şıxlar kəndinin kolxozçuları da Naxçıvan rəhbərliyinə müraciət edərək Şərur rayonunda daimi yaşamağa icazə verməsini xahiş etmişdilər (4, 136). Naxçıvan rəhbərliyi Ermənistan SSR-dən köçən azərbaycanlı kolxozçuları qəbul etməyə hazır olan Muxtar respublika kolxozlarının siyahısını hazırlayaraq Azərbaycanın müvafiq orqanlarına göndərmişlər. Bütövlükdə Muxtar respublikada 733 təsərrüfat, o cümlədən Şərur rayonu 23, Naxçıvan rayonu 164, Ordubad rayonu 125, Əbrəqunus rayonu 175, Şahbuz rayonu 95 təsərrüfat qəbul edir. Bu ailələr üçün yerlərdə yaşayış binaları hazırlanır və yerləşdirilir (5, 136-137). Həmin illər azərbaycanlıların köçürülmə prosesinin gücləndirildiyi dövr kimi diqqəti çəkir. Ümumiyyətlə, 1948-1953-cü illərdə Ermənistandan Naxçıvan MSSR ərazisinə köçüb gələn əhali Muxtar respublikanın Əliabad, Nəzərəbad, Didivar, Məzrə, Yuxarı Uzunoba, Zeynəddin, Şıxmahmud, Xəlilli, Qaraxanbəyli, Qaraçuq, Kültəpə kəndlərində, xüsusilə də Şərur rayonunda məskunlaşmışlar (7, 75).

Lakin Azərbaycanlıların köçürülmə prosesi bununla məhdudlaşmadı.Sonrakı dövrlərdə də bu iş təkrarlandı və daha da güclənməyə başladı. Beləki, Ermənistan Respublikası 1960-cı ildə həmin ərazidə yaşayan azərbaycanlıların sosial-həyat səviyyəsinin yüksəldilməsi üçün onlara ikimərtəbəli müasir evlər tikdirilməsi haqqında qərar qəbul edir və azərbaycanlıları məcbur edirlər ki, bu göstərişi yerinə yetirsinlər. Bu qərar ermənilərə aid edilmirdi. Qərarda ermənilərin başqa bir məkrli siyasəti də

gizlənirdi. 1988-ci ildən sonra məlum oldu ki, onlar ona görə gözəl evlər tikdirirmişlər ki, bu xalqı nə vaxtsa qovacaqlar və bu gözəl tikililər onlara qalacaqdır.Belə ki, ermənilərin Dağlıq Qarabağı ələ keçirmək üçün başladıqları hərakatın ilk dövründə, 1988-1991-ci illərdə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdlarından (185 kənddən və başqa yaşayış məntəqələrindən) 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31000-dən çox ev ermənistanda qaldı, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi (1, 11). Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdır. Ermənistan SSR-in Qafan və Mehri rayonlarında bu cinayətkarların vəhşi əməllərindən yaxa qurtaran ilk qaçqınlar 1988-ci il yanvarın 25-də Azərbaycana pənah gətirdilər (7, 278).

1988-ci ildə SSRİ DİN-nin məsul işçisi Sitaryanın göstərişi ilə azərbaycanlılarda olan silahlar məcburi şəkildə yığıldı. Bu yığıma məktəblərdə olan təlim hərbi sursatları da aid idi.

Ermənistandan gələn ilk qaçqınların yerləşdirilməsi məsələsi Azərbaycan Respublikasının Şurasunda müzakirə olunarkən bir qrup üzv onların Dağlıq Qarabağda yerləşdirilməsi təklifi ilə çıxış etdilər. Ancaq I katib qəti şəkildə bildirdi ki, onlar Kür-Arazda və Abşeronda yerləşdiriləcəklər. Bu qərarın səhv olduğunu tarix göstərdi. Belə ki, o zaman köçkün azərbaycanlıların Dağlıq Qarabağda yerləşdirilməsi çox məqsədəuyğun variant olardı.

Erməni millətçiləri üçün azərbaycanlıların öz ata-baba yurdlarından-etnik torpaqlarından qovulması onların strateji məqsədlərinin ilkin mərhələsi idi. XX yüzilin sonlarında Ermənistanda qanlı antitürk hərəkatı get-gedə genişlənirdi. Erməni qırğınından qurtarmaq üçün azərbaycanlılar öz yurd-yuvalarını tərk edərək Azərbaycana, o cümlədən Naxçıvana yaxın bölgələr isə Naxçıvan MR-ə pənah gətirdilər. Naxçıvan əhalisi XX əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da erməni millətçilərinin təqiblərindən qaçıb canını qurtarmış soydaşlarına sığınacaq vermişlər.

1988-ci ilin mart ayının ikinci yarısından başlayaraq Naxçıvan əhalisi İrəvandan, Göyçədən, Vedibasardan, Zəngəzurdan gələn minlərlə soydaşını qəbul etdi. Onları qarşılamaq, yerləşdirmək, minimum tələbatlarını ödəmək üçün hər bir naxçıvanlı ayağa qalxmışdı (7, 278). Əvvəllər qaçqınların qəbulu və onların məskunlaşdırılması yerli əhalinin iştirakı ilə həyata keçirilirdisə, sonradan bu işlərlə Muxtar respublikanın əlaqədar təşkilatları məşğul olmağa başladı. Muxtar respublikaya gəlmiş hər bir ailəyə maddi yardım göstərilir, onlar yaşayış yerləri, ərzaq məhsulları ilə təmin olunurdular.

Ermənistan SSR-dən qaçqın düşmüş azərbaycanlıların əksəriyyəti əvvəl-lər kənd təsərrüfatı ilə məşğul olduğunda nonların əsasən kəndlərdə məskun-laşmasına köməklik göstərilmiş və həmin ailələrə məşğulluğunun təmin olunması məqsədilə torpaq sahələri ayrılmışdır.

Ermənistan SSR-dən qovulan soydaşlarımızın qəbulu və onlara yardım göstərilməsi sahəsində əsas ağırlıq Şərur rayonunun üzərinə düşmüşdür. 1988-ci ilin sonlarında qaçqınlar Şərurun 60-a yaxın kəndində məskunlaşmışdılar. Onlar 800 ailəni təmsil edən 2100 nəfərdən ibarət idilər. Qaçqınlar üçün Şərur rayonunda yaşayış və iş yerləri müəyyənləşdirilməklə onlara torpaq sahələri də

ayrılmışdır.

Muxtar respublikanın Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında Ermənistan SSR-dən qovulmuş soydaşlarımızın qəbul edilməsi və yerləşdirilməsi üçün müvafiq tədbirlər görülmüşdü. Qaçqın ailələrin bir qismi ayrı-ayrı yaşayış məntəqələrində yerləşdirilsə də Babək rayonunun Böyükdüz kəndi yaxınlığında "Ceyran bulağı" adlanan ərazidə 380 qaçqın ailəsininməskulaşması üçün yeni yaşayış məntəqəsi yaradılmışdı (9).

Ordubad rayonuna gəlmiş qaçqınlar rayonun bir sıra kəndlərində, azərbaycanlı ailələrində yerləşdirilmiş, məktəbyaşlı uşaqlar üçün Parağa kəndində yeni məktəb binası istifadəyə verilmişdir. Culfa rayonuna gəlmiş qaçqınlar əsasən Culfa şəhərində və rayonunun Xanağa, Əbrəqunus, Şurud, Milax və başqa kəndlərində yerləşdirilirdi. (6, v. 29-30). Həmin illərdə Şahbuz rayonunda1500 nəfərdən çox qaçqın yerləşdirilmişdi. Onlar Ermənistan SSR-in Əzizbəyov, Yexeqnadzor (Keşişkənd) və Sisyan (Qarakilsə) rayonlarından gəlmişdilər. Qaçqınlar daha çox Şahbuz rayonunun Nursu, Mahmudoba, Badamlı, Gömür, Ayrınc və başqa kəndlərində müvəqqəti olaraq məskunlaşdlırılmışdı. Ümumiyyətlə, 1988-1989-cu illərdə köçkünlərin çoxu Naxçıvana üz tuturdu. Lakin 1989-cu ilin sonlarından başlayaraq Ermənistandan qaçqın düşərək Naxçıvanda məskunlaşmış əhalinin əksəriyyəti Bakı şəhərinə köçməyə başladı. Muxtar respublikada daimi məskunlaşmaq qərarına gəlmiş qaçqınlar isə burada daimi pasport qeydiyyatına alınaraq, evlə, şəxsi təsərrüfat sahələri ilə təmin edildilər (8, v. 24-30).

Son illərdə Azərbaycan bölgələrinin hərtərəfli inkişafında, iqtisadi fəallığın yüksəldilməsində, iş yerlərinin və yeni müəssisələrin yaradılmasında, əhalinin məşğulluğunun yaxşılaşmasında regionların sosial iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası mühüm əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Muxtar respublikanın iqtisadi potensialının artmasına, kommunal xidmətlərinin keyfiyyətinin daha da yüksəlməsinə, əhalinin rifahının yaxşılaşmasına səbəb oldu. Bütün bu kimi amillər də öz növbəsində əhalinin məskunlaşmasına öz müsbət təsirini göstərdi.

Deməli, əlverişli coğrafi mövqe, iqlim, zəngin təbii resurslar demoqrafik vəziyyətinformalaşmasında mühüm yer tutsa da, onu xarakterizə edən əsas amillərdən biri də əhalinin yerdəyişməsidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2001.
2.Azərbaycan tarixi, 7 cilddə. 7-ci cild, Bakı:Elm, 2008.
3.XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı: Təhsil, 2009.
4. 1970-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatı. Statistik məcmuə. Bakı: BNM, 1972.
5. Mustafayev.A. Ermənistanın soyqırım və deportasiya siyasətəndə Naxçıvan, Bakı: Çinar, 2003.
6. NMR DA, f.97, siy.12, bağ. 115, iş 26.

7. Naxçıvan tarixi III cild,Naxçıvan: “Əcəmi” Nəşriyyatı- Poliqrafiya Birliyi, 2015.
8. NMR DA, f.103, siy.10, bağ.63, iş 53.
9. “Şərq qapısı” qəzeti, 1990 20 may.

РЕЗУМЕ

ШАФАК АЛИЕВА

ВОПРОСЫ РАЗМЕЩЕНИЯ НАСЕЛЕНИЯ В НАХЧЫВАНЕ В XX СТОЛЕТИИ

В статье говорится о вопросах заселения населения в Нахчыване в XX столетии. С этой целью на первый план выдвигается демографическое положение населения, переселенного из Армянской ССР в Нахчыван по политике армян. Проясняется влияние принудительного переселения азербайджанцев на различных исторических этапах XX века на географические условия, а также роль климата в заселении населения.

Ключевые слова: население, заселение, беженец, климат, демография.

SUMMARY

SHAFAG ALIYEVA

ISSUES OF POPULATION DISTRIBUTION IN MAKHCHIVAN IN TWENTIETH CENTURY

This article deals about issues of population settlement in Nakhchivan in twentieth century. For this purpose, the demographic situation of the population resettled from the Armenian SSR to Nakhchivan because of the armenian policy is brought to the forefront. The impact of forced relocation of Azerbaijanis at various historical stages of twentieth century on geographical conditions, and the role of climate in population settlement are lightened.

Key words: population, settlement, refugees, climate, demography.

(*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent N.Bababəyli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

GÜNEL ABDURAXMANOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
abduraxmanovagunel@gmail.com

BÖYÜK QAFQAZIN ŞİMAL-ŞƏRQ YAMACI ÇAYLARININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Məqalədə Böyük Qafqazın şimal-şərq yamacı çaylarının əsas xüsusiyyətlərini tədqiq etmək üçün axımın formalaşmasına təsir edən təbii və antropogen amillər təhlil edilmişdir.

Böyük Qafqazın şimal-şərq yamacından axan çayların hidroqrafik şəbəkəsi haqqında geniş məlumat verilmiş, müxtəlif ərazilərin hidroqrafları qurulmuşdur, ki bunlar da çayların səviyyəsi xüsusiyyətləri haqqında dəqiq məlumat almağa imkan verir.

Tədqiqat ərazisindən keçən çayların səviyyə xüsusiyyətlərinə təsir edən digər amillər olan filtrasiya, karst, çayların quruması və iqlim dəyişmələri haqqında məlumatlar araşdırılmış və xəritələşdirilmişdir.

Açar sözlər: Çay, axım, Böyük Qafqaz, su səviyyəsi, fiziki-coğrafi amillər, çayların quruması

Böyük Qafqazın cənub-şərq batımı regionunda Dübrar sinklinoriumu Şahdağ və Qızılqaya massivlərindən sonra inversion morfostrukturlara (sinklinal silsilələrə) ən tipik misaldır. Dübrar sinklinal morfostrukturu Gilgilçay və Ataçay hövzələrini Çikilçay hövzəsindən ayırır. Ətraf yayla və çökəklər üzərində 500-1000 *m* ucalan ortadağlıq silsilədəki çəmənliklər regionun əsas yaylalarından sayılır.

Azərbaycan Respublikası ərazisinin geoloji və tektonik quruluşu mürəkkəb olduğu kimi, relyefi də çox mürəkkəbdir [1].

Azərbaycan ərazisində ən möhtəşəm, görkəmli, kontraktlı və fəal morfostruktur Böyük Qafqaz meqantiklinorium dağ sistemidir. Böyük Qafqaz dağları bütövlükdə I dərəcəli morfostruktur olmaqla, Alp-Himalay orogen qurşağının Avropa və Ön Asiya-Qafqaz seqmentlərinin böyük yüksəkdağlıq morfostrukturlarından biridir. Bu I dərəcəli morfostrukturun Azərbaycan ərazisində yerləşən cənub-şərq hissəsi bir sıra II dərəcəli morfostrukturdan ibarətdir. Bunlara yüksəkdağlıq Tufan antiklinorium silsiləsi, Şahdağ-Xızı sinklinorium dağları, Təngi-Beşbarmaq antiklinorium dağları və s. daxildir.

Böyük Qafqazın şimal-şərq yamacının hündür dağlıq zonasında çayların əsas qida mənbəyi qar, qismən isə buzlaq sularıdır. Bu zonada çayların rejiminin əsas fazası yaz-yay gursulu dövrüdür. Orta dağlıq zonada

çaylar başlıca olaraq qar suları ilə qidalansalar da, qida mənbəyi kimi yağış sularının payı da az deyildir. Bu ərazidə şimaldan cənuba doğru yağış suları ilə qidalanma artır.

Böyük Qafqazın şimal-şərq yamacının hidroqrafik şəbəkəsi (şəkil 1) təbii və antropogen proseslərin təsiri nəticəsində dəyişməkdə davam edir.



Şəkil 1 – Böyük Qafqazın şimal-şərq yamacının hidroqrafik şəbəkəsi

Bu ərazidə olan çayların (qolları ilə birlikdə) ümumi sayı 1187-dir [2]. Onlardan uzunluğu 5 *km*-dən kiçik 1060 çay, 6-10 *km* uzunluğunda 67 çay, 11-25 *km* uzunluğunda 37 çay, 26-50 *km* uzunluğunda 10 çay, 51-100 *km* uzunluğunda 9 çay və 101-200 *km* uzunluğunda 4 çay vardır. Çayların cəmi uzunluğu 2550 *km*, ümumi sutoplayıcı hövzəsinin sahəsi 6100 km^2 olmaqla, çay şəbəkəsi sıxlığı 0,42 km/km^2-dir. Böyük Qafqazın şimal-şərq yamacının çay hövzəsinin su balansı S.H.Rüstəmov və R.M.Qaşqayın tədqiqatlarında verilmişdir [3] (cədvəl 1).

Cədvəl 1 – Böyük Qafqazın şimal-şərq yamacı hövzəsinin su balansı

Hövzənin sahəsi, km^2	Yağıntılar, $mln\ m^3$	Axım, $mln\ m^3$	Yerüstü axım, $mln\ m^3$	Yeraltı axım, $mln\ m^3$	Buxarlanma, $mln\ m^3$	Axım əmsalı
6610	2668	1161	713	451	1504	0,44

Böyük Qafqazın şimal-şərq hissəsində axımın paylanması tamam fərqlidir [4, 5]. Baş Qafqaz silsiləsi cənubdan və cənub-şərqdən gələn rütubətli və mülayim hava kütlələrinin qabağını kəsərək təbii maneə rolunu oynayır. Şimal-şərq yamacları isə açıq vəziyyətdə olduğuna görə quru və soyuq şimal-şərq hava kütlələrinin təsirinə məruz qalırlar. Bununla əlaqədar olaraq cənub

yamacına nisbətən burada düşən atmosfer yağıntıları miqdarca daha azdır və şimal-qərbdən cənub-şərqə doğru getdikcə azalır. Bundan başqa şimal-şərq yamacının çay hövzələrinin meşələşməsi və yamacların dikliyi (mailliyi) nisbətən az, torpaq-qruntun suburaxma qabiliyyəti isə daha çoxdur.

İllik axım ən çox 600 *mm* (19 $l/san \cdot km^2$) olur ki, o da yüksək dağlıq (3000 *m*-dən çox) ərazilərdə Baş Qafqaz silsiləsindən axan çayların axımı eyni qaydada artaraq Yan və Baş Qafqaz silsilələri arasında müəyyən intensivləşmə ilə müşahidə olunur. Bu zona illik axımın miqdarı 300-600 *mm* (9,5-19 $l/san \cdot km^2$) olan Qusarçay, Qudyalçay, Qaraçay və Vəlvələçayların yuxarı hissəsini əhatə edir (şəkil 2). Yan silsilədən axan çaylar illik axımına görə Baş Qafqaz silsiləsinin çaylarından kəskin fərqlənir. 1000-2000 *m* yüksəkliklərdə düşən atmosfer yağıntılarının hesabına axımın miqdarının birdən-birə 200 *mm*-dən 600 *mm*-ə qədər artmasının şahidi oluruq (6-19 $l/san \cdot km^2$).



Şəkil 2- Böyük Qafqazın şimal-şərq yamacı çaylarının kosmik təsviri üzərində ArcGis 10.3 proqram təminatı vasitəsilə həyata keçirilmiş tematik lay - çayları

Çayların qida mənbələri. Çayların qida mənbələrini kəmiyyətcə qiymətləndirmək üçün M.İ.Lvoviç üç interval qəbul etmişdir: 80%-dən çox, 50-80% və 50%-dən az. Konkret qida mənbələrinin payı 50%-dən az olduqda, belə çay qarışıq qidalı çay tipinə aid edilir.

S.H.Rüstəmov isə qida mənbəyinin üstünlüyündən asılı olaraq Azərbaycan çaylarını 4 qrupa bölür:

- Mühüm dərəcədə yeraltı suların iştirakı ilə başlıca olaraq qar sularından qidalanan çaylar.

- Yeraltı suların iştirakı ilə başlıca olaraq yağış sularından qidalanan çaylar.
- Mühüm dərəcədə yağış sularının iştirakı ilə başlıca olaraq yeraltı sularla qidalanan çaylar.
- Mühüm dərəcədə qar sularının iştirakı ilə başlıca olaraq yeraltı sularla qidalanan çaylar.

Müxtəlif qida mənbələrinin payı sabit qalmır, ildən-ilə çayboyu və yüksəklik qurşaqları üzrə dəyişir. Bəzi illərdə maksimal su sərfləri qar sularının, bəzən isə yağış sularının hesabına formalaşır. Çoxsulu illərdə səth sularının, azsulu illərdə isə yeraltı suların payı artır.

Böyük Qafqazın şimal-şərq yamacı çaylarının əksəriyyəti üçün qar suları ilə qidalanma 20-45% təşkil edir. Qusarçayın illik axımının 50%-i, Qudyalçayın isə 42%-i qar sularının payına düşür. Bu ərazidəki çayların qidalanmasında yağış sularının payı böyük intervalda dəyişir. Hövzənin orta hündürlüyü böyük olan çaylarda yağış suları 10-27% təşkil edir, lakin hövzələri nisbətən alçaq hündürlükdə yerləşən çaylarda bu rəqəm 50-75%-ə qədər çoxalır.

Tədqiqat ərazisində çay hövzələrində baş vermiş subasma hadisəsinin tədqiqi zamanı, ilkin olaraq öyrənilən ərazi haqqında fiziki-coğrafi arayışın hazırlanması və həmin arayışda subasmadan təhlükəli obyektlərin yerləşmə qanunauyğunluqları haqqında müəyyən informasiyaların yerləşdirilməsi zərurəti qarşıya çıxır. Bu nöqteyi-nəzərdən aşağıdakı prosedur məsələləri həll etmək məqsədəuyğun hesab edilmişdir:

– təhlükəli obyektlərin yerinin və xarakteristikalarının təyin edilməsi;

– potensial təhlükəli obyektlər haqqında ətraflı informasiyaların toplanması;

– hər bir obyekt üzrə subasma hadisəsinin mümkün olan hallarının qiymətləndirilməsi;

– subasma mənbələrinin xarakterik xüsusiyyətlərinin öyrənilməsi və seli formalaşdıran

mənbələrin təyin edilməsi;

– hadisələrin sonrakı inkişafının proqnozlaşdırılması.

Beləliklə, coğrafi məlumat sistemindən (CMS) istifadə etməklə subasma hadisələrini qiymətləndirmək üçün verilənlər bazasını (VB) yaratmaq, bütün zəruri məlumatları verilənlər bazasında qruplaşdırmaq və onları əyani rəqəmli elektron xəritə - fraqmentlər şəklində təqdim etmək mümkün olmuşdur. Nəticədə xəritələr mətn və cədvəl məlumatları ilə əlaqələndirilmiş, zəruri verilənləri özündə cəmləşdirən kompleks xəritə-fraqmentlər tərtib edilmiş, onlar operativ olaraq çap edilmişdir. Bunlardan istifadə isə operativ şəraitdə

tez oriyentasiya etməyə, subasmalara, daşqın və digər bədbəxt hadisələrə tez münasibət göstərməyə imkan verər [4].

Çayların əsas xüsusiyyətlərini öyrənmək üçün ilk növbədə tədqiqat ərazisi üçün verilənlər bazası yaradılmalıdır. Bu işlərin ənənəvi üsullarla aparılması çox vaxt və zəhmət tələb etməklə yanaşı, heç də həmişə düzgün nəticələrə gətirib çıxarmır.

Son onilliklər ərzində qabaqcıl ölkələrdə bu məqsədlər üçün ən müasir metod və yanaşmalardan istifadə olunur ki, bunların sırasında da məsafədən zondlama verilənləri və coğrafi informasiya sistemləri (CİS) texnologiyaları xüsusi yer tutur.

Kosmik şəkillər əsasında və ArcGİS 10.3 proqram təminatının müxtəlif alətlərindən istifadə etməklə Böyük Qafqazın şimal-şərq hissəsinin yamacı çaylarının vektorlaşdırılmış xəritəsi tərtib edilmişdir (şəkil 3)



Şəkil 3 – Böyük Qafqazın şimal-şərq yamacı çaylarının vektorlaşdırılmış hövzəsi

Çayların qidalanmasında iştirak edən yeraltı sular həm daimi, həm də müvəqqəti (mövsümi) su laylarından daxil olur. Bu sular çox zaman bulaqlar şəklində yer səthinə çıxır və azsulu dövrlərdə çayların əsas qida mənbəyi rolunu oynayır. Mövsümi yeraltı suların yay-payız azsulu dövr axımının formalaşmasında rolu daha böyükdür, çünki yaz gursululuğu dövründə bu suların ehtiyatı əhəmiyyətli dərəcədə artır. Yay-payız aylarında mövsümi yeraltı suların ehtiyatı tədricən azalaraq qış azsulu dövrdə minimuma çatır və ya tükənir. Qış aylarında çaylar başlıca olaraq daimi yeraltı su laylarından qidalanır.

Böyük Qafqazın şimal-şərq yamacında yağıntıların illik miqdarı yüksəklik artdıqca 380 *mm*-dən (200 *m* hündürlükdə) 700 *mm*-ə qədər (3000 *m*-də) çoxalır.

Bulaqlar. Qusarçay və Qudyalçay hövzələrinin dağlıq hissələrində yeraltı su layları orta yura və aşağı təbaşir yaşlı süxurlarda formalaşır. Ərazidə yayılmış qum və şistlər nisbətən yüksək sululuqları ilə fərqlənir. Bulaqların debiti 7-9 *l/san*-yə çatır və onlar birləşərək ümumi su sərfi 40 *l/san*-yə çatan süxurlar əmələ gətirir. Bu çayların orta axınlarının sutoplayıcı hövzələri aşağı təbaşirin çatlı əhəngdaşları və neogen gillərdən təşkil olunmuşdur. Çay hövzələrinin bu hissələrində kiçik debitli, lakin çoxsaylı bulaqlar var [5, 6].

Şabrançaydan Gilgilçaya qədər olan ərazidə təbaşir yaşlı süxurlar üstünlük təşkil edir. Gilgilçay və Ataçayın hövzələrində aşağı təbaşirin gilli-mergelli süxurları demək olar ki, susuzdur. Burada debiti 0,01-0,10 *l/san* olan bulaqlar üstünlük təşkil edir.

Qusarçay və Qudyalçayın aşağı axınlarında bulaqlar çoxdur. Onların maksimal debiti 2,5-3,0 *l/san*-ə çatır. Bulaqların rejimi atmosfer yağıntılarının ildaxili paylanmasına və qarın ərimə şiddətliyinə uyğundur. Bulaqların maksimal debitləri minimal debitlərə nisbətən 1,4-1,6 dəfə çoxdur. Bu çay hövzələrinin dənizsahili düzənlik hissələrində də çoxsaylı bulaqlar var.

Filtrasiya. Çayların aşağı axınında axımın bir hissəsi məcradan filtrasiya olunur. Filtrasiyanın kəmiyyəti azsulu dövrlərdə daha böyük olur. Çayboyu filtrasiya olunan suyun miqdarı sabit qalmır. Qusarçayda filtrasiyanın kəmiyyəti mənsəb istiqamətində azalır. Quzun və Anıx kəndləri arasında filtrasiya 15-17%, Xuray və Qusar arasında isə cəmi 0,6-0,7% təşkil edir. Qudyalçayda Kupçal məntəqəsi ilə mənsəbdən 5 *km* yuxarıda yerləşən kəsik arasında filtrasiyanın kəmiyyəti 2,3-11% arasında dəyişir. Çayın bu hissəsindən aşağıda isə filtrasiya azalaraq 0-2,7%-ə çatır. Vəlvələçayın Təngəaltı məntəqəsi hissəsində (4 *km*) isə filtrasiya 3,6%-ə bərabərdir.

Filtrasiya olunan axım kəmiyyətinin mənsəb istiqamətdə azalmasının mümkün səbəblərindən biri çayın müxtəlif hissələrində səth axımı və məcraaltı axımın nisbətinin dəyişməsi ola bilər. Başqa bir səbəb yuxarı hissədə istifadə üçün götürülən suların bir hissəsinin məcraya qayıtmasıdır. Həmçinin, nəzərə almaq lazımdır ki, aşağı axında gətirmələrin ölçüləri kiçilir və məcrada kalmatasiya prosesi baş verir. Bu da filtrasiya olunan axımın kəmiyyətinin azalması ilə nəticələrinir.

Karst. Minimal axıma təsir edən təbii azonal amillərdən biri də karstdır. Qonşu çay hövzələri arasında yeraltı su mübadiləsi baş verdikdə çayların minimal axımının kəmiyyəti zonal kəmiyyətdən kəskin fərqlənə bilər. Minimal axım dövründə çayların mütləq sululuğu az olduğuna görə bu fərq illik axımla müqayisədə daha böyük olur.

Qudyalçayın yuxarı axınında karst süxurları daha geniş yayılmışdır. Bu çaya Xınalıq kəndi yaxınlığında Xınalıqçay qovuşur. Qudyalçay-Xınalıq məntəqəsində minimal qış axım modulu 11,5 $l/san \cdot km^2$, Xınalıqçay-Xınalıq məntəqəsində isə cəmi 3,61 $l/san \cdot km^2$ təşkil edir. Birinci məntəqədə qeydə alınmış axım zonal qiymətdən 46% çox, ikinci məntəqə isə 48% azdır. Beləliklə, Xınalıqçayın hövzəsindən axımının bir hissəsi yeraltı yolla Qudyalçayın hövzəsinə keçir.

Çayların quruması haqqında. Şərqi Qafqaz və Şimali Qafqaz ərazisində yerləşən çayların müəyyən bir hissəsi yayda quruyur.

Abşeron-Qobustan rayonu Şərqi Qafqazda azsululuğu ilə fərqlənən ən quraq ərazidir. Qar ilə qidalanma cüzidir. S.Q.Rüstəmovun məlumatlarına görə bu çayların axımının qidalanmasının 78-98%-i yağış suları, 2-10%-i isə yeraltı suların hesabına baş verir. Yeraltı sularla qidalanmanın az olmasına səbəb atmosfer yağıntılarının həddindən az olması və buxarlanmanın isə çox olmasıdır. Ona görə də axımın yaranması növbəti yağışların yağmasına qədər davam edir. Soyuq hava dövründə olan axımsızlıq isti hava dövrünə nisbətən qısa olur. Məsələn, Ceyrankeçməz (Sanqaçal məntəqəsi) və Sumqayıtçayda (Pereküşkül məntəqəsi) orta hesabla axımsız günlərin sayı uyğun olaraq 280 və 106 gün olmuşdur. Çox quraq keçən illərdə bu bəzən 209-259 gün təşkil edir. Yalnız 1963-cü il çoxsulu olduğuna görə bu çaylar il ərzində qurumayıblar.

Bu çaylardan fərqli olaraq, Ataçay (Altıağac məntəqəsi) yalnız ayrı-ayrı illərdə quruyur. Bu, axımın yaranması üçün nisbətən əlverişli şəraitin olması ilə əlaqədardır (qidalanma 10% qar suyu, 12% isə yeraltı sularla).

Samur və Qusar çaylarında yaz gursululuğu avqust ayının sonuna və sentyabrın ortalarına kimi davam etdiyindən bu çaylarda yay və ya yay-payız azsulu dövrü və müvafiq olaraq minimal axım dövrü olmasa da, uzun müddət (150-160 gün) davam edən qış azsulu dövrü müşahidə olunur. Minimal su sərfləri adətən qış mövsümünün axırında, yaz gursululuğunun başlanmasına 5-10 gün qalmış qeydə alınır.

Böyük Qafqazın şimal-şərq yamacının qalan çayları iki azsulu dövr ilə səciyyələnir: yay-payız və qış (şəkil 6, 7, 8).



Şəkil 4 – Vəlvələçay-Təngəaltı məntəqəsində 1972-ci il üçün hidroqraf



Şəkil 5 – Qusarçay-Kuzun məntəqəsində 1972-ci il üçün hidroqraf



Şəkil 6 – Şabrançay-Zeyvə məntəqəsində 1972-ci il üçün hidroqraf

Aparılan tədqiqatlar göstərir ki, [9] iqlim dəyişmələrinə uyğun olaraq minimal axımın dəyişməsi də qeyri-bərabər şəkildə müşahidə olunur. Əsas təsiredici iqlim amilləri kimi atmosfer yağıntıları və havanın temperaturu nəzərdə tutulur. Ona görə də minimal yay və qış axımlarının hidroloji hesablamalarında əsas prediktorlar kimi orta aylıq temperatur və orta aylıq yağıntılardan istifadə edilir. Analizlər göstərir ki, bu iki iqlim amili ilə minimal axım arasında bilavasitə xətti əlaqə mövcuddur. Belə ki, orta illik temperaturun $0{,}17^0$ C artması [10] nəticəsində qarın, buzlaqların əriməsi intensivləşir və bu

qış minimal axımın, yay dövründə isə buxarlanmanın artmasına və nəticədə yay minimal axımın ildaxili azalmasına səbəb olur.

Son onilliklər ərzində qabaqcıl ölkələrdə çayların əsas xüsusiyyətlərini öyrənmək üçün ən müasir metod və yanaşmalardan istifadə olunur ki, bunların sırasında da məsafədən zondlama verilənləri və coğrafi informasiya sistemləri (CİS) texnologiyaları xüsusi yer tutur.

Böyük Qafqazın şimal-şərq hissəsinin yamacı çaylarının əsas xüsusiyyətlərini öyrənmək üçün ərazinin kosmik təsvirindən istifadə edilmişdir. Böyük Qafqazın şimal-şərq yamacının hidroqrafik şəbəkəsi qurulmuş, kosmik şəkillər əsasında və ArcGİS 10.3 proqram təminatının müxtəlif alətlərindən istifadə etməklə ərazi çaylarının vektorlaşdırılmış xəritəsi tərtib edilmişdir. Ərazidən keçən çaylar üçün hidroqraflar qurulmuş və müqayisə edilmişdir.

ƏDƏBİYYAT

1. Львович М.И. Мировые водные ресурсы и их будущее. М.:Мысль, 1974, с.448
2. М.А.Мамедов. Расчеты максимальных расходов воды горных рек.– Л.: Гидрометеоиздат, 1989. – 184 с.
3. С.Г.Рустамов, Р.М.Кашкай. Водный баланс Азербайджанской ССР. “Элм”, 1978, 110 с.
4. B. Q. Mehdiyeva. Kosmik təsvirlər əsasında Xaçmaz rayonunun Qusarçay-Qudyalçay hövzəsinin torpaq-bitki obyektlərinin xəritələşdirilməsi. MAKA-nın xəbərləri, №2. Cild 20, Bakı 2017. Səh 26-31.
5. С.Н.Рүстәмов. Азәрбајҹан ССР-ин чајлары вә онларын һидроложи хүсусијјәтләри. Азәрб.ССР Елмләр Академијасы Нәшрижјаты. Бакы – 1960, 196 с.
6. Əliyev F.Ş. Azərbaycan çaylarının yeraltı suları, ehtiyatlardan istifadə və hidrogeoloji problemlər. Bakı, Çaşıoğlu, 2000, 325 s.
7. Геология Азербайджана. Том VIII. Гидрогеология и инженерная геология. Баку, изд-во. «Нафта-Пресс», 2008, 380 с.
8. M.A.Müseyibov. Azərbaycanın fiziki coğrafiyası, Bakı “Maarif” nəşriyyatı,1998, 360 səh.
9. Ə.Əhmədzadə, A.S.Həşimov – Meliorasiya və su təsərrüfatı sistemlərinin kadastrı. Bakı, 2006, 270 səh.
10. Ə.S.Əhmədzadə. Heydər Əliyev və Azərbaycan su təsərrüfatı. Bakı 2003.

РЕЗЮМЕ

ГУНЕЛ АБДУРАХМАНОВА

ОСНОВНЫЕ ОСОБЕННОСТИ РЕК СЕВЕРО-ВОСТОЧНЫХ СКЛОНОВ БОЛЬШОГО КАВКАЗА

В статье проанализированы естественные и антропогенные факторы, влияющие на формирование стока, с целью исследования основных особенностей рек северо-восточных склонов Большого Кавказа.

В статье предоставлена обширная информация о гидрографической сети рек, протекающих по северо-восточным склонам Большого Кавказа, построен гидрограф различных территорий, что позволяет получить подробную информацию об основных особенностях уровня рек. Сведения о таких факторах, влияющих на особенности уровня рек, протекающих по исследуемой территории, как фильтрация, карст, осушение рек и изменения климата были исследованы и картографированы.

Ключевые слова: река, сток, Большой Кавказ, уровень воды, физико-географические факторы, осушение рек

SUMMARY

GUNEL ABDURAKHMANOVA

THE MAIN FEATURES OF THE NORTH-EASTERN SLOPE RIVERS OF THE GREATER CAUCASUS

The article explores the natural and anthropogenic factors affecting the formation of the flow in order to analyze the main features of the north-eastern slope rivers of the Great Caucasus. The extensive information on the hydrographic network of the rivers flowing from the north-eastern slopes of the greater Caucasus has been given, and the hydrographs of different areas were set out that both make it possible to obtain accurate information on the level of the river.

Information on filtration, karsts, drying up of rivers and climate changes which are the other factors that influence the water level of the rivers passing through the research area had been investigated and charted.

Key words: River, flow, Greater Caucasus, water level, Physiographic factors, drying up of rivers

(*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent N.Bababəyli tərəfindən təqdim edilmişdir*)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

PEDAQOGİKA VƏ PSİXOLOGİYA

İSMAYIL ƏLİYEV
“Naxçıvan” Universiteti
i.aliyev@nu.edu.az

ATALAR SÖZLƏRİNƏ PEDAQOQ BAXIŞI

Məqalədə atalar sözlərinin hökm və öyüd mahiyyətindən danışılır, müasir dövrümüzdə atalar sözlərindən istifadənin və onların tədqiqinin lazımi səviyyədə olmamasından bəhs edilir və əsl atalar sözlərinin istisnasız olaraq tərbiyə məqsədlərinə xidmət etməsi əsaslandırılır.

Məqalədə, həmçinin hər kəsə bəlli olan atalar sözlərinin özündə hifz etdiyi hikmətin üzə çıxarılmasının fərqli təhlil üsulu təqdim edilir və bir neçə atalar sözünün bu üsulla təhlili nümunə kimi oxuculara çatdırılır.

Açar sözlər: atalar sözləri, hökm, öyüd, milli-mədəni dəyərlər.

Sözün ən müqəddəsi Allahın sözüdür! Sonra atalar sözü! Sözün ən hikmətlisi Allahın sözüdür! Sonra atalar sözü! Sözün ən doğrusu Allahın sözüdür! Sonra atalar sözü! Sözün ən xeyirlisi Allahın sözüdür! Sonra atalar sözü! Sözün ən dəyərlisi Allahın sözüdür! Sonra atalar sözü! Sözün ən safı Allahın sözüdür! Sonra atalar sözü! Sözün ən sirlisi Allahın sözüdür! Sonra atalar sözü!

Atalar sözləri Allahın yaradılmışlara ünvanlanmış sözlərinin mahiyyətini Allahın iradəsilə qoruyub saxlayan, zaman-zaman dünyaya gəlib-gedən insanlara çatdıran praktik inam vasitələrindəndir. “Atalar sözü “Quran”a girməz, “Quran”la yanaşı durar” deyənlərə Allah rəhmət eləsin!

İnsanlar yaradılarkən elə kodlaşdırılır ki, yaşa dolduqca özünə və ətrafda baş verənlərə münasibəti dəyişir. İnsanların müəyyən qismi dünyanın və həyatın məqsədsiz yaradılmadığını başa düşür, dünyanın həyat üçün əhəmiyyətini, insanın, insanlığın, insan kimi yaşamağın mahiyyətini dərk etməyə çalışır. Bunun üçün isə ayrıca götürülmüş bir insanın fərdi şüuru, idrak səviyyəsi yetərli deyil. Allahın sözlərində kodlaşdırılmış varlıqlar haqqındakı bütün mahiyyət insan cəmiyyəti yaranandan onun bütün mövcudluğu boyu zaman-zaman aşkarlanır, insanlara bəlli olur.

İnsan idrakının bu nailiyyətlərini qoruyub saxlayan, onu gələcək nəsillərə çatdıran bir çox vasitələr var ki, fikrimizcə, bunların önündə atalar sözləri durur. Bu xüsusiyyətdəndir ki, dünya xalqları yaratdıqları atalar sözlərinin hərtərəfli elmi tədqiqinə mühüm əhəmiyyət verirlər.

Müəyyən müddət ərzində atalar sözləri haqqında öyrəndiklərimdən belə bir qənaətə gəlmişəm ki, mədəni baxımdan zəngin səviyyəyə və inkişafa

malik xalqlar içərisində atalar sözlərini lazımi səviyyədə tədqiq etməyənlərdən biri də bizik. Bu barədə bir digər yazımda fikrimi müəyyən qədər bildirmişəm. (1)

Burada yalnız onu qeyd etməklə kifayətlənirəm ki, milli-mənəvi dəyərlərin ən parlaq incilərindən olan atalar sözlərinin öyrəniləməsi, onlara sahib çıxılması, bu “hikmət və öyüd çeşməsi”nin qorunub saxlanılması və gənc nəslə çatdırılması sahəsində aparılan tədqiqatlar zamanı, fikrimizcə, aşağıdakılar əsas götürülməlidir:

- əsl atalar sözləri ciddi, nüfuzlu, təmkinli ataların məhz tərbiyə məqsədilə övladlarına, böyüyən nəslə, həyati təcrübəsi az olanlara öyüdləridir;
- atalar sözlərinin əsas məqsədi insanlara gerçəkliyi dərk etmək və beləliklə ləyaqətli həyatı təmin etməyi öyrətməkdir;
- xalqın qorunub saxladığı bütün atalar sözləri onun yaşam tərzinin, milli mənəviyyatının güzgüsüdür.

Hazırki yazının əsas məqsədini daha aydın ifadə etmək üçün əvvəllər söylədiyim bir fikrə burada da müraciət etmək istəyirəm.

Atalar sözlərini deyimlərdən, aforizmlərdən, məsəllərdən fərqli edən əsas xüsusiyyət onlarda həm hökm, həm də öyüdün olmasıdır. Buradakı hökmlər heç bir etiraz, şübhə, dəqiqləşdirmə qəbul etmir. Atalar sözlərindəki öyüd dəfələrlə sınaqdan çıxmış həyati təcrübələrin sözlərdə qəlibləşmiş ifadələri olduğundan yerinə yetirilməsi zəruri olan əxlaqi mahiyyət daşıyır. Atalar sözlərinin fəlsəfi və pedaqoji baxımdan incələnməsi belə bir qənaəti təsdiq edir ki, əslində burdakı hökm öyüdün-əxlaqi davranışın, tərbiyəvi - didaktik mahiyyətin zəruriliyini təmin edir. Hökm atalar sözündəki fikrin real mahiyyətini, öyüd isə məcaz vasitəsilə ifadə olunmuş əsas məqsədi əks etdirir.

Beləliklə, hər bir atalar sözünün bir üzdə olan, tez görünən anlamı olur, bir də daxili, “nüvə kimi dərində gizlədilmiş” mahiyyəti. Bu üzdə olan mahiyyəti hamı duyur və təsdiqləyir. Ondan özü üçün ibrət götürən də olur, sadəcə “gəlişi gözəl” ifadə kimi qəbul edən də.

Bir müddət atalar sözləri üzərində fikirləşərək belə qənaətə gəlmişəm ki, gündəlik həyatımızda, yazılı və şifahi nitqimizdə atalar sözlərindən getdikcə daha az istifadə etməyimizin bir səbəbi də onların ifadə etdiyi mənanı lazımınca dərk etməməyimizdir. Mənə belə gəlir ki, ulu babalarımızın, atalarımızın xalqın tarixi boyu qoruyub saxladığı, sahib çıxmaq üçün bizə təqdim etdiyi bu əvəzsiz varidatı günbəgün itiririk. Belə hesab edirəm ki, təhsil mərhələlərinin hansındasa hamıya atalar sözlərinin əsil anlamı və mahiyyəti öyrədilməlidir. Həm də təkcə folklor nümunələri kimi yox, xalqın bütün mədəni tarixini özündə daşıyan müasir xəzinə kimi.

Məlumdur ki, atalar sözləri şifahi xalq yaradıcılığının digər bir çox növləri kimi, istənilən vaxt söylənilə bilən sərbəst məqamlı ifadələr deyildir. Əksər hallarda müəyyən hadisənin, işin dəfələrlə icrası nəticəsində yəqinləşmiş qənaətin, oxşar halın baş verəcəyi gözlənildikdə, hiss olunduqda öyüd verilən şəxsə satdırmaq üçün münasib atalar sözündən istifadə olunur.

Amma əksər hallarda atalar sözünün xarici tərəfi, hökm mahiyyəti anlaşılır, daxili tərəfi-öyüd mahiyyəti ikinci planda qalır; ya tam başa düşülmür, ya da yanlış anlaşılır. Məsələn, "Dost dosta tən gərək, tən olmasa gen gərək", "Allahsız yerdə otur, ağsaqqalsız yerdə oturma!", "Atasını öldürüb ki, goruna and içsin" və s.

Fikrimizi aydınlaşdırmaq üçün birinci atalar sözünü izah edək**. "Bu atalar sözünün mənası nədir?"** sualına verilən cavab əksər hallarda belə olur: ***"Dost dostunu yaxşı başa düşməlidir (ona etibar etməli, dar ayaqda onun yanında olmalıdır), belə olmasa ondan ayrılmaq lazımdır."***

Mənim fikrimcə, bu atalar sözünün mənası başqadır, daha dərindir. Əvvələn, söhbət **dostdan** gedir, yəni gələcəkdə dostluq edəcəyin adamı – seçməkdən yox, artıq dost olduğun adamdan. Məncə, dostu seçmirlər, seçim ağlın və iradənin daha çox iştirak etdiyi məqsəddən yaranır. Dostluq isə məqsədli olmur. Osmanlı türklərinin gözəl bir deyimi var: "Mənfəətləri bitənə qədər deyil, ürəkləri yetənə qədər sizi tərk etməyənlər gerçək Dostdur" Dostluq birinin digərinə mənəvi ehtiyacından, bu yazıda mahiyyətini tam izah edə bilməyəcəyim **sevgidən** yaranır. Yaranmış dostluğu sonradan möhkəmləndirən şərtlər vardır.

Haqqında danışdığımız paremidə də müdrik atalar dostluğun əsaslarını və qorunması şərtlərini göstərmişlər. Aydınlaşdıraq!

"Dost dosta **tən** gərək....." Buradakı "tən" bərabər deməkdir. Dost dostuna tən - bərabər olur (olmalıdır). Hansı bərabərlikdən söhbət gedir? Ömrü boyu çox sayda "dostlar" və **dostlar** görmüş adam kimi deyirəm: **hər cür bərabərlikdən! Yəni maddi durum, mənsəb, vəzifə, imkan, dünyagörüşü, mənəviyyat** (*şüur, ağıl, iradə, vicdan və bu əsasda formalaşan əxlaqi keyfiyyətlər)* **baxımından bərabərlik.**

"Dostluq" adlı xüsusiyyətin formalaşması bunların hamısının iştirakı ilə başlaya bilər. İş burasındadır ki, varlı ilə kasıbın, hakimlə məhkumun, mənsəb-vəzifə sahibi ilə sadə güzəranlı adamın dostluğu nadir hallarda mümkün olur. Adətən, bunlar arasında tabeçilik, yuxarı-aşağı münasibəti olur: bir tərəfdən təkəbbür, lovğalıq, qeyri-səmimilik, digər tərəfdən həsəd, paxıllıq dostluğun əsasını təşkil edən sevgini üstələyir.

Yəni demək istəyirəm ki, dostların münasibətində yuxarıda sadalanan birinci dörd amil üstünlük təşkil edirsə, dostluğun dağılması daha doğrusu, baş tutmaması ehtimalı böyükdür. Lakin bu qənaət yeganə və tam düzgündürsə, belə çıxır ki, varlı ilə yoxsulun, vəzifəsi olanla olmayanın dostluğu mümkün deyildir. Halbuki, bu cür adamların dostluğuna dair onlarla misal çəkmək olar. Bu hal sübut edir ki, *"dost dosta dünyagörüşü və mənəviyyatda tən"* olduqda dostluq davam edir, möhkəm olur. Dostluq - mənəvi xassəyə malikdir. Bir insan digərindən yalnız mənəviyyatca zəngin ola bilər; digər üstünlüklər insani səciyyə daşımır. Amma bir daha təkrar edirəm ki, hətta bu halda da əvvəlki amillər – maddi durum, mənsəb, vəzifə, imkan dostluğa təsir edə bilər. Bax, haqqında danışılan atalar sözünün ikinci tərəfi də məhz bu hal üçün söylənilən öyüddür: "tən olmasa gen gərək!"

İnsan elə yaradılıbdır ki, ibadətdən başqa, hər gün təmasda olduğu, icra etdiyi işlərdən doyur, darıxır, yenisini axtarır. Az-az ünsiyyətdə olduğu adamdan, işdən isə bezikmir, hər görəndə sevinc hissi yaşayır. Mənim fikrimcə, atalar demək istəmişlər ki, dostlar zahiri bərabərsizliklərin onlara təsirinə yol vermək istəmirlərsə, müəyyən zaman fasilələrini ünsiyyətlərinə daxil etməlidirlər.

Beləliklə, “Dost dosta tən gərək, tən olmasa gen gərək” atalar sözünün mahiyyətini, fikrimcə, belə başa düşmək lazımdır:

Dost dostuna hər cəhətdən bərabər olmalıdır. Əgər zahiri, qeyri-əsas amillər baxımından bərabər olmayıb, mənəvi cəhətdən yaxındırlarsa və dostluğu saxlamaq istəyirlərsə ki, bir-biri ilə görüşləri, ünsiyyətləri müəyyən zaman fasilələri ilə baş tutmalıdır. Məncə, doğrusu da budur!

Belə hesab edirəm ki, atalar sözlərinin əsas funksiyası tərbiyə məqsədlərinə xidmət etməsidir. Lakin onlarda xalqın bütün milli –mədəni irsinə dair məlumatlar toplandığından, gücüm çatdığı səviyyədə Azərbaycan atalar sözlərini bu cür yanaşma ilə təhlil etmək qərarına gəldim. Bir daha qeyd etmək istəyirəm ki, bu təhlil mənim qəbul etdiyim yanaşmadır və hər kəs tərəfindən qəbul ediləcəyini iddia etmirəm. Güman edirəm ki, atalar sözlərimizin daha ciddi elmi araşdırmaları üçün bir faydası ola bilər.

Bu yazıda təhlil etdiyim atalar sözlərindən bir neçəsini verməyi məqsədəmüvafiq hesab etdim.

“Ot kökü üstə bitər”

“Şah” atalar sözlərindəndir. Sıxılıb, kristal hala düşüb: Nə sözlərin sırasını dəyişmək olar, nə sözlərdən birini əvəzləmək olar, nə söz çıxarmaq olar, nə müstəqil söz əlavə etmək olar, nə də daşıdığı hökmün reallığına şübhə etmək olar.

Buradakı “ot” məfhumu altında həm çəmən-çayır otu, həm də ümumiyyətlə bitki başa düşülür. Kökləri vasitəsilə torpaqdan qidalanan bütün bitkilər haqqında bu hökm doğrudur. İrad tutula bilər ki, kökü olmayan, kökü üstə bitməyən ot- bitki də ola bilər. Amma bu atalar sözü Azərbaycanda yaranıb, bu torpağın bitirdiyindən söhbət açır. Bu torpaq isə dədə-babadan köksüz bitki yetirmir. Haradansa gətirilmiş nadir dekorativ bitkiləri atalar heç ot cərgəsinə yazmazdılar.

Deyilə bilər ki, ot başqasının da kökü üstə bitər. Məsələn, calaq yolu ilə alınan bitkilər. Elə haqqında danışılan atalar sözü də məhz bunun üçün yaranıb ki, başqa kökün hesabına böyüyən bitkinin zərərinin xeyrindən çox olduğunu başa salsın. Artıq bütün dünyanın öhdəsindən gələ bilmədiyi “bioloji fəlakət” – geni dəyişdirilmiş qidaların fəsadlar verəcəyini sövti-təbii ilə dərk edən atalar yaratmışlar bu atalar sözünü.: “Ot öz kökü üstə bitməlidir!” Başqa kök üstə bitən ot bəlkə görünüşcə daha gözəl ola bilər, bəlkə daha uzunömürlü olar, bəlkə daha məhsuldar olar. Amma Allahın ona verdiyi əzəli təyinatı itirər, ən yaxşı halda “gərəkli” yox “görəkli” olar.

“Kökündən ayrılmış” ot isə dərhal məhv olur. Bir az da dərinə gedilsə, “kökü torpaqdan ayrılmış” ot da məhvə məhkumdur.

Beləliklə, ifadə etdiyi, real məzmun baxımından haqqında danışdığımız atalar sözündəki hökm doğrudur: "ot kökü üstə bitər!"

Bu atalar sözünün özündə daşıdığı məcazi məna öyüd mahiyyəti isə daha dərindir və həmin atalar sözünün min illər keçərək dövrümüzə qədər gəlib çatmasını və bundan sonra var olacağını təmin edən də məhz bu öyüd mahiyyətdir.

Məlumdur ki, atalar sözləri yalnız insanlara ünvanlanır və əsas məqsədləri də həyatın insanlığa layiq qurulmasını təmin etməkdir. "Ot kökü üstə bitər" atalar sözünü semantikasını dəyişmədən insaniləşdirsək bu ifadəni alarıq: "insan öz kökü üstə formalaşar"

Bitkinin "bitməsi" nə deməkdir? Yəni böyüyər, inkişaf edər, öz təyinatı üzrə ona verilmiş funksiyanı yerinə yetirər: məhsul verər, gözəllik yaradar və ya digər canlıların həyatını təmin etməkdən ötrü lazım olan qidaya çevrilər və s.

İnsanın da "bitməsi" onun şəxsiyyət kimi formalaşmasıdır. Yəni böyüyər, sağlam inkişaf edər, öz təyinatı üzrə ona verilmiş funksiyanı yerinə yetirər: kim olduğunu dərk edər, niyə yaradıldığını dərk edər, yaradanını dərk etməyə çalışar, digər varlıqlardan üstünlüyünü, necə yaşamalı olduğunu və nə kimi məsuliyyət daşıdığını dərk edər və s.

Atalar sözü təsdiq edir ki, bu deyilənləri yerinə yetirməkdən ötrü insan gərək öz kökü üstündə formalaşsın. "İnsanın kökü" nə deməkdir? Bitkinin kökü onun ayrılmaz hissəsidir. İnsanın "kökü" də belədirmi? Bitki kökündən ayrılsa az bir müddətdə ölər. İnsan "kökü"ndən ayrılsa nə baş verər?

İnsanın "kökü" bioloji baxımdan onun irsiyyətidir. "İrsiyyət" məfhumunun altında çox şey başa düşülür. Bir az əvvəl qoyulmuş sualları "insanın kökü"nə bioloji baxımdan yanaşma prizmasından cavablandırsaq, belə bir mənzərə alarıq.

"İnsanın kökü" nə deməkdir? – Bu hər bir adamın mənsub olduğu nəsil deməkdir. Adətən, bir nəslin irsi xüsusiyyətlərini özündə daşıyan yeni davamçılara "yeddi arxa dönən" (yəni nəsildə at-oğulluğun yeddi dəfə yenilənməsi) deyilir.

"İnsanın kökü" onun quruluşunun ayrılmaz hissəsidirmi (bioloji mənada)? – Xeyr! Bütün babalar, atalar müəyyən dövr yaşadıqdan sonra dünyalarını dəyişirlər.

"İnsan kökü"ndən ayrılsa (fiziki-bioloji mənada) yaşaya bilərmi? – Bəli! Bitkilər kökündən və ya qidalandığı torpaqdan ayrılsa, ölər. Amma insanın yaşaması üçün, əksinə, qida mənbəyindən (ana bətnindən) ayrılması zəruridir.

Beləliklə, "İnsan öz kökü üstündə formalaşar" deyimində "kök" sözü bioloji – irsi baxımından götürüldükdə, "Ot kökü üstə bitər" sözündəki mahiyyəti vermir.

"İnsan kökü" anlayışına mənəvi baxımdan yanaşdıqda isə başqa mənzərə yaranır.

Məlumdur ki, mənəviyyat insan qəlbinin ruhi keyfiyyətləri olan ağıl, şüur, vicdan və iradənin səviyyəsi ilə təzahür edir. Bu baxımdan insanın öz

kökü üzərində formalaşması üçün, bütövlükdə nəslinin mənəvi keyfiyyətlərinə də yiyələnməlidir. Beləliklə, insan özündən asılı olmayaraq, öz nəslinə-kökünə məxsus bioloji-irsi keyfiyyətlərin daşıyıcısıdır. Amma öz kökünə məxsus mənəvi keyfiyyətlərin daşıyıcısı olması əhəmiyyətli dərəcədə onun özündən asılıdır. Yəni öz nəslinin nümayəndəsi olmaq üçün hər bir şəxs öz nəslini yaxşı tanımalı, tarixini, adət-ənənəsini, nəslin seçilən nümayəndələrini, başqalarına münasibətini, əxlaqi qayda və tabularını və s. öyrənməlidir.

“Ot kökü üstə bitər” atalar sözünün öyüd mahiyyətini isə belə formalaşdırmaq olar: atalar övladlarına öyrətmək istəmişlər ki, a) əsl insan kimi yaşamaq üçün öz nəslində olan bütün müsbət mənəvi keyfiyyətləri əxz etməlisən; b) hər hansı münasibət qurmaq istədiyin adamın da nəsli-kökünü tanımalısan.

Əvvəl evin içi, sonra bayırı

Hökm mahiyyəti. Evi tikib, üstünü də basdırıb, qapı-pəncərəni yerinə qoyandan sonra divarları suvayır, tavanı və döşəməni düzəldir, evin içərisini zövqə uyğun rənglədikdən sonra evin bayırına əl gəzdirirlər. Başqa sözlə, insan rahat yaşamasından ötrü əvvəlcə evinin içərisini lazımi avadanlıqları ilə təmin etməli, səliqə-sahman yaratmalıdır.

Atalar sözünün **öyüd mahiyyəti** daha dolğundur: “Əvvəl evin içi” deyimi hansı anlamları verə bilər?

- Hər şeydən əvvəl insanın özünü, onun mənəviyyatını! Bir insanın insan kimi yaşaması, cəmiyyətdə layiqli mövqe tutması, həyatını təmin edə bilməsi, başqaları üçün yararlı ola bilməsi, Allahdan (c.c) aşağı, onun öz üzərində necə çalışmasından, özünü necə dəyərləndirməsindən asılıdır. Özündə olmayan şeyi başqasına verə bilməzsən.

Doğurdan da, əgər birinə maddi yardım etmək istəyirsənsə, gərək əvvəlcə özünün varın olsun. Əgər kimsəyə, nəsə öyrətmək istəyirsənsə əvvəlcə özün bilgili olmalısan. Əgər cəmiyyətdə layiqli, asayişli davranış arzusundasansa, ilk növbədə özündən müvafiq hərəkətlər tələb etməlisən. Beləliklə, öz mənəvi “evinin içinə” diqqət et, sonra başqalarına münasibət bildir.

- “evin içi” həm də öz ailəni, mənsub olduğun tayfanı, nəsli, xalqı, milləti nəzərdə tutur.

Yəni, ilk növbədə, istədiyin şey, arzuladığın yaşam tərzi, təminat, uğur, sənin ailənə müyəssər olmalıdır, sonra digərlərinə verə bilərsən. Heç kim istəməz ki, özü pis yaşasın, başqası yaxşı; öz ailəsi digərlərindən, öz xalqı başqalarından aşağı olsun. Hətta bütövlükdə xalqının, millətinin firavanlığını həyatının mənası hesab edən adamlar belə, hər işə özlərindən başlamalı, öz məqsədlərinə çatmaları üçün zəruri keyfiyyətlərə yiyələnməlidirlər.

Zorla məfkurəmizə daxil edilən bir ifadə olub: “ictimai mənafeyi şəxsi mənafedən üstün tutmaq”. Yəqin ki, bu təfəkkür tərzi ilə əsas “kökü, zatı olmayan bolşevik-kommunist dövlət siyasətini”, “hər şey-hamının” (əslində “hər şey heç kimin) xülyasının qorunub saxlanılmasına çalışmışlar. Bəzən, bu cür ifadələrə də rast gəlinir: “Ata-ananı, qardaş – bacını özündən çox

istəməlisən”.... Mənim düşüncəmə görə bu ifadələrin təshihə ehtiyacı vardır və əslində real həyatda çox vaxt belə olmur. Ata-ananı “ata-ana” kimi, qardaş-bacını da “qardaş-bacı” kimi sevmək lazımdır. Özünü onların yolunda qurban vermək də ancaq “onları özündən yuxarı tutmaq” düşüncəsinə görə yox, insanın mənəvi tamlığının tərkib hissələri olan “namus”, “qeyrət”, “mənəvi borc” kimi əxlaqi keyfiyyətlərdən doğur ki, məncə, bu barədə ən mükəmməl fikirlər Nəsrəddin Tusi tərəfindən deyilmişdir.

Yaxud, qonağı özündən yuxarı tutmaq kimi yanlış düşüncəni gənclərdə əxlaqi keyfiyyətə çevirmək cəhdləri. Qonağa dair atalar sözlərinin izahında bu barədə ətraflı danışıldığından, burada onu deməklə kifayətlənirik ki, qonaq “evin içi”ndə baş verənlərin ondan gizlin saxlandığı adamdır. Real həyatda qonağa ancaq müvəqqəti olaraq “qonub-gedəcək” adam kimi baxılır. Buna görə də böyüyən nəslə öyrədilməlidir ki, qonağa həm “Allah (c.c) xatirinə”, həm də “özünə görə” hörmət edilməlidir, özündən artıq yox!

Beləliklə, “əvvəl evin içi, sonra bayırı” atalar sözünün öyüd mənasını bu cür düstur halında vermək olar:

əvvəl özün – sonra başqaları;
əvvəl öz ailən – sonra başqaları;
əvvəl qohumların - sonra başqaları;
əvvəl öz xalqın - sonra başqaları;
əvvəl öz ölkən – sonra digərləri.

Həmin düsturu daha yığcam şəkildə belə ifadə etmək olar:

Allahdan (c.c) aşağı əvvəl Sən – sonra başqaları! Çünki sən məhz özün kimi yaradılmısan, təkrarlanmaz yaradılmısan və Allahın (c.c) hüzurunda da bu dünyadakı əməllərinə görə ancaq Özün tək cavab verəcəksən!

“Bükə bilmədiyin qolu öpməlisən”

İfadə etdiyi həqiqət ilk baxışda anlaşılmadığı üçün nadir hallarda işlənən atalar sözüdür. Eşidən hər kəs dərhal düşünür ki, “kişi niyə başqasının qolunu öpür? İnsan böyüyünün, ağsaqqalının , ağbirçəyinin əlini öpər, daha başqası ondan güclüdür deyə onun qolunu öpməyə qədər alçalmaz.”

Əgər bu atalar sözü bu günə qədər gəlib çatıbsa, deməli, xalq onda olan hikməti duymuş, ondan istifadə etmişdir.

Əli və ya qolu öpmək xalqımızda tarixən icra olunan bir ayindir, ritualdır. “Əl öpmə”yə bu gün də əməl edilir. Bizlərə nisbətən, öz adət-ənənələrini daha yaxşı saxlamış Anadolu türklərində kiçiyin böyüyə, cavanın yaşlıya, ağsaqqal-ağbirçəyə, övladın valideynlərinə münasibətində yerinə yetirməli olduğu ən zəruri borcunun ifadəsidir. Azərbaycan türklərində isə bu ehtiram forması, demək olar ki, unudulub, hətta bəzən bəyənilməyən hərəkət kimi qəbul edilir. Halbuki, Bəhlul Abdullanın da yazdığı kimi, “çox-çox əskilərdən davam edib gələn bu adətin bədii əksini biz “Kitabi-Dədə Qorqud”da görürük. “Kitabi-Dədə Qorqud”da əl öpmə adətinə çox ciddi yanaşılıb. Belə ki, ata dura-dura oğulun əlini öpmək, ən azı, qəbahət sayılıb. Kiçiklər böyüklərin əlindən, böyüklər də öz növbəsində onların boyunlarından öpürlər.” (2.96-99)

Azərbaycan türklərində, xüsusən Naxçıvanda “ələpmə” deyilən xüsusi bır adət də vardır. Yeni qurulan ailədə toy günündən üç gün sonra gəlin qayınatasının “hüzuruna çıxıb”onun əlini öpür, qayınata da əlini gəlinin başına çəkir. Bundan sonra yeni ailə quranlar gəlinin atası evinə qonaq çağırılır və bəy qayınata və qayınanasının əlindən öpür, onlar da bəyin üzündən öpürlər. Bu cür “ələpmə” adətinə Naxçıvanda indi də rast gəlinir.

Beləliklə, “əlin öpülməsi” sırf ehtiram, hörmət mahiyyəti daşıyır və burada yaş, mənsəb, bəzi məqamlarda da ağıl, müdriklik senzi əsasdır. Bu adət hər kəs tərəfindən alqışlanmaya layiq, öz ulusunun əlini öpənə başucalığı gətirən, ətrafdakılarda rəğbət hissi oyadan çox nəcib bir adətdir.

Lakin araşdırdığımız atalar sözündə qolun öpülməsindən söhbət gedir. “Qol öpmə” ayini də olubmu?

Y.V.Çəmənzəminlinin xalqımızın qədim adət-ənənələrinin də geniş təsviri verilmiş tarixi əsərində oxuyuruq: evlənmə ərəfəsində qızlar oğlanlarla bir düzdə görüşür, güləşərlər. Hansı oğlan hansı qızı yıxarsa, sağ əlini başına çəkər. “Həyatının sonuna qədər mənə tabesən” – deməkdir.

Qız yerindən qalxar və oğlanın sağ qolundan öpər – “Qüvvətini təqdir edirəm” – deməkdir(3.404)

Yaxud xalq pedaqogikasından belə bir inanc məlumdur: yenicə doğulan uşaq qızdırsa, onun alnından öpərlər – ağıllı və dəyanətli olsun deyə; oğlandırsa qolundan öpərlər – güclü və qoçaq olsun deyə..

Göründüyü kimi, qoldan öpmək qarşısındakının gücünü təsdiq etmək, onun daha güclü olduğunu etiraf etmək anlamındadır.

Qayıdaq izah etməyə çalışdığımız atalar sözünə. Atalar “bükə bilmədiyin qolu öpməlisən” deyəndə sözün gerçək mənasında güclərini sınamaq üçün qol tutuşanlardan, məğlub olanın məğlubiyyətinin etirafı kimi daha güclü olanın qolunu öpməli olduğunu göstərmişlər. Heç şübhəsiz xalq arasında bu adətə yəqin ki, əvvəllər əməl edilmişdir və bu hərəkət heç bir alçaldıcı mahiyyət daşımamışdır.

Atalar sözünün məcazi mahiyyəti isə tamam başqadır. Burada söhbət təkcə fiziki qol gücündən getmir. Mənsəbcə səndən güclü birisi ola bilər, ağılda səndən üstünü ola bilər, ətrafı, arxası səndən güclü birisi ola bilər və s. Qarşıdakının səndən güclü olduğunu etiraf etmək adama alçaqlıq gətirməz. İnsan həyatını qurarkən real güclərlə rastlaşdıqda, onu nəzərə almaya bilməz. Özündən qat-qat güclü olan düşmənlə açıq vuruşa gedən adam, əlbəttə, qorxmaz, cəsur adlandırılmağa layiqdir. Ancaq bu hərəkət Vətən, Namus, Din yolunda ediləndə təqdirəlayiqdir. Xalqın belə oğullara həmişə ehtiyacı olub və belə övladlar həmişə olublar. Amma bir də bütövlükdə xalqın, Vətənin taleyinə məsuliyyət daşıyan rəhbərlər, başçılar, liderlər vardır. Onların güclü düşmənlə başqa vasitə axtarmadan döyüşə girməsi qorxmazlıq deyil, axmaqlıq adlandırılır. Böyük şahlar, xaqanlar, sərkərdələr düşmənin real gücünü görüb, müharibə etməkdənsə xalqı, ölkəni qorumaq üçün danışqlara gedib, güclü tərəfin şərtləri ilə razılaşırdılar. “Bükə bilmədiyin qolu öpməlisən” atalar sözü məhz bu halda tam yerindədir.

Atalar sözünün öyüd mahiyyəti də bu yanaşmadan izah olunmalıdır. Atalar öz övladlarına öyrətmək istəmişlər ki, həyatda elə maneələr olacaqdır ki, onu təkbaşına, həm də bilavasitə qarşı-qarşıya duraraq dəf etmək mümkün olmayacaqdır. Həyatını qurmaq, yaşayışını təmin etmək naminə həmin maneənin keçilməzliyini qəbul edib, digər vasitələr və yollar axtarmalısan.

Burada bir şeyi də qeyd etməyə bilmirəm. Mənə elə gəlir ki, "kişi kimi yaşamaq" anlamı zamanın tələbi ilə dəyişməlidir. "Mən sınaram amma əyilmərəm" müddəası həmişə düz deyildir. Əgər bu əyilmək insanın ləyaqətinə xələl gətirmirsə, ucaltmağa borclu olduğun amalın naminə əyilmək ağıl əlamətidir. Ataların başqa bir deyimi də var! "Qapı var düz keçərlər, qapı var əyilib keçərlər" Əgər içəri girmək zəruridirsə, əyilib keçməlisən. "İnadkarlıq" və "qorxmazlıq" anlayışları başqadır, "igidlik" və "qoçaqlıq" başqa.

"Tülkü tülkülüyünü sübut eləyincə dərisini boğazından çıxararlar"

Atalar sözü kimi işlənirsə də bizim şərti bölgüdə olan əsl atalar sözü qrupuna aid deyildir. Bu atalar sözü özünün haqlı olduğunu, baş vermiş hadisədə əsl həqiqətin necə olduğunu sübut etməyə vaxt az olanda, həm də qarşı tərəf üçün həqiqətin üzə çıxarılmasından daha çox, müəyyən şəxsin cəzalandırılması əsas olanda işlədilir. Ona görə əsl atalar sözü deyil ki, onun tətbiqi zamanı izah tələb olunur: nə üçün tülkü tülkülüyünü sübut etməlidir, başqa heyvan yox? O tülkülüyünü niyə və kimə sübut etməlidir? və s.

Bu deyim əslində aşağıdakı lətifədən doğmuşdur! Bir gün meşədəki heyvanlar görürlər ki, tülkü yıxıla-dura elə qaçır ki, az qalır canı çıxsın. Ətrafına yığılıb soruşurlar ki, nə olub? Deyir: "padşahdan fərman gəlib ki, bütün dəvələri yığsınlar.Dəvə dərisi lazımdır." Deyirlər: "a tülkü, sən hara dəvə hara? Sən niyə qorxursan?" Deyir: "əşşi, siz bilmirsiniz, mən tülkülüyümü sübut edincə, dərimi boğazımdan çıxararlar."

Bəs nə üçün bu paremi atalar sözü kimi işlənir? Yalnız daşıdığı öyüd mahiyyətinə görə! İzah edək.

Bu atalar sözündən də digər bir "şah" atalar sözü olan " yüz ölç bir biç"-in iyi duyulur. Həyatın hər üzünü görmüş atalar müəyyən bir işi görməmişdən qabaq onu dərindən götür-qoy etməyi məsləhət görürlər. Həmin işin icrası zamanı hansı çətinliklər olacağı, ən əsası hansı qüvvələrlə qarşılaşılacağı mütləq nəzərə alınmalıdır. İş elə qurulmamalıdır ki, nəticədə sən özünün haqlı olduğunu sübut etməyə çalışasan. Bu, haqqında danışılan atalar sözündəki öyüdün bir istiqamətidir. Öyüdün ikinci tərəfi görüləcək işdə qarşı tərəfin marağı və gücünün nəzərə alınmasına yönəlmişdir. Əgər bu işdə sənin marağın qarşı tərəfin marağı ilə toqquşursa və o səndən güclüdürsə sənə "tülkü olduğunu sübut etməyə" imkan verilməyəcəyini də nəzərə almalısan. Qaldı "niyə tülkü?" sualı. Deyildiyi kimi bu həm göstərilən lətifə ilə bağlı olduğundandır, həm də bu atalar sözü, adətən, oxşar vəziyyətə bir dəfə düşmüş adam haqqında daha çox işlədilir.

Gül tikansız olmaz

Hökm mahiyyəti. Sözsüz ki, burada söhbət əsil qızılgüldən gedir. Klassik şairlərimizin müxtəlif məqamlarda bəhs etdikləri “gül” ifadəsi həmişə “qızılgülə” işarə olub. Qızılgül təkrarolunmaz ətri, çox zərif ləçəkləri, gözoxşayan gözəlliyi, əvəzolunmaz tibbi əhəmiyyəti ilə ölkəmizdə həmişə “güllərin şahı” hesab edilmişdir. Amma bunlarla bərabər, qızılgülün çoxlu sayda iti tikanları da vardır. Ehtiyatsız yanaşdıqda səni “cəzalandırır”. Qızılgülün tikanları adamın əlinə batıbsa, həm bərk ağrı verir, həm də çətinliklə təmizlənir və yeri müəyyən müddət sızıldayır. Tikanlarının bu xüsusiyyətinə baxmayaraq, insanlar qızılgülü sevir, ona sahib olmağa çalışırlar.

Xalq arasında belə bir deyim də mövcuddur: qızılgülü qəlbən sevənlər: “bəh, bəh! Bu qədər tikanın içərisində bitən gülün gözəlliyinə baxın!”, sevgiləri ötəri olanlar isə: “heyif ki, belə gözəl gül bu qədər tikanın içərisində bitib” deyirlər.

Beləliklə, atalar sözünün hökm mənasını belə izah etmək olar: “qızılgül nə qədər gözəl olsa da, tikansız deyildir. Əgər onu dərəndə tikanların əlinə batmasına dözə biləcəksənsə, əlini uzat.”

Atalar sözünün **öyüd mahiyyəti** də buradan doğur. Atalar övladlarına çatdırmaq istəyirlər ki, tam yaxşı, mütləq gözəl yoxdur. Hər bir yaxşı şeyin, gözəl əxlaqın, düzgün əməlin az-çox bulaşdığı “tikanlar” da ola bilər. Əgər sənə “gül” lazımdırsa, ona mütləq yiyələnmək istəyirsənsə, onun kiçik, əhəmiyyətsiz çatışmazlıqlarını da qəbul etməlisən. Bu atalar sözü insan özünə həmdəm, sirdaş, həyat yoldaşı seçəndə və ya onlar arasında müəyyən narazılıqlar olanda daha çox işlədilir.

Yetim quzudan qoç olmaz

Hökm mahiyyəti. Anası ölən quzuya “yetim quzu” deyirlər. Onu əmizdirmək üçün sürüyə qatanda heç bir qoyun onu qəbul eləmir, ayaqları ilə, buynuzları ilə döyür, qovalayırlar. Quzu “süddən yanır”. Bəzən çobanlar həmin quzunu “ağzı ota çatanacan” süni yolla əmizdirirlər. Uzun illərin təcrübəsi göstərir ki, ana nəvazişi görməyən həmin quzu böyüdükdə sürü içərisində qoç ola bilmir. Başqa sözlə, sürüdəki digər qoçlarla “qoç döyüşünə” davam gətirmir, lider ola bilmir.

Digər bir tərəfdən, yaxşı bəslənmiş əsl qoç həndəvərinə digər qoçları buraxmır, bəzən yad adamların və ya qorxulu heyvanların sürüyə yaxınlaşmasından narahatçılığını bildirir, bir növ çobanı xəbərdar edir.

Ona görə də çobanlar heyvanlarının sayını artırmaq üçün qoç seçəndə “yetim quzu”nun üzərində dayanmırlar. Yəni çobanlar bilirlər ki, qoçu yetimlik görən sürüdə döl yaxşı olmaz.

Beləliklə, sürünü sağlam, artımlı görmək istəyirsənsə, yetim quzunu qoçluğa saxlamamalısan.

Atalar sözünün **öyüd mahiyyəti** isə belədir:

Atalar böyük ustalıqla şəxsiyyət formalaşması üçün zəruri amillərin rolunu görmüşlər. “Yetim quzudan qoç olmaz” atalar sözü daha çox əsil-

nəcabəti olmayan, yaxşı tərbiyə görməmiş adamların dəyərləndirilməsi zamanı işlədilir. Yaxud, müəyyən imkanlara malik, vəzifəyə, məqama təsadüfən yiyələnmiş ətrafsız, dayaqsız adamlar haqda belə deyirlər.

Atalar övladlarına öyrətmək istəmişlər ki, müəyyən bir işdə güvənilən tərəfdaş, ortaq seçmək lazım gələrsə, mütləq, onun əsil nəcabəti, böyüdüyü mühit, aldığı tərbiyə nəzərə alınmalıdır. Çünki, böyüyənə qədər gördüyü sızıntı, çəkdiyi əzablar, üzləşdiyi məhrumiyyətlər əksər adamların xarakterində öz əksini tapır. Ata qüdrəti, ana doğmalığı, bacı mehribanlığı, qardaş dayağı görməyən adama tam etibar etmək olmaz.

Palaz bürün, elnən sürün

Bu atalar sözü də çox mübahisə doğurur. Doğurdan da ilk baxışda bu atalar sözündə nəyin təbliğ edildiyi, hansı öyüdün verildiyi başa düşülmür. Axı niyə adam palazı özünə seçməlidir? Belə çıxır ki, atalar sözü insanı kasıb yaşamağa çağırır. Həm də adam kimi firavan yaşamağı deyil, sürünməyi üstün tutur. Hətta bəzən belə hesab edilir ki, burada bütün elin sürünə-sürünə yaşaması məsləhət bilinir.

Hökm mənası. Palaz xovlu xalça növü olub**,** döşənəcək kimi istifadə olunur. Palaz, adətən, ucuz iplərdən toxunduğundan evin ən aşağı, gəliş-gediş çox olan yerinə salınırdı. Döşəmə torpaq olduğundan nisbətən imkanlı adamlar palazı bahalı xalı-xalçanın altına döşəyirdilər. Buna görə də "palaz" deyəndə əksər hallarda tozlu-palçıqlı bir döşənəcək başa düşülürdü. Adətən, onun üstündə oturmazdan qabaq azacıq nəmlənmiş süpürgə ilə təmizləyir, yerdən qaldırdıqda isə mütləq, bayıra çıxarıb çırpırdılar. Xülasə, palaz – bürünmək üçün yaramayan bir əşyadır. Ona görə də adamın niyə palaza bürünməyə dəvət edildiyi başa düşülmür. Yəni bu atalar sözünün müstəqim mənası belədir: Hər adam varlı-karlı, firavan, yaxşı təmin olunmuş həyata malik olmaz. Yoxsul adam, libası palaz olsa belə, elin içərisində olsa, həyatını normal yaşaya bilər.

Atalar sözünün **öyüd fəlsəfəsi** isə buradakı ağırlığın "palaz" sözünə deyil, "el" sözünə verildiyi zaman aşkara çıxır. Məlumdur ki, atalar sözləri məqamında söylənildikdə daha əhəmiyyətli, əvəzedilməz tərbiyə vasitəsinə çevrilir. Atalar sözlərinin əsas mahiyyəti də məhz böyüyən nəslin həyata hazırlanması, tərbiyəsi prosesində işlədildikdə meydana çıxır.

Atalar övladlarına öyrətmək istəyirlər ki, ən rahat, ən xoşbəxt həyata el içərisində yaşamaqla nail olmaq olar. Ən zəngin, ən imkanlı adamların da başqalarına ehtiyacı ola bilir. Bu halda ən etibarlı dayaq insanın el-obasıdır. Daha zəngin həyat sürməkdən ötrü qərib ölkələrdə yaşamağı üstün tutan adamlar, bəlkə maddi baxımdan var-dövlət sahibi ola bilərlər. Amma qəlblərində həmişə bir Vətən həsrəti, el-oba nisgili qalır. "Qürbətdə xan olunca Vətənində dilən, gəz" poetik ifadəsi də məhz bu cür təfəkkürün məhsulu olaraq yaranıb.

Beləliklə el-obanın kompakt halda, birgə yaşayışının üstünlüklərinin hər an özünü göstərdiyi orta əsrlərdə yaranması güman etdiyimiz bu atalar sözünün öyüd mahiyyətini iki variantda təqdim etmək olar.

Əvvələn, palaza bürünməli olsan belə, el-oba arasında kasıb kimi yaşamaq, qəriblikdə zəngin yaşamaqdan yaxşıdır.

İkinci və daha geniş anlamda isə harada, nə kimi imkanlarla yaşamağından asılı olmayaraq, elin mənafeyi, elin qayğıları, elin problemləri unudulmamalıdır.

Qızı özbaşına qoyarsan, ya halvaçıya gedər, ya zurnaçıya

Az-az işlənən, bəlkə də yaddan çıxmaqda olan atalar sözüdür. Buna səbəb isə əxlaqın, əxlaqi dəyərlərin dəyişməsi, əxlaqi keyfiyyətlərin nizamının pozulması, məcrasının dəyişməsi, tənəzzülə uğramasıdır.

Haqqında danışılan atalar sözünün süjetini valideynin qızının ailə həyatı qurmasındakı rolu məsələsi təşkil edir. Bu problemlərin həlli ata-anadan, təxminən, bu suallara cavab tapmağı tələb edir: qızı kimə ərə vermək olar? nə peşənin sahibinə? gələcək ərini qız özü (özbaşına) seçməlidir, yaxud valideynləri? valideynlərin seçiminə münasibətdə qızın rəyi həlledici olmalıdırmı? və s. Bu sualların cavablarından asılı olaraq qurulacaq ailənin müqəddəratı, bəzən hətta insanın taleyi müəyyənləşir.

Müasir dövrdə cəmiyyətimizdə qurulan ailələrin çox böyük əksəriyyətində yalnız ailə quranların rəyi həlledici olur. Hüquqi normalar əxlaqi normalar üzərində tam hegemonluğa malik olduğundan öz həyatını müstəqil qurmağa çalışan təcrübəsiz gəncə ailə məsuliyyətini başa salmaq getdikcə çətinləşir. Mədəniyyətlərin qovuşması ailənin milli xüsusiyyətləri haqdakı xəlqi təsəvvürləri darmadağın edir. Milli fəlakətə gətirib çıxaracaq bu qlobal bəlanın tədqiqini mütəxəssislərin öhdəsinə buraxaraq öz atalar sözümüzə qayıdaq.

Atalar sözü, hər şeydən əvvəl, onu vurğulayır ki, ailə qurmaq məsələsində qız “özbaşına qoymaq olmaz!”

“Qızı özbaşına qoyarsan, ya halvaçıya gedər, ya zurnaçıya” atalar sözünün ifadə etdiyi süjetin real mənası məcazi mənasından daha qabarıqdır, üstündür.

Nə üçün bu atalar sözündə “qızı özbaşına qoymaqdan” söhbət gedir? Oğlanlar haqqında belə xəbərdaredici atalar sözü yoxdur.

Hər şeydən əvvəl, bu, yəqin ki, “qız yükü ağır olar” anlamından doğur. Adətən, valideynlər qızın kiminlə ailə qurmasına daha çox narahatlıqla yanaşırlar. Çünki qızın gəlin köçdüyü evdə “yerinin isti” olması çox vacib şərtdir. Qız gəlin köçdükdə ata evinin öz evi olmasını birdəfəlik unudur. Onun ömrünün axırınadək qalacağı yer “ər evi”dir.

Bu yaxınlarda haradasa oxuduğum bir lətifə lap yerinə düşər: ”Birindən soruşurlar ki, əvvəllər gəlin gedərkən çoxlu cehiz aparırdılar, bəs indi niyə bir-iki çamadanla kifayətlənirlər? Cavab verir ki, əvvəllər gəlin həmişəlik gedərdi, indi isə bu gediş müvəqqəti də ola bilər.” “Xasiyyətimiz tutmadı” kimi dəbdə olan bəhanə lap son dövrlərin məhsuludur. Yəni qızın ər evindən geri qayıtması ən böyük rüsvayçılıqlardan biri hesab olunurdu.

Oğlanlardan ötrü isə belə bir narahatçılıq duyulmurdu. Bu hal, bir tərəfdən ailədə ərin üstün hüququ ilə bağlı idisə, digər tərəfdən, onun başqası

ilə də evlənməsinin o qədər də utancgətirici hal olmaması barədə təsəvvürlərin mövcudluğundan irəli gəlirdi.

Digər bir tərəfdən, atalar uzun illərin təcrübəsindən bilirlər ki, qızlar xarici gözəlliyə, bəzək düzəyə daha tez aldanır, var-dövlətə daha həris olur, şən həyat tərzinə daha çox meyilli olurlar. Onları şirin dillə, xoş rəftara, nəvazişlə, müxtəlif vədlərlə aldatmaq oğlanlara nisbətən daha asandır.

"Qızı özbaşına qoyarsan, ya halvaçıya gedər, ya zurnaçıya" atalar sözünün yarandığı zamanlarda yetkinlik yaşına çatmış qızlar, şübhəsiz ki, oğlanları tez-tez görmək imkanından məhrum idilər. Belə fürsət el şənliklərində, toylarda ələ düşərdi. Şirin halvanın ləzzətinə və şövqlə çalan zurnaçının şux rəqslərinə aludə olan qızlar da ötəri həvəs üzündən ya halvaçıya, ya da zurnaçıya üstünlük verərdilər.

Nəhayət, daha incə məqam ondan ibarətdir ki, atalar dəfələrlə şahid olmuşdular ki, halvaçı və ya zurnaçı öz peşələrinin xüsusiyyətindən asılı olaraq, əksər hallarda, ailə ilə yaxından məşğul ola bilmirlər, öz ailələrinə daha möhkəm bağlı olmurlar.

Bütün bunlardan aydın olur ki, ailə qurmaq məsələsində "qızı özbaşına qoymaq" əksər hallarda yaxşı nəticə vermir.

Bu atalar sözünün öyüd mahiyyəti ondan ibarətdir ki, təcrübəsiz, həyatı hələ tam mənası ilə dərk etməyən, yaxud da davranışlarında keçici həvəsə, aldadıcı zahiri gözəlliyə üstünlük verən gəncin müstəqil qərarları daha təcrübəli adamlar tərəfindən mütləq nizamlanmalıdır. Gənclərin "müstəqillik" adı altında nəzarətsiz davranışları aşırı sərbəstliyə, mənəvi eybəcərliyə aparır. Əxlaqi sərhədlərin dağılmasında əsas günahkar "qızı özbaşına qoyan", "oğlanı qoruq-qaytaqsız" böyüdən yetkinlərdir.

ƏDƏBİYYAT

1. İ.Əliyev. "Divani lüğat-it Türk"də atalar sözləri. Bakı, "Avropa" nəşriyyatı, 2014
2. B.Abdulla. "Kitabi-Dədə Qorqud"un poetikası. Bakı, 1999
3. Y.V.Çəmənzəminli. "Qızlar bulağı" // Əsərləri.II cild. Bakı, 2005

РЕЗЮМЕ

ИСМАИЛ АЛИЕВ

ПОСЛОВИЦЫ С ТОЧКИ ЗРЕНИЯ ПЕДАГОГА

В статье повествуется о важности значения повелений и наставлений выраженных в пословицах. Автор пытается привлечь особое внимание к проблеме скудного употребления пословиц в современном мире и недостаточности их исследования. А так же обосновывает тот факт, что все без исключения настоящие пословицы служат одной цели - воспитанию.

В статье так же представлен новый способ расшифрования мудрости утаённой в основе известных всем пословиц. Кроме этого

несколько образцов анализа пословиц этим способом были представлены вниманию читателей в виде примера.

Ключевые слова: пословицы, повеление, наставление, национально-культурное достояние

SUMMARY

ISMAYIL ALIYEV

PROVERBS FROM THE TEACHER'S POINT OF VIEW

The article deals with the significance of the orders and instructions expressed in proverbs. The author tries to draw special attention to the problem of meager use of proverbs in the modern world and their insufficient research. And justifies the fact that all the proverbs, without exception, serve to one purpose-education.

The article also presents a new way of deciphering the wisdom in the proverbs hidden in essence of all known proverbs, in addition, several samples of analysis of proverbs in this way were presented to the attention of readers in the form of an example.

Key words: proverbs, command, instruction, national cultural heritage

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

VAHİD RZAYEV
Naxçıvan Dövlət Universiteti
v.rzayev@yahoo.com

“MƏKTƏBİ TƏRBİYƏ” VƏ ONUN VARİSİ NAXÇIVAN RUS-AZƏRBAYCAN MƏKTƏBİ

Məqalədə görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin məktəbdarlıq fəaliyyəti (“Əxtər” və “Məktəbi Tərbiyə”), onun ana dili məktəblərinin yaranması və inkişafı tarixində yeri və rolundan bəhs olunur, məktəbdə tədris olunan fənlər, şagird kontingenti haqqında məlumat verilir. Burada M.T. Sidqinin “Məktəbi Tərbiyə” sinin əhali arasında nüfuz qazanması, onun məktəbin müdirliyindən kənar edilməsi, rus dövlət məmurlarının məktəbi nəzarətə götürməsi və s. məsələlər də şərh olunur. Məqalədə həmçinin M.T. Sidqinin “Məktəbi Tərbiyə”sinin varisi kimi Naxçıvan Rus-Azərbaycan oğlan məktəbinin 1897-ci ildən 1917-ci ilədək olan fəaliyyətinin əsas cəhətləri araşdırılır, Məmmədəli Sidqi Səfərov, Abasqulu Kəngərli, Məmməd bəy Zamanbəyov kimi müəllimlərin məktəbin həyatında fəal iştirakı haqqında arxiv materialları əsasında məlumat verilir.

Açar sözlər: Naxçıvanda milli məktəblərin yaradıcısı M.T. Sidqi, “Əxtər” məktəbi, Naxçıvanda “Məktəbi Tərbiyə”, Naxçıvan Rus-Azərbaycan oğlan məktəbi, Məmmədəli Sidqinin müəllimlik fəaliyyəti, Naxçıvan rus-Azərbaycan məktəbinin müəllmləri

Məlumdur ki, XIX əsrdə rus hökumətinin Naxçıvan bölgəsidə daxil olmaqla Azərbaycanda açdığı məktəblər sayına və məzmununa görə əhalinin təhsil tələbini ödəmirdi. Bu tədris müəssisələri rus, ümumən xristian əsilli millətlərin maraqlarına daha çox uyğun gəlirdi. Bu məktəblərdə təhsilin rus dilində aparılması, azərbaycanlı uşaqların digər dini etiqaddan olan millətlərin hər cür təsirlərinə düşmək ehtimalının yüksək olması, əgər belə demək mümkünsə, əhalinin məqsəd və mənafelərinə uyğun gəlmirdi. Digər tərəfdən, bu tədris müəssisələrində yerli əhali kimi azərbaycanlıların yüksək təbəqəsinin uşaqlarına təhsil almaq imkanı yaradılırdı. Dini və milli fərqlər bu məktəblərə azərbaycanlı əhalinin maraqlarına xeyli dərəcədə, əsaslı şəkildə təsir göstərirdi. Xüsusilə yerli ruhanilər əhalinin dini təəssübkeşlik hissindən istifadə edərək onlarda bu məktəblərə rəğbət və marağın qarşısını almağa çalışırdılar. Digər qeyd olunmalı cəhət isə ondan ibarətdir ki, aşağı təbəqə uşaqları bu təhsil ocaqlarında nadir hallarda, həm də çox cüzi şəkildə təmsil olunurdu. Tədrisin ana dilində aparılmaması da bu məktəblərin əhali arasında hörmət və nüfuzunun xeyli dərəcədə aşağı düşməsi səbəbi kimi göstərilməlidir ki, bütün bunlar rus dövlət məktəblərində azərbacanlı uşaqların az sayda təmsil olunmasında əsaslı arqumentlər idi.

Ona görə də qabaqcıl ziyalılar maariflənmək, mədəni tərəqqiyə nail olmaq üçün daha geniş meydan, daha əlverişli şəraitin və vasitələrin yaradılması işinə səy və qüvvə sərf edərək yeni struktur - quruluşa, yeni təlim üsullarına malik təhsil müəssisələri yaratmaq uğrunda mübarizəyə qoşulurdular. Bu təhsil müəssisələri özünün strukturu, təhsilin məzmunu (tədris planı və proqramları) ilə ənənəvi tədris müəssisələrindən tamamilə fərqlənirdi. “Üsuli-cədid” (Yeni üsulla fəaliyyət göstərən məktəb mənasını verir) hərəkatının nəticəsi kimi meydana çıxan bu məktəblər ana dilinin tədrisi və təlimin ana dilində aparılması ideyasının reallaşdırılması mərhələsi idi. Bu məktəblərdə xarici dillər və digər tədris fənləri (hesab, coğrafiya, hüsnxətt, ana dili) doğma ana dili vasitəsi ilə öyrədilirdi ki, bu cəhət əhalinin “Üsuli-cədid” məktəblərinə maraq və meyllərinin başlıca şərti, hərəkətverici qüvvəsi idi. Bu məktəblərə əhalinin marağını artıran digər çox mühüm cəhət isə ondan ibarət olmuşdur ki, burada dini və milli yekcinslik səciyyəvi xüsusiyyət idi. Burada yalnız azərbaycanlılar, ən yaxşı halda müsəlman dininə mənsub olanlar təhsil ala bilərdilər.

Belə bir struktur-məzmuna malik ana dili məktəbləri XIX əsrin ikinci yarısında Azərbaycanın bir çox bölgələrindəki ictimai - pedaqoji, ədəbi - mədəni mühit mərkəzləri kimi tanınan şəhərlərində meydana gəlmişdi. Mirzə İsmayıl Qasir Lənkəranda, Seyyid Əzim Şirvani Şamaxıda, Mir Möhsün Nəvvab Şuşada, Məşədi Molla İsmayıl Hacı Kazımov İrəvanda, yenə Mirzə Abbas Məmmədov İrəvanda, Mirzə Həsən Rüşdiyyə Təbrizdə ana dili məktəblərinin yaradıcısı olmuşlar. “Üsuli-cədid” içtimai-pedaqoji hərəkatının bu cür unikal tədris ocaqlarından biri də Məhəmməd Tağı Sidqi Səfərovun Ordubadda “Əxtər”, Naxçıvanda “Məktəbi Tərbiyə” adında təsis etdiyi ana dili məktəbləri idi.

M.T.Sidqinin “Əxtər” (“Ulduz”) adlı yeni üsullu məktəbi 1892-ci ildə qədim Ordubadın Zahiri-dövlə İbrahim xan mədrəsəsi adlanan bunada açılmışdı. Bu hadisəni Azərbaycan məktəbinin tarixində tarixi bir yenilik kimi qiymətləndirən professor İ.A.Mollayev böyük maarifçinin pedaqoji görüşləri haqqında dissertasiya tədqiqatının nəşr variantında yazırdı: “Sidqinin Ordubad qəzasında yeni üsulla milli ana dili məktəbi təsis etməsi və dünyavi elmləri tədris etməsi onun Azərbaycan məktəbi və pedaqoji fikir tarixinə gətirdiyi yenilik kimi qiymətləndiriməlidir.

...Bu məktəbin iş təcrübəsindən istifadə edərək bir çox məktəbdarlar Azərbaycan və Gürcüstanın müxtəlif yerlərində “Əxtər” məktəbinə oxşar məktəblər təsis etmiş və gənc nəslin tərbiyəsi ilə məşğul olmuşlar” (1,20-21).

Bir çox tədqiqatlarda göstərilir ki, “Əxtər” məktəbinin yaradılması və sonrakı fəaliyyəti kapitan Hüseyn Sultan Kəngərlinin köməyi sayəsində mümkün olmuşdur. M. T. Sidqiyə dostluq münasibəti göstərən Hüseyn Sultan Kəngərli şəhərin varlı və maarifpərvər ziyalılarından biri olmuşdur. Məktəbin saxlanılmasında digər bir ziyalının-Hüseyn İsmayılovunda köməyi olmuşdur. Yazıçı Məmməd Səid Ordubadi bu haqda yazırdı: “Məktəbin müəssisələrindən Hüseyn Sultan və Hüseyn İsmayılovun ikisi də bir gündə öldülər. Bundan sonra Salman Əsgərov məktəbi bir il saxlaya bildi. Sidqi maaşsız qaldı. Bu

müddət Naxçıvanlılar Sidqiyə teleqram və xahişnamələr göndərib onu Naxçıvana apardılar" (1, 21-22).

M.S.Ordubadi sonralar "Həyatım və mühitim" adlı memuarlarında bu hadisədən geniş bəhs edərək yazırdı: "İsmayıl bəy Qasprinski Baxçasarayda yeni məktəb kitabları çap edib "Üsuli-cədid" deyilən təzə üsulda məktəb açılmasına başlamışdı. Ordubad tərəqqipərvər əyanları, xüsusən varlılardan bəziləri Ordubadda bu kimi məktəbin açılmasına çalışırdılar. İşin başında Hüseyn Sultan Kəngərlinski idi. Hüseyn Sultan ermənilərlə çox böyük mübarizə aparırdı. Onun bu məktəbi ("Əxtər" məktəbini-V.R.) açması da həmin mübarizə ilə əlaqədar idi. Hüseyn Sultan tərəfinə ziyalılardan və xırda varlılardan bir çoxunu toplamışdır. Kupes Əhməd İsmayılov və Hüseyn Mirzə Xəlil Salehzadə, Sultan Hacıbəyzadə, Əsgər Hüseynzadə və sairləri məktəbin rəhbərləri sayılırdı" (2,41-41).

Məmməd Səid Ordubadinin xatirələrində aydın olur ki, məktəbin rəhbərləri müəllim axtarışında olmuş, çayçı dükanı işlədən Məhəmməd Tağı Sidqinin farsca, ərəbcə, türkcə savadlı olduğunu nəzərə alıb onu məktəbə müəllim təyin etmişlər. Məktəbin maliyyə işlərinə, onun hansı hesaba görə fəaliyyət göstərdiyi haqqında böyük yazıçının verdiyi məlumat xüsusi maraq doğurur. O yazırdı : "Məktəbi açan Hüseyn Sultan öz cibindən bir qəpik də olsa, məktəbə sərf etmirdi. Məktəb xalqın hesabına saxlanırdı. Hüseyn Sultan belə bir qərar qoymuşdu. O, camaatın aldığı hər bir ticarət malından məktəbin nəfinə bir faiz götürərdi. Faizə verdiyi adamlardan da məktəb nəfinə pul alırdı. Bunun üçün də məktəb lazımınca təmin olunurdu" (2,42).

"Əxtər" məktəbi dövrünün yeni təlim və tərbiyə üsullarının tətbiq olunduğu ilk milli məktəb kimi çox keçmədən Ordubad əhalisi arasında böyük hörmət və nüfuz qazandı. Məktəbin bu tezlikdə geniş şöhrət qazanması dövlətin yerli idarəçilik məmurlarının diqqətini cəlb etmiş, "məktəbə tamaşa etmək bəhanəsi ilə" onu nəzarətə götürmüşdülər. Mürtəce baxışlı din xadimləri də yeni pedaqoji üsul və qaydalarla işləyən məktəbin dinə və xalqa ziyan verdiyini elan edib onun bağlanmasını tələb edirdilər.

Bütün bunlara baxmayaraq müəllim Məhəmməd Tağı Sidqi böyük iradə, zəhmət və istedadı sayəsində "Əxtər" məktəbini dövrünün qabaqcıl təhsil müəssisəsi və milli tərbiyə ocağı kimi formalaşdıra bilmişdi. Məktəbdə təhsilin məzmununa rus, ərəb, fars və Azərbaycan dilləri, elmi-hesab, coğrafiya, tarix, ədəbiyyat, hüsnxətt fənləri daxil edilmişdi. "Birinci olaraq Ordubadda bu məktəbin uşaqları şərqi (nəğmə) oxuyurdular. Şərqilərdən birisini Sidqi özü yazmışdı:

Əcəb xoşbəxt olur hər kəs,
Tutub məba bu məktəbdə.
Bir az vaxtda komalara
Olur dara bu məktəbdə" (2,43).

"Əxtər" məktəbi çox az bir müddət fəaliyyət göstərməsinə baxmayaraq zülmət içində bur nur kimi parlaya bildi. Bu nurun zərrələri kimi böyük yazıçı Məmməd Səid Ordubadi, görkəmli dövlət xadimi İbrahim Əbilov və başqaları var idi.

Beləliklə, Məmmədli Sidqi Səfərovun atası “Məhəmməd Tağı Sidqi Ordubadinin tərcümeyi-halı”nda yazdığı kimi 1894-cü ildə Sidqi “Ordubadda olan “Əxtər” adlanan məktəbi Mirzə Salman və Kərbalayi-Əli axunda tapşırıb, Naxçıvan camaatının dəvəti ilə Naxçıvana gəlir. Əvvəlcə “Buzxana” məhəlləsi adlanan məhəllədə bir neçə otaqdan ibarət bir məktəb təşkil olunur. İki ildən ziyadə məktəb bu bunada qalır. Sonra Naxçıvan camaatı ianə təriqi ilə pul yığıb Came məsçidi həyətində dörd otaqdan ibarət bir məktəb binası tikdirir” (3,269).

“Məktəbi Tərbiyə” ilk dərs ilində 100 nəfərə qədər şagird qəbul edilmişdi. Bu məktəbdə də təhsilin məzmunu xeyli genişləndirilmişdi. “Əxtər” məktəbində olduğu kimi burada da rus, fars, ərəb, Azərbaycan dili, hesab, coğrafiya, tarix, hüsnxətt fənləri öyrədilirdi. Tədris ana dilində aparılırdı. “Məktəbi Tərbiyə”də dünyavi elmlərin tədrisinə ciddi fikir verilmiş, rus dili və ədəbiyyatı da öyrədilmiş, tərcümə dərsləri təşkil olunmuşdur. “Tərbiyə” məktəbi Azərbaycan məktəbi tarixində ilk milli məktəblərdən biridir... XIX əsrin 80-ci illərinin sonlarında meydana çıxmış rus- Azərbaycan məktəbləri də adından göründüyü kimi ana dili fənnin bir qədər də genişləndirildiyi məktəblər kimi fəaliyyət göstərirdi. M.T. Sidqinin “Məktəbi Tərbiyə”si isə rus dilinin xarici dil kimi ayrıca tədris olunduğu, digər fənlərin ana dilində keçirildiyi milli məktəb idi” (3,6).

“Məktəbi Tərbiyə”nin struktur - quruluşu, burada verilən təhsilin məzmunu, öyrətmə üsulları dövrünün pedaqogikasının yeniliklərinə əsaslndığından hökumətin yüksək təhsil dairələrinin də diqqətini çəkmişdir. İrəvan quberniya xalq məktəbləri Direksiyasının “ Обзор Эриванской губернии ” adlı nəşrində göstərilir ki, son vaxtlar müsəlmanlar arasında düzgün təşkil edilmiş məktəblərin təşkili sahəsində dönüş hissi edilir. Naxçıvan şəhərində belə bir məktəb açılmışdır və orada rus dili də məcburi fənn kimi öyrədilir. (4,31).

“Məktəbi Tərbiyə”nin Azərbaycan təhsil tarixində yeri, onun əldə etdiyi nailiyyətlərdən biri bu tədris ocağında dövlət məktəblərindən fərqli olaraq şagird kontingentini şəriksiz olaraq azərbaycanlı uşaqların təşkil etməsində, bu sahədə tam üstünlüyə nail olunmasında idi. Bu dövrə qədər nə dövlətin təsis etdiyi məktəblərdə, nədə ki dini məktəblərdə və həmçinin ana dili məktəblərində “Məktəbi Tərbiyə”nin şagird kontingenti qədər azərbaycanlı uşaqların cəlb edildiyinə təsadüf etmək mümkün deyil. Mənbələrin öyrənilməsi göstərir ki, məktəbin şagird heyəti ilk tədris ilində 80, digər illərdə isə 100 və daha çox sayda olmuşdur. “ Кавказский календарь ” illik təqvim nəşrinə əsaslanaraq məktəbin ilk illərinə aid şagird heyyətinin sayca artımını görmək, izləmək mümkündür: Bu nəşrə görə məktəbdə şagirdlərin illər üzrə sayı aşağıdakı kimi olmuşdur: 1894-cü ildə 80 nəfər; 1895-ci ildə 120 nəfər; 1896-cı ildə 109 nəfər; 1897- ci ildə 100 nəfər; 1898-ci ildə 100 nəfər şagird olmuşdur və s.

Məhəmməd Tağı Sidqi pedaqoji, ümumən içtimai fikrimizin elə bir zümrəsinə, ziyalı təbəqəsinə mənsubdur ki, onun məktəbdarlıq və maarifçilik fəaliyyəti iki böyük bəşər mədəniyyətinin - Şərq İslam və geniş mənada

Avropa mədəniyyətinin qovuşuğunu, onların müsbət, qabaqcıl, faydalı və cəmiyyət üçün yenilik əlamətləri ilə seçilən dəyərlərini özündə ehtiva edir. Və əlavə edək ki, böyük pedaqoq bu insanlıq dəyərlərinin, maarifçilik baxışlarının həyata keçirilməsi, mənimsənilməsi vasitəsi kimi yeni məzmuna, yeni quruluş xüsusiyyətlərinə malik təhsilin, məktəbin yaradılması ilə bağlı təşəbbüsləri, əməli fəaliyyəti ilə bu iki mədəniyyətin birliyinə xidmət etmişdir. M. T. Sidqi bilirdi ki, yer üzünün əşrəfi olan insanın cəhldən, savadsızlıq girdabından xilas olması yalnız biliyin, mütərəqqi baxışların sayəsində mümkün olan bir işdir. "İnsanın insaniyyəti oxumaqla" yaranır, formalaşır. "İnsanın elmi şoxaldıqca cəhli də azalır" və bu cəhət onun ruhuna, mənəviyyatına, əxlaqına yaxşı təsir göstərir.

M.T.Sidqi Azərbaycan pedaqoji fikir tarixində təlim-tərbiyə probleminin həlli yolları, nəzəri əsaslarının müəyyənləşdirilməsi, ümumən bir çox tərbiyə məsələlərinin sosial və pedaqoji mahiyyətinin işlənməsi sahəsində ilkinlik qazanmış pedaqoqlarımızdan biridir. "Məktəbi Tərbiyə"nin fəaliyyətinin tənzimlənməsi məqsədilə nizamnamə qaydalarının tətbiqi şagirdlərin məktəb daxili davranış və hərəkətlərinin nümunəvi məzmunu, şagird və müəllim heyətinin təşkili prinsipləri, fənlərin müəyyənləşdirilməsi və öyrədilməsi üsulları, tədris fənni kimi seçilmiş mətnlərin pedaqoji-metodiki əsaslarının nəzərə alınması, təhsilin sosial mahiyyətinin düzgün qiymətləndirilməsi və bu sahədə müəyyən tədbirlərin hazırlanması, məktəbin və müəllimlərin şəhərin içtimai həyatında iştirakının təmin edilməsi və s. bu kimi vəzifələrin həyata keçirilməsi M.T.Sidqini dövrünün yüksək intellektə və böyük pedaqoji baxışlara malik olduğunu təsdiq edir.

Görkəmli pedaqoqun Azərbaycanın əyalət mərkəzlərindən birində təhsil və pedaqogika elmi sahəsində yeni düşüncəni əməli və nəzəri cəhətdən həyata keçirməsi bütün Qafqazda qabaqcıl pedaqoqların diqqətini cəlb etmiş, onların hüsn - rəğbətini qazanmışdır. Bu ona görə mümkün olmuşdur ki, Sidqi dünya pedaqogikasının ən yaxşı, mütərəqqi ənənələrini yaşada və inkişaf etdirə bilmişdir, zamanı üçün hadisə sayıla biləcək işlər görmüşdür. Müşahidələrimizə əsaslanaraq deyə bilərik ki, Sidqiyə qədərki məktəbdar pedaqoqlarımızın heç biri özünün yaratdığı xüsusi məktəbin tədris planını belə yüksək səviyyədə, belə yüksək pedaqoji-metodiki əsaslarla tərtib etməmiş, tədris prosesini belə bir həqiqi elmi prinsiplər üzərində qurmamışdır. Onun hazırladığı tədris planı professor İbrahim Mollayevin də diqqətini cəlb etmişdir. O, Sidqinin pedaqoji görüşlərinə aid tədqiqatında haqlı olaraq yazır ki, "Sidqi məktəb sahəsində geniş təcrübəyə malik olduğundan təsis etdiyi məktəblərdə şagirdlərə ümumi ibtidai təhsil vermək, onlara bu sahədə lazımi bilik, hansı fənləri həftədə neçə saat hesabı ilə keçmək üçün, əlyazma şəklində bir tədris planı da tərtib etmişdir. Həmin tədris planından "Məktəbi-Tərbiyə"də fənləri hansı ardıcıllıqla tədris etdiyi aydınlığı ilə nəzərə çarpır" (1,55-56). Professor daha sonra Məhəmməd Tağı Sidqinin "Məktəbi-Tərbiyə" üçün tərtib etdiyi tədris planını qeyd edir. Aşağıda həmin tədris planını olduğu kimi veririk:

Sıra	Dərslər (fənlər)				
		İkinci	Üçüncü	Dördüncü	Beşinci
1	Zəbani-türki	10	10	8	8
2	Zəbani-rusi	5	5	4	4
3	Dərslərin surətini yazmaq	1	1	2	2
4	Türk dilinin qiraəti	1	1	1	1
5	Moizə,əxlaq,nəsihət məsələləri	-	1	2	2
6	Tarix	1	1	1	1
7	Coğrafiya xüsusunda məlumati mücmələ (xülasə)	1	2	2	2
8	Elmi-hesab	1	1	1	1
9	Hifz-Cəhhət	1	1	1	1
10	Zəbani-Ərəbi	-	-	-	-
11	Səvtiyyə	-	-	1	1
12	Muxbeyi-subera cümlətan	23	24	25	25

M.T.Sidqinin maarifçi-pedaqoji göüşlərinin miqyasının xeyli geniş olduğunu təsdiqləyən yeniliklər, orjinal fikir və fəaliyyət sahələri çoxdur. Və böyük pedaqoqun məktəb, təhsil sahəsində xidmətlərindən biri də onun dünya pedaqogikasının görkəmli nümayəndələrindən olan Y.A.Komenski, U.Slavinetski və F.İ.Yankoviç kimi şagirdlər üçün qaydalar, onların məktəb daxililində davranışlarını tənzimləyən nizamnamə tərtib etməsidir. Onun əlyazması şəklində saxlanılan məktəb nizamnamələri Azərbaycan məktəb tarixində ilk təşəbbüs kimi qiymətlidir (5,180).

“Məktəbi-Tərbiyə”nin nizamnaməsi, şagirdlər üçün qaydalar (tapşırıqlar), buradakı şagirdlərin adlı siyahısı, tədris fənləri üzrə aldıqları qiymətlər, məktəbli üçün yaddaş, məktəbin 1898-ci ilə aid hesabatı və s. məsələlər barədə tədqiqatlarda müəyyən səviyyədə bəhs olunmuşdu (1,195). Göstərilən sənədlər Sidqinin əsərlərinin məlum nəşrinə də (3) daxil edilmişdir. Ona görə də bu məsələlər haqqında söhbət açmağa ehtiyac yoxdur.

Lakin çox təssüf ki, “cəhalətpərəst fanatiklərin qəzzəbinə tuş gəlməsi, xüsisilə hakim dairələrin əlində formal və lüzumsuz bəhanələrin olması” (professor İ.Mollayev) əsrinin unikal təhsil müəssisəsi kimi “Məktəbi Tərbiyə” və onun yaradıcısı Məhəmməd Tağı Sidqinin fəaliyyətinə maneçilik törədir, mütərəqqi məzmuna malik təcrübi işlərinə qadağalar qoyurdu. 1897-ci ildə təhsil müəssisəsinin adı dəyişdirilərək “ Naxçıvan rus-tatar (Azərbaycan) oğlan məktəbi” adı verildi. Bu ildən etibarən məktəb dövlətin ixtiyarına verilir. Rus dilini yaxşı bilmədiyinə, dövlət məktəblərində müəllim vəzifəsini tutmaq üçün şəhadətnaməsi olmadığı bəhanə gətirilərək Məhəmməd Tağı Sidqi

məktəbin müdiri vəzifəsindən çıxarılıb türk dili (Azərbaycan dil i- V. R) müəllimi təyin olunur. Əvvəllər məktəbin rus dili müəllimi işləmiş Mirzə Ələkbər Süleymanov isə məktəbə müdir təyin olunur. Tədrisi ikinci və üçüncü siniflərdə 10 saat, üçüncü və dördüncü siniflərdə 8 saat nəzərdə tutulan Azərbacan dili dərsləri azaldılır. Məktəbi İrəvan Quberniyasının məktəblər direksiyası idarə edir." (6,274)

Dövlət rəsmiləri tərəfindən M.T.Sidqinin qarşısında şərt qoyulur. Əgər tezliklə imtahan verib müəllimlik şəhadətnaməsi almazsa onu türk dili (Azərbaycan dili) müəllimi vəzifəsindən də azad ediləcək. Sidqi 1902-ci ildə məktəbin müdriliyinə qayıtmaq ümudi ilə İrəvan şəhərində komissiya qarşısında imtahan verib III dərəcəli məktəblərdə, prixod (məhəllə) ibtidai məktəblərində müəllimlik hüququ qazandı. Lakin bu heç nəyi dəyişmədi. Böyük pedaqoq, xalq müəllimi ömrünün sonuna kimi özünün təsis etdiyi, lakin dəyişdirilmiş adla fəaliyyət göstərən tədris müəssisəsində türk-Azərbaycan dili müəllimi vəzifəsində işləməli oldu.

Beləliklə, böyük maarifçinin yandırdığı alovun şöləsini, maarif çırağını söndürmək mümkün oldu. M. T. Sidqinin oğlu Məmmədəli Səfərov "Məmməd Tağı Sidqinin tərcümeyi halı" məqaləsində bu həqiqəti təsdiq edərək yazır ki, "Məktəbi Tərbiyə"nin adı dəyişdirilib "Rus, - müsəlman" məktəbinə çevrilir. Əvvəlcə " Русско - мусулманское" və sonra " Русско - татарское " məktəb adlandırılır. "Məktəbi Tərbiyə" lövhəsi üstündən götürülür. Sidqi müdirlikdən azad olunur və bir müəllim kimi məktəbdə saxlanılır" (3,269).

Arxiv materialları ilə tanışlıq göstərir ki, həqiqətən də "Məktəbi Tərbiyə" müəssisəsi 1898-ci ildən "Naxçıvan rus-tatar məktəbi" (Bu adda sənədlər toplusu 1911-1917-ci illəri əhatə edir), "Naxçıvanda müsəlman məktəbi haqqında " (Bu adda sənədlər sentyabr 1903-dekabr 1904-cü ilə aiddir) və "Naxçıvan iki sinifli kişi məktəbi" (1904-1910-cu illəri əhatə edir) adlandırılmışdır. Bu hər üç sənədlər toplusu Naxçıvan Muxtar Respublika Dövlət Tarix Arxivində saxlanılır.

Bu sənədlər əsasında müəyyənləşdirmək olur ki, "Məktəbi Tərbiyənin" varisi kimi rus-tatar (Azərbaycan) məktəbi 1917-ci ilə qədər fəaliyyət göstərmişdir.

"Məktəbi Tərbiyə"nin binası şəhər əhalisinin hesabına, qisməndə digər ianələr vasitəsi ilə qurulmuşdu. Came məsçidinin həyətində tikilmiş dörd otaqdan ibarət məktəb binası Naxçıvan camaatı tərəfindən ianə edilmiş vəsit hesabına başa gəlmişdi. Məktəbin binası 1896-cı ildə hazır olmuşdur. May ayının 14-də məktəbin yeni binaya köçürülməsi ilə əlaqədar təntənəli şəkildə açılış olmuşdur.

Arxiv sənədləri göstərir ki, böyük messanat Hacı Zeynalabdın Tağıyevdə bu şöhrətli təhsil müəssisəsinin bölgədəki maarifçilik işinə verdiyi faydaya biganə qalmamış, məktəbin yeni uğurlara nail olması naminə gümüş pulla 1.000 rubl ianə göndərmişdir. M. T. Sidqi 10 iyun 1897-ci il tarixdə İrəvan və Yelizavetpol Quberniyaları və Qars vilayəti xalq məktəbləri direktoruna raportunda bu xeyriyyəçilik işindən bəhs edərək yazırdı: "Известный

благотворитель и всегда отзычивый на всякое было, в особенности на народнов образование, жител города Баку Гаджи ЗейнальАбдин Тагыев по жертваваль на нужды русско-татарского училища в город Нахичвани тысячу рублей (1000 руб), которые были израсходованы на устройства балкона и других пристроекь этого училища

Объ этомь имеъю честь донеети Ващему Превосходительству для сведения.

Заведиваюцш училища: М.Т.Сафаров” (7,2).

Xalq məktəblər direktoruna 24 iyun 1897-ci il tarixdə məktəbin müdirinin əvəzindən rus dili müəllimi Ələkbər Süleymanov tərəfindən göndərilmiş məktubda Hacı Zeynalabdin Tağıyev tərəfindən ianə edilmiş vəsaitin məktəb binasının tikilişində hansı məqsədlər üçün sərf edildiyinin dəqiq məbləği göstərilir.

Həmin vəsaitdən:

Məktəbin balkonunun tikilməsinə - 250 rubl.

Balkonun boyanmasına (rənglənməsinə) - 40 rubl.

Məktəbə su arxının (qanovun) çəkilməsi və hovuzun tikilməsinə - 320 rubl.

Sinif otaqlarının qapı və pəncərələrinin təmirinə -327 rubl.

Zəruri tədris vəsaitlərinin alınmasına - 89 rubl (7,3).

Qeyd edək ki, M.T.Sidqi və onun məktəbinə əhali arasında rəğbətin artması dövlət idarəçiliyinin rəhbərlərində şübhə doğurmuş, təhsil müəssisəsinin fəaliyyəti nəzarətə götürülmüşdü. Məktəbin tədris planında dillərin öyrədilməsinə ayrılmış saatların miqdarı, xüsusilə rus dilinə aid nəzərdə tutulmuş vaxtın az olması açıq-aydın seçilirdi. Həftədə hər sinif üzrə bir saat. Belə bir vəziyyət əlbəttə ki, maarif məmurlarını təmin edə bilməzdi. Bu cəhəti Məmmədvəli Səfərovda görmüş və Sidqinin məlum “Tərcümeyi halında yazmışdır: “Bu məktəbdə başlıca Azərbaycan dili, fars dili və ərəb sərf və nəhvi tədris edilir. Rus dili isə hər sinifdə bir saat keçirilir. İrəvan quberniyasının məktəblər direksiyası bu məkətb ilə maraqlanır və bu məktəbin dərs məramnaməsindən şübhələnir” (3,269).

Bunları nəzərə alan dövlət təhsil idarələrinin məmurları bir sıra tədbirlərə əl atdı. Hər şeydən əvvəl 1897-ci ildə M.T.Sidqi “Məktəb Tərbiyə”yə müdriklikdən azad edildi. Həmin ildən məktəbin nəzarətçisi vəzifəsi 1882-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmiş Ələkbər Süleymanova tapşırıldı. Arxiv sənədlərdən görünür ki bu hadisə şəhər içtimaiyyətinin də narahatlığına səbəb olmuş, maarif fədaisinin özünü də çox narahat etmişdir. Şəhər icmasının başçısı (городской староста) Cəfər Qulu xan Naxçıvanski və rus-tatar məktəbinin (əvəllər “Məktəbi Tərbiyə”nin) fəxri nəzarətçisi Bəhrəm xan Naxçıvanskinin İrəvan quberniyasının xalq məktəbləri inspektoruna 19 avqust 1900-cu il tarixli məktubu şəhər içtimaiyyətinin narahatlığının ifadəsi idi. Məktubda yazılır:

“По дошедшимь до меня сведеният учитель Нахичеванского Русско-Татарского училища Машади Таги Сафаров переводится на таковую должность в внов открываемые в гор. Ордубад Русско-Татарское учидищь.

Считаю своеею обазанностиьго довести до сводения Вашего Высокородия слодующе:

недавно открывшеся в гор. Нахичевани Русско - Татарское училищ существуеть блогадаря заботамь способность в преподавании ученикам урока и подготовлении ихь на поступление в одно из Русских училищь.

Город Нахичевань назначиль посебе помянут ему училищу в размере 500 руб. в годь собственно вследствие блесящих заботь состоронное учителя Сафарова и что сказонное училища пока не совсемь укрепло и по этому за переводимь Сафарова в гор. Ордубад можно будет закрытие этого новаго училище, и поэтому Сафаров может быть переведень в другос место не ранне укрепления в городе Нахичевани Русско-Татарского училище.

Сообщая о выщеизложенном Ващему Высокородыи честь имею просить, за отказать в ходатайстве ибо оставлении Машади Татя Сафарова учителем в Нахичеванскимь Рускко-Татарской училищь

Городской староста Хан Нахичевански

Почеитный смотритель Русско-Татарского училищь Bahram Xan Naxiчивански" (7,89).

Lakin göstərilən səylər bir nəticə vermirdi. M.T.Sidqinin Bakı, Tiflis və başqa şəhərlərdə elmi, ədəbi - mədəni, pedaqoji sahədə fəaliyyət göstərən Naxçıvanlı zyalılarla yazışmalarından görünür ki, böyük pedaqoqun özü də hadisələrin gedişindən əndişələnmiş, narahatçılığını büruzə vermişdir. Sidqinin Məmmədağa Şahtaxtlıya və digər ziyalı dostlarına yazdığı məktublardan aydın olur ki, Naxçıvan onun üçün duracaq yer deyil, ya Tiflisə, Bakıya, İrəvana, yaxud heç olmazsa Ordubada qayıdıb məktəbdarlığını davam etdirmək, ailəsini dolandırmaq haqqında düşünürdü. Cəfərqulu xan Naxçıvanskinin yuxarıda göstərdiyimiz xahişnaməsindən başqa M.T.Sidqi özü də İrəvan quberniya məktəblər dirktoruna yazdığı məktubda Ordubadda yeni açılacaq məktəbə (Rus-Azərbaycan məktəbinə) köçürülməsini xahiş etmişdir. Böyük pedaqoq məktubunda niyyətini açıq şəkildə bidirərək yazırdı ki, Ordubadda açılacaq rus-tatar məktəbinə köçürülmək niyyətindəyəm. ona görə də mənim 27 iyun 1900-cu ildən Ordubadda açılması nəzərdə tutulmuş rus-tatar mktəbinə köçürülməyim haqqında xahişimi rədd etməməyinizi rica edirəm. (7,90)

Lakin bütün bu təşəbbüslər fayda verimir. İmtahan yolu ilə müəllimlik attestatı alan Məmməd Tağı Sidqi məktəbdə yenə də Azərbaycan dili müəllimi saxlanılır. Bütün bunlar fiziki və mənəvi cəhətdən yorğun Məmməd Tağı Sidqinin səhhətinə təsirsiz qalmadı. Məktəbin məzarətçisi Ələkbər Süleymanovun 12 dekabr 1903-cü il tarixli İrəvan Xalq məktəblər inspektorunun adına göndərdiyi raportda göstərilirdi ki, məktəbin Azərbaycan dili müəllimi Məşədi Tağı Səfərov müsəlmanların "Oruc Bayramı" münasibətilə Qarabağlar kəndində tanışının evinə qonaq getmiş 8 dekabr 1903-cü ildə orada qəflətən vəfat etmişdir (7,12). Raportda Ələkbər Süleymanov bundan sonra Azərbaycan dilinin tədrisi işinə neçə bir münasibət göstərməli olduğu haqqında əmrin verilməsini gözlədiyini bildirir.

Naxçıvan Muxtar Respublika MDA-də 8 dekabr 1903-cü il tarixdə Məhəmməd Tağı Sidqinin həyat yoldaşı İsmət xanımın adından bir ərizə də mühafizə olunur. Ərizədə göstərilir ki, Sidqinin məktəbi nəinki Naxçıvanda, həmçinin İrəvan quberniyasında və Zaqafqaziyada müsəlmanlar yaşayan yerlərdə belə bir tədris müəssisəsi fəaliyyət göstərməmişdir. Bu, Məşədi Tağı Səfərov Sidqinin doğru-düzgün yol qəbul etməsi, böyük zəhmət və enerji sərf etməsi nəticəsində mümkün olmuşdur. Buna görə də Sidqinin göstərdiyi nümunəvi xüdmətləri nəzərə alınaraq ailəsinə köməklik göstərilməsi xahiş olunur (7,44).

Böyük pedaqoq Məhəmməd Tağı Sidqinin vəfatından sonra “Məktəbi Tərbiyə”nin varisi kimi rus - tatar (Azərbaycan) məktəbi öz işini davam etdirir. 1904-cü ildə məktəbin pedaqoji heyyəti aşağıdakılardan ibarət idi.

1. Fəxri nəzarətçi Bəhrəm xan Naxçıvanski. O, 1897-ci ildən bu vəzifədə işləmişdir. Naxçıvan şəhər məktəbini bitirmişdir.
2. Ələkbər Süleymanov. Ştatlı nəzarətçi. Bu vəzifədə 1897-ci ildən işləyir. Qori müəllimlər Seminariyasını 1882-ci ildə bitirmişdir.
3. Varvara Qriqoruyevna Krapivina, müəllim, 1904-cü ildən işləyir.
4. Molla Əli Hüseynzadə, 1897-ci ildən şəriət müəllimi işləyir. Ev tərbiyəsi almışdır.
5. Məmmədhüseyn Novruzov, 1903-cü ildən Azərbaycan dili müəllimi işləyir. Naxçıvan şəhər məktəbini bitirmişdir.

1905-ci ilin erməni-Azərbaycan münaqişələri məktəbin həyatından yan ötməmişdir. Məktəb erməni vandalizminin vəhşilikləri ilə üz-üzə gəlmiş, maddi və mənəvi ziyan çəkmişdir. Məktəbin nəzarətçisi Ə. Süleymanovun İrəvan quberniya xalq məktəbləri direktoruna 6 dekabr 1905-ci il tarixdə göndərdiyi raportda qeyd olunur ki, şəhər bazarında yanğınların törədilməsi, talanlar nəticəsində yaxınlıqda yerləşən məktəbin fəaliyyəti dayandırılmışdır. Münaqişələr səbəbindən uşaqların məktəbə gəlməsinə təhlükə yaranmış, hətta gözətçi belə məktəbə gəlməkdən imtina etmişdir. Məlum olmayan qəsd hazırlayanlar (cinayətkarlar) gecə saat 3 və 4 radələrində məktəb binasının pəncərələrinin şüşəsini sındırmış, içəri daxil olaraq tədris müəssisəsinin maddi bazasına xeyli ziyan vurmuşlar. Ziyan dəymiş əşya və vəsaitlər aşağıdakılardan ibarət olmuşdur: 1) hökmdarın portireti; 2) 8 ədəd stul; 3) saat; 4) güzgü (divar); 5) mürəkkəb üçün ləvazimatlar, xarrat alətləri, dörd arşın mahud parça, bel, əlüzyuyan və başqa əşyaları qırıb məhv etmişlər.

Milli zəmində münaqişələr müəllim heyətinin tərkibinə də təsir göstərmişdir. Müəllim Məmməd Hüseyn Novruzov ailəsi ilə birlikdə İrana köçmüş, Molla Əli Hüseyn-adə xəstəliyi ciddi olduğundan tutduğu vəzifədən çıxarılması haqqında məktəbin nəzarətçisinə ərizə ilə müraciət etmişdir. Müəllim V.Q.Kripivina isə münaqişənin davam etdiyi təqdirdə məktəb gələ bilməyəcəyini bildirmişdi.

1907 - ci ildə erməni - Azərbaycan münaqişəsinin nisbətən səngiməsi məktəbin öz fəaliyyətini davam etdirməsi, şagirdlərin dəvamiyyətinin stabilləşməsinətəsir göstərdi. Bir maraqlı fakt diqqəti çəkir ki, bu da mərhum Məhəmməd Tağı Sidqinin oğlu 18 yaşlı gənc Məmmədəli Səfərovun rus-tatar

məktəbinə müəllim təyin olunması idi. 1907-ci ildə müəllimlərin, xüsusilə Məmmədəli Səfərov və məktəbin ikinci müəllimi Abasqulu bəy Kəngərli "gərgin əmək, şagirdlərə taktiki və humanist münasibət göstərməklə" şagirdlərin sayını ötən 1906-cı ildəkinə nisbətən (90 şagird), 1907-ci ildə 150 şagirdə çatdıra bilmişdilər (8,41).

Lakin Məmmədəli Səfərovun məktəbdə müəllimliyi o qədər də uzun sürmədi. İrəvan quberniya Xalq məktəbləri direktorundan Naxçıvan iki sinifli rus-tatar məktəbinin nəzarətçisinə 03 oktyabr 1908-ci il tarixli məktuba əsasən məktəbin məzmununda və strukturunda dəyişikliklər aparılması tövsiyyə olunur. Xalq məktəblər direktoru yazırdı ki, "sizə tapşırılmış məktəbin məzmununda bir sıra çatışmazlıqlar var. Gələcək zaman üçün düzgün qaydalar qəbul etməyi təklif edirəm:

1. Məktəb proqram üzrə bir sinifli olmalıdır; qoy şagirdlər kursu bitirərək şəhər məktəblərinə daxil olsunlar;

2. Birinci şöbə, əsas və paralel şöbələr nəzarətçiyə və müəllimlərə (A. Kəngərlinskiyə) həvalə edilməlidir;

3. İkinci və üçüncü şöbələr xanım Dudikə tapşırılmalıdır;

4.Şəriət və Azərbaycan dilinin tədrisi iki şəxsə (Mirzə Həbib Yusifova və Məmmədəli Səfərova) yox, bir şəxsə həvalə edilməlidir. Birinci şöbədə Azərbaycan dilini müəllim tədris etməlidir. Şəriət müəllimliyi ancaq 2-ci, 3-cü və 4-cü şöbələr, Azərbaycan dilinin öyrədilməsi isə 2-ci və 3-cü şöbələr üçün nəzərdə tutulmalıdır (8,53).

Xalq məktəblər direktoru hər iki müəllimin (Mirzə Həbib Yusifovun və Məmmədəli Səfərovun) məsələ ilə xəbərdar edilməsini və onlara bu haqda məlumat verilməsini tapşırır. Bir çox məsləhətləşmələrdən sonra məktəbin yeni nəzarətçisi Cəlil Mirzəyevin İrəvan quberniya xalq məktəbləri direktoruna 29 sentyabr 1908-ci il tarixli raportunda göstərilir ki, Mirzə Həbib Yusifovun bu vəzifədə qalmasını məqsədəuyğun hesab edirəm. Çünki, o, Naxçıvan şəhər məktəbini bitirdiyindən bir və ikisinifli məktəblərdə müəllim vəzifəsini tutmaq hüququna malikdir.

Məmmədəli Səfərovun İrəvan quberniya məktəbləri direktorluğuna bir neçə xahişnaməsi (ərizəsi) cavabsız qalır. Xanım Dudik isə sonralar, 1910-cu ildə Naxçıvan rus-tatar qız məktəbinə köçürülür. Həmin ildə məktəbin fəxri nəzarətçisi Bəhrəm xan Naxçıvanski Tiflis şəhərinə işə köçürüldüyünə görə əmisi oğlu Yunis xan Naxçıvanskinin məktəbin fəxri nəzarətçisi vəzifəsinə təyin olunmasını tövsiyyə edir.

Qeyd edək ki, Naxçıvan qız məktəbindən fərqli olaraq Naxçıvan rus-Azərbaycan oğlan məktəbinin müəllim heyəti bir qayda olaraq azərbaycanlı müəllimlərdən təşkil olunurdu. 1910-cu ildən sonrakı dövrdə də məktəbin müəllim heyətində belə bir cəhət müşahidə olunur. Qeyd etdiyimiz kimi 1908-ci ildən Cəlil Mirzəyev məktəbin nəzarətçisi təyin olunmuşdur. Həmin ildən bölgənin tanınmış müəllimlərindən biri olan Məmməd bəy Zamanbəyov da məktəbdə müəllim vəzifəsini tutmuşdur. Məmməd bəy Zamanbəyov 1915-ci ildən məktəbin nəzarətçisi təyin olunur. Bu illərdə şəriət fənnini yenə də Mirzə Həbib Yusifov təlim edirdi. Müəllim Tatyana İvanovna Dudik isə rus dili

müəllimi işləyirdi. Bu illərdə məktəbin fəxri nəzarətçisi isə Cəfərqulu xan Naxçıvanski olmuşdur.

Şagirdlərin sayına cəlincə isə birinci dünya müharibəsi illərində şagirdlərin sayı hiss olunacaq dərəcədə azalmışdı. 1914-cü ildə məktəbdə bütün şöbələr üzrə cəmi 85 şagird təhsil alırdı. Bu məktəbin fəaliyyət göstərdiyi 20 il ərzində ən aşağı göstərici idi. Arxiv sənədlərində məktəbin 1917-ci ilə qədər fəaliyyət göstərdiyi haqqında məlumat var.

Beləliklə, göstərməliyik ki, ana dilində tədris müəssisələrinin yaranması XIX əsr milli Azərbaycan təhsilinin nailiyyəti idi. M. T. Sidqinin əvvəlcə Ordubadda, sonra isə Naxçıvanda açdığı ana dili məktəbləri təlimin ana dilində aparılması ideyasının reallaşması istiqamətində ilk və çox mühim addım idi. Milli və dini dəyərlərə uyğun gələn bu məktəblərə əhalinin rəğbəti bir də ona görə idi ki, müasirliyə, qabaqcıl baxışlara meyl daha güclü səslənirdi. Bütövlükdə, görkəmli Azərbaycan maarifçisi, mütəfəkkir pedaqoqu Məhəmməd Tağı Sidqi tərəfindən əsası qoyulmuş “Tərbiyə məktəbi” Naxçıvan diyarında içtimai pedaqoji hərəkatın inkişafında, sonrakı içtimai-mədəni həyatın dirçəlişində özünəməxsus yeri və mövqeyi olan təhsil müəssisəsi olmuşdur. “Məktəbi-Tərbiyə”, onun varisi kimi Naxçıvan ikisinifli rus-Azərbaycan oğlan məktəbi bölgədəki məktəb təhsili tarixinin çox zəruri bir həlqəsi hesab edilməli və onun təhsil mədəniyyətimizin qiymətli səhifələri kimi yeri və mövqeyi tarixi-pedaqoji tədqiqatlarda daha mükəmməl və hərtərəfli şəkildə öyrənilməlidir.

ƏDƏBİYYAT

1. Mollayev İ.A. Məhəmməd Tağı Sidqi Səfərovun pedaqoji görüşləri, Bakı, Maarif, 1996.
2. Ordubadi M.S. Həyatım və mühitin Toplayanı, tərtib edəni, çapa hazırlayanı və ön sözün müəllifi akademik İsa Həbibbəyli, Naxçıvan: “Əcəmi”, 2012
3. Sidqi M.T. Əsərləri (Toplayanı, tərtib edəni və müqəddimənin müəllifi akademik İsa Həbibbəyli), Bakı, Çaşıoğlu, 2004
4. Обзоры Эриванский губернии за 1896 год, Эриван, 1897
5. Əhmədov H.M.Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərslik, Bakı: Elm və təhsil, 2014
6. Gürcüstan MDA,f.422, s.1, iş.5849
7. Naxçıvan DTA, f.26, s.1, iş 25/26
8. Naxçıvan DTA, f.26, s.1, iş 30/31

РЕЗЮМЕ

ВАХИД РЗАЕВ

«МЕКТЕБИ - ТЕРБИЙЕ» И ЕГО НАСЛЕДНИК « НАХЧИВАНСКАЯ РУССКО АЗЕРБАЙДЖАНСКАЯ ШКОЛА»

В статье обсуждается школоведческая деятельность видного педагога Мамед Таги Сидги («Эхтер» и «Мектеби – Тербийе»), его роль и место в создании и развитие школ на родном языке, дается сведения об

обучаемых предметах и о контингенте учащихся. Так же комментируется популярность «Мектеби - Тербийе» среди населения, об отстранение М. Т. Сидги от руководства школа, взятие школы под надзор со стороны русских государственных чиновников и т. д.

В статье также исследуется деятельность Нахичеванской Русско-Азербайджанской школы для мальчиков в период с 1897 года по 1917 год как наследника «Мектеби - Тербийе» созданной М. Т. Сидги. Опираясь на архивные материалы рассказывается об активной деятельности видных учителей и педагогов того времени, таких как Мамедали Сидги Сафаров, Абасгулу Кенгерли и Мамед бек Заманбеков.

Ключевые слова. Создатель национальных школ в Нахичеване Мамед Таги Сидги, школа «Эхтер» , школа «Мектеби – Тербийе» в Нахичеване, Нахичеванской Русско-Азербайджанская школа для мальчиков, учительская деятельность Мамедали Сидги, учителья Нахичеванской Русско-Азербайджанской школы.

SUMMARY

VAHID RZAYEV

" MEKTEBI TERBIYE " AND ITS HEIR NAKHCHIVAN RUS-AZERBAIJAN SCHOOL

The article deals the educational activities of outstanding educator Mahammad Tagi Sidqi ("Akhtar" and "Mektebi Terbiye"), with its place and role in the history of the establishment and development of mother tongue schools and provides information on subjects taught at school, student quota. Here are being interpreted M.T. Sidqi's " Mektebi Terbiye " as winning popularity among the population, his departure from school principal, Russian state officials'control to school and so on. issues. The article also are investigated the main aspects of the Nakhchivan Russian-Azerbaijani boy's school activity from 1897 to 1917 as a successor to the " Mektebi Terbiye " of M.T.Sidqi, is given information about active participation in school life of teachers as Mammadali Sidqi Safarov, Abasgulu Kangarli, Mammad bey Zamanbayov and others on the basis of archival materials.

Key words: M.T. Sidqi as the founder of national schools in Nakhchivan, “Akhtar” school, “Mektebi Terbiye” in Nakhchivan, Nakhchivan Russian-Azerbaijani boys` School, Mammadali Sidqi's Teaching Work, Teachers of Nakhchivan Russian-Azerbaijani School

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

SƏBUHİ İBRAHİMOV
“Naxçıvan” Universiteti
s.ibrahimov71@mail.ru

NAXÇIVANA DAİR ƏLYAZMA KİTABLARIN XÜSUSİYYƏTLƏRİ

Məqalədə Naxçıvana dair əlyazma kitablarının zəngin xüsusiyyətləri, onların müəllifləri, xəttatları, miniatürçü rəssamları, nəqqaş-müzəhibləri və bədii cild ustalarının yaratdığı sənət əsərləri barədə araşdırmalar aparılmışdır. Həmçinin, Naxçıvana dair əlyazma kitablarının yaranması, onların yaşamasını zəruri edən, xüsusən, mədrəsələrdə dərsliklərin, Azərbaycan, türk, ərəb və fars dillərində bir çox kitablar, toplular, cünglər, təzkirələr əlyazma kitabları şəklində köçürülüb çoxaldıldığı haqqında məlumat verilmişdir.

Hesab edilmişdir ki, dünyanın bir çox ölkələrinin müzey və kitabxanalarında saxlanılan qiymətli əsərlər Naxçıvana dair əlyazma kitablarının zəngin xüsusiyyətlərindən xəbər verir.

Açar sözlər: Azərbaycan, Naxçıvan, əlyazma, kitab, nümunə, xəttat, mətn.

Sivilizasiya və mədəniyyət xəzinəsinin qiymətli qaynaqlarından olan əlyazmalar keçmişin ədəbi tarixinin müasirlərimizə çatdırılmasında, onların maariflənməsində misilsiz rola malikdir. Bu baxımdan, klassik Azərbaycan mütəfəkkirlərinin, o cümlədən Naxçıvan şair və sənətkarlarının əlyazma əsərlərini və onlarda olan xətt nümunələrini araşdırıb xalqa çatdırmaq qarşıda duran mühüm məsələlərdəndir.

Naxçıvana dair əlyazma kitabları Azərbaycan-türk, ərəb, fars dillərindədir və onlar əsasən ərəb əlifbası ilə yazılmışdır. Təkcə “Avesta”nın mətnləri vaxtilə mixi əlifbası ilə yazılmış və İsgəndərin onu yandırmasından sonra bərpası isə Atropatın yaratdığı əlifbada olmuşdur. Bu günə qədər gəlib çatan Naxçıvana dair əlyazma mətnlərini isə əsasən üç qrupa bölmək olar:

1) adi kitab nümunələri;
2) orta səviyyədə tərtib olunmuş kitablar;
3) yüksək tərtibatlı mətnlər.

Bunlardan əsasən adi və orta tərtibatlı kitablar çoxluq təşkil edir. Belə kitablar geniş kütlənin ehtiyacını ödəmək üçün sürətlə köçürülür, xüsusilə, mədrəsələrdə, məscidlərdə, ailələrdə, hətta bazar və kitab dükanlarında tələbələr, müəllimlər və mirzələr tərəfindən yaradılır və üzü köçürülürdü. Orta tərtibatlı kitablar adi kitablardan onunla fərqlənirdi ki, ilk vərəqində müəllifin və əsərin adı iri kalliqrafik xətlə, müxtəlif rənglərlə, bəzən də bir-birinə geydirilmiş hərflərlə yazılır, başlıqlar, yarımbaşlıqlar qırmızı mürəkkəb və ya

qızılı rənglə ayrılır, üstündən rəngli xətlər çəkilir, mətn bir və ya bir neçə əlvan rənglərlə çərçivəyə salınır (şəkil-1,2), sonunda mətn həndəsi fiqurlar (romb, üçbucaq və s.) arasına alınır (şəkil-3,4), bəzən başda minarə, bitki şəkilləri çəkilirdi.

(şəkil-1)

(şəkil-2)



(şəkil-3)

(şəkil-4)

Yüksək bədii tərtibatı olan sənət əsərləri həm də çox mürəkkəb bir üsulla, bir neçə sənətkarın böyük, çətin zəhməti hesabına yaranırdı. Bunun üçün ilkin şərt kağızın yüksək keyfiyyətli olması idi. Bu cür kağızlar Bağdad, Buxara, Xorasan, xüsusilə, Təbriz, Səmərqənd və Misirdə hazırlanırdı. Əksər hallarda, tam emaldan keçməmiş kağız alınır, onlar yerli kitab emalatxanalarında kraxmal, müxtəlif bitki və dərman yağları ilə üzlənir, kağızın suya davamlı olması üçün bəzən ona yumurta sarısı çəkilirdi. Adi kağızlar kətandan hazırlandığı halda, keyfiyyətli kağızlar düyü küləşindən hazırlanıb, düyü həlimi ilə boyanırdı. İpək qatışığı, ya da təmiz ipəkdən hazırlanan kağızlar ən keyfiyyətli kağız sayılırdı. Oxuma zamanı gözü yormasın deyə, çox parlaq ağ kağızların üzünə açıq sarımtıl, narıncı, bəzən də yaşıl rəng çəkirdilər.

Naxçıvana dair əlyazmaların zəngin xüsusiyyətlərindən hesab edilən kitab mədəniyyəti abidələrinin yaranması və onun tərtib edilməsinin əsas şərtlərdən biri xəttatlıq sənəti idi. Məlum olduğu kimi, orta əsrlərdə Azərbaycan – türk, ərəb və fars dillərində olan əsərlərin hamısı ərəb əlifbası ilə yazılırdı.

XIV əsrədək ərəb əlifbasının bir sıra xətt nümunələri (kufi, rüqə, nəsx, təliq və s.) yaranmışdı. Ancaq XII əsrdən XX əsrədək "Qurani-Kərim" yalnız nəsx xətti ilə yazılmışdır. XIV əsrdə görkəmli Azərbaycan xəttatı və rəssamı Mirəli Təbrizi nəstəliq xəttini kəşf etdi. Öz gözəllik nümunəsilə nəsxlə, iti yazılmasına görə təliqlə rəqabət aparan bu xətt tez bir zamanda bütün Yaxın və Orta Şərqə yayıldı. Bununla xəttatlıq sənətinin tarixində bir çevrilik əmələ gəldi. Nəstəliqin geniş yayılmasına baxmayaraq, Naxçıvan xəttatları nəsx, süls, reyhani, tövqi, rüqə, mühəqqəq, təliq və s. xətlərdən də istifadə etmişlər. Naxçıvan xəttatları həm də daha iti yazılan və kağızda az yer tutan şikəstə xəttindən də geniş istifadə etmişlər.

Naxçıvanda nəfis əlyazma kitablarının yaranmasında xəttatlarla yanaşı, miniatürçü rəssamlar, nəqqaş-müzəhiblər və bədii cild ustaları iştirak edirdi. Müxtəlif ustaların əməyini birləşdirən bu kollektiv əlyazmanın bitkinliyini və

vahid stilini, texniki kamilliyini təmin edirdilər. Aparıcı rol xəttata məxsus idi: o təkcə əlyazmaları köçürür, onu redaktə edir, bəzən kiçik dəyişikliklər edirdi.

Çox keçmədən rəssamlar bədii əsərin məzmunu ilə bağlı olan, şairin qəzəl və qəsidələrindəki müəyyən alleqorik anlayışlara aid miniatürlər də çəkirdilər. Bədii əsərin mətni ilə bağlı olmayan digər illüstrasiyalar kimi, belə miniatürlər əlyazma kitabının bəzəyi rolunu oynayırdı. Zaman keçdikcə bədii əsərin mövzusuna aid olmayan miniatürlər dəzgah miniatürünün yaranmasına gətirib çıxardı. Dəzgah miniatürü nümunələri kalliqrafik yazı nümunələri – qitələrlə birlikdə albomlarda toplanıb ayrıca yayılırdı.

Mövzu və janr rəngarəngliyi ilə seçilən (çox fiqurlu səhnələr, portretlər, heyvan, quş və gül təsvirləri) dəzgah miniatürləri xəttatlıq nümunələri kimi bədii formada tərtib edilirdi. Onlar həmçinin mətnin fraqmentləri ilə bir çərçivəyə salınırdı. Get-gedə dəzgah miniatürünün növləri inkişaf edir, həyatın və təbiətin geniş mövzularını əhatə edirdi. Lakin bəzi xüsusiyyətlərini dəyişsə də kitab miniatürü (illüstrasiya) əhəmiyyətini itirmir. XV əsrin sonlarında əlyazmaların dekorativ tərtibatı önəm kəsb etməyə başladı. Tərtibatçılar xəttat və miniatürçü rəssamdan sonra kitab üzərində işi davam etdirirdilər. Nəqqaş və müzəhhib işini icra edən bu ustaların sənəti bədii yaradıcılığın ən incə sahələrindən biri idi. Onlara “ləvvah” deyirdilər.

Ləvvahın əlyazma səhifələrinin tərtibatındakı işi aşağıdakılardan ibarət idi: Kitabın mətnindən qabaq, iki səhifədən ibarət ornamental frontispis yerləşdirmək. Əgər frontispisdə miniatür vardırsa, onun kənarına incə naxışlar vurmaq. Bundan sonra kitabın əvvəlində ünvan, titul vərəqi yerləşdirilirdi. Ünvan qızıl suyu, lacivərd və digər rənglərlə bəzədilir, hər bir detal nazik qara xətlə haşiyələnirdi. Əksər hallarda əsərin ilk iki səhifəsində misralar arasındakı yer əşrəfi qızılla doldurulurdu. Əlyazmanın hər bir səhifəsi iki, üç və daha artıq nazik rəngli xətlərlə haşiyələnirdi. Bir çox hallarda isə kitabların səhifələri “mərməri” və ya əlvan rəngli kağızlardan olurdu. Belə əlyazmaların əlvan səhifələri bir-biri ilə kontrakt yaradır və bu da kitaba xüsusi gözəllik verirdi.

Ümumiyyətlə, əlyazma kitablarının uzun müddət saxlanması üçün ona dəri cild çəkirdilər. Cildçi peşəsi orta əsrlərdə yüksək bədii yaradıcılığın müstəqil sahəsi kimi formalaşmışdı. Qərb ustalarının düzəltdiyi cildlərdən fərqli olaraq, Naxçıvanda əlyazma kitablarının kötüyü hamar, qapaqları səhifələrlə eyni ölçüdə olurdu. Ərəb əlifbasının sağdan sola yazılması ilə əlaqədar olaraq, kitab da sağdan başladığı üçün, qulaqcıq deyilən əlavə sol qapağın davamı kimi ona birləşirdi.

Cildçilik sənəti Şərqdə geniş yayılmışdı və həmin təcrübədən Naxçıvanda da istifadə olunurdu. Təbəqədən və maye qızıldan istifadə etməklə hazırlanan naxışlı dəri cildlər Naxçıvanda çox idi.

Naxçıvanda müxtəlif əlyazma mətnlərinin inkişaf tarixi çox mürəkkəbdir. Belə ki, bir sıra ölkələrdə olduğu kimi Azərbaycanda da əlyazmaların bir qismi müharibələr və yanğınlar nəticəsində məhv olmuşdur. Böyük bir hissəsi isə yüzilliklərin axarında çox istifadə edildiyindən sıradan çıxmışdır. Bir çox əlyazma kitabları isə Avropa dövlətlərinin hegomonluğu

nəticəsində onların kitabxanalarına düşmüşdür. Bir hissəsi isə şəxsi kolleksiyalara çevrilmişdir.

Orta əsrlərdə yaranıb bu günə qədər gəlib çatan Naxçıvana dair əlyazma kitablarının zəngin xüsusiyyətləri, demək olar ki, əksəriyyəti başqa ölkələrin kitabxanalarında, müzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Naxçıvana dair əlyazma kitablarının ən nəfis nümunələri Hindistan, İran, Misir, İngiltərə, Fransa, Amerika, İtaliya, Vatikan, Almaniya, və s. ölkələrin dövlət kitabxanalarında saxlanılır. Təkcə onu demək mümkündür ki, Nəsrəddin Tusinin təxminən dünyanın 75 ölkəsinin müzey və kitabxanalarında 2400-dən artıq müxtəlif əlyazma əsərləri mühafizə olunur.

Bütün bunlarla yanaşı, Naxçıvana dair əlyazmaların bir qismi AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu və AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda saxlanılır. Ölkəmizdə təxminən 25 mindən artıq əlyazma var. Dünya kitabxanalarında saxlanılan Naxçıvana dair əlyazmaların mikrofilm və fotosurətləri çıxarılmış və Naxçıvana gətirilmişdir.

VIII əsrin birinci yarısında Azərbaycanın digər bölgələri kimi Naxçıvanda da ictimai-siyasi münasibətlər, mədəni həyat kökündən dəyişilməyə başladı. Ərəb xilafətinin hakimiyyəti və İslam mədəniyyətinin yayılmasından sonra zərdüştlük və başqa əqidələr tənəzzülə uğrayır. IX əsrin ortalarından zərdüştlilər daha çox dağlıq yerlərdə məskunlaşaraq "Avesta"nı qoruyub saxlamağa çalışır, müsəlman azərbaycanlılar məscidlər tikir, "Qurani-Kərim"i müqəddəs bilərək uca tutur, ərəb dilini din və elm dili kimi əsas götürürlər. Bununla belə, heç də hamı bir dinə etiqad etməmiş və Azərbaycanın şimal-şərq əyalətlərində yaşayan xəzərlər yəhudi dininə etiqad etmişlər.

IX-X əsrlərdə Azərbaycanın digər bölgələrində "Avesta", "Qurani-Kərim", "Tövrat" və "İncil" kimi dünya miqyasında tanınmış səmavi kitablar yayılmış, bunların üzlərini azərbaycanlıların özləri başqa səhfələrə köçürüb, yayıb, yaşatdığı üçün onlar da tariximizin əlyazma kitabları daxilində öz əhəmiyyətli yerlərin müəyyənləşdirmişlər. Zaman keçdikcə "Qurani-Kərim" birinci yerdə, "İncil" ikinci olur, "Avesta" və "Tövrat"ın isə yayılma dairəsi zəifləyərək daha da məhdudlaşırdı. Naxçıvanda isə, bir mənalı qarşılanan və qəbul edilən islam dini və onun müqəddəs kitabı "Qurani-Kərim" hər bir naxçıvanlı müsəlmanlar üçün müqəddəs sayılmışdır.

X əsrdən başlayaraq XX əsrin əvvəllərinədək Naxçıvanda ən geniş yayılmış müqəddəs "Qurani-Kərim" və onun izahları, təfsirləri olmuşdur. XII-XIII əsrlərdə Naxçıvan Atabəylər Dövlətinin təxminən 30 il müddətində mərkəzi olan zaman Azərbaycan xəttat və sənətkarlarının hazırladığı "Qurani-Kərim"in təfsiri indi Paris Milli Kitabxanasında saxlanılır. Bu təfsiri Naxçıvanda məşhur tarixçi Məhəmməd ibn Cərir Təbəri yazmışdır. Həmin kitab nəinki Naxçıvana dair, ümumiyyətlə, Azərbaycan əlyazma kitabının ilk nəfis nümunəsidir. Onun ilk səhifəsi dəqiq həndəsi naxış şəklində altı dəyirmi güllü bəzəklə bəzənmişdir. Bir sıraya düzülmüş üçyarpaqlı naxış vərəqin haşiyələrini bəzəyir. Bu bəzək həm ümumi kompozisiyası, həm də ayrı-ayrı detalları ilə fərqlənir.

Digər bir əlyazma kitabı isə K.İ.Çaykinin verdiyi məlumatda öz əksini tapır: “K.İ.Çaykinin hələ 1934-cü ildə verdiyi məlumata görə, həmin Əli bin Əhməd əl-Əsədi ət-Tusi h.456-458/m.1064-1066-cı illər ərzində Naxçıvanda vəzir Məhəmməd bin İsmail Hüsninin və onun qardaşı İbrahimin sifarişi ilə «Gərşaspnamə» adlı bir poema yazmış və onu buranın hakimi Əmir Əbu Duləf Dəyraniyə təqdim etmişdi” (1, s. 188).

Həmçinin O.F.Akimuşkinin yazdığına görə Şərq aləmində ərəb əlifbasında yazılan əlyazma kitabının ən qədim nüsxəsi miladi tarixi ilə 846-cı ildə köçürülmüş “Kitabül-əbniya” əsəri olmuşdur ki, onu da köçürən XI əsrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən və Naxçıvan ədəbi mühitini, onun bədii yaradıcılıq nümunələrini canlandıran Əli bin Əhməd əl-Əsədi ət-Tusi olmuşdur. “447-ci ilin şəvval ayında // 1056-cı ilin yanvarında Əbu Mənsur Müvəffəq əl-Hərəvinin şair və gələcək leksikoqraf Əli bin Əhməd əl-Əsədi ət-Tusi tərəfindən köçürülmüş «Kitabül-əbniya ən həqaiqül-ədviya» («Əczaçılığın həqiqətləri haqqında əsaslar kitabı») əlyazması hazırda dünyada məlum olan ən qədim əcnəbi dildə olan müsəlman əlyazma kitabı sayılır” (5, s. 11-13). Bu da öz növbəsində Naxçıvanda yaradılan əlyazma kitab mədəniyyəti abidələrinin, xəttatlıq və katiblik sənətinin nə dərəcədə yüksək olmasından xəbər verir.

XIII əsrdə elmi əsərlər yazıldığı halda, XIV əsrdə elmi əsərlərlə yanaşı, ədəbi-bədii əsərlər yazılır. XIV əsrin əvvəllərində Naxçıvanda elmi şəhərcik yaradılaraq onun içində müalicə mərkəzi, elmi idarələr, rəsədxana, zəngin kitabxana fəaliyyət göstərmişdir. Həmin dövrdə öz yaradıcılıq istedadı ilə bütün Şərq dünyasında tanınan görkəmli alim Məhəmməd Naxçıvani yaşamışdır. Onun ədəbi-bədi yaradıcılıq intibahı hesab edilən “Dəstur əl-katib fi təyin əl-məratib” (6) əsəri bütün Şərq aləmində Məhəmməd Naxçıvaniyə böyük şöhrət qazandırmışdır. O, “Fəxri, səadəti bilik və bacarığı kamil şəkildə axıra çatdırmaq və elmə mükəmməl sahib olmaqda görürdü” (6, s. 337). Belə ki, onun bu əsəri Fəzlullah Rəşidəddinin “Came ət-təvarix” kitabının yaranmasına səbəb olmuşdur. Məhz bu dövrdə Azərbaycanda Mahmud ibn İlyasın “Tibbnamə”, Mahmud Şəbüstərinin “Gülşəni-raz” və “Səadətnamə”, Suli Fəqihin “Yusif və Züleyxa”, Yusif Məddahın “Vərqa və Gülşah”, Arif Ərdəbilinin “Fərhadnamə”, Əttar Təbrizinin “Mehr və Müştəri” əsərləri meydana gəlmişdir.

XIV əsrdə kitabların Azərbaycan dilində yazılması nəinki Naxçıvan üçün, həm də bütün Azərbaycan üçün əhəmiyyətli idi. XVI əsr Səfəvilər imperiyasının əsasını qoyan görkəmli dövlət xadimi Şah İsmayıl Xətainin yaratdığı dövlətin ədəbi-bədii yaradıcılıq nümunələrindən danışmamaq mümkün deyil.

XVI əsrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da miniatür sənəti zirvəsinə qalxdı, bu da öz növbəsində Naxçıvanda bədii tərtibatlı əlyazmaların inkişafına təkan verdi. Həmin vaxtda şifahi xalq yaradıcılığı nümunələri, aşıq yaradıcılığı, nağıllar və dastanlar yazıya köçürülb əbədiləşdirilir, xalçaçılıq, toxuculuq, memarlıq və s. sənət sahələrindəki ənənəvi bədii təsvirlər, naxışlar, həndəsə və bitki ornamentləri əks etdirilirdi.

XVIII əsrdə Azərbaycanda olduğu kimi, Naxçıvanda da şifahi xalq ədəbiyyatı, yazılı ədəbiyyat və aşıq ədəbiyyatının bir-birilə daha qovuşduğu dövr adlanır. Lakin Naxçıvanda əlyazma nümunələri azalır. Əsrin ilk çağlarından Azərbaycanda Səfəvilər dövlətinin süqutu, ölkənin müxtəlif xanlıqlara parçalanması, ara müharibələrinin ardı-arasının kəsilməməsi, ölkənin əyalətlərində dərəbəyliklərin yaranması, bütün iqtisadi-mədəni sahələrdə öz təsirini göstərdiyi kimi, kitab mədəniyyəti sahəsinə də ağır zərbələr vurmuş, bədii kitabların tərtibi zəifləmiş, yüksək sənət əsərlərinin üzü nadir halda köçürülürdü. Zəif xanlıqların mərkəzlərində az-az maraqlı əlyazma kitabları yaranırdı.

XIX əsrdə Naxçıvana dair əlyazma tarixinin yaranması və inkişafı demək olar ki, daha da yaxşılaşmağa doğru yönəlmişdir. Bu dövrdə Naxçıvanda kitablar daşbasma üsulu ilə çap edilməyə başlasa da, texnikanın çox zəif tətbiqi, kitab çapının mövcud ehtiyacları ödəyə bilməməsi, əlyazma kitabının yaşamasını zəruri edir, xüsusən, mədrəsələrdə dərsliklər, Azərbaycan, türk, ərəb və fars dillərində bir çox kitablar, toplular, cünglər, təzkirələr əlyazma kitabları şəklində köçürülüb, çoxaldılırdı. Nəinki Naxçıvanda, Azərbaycanda nəfis, qiymətli əlyazma kitablarının son yaradıcısı Əbdülqəni Nuxəvi olmuşdur. "Bolşevik rejiminin Azərbaycanda apardığı repressiyaların "qurbanı" olmuş mənəvi sərvət xəzinələrimizdən biri, XIX əsrin fədakar maarifçisi, alim və kitabşünası Şəmsəddin Əbdülqəni Nuxəvi Məhəmməd əfəndi oğlu Xalisəqarızadənin (1817 – 1879) kitabxanası olmuşdur" (4, s. 136).

M.Mahmudov yazır: "Ərəbdilli orta əsr ədəbiyyatı müxtəlif xalqların birgə səyi nəticəsində yaranmış, inkişaf etmiş və formalaşmış qiymətli mədəni irsdir. Bu irsin əsas yaradıcılarından biri də Azərbaycan xalqı olmuşdur" (2, s. 5).

Naxçıvan Azərbaycan daxilində birgə ərəb xilafətinin tərkibinə daxil edildikdən sonra ərəb dili və qrafikası hökmran mövqe tutduqdan, doğma Naxçıvanımız öz mədəniyyətinin yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Bu dövrdən başlayaraq anadilli ədəbiyyatımızla yanaşı ərəbdilli poeziyamız da inkişaf edir, bununla da əlyazmaların obyekti hesab olunan kitab mədəniyyətimiz yenidən özünün çiçəklənmə dövrünə doğru ilk addımları atmağa başlayır. VII əsrin ikinci yarısından başlayaraq, XX əsrin əvvəllərinə kimi Naxçıvan alimləri öz əsərlərini ərəb dilində qələmə almağa başlayırlar. Naxçıvanda əlyazma kitab mədəniyyəti getdikcə inkişaf edir, zəngin kitabxanalar yaranır, ədəbi və elmi məclislər təşkil olunur, yeni dinin fəlsəfəsinin izahına ehtiyac duyulur.

Xilafət dövründə ərəb əlyazma kitabları qaydalarının təsiri ilə Naxçıvanda yeni üsullarla ədəbi mühitin inkişafı üçün kitab mədəniyyəti yaranmağa başlayır və inkişaf etdirilir. Daim müqəddəs bilinən islamın əvəzedilməz kitabı "Qurani-Kərim" müsəlman aləmində kitab mədəniyyəti abidələrinin yaradılmasında, formalaşmasaında və inkişafında olduqca böyük rol oynadığı kimi, hər hansı bir kitabın da quruluşuna təsir göstərmişdir. Məhz buna görə də, müsəlman Şərq ölkələrində əlyazma kitabları ümumərəb-islam qaydaları və ənənələri zəminində inkişaf edərək təkmilləşmişdir. Lakin sonrakı

əsrlərdə milli mədəniyyətlərin formalaşması nəticəsində ayrı-ayrı müsəlman ölkələrində özəl kitab tərtibatı mədəniyyəti də yaratmağa başladı. “Bu məsələdə məktəb və mədrəsələrin də müsbət rol oynaması şəksizdir” (3, s. 7). Məhz bu baxımdan da bölgəyə dair əlyazma mətnlərin filoloji-tekstoloji xüsusiyyətlərinin öyrənilməsinə tədqiqatda ayrıca yer ayrılmışdır.

Yazılı mətnlərin məntiqi nəticəsi olaraq Naxçıvana dair əlyazmalarda kitab mədəniyyəti abidələrinin təşəkkülü və inkişafı həm mətnşünaslıq nümunəsi kimi, həm də İslam mədəniyyətinin yaradılmasında ərəb xilafətinə daxil olan xalqların, o cümlədən, Azərbaycan və başqa türkdilli xalqların böyük xidmətləri olmuşdur. Bu həqiqəti ərəb alimi İbn Xəldun öz əsərlərində dəfələrlə qeyd etmişdir. Eyni zamanda rus, Avropa və Azərbaycan şərqşünasları İ.Y.Kraçkovski, X.A.Gibb, İ.P.Petruşevski, Y.E.Bertels, M.Mahmudov və başqaları da bu fikri təsdiq etmişlər. Müsəlman xalqlarının ziyalıları, o cümlədən Naxçıvan mütəfəkkirləri ərəb alimləri ilə yanaşı apardıqları məhsuldar elmi və ədəbi fəaliyyəti nəticəsində çoxtərəfli zəngin mədəni irs yaradılmışdır. Bu zəngin irsin yaradılmasında Azərbaycan xalqları içərisində Naxçıvanın xəttatlıq peşəsi ilə məşğul olan elm-sənət adamlarının da xüsusi əməyi olmuşdur.

ƏDƏBİYYAT

1. Adilov M.İ. Azərbaycan paleoqrafiyası. Bakı: Elm, 2010, 224 s.
2. Mahmudov M.H. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII). Bakı: Elm, 1983, 344 s.
3. Muradov S.D. Azərbaycanda 700 illik təhsil ocağı. Bakı: Çaşıqoğlu, 2008, 416 s.
4. Şərifli K.K. Mətnşünaslığın əsasları. Bakı: Nurlan, 2003, 312 s.
5. Zərinəzadə H.M. Ərəbcə siyaqət. Ərəb filologiyası məsələləri. Bakı: ADU nəşri, 1971, 77 s.
6. نخجوانی محمد ابن هندوشاه. دستر ال - کاتب فی تیین ال - مراتب. 2-جلده. II جلد. (293), مسکوف: علم, 1976, 600 ص.

РЕЗЮМЕ

САБУХИ ИБРАГИМОВ

БОГАТЫЕ КАЧЕСТВА РУКОПИСНЫХ КНИГ О НАХЧЫВАНЕ

В статье проведены исследования ценных особенностей рукописных книг о Нахчыване, произведений искусства, созданных авторами, каллиграфами, художниками-миниатюристами, декораторами, мастерами-переплетчиками. А также приводятся сведения о создании рукописных книг о Нахчыване, об условиях, делающих необходимым их существование, копирование и распространение в виде рукописных книг, в особенности, учебников для медресе, множества книг, сборников стихов и прозы, антологий на азербайджанском, турецком, арабском и фарси.

Сделан вывод, что ценные труды, хранящиеся в музеях и библиотеках множества стран мира, сообщают о богатых свойствах рукописных книг о Нахчыване.

Ключевые слова: Азербайджан, Нахчыван, рукопись, книга, образец, каллиграф, текст.

SUMMARY

SABUHI IBRAHIMOV

ASSETS OF MANUSCRIPT BOOKS ON NAKHCHIVAN

The paper studies valuable features of manuscript books on Nakhchivan, works of art created by authors, calligraphers, miniaturists, decorators, bookbinders. Also, information is provided on the creation of hand-written books on Nakhchivan, on the conditions that make necessary their existence, copying and distribution in the form of hand-written books, especially textbooks for madrassas, many books, collections of poems and prose, anthologies in Azerbaijani, Turkish, Arabic and Farsi.

It is concluded that valuable works, stored in museums and libraries of many countries of the world, report on the assets of manuscript books on Nakhchivan.

Key words: Azerbaijan, Nakhchivan, manuscript, book, sample, calligrapher, text.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

KÖNÜL MOLLAYEVA
70 saylı məktəb-liseyin müəllimi
konul8.8.86@hotmail.com

AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRDƏ TƏDQIQATÇILIQ BACARIQLARININ FORMALAŞDIRILMASI

Tarix dərslərində şagirdləri tədqiqatçılığa cəlb etmək, onların yaradıcı qabiliyyətini inkişaf etdirmək, tarix təfəkkürünü inkişaf etdirmək, onları tarixlə tərbiyələndirmək deməkdir. Bu həmçinin şagirdlərin tənqidi təfəkkürünün inkişaf etdirilməsi, idraki müstəqilliyinin təmin edilməsi deməkdir. Bu fəaliyyəti şagirdi passiv müşahidəçidən fəal yaradıcı şəxsə çevirir.

Tarix dərslərinin şagirdlərin tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsində əhəmiyyəti böyükdür. Burada şagirdlərin öz kəndini, yaşadığı ərazinin tarixi yerlərini, abidələrini öyrənməsi tədqiqatçılığın formalaşdırılmasının mühüm şərtləridir.

Açar sözlər: tarix, tədqiqatçılıq, interaktiv təlim, müəllim, dərs, pedaqoji proses, metod, şagird, təhsil

Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumları)” sənədi və onun əsasında hazırlanmış Azərbaycan tarixi üzrə təhsil proqramı (kurikulumu) fəndaxili və fənlərarası əlaqələrin geniş tətbiqini nəzərdə tutur. Ənənəvi təlimdə şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunur. Nəticədə isə şagirdlər həyatda onlara lazım olmayan məsələləri öyrənməli olurlar. Onlar çox vaxt cəmiyyətdə və öz kollektivlərində baş verən proseslərlərdən baş çıxara bilmirlər. İnteqrativ kurikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir və onların tədqiqatçılıq bacarıq və qabiliyyətini yüksəldir(1, səh. 31-37)

Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak daxildir. Belə kurikulum şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir.Digər fənn təhsil proqramları (kurikulumları) kimi Azərbaycan tarixi fənni üzrə təhsil proqramıda (kurikulumda) biliklərin fənlər vasitəsi ilə təşkil olunmuş konsepsiyasına əsaslanır.

Bu yanaşmaya görə şagird məktəbdə tədris olunan fənlər vasitəsi ilə müxtəlif sahələr üzrə seçilmiş məzmunu yaradıcılıqla öyrənməli və tətbiq etməyi bacarmalıdır.

Azərbaycan tarixinin inteqrativ kurikulumu şagirdlərin tədqiqatçılıq qabiliyyətini yüksəltməklə bərabər aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

- təlimin fəal, cəlbedici və əyləncəli olması;
- çoxlu hissələrə bölünməməsi;
- məzmununun sadə, əhatəli və anlaşıqlı olması;
- fənlərinin sayının çox olmaması (iki, üç və dörd fənn);
- eyni konsepsiyanın iki müxtəlif fəndə öyrənilməsi;
- təlimin müxtəlif mərhələlərinin əlaqələndirilməsi (şaquli inteqrasiya);
- yüksək nailiyyət səviyyəsinin və intellektual bacarığın inkişafının situmullaşdırılması.

Nəzərə almaq lazımdır ki, yuxarı siniflərdə tədris edilən Azərbaycan tarixinin məzmunu yüksək dərəcədə inteqrativdir. İnteqrativlik şagirdlərin yaradıcı qabiliyyətini inkişaf etdirir. Çünki hər növbəti tarixi mərhələnin hadisə və təzahürləri müəyyən dərəcədə əvvəlki hadisələrlə bağlıdır və ondan asılıdır. Buna görə də şaquli inteqrasiya prinsipi gözlənilmədən tarixi gedişi anlamaq mümkün deyildir. Həmin prinsipin gözlənilməsi Azərbaycan tarixi fənninin əsas xüsusiyyətlərindən biridir. Buna görə də bu fənnin tədrisində şagirdlərin tədqiqatçılıq bacarığına istiqmətlənməsinin böyük imkanları vardır.

Azərbaycan tarixi ölkəmiz ərazisində yaşayan insanların həyatının bütün sahələrini və təzahürlərini əhatə etdiyi üçün onun başqa fənlərlə, başqa bilik sahələri ilə yüksək bağlılığı vardır. Buna görə də Azərbaycan tarixi fənninin hər mərhələsində üfüqi inteqrasiya gözlənilməli, fən daxili əlaqələrdən səmərəli istifadə edilməlidir. Bu, şagirdlər tərəfindən fənnin məzmununun mənimsənilməsinin zəruri şərtlərindən biri olmaqla , onların tədqiqatçılığa sövq etmə baxımından da səmərəlidir.

Məsələn, X sinfin "Azərbaycan tarixi" dərsliyində verilən mövzular (3) demək olar ki, hamısı inteqrativ mövzulardır. Bu inteqartivliyin təmin edilməsi müəllimin bacarığından, yaradıcı qabiliyyətindən asılıdır. Bu zaman xüsusilə müəllimin və şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin birgə lazımi istiqamətə yönəldilməsi tələb olunur. Dərsliyin II bölməsində verilən "Şimali Azərbaycan XIX əsrin 60-cı illərində" (22, 65) mövzular müxtəlif fənlərlə, elm sahələri ilə inteqrativ əlaqədədir. Məsələn, mövzulara diqqət edək: " Sosial - iqtisadi vəziyyət"- ümumi tarix məsələlərin, "Burjua islahatları" - hüquq elmi ilə ilə, "Kənd təsərrüfatı" - biologiya, ekologiya elmləri ilə, "Neft sənayesi" - iqtisadiyyatla, ədəbiyyatla, maarif məsələləri pedaqogiak ilə sıx inteqrativ əlaqədədir. Bu kimi mövzuların tədrisində məktəblilərin bu mövzuları daha yaxşı məmsəməsində şagirdləri mövzu ilə bağlı başqa fənlərə, elm sahələrinə istiqamətləndirmək onların tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasına müsbət təsir edir. Şagirdlər tədris edilən mövzu ilə bağlı ədəbiyaytdan, tarixdən, ictimaiyyətdən, musiqidən və digər elm sahələrindən yaradıcılıqla istifadə edərək tədqiqatçılığa istiqamətlənmiş olurlar(2, səh. 131-150).

Yaxud X fəsil "Azərbaycan mədəniyyəti"nə həsr edilmişdir(3, 112). Buradakı mövzular "Elm", "Maarif" "Mətbual və ədəbiyyat", "Milli teatr. Musiqi", "Memarlıq və rəssamlıq", "Cənubi Azərbaycan mədəniyyəti". Göründüyü kimi X fəsil başdan başa inteqrativdir. Buradakı mövzuların tədrisi prosesində şagirdləri yaradıcılığa, tədqiqtaçılığa istiqamətləndirmək üçün böyük imkanlar vardır. Burada müəllimin səriştəliliyi, pedşəkarlığı mühüm rol oynayır. Belə mövzuların mənimsənilməsi prosesində şagirdlər esse, şeir və hekayələr yaza bilər, rəsm yarada bilər, hətta ssenari ytaradıb tamaşa da göstərə bilərlər.

XI sinif Azərbaycan tarixi dərsliklərində verilmiş ayrı-ayrı mövzular özünün xarakterik xüsusiyyətləri sosial iqtisadi və digər problem məsələləri əks etdirməsi baxımından inteqartiv hesab edilə bilər. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər.

Məsələn, yuxarı siniflərdə Azərbaycan tarixindən “Ərəb xilafəti dövründə sosial-iqtisadi və siyasi vəziyyət” mövzusunda verilmiş məzmun, konsepsiya və bacarıqlar IX-XI siniflərdə iqtisadi məsələlərlə bağlı mövzuların tədrisi zamanı əlaqələndirilməlidir.

Eksperiment apardığımız Nizami rayonundakı 70 saylı məktəb -liseyin tarix müəllimi Sevda Məmmədova tarix fənnindən keçdiyi bütün mövzuları inteqrativ yolla tədris edir. Mövzular tədris prosesində digər fənlərlə, digər elmlərlə əlaqələndirilir. Bu zaman mövzu şagirdlər tərəfindən maraqla qarşılanır, tədrisin keyfiyyəti yüksəlir və şagirdlərdə tədqiqatçılıq imkanları yaranır.

Müəllimə S.Məmmədova X a sinifində "Azərbaycan tarixi" fənnindən X fəsildə verilmiş "XIX əsr Azərbaycan mədəniyyıəti. Maarif" mövzusunu tədris edərkən inteqrasiyadan, fənlərarası əlaqədən istifadə edir.

Burada müəllim pedaqoji biliklərə istinad edir, təhsil tarxi materiallarından istifadə edərək fənni daha ətraflı şəkildə şagirdlərə başa salır. Burada təhsilin inkişafında M.Şahtaxtlının, H.Mahmudbəyovun, H.B.Zərdabinin, M.T.Sidqinin və başqalarının fəaliyyətindən, onların yeni məktəblər açmasından danışır. Qəza məktəblərinin təşkili tarixindən danışarkən qeyd edilir ki, İlk qəza məktəbi1830-cu ildə Şuşada, onun ardınca 1832 -ci ildəBakıda, 1833-cü ildə Nuxada, 1837-ci ildə Gəncədə, 1838-ci ildə Naxçıvanda və Şamaxıda açıldı.

Tarix müəllimi Təyyar Hüseynov 70 saylı məktəbin XI - a sinfində torpaq mülkiyyəti formaları kimi divan, iqta, mülk, vəqf və icma mülkiyyəti anlayışlarını inteqrativ yolla şagirdlərə belə başa salır(3, 210-215).

Tarix dərslərində şagirdəri tədqiqatçılığa cəlb etmək, onların yaradıcı qabiliyyətini inkişaf etdirmək, tarix təfəkkürünü inkişaf etdirmək , onları tarixlə tərbiyələndirmək deməkdir. Bu həmçinin şagirdlərin tənqidi təfəkkürünün inkişaf etdirilməsi, idraki müstəqilliyinin təmin edilməsi

deməkdir. Bu fəaliyyəti şagirdi passiv müşahidəçidən fəal yaradıcı şəxsə çevirir.

Tarix dərslərinin şagirdlərin tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsində əhəmiyyəti böyükdür. Burada şagirdlərin öz kəndini, yaşadığı ərazinin tarixi yerlərini, abidələrini öyrənməsi tədqiqatçılığın formalaşdırılmasının mühüm şərtləridir.

Odur ki, tarix dərslərində diskussiyalar, debatlar, qruplarla iş, kütləvi informasiya vasitələri və mənbələrlə iş və s. forma, metod və vasitələrdən istifadə pedaqoji-psixoloji tələbat və zərurətə çevrilir ki, bütün bunlar da şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin yüksəlməsinə müsbət təsir göstərir.

Bunları təmin etməklə yanaşı, tarix dərslərini iqtisadiyyatın əsasları, fiziki və iqtisadi coğrafiya, biologiya (daha çox ekologiya məsələləri) ilə əlaqələndirmək, təlimin keyfiyyətinin yüksəldilməsində mühüm vasitə sayılan fənlərarası əlaqə imkanlarını nəzərə almaq lazımdır. Bu baxımdan tarix dərslərində keçilən mövzunu ictimai həyatda baş vermiş və ya cərəyan edən iqtisadi, siyasi, ictimai və mədəni hadisələrlə əlaqələndirmək şagirdlərin tədqiqatçılıq bacarıqlarını formalaşdırmaq baxımından effektli və asan olur.

Ümumi təhsil məktəbində tarix fənninin tədrisinin əsas məqsədi məktəblilərdə fəal həyat mövqeyi, vətənpərvərlik, digər xalqlara, ümumbəşəri dəyərlərə hörmət, mənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, Azərbaycan və bütün dünya xalqlarının ənənələrinə və mədəniyyətlərinə qarşı humanizm hissi, dövlətçilik ənənələrinə hörmət formalaşdırmaq üçün onlarda keçmiş və müasir dövr hadisələrini sərbəst təhlil etmək, faktların ümumiləşdirilməsi, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə, tarixi mənbə, müxtəlif fikir, mövqe və konsepsiyaları sərbəst təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək bacarığı və vərdişləri aşılamaqla kommunikativ, təfəkkür və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir. Bütün bu proseslər şagirdlərdə tədqiqatçılıq bacarıqlarının inkişafına müsbət təsir etmiş olur.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi zəruri hesab edilir:

- tarixə dair bilik mənbələri üzərində müstəqil işin təşkili;
- tarixi hadisə və faktların araşdırılması, qiymətləndirilməsi;
- tarixi prosesi və ictimai həyatın müxtəlif cəhətlərini xarakterizə edən ən mühüm faktların seçilməsi və ümumiləşdirilməsi;
- tarixi faktların onlar haqqındakı mülahizələrdən fərqləndirilməsi və əsaslandırılması;
- tarixi faktların müxtəlif mövqedən qiymətləndirilməsi;
- tarixi fakt və hadisələrin əsasında qərarların qəbul edilməsi və təqdim olunması;
- insan hüquqlarına, demokratik dəyərlərə, xalqların tarix və mədəniyyətinə, milli-mənəvi dəyərlərə, vətənə hörmət hissinin formalaşması;
- bəşəriyyətin mənəvi irsinin qorunması, zənginləşdirilməsi, hörmət və sədaqət tərbiyəsi(4, səh. 15)

Müəllim dərsə yaradıcı yanaşmalıdır, məzmun standartlarına əsasən dərsin məqsədini müəyyənləşdirməlidir. Bu zaman öyrədici, inkişafetdirici, tətbiqedici funksiyalar nəzərə alınmalıdır. Müasir dərs demokratik prinsiplərə söykənməli, bütün hallarda məqsədin düzgün müəyyən olunması və məzmunun, formanın ona uyğun seçilməsi vacibdir.

Tədqiqatçılıq müasir təhsil sistemində işləyən müəllimlərin aparıcı xüsusiyyəti hesab edilir. İnformasiyaların sürətlə artdığı bir zamanda onu ardıcıl olaraq izləmək, ümumiləşdirərək öz işinin gedişatına gətirmək indiki müəllimlər üçün əsas keyfiyyət kimi dəyərləndirilir. Müəllimlərin tədqiqatçılıq qabiliyyətləri, şagirdlərin də tədqiatçılıq qabiliyyətlərinin formalaşmasına müsbət təsir göstərir.

Axtarışlar aparmaq, fəaliyyətini tədqiqatçılıq prinsipləri üzərində qurmaqda hər müəllimin özünəməxsus potensial imkanı, iş təcrübəsi vardır. Onların öyrənilməsi, digər müəllimlər tərəfindən tətbiq olunması, pedaqoji innovasiyaların ümumiləşdirilərək geniş yayılması baxımından əhəmiyyət daşıyır.

İnteraktivlik tədqiqatçılığın əsasını təşkil edir. Tədqiqatçılıq interaktivliklə inkişaf edərək formalaşır.

Müəllim şagird qarşısında problemi ustalıqla qoymağı, onun idrak və tədqiqat fəaliyyətinə rəhbərlik etməyi bacarmalıdır. Müəllim məktəblinin daxili aləmini görməyi, şagirdlərinin qarşılaşdığı vəziyyətin problemliliyini dərindən hiss etməyi, təlim prosesində təşkilatçı, əlaqələndirici və tərəfdaş funksiyalarını yerinə yetirməyi, həll yollarını axtararkən uşaqların buraxdıqları səhvlərə qarşı dözümlü olmağı bacarmalıdır.

Mənbələrlə yaradıcı iş şagird fəallığının polemika, oyunlar, diskussiyalar və tədqiqat formaları zamanı onlardan sərbəst istifadəni nəzərdə tutur.Şagirdlər, həmçinin, məruzə ilə, öz layihəsinin təqdimatı ilə çıxış edərək, sinifdə diskusiya apararaq və ya problemin həllində birgə çalışaraq müəllim rolunda çıxış edə bilirlər.

Dərslərdə yerli tarixi materiallardan-diyarşünaslıqdan istifadə təlimin keyfiyyətini yüksəltməklə yanaşı, eyni zamanda şagirdlərdə öz elini, obasını, yurdunu, bir sözlə, Vətənini sevmək hissi oyadır.

Tarixi ekskursiyalar zamanı əldə edilən tarixi materiallar nəinki müəllimin, eyni zamanda şagirdlərin zəhmətinin məhsuludur. Tarixi abidə olan ərazilərə ekskursiya etməklə, bir çox maddi-mədəniyyət nümunələri əldə edilir. Bütün bunlar şagirdlərin tədqiqatçılığı sayəsində meydana gəlir(5, səh. 32-34)

Beləliklə, proqram materiallarının yerli faktlarla əlaqələndirilməsi şagirdlərin tarix elminə maraqlarını artırmaqla yanaşı, qazanılmış biliklərin uzun müddət yadda qalmasına səbəb olur. Şagirdlərdə milli iftixar, vətənpərvərlik hisləri güclənir, onlar uzaq keçmişimiz və müasir həyatımıza aid daha konkret məlumat əldə edirlər və tədqiqatçılıq bacarıq və qabiliyyətləri yüksəlir.

ƏDƏBİYYAT

1. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri// Kurikulum, 2008, № 1, s.31-37.

2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Kurikulum, 2008, № 1.,s.131-150.
3. Azərbaycan tarixi. 10-cu sinif üçün dərslik. Bakı: Çaşıoğlu, 2009, 238 s.
4. Bəylərov E. İntellektual testlər probleminin tarixi və müasir vəziyyəti//ARTPİ-nin elmi əsərləri, 2007, № 1.
5. Cəbrayılov İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı: Mütərcim, 2011, 220 s.

РЕЗЮМЕ

КЕНУЛ МОЛЛАЙЕВА

ФОРМИРОВАНИЕ У УЧЕНИКОВ ИССЛЕДОВАТЕЛЬСКИХ НАВЫКОВ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

На уроках истории привлечение учеников к исследованию, развитие их творческого таланта, развитие исторического мышления - означает воспитание их историей. Это также означает развитие у учеников критического мышления, обеспечение познавательной независимости. Эта деятельность преобразует ученика из пассивного наблюдателя активного творческого человека. Уроки истории имеют важную роль в развитии исследовательского потенциала у учеников. Здесь изучение своей деревни, исторических мест в своей области и памятников является важным условием в формировании исследования у учеников.

Ключевые слова: история, исследование, интерактивное обучение, преподаватель, урок, учебный процесс, метод, ученик, образование.

SUMMARY

KONUL MOLLAYEVA

FORMATION OF RESEARCH SKILLS OF PUPILS IN THE LESSON OF THE HISTORY OF AZERBAIJAN

In history lessons to attract the pupils to the research work, to develop their creative abilities, to develop their thinking is to bring up them with history. It helps to the development of critical thinking, mental independence. This activity changes pupils from passive into active creative person. The history lessons are of great importance in the development of pupils researchal activities. To learn their regions, their territories, their historical monuments is to form their researchal activity.

Key words: history, research, interactive learning, teacher, lesson, educational process, method, pupil, education.

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

ELNUR NƏZƏRƏLİYEV
AMEA Füzuli adına Əlyazmalar İnstitutu
nezereliyeve@gmail.com

QLOBALLAŞAN İNFORMASİYA MÜHİTİNDƏ DİSTANT TƏHSİL VƏ TƏDRİS PROSESİ

Məqalədə qloballaşan dünyada təhsil sistemindəki yeniliklər və bu yeniliklərin yaratdığı imkanlardan, perspektivlərindən bəhs olunur. Həmçinin distant təhsilin təşkili, yeni texnologiyalardan istifadənin əhəmiyyəti və təhsil sahəsində əldə olunan mühüm nailiyyətlərdən geniş şəkildə söz açılır.

Açar sözlər: distant təhsil, qloballaşma, islahat, kitabxana, tədris

Azərbaycan Respublikasında təhsil islahatları ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə daha məqsədyönlü aparılmışdır. 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq olunduqdan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatların məqsədyönlü və planauyğun aparılmasına başlanılmışdır.

Aparılan islahatların nəticəsi olaraq, 10 il sonra ölkə Prezidenti cənab İlham Əliyevin “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə” Sərəncamı tədrisin təşkilində Boloniya prinsiplərini əks etdirməklə bərabər, distant təhsili də əhatə etmişdir. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planının 2.9-cu maddəsində məsafədən təhsilin təşkili nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təsdiq edilmişdir. Sərəncamda dördüncü strateji istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsasında təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması və digər tədbirlərlə yanaşı, distant təhsilin də əhəmiyyəti qeyd olunmuşdur. Beləliklə, distant təhsilin inkişafına dövlət dəstəyi strategiyada da özəksinitapmışdır Azərbaycan Respublikasının Təhsil Qanunun” da təhsilalma formalarından biri kimi “distant (məsafədən) təhsil – tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması” olaraq qəbul edilmişdir.

Distant təhsil — tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu formasıdır. Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirir (Vikipediya, açıq ensiklopediya)

Distant təhsilin xarakterik xüsusiyyətlərinə həmçinin çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadə və s. məsələlər aiddir.

Distant təhsildə informasiyalar öyrənənlərə çap materialları, elektron materiallar, elektron dərslik, televerilişlər və s. formalarda təqdim edilir. Bu tədris informasiyalarının kitablar, disklər, audio-video kasetlər kimi daşıyıcıları vardır. Distant təhsildə tədris metodik kompleksdən, kompyuter, televizor, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur.

Təhsilin distant forması müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan və yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən potensial şəxslərə real təhsil imkanları yaradır. Bu təhsil forması ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını optimal şəkildə inkişaf etdirir.

Bu gün hər bir şəxs, yaşadığı ölkədən kənara çıxmadan dünyanın istənilən universitetində təhsil ala bilər. Bu şansdan yararlanmaq üçün yeganə şərt internetə qoşulmaqdır. Distant təhsil sistemi tədris prosesinin daha müasir və onlayn formasıdır.

Dünyada ilk dəfə onlayn təhsil 1910-cu ildə İngiltərədə tətbiq edilmişdir. Lakin həmin dövrdə təhsil onlayn deyil,video filmlərlə əks etdirilirdi.Təqribən yarım əsr sonra Birləşmiş Ştatların Karneqiye Fondu 1964-1968-ci illər arasında Çarlz Vedmeyerin təhsilə müxtəlif telekommunikasiya texnologiyaları gətirən və əsas məqsədi təhsil müəssisələrindən kənardakı insanlara təhsil vermək olan "Birgə Təlimat Mediyası" adlı layihəsini maliyyələşdirir.Daha sonra bu layihəni dəstəkləyən britaniyalılar Birləşmiş Krallıqda da bu tip universitetin yaranmasında maraqlı oldular.Onlar 60-cı illərin sonunda Britaniyada radio və televizordan istifadə etməklə özünəməxsus təhsil metodu olan "Birləşmiş Krallığın Açıq Universiteti"nin təməlini qoydular. Bu gün dünyada tələbələrə distant təhsil təklif edən universitetlərin çoxu "Açıq Universitet" adı altında fəaliyyət göstərir. Distant təhsil zamanı keçirilən dərslər adi universitetlərdə tədris olunan dərs proqramından fərqlənmir. Yeganə fərq ondan ibarətdir ki, distant təhsil zamanı tələbə və müəllim arasındakı ünsiyyət "üz-üzə" deyil, virtual olaraq həyata keçirilir. Adətən distant təhsil zamanı aparılan dərslər **aşağıdakı sxem üzrə həyata keçirilir:**

1. müəllim konspekt şəklində dərsin mövzusunu izah edib və tələbənin sərbəst hazırlaşması üçün bütün lazımı ədəbiyyatı tələbəyə tövsiyə edir.
2. tələbə ona keçirilən dərsi sərbəst şəkildə öyrənir və müəllim tərəfindən tərtib edilmiş elektron tapşırığın öhdəsindən gəlməyə çalışır. Əgər tələbə keçirilmiş dərs üzrə hər hansı bir suala cavab tapa bilmirsə o, həmin sualı müəllimə ünvanlaya bilər. Müəllim də öz növbəsində həmin suala ya cavab verəcək, ya da sualı açıqlaya biləcək ədəbiyyatı tövsiyə edəcək.
3. hər bir keçirilmiş mövzunun sonunda interaktiv test keçirilir. Həmin testə görə alınan qiymət, tələbənin keçirilmiş mövzu ilə bağlı mənimsənilmə

dərəcəsini göstərir. Keçirilmiş test imtahanının nəticələrinə əsaslanaraq, tələbənin növbəti mərhələyə keçib və ya keçmədiyi təsbit edilir. Tələbənin harada olmasından asılı olaraq, imtahan kontaktlı şəkildə (üz-üzə) və ya virtual keçirilə bilər. Distant təhsil alan tələbələr bu təhsil sisteminin aşağıda göstərilən üstünlüklərindən faydalanırlar.

4. tələbələr dünyanın istənilən nöqtəsində olmaqla təhsil almaq imkanına sahib olur;

5. distant təhsil alan tələbələr adi universitetlərdə keçirilən leksiya və seminarlarda iştirak etmir, istənilən yerdə və istənilən rejimdə təhsil alır. Bu da öz növbəsində həyat tərzini, rejimini dəyişək istəməyənlər üçün çox önəmlidir;

6. tələbələrdən hər hansı bir təhsil səviyyəsi tələb olunmur;

7. bunlardan əlavə olaraq təhsilin müddəti tələbənin özündən asılıdır;

8. distant təhsil almaq istəyən tələbələrin sayı məhdudlaşdırılmır. Buna baxmayaraq, siz dərslərinizlə aktiv məşğul olub, heç də individual dərslərdən geridə qalmayan yüksək nəticələr əldə edə bilərsiniz;

9. distant təhsil prosesi müəllimlər tərəfindən dəstəklənir və onlar keçirilmiş dərslərin tələbələr tərəfindən mənimsənilməsi, tapşırıqların yerinə yetirilməsi prosesini izləyir, suallara cavab verir, yaranmış problemləri aradan qaldırmağa kömək edirlər.

Azərbaycanda da 70-80-ci illərdə radio və televiziya kanallarının köməyi ilə qiyabi təhsil alan tələbələrə distant təhsil məqsədi ilə istifadə olunmağa çalışmışlar. Lakin rəqəmsal məkandan istifadə edərək ilk dəfə distant təhsil 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində ixtisasartırma və yenidən hazırlama fakültəsində tətbiq olunmuşdur. Bu gün də bu təhsil **forması universitetin beynəlxalq iqtisadi münasibətlər və maliyyə kredit ixtisası üzrə uğurla həyata keçirilir. (**www.tahsil.az/**)**

" Elektron təhsil”, Distant Təhsil (Elektron təhsil)– müəyyən məsafədən keçirilən təlim sistemidir. Belə sistemlərdə təlimlər televiziya kanalları, Multimedia vasitəsi ilə, internet və ya digər texniki vasitələrlə həyata keçirilir. Genişlənməkdə olan bu təhsil sistemi bir çox termin və anlayışları həm elmi, həm də sosial dövriyyəyə daxil etmişdir. Bu məqsədlə bir sıra termin və anlayışları şərh etmək vacibdir.

- ELEKTRON TƏHSİL –XXI əsrin elmi-texniki tərəqqisinin nəticəsi olaraq irəli sürülmüş və rəqəmsal texnologiyalardan, müasir kommunikasiya sistemlərindən istifadə olunaraq tətbiq olunan geniş mənada təhsil sistemidir.

-Distant Təhsil (Elektron təhsil)– müəyyən məsafədən ötürülə bilən təlim sistemidir. Belə sistemlərdə təlimlər televiziya kanalları, radio, Multimedia diskləri, İnternet şəbəkəsinin imkanları vasitəsi, hazır proqram paketləri ilə həyata keçirilir. Distant Təhsil qiyabi təhsil formasının daha da çox üstünlükləri olan və yeni keyfiyyətli formasıdır.

- Qlobal İnternet şəbəkəsinin bütün mövcud imkanlarından istifadə edərək, İnternetdə e-poçt, çat sistemləri, sosial şəbəkələr, saytlar vasitəsi ilə Distant Təlim kursları keçirilir.

- **Distant Təlim kurslarının keçirilməsi üçün həmçinin hazır proqram paketlərindən də istifadə edirlər**. Bu proqramlar xüsusi olaraq müştəri/server hissəsinə bölünür və təlim keçmək istəyən tələbələr müştəri tərəfdə qurulmuş proqram vastəsi ilə müəllimin server proqramı ilə əlaqə saxlaya bilirlər. Müəllim öz hissəsində yerləşdirdiyi tapşırıqları bu proqramların köməkliyi ilə tələbələrə çatddıra bilir.

- **Distant Təhsil istehlakçının sərbəst öyrənməsi prinsipi üzərində qurulub**. Burada təlim sahəsi elə qurulub ki təhsil alan, müəllimdən vaxt və ya məsafə ilə ayrılıb, eyni vaxtda da onlar həmçinin istədiyi vaxt telekommunikasiya vasitələri ilə əlaqə saxlaya bilərlər.

- **Distant Təlim forması,** klassik qiyabi forma ilə müqaisədə bir çox fərqli üstünlüklərinə görə ayrı bir sistemə ayırlır: Distant formada tələbə və müəllim arasında intensiv əlaqə təşkil olunur; Distant təhsil üçün hazırlanmış dərs vəsaitləri təhsilin elmi fəaliyyətin əsasını gücləndirməyə imkan verir;

- **Distant təhsil** formasında tələbələrin birgə işi təşkil olunur: konfranslar, seminar və müzakirələr, birgə proyektlərə qədər.

- **Distant təhsil** forması ixtiyari tələbəyə, yaşadığı yerdən asılı olmayaraq istədiyi tədris müəssisəsində, istədiyi müəllimdən tədris almaq imkanı verir.

- **Müasir informasiya cəmiyyətinin dinamizmi insanlardan bütün ömrü boyu, fasiləsiz təhsil almasını tələb edir.** İqtisadi cəhətdən inkişaf etmiş ölkələr artıq, məktəbəqədər və orta məktəb təhsili, peşə təhsili, ixtisas artırma və yenidən hazırlanma sistemi, əlavə təhsil və s. də daxil olmaqla, fasiləsiz təhsil sisteminin yaradılmasına başlamışlar.

- **E-təlim prosesinə elektron dərsliklər, tədris xidmətləri və texnologiyaları aiddir.** Elektron dərsliklər, yaxud elektron tədris nəşrləri və resursları mürəkkəb texnoloji məhsul olmaqla, müasir texnikanın nailiyyətlərini, fənn sahələri üzrə mövzuları və tədris metodikasını, dizayn və bədii keyfiyyətləri özündə birləşdirir.

. Distant təhsil dedikdə ənənəvi təhsilə inteqrasiya olmuş, bəzi hallarda ənənəvi təhsildən üstün imkanlar irəli sürən tam bir şəbəkə halında olan müəllimlərin rəhbərliyi altında aparılan təhsil forması nəzərdə tutulur.

"2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasi-yalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən "Elektron Təlimləndirən Sistemlər" layihəsinin əsas məqsədi evdə təhsil alan sağlamlıq imkanları məhdud olan uşaqları distant təhsilə cəlb etməklə, cəmiyyətə inteqrasiya olunmasına dəstək vermək, onların təhsil almaq imkanlarını yaxşılaşdırmaq və bununla yanaşı, kompüter, elektron resurslardan istifadə bacarıqlarının artırılması və İnternetə çıxış imkanlarının yaradılmasıdır. Layihə çərçivəsində 30 şagird və 7 müəllim heyəti Apple şirkətinin istehsalı olan "Macbook" noutbukları ilə təchiz olunmuş, şagirdlərin evləri Azərbaycan Təhsil Şəbəkəsinə qoşularaq, yüksək sürətli İnternet bağlantısı ilə təmin edilib. Şagirdlərin dərs prosesinin idarə edilməsi məqsədi ilə 20 saylı məktəb-liseyin seçilmiş sinif otaqları yüksək sürətli fiberoptik İnternet və İntranet bağlantıları ilə təchiz olunub. Eyni zamanda Xüsusi qayğıya ehtiyacı olan uşaqların Distant Təhsilinin icrasını təmin etmək

məqsədilə İKT avadanlıqlarından və texniki vasitələrdən istifadəyə dair metodik vəsait hazırlanıb.

Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin də fəaliyyəti diqqətəlayiqdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 iyun 2014-cü il tarixli № 211-04/S nömrəli “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində mərkəzi idarəetmə serveri qurulmuş və lazımi proqram təminatı ilə təmin edilmişdir. Naxçıvan şəhərində yerləşən 10 muzeyə fiber optik kabel xəttləri çəkilmiş, müvafiq texniki avadanlıqlarla təchiz edilmişdir. Bununla da muxtar respublika ərazisindəki 200-dən artıq tam orta və orta ixtisas məktəbinin muzeylərdən tədris edilən interaktiv tədris texnologiyasından istifadə etməsi üçün texniki imkanlar yaradılmışdır.

Bundan əlavə Sərəncamda qeyd olunan sağlamlıq imkanları məhdud uşaqlar üçün 24 şagird tutumu olan Distant Təhsil Mərkəzi yaradılmışdır.

ƏDƏBİYYAT

1. Arar, Atilla. (1999). “Uzaktan Eğitimin Tarihsel Gelişimi, Uzaktan Eğitim Uygulama Modelleri ve Maliyetleri”, Birinci Uzaktan Eğitim Sempozyumu 15-16 Kasım 1999, 25-28. ss. Ankara : Kara Kuvvetleri Eğitim ve Doktrin Komutanlığı
2. Cooper, Jean L. (2000). “A Model For Library Support of Distance Education in the USA”, Interlending & Document Supply, vol. 28, number 3, 123-131.ss.
3. Caspers, Jean S. (2000). “Outreach to Distance Learners : When the Distance Education Instructor Sends to the Library, Where Do They Go?”, Library Outreach, Partnership, and Distance Education 299-311.ss., New York: The Haworth Information Press.
4. Urdan, Trace A. ve Cornelia C. Weggen. (March 2000). “Corporate e-learning: Exploring a new Frontier”, WR Hambrecht & Co./Equity *Research. 2-17ss.*
5. European Council Presidency Conclusions, Лиссабон, 23-24 марта 2000, параграфы 5, 24 и 25, стр. 2 и 8; European Council Presidency Conclusions, Санта Мария да Фейра, 19-20 июня 2000, параграф 33, стр. 6.
6. http://www.znanie.org/docs/memorandum.html
7. www.tahsil.az/
8. http://www. neicon.ru
9. http://www.wdl.org/ru/
10. parismuseecollections.paris.fr
11. gallica.bnf.fr
12. http://www.e-resurs.edu.az/site/about.php#

SUMMARY

ELNUR NAZARALİYEV

THE PROCESS OF DISTANCE EDUCATION AND LEARNING IN THE INFORMATION ENVIRONMENT IN THE PERIOD OF GLOBALIZATION

As you know, distance learning is distance education and the process of interaction between the student and the teacher. Distance learning, as a rule, reflects all the components of the learning process. And the learning process is characterized by such components as content, purpose, method and means of teaching. This article explores all the peculiarities of distance learning and the role of libraries in this process.

Keywords: distance learning, globalization, reform, library, training

РЕЗЮМЕ

ЕЛНУР НАЗАРАЛИЙЕВ

ПРОЦЕСС ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ И ОБУЧЕНИЯ В ИНФОРМАЦИОННОЙ СРЕДЕ В ПЕРИОД ГЛОБАЛИЗАЦИИ

Как известно, дистанционным обучением является образование на расстоянии и процесс взаимодействия между учеником и учителем. Дистанционное обучение, как правило, отражает в себе все компоненты учебного процесса. А учебному процессу свойственны такие компоненты как содержание, цель, метод и средства обучения. В данной статье исследуются все своеобразные особенности дистанционного обучения и роль библиотек в этом процессе.

Ключевые слова: дистанционное обучение, глобализация, реформа, библиотека, обучение

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

NÜBAR SƏFƏRLİ
“Naxçıvan” Universiteti
Nubar.Seferli@mail.com

MÜXTƏLİF AİLƏ TİPLƏRİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Uşaq ilk bilikləri ailə oçağında öyrənir, bir çox davranış normasına burada yiyələnir və inkişaf etdir. Bu bilik və davranışlar şübhəsiz ki, müsbət də ola bilər, mənfi də. Ailə mühitində qazanılan ilk davranış qaydalarının sonrakı illərdə dəyişməsi imkansız deyildir, amma asan da deyildir. Bu səbəbdəndir ki, xalq arasında “ailə tərbiyəsi” adlandırılan və haqlı olaraq böyük önəm verilən bu məsuliyyətli işin uşağın şəxsiyyətində inkar edilməyəcək izləri və təsirləri vardır. Məqalədə ailə və ailə tipləri araşdırılmış, hansı ailə tipinin insan şəxsiyyətinə, onun formalaşmasına necə təsir göstərdiyi açıqlanmış, ər-arvad, valideyn-övlad münasibətlərinin qurulması məsələsi də nəzərdən keçirilmişdir.

Açar sözlər: ailə, ailə tipləri, tərbiyə, şəxsiyyət, pedaqoji mədəniyyət, münasibətlər sistemi,valideyn.

Hər bir ailədə şəxsi qarşılıqlı münasibətlər özünəməxsus quruluşa malik olur. Ailə başçısının kim olmasından asılı olaraq, ailə münasibətlərinin iki tipinə daha çox təsadüf olunur. Onların əsas xususiyyətləri aşağıdakılardan ibarətdir.

Birinci tip: Ailənin başçısı rolunu ər, bəzi hallarda arvad yerinə yetirir: Ən başlıca cəhət ondan ibarətdir ki, bu hakimiyyət ailə başçısının kor-koranə hökmü əsasında qurulmur, o, ərin yaxud arvadın mənəvi üstünlüyünə əsaslanır. Ailədə kimin nüfuzu böyükdürsə ailə üzvləri də ona könüllü sürətdə tabe olmağa başlayırlar. Başçı roluda ailənin digər üzvlərinə təsir göstərməyi, onları fəaliyyətə təhrik etməyi bacaran kişi və ya qadın çıxış edir.

İkinci tip: Ailənin bütün əsas məsələlərini ər-arvad müştərək həll edir. Onlar bir-birini düzgün başa düşür, ailə başçısı rolunu öz aralarında səmimi sürətdə bölüşür və birlikdə yerinə yetirirlər. Aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, müasir ailələrin 40% - i birinci tipə 60 % -i isə ikinci tipə aiddir. Əgər ər və arvadın hər ikisi ayrılıqda özünü başçı kimi aparırsa, ən başlıcası bir-birlərinin nüfuzlarını qəbul etmirlərsə, ailədə istər-istəməz münaqişə şəraiti yaranır.

Bəzi Qərb tədqiqatçılar ailədə qadın və kişi münasibətlərinə görə, ailənin dörd tipini fərqləndirməyi məqsədəuyğun hesab etmişlər. Birinci ailə tipində qadın və kişi və ya ərlə arvad arasında münasibətlər az qala ananın öz övladına olan münasibətini xatırladır. Burada həssas, güclü və qabiliyyətli qadın öz ərinin qayğısına qalır, çətin anlarda onun köməyinə yetir və ona

mənəvi dayaq olur. Ikinci ailə tipində kişinin üstün mövqeyi aydın nəzərə çarpır. Belə olan halda, güclü, qabiliyyətli və istedadlı kişi passiv və güzəştə getməyi bacaran xanımını himayə edir və bu qadın öz zəifliyinə və köməksizliyinə görə bəzən qayğıya, himayəyə ehtiyac duyan körpə uşağı xatırladır. Ailənin üçüncü tipində qadın evin xanımı və sahibəsi, kişi isə ailənin təminatçısı və xidmətçisi kimi çıxış edir. Lakin, belə ailədə qadının üstün mövqeyi nəzərə çarpsa da, o həyat yoldaşının qayğısına qalmağı da yaddan çıxartmır. Dördüncü ailə tipində isə qadının mütləq üstünlüyü açıq-aşkar nəzərə çarpır. Belə olan halda, qadın cürətsiz, həssas və daha çox tabe olmağa meyillilik göstərən kişinin davranışını çox asanlıqla idarə edir.

Müasir ailəni həm də aşağıdakı kimi tiplərə bölürlər.

1. Ənənəvi ailələr. Bu ailələrdə sadəcə atanın-kişinin sözü keçir, qayda-qanunlar onun tərəfindən qoyulur. Bu tip ailələrdə seçilən qaydalar və sərhədlər içərisində uşağın heç bir azadlığından söhbət gedə bilməz. Uşağın etdiyi səhvlər cəzasız buraxılmır. Ata-analar qoyduqları qanunlarla ailə üzvlərinin bütün hərəkətlərinə qadağa qoyarlar. Bu ailələrin əsas şuarı " söz böyüyün, su kiçiyin"-dir.

2.Qaydaqanunsuz ailələr. Bu tip ailələrdə ailə üzvlərinin hər biri öz ehtiyacını özü ödədiyindən, heç bir ailə birliyindən söhbət gedə bilməz. Valideynlər uşaqların problemlərini həll etmələrinə heç vaxt kömək etmədikləri üçün, onların qabiliyyətlərinin və şəxsiyyətlərinin inkişafı çox sürətlə gedir. Bu ailələrin nə sərhədləri, nə qanunları, nə də bir başçısı var. Beləliklə, ailədə ünsiyyət pozulur və ailə üzvlərinin bir-birindən adətən, xəbəri olmur.

3.Qapalı ailələr. Bu tip ailələrin əsas xususiyyəti sözlü ünsiyyətin olmaması və lap az olmasıdır. Ailə üzvləri arasında ünsiyyət, adətən, gözlərlə, jestlərlə və mimikalarla qurulur. Bu ünsiyyət növündən istifadə edən ailə üzvləri bir-birinin gözünə baxaraq zaman keçdikcə onun nə istədiyini bilmək qabiliyyətinə yiyələnirlər. Ailədə ünsiyyət pozulduğundan səmimiyyət hissidə azalır. Ailədə bir problem yarandığında problemi çıxaran ailə üzvünə heç kim kömək etmir. əksinə onun problemi tək başına həll etməsini gözləyirlər.

4.Açıq ailələr. Qərarlar bütün ailə üzvləri tərəfindən qəbul olunur. Bu cür ailələrdə güclü ünsiyyət qurulduğundan ailə üzvlərinin bir-birinə inamı və güvəni hədsizdir. Ailədə hər kəs öz vəzifəsini bilir və buna görə hərəkət edir. Ailə arasında sərhədlər məlum olsa da, məhdud deyildir. Valideynlər uşaqlarına hər zaman hörmətlə yanaşırlar. Uşaqlar səhv hərəkət etdikdə onlara doğrunun nə olduğunu başa salır və heç vaxt təhqirəramiz sözlərdən istifadə etmirlər.

Bəzi pedaqoqlar isə ailələri aşağıdakı tiplərə ayırırlar.

1.Anlaşma hökm sürən ailələr. Bu tip ailələrdə valideynlər bir-birini başa düşür, qarşılıqlı hörmət, bir-birinə kömək, qarşılıqlı sevgi, nənəyə-babaya, ümumiyyətlə yaşlılara qayğı və hörmət mühim yer tutur. Əgər hər hansı bir ailədə qarşılıqlı anlaşma və hörmət hökm sürərsə bu ailənin hər bir üzvü də xoşbəxt və sakit bir həyat tərzi keçirmiş olar. Belə ailədə böyüyən uşaqlar sakit, təmkinli, çalışqan, əməksevər, gülərüz olurlar. Belə ailələrin

uşaqları nəinki öz ailələrinə, o cümlədən bütün cəmiyyətə yararlı bir vətəndaş kimi yetişirlər. Bu cür ailə başçıları məktəblə sıx əlaqə saxlayır, pedaqoji əməkdaşlığın tələblərini ödəniləməsinə çalışırlar. Belə ailənin sərhədləri, yaşayış qaydaları, rejimi normal qurulur.

2.Bir-biri ilə razılığa gələn ailələr. Belə ailələrdə razılığa gəlmə çox vaxt uşaqların inkişafına mane olur. Ailə münasibəti qismən normal olsa da, müəyyən gərginlik, narahatlıq hiss olunur və psixoloji iqlim pozulur. Ailə üzvləri arasında yaranan həddən artıq təmkinlilik və səbirlilik, əsəbilik və gərginliklə əvəz olunur. Nəticədə ata-ana, nənə-baba arasında soyuqluq yaranır. Uşaqlarsa bu soyuqluğu görsələr də üzə vurmaqdan çəkinirlər. Lakin bununla belə yaranan gərginliyin səbəbini öyrənmək istəyirlər. Zamanla ailədəki gərginliyi aradan qaldıran şəxs uşaqların gözündə bir qəhrəmana, xeyirxah insana çevrilir və yaranan dostluq münasibəti onları sevindirir. Uşaqlar valideynlərinin nəvaziş və nəzakətlə rəftarından sevindikləri üçün simalarında az müddətli olsa da təbəssüm yaranır.

3.Bir-birini başa düşmə halları olan, lakin uzun müddət davam etməyən ailələr. Bu tip ailələrdə yaranan narazılıq asanlıqla həll edilsə də, narahatlıq və qanqaralıq halları uzun müddət davam edir. Bu isə öz növbəsində uşaqların tərbiyəsinə ciddi təsir göstərir. Belə ailələrdə yaşayan uşaqlar şüphəsiz ki, qaraqabaq, içinə qapanıq və kobud olurlar. Hər gün səs-küy eşidən uşağın psixalogiyasında tədricən sağalmaz izlər açılır. Belə tip ailələrdə ata və ana, xususilə ana uşaqların xatirinə mümkün qədər sakitliyi tənzim edir.

4.Münasibətlərdə həddindən artıq narazılıq və kobudluq olan ailələr. Belə ailələrdə narazılıq, təhqir, səs-küy son həddə çatır. Ailə başçısı olan ər sərxoşluq edir, pis işlərlə məşğul olur, arv ad isə ondan şikayət edir. Narazılıq yaranan stresli ailədə yaşayan uşaqlar mənəvi əzab çəkirlər. Ailə tədricən dağılmağa başlayır. Ailə dağılan zaman əzab, istirab uşaqların qismətinə düşür. Boşanma uşaqlar üçün bütün ömür boyu davam edən faciədir. Onlar atalı-analı yetimə çevrilirlər. Təkcə özləri haqqında deyil, ataları və anaları barəsində də təsəvvürləri dəyişir. Onlar atanın ananı, ananın isə atanı necə asanlıqla təhqir etdiyini, bir-birləri haqında istədikləri sözləri necə nifrət və qəzəblə dediklərinin şahidi olurlar. Ailə cox vaxt onlar üçün öz əhəmiyyətini itirir. Uşaqlar xususilə oğlanlar özlərinin ünsiyyət tələbatlarını küçə qruplarında təmin etməyə başlayırlar (1.445).

Dəqiq müəyyən edilmişdir ki, uşaqlar böyüyən evdə ixtilafların kəskinləşməsi xususilə təhlükəlidir. Belə vəziyyət onların mənəviyyatını pozur. İki nəfərin həyat qurması, yaxud ayrılması onların şəxsi problemləri, işləridir. Lakin, uşağın doğulması ilə ictimai mənafe yaranır, bu zaman cəmiyyət ata və anadan mənəvi davranışın bütün norma və qaydalarına əməl etməyi tələb edir. Uşaqlar həssasdırlar: onlar valideynlərin hiss və münasibətlərinin özbaşınalığına qarşı dayanırlar. Onların bir valideynə deyil, hər iki valideynə -ata və anaya ehtiyyacları vardır. əgər ata və ana yaranmış mübahisə zamanı həddi aşmamaq qərarını qəbul edirsə, nəinki uzaq görən olur, həm də uşaqlarına həqiqi məhəbbətlərini biruzə verirlər. Uşağın bir

şəxsiyyət kimi formalaşmasında valideynlər bəzi qaydalardan istifadə etməlidirlər. Pedaqoqlar bu qaydaları beş yerə ayıraraq qruplaşdırmışlar.

1. Uşaqlara hörmət etmək lazımdır.

Sevginin böyükdən kiçiyə, hörmətin kiçikdən böyüyə yönəlçməsi doğru deyildir. Böyük kiçiyə göstərdiyi hörmət, kiçiyin onu sevməsinə, həmçinin hörmət göstərməsinə şərait yaradır. Bəzi valideynlər həddən artıq sevginin uşağa zərərli olacağını düşünürlər. Əksinə, uşağı sevmək, bu sevgini, hörməti bildirməmək onu get-gedə ailədən və valideyndən uzaqlaşdırır. Uşaq olduğu kimi qəbul edilib sevilsə, gələcəkdə valideynin istədiyi kimi bir insan olar.

2. Uşaqlara inanaraq onları dəstəkləmək lazımdır.

Aparılan tədqiqatlar göstərib ki, valideyn tərəfindən dəstək görən uşaqların fizki və zehni inkişafı daha yüksək olduğundan onların gələcək inkişafı və quracağı yaşam tərzi daha parlaq olur. Uşaq hər zaman, ailənin "çox gözəl", "istəyirdim, bir də sına", "sən bunu bacararsan" və s. kimi sözlərlə cəsarətləndirilməlidir.

3.Uşaqları dinləmək lazımdır.

Dinlənildiyini görən uşaq qəbul edildiyini, dolayısıyla sevildiyini düşünər və valideynini daha da çox sevər. Valideyn məşğul olsa belə " sonra danışarıq " deyərək əsla uşağa etiraz etməməlidir. Əgər valideyin uşağını başdan dinləməsə sonradan tapdığı həll yollarını da uşaq dinləməz.

4.Uşaqlara vaxt ayırmaq lazımdır.

Uşağa tez-tez "səni sevirəm" demək azdır, ona bu sevgini yaşatmaq lazımdır. Sevgi isə uşaqla vaxt kecirən zaman, üzə çıxır. Uşaqları yadda qalan, onun üçün dəyərli olan günlərdə məsələn: ad günündə, məkdəbdə keçirilən tədbirlərdə və s. Tək qoymaq olmaz. Bu zaman uşağa verilən ən dəyərli hədiyyə onunla maraqlanmaq və vaxt keçirməkdir.

5. Uşaqlara öz problemlərini həll etməyi öyrətmək lazımdır.

Uşağın yerinə düşünmək, problemlərini həll etmək əvəzinə ona imkan vermək lazımdır ki, öz problemini həll etsin. Bu zaman uşaqda məsuliyyət hissi yaranar. Çətinlikləri həll etmək uşaqda gələcəkdə yaranacaq problemlərin həlli üçün güc yaradar.

Ata-analar uşaqları ilə oyun oynayaraq aralarındakı ünsiyyəti möhkəmləndir-məlidirlər. Böyüklərin vəzifəsi uşaqların birgə fəaliyyətini elə təşkil etməkdir ki, onlar müsbət münasibət mədəniyyətinə yiyələnsinlər. Bu işdə valideynlərin pedaqoji mədəniyyəti mühim rol oynayır.

Uşaqları tərbiyə etmək kimi məsuliyyətli vəzifənin yeinə yetrilməsində ailəyə faydalı məsləhət vermək və yardım göstərmək üçün müəllimlər, sinif rəhbərləri uşaqların böyüyüb inkişaf etdiyi ev şəraiti ilə tanış olmağa, valideynlərin tərbiyə etmək imkanlarına nə qədər hazır olduqlarını aydınlaşdırmağa, işgüzar əlaqə saxlamağa borcludurlar (2.196).

Pedaqoji biliklərə yiyələnmiş valideynlər məktəblə sıx əməkdaşlıq şəraitində işləyə bilərlər. Bunun üçün aşağıdakı şərtləri nəzərə almaq vacibdir:

1. Məktəblə ailə arasında uşağın tərbiyəsinə xidmət edən vahid tələblərin yerinə yetrilməsinə ciddi nəzarət edilməlidir.

2. Müəllimlər, sinif rəhbərləri valideynləri öz ətrafında birləşdirməyi və onların böyük tərbiyə etmək imkanları və təcrübələrindən istifadə etməyi bacarmalıdırlar.

3. Valideynlərin pedaqoji biliklərə yiyələnmələrinə və onların pedaqoji mədəniyyətinin yüksəldilməsinə xususi diqqət yetirməlidirlər (1.448).

Ailə uşağın tərbiyə və təhsilində çox böyük bir yerə sahibdir. Çünki uşağın doğulduğu, böyüdüyü, inkişaf etdiyi və tərbiyə aldığı yer ailədir(2.192). Buna görə də ailə tiplərinin uşaq tərbiysində funksiyası böyükdür. Uşağın özünə inamı, gələcəkdə tutacağı mövqe, onun böyüdüyü ailənin tipindən asılıdır. Hər bir ata-ananın öz valideynindən gördüyü tərbiyə üsulu, cəmiyyətin -ətraf mühitin qəbul etdikləri qaydalar, xarakteri və buna bənzər bəzi xususiyyətlər vasitəsi ilə əldə etdiyi bir tərbiyə metodu vardır. Əksəriyyəti, bu metodlar səhvdə olsa, heç vaxt onları başqalarıyla əvəz etmirlər. Buna görə də ailədən, ailə tiplərindən və tərbiyə üsullarından asılı olaraq şəxsiyyətin xarakteridə inkişaf edir və dəyişik olur. Ailə tiplərinin hansı uşağın inkişafında daha məqsədə uyğundur?

1.Həddən artıq sıxışdırıcı ailə. Şübhəsiz ki, insanlar qanun-qayda çərçivəsində hərəkət etməlidirlər. İnsan istədiyi hər arzusuna çatamaq üçün istədiyi hər hərəkəti həyata keçirə bilməz. İstənilən hərəkətin maniəsiz həyata keçirildiyi cəmiyyətdə anarxiya, özbaşınalıq yaranar. Cəmiyyətin ən kiçik qurumu olan ailə də belədir. Əgər ailədə qaydalar qoyulmasa, sərhədlər müəyyənləşdirilməsə onda ailə dağılar, orda böyüyən uşaqlarsa heç bir təlim-tərbiyyə ala bilməz. Lakin qaydalar seçilərkən, qanunlar qoyularkən, ailə üzvlərinin imkanları nəzərə almaq lazımdır. Həddən artıq sıxıcı ailə tipində ana-atalar uşağın mənbəyini, şəxsi istək və arzularını, hadisəyə münasibətini nəzərə almazlar. Qatı bir rejim yaradan bu valideynlər, hər şeydə haqlı olduqlarını düşünərək, uşaqları istədikləri kimi yönləndirir. Beləliklə uşaqlar qayda-qanuna etiraz etmədən ömürləri boyu valideynlərinin qulu olurlar. Uşaq böyüsədə belə öz yollarını seçməyə, öz-özlərinə qərarlar qəbul etməyə imkanları olmaz. Valideynlər onları əvvəlcədən beynlərində çəkdikləri qəliblərə salıb, istədikləri şəklə salırlar. Uşaqlar daima nəzarət altında saxlanılır, ən kiçik səhv hərəkətin qarşılığı çox ağır ödənilir. Bəs bu ailə tipində formalaşan şəxsiyyət hans xususiyyətlərə malik olur? Uşaq özünə olan inamı itirər. Həddindən artıq kontrol və nəzarət altında olna uşaq səsiz, sakit, yalan danışmayan və mədəni ola bilər, amma bununla bərabər küskün, utancaq və asanlıqla təsir altına düşə bilən biri olur.tez-tez təhqir eşidən, tənqid olunan, və ya fiziki təsirə məruz qalan uşağın psixologiyasında mənfi sürətdə dəyişikliklər yaranar. Əvvələr asanlıqla hər təyziqdən sonra ağlayan uşaq sonralar üsyankar, inadçı, çılğın, dəcəl olur ki, bununda həllini bu tipə aid olan valideynlər təziqi daha da artırmaqda görürlər. Bu isə vəziyyəti daha da çətinləşdirir. Zaman keçdikcə uşaq, kinli olduğu üçün yoldaşlarıyla da tez-tez münaqişə edər və yola getməkdə çətinlik çəkər. Heç vaxt səhv etməyən və ya etməsinə icazə verilməyən uşaq böyüdükdən sonra da həyatın çətinliklərinə qarşı gücsüz olurlar.

2.Uşaqlarla maraqlanmayan ailə. Bu ailə tipində valideynlər uşağın dünyasına heç qarışmırlar, həddindən artıq rahatdırlar. Uşağa heç vaxt cavabbeh olmaq istəmirlər. Məsələn: ailə məktəb birliyinin iclaslarına getməzlər və ya valideynlər bunu başqalarının üzərinə atmağa çalışırlar. Ana-ata uşağa heç vaxt nümunə ola bilməz, çün ki, onların nüfuzu ailə içində heçə bərabərdir. Valideynlər ançaq öz problemlərini düşünürlər və uşaqlar onları maraqlandırmır. Bu ailə tipi çox uşaqlı ailələrdə daha çox özünü göstərir. Bu tip ailədə böyüyən uşaqlar ərköyün, eqoist olduqları üçün yoldaşları və yaşıdları tərəfindən heç vaxt sevilməzlər. Uşaqlar valideynlərinin marağını özlərinə cəlb etmək üçün evdə və məktəbdə dəcəllik edir, səhv hərəkətlərə yol verirlər. Ailəsi uşaq üçün nümunə olmadığından o, özünə pis insanları və davranışları nümunə seçir. Yeniyetməlik və gənclik dövründə ailəsindən heç bir kömək görməyən uşaq vaxtının çoxunu dostlarıyla keçirər. Bu da uşağı gənc yaşlarından zərərli vərdişlərə alışdırır. Onlar siqaret çəkir, alkollu içkilər qəbul edir, pis sözlər danışırlar.

3.Qoruyucu ailə. Bu ailə tipi sıxıcı ailə tipi ilə bir-birinə oxşasada aralarında fərqlər vardır. Bu ailə tipində əsasən sevgi, rəğbət, qoruma rejimindən, qatı qayda-qanundan öndə gəlir. Uşaqlara həddindən artıq qayğı göstərilir. Bunu əsasən analar edir və bunu psixoloqlar analıq duyğusuyla əlaqələndirirlər. Uşağın özü görəcəyi və ya görməli olduğu işlər belə qoruyucu valideyn tərəfindən yerinə yetirilir. Məsələn: 6-7 yaşına qədər yeməyini anası yedirməyə davam edir və ya 14-15 yaşına qədər qızının saçını anası darayır və.s bu ailələrdə böyüyən uşaqlar son dərəcə həssas olur, yaşı artsada belə ətrafındakılardan asılı olurlar. Buna görə də öz ayaqları üzərində durmağı uzun illər çəkə bilər. Uşaq cəmiyyətdə heç bir iş görə bilməz və heç bir mövqeyə sahib olmaz. Uşaq ata-anasından heç vaxt ayrı qala bilmədiyi üçün yaşları artsada onlardan ayrılmazlar. Bu isə həyatın çətinliklərinə dayanmaq gücünün olmamasıyla nəticələnər, ən kiçik bir çətinlikdə hər şeydən əl çəkərək yaşamağa başlayar.

4.Rəğbətləndirici ailə. Ailədə ünsiyyət, əlaqələr və sərhədlər seçilərkən, mükafat və cəzanın yeri çox yaxşı seçilməlidir. Tez-tez cəza tətbiq edilməsi uşaqları lazımı qədər həyəcanlandırmadığı kimi, davamlı mükafatlandırmaqda heç bir nəticə verməz. Hər zaman mükafatlar alan, tərifl ər eşidən uşaq nəyin doğru, nəyin səhv olduğunu öyrənməz və nəticədə normal bir şəxsiyyət kimi inkişaf etməz. Bu ailə tipində həddindən artıq saflıq və səmimilik uşağın bəzi pis hərəkətlərə yol verməsinə səbəb olar. Rəğbətləndirici ailə tipi dedikdə uşaqların çox sərbəst buraxılmaları başa düşülməməlidir. Bu ailə tipi əslində mükəmməl bir ailə tipi olmasada, mükəmmələ ən yaxın ailə tipidir. Uşaqla maraqlanmayan ailə tipinə çox bənzəsə də burada yetişən uşaqlar başıboş buraxılmazlar. Səmimilik və saflıq ailənin təməli olsada bu ailədə də qadağalar və sərhədlər vardır. Bu ailədə hərkəsin öz haqqı var, uşaqlar arzu və istəklərini söyləməyə qorxub çəkinmirlər, azad fikir yürütmək və yürüdülən fikirlər hörmət etməkdən çəkinmirlər. Valideynlər uşaqların səhvinin qarşılığını fiziki cəza tətbiq etməklə verməz, onları başa salaraq bu səhvi təkrarlamaqdan uzaqlaşdırarlar. Səbirli olan valideynin düşə biləcəyi ən

böyük xəta uşağa çox sərbəstlik ola bilər. Ona görə də buna həmişə diqqət edilməlidir. Özünə inanan şəxsiyyətlər yetişən bu ailədə hörmət, izzət qarşılıqlı qurulmuşdur. Bu ailədə yetişən uşaqlarda nifrət, kin, hissləri olmaz,valideynlərinə və ətrafdakılara hörmət son dərəcədə inkişaf etmiş olar.

5.Əhəmmiyətsiz ailə. Bu ailə tipi ən çox gənc valideynlərdə və ilk uşağın

yetişdirilməsində görülür. Valideynlər “uşağını ən yaxşı neçə tərbiyyə edə bilərəm” sualını özlərinə verir və cavab axtararkən tərbiyyə metodları dəyişikliklərə uğrayır. Bu zaman ailənin uşağa qarşı münasibətlərində məntiqsizlik yaranar. Bu əslində ailənin keçid dövrüdür. Uzun müddət ailənin bu xarakterdə qalması nadir haldır. Məntiqsiz davranan ailələrdə bunun səbəbi ər-arvadın uşağın tərbiyyə olunmasına fərrqli münasibətlərinin və baxışlarının olması və bunu uşağa yansıtmalarıdır. Bəzən də valideynlər uşaq tərbiyyə etmə metodlarında dəyişiklik edərkən fikir ayrılığı yaranır. Məsələn: ata sıxışdırıcı olduğu halda ana qoruyucu və şəfqətli halda yanaşar, əgər bu da uşağa yansıyar sa onda məntiqsiz bir ailə tipi yaranar. Ananın ağ dediyinə, ata qara deyirsə uşağın psixologiyası pozular. Bu ailələrdə ailə tiplərinin arasında qərarsızlıq uşağın inkişafına fa pis təsir göstərir. Qərarsızlıq nəticəsində bəzən uşaq inatçı, söz dinləməz, savaşqan ola biləcəyi qədər bəzən də içinəqapanıq və sakit ola bilər. Uşaqlar ana-ataya qarşı sevgisiz olurlar. Həmçinin bu ailənin uşaqlarından diqqətsizlik və uzun müddət bir işlə məşğul ola bilməmək problemi yaranır. Uşaqlar ata və ya anadan birinə çox yaxınlaşdığı zaman, diğərindən uzaqlaşır. Uşaqlarda yalançılıq kimi pis xususiyyətlər yaranır.

Tədqiqatçıların göstərdikləri yuxarıda yazılmış ailə tiplərindən məlum olur ki, ailədə sevgi, hörmət uşağın hislərinə rəğbətbəsləmək, onların səhvlərini və düzlərini onlara sözlərlə, misallarla izah etmək daha məqsədə uyğundur. Bu xususiyyətlər ən çox rəğbətləndirici ailə tipinə aiddir. Ailədə uşağa sərbəstlik verməк, onların ailə işlərinə müdaxiləsinə yol verməк lazımdır. Lakin hər şeydə sərhəddin qorunması lazımdır. Ailə tipləri haqqında məlumatları bilmək, onların uşağın inkişafında və tərbiyyə olunmasında rolunu öyrənmək hər bir valideynin ümdə borcudur.

ƏDƏBİYYAT

1. A. Həsənov, A. Ağayev. Pedaqogika, Bakı: Nasir.-2007.
2. İ. Əliyev. İbtidai təhsilin pedaqogikası(mühazirələr xülasəsi.- 2011.
3. Ə. Ağayev, Y. Talıbov, A. Eminov, İ. İsayev. Pedaqogika, Bakı: Adiloğlu.-2006

РЕЗЮМЕ

НЮБАР САФАРЛИ

ТИПЫ СЕМЬИ И ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ В РАЗНЫЕ ТИПЫ СЕМЬИ

Ребенок изучает первый знания в семье, здесь получают и развивает многие нормы поведения. Эти знания и поведение несомненно может

быть, положительно или отрицательно. В семейном кругу, достигнутых в правил поведения изменение в последующие годы не является невозможным, но это нелегко. По этой причине, что в среди народа называют «семейного воспитания» и данные по праву большое значение это ответственное дело есть бесспорные следы и влияния. В статье рассмотрены семьи и типы семьи, какой типа семьи как влияет на обнародованы личности человека и его формирование. Также был рассмотрен вопрос налаживания отношений между родителями и детьми, в том числе муж и жена.

Ключевые слова: семья, типы семьи, воспитание, личность,п едагогическая культура, система отношений, родитель

SUMMARY

NUBAR SAFARLİ

FAMILY TYPES AND ISSUE OF FORMATION OF PERSONALITY IN DIFFERENT FAMILY TYPES

Child learns the first knowledge in family, get and improve a lot of behevior's rules here. No doubt these beheviors and knowledge can also be positive and negative. The changing of first behevior which was won in the family enviroment in later years is not impossible, but it is not easy, too. It is for this reason, it is called "family education" by people There are traces and effects will not be denied on a child. In this article family and family types were investigated and showed which family types how influence personality. Even the setting issues of husband- wife, parents - descendant relations were reviewed.

Key words: family, types of family,education, personality, pedogogical culture, releation system, parents

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

AYGÜN RÜSTƏMOVA
“Naxçıvan” Universitetinin
aygun-rustemova@inbox.ru

KİÇİK MƏKTƏBYAŞLI ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ ADAPTASİYASININ MAHİYYƏTİ

Məqalədə təlimə adaptasiyanın psixoloji mahiyyəti öz əksini tapmışdı.r Qeyd edək ki, “Adaptasiya” daim dəyişən şəraitdə, mühitdə sistemin mövcudluğuna imkan verən mübarizə mexanizmidir. Adaptasiya və ya uyğunlaşma qıcıqlandırıcıların həssaslığının dəyişməsindən ibarətdir. Təlimə adaptasiya öyrənmə zamanı xoşagəlməz nəticələri düzəltmək üçün bütün parametrlərdə kəskin dəyişikliklərə səbəb olan mürəkkəb prosesdir. Adaptasiya kiçik məktəblinin psixikasının məktəb təliminin şərtlərinə fəal uyğunlaşmasını təmin edən mürəkkəb prosesdir. Bu proses, adətən, uşağın şəraitə uyğunlaşmasından, onun həayatındakı razılıq və narazılıq səviyyəsindən asılıdır. Uyğunlaşma hadisəsini qıcığın reseptora uzunmüddətli təsiri zamanı onun fəaliyyətində baş verən dəyişmələrlə izah etmək olar.

Açar sözlər: təlim, adaptasiya, uşaq, fəaliyyət, mahiyyət,kiçik məktəbyaşlı şagird

Təlim insanın əsas fəaliyyət növlərindən biri olmaqla onun iştirakçılarının təsəvvüründə dəyişiklik yaradan mürəkkəb prosesdir. Yaranmış bu yeni təsəvvür subyektin ətraf aləmə münasibətinə bilavasitə öz təsirini göstərir. Məktəb yaşı dövründə isə həmin fəaliyyət məktəblilərin aparıcı fəaliyyətinə çevrilir. Onun köməyi ilə şagirdlər müəyyən məlumatları, hərəkətləri və davranış normalarını mənimsəyirlər. Oyundan fərqli olaraq burada subyekt öyrənmə məqsədi güdür, ona məlum olmayan məlumatları əldə etməyə, bu və ya digər hərəkətlərə, davranış tərzinə yiyələnməyə çalışır. Bu iş kor-korana deyil, şüurlu, planlı şəkildə həyata keçirilir. Təlim prosesində uşaq ətraf aləm haqqında yeni, sadə biliklərə yiyələnir, vərdiş və bacarıqlar əldə edir [8,529].

Təlim şagirdlərin biliklər sistemini mənimsəmələrinə və həmin bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan vərdiş və bacarıqlara yiyələnmələrinə yönəlmiş məqsədyönlü idrak fəaliyyətidir [8, 530].

Təlim psixologiyası pedaqoji psixologiyanın ən mühüm sahələrindən birini təşkil edir. Hazırki dövrdə uşaqların öyrənmə fəaliyyətinə adaptasiyasının qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində təlim psixologiyası sahəsində aparılan axtarışların nəticələri həlledici rol oynayır. Böyüməkdə olan nəslə elmlərin əsasları haqqında dərin və möhkəm biliklər vermək, onlarda həmin biliklərdən istifadə edə bilmək, onları təcrübəyə tətbiq etmək bacarığının yaradılması müasir dövrün ən ciddi

tələbləri kimi qarşıda durur. Bunun üçün hər şeydən əvvəl uşaqları təlim fəaliyyətinə adaptasiya etdirmək lazımdır. Başqa sözlə, təlim problemi və uğurlu adaptasiya bəşəriyyətin daima diqqət mərkəzində olan bir problemdir. Bu problem hazırda öz əhəmiyyətini itirməmiş, əksinə özünün yeni cəhətləri ilə daha qabarıq şəkildə diqqəti cəlb edir.

Uşaqların biliyə yiyələnməsi vacib şərtlərdəndir. Bunun üçün ilk öncə onların təlimə, öyrənmə fəaliyyətinə adaptasiyası mütləqdir. Uşaqlar üçün təlimin əsası hələ məktəbəqədər dövrdən qoyulmağa başlanır ki, məktəbəqər təlim təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki, psixi inkişafını təmin edir.

Kiçik məktəbyaşlı təlim fəaliyyətinə adaptasiyasının mahiyyəti araşdırılarkən ilk öncə "adaptasiya" anlayışını təhlil etmək lazımdır. Ensiklopedik lüğətdə "adaptasiya" anlayışı dəyişən şəraitə uyğunlaşmanın təşkili kimi verilir və daha çox tibbi-bioloji aspekt kimi xarakterizə olunur (Ensiklopedik lüğət 1995).Adaptasiya prosesinin muasir tədqiqini aparan psixoloqlar qeyd edirdilər ki, adaptasiya bizə özündə informasiya daşıyan dəyişikliklərə diqqətimizi cəmləmək imkanı verir ki, bununla da əhəmiyyətsiz dəyişikliklərə diqqət verməməyi şərtləndirir. Məsələn, küçədə səs- küy. Adaptasiya fərdi fəaliyyətin qeyri-adi şərtlərinə uyğunlaşması üçün psixofizioloji, psixomotor reaksiyalardan ibarət mürəkkəb prosesdir [1,299].

Psixoloq Gültac Əliyeva adaptasiyanı hiss üzvlərinin öz funksiyasını dəyişərək yeni, dəyişən şəraitə uyğunlaşmaq qabliyyəti kimi xarakterizə edir.

Z.Freyd öz tədqiqatlarında "adaptasiya" və "inkişaf" kimi klassik anlayışların qarşılıqlı əlaqədə olduğunu qeyd etmişdir. Freydə görə uşağın adaptasiyası onun şəxsiyyətinin inkişafına təsir göstərir. Freyd adaptasiya anlayışına müdafiə mexanizmi kimi yanaşır və adaptasiyanın əlverişsiz şəraitdə uşaq şəxsiyyətinin inkişafında müdafiəedici mexanizmlərin aktivləşməsi kimi səciyyələndirirdi.

Təlimə adaptasiya- obyektiv vəziyyətlə əlaqədar olaraq kiçik məktəbyaşlı şagirdlərin fəaliyyətində baş verən dəyişikliklərlə xüsusi psixi fəaliyyətin arasında zəruri və müvafiq vasitələrin yaranması prosesidir. Kiçik məktəb yaşı, yəni 6-10 yaş uşaqların sistemli təlim fəaliyyətinə başlaması, kollektiv daxilində sinif yoldaşları ilə münasibət qurub ümumi qayda-qanuna tabe olması üçün ən əlverişli yaş dövrüdür. Uşağın məktəb təliminə başlaması onun həyatının "sosioloji situasiyası" nda (L.S.Vıqotski) ciddi dəyişikliklər yaradır. O, status-yeni məktəbli adı qazanır. Təlim vasitəsilə uşaq, sistematik olaraq elmi məlumatlara-bilik, bacarıq və vərdişlərə yiyələnir. Psixoloqlar təlimə adaptasiyanı məktəb mühitinin tələbləri ilə uşağın gündəlik fəaliyyəti arasında dinamik dəyişikliklərin onların faktiki ehtiyaclarına uyğunlaşdırılması xüsusiyyəti olaraq səciyyələndirirlər. Psixoloji ədəbiyyatda kiçik məktəbyaşlı şagirdlərin təlimə adaptasiyası dəyişikliyə məruz qalmış uşağın maksimum dərəcədə yeni vəziyyətə uyğunlaşdırılması kimi xarakterizə edilir. Başqa sözlə təlimə adaptasiya kiçik məktəblilərin konkret fəaliyyətdə xüsusi nizam-intizamın yaradılması prosesidir[5,383].

Adaptasiyanın əsas məqsədi təlim materialının uşağın maraqları ilə üst-üstə düşməsidir. Təlim maraqları bir qayda olaraq seçici səviyyədə olur. Yalnız kiçik məktəbyaşlı şagirdlərin təlim maraqları ümumi səciyyə daşıyır. Təlim fəaliyyyəti məktəbdənkənar maraqlarla uzlaşdırıldıqda daha da səmərəli olur[8, 142]. Təlim şagirdlərin idrak fəaliyyətinin məqsədə uyğun olaraq yönəldilməsi nəticəsində bacarıq və vərdişlər qazanaraq biliklərə yiyələnməsi prosesidir[7,141]. Təlimə adaptasiya tənzimlənən sistemin funksional səviyyədə özünü qoruması və məqsədə nail olmaq üçün lazımı strategiyaların seçilməsinə yönəldilən mürəkkəb prosesdir.

Təlimə adaptasiya adətən duyğuların təsir xüsusiyyətlərinin optimal uyğunluğu sayəsində mümkün olan prosesdir [1,300]. Pedaqoji psixologiyada təlimə adaptasiya ilə yanaşı dezadaptasiya anlayışından da istifadə edirlər. Adətən dezadaptasiya uşağın təlimə adaptasiyasında problemlər yaşayarkən meydana gəlir. Təlimə adaptasiya uşağın idrak prosesinə, motivasiya, emosional, iradi sahədə keçidin sistemli təşkilindən ibarət mürəkkəb prosesdir [5,382]. Psixoloqlar təlimə adaptasiyaya müxtəlif aspektlərdən, məsələn, öyrənmə zamanı psixoloji xüsusiyyətlərin formalaşmasında yaranan maneələrin aradan qaldırılması və nəticə olaraq kollektivdə sağlam fikrin formalaşması nöqteyi nəzərindən yanaşırlar. Təlimə adaptasiyaya baş verən dəyişiklik nəticəsində xarici şəraitin xüsusiyyət və normalarının kiçik məktəbyaşlı şagirdlərin psixi fəaliyyətinə intensiv reaksiyası kimi baxılır. Bu proses daxili və xarici amillərin təsiri altında müsbət və mənfi emosiyalarda tarazlığın yaradılması məqsədi ilə tələblərin ödənilməsi üçün psixoloji uyğunluğun təmin edilməsidir. Müvəffəqiyyətli təlimə adaptasiya müsbət emosional vəziyyətin yaradılması ilə müşayiət olunur.

Təlimə adaptasiya uşağın dəyişən mühitə verdiyi reaksiyadan asılıdır. Nəzərə almaq lazımdır ki, şagird fəal, yaradıcı varlıqdır. O, tərbiyəvi təsirin və ətraf mühitin təsirinin passiv daşıyıcısı deyil. Ətraf mühit, xarici təsirlər şagird şəxsiyyətinə birbaşa deyil, dolayısı ilə təsir edir.

Adaptasiya kiçik məktəbyaşlı şagirdlərin təlim fəaliyyətində səmərəliliyin artırılmasına şərait yaradan mürəkkəb proses olmaqla, öyrənmə zamanı baş verən dəyişikliklərə uşağın psixi sisteminin adekvat reaksiyası kimi səciyyələndirilir. Yəni təlim fəaliyyətinə adaptasiya xarici aləmin unikal psixoloji xüsusiyyətlərinin daxili mühitə səmərəli təsiri zamanı dəyişiklikləri obrazlı duyma və alışma prosesidir. Ümumi halda adaptasiya təlim fəaliyyətinin xassə və xüsusiyyətlərinin bir - birinə uyğunluğunu təmin edən mürəkkəb proses olmaqla uşağın dəyişən şəraitə uyğunlaşma qabiliyyəti, eyni zamanda müxtəlif və bəzən kəskin çətinlikləri aradan qaldırmaq üçün lazım olan müəyyən rejimin inkişafı prosesidir. Bəzi psixoloqlar qeyd edirlər ki, stressin meydana gəlməsi ilə kiçik məktəbyaşlı şagirdlərdə adaptasiya sindromu yaranır ki, bu da öz növbəsində psixofizioloji cəhətdən uyğunlaşma zamanı problemlərin meydana gəlməsinə səbəb olur. Təlimə adaptasiya baş verən dəyişikliklərin aktiv mənimsənilməsi üçün zəruri şəraitin yaradılması, eyni zamanda dəyişən şəraitdə müxtəlif fəaliyyətlərin inkişafının təmin

edilməsidir. kiçik məktəbyaşlı şagirdin fəaliyyətinin istənilən istiqamətdə dəyişdirilməsi və inkişafı prosesidir**.**

Adaptasiya kiçik məktəbyaşlı şagirdin öyrənmə fəaliyyəti ilə idrak bacarıqları arasında qarşılıqlı əlaqəni əks etdirir, yəni öyrənmə zamanı uşağın bilik mübadiləsi ilə əlaqədar bacarıqlara yiyələnməsini təmin edir. Kiçik məktəbyaşlı şagirdlərin təlimə adaptasiyası onun öyrəndiyi mühitin şərtlərinin dəyişməsi nəticəsində müvafiq meyarların yeniləşən sistem struktura uyğunlaşması prosesidir. Psixoloq İ.A.Malaşixina adaptasiyanı yeni şərtlərlə təyin olunmuş fəaliyyətə tabe olmaq kimi izah edirdi.

Əslində təlim fəaliyyətinə uyğunlaşma köhnə fəaliyyəti nəzərə alaraq yeni davranış normalarının və öyrənmə bacarığının mənimsənilməsidir. Təlimə adaptasiya kiçik məktəbyaşlı şagirdlərin öyrənmə fəaliyyətində qoyulan tələblərə əməl etməklə psixoloji inkişafın təmin edilməsidir. Bəzi psixoloqlar kiçik məktəbyaşlı şagirdlərin öyrənmə fəaliyyəti zamanı davranışlarının psixi tənzimlənməsini təlimə uğurlu adaptasiyanın xüsusiyyəti kimi səciyyələndirirlər[2,122].

Adaptasiya məktəb təliminin bütün komponentləri arasında uyğunluğun yaradılması üçün universal xarakter daşıyan mexanizm kimi mövcud dəyişiklikdən yaranan şərtləri daxilən qəbul edərək səmərəliliyin artırılması və kiçik məktəblinin öyrənmə zamanı obyektiv amillərin təsiri altında daxili narahatlıq hiss etmədən və konfliktli vəziyyətə düşmədən təlimin müxtəlif tələblərinə uyğunlaşmaq üçün fərdi qabiliyyətin inkişafını təmin edən mürəkkəb prosesdir.

ƏDƏBİYYAT

1. Андреева Д.А. О понятии адаптация. //Человек и общество: ЛГУ, 1973.-300 с.
2. Александровская Э. М. Социально-психологические критерии адаптации детей к школе // Школа и психическое здоровье. -М.: Медицина, 1997.-123 с.
3. Антропова. М.В /.Хрипкова А.Г - Адаптация организма учащихся к учебной и физиологической нагрузкам [Текст]: Монография для исследователей- физиологов, М.: Педагогика, 1982.- 240с.
4. Bayramov Ə.S, Əlizadə Ə. Ə. Psixologiya//Bakı.2006-622 s
5. Битянова М. Р. Адаптация ребенка к школе: диагностика, коррекция, педагогическая поддержка М., 1967. - 384 с
6. Бородкина Г.В. Еще раз о готовности к школе.// Начальная школа: плюс До и после. № 10.- 2002.-15с
7. Əliyeva.G Psixologiya, Bakı.2013-172 s
8. Seyidov. S.İ Həmzəyev M.Ə. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik// Bakı.2007-649 s

РЕЗЮМЕ

АЙГУН РУСТАМОВА

СУТЬ АДАПТАЦИИ УЧАСТНИКОВ МЛАДШИЙ ШКОЛЬНОЙ ВОЗРАСТИ К ОБУЧЕНИЮ

В статье нашло свое отражение психологическая суть адаптации обучению. Отметим, что адаптация –механизм борьбы, позволяющий существованию системы в постаянно меняющичся условиях. Адаптация или соответствие состоит из изменений чувствительности раздражителей.Адаптация обучению – сложный процесс, вызывающий во всех параметрах резкие изменения для исправления нежелаемых результатов. Адаптация- сложный процесс, обеспечивающий активной соответствие психики младшего щкольника неуклонным условиям школьного обучения. Этот процесс обычно зависит от соответствии ребенка условию, от уровня согласий и недовольствий его жизни. Событие соответствия можно обьяснить изменениями, присходящими в его действии во время длительного воздействия раздражателя рецептору.

Ключевые слова: обучение,адаптация, ребенок, деятельность, суть, младший школьник

SUMMARY

AYGUN RUSTAMOVA

THE ESSENCE OF THE EDUCATIONAL ADAPTATION IN YOUNG SCHOOLCHILDREN TO THE LEARNING ACTIVITIES

The psychological, substance of the adaptation is training reflected in the article. Noted that the “Adaptation” is a system in ever changing conditions, allowing the existence of a control mechanism. During the training learning to adapt, all parameters to correct the unpleasant consequences that lead to sharp changes in the couplicated process. Adaptation is a complex process that in terms of the training of a younger pupils to constantly adapt psyche. This process is usually depend the child`s integrations consent and depends on the long –term effect of the event compliance reseptor by changes in its activities. Adapted in the training is occurs to the child as a result of the processes taking place in the department of the control analyzer. During this process analyzer viritant to adapt learning activities the small pupils preconditions of success in training activities is an important conditions.

Key words: training, adaptation, child, activities, essence, little schoolchildren

(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

RİYAZİYYAT

ƏBÜLFƏZ MƏMMƏDOV
“Naxçıvan” Universiteti
e.memmedov@mail.ru

$4n$ *TƏRTİBLİ KƏSİLƏN ƏMSALLI BİR SADƏ OPERATOR-DİFERENSİAL TƏNLİYİN BÜTÜN OXDA REQULYAR HƏLL OLUNMASI HAQDA*

İşdə $R=(-\infty,\infty)$ ədəd oxunda $4n$ tərtibli kəsilən əmsallı bir sadə operator-diferensial tənlik üçün requlyar həll, requlyar həll olunanlıq anlayışları verilmiş və bu tənliyin requlyar həll olunanlığı haqda teorem isbat edilmişdir..

Açar sözlər: normal operator, hilbert fəzası, operator-diferensial tənlik, requlyar, həll, requlyar həll olunanlıq, kəsilən əmsal

Separabel H hilbert fəzasında

$$\frac{d^{4n}u}{dt^{4n}}-\rho(t)A^{4n}u=f(t),t\in R=(-\infty,\infty) \qquad (1)$$

sadə operator diferensial tənliyinə baxaq, harada ki, $f(t),u(t)$ R-də sanki hər yerdə təyin olunmuş və qiymətləri H hilbert fəzasından olan vektor-funksiyalardır, törəmələr ümumiləşmiş funksiyalar mənada başa düşülür[1], A operatoru və $\rho(t)$ skalyar əmsalı aşağıdakı şərtləri ödəyirlər:

1) A tamam kəsilməz A^{-1} tərsinə malik normal operatordur və spektri $S_\varepsilon=\left\{\lambda:|\arg\lambda|\le\varepsilon,0\le\varepsilon<\pi/8n\right\}$ bucaq sektorunda yerləşir;

$$\rho(t)=\begin{cases}\alpha^{4n},t\in(-\infty,0),\alpha>0\\ \beta^{4n},t\in(0,\infty),\beta>0\end{cases},\ \alpha\neq\beta.$$

Məlumdur ki, 1) şərti ödəndikdə A operatorunu $A=UC$ şəklində göstərmək olar, harada ki, C H hilbert fəzasında özü-özünə qoşma müsbət operator, U isə unitar operatordur. H_γ ilə A operatorunun doğurduğu hilbert fəzalarının şkalasını işarə edək, yəni $H_\gamma=D(A^\gamma),(x,y)_\gamma=(A^\gamma x,A^\gamma y),\gamma\ge0.$ Hesab edəcəyik ki, $H_0=H,(x,y)_0=(x,y)_H.$

$L_2(R;H)$ ilə R-də cəmlənən, kvadratı ilə inteqrallanan və elementinin norması $\|f\|_{L_2(R;H)} = \left(\int_{-\infty}^{\infty} \|f(t)\|_H^2 \right)^{1/2} < \infty$ olan $f(t)$ funksiyaları çoxluğunu işarə edək. Onda, məlum olduğu kimi ([1]) bu çoxluq ixtiyari $f, g \in L_2(R;H)$ üçün $(f,g)_{L_2(R;H)} = \int_{-\infty}^{\infty} (f(t), g(t))_H \, dt$ düsturu ilə təyin edilən skalyar hasil anlayışına görə hilbert fəzası olar.

$W_2^{4n}(R;H)$ ilə isə elə $u(t)$ funksiyaları çoxluğunu işarə edək ki, $\frac{d^{4n}u}{dt^{4n}}, A^{4n}u \in L_2(R;H)$ olsun. Onda $W_2^{4n}(R;H)$ çoxluğu ixtiyari $u, v \in W_2^{4n}(R;H)$ elementlərinin

$$(u,v)_{W_2^{4n}(R;H)} = \left(u^{4n}, v^{4n}\right)_{L_2(R;H)} + \left(A^{4n}u, A^{4n}v\right)_{L_2(R;H)}$$

düsturu ilə təyin olunan skalyar hasili anlayışına görə hilbert fəzası olar və $u \in W_2^{4n}(R;H)$ elementinin norması

$$\|u\|_{W_2^{4n}(R;H)} = \left(\left\| \frac{d^{4n}u}{dt^{4n}} \right\|_{L_2(R;H)}^2 + \left\| A^{4n}u \right\|_{L_2(R;H)}^2 \right)^{1/2}$$

düsturu ilə təyin olunar.

Tərif-1. *Əgər $u(t) \in W_2^{4n}(R;H)$ vektor- funksiyası (1) tənliyini R-də sanki hər yerdə ödəyirsə, onda ona (1) tənliyinin requlyar həlli deyilir.*

Tərif-2. *Əgər istənilən $f(t) \in L_2(R;H)$ üçün (1) tənliyinin $u(t)$ requlyar həlli varsa və bu həll $\|u\|_{W_2^{4n}(R;H)} \le const \|f\|_{L_2(R;H)}$ bərabərsizliyini ödəyirsə, onda (1) requlyar həll olunan operator-diferensial tənlik adlanır.*

Teorem. *1),2) şərtləri ödəndikdə (1) operator-diferensial tənliyi requlyar həll olunandır.*

İsbatı. Asanlıqla yoxlaya bilərik ki,

$$u_1(t) = \frac{1}{2\pi} \int_{-\infty}^{\infty} \left(\xi^{4n}E - \alpha^{4n}A^{4n}\right)^{-1} \left(\int_{-\infty}^{\infty} f(s) e^{i(t-s)\xi} ds \right) d\xi \ ,$$

$$u_2(t) = \frac{1}{2\pi} \int_{-\infty}^{\infty} \left(\xi^{4n}E - \beta^{4n}A^{4n}\right)^{-1} \left(\int_{-\infty}^{\infty} f(s) e^{i(t-s)\xi} ds \right) d\xi$$

funksiyaları R-də sanki hər yerdə uyğun olaraq $\frac{d^{4n}u}{dt^{4n}} - \alpha^{4n}A^{4n}u = f(t)$ və $\frac{d^{4n}u}{dt^{4n}} - \alpha^{4n}A^{4n}u = f(t)$

tənliklərinin həllərididirlər. Göstərək ki, $u_1(t), u_2(t) \in W_2^{4n}(R;H)$. Bu funksiyaların qurulmasından aşkar görünür ki, $u_1(t)$ vektor funksiyasının Furye şevirməsi $\hat{u}_1(\xi) = \left(\xi^{4n}E - \alpha^{4n}A^{4n}\right)^{-1}\hat{f}(\xi)$ və $u_2(t)$ vektor funksiyasının Furye şevirməsi isə $\hat{u}_2(\xi) = \left(\xi^{4n}E - \beta^{4n}A^{4n}\right)^{-1}\hat{f}(\xi)$ funksiyasıdır, burada $\hat{f}(\xi)$ funksiyası $f(t)$ funksiyasının Furye çevirməsidir. $u_1(t) \in W_2^{4n}(R;H)$ olduğunu göstərək.

Planşerel teoreminə görə

$$\|u_1\|^2_{W_2^{4n}(R;H)} = \left\|\frac{d^{4n}u}{dt^{4n}}\right\|^2_{L_2(R;H)} + \left\|A^{4n}u\right\|^2_{L_2(R;H)} = \left\|\xi^{4n}\hat{u}_1(\xi)\right\|^2_{L_2(R;H)} + \left\|A^{4n}\hat{u}_1(\xi)\right\|^2_{L_2(R;H)} \tag{2}$$

(2)-dən aşkardır ki, $u_1(t) \in W_2^{4n}(R;H)$ olduğunu göstərmək üçün $\xi^{4n}\hat{u}_1(\xi) \in L_2(R;H)$ və $A^{4n}\hat{u}_1(\xi) \in L_2(R;H)$ olduğunu güstərmək kifayətdir. Əvvəl göstərək ki, $A^{4n}\hat{u}_1(\xi) \in L_2(R;H)$.

Aşkardır ki,

$$\left\|A^{4n}\hat{u}_1(\xi)\right\|^2_{L_2(R;H)} = \left\|A^{4n}(\xi^{4n}E - \alpha^{4n}A^{4n})^{-1}\hat{f}(\xi)\right\|^2_{L_2(R;H)} = \int_{-\infty}^{\infty}\left\|A^{4n}(\xi^{4n}E - \alpha^{4n}A^{4n})^{-1}\hat{f}(\xi)\right\|^2_h d\xi \le$$
$$\le \sup_{\xi\in R}\left\|A^{4n}(\xi^{4n}E - \alpha^{4n}A^{4n})^{-1}\right\|^2 \left\|\hat{f}(\xi)\right\|^2_{L_2(R;H)} = \sup_{\xi\in R}\left\|A^{4n}(\xi^{4n}E - \alpha^{4n}A^{4n})^{-1}\right\|^2 \|f(t)\|^2_{L_2(R;H)} \tag{3}$$

olar. Digər tərəfdən A operatorunun spektral ayrılışından alınır ki, hər bir $\xi \in R$ üşün aşağıdakı qiymətləndirmə doğrudur:

$$\left\|A^{4n}(\xi^{4n} - \alpha^{4n}A^{4n})^{-1}\right\| = \sup_{\lambda\in\sigma(A)}\left|\lambda^{4n}(\xi^{4n} - \alpha^{4n}\lambda^{4n})^{-1}\right| = \sup_{\lambda\in\sigma(A)}\left|\lambda^{4n}(\xi^{4n} - \alpha^{4n}|\lambda|^{4n}e^{4n\varphi})^{-1}\right| \le$$

$$\le \sup_{\substack{\mu>0\\ |\varphi|\le\varepsilon}}\left|\mu^{4n}(\xi^{4n} - \alpha^{4n}\mu^{4n}e^{4ni\varphi})^{-1}\right| = \sup_{\substack{\mu>0\\ |\varphi|\le\varepsilon}}\mu^{4n}\left|\xi^{4n} - \alpha^{4n}\mu^{4n}(\cos 4n\varphi + i\sin 4n\varphi)\right|^{-1} =$$

$$= \sup_{\substack{\mu>0\\ |\varphi|\le\varepsilon}}\mu^{4n}\left(\left(\xi^{4n} - \alpha^{4n}\mu^{4n}\cos 4n\varphi\right)^2 + \alpha^{8n}\mu^{8n}\sin^2 4n\varphi\right)^{-\frac{1}{2}} =$$

$$= \sup_{\substack{\mu>0\\ |\varphi|\le\varepsilon}}\mu^{4n}\left(\xi^{8n} - 2\xi^{4n}\alpha^{4n}\mu^{4n}\cos 4n\varphi + \alpha^{8n}\mu^{8n}\right)^{-\frac{1}{2}} \le \sup_{\mu>0}\mu^{4n}\left(\xi^{8n} + \alpha^{8n}\mu^{8n}\right)^{-\frac{1}{2}}\cos^{-\frac{1}{2}} 4n\varepsilon \le$$

$$\le \frac{1}{\alpha^{4n}\sqrt{\cos 4n\varepsilon}}$$

Beləliklə, istənilən $\xi \in R$ üçün

$$\left\|A^{4n}\left(\xi^{4n} - \alpha^{4n}A^{4n}\right)^{-1}\right\| \le \frac{1}{\alpha^{4n}\sqrt{\cos 4n\varepsilon}}$$

olduğunu (3)-də nəzərə alsaq

$$\left\|A^{4n}\hat{u}_1(\xi)\right\|_{L_2(R;H)} \le \frac{1}{\alpha^{4n}\sqrt{\cos 4n\varepsilon}}\|f\|_{L_2(R;H)} \tag{4}$$

alarıq ki, burdan da $A^{4n}\hat{u}_1(\xi)\in L_2(R;H)$ alarıq.

İndi isbat edək ki, $\xi^{4n}\hat{u}_1(\xi)\in L_2(R;H)$.

$$\left\|\xi^{4n}\hat{u}_1(\xi)\right\|_{L_2(R;H)}=\left\|\xi^{4n}\left(\xi^{4n}E-\alpha^{4n}A^{4n}\right)^{-1}\hat{f}(\xi)\right\|_{L_2(R;H)}\le$$
$$\le\left\|\xi^{4n}\left(\xi^{4n}E-\alpha^{4n}A^{4n}\right)^{-1}\right\|.\left\|\hat{f}(\xi)\right\|_{L_2(R;H)}==\left\|\xi^{4n}\left(\xi^{4n}E-\alpha^{4n}A^{4n}\right)^{-1}\right\|.\left\|f(t)\right\|_{L_2(R;H)} \quad (5)$$

olduğundan $\left\|\xi^{4n}\left(\xi^{4n}E-\alpha^{4n}A^{4n}\right)^{-1}\right\|$ normasını qiymətləndirək. A operatorunun spektral ayrılışından istifadə edib istənilən $\xi\in R$ üçün

$$\left\|\xi^{4n}\left(\xi^{4n}E-\alpha^{4n}A^{4n}\right)^{-1}\right\|=\sup_{\lambda\in\sigma(A)}\left|\xi^{4n}\left(\xi^{4n}-\alpha^{4n}\lambda^{4n}\right)^{-1}\right|=$$

$$=\sup_{\lambda\in\sigma(A)}\left|\xi^{4n}\left(\xi^{4n}-\alpha^{4n}|\lambda|^{4n}\left(\cos 4n\varphi+i\sin 4n\varphi\right)\right)^{-1}\right|\le\sup_{\substack{\mu>0\\|\varphi|\le\varepsilon}}\xi^{4n}\left|\xi^{4n}-\alpha^{4n}\mu^{4n}\left(\cos 4n\varphi-i\sin 4n\varphi\right)\right|^{-1}=$$

$$=\sup_{\substack{\mu>0\\|\varphi|\le\varepsilon}}\xi^{4n}\left(\left(\xi^{4n}-\alpha^{4n}\mu^{4n}\cos 4n\varphi\right)^2+\alpha^{8n}\mu^{8n}\sin^2 4n\varphi\right)^{-1/2}=$$

$$=\sup_{\substack{\mu>0\\|\varphi|\le\varepsilon}}\xi^{4n}\left(\xi^{8n}-2\xi^{4n}\alpha^{4n}\mu^{4n}\cos 4n\varphi+\alpha^{8n}\mu^{8n}\right)^{-1/2}\le\sup_{\substack{\mu>0\\|\varphi|\le\varepsilon}}\xi^{4n}\left(\xi^{8n}+\alpha^{8n}\mu^{8n}\right)^{-1/2}\left(\cos 4n\varepsilon\right)^{-1/2}\le$$

$$\le\frac{1}{\sqrt{\cos 4n\varepsilon}}$$

alarıq ki, bunu (5)-də nəzərə alsaq $\xi^{4n}\hat{u}_1(\xi)\in L_2(R;H)$ olduğu alınar.

Beləliklə, $A^{4n}\hat{u}_1(\xi),\xi^{4n}\hat{u}_1(\xi)\in L_2(R;H)$ olduğundan $u_1(t)\in W_2^{4n}(R;H)$ olur.

Anoloji qayda ilə $u_1(t)\in W_2^{4n}(R;H)$ olduğu isbat olunur.

$\psi_1(t)$ ilə $u_1(t)$ vektor-funksiyasının $R_-=(-\infty,0)$ intervalı üzərinə, $\psi_2(t)$ ilə isə $u_2(t)$ vektor-funksiyasının $R_+=(0,\infty)$ intervalı üzərinə sıxılmasını işarə edək. Aşkardır ki, $\psi_1(t)\in W_2^{4n}(R_-;H)$ və $\psi_2(t)\in W_2^{4n}(R_+;H)$. Həmçinin izlər haqda teoremə görə ([1]) $\psi_i^{(j)}(0)\in H_{4n-j-1/2}=D\left(A^{4n-j-1/2}\right)(i=1,2;\ j=\overline{0,4n-1})$.

$$u(t)=\begin{cases}\theta_1(t)=\psi_1(t)+\sum_{k=0}^{n}e^{\alpha\lambda_k tA}\varphi_{k+1}+\sum_{k=3n}^{4n-1}e^{\alpha\lambda_k tA}\varphi_{k+1},t\in R_-\\ \theta_2(t)=\psi_2(t)+\sum_{k=n+1}^{3n-1}e^{\beta\lambda_k tA}\varphi_{k+1},t\in R_+\end{cases} \quad (6)$$

vektor-funksiyasına baxaq, harada ki, $\lambda_k = \cos\frac{2k\pi}{4n} + \sin\frac{2k\pi}{n}(k = \overline{0,4n-1})$ ədədləri $\lambda^{4n} - 1 = 0$ tənliyinin köklərıdir və $\varphi_{k+1} \in H_{4n-1/2} = D\left(A^{4n-1/2}\right)(k = \overline{0,4n-1})$ hələlik nəməlum vektorlardırlar. Bu zaman $k = \overline{0,n}$, $k = \overline{3n,4n-1}$ olduqda $e^{\alpha\lambda_k tA}\varphi_{k+1} \in W_2^{4n}(R_-;H)$ və $k = \overline{n+1,3n-1}$ olduqda $e^{\beta\lambda_k tA}\varphi_{k+1} \in W_2^{4n}(R_+;H)$ olur.

Beləliklə, $\varphi_{k+1} \in H_{4n-1/2} = D\left(A^{4n-1/2}\right)(k = \overline{0,4n-1})$ vektorlarını tapmaq üçün $u(t) \in W_2^{4n}(R;H)$ olmasından istifadə edəcəyik ki, bu zaman $\theta_1^{(j)}(0) = \theta_2^{(j)}(0)(j = \overline{0,4n-1})$ bərabərliklərinin ödənməsini tələb etmək kifatətdir. Onda $\varphi_{k+1}(k = \overline{0,4n-1})$ məchul vektorlarına nəzərən

tənliklər sistemini almış olarıq. Bu tənliklər sistemini aşağıdakı kimi yazaq:

$$\begin{cases} \sum_{k=0}^{n}\varphi_{k+1} - \sum_{k=n+1}^{3n-1}\varphi_{k+1} + \sum_{k=3n}^{4n-1}\varphi_{k+1} = \psi_2(0) - \psi_1(0) \\ \sum_{k=0}^{n}\alpha\lambda_k\varphi_{k+1} - \sum_{k=n+1}^{3n-1}\beta\lambda_k\varphi_{k+1} + \sum_{k=3n}^{4n-1}\alpha\lambda_k\varphi_{k+1} = A^{-1}\left(\psi_2'(0) - \psi_1'(0)\right) \\ \ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots \\ \ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots\ldots \\ \sum_{k=0}^{n}\alpha^{4n-1}\lambda_k^{4n-1}\varphi_{k+1} - \sum_{k=n+1}^{3n-1}\beta^{4n-1}\lambda_k^{4n-1}\varphi_{k+1} + \sum_{k=3n}^{4n-1}\alpha^{4n-1}\lambda_k^{4n-1}\varphi_{k+1} = A^{1-4n}\left(\psi_2^{(4n-1)}(0) - \psi_1^{(4n-1)}(0)\right) \end{cases} \quad (7)$$

$\varphi_{k+1}(k = \overline{0,4n-1})$ vektorlarına nəzərən alınmış (7) tənliklər sisteminin operator-matrisini Δ ilə işarə etsək
alarıq.

Δ operator matrisinin bu ayrılışında birinci vuruğu Δ_0 ilə işarə edək. $\det\Delta_0$ Vondermond determinantıdır. $i \neq j$ olduqda $\lambda_i \neq \lambda_j(i, j = \overline{0,4n-1})$ olduğunu nəzərə alıb Vandermond determinantının ayrılışı düsturundan $\det\Delta_0 \neq 0$ alarıq. Deməli Δ_0 matrisinin Δ_0^{-1} tərsi var. Onda aşkardır ki, Δ operator-matrisinində Δ^{-1} tərsi var və o

$$\Delta^{-1} = \begin{Vmatrix} E & O & O & \ldots & O \\ O & E & O & \ldots & O \\ O & O & E & \ldots & O \\ \ldots & \ldots & \ldots & \ldots & \ldots \\ O & O & O & \ldots & E \end{Vmatrix} \cdot \Delta_0^{-1}$$

şəklindədir.

$\widetilde{\varphi} = (\varphi_1, \varphi_2, ..., \varphi_{4n}), \widetilde{\psi} = (\psi_2(0) - \psi_1(0), A^{-1}(\psi_2'(0) - \psi_1'(0)), ..., A^{1-4n}(\psi_2^{(4n-1)}(0) - \psi_1^{(4n-1)}(0))$ işarə etsək (7) tənliklər sistemini operator-matris tənlik şəklində

$$\Delta \cdot \widetilde{\varphi} = \widetilde{\psi}$$

kimi yazarıq ki, burdan da (7)-nin həlli olan $\widetilde{\varphi} = (\varphi_1, \varphi_2, ..., \varphi_{4n}) \in H^{4n}_{4n-1/2}$ vektorunu birqiymətli olaraq $\widetilde{\varphi} = \Delta^{-1} \cdot \widetilde{\psi}$ kimi taparıq.

Aparılan isbat prosesindən aşkardır ki,

$$P_0 u \equiv \frac{d^{4n} u}{dt^{4n}} - \rho(t) A^{4n} u = 0$$

bircins operator-diferensial tənliyinin $W_2^{4n}(R;H)$ fəzasından olan yalnız sıfr həlli var və buna görədə $P_0 \bullet \equiv \frac{d^{4n} \bullet}{dt^{4n}} - \rho(t) A^{4n} \bullet$ operatorunun nüvəsi $W_2^{4n}(R;H)$ fəzasının sıfr alt fəzası, obrazı isə $L_2(R;H)$ fəzası olur. Digər tərəfdən, istənilən $u(t) \in W_2^{4n}(R;H)$ üçün

olduğundan $P_0 : W_2^{4n}(R;H) \to L_2(R;H)$ operatoru məhduddur və $W_2^{4n}(R;H)$ fəzasını $L_2(R;H)$ fəzası üzərinə izomorf inikas etdirir. Onda tərs operator haqda Banax teoreminə görə $P_0^{-1} : L_2(R;H) \to W_2^{4n}(R;H)$ tərs operatoru var və o $L_2(R;H)$ üzərində məhduddur, yəni

$$\left\| P_0^{-1} f \right\|_{W_2^{4n}(R;H)} \le const \left\| f \right\|_{L_2(R;H)}$$

olur, başqa sözlə

$$\left\| u \right\|_{W_2^{4n}(R;H)} \le const \left\| f \right\|_{L_2(R;H)}$$

bərabərsizliyi ödənir. Bu isə, tərifə görə, o deməkdir ki, (1) operator-diferensial tənliyi $W_2^{4n}(R;H)$ fəzasında requlyar həll olunandır.

Teorem isbat edildi.

ƏDƏBİYYAT

1. Ж.-Л.Лионс, Э.Мадженес. Неоднородные граничные задачи и их приложения. Изд. «Мир», Москва, 1971, 361 с.

2. Мирзоев С.С. Об условиях корректной разрешимости краевых задач для операторно-дифференциальных уравнений.

3. Алиев А.Р. О разрешимости краевой задачи для операторно-дифференциальных уравнений третьего порядка с разрывным коэффициентом. // Труду ИММ АН Азерб., т.7(15), 1997, с. 18-25.

4. Abulfaz M. Mamedov. On a boundary value problem for third order operator-differential equations./ Riyaziyyat və Mexanika Institutunun ƏSƏRLƏRİ, XXV cild, BAKU-2006, “Elm”

РЕЗЮМЕ

АБУЛЬФАЗ МАМЕДОВ

О РЕГУЛЯРНОЙ РАЗРЕШИМОСТИ ОДНОГО ПРОСТОГО ОПЕРАТОРНО-ДИФФЕРЕНЦИАЛЬНОГО УРАВНЕНИЯ 4N-ГО ПОРЯДКА НА ВСЕЙ ОСИ, С РАЗРЫВНЫМ КОЭФФИЦИЕНТОМ

В работе дано определение регулярного решения, регулярной разрешимости для одного простого операторно-дифференциального уравнения $4n$ -го порядка с разрывным коэффициентом в полуоси $R_+ = (0,\infty)$ и доказана теорема о регулярной разрешимости той задачи.

Ключевые слова: нормальный оператор, гильбертово пространство, операторно- дифференциальное уравнение, регулярное решение, регулярная разрешимость, разрывной коэффициент

SUMMARY

ABULFAZ M.MAMMADOV

ON REQULAR SOLVABILITY OF UNITAL-BOUNDARY PROBLEM FOR ONE ORDINARY OPERATOR-DIFFERENTIAL EQUATION OF THIRD ORDER WITH DISCONTINUOUNS COEFICIENT

In this work the definition of requlal solution, requlal solvability for one ordinary operator-differential equation of $4n$ order with discontinuouns coefficient in $R_+ = (0,\infty)$ has feen given and the requl

Key words: normal operator, Hilbert space, operator-differential equation, requlal solution, requlal solvability, discontinuous coefficient ar solvability of that problem has been proved.

(Riyaziyyat üzrə elmlər doktoru, professor S.Əliyev tərəfindən təqdim edilmişdir)

“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2017, № 2
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2017, № 2
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2017, № 2

YENİ NƏŞRLƏR

AKİF İMANLI,
Filologiya üzrə elmlər doktoru, professor
VAHİD RZAYEV,
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

YENI PEDAQOGİKA DƏRSLİYİ

Bu günün belə bir həqiqətini əvvəlcədən qeyd edək ki, ali məktəbdə digər elm sahələri də daxil olmaqla pedaqogika və onun müəyyən sahələri haqqında dərslk və dərs vəsaitlərinin işlənib hazırlanması həmin tədris fənn üzrə ehtiyacın ödənilməsinə yönəlmiş çox etibarlı mənbə kimi nüfuzunu hələ də qoruyub saxlayır. Çünki dərslik bu elm sahəsinin meydana gəldiyi dövrdən bu günə qədərki vəziyyətini, onun inkişaf dinamikasının indiki şərait üçün verdiyi bəhrəni, qazandığı nailiyyətləri, müasr problemləri, tələbələrə verilməsi zəruri olan biliklər məcmuyunu və məzmununu əhatə edir. Tələbə üçün dərslik pedaqogikanın predmet sahəsi üzrə biliyin əsas mənbəyidir. Bu cəhəti də diqqətdə saxlamalıyıq ki, indiki güclü informasiya axınında tədris vəsaitləri tələbələrin hansı təlim və tərbiyə təcrübələrinə istinad etməsini, hansı fayda gətirəcək bilik və bacarıqlara sahiblənməyini də öz funksiyasına daxil edir.

Hazırda ölkədə dərslik hazırlanması istiqamətində yaxşı təcrübə və çox yüksək səviyyədə yazılmış dərsliklər var. Böyük tədqiqatçılar nəslinin - B.B. Komarovskinin, akademik Mehdi Mehdizadənin, professorlardan Mərdan Muradxanovun, Nurəddin Kazımovun, Əliheydər Həşimovun, Bəşir Əhmədovun dərslik yaradıcılığları bu gün də əhəmiyyətini itirməyən təcrübələrdir. Bu təcrübələr dövrünə görə tələbələrin təhsillənmə tələbi və ehtiyaclarının ödənilməsi, onların biliyinin həcmi və məzmununun genişləndirilməsi işində mühüm təsir vasitəsi olmuşdur. Müasir şəraitdə də bu unikal təcrübələrin layiqli davamı kimi dərslik və tədris vəsaitləri yaranır ki, belə yaxşı nümunələr sırasında Naxçıvan Universitetinin rektoru, pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyevin bu yaxınlarda nəşr olunmuş “ Pedaqogika” adlı dərs vəsaitini göstərmək lazımdır (İsmayıl Əliyev. Pedaqogika (Mühazirələr kursu). Naxçıvan, Əcəmi nəşriyyatı, 2017). Qeyd edək ki, dərslik və dərs vəsaitləri hazırlamaq sahəsində professor İsmayıl Əliyev müəyyən təcrübəyə malik alimlərimizdən biri kimi tanınır. Onun “ Azərbaycan etnopedaqogikası”, “ İbtidai təhsilin pedaqogikası və metodikası” və digər tədris vəsaitləri tələbələrin həmişə müraciət etdiyi, bəhrələndiyi mənbələrdəndir.

Oxuculara - ali məktəbin pedaqoji mühitinə təqdim etmək istədiyimiz "Pedaqogika" dərsliyi müəllifin tədris vəsaiti hazırlamaq sahəsində yeni yaradıcılıq uğurudur. Müəllifin mühazirələr kursu kimi hazırladığı dərs vəsaiti klassik pedaqogikanın və müasr pedaqoji təcrübənin nailiyyətləri əsasında hazırlamışdır. Fikrimizcə, dərslik yaradılması işində bu prinsipin əldə rəhbər tutulması daha döğru yoldur. Bəzi dərslik və tədris vəsaitlərində olduğu kimi tələbə dərslik vasitəsi ilə öyrəndiyi elm sahəsini birtərəfli qaydada öyrənməyə məcbur edilə bilməz. Dərslik ümumən pedaqogikanın predmet sahəsi üzrə biliyin əsas mənbəyi olmalıdır. Belə bir mövqedən çıxış edən professor İsmayıl Əliyev tələbələrin gələcəkdə pedaqoji prosesə hazırlığı üçün lazım olan biliklər, bacarıqlar və təcrübələr sistemini müəyyənləşdirir.

Əsər pedaqoji elminin dərslik vasitəsi ilə yeni, orijinal və fərqli şərhdir. Pedaqogika anlayışının mahiyyətindən tutmuş pedaqoji peşə və onun xüsusiyyətləri adlı bəhsin, yəni birinci mühazirədən sonuncu mühazirəyədək şərh olunan məsələlərin izahındakı fikrin, məntiqin tamlığı və ardıcıllığı, düşüncənin özünəməxsusluğu vəsaitə bir bənzərsizlik verir. Əsərdə pedaqogika nəyi öyrənir və necə öyrənir fikrinə münasibətdə özündən əvvəlki vəsaitlərdən fəqli və bitkin fikirlər tələbələrin bu elm sahəsi haqqında bilik və təsəvvürlərinin aydınlaşmasına və konkretləşməsinə, maraq və tələbatlarının ödənilməsinə əsaslı təminat verir. Burada müəllif mövqeyini ifadə edə bilən fikir belədir ki, " Öyrənmək bütün elmlərin ümumi cəhətidir və daha çox həyat üçün zəruri olan biliklərin tətbiqi məqsədinə xidmət edir. Pedaqogikada isə "öyrətmək" anlayışı öyrənməni də müəyyən edir və həm də öyrənmədən daha aktiv olub , onu fəallaşdırmaq, səmərəliləşdirmək məqsədi daşıyır".

Dərslik müəyyən elm sahəsi üzrə daha çox tərtibat xarakterli bir işdir. Ancaq tərtibatın gözəlliyi, oxunaqlığı, fikrin məntiqi asıllığı və ardıcıllığı, zənginliyi və dərinliyi, bir sözlə tədqiqatçı üçün zəruri olan idraki əməliyyatlar burada da öz əhəmiyyətini qoruyub saxlayır. Professorun pedaqoji anlayışlar və onların mahiyyəti, bu sahədə yer almış, möhkəmlənmiş fikir və mülahizələrə, mübahisəli görünən məsələlərə yüksək elmi əsasa, inandırıcı səciyyəyə malik münasibəti əsərin məhz belə bir tələblər əsasında yazıldığını təsdiq edir. Bu cəhət bütün əsər boyu görünən prinsiplərdir. İstər pedaqogikanın ümumi əsasları, istərsə də təhsilin məzmunu və prinsipləri, təlim və tərbiyə nəzəriyyəsi, məktəbin idarə edilməsi məsələləri, yəni dərsliyin tam olaraq hazırlanma prosesi məhz belə bir elmi tələblər səviyyəsində işlənmişdir.

Vəsaitdə ayrı-ayrı mühazirələr şəklində düşünülmüş mövzular pedaqogika elminin müəyyən problemlərini əks etdirir. Hər mühazirə mətninin aydın, konkret məzmunu müəyyənləşdirilmişdir ki, bu mövzular professorun uzun illər ərzində Muxtar Respublikanın universitetlərində oxuduğu mühazirələrin əsasını təşkil edir. Vəsaitdəki mühazirə mövzuları pedaqogikanın daxili mahiyyətinə görə tam, bitkin bir hissəsidir. Belə bir məzmun - quruluş xüsusiyyətlərinə, pedaqoji - metodik keyfiyyətlərə malik olan mühazirə mətnlərinin tələbələrin maraq və tələbatlarına uyğun olduğunu xüsusi qeyd etmək lazımdır. Mühazirə mətnləri ayrıca mövzular, problem

məsələlər üzərində qurulmuşdur. Belə bir mövqe müəllifin bu mövzuların məfhum-anlayış aparaturasını (materialını) anlaşıqlı şəkildə tələbələrə çatdırmaq istəiyini ifadə etdır. Əlbbəttə, təcrübi işdə tələbələrin istilah və anlayışların məna və mahiyyətini konkret, aydın və dəqiq şəkildə göstərən vəsaitlərə münasibəti məlumdur və bu cəhət də vəsaitdə əks olunan elmi-pedaqoji problemlərə fərqli və faydalı yanaşma kimi əhəmiyyəli sayılmalıdır.

Dərs vəsaitində indiki halda tələbələrin pedaqoji bilikləri asan mənimsəyə bilməsi, onların test imtahanlarına hazırlığının səmərəliliyinin yüksəldilməsi məsələlərinə də diqqət yetirilmişdir. Çoxlu sayda sxemlər, qrafiklər müəllifin göstərdiyi kimi, müəllimlərin mühazirə zamanı fərdi yaradıcılıqlarına imkan yaratmaqla yanaşı, konkret əyani vəsaitələr kimi bu sxemlər tələbələrin pedaqoji biliklər sahəsində daha məlumatlı olmalarına, bu sahədə təsəvvürlərinin dəqiqliyi və konkretliyinə əsaslı təsir amili kimi qiymətlidir.

Vəsaitdə ümumelmi məziyyətlər, yenilik və orijinallıq xüsusiyyətləri çoxdur və onlar pedaqogikanın ayrı - ayrı bölmələrinə aid mühazirə mətnlərində zəngin və maraqlı çalarlarla əks olunur. Bu bölmələrdə ümum pedaqoji biliklər, hazırkı dövrə qədərki təlim – tərbiyə təcrübələri ifadə tərzinin özünəməxsusluğu ilə daha qabarıq görünür. İlk baxışdan belə, hiss olunur ki, vəsaitdə təhsil, təlim və tərbiyə məsələlərinin məzmununa, öyrənmə və tərbiyə olunma prosesinə özündən əvvəlki vəsaitlərdə olduğundan daha fərqli nəzərlərlə baxılır və təhlillər aparılır. Didaktika bölməsində təlim və təhsil prosesinin mahiyyəti və məzmunu, təlimin prinsip və üsulları, eləcə də təşkili formaları, təlimdə motivləşdirmə və s. məsələlər ayrıca mühazirə mətnləri kimi araşdırılır.

Vəsaitdə tərbiyə nəzəriyyəsi xüsusi maraq doğuran bölmədir və müəllif bu bölmədə özünün tərbiyə nəzəriyyəsinə aid gəldiyi nəticələri aşağıdakı kimi ifadə edərək yazır: ” Cəmiyyətin sürətli inkişafı ilə bağlı olaraq tərbiyə sahəsində problemlər daha tez-tez dəyişir və onların həlli istiqamətindəki elmi ümumiləşdirmələr də çətinləşir. Fikrimizcə, tərbiyənin ümumi qanunlarının, prinsip və metodlarının milli əsaslara söykənməsi problemlərin həllində əsas çıxış yollarından biri ola bilər”. Müəllifin sonucda gəldiyi bu qənaət üzərində düşünməyə dəyər. Çünki xalqın gələcəyi, onun taleyi gəncliyin necə və hansı əsaslarla tərbiyəsindən asılıdır.

Bütün bunlar göstərir ki, bəhs etdiyimiz dərs vəsaiti pedaqogika üzrə tarixən formalaşmış ənənələr konteksində tərbiyə nəzəriyyəsinin və ümumi pedaqogikanın ifadəsi kimi ümumiləşdirilmiş, sistemləşdirilmiş təcrübələrdən biridir. İnanırıq ki, ali məktəbdə tədris olunan pedaqogika kursu üzrə hazırlanmış vəsait elmi-pedaqoji mühitimizdə maraqla qarşılanacaq, tələbələrimiz isə dərslik hazırlanması sahəsində son nailiyyətlərdən biri kimi bu vəsaitdən lazımi səviyyədə faydalana biləcəklər.


İSMAYIL ƏLİYEV
PEDAQOGİKA

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

Elmi toplumuz filologiya, tarix, beynəlxalq münasibətlər, coğrafiya, iqtisadiyyat, riyaziyyat, pedaqogika və psixologiya elmləri üzrə aparılan və indiyədək çap olunmamış yüksək elmi səviyyəli araşdırmaların nəticəsi olan məqalələr qəbul edilir.

Çapa təqdim olunan məqalələrə qoyulan tələblər:

1. Redaksiyaya təqdim olunan məqalələrin həcmi 10 səhifədən artıq olmamalıdır.

2. Məqalənin həmmüəlliflərinin sayının üçdən artıq olması arzuolunmazdır.

3. Məqalənin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə bilavasitə müəllif cavabdehdir.

4. Təqdim olunan məqalənin sağ küncündə “12”pt ölçüdə qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, 1 interval ara verməklə aşağıda işlədiyi təşkilatın adı “12”pt ölçüdə adi və kiçik hərflərlə yazılır. Yenə 1 interval ara verməklə müəllifin (müəlliflərin) elektron poçt adresi göstərilir. Bunlardan sonra 1 sətir boş buraxılaraq ortadan “12”pt ölçüdə qalın və böyük hərflərlə məqalənin adı yazılır.

Daha sonra bir sətir boş buraxılaraq məqalənin əvvəlcə Azərbaycan dilində, sonda 2 dildə (ingilis və rus dillərində) xülasələri verilir. İngilis və rus dilllərindəki xülasələrdən əvvəl sağ tərəfdə “12”pt ölçüdə məqalə müəllifinin (müəlliflərin) adı və soyadı, məqalənin adı isə qalın böyük hərflərlə yazılır, sonra “12”pt ölçüdə adi hərflərlə xülasələrin mətni verilir. Hər xülasənin sonunda 10 sözü keçməməklə açar sözlər yazılır. “Açar sözlər” söz birləşməsi qalın hərflərlə yazılır.

Xülasələr və ədəbiyyat siyahısı 1, məqalənin mətni isə 1,5 interval ara ilə yazılmalıdır.

Mövzu ilə bağlı mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat siyahısı yazıldığı dildə “12”pt ölçülü, 1 interval ara ilə *“kursivlə”*, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. “Ədəbiyyat” sözü səhifənin ortasında “12”pt ölçülü qalın və böyük hərflərlə yazılır.

Redaksiyaya təqdim olunmuş məqalələr (CD və çap variantı) geri qaytarılmır.

Məqalələr müəlliflərin çalışdığı şöbə, kafedraların rəhbərinin razılıq məktubu ilə yaxud AMEA-nın həqiqi, müxbir üzvlərinin rəyi ilə birgə təqdim olunmalıdır.

Məqalələr, xülasə və açar sözlər WinWord proqramında, yalnız Times New Roman şirftində yazılaraq kompakt diskdə (CD) və A4 vərəqində təqdim olunmalıdır.

Nəşriyyat direktoru: **Səadət ƏKBƏROVA**

Tərtibçi: **Sunay ABBASOVA**
Texniki redaktor: **Ceyran MİKAYILOVA**
Kompüterçi: **Səadət MƏMMƏDOVA**

e-mail: n.yaqubov@nu.edu.az